AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

Layihənin rəhbəri: Elbay Qasımzadə

Ş.S.Fətullayev-Fiqarov. **Qacarlar dövründə İranda şəhərsalma və memarlığın inkişafı.**
Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, 356 səh.

**ISBN** 978-9952-32-020-6
978-9952-32-067-1

© Azərbaycan Respublikasının Memarlar İttifaqı, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

Ş.S.FƏTULLAYEV-FİQAROV

# QACARLAR DÖVRÜNDƏ İRANDA ŞƏHƏRSALMA VƏ MEMARLIĞIN İNKİŞAFI

Bakı – 2013

# MÜƏLLİFİN ÖN SÖZÜ

İran qədim mədəniyyəti olan ölkədir. Assuriya və Urartunu darmadağın edərək, Əhəmənilər dövlətini yaradan və öz hökmranlığını Misirə qədər genişləndirən Midiya dövləti bu ərazidə çiçəklənib.

Əhəmənilərin hökmranlığına e. ə. IV əsrdə Makedoniyalı İsgəndərin qələbəsi ilə son qoyulub. Bundan sonra Selevkilər, dörd əsr ərzində Parfiyalılar, e. ə. 224-cü ildən isə onları əvəz edən Sasanilər İranda hökmranlıq etmişdir. 651-ci ildə Sasanilər dövləti ərəb işğalçıları tərəfindən süqut edilmiş və böyük İslam dövrü başlanmışdır (38, s.65).

Midiyadan Xilafətə qədər bütün qüdrətli ölkələr bir-birini əvəz edərək, İranın mədəniyyətini, şəhərsalma ənənələrini və memarlığını zənginləşdirməklə, onun ümumi inkişafına təkan vermişdilər. İranda hökmranlıq edən hər bir hökmdar onun dövlətçiliyinin möhkəmlənməsinə, iqtisadiyyatının, mədəniyyətinin, sənətkarlığının inkişafına öz töhfəsini vermişdir (74, s.237).

Midiya dövləti bu dövrə qədər mövcud olan, əvvəl Ekbatan, indi isə Həmədan adlanan şəhəri özündən sonra miras qoymuşdur. Burada mixi (xətli) mətnləri və Elinist dövrünə aid şir heykəlləri tapılmışdır. Midiya dövrünün bir çox abidələri sona qədər öyrənilməmişdir və bu sahədə tədqiqatların gələcəkdə də aparılması nəzərdə tutulmuşdur (133).

"Əhəmənilər dövrü İranın və bütün Yaxın və Orta Şərqin tarixində vacib yer tutur. Aralıq dənizinin şərqindən Hindistan sərhədinə qədər böyük bir ərazidə sülh təmin edilmiş və beynəlxalq ticarət, müxtəlif xalqların qarşılıqlı əlaqəsi üçün əlverişli şərait yaradılmışdır. Bu da qədim dünya və ümumiyyətlə Avropa mədəniyyətinin inkişafında böyük rol oynamışdır" (6, s.12).

Əhəməni hökmdarları II Kir və I Daranın fəaliyyətlərinin əsas göstəriciləri şəhərsalma abidələri, memarlıq və təsviri incəsənət nümunələri ilə ifadə olunur. Əhəmənilər dövlətinin banisi olan Kirin hökmdarlığı dövründə Pasaqard ərazisində "Süleyman Taxtı" adlanan yerdə 13 metr hündürlüyündə olan daş platformanın üzərində, təntənəli mərasimlər üçün nəzərdə tutulmuş kompleks başlanır. Bu ərazidə içqala ucaldılmışdır və ondan cənubda "Yaşıllıqlarla əhatə olunmuş saray kompleksi" yerləşir. Bu məbədin binasını Assuriya qapıçıları - Şedulara bənzəyən nəhəng insanbaşlı qanadlı öküzlər bəzəyirdi (8, s. 60).

Pasaqardda yerləşən saray kompleksində ikisıralı düzülüşə malik coxsütünlu eyvanlalı zallar meydana gəlmişdir. Sütuna dayaqlanan geniş zalların təməli ilk dəfə Pasaqardda qoyulmuşdur, və buda öz görünüşü ilə ətraf mühitin formalaşmasında çox böyük rol olynamışdır. Əhəmənilərin qədim Şərq dövlətlərini işğal edib, onların mədəniyyətini özəlləşdirməsi halı qanunauyğun hal sayılırdı. Pasaqardda saray tikililərinin yeni planlaşdırma üsullarını, həcmi-məkan həllərini özünə hopduran



*Qəzvin şəhərində Cümə məscidi.*

təzə Əhəmənilər mədəniyyətinin inkişafı prosesi tam sürətlə gedirdi. Tikintidə daş konstruksiyalarla yanaşı, bəzək məqsədilə ağ və qara daşlardan da istifadə olunurdu.

Saraylar yerləşən sahədən bir qədər kənarda memarlıq kompozisiyasına, həcm həllinə, heykəltəraşlığına görə nadir abidə sayılan böyük hökmdar Kirin məqbərəsi yerləşir. Bura bu günə kimi müqəddəs yer sayılır və dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Pasaqardda Əhəmənilər memarlıq sənətinin iri addımlarla inkişafı başlanmışdır. Bu öz əksini, Suzda Dara tərəfindən düz daş meydanda, fundament üzərində, daş və kərpic istifadə olunmaqla tikilmiş sarayda tapır.

Dara öz yazılarında sarayın tikintisində istifadə olunmuş materiallar haqqında bunları yazmışdır: "Sütunun gövdəsi üçün Livandan sidr ağacı, qabarıqlar və başqa bəzəklər üçün qızıl aplikasiyalar Sərd və Baktriyadan, lazurit, əqiq daşı, firuzə Soqda və Xarəzmdən, gümüş və bürünc Misirdən, fil sümüyü isə Efiopiyadan və Hindistandan gətirilmişdir. Sarayın tikilməsində müxtəlif ölkələrdən olan sənətkarların əməyi keçmişdir. İoniyalılar və midiyalılar daş yonur, midiyalılar və misirlilər zərgərlik işləri və divarlara naxış vurmaqla məşğul olur, şirli kərpicləri isə babillər hazırlayırdılar"(68, s. 64). Daranın yazılarındakı bu sitat Suzda gedən tikintiyə nəhəng Əhəmənilər dövlətinin hər bir yanından gətirilmiş qiymətli xammal və böyük həcmli tikinti fəaliyyəti haqqında təsəvvür yaradır.

Dara bu saray ilə yanaşı öz şahlığını Kirmanşah yaxınlığındakı Behiştin adlanan yerdə, qayanın üzərində əbədiləşdirmək qərarına gəlir. Bundan sonra Nəqşi-Rüstəmdə, keçmiş karvan yolunda Əhəməni şahlarının qayalıq sərdabələri meydana gəlmişdir. Buradan keçən yolçular ustalıqla işlənmiş, bir-birindən eyni məsafədə yerləşən və öz nəhəngliyi ilə seçilən xaçları görürdülər. Kompozisiya təşkil edən bu sərdabələr, axirət dünyasının özünəməxsus bir portalı kimi təqdim edilir. Hər bir sərdabənin üstü üfüqi zolaqlarla üç enli hissəyə bölünmüşdür. Kameraya giriş portalın mərkəzi hissəsində yerləşir. Dirsəklərinin altı at başları ilə bəzədilmiş, persepol sütun başlıqlı dörd yarımsütunlu yastı eyvandan ibarətdir. Qismən dərində yerləşən eyvana düşən kölgə onun qeyri-standart formasını bir qədər qabardaraq canlandırır. Düzbucaq formasında olan giriş qapısı profillənmişdir, ölçü və naxışları əhəməni üslubunda düzəldilmişdir. Frizdə coxsaylı profillər mövcuddur. Burada yunan klassik məbəd memarlığının təsiri açıq şəkildə özünü büruzə verir, bu da tikintidə çoxsaylı yunan sənətkarlarının iştirakından irəli gəlir (26, s.59).

Çarpaz şəkilli portalın üzərində üfüqilik üstünlük təşkil edir. Kserksin sərdabəsinin üst hissəsi (e. ə. V əsr) iki sıraya düzülmüş döyüşçülərin qabarıq şəkli ilə təsvir olunmuşdur. Sadə olmayan bu incəsənət əsəri, kompozisiyanın mürəkkəb həlləri ilə nəinki Şahin şahın əzəmət və qüdrətini, həmçinin Əhəmənilər dövlətinin nüfuzunu ifadə edir.

Portalın yaruslarının üzərində sadə ornamentlər, yuxarı profilində isə ioniya zəncirləri vardır. İ.İ.Brunovun fərziyyəsinə əsasən "İoniya orderinin ümumi səciyyəsi onu göstərir ki, o, fars memarlığının təsirindən əmələ gəlmiş və inkişaf etmişdir". İoniya orderində "Şərq dəbdəbəsi və qədim zəriflik" nişanəsi vardır (20, s. 290).

Mərkəzdə, yarusların üstündə Əhəmənilərin baş Himayədar Allahı Axura-Mazdanın simvolik təsviri əks olunmuşdur, bir neçə pilləkən solda platformanın üstündə çarın fiquru, sağda isə atəşgah yerləşir. Sərdabələrin memarlıq və bədii kompozisiyasının məzmunu və ideyasına görə nadirdir. Dünya memarlığı qala üstü sər-

dabələrin simasında yeni tematika əldə edir və bu tematika şərqin memorial tikililərinin tipoloji təsnifatını genişləndirmişdir.

Kirin ölümündən sonra Pasaqardın tikintisi dayandırılır və Dara Pasaqarddan 43 km cənub-qərbə doğru yerləşən ərazidə, sonradan Persepol adlanan saray kompleksinin tikintisinə göstəriş verir. Saray-məbəd kompleksinin tikintisi 50 il davam etmişdir (6, s.27). Ümumi ölçüləri 500x300 m olan 12 metrlik süni platformanın üzərində tədricən bir-birinin ardınca əsas darvaza, saray tikililəri və məbədlər meydana gəlirdi. 2,5 metrlik platformanın üzərində, tərəfləri 60 m olan kvadratşəkilli Qəbul üçün nəzərdə tutulmuş saray (apadana) öz möhtəşəmliyi ilə valeh edirdi.

Saray və məbədlərlə zəngin olan Persepol ərazisi dəqiq planlaşdırma sistemiylə, simmetriyaya əməl edilməklə tikilib. Burada planlaşdırmanı pozan təsadüfi tikili mövcud deyildir. Hər bir şey ümumi bir ideyaya tabedir və inkişaf mərhələli şəkildə ilk dəfə Kserksin apadanı tərəfindən (e. ə 435-465-il) təntənəli taxt zalları ilə təqdim olunmuşdur. Saray tikililərinin həm eninə, həm də uzununa olan miqyası insanı heyrətləndirir. Tikililərin ümumi bir sistemdə birləşməsi onun əhəməni üslubunda olan məkan quruluşunu tam olaraq açır və kompleksin memarlıq simasını bütünlüklə formalaşdırır. Yüksək platforma üzərində, 19,5 metrlik eyvan sütunlarına dayaqlanan əzəmətli saray kompleksi ucalır (126, s. 243-255).

Təcrid olunmuş memarlıq obyekti olmayan, yunan məbədi çoxfasadlıdır və tamamilə demokratik görünüşə malikdir. Bundan fərqli olaraq Persepol öz səciyyəvi həllinə görə qapalıdır. Kompleksin binaları kompozisiya əlaqəsi və həcm ifadəsi olmadan müstəqil şəkildə fəaliyyət göstərir.

Kompleksin əsas obyektləri 36 cüt sütunlu kvadrat zallı apadana və üç tərəfdən eyvanlarla əhatə olunmuş 100 sütunlu taxt-tac zalıdır. Bu cür möhtəşəm sütunlu memarlıq-planlaşdırma kompozisiyası kompleksin tam həcmini təyin edir.

Apadananın və taxt-tac zalının yerləşməsinə baxmayaraq, onlar əhəməni üslubunun memarlıq adət-ənənəsini təcəssüm edib, Pasarqad və Suzun saray tikililəri üslubunu özündə cəmləşdirir. Apadana və taxt-tac zalı kompleksinin həcmli plastikası, özünəməxsus forma və heykəltəraşlıq traktovkası sarayın memarlığının ümumi istiqamətini təyin edir. Bu tikililər çoxfasadlı olmasa da, ətrafdakı tikililər arasında üstünlük təşkil edirlər. Bu geniş daş platformanın üstündə yerləşən möhtəşəm memarlıq kompleksi I Dara, Kserks və başqa əhəməni hökmdarları tərəfindən yaradılmış nadir memarlıq və şəhərsalma abidəsidir.

Romanın keçmiş rəqibləri, I Ərdəşirdən (224-241-ci il) başlayaraq III Yezdəgirdə (632-651-ci il) qədər 5 əsr ərzində hökmranlıq etmiş Sasanilər, Əhəmənilərin memarlıqda göstərdiyi möhtəşəmliyə çata bilməmişdilər. Buna baxmayaraq onlar özlərini ənənəvi olaraq, bu böyük imperiyanın varisi sayırdılar.

Sasanilər də İranın keçmiş sülalələri kimi saray tikililərinin tikintisini əsas meyar kimi qəbul edirdilər. Sasanilər dövrünün sarayları Firuzabadda, Ktesifonda və Şahənşah Xosrov Pərvizin (591-628-ci il) "Böyük kaha"sında təqdim olunmuşdur.

Sasanilərin memarlıq tikililərində Əhəməni dövrü üslubundan fərqlənən tendensiyası meydana gəlir. Burada qübbə və günbəz kimi konstruksiya və memarlıq elementlərinə daha çox üstünlük verilir. Bu üslub sonradan saray tikililərinin məkan quruluşuna fəal daxil olur. Sasanilərin qübbə-günbəz tikililərində rum üslubunda olan

iri aşırımlı qübbə konstruksiyasının təsiri vardır. Bu əsasən, Ktesifonun sarayındakı 27 metrlik aşırımda özünü göstərir.

Sasanilər dövründə Roma ilə mübarizə aparan zaman, İran Konstantinopolla ünsiyyətə girir və Vizantiya onlardan qübbəli konstruksiyaları mənimsəyir. Bunun nəticəsi olaraq, Vizantiya memarlığının inkişafı baş verir. Daha erkən dövrdə (e. ə. II-V əsr.) İranın qübbələri aparıcı elementlərə ayrılma və doldurulma sistemi Dəməşq bölgəsinə daxil olub, Suriya memarlıq sisteminə başlanğıc verir. İran incəsənəti Qərbə doğru daha uzaq vilayətlərə təsir etməyə başlayır. İran ornament işləmələrinin elementləri Skandinaviya ölkələrinə daxil olur və burdan Atlantik okean sahillərinə qədər yayılır. Hindistanda İran üslubunun təsiri e. ə. III əsrdən başlayaraq sezilməyə başlayır. Fars-politan sütunları İrandan Hindistana keçir. E. ə. II əsrdə Hindistan İrandan incə Sasani ornamentlərini mənimsəyir (130, s. 150).

Sasanilər şəhərlərin, körpülərin, bəndlərin tikintisinə də az əhəmiyyət vermirlər. I Şapur (e. ə. I əsr.) Bişapur şəhərinin təməlini qoyur. Şəhər çoxsaylı bina və abidələrlə bəzədilmiş, planına görə isə yunan-rum sisteminə uyğun bölünmüşdür. Onun hakimiyyəti dövründə Zərdüşt məbədləri ənənəsinə xas olan plan ilə nəhəng məbəd ucaldılmışdır. Məbədin divarları isə rum memarlıq prinsipinə uyğun, yonulmuş qumdaşı bloklarından quru hörgü ilə tikilmişdir. Mərkəzi zalın arakəsməsi öküz şəklində olan impostlara, əhəməni üslublu sütunlara dayaqlanmışdır (8, s. 183). Xosrov Pərvizin şəhərsalma sahəsində böyük əməyi olmuşdur. O, bir neçə şəhər salmışdır.

Xosrov Pərvizin hakimiyyəti zamanı ucaldılan memarlıq tikilіləri I Şapur dövründən, Firuzabadda və Sərvistanda tikilən saraylardan çox fərqlənir. Burada saray tikililərinin həcmi-məkan həlli yeni istiqamət tapır. Kirmanşah yaxınlığında yerləşən Kəngavərdə Anahita məbədinin və Behistun sarayının quruluşunda sütunlar əsas yer tutur. Sarayın sütun başlıqlarında Xosrov Pərviz təsvir olunub. Nəhəng taxçası və gözəl relyefə malik Təki Bostan Mağarı və Suzun məşhur məbəd kompleksi olan Təxti Süleyman qədim İranda Sasani memarlıq üslubunu təyin edən son abidələrdir.

Ərəblər böyük sürətlə bir çox dövlətləri ələ keçirib, böyük bir imperiya yaradır. Fransa sərhədlərində 732-ci ildə baş vermiş Tur döyüşündəki süqut müsəlmanların Qərbi Avropaya irəliləməsini dayandırmışdır. 642-ci ildə Sasanilər İranı zəbt edir və müsəlmanlar Əhəmənilərdən Sasanilərə qədər böyük tarixi inkişaf ənənəsinə malik dövlət quruluşundan istifadə etməyə başlayırlar.

İranda dövlət quruluşlarının bir-birini əvəz etmə dövrü başlayır. Abbasilərdən sonra, qısa müddət ərzində, Buidlər (935-1055-ci il), sonra isə səlcuk türkləri hakimiyyətə gəlirlər. Səlcuk dövləti Məlik Şahın dövründə (1072-1092-ci il) çiçəklənməyə başlayır. Memarlıq yeni üslublu, daha mükəmməl konstruksiyalı və müxtəlif formalı binalarla zənginləşdirilirdi (40, s. 9).

İranın iqtisadi və dini mərkəzi, Səlcuqlar dövründə isə paytaxt sayılan İsfahan Şərqin ən böyük dövlətlərindən biri olmuşdur (134, s. 146). Məşhur Cümə məscidi də Səlcuqların dövründə tikilmişdir.

1256-cı ildə Monqol yürüşləri baş verir və onlar ölkəni qarət edib, 1261-ci ildə Çingizxanın nəvəsi Xulaqunun xüsusi ulusu ilə İranda məskunlaşmışdılar. Arqun Xan (1284-1291-ci il) və onun oğlu Qazan xan (1295-1304-cü il) bu dövrdə əhəmiyyətli yer tuturdular. Tədricən mədəni və memarlıq-inşaat fəaliyyəti inkişaf etməyə başlamışdır. Məscid, mavzoley, mədrəsələr inşa edilirdi. Bunların nəzdində Marağa

və Təbrizdə observatoriyalar tikilir. Qazan xan elm və incəsənətdən öz himayəsini əsirgəmirdi. Qazan Xanın zəngin saray kitabxanası ilə bərabər məşhur miniatürçülər məktəbi yaranır. Təbrizdə bazarlar, karvansaralar, hamamlar və başqa ictimai və memorial tikililər inşa edilməyə başlanmışdır. Onun sağlığında məşhur "Arqun Xan" mavzoleyi tikilmiş, Sultaniyyə şəhərinin təməli qoyulmuş, davamı isə Qazan Xanın qardaşı Olcaylu (1304-1316-cı il) tərəfindən başa çatdırılmışdır. Mavzoley öz bənzərsiz memarlıq kompozisiyası, cəsarətli forma və konstruksiyası, diametri 25 m olan günbəzi ilə Florensiya memarı Filip Bruneleskonun kilsə günbəzini geridə qoyurdu (263).

1381-ci ildə Teymurləngə məğlub olmuş İran, monqol işğalından da şiddətli zərbə almışdır. 1436-cı ildə İranın qərb vilayətləri türk sülalələri olan Ağqoyunlu və Qaraqoyunlu işğalı altında olmuşdur. İran memarlıq tarixinin bu dövrünün parlaq səhifələri böyük memar Kavam ad-Din Şirazinin adı ilə bağlıdır. Onun yaradıcılığı Məşhəddə İmam Rzanın qəbrinin ətrafında yer alan ibadət və memorial səciyyəli kompleks ilə bağlıdır və Gövhərşad məscidi bu kompleksin incisi sayılırdı (1405-1418-ci il). Herat ansamblları Kavam ad-Dinin yaradıcılığının zirvə nöqtəsi, yekunu isə Xargird mədrəsəsi sayılır (1444-cü il) (134, s. 167).

İranda Səfəvi memarlığının inkişafı (1501-1722-ci il) I Şah İsmayıl (1501-1524-cü il) və I Təhmasibin (1524-1576-cı il) hökmdarlıqları dövrü ilə bağlıdır. Onlar Təbrizi İranın paytaxtı elan etmişdilər. İranın inkişafı və çiçəklənməsi Şah Abbasın dövründə baş vermişdir (1587-1629-cu il). Ölkənin sərhədlərinin genişləndirilməsinə və mərkəzləşdirilmiş dövlət quruluşuna nail olan I Şah Abbas, İsfahan şəhərini paytaxt seçmişdir (1597-1598-ci il). Bundan sonra şəhər məhəllələrinin geniş tikintisinə və yenidə qurmasına başlanmışdır. XVII əsrin ortalarında şəhərin dairəsi 38 km-ə qədər, əhalisinin sayı isə 600 minə çatmışdır.

Şah Abbasın hökmdarlığı dövründə məşhur şah ərazisi Meydane-Şahın (510x165 m) ətrafında İsfahanın mərkəzi formalaşmışdır. Bura şimaldan şərqə, kənarlarında piştaxtalar düzülmüş meydana çevrilmişdir. Meydanın quruluşunda əsas kompozisiya və həcm elementləri: şimalda nəhəng bazar kompleksi, karvansaralar, mədrəsələr, məscidlər, hamamlar; bazarın arxasındakı üstübağlı küçə Səlcuq şəhəri və onun mərkəzi olan Meydane-Kohne və Cümə məscidinə gətirib çıxardır (114, s. 84).

Cənubda, meydanın mərkəzində Şah Məscidi (1616-cı il), qərbdən məşhur İsfahan bağları və saray pavilyonları, şərqdə isə məhşur Lütfullah məscidi yerləşmişdir (1603-1618-ci il). Meydandan yarım kilometr qərbə doğru yaşıl bağlarla əhatə olunmuş Çar-Bağ prospekt-magistralı cənuba doğru gedir və bir neçə xiyabanlara bölünüb, Zaidə-Rud çayını Allahverdi xan körpüsündə keçərək, daha 3 km Xəzər-Cəribin şəhərkənarı bağlarına kimi uzanır.

"Bu dövrün memarlığı miqyasına görə iri, hamar və bölgüsüz məkanları birləşdirir" (134, s. 170).

İranın 1722-ci ildə əfqan ordusu tərəfindən işğal olunması və Səfəvilər sülaləsinin çökməsi, ölkənin viranına gətirib çıxardır. Yeddi ildən sonra Nadir şah əfqanları ölkədən qovaraq, hakimiyyəti öz əlinə keçirib qarət yürüşləri etməyə başladı. Tezliklə, 1747-ci ildə Nadir şahın siyasəti onun öldürülməsinə gətirib çıxartdı.

1750-ci ildə Kərim xan Zənd İranda hakimiyyəti ələ keçirərək Şirazı paytaxta çevirdi. Onun fəaliyyəti nəticəsində şəhər qəsr, məscid, bazar, divanxana və başqa ictimai tikililərlə bəzəndi. 1779-cu ildə, Kərim şahın ölümündən sonra İrandakı nisbi

sakitliyə son qoyuldu və bu da Zənd və Qacar qarşıdurmasına gətirib çıxartdı. Qacarlar qalib gələrək, yeni sülalələrin təməlini qoydular (1794-1925-ci il). Onlar özünü saray, ictimai, memorial, mülki tikililər, şəhərsalma və incəsənətdə göstərmişdilər. Qacar memarlığı bir əsrdən artıq bu istiqamətdə fəaliyyət göstərmişdir və bunun nəticəsi olaraq, Qacar üslubu meydana gəlmişdir. Bu üslubda olan incəsənət əsərləri İranın bir çox şəhərlərini bəzəyir və milli-memarlıq abidələrinin incisi sayılır.

Bu monoqrafiyanın müəllifi 1970-ci ildən Qacar dövrünün şəhərsalma və memarlıq tarixinin öyrənilməsi ilə məşğuldur. O, öz forma və məzmununa görə, həmçinin Şimali Azərbaycanın memarlığı kimi çox maraqlıdır. Burada əsas yeri özündə Şərq və Qərb mədəniyyətini birləşdirən Bakı tutur.

İlk dəfə mənim tərəfimdən keçmiş SSRİ-nin arxivlərindən İranın əsas şəhərlərinin dəstək planı aşkara çıxarılmışdır. Bu materiallar əsasən 1850-ci illərdə rus hərbi mühəndisləri tərəfindən çəkilmişdır və 2000-ci ildə İranda dərc edilmişdir.

Müəllif 1991-ci ildən İranın şəhər və yaşayış məntəqələrinə baş çəkir, Xoy, Mərəndə, Miyanə, Maku, Əhərə, Ərdəbil, Təbriz, Qəzvin, Tehran, İsfahan, Qum, Məşhəd, Kirman, Kaşan, Bam, Yəzd, Səba, Şiraz, Mahan, Persepolun şəhərsalma inkişafını və memarlığını canlı olaraq tədqiq etmişdir. Bu tədqiqatlar mənim bu istiqamətdə olan biliklərimi zənginləşdirmişdir.

İran böyük və qədim ölkədir. Ölkə ərazisində hökmranlıq edən Əhəmənilər, Sasanilər və başqa müsəlman sülalələrindən başlayaraq, bütün dünyada böyük əhəmiyyət daşıyan, nəhəng şəhərsalma və memarlıq irsi qoymuşdular.

Hal-hazırda İranda Qacarların fəaliyyətinə olan xüsusi marağa diqqət yetirmişəm. Mən uzun zamandır ki, bu məsələ ilə məşğulam və bu sahəyə olan maraq məni heç də təəcübləndirmir. Çünki Qacarların İranın inkişaf tarixində olan rolu çox böyükdür.

İranda apardığım 15 illik araşdırmalar zamanı mənə öz təmənnasız köməyini göstərən bir çox insanlarla görüşlərim olub. Onlar mənə məcmuələr, kitablar, müxtəlif şəhərlərin albomlarını, xəritələr, planlar və s. materialı toplamağa yardım etmişdilər.

Bununla bağlı olaraq, illüstrasiyaları ilə faydalandığım kitabların müəllifləri İranda Şəhid Behişti universitetinin rektoru professor B. Nadimiyə, professor B.Şiraziyə, cənab A.Tağızadəyə, cənab A. Vahabzadəyə, cənab Behiştiyə, F.Tehraniyə, cənab B.Qədiriyə, cənab M.Citdiyə, M. Kianiyə, mənim monoqrafiyamın nəşrində göstərdiyi köməyə görə cənab X. Soltanzadəyə, xanım Sevinc Təngdura, xanım Naymə Qaramanluya, cənab Rahib Əliyevə, xanım Rayihə Əmənzadəyə, cənab Rizvan Babaşova, cənab Rizvan Bayramova, xanım Lətifə Məmmədxanovaya, cənab Sabir Tağıyevə, cənab Elçin Əliyevə, göstərdikləri mənəvi dayağa görə AMEA-nın Memarlıq və İncəsənət institutunun tarix, şəhərsalma memarlığı və bərpa şöbələrinin işçiləri Memarlıq namizədi Roza Salayevaya, Rayihə Əmənzadəyə, Rahib Əliyevə, Əlturan Əvəzova, Rizvan Babaşova, Rizvan Bəhrəmova, Şənənra Rzayevə, Mehriban Mikayılovaya, elmi işçilər Elçin Əliyevə, Lətifə Məmmədxanovaya öz dərin minnətdarlığımı bildirirəm.

# I BÖLMƏ.

# İRAN ŞƏHƏRLƏRİNDƏ ŞƏHƏRSALMA

# FƏSİL 1.

# İRAN ŞƏHƏRLƏRİNİN TARİXİ İNKİŞAFININ ƏSASLARI

VII əsrdə ərəblərin işğalı nəticəsində e. ə. 224-cü ildən mövcud olan Sasanilər dövlətinin süqutu baş vermiş və İran xilafətin tərkibinə daxil olaraq, öz dövlət quruluşunu itirmiş və yeni din olan İslamı qəbul etmişdir. Bununla İranın tarixi inkişafında mədəniyyətin, incəsənətin və memarlığın bütün sahələrində öz təsirini göstərən tamamilə yeni dövr başlanmışdır.

*Təxt-e süleyman"-nın planı (Sasanilər dövrü).*




Yeni din şəhərin planlaşdırmasına, mərkəzlərin kompozisiya həllinə, həcmi-məkan quruluşuna, yaşayış məntəqəsində siluetin aktivliyinə təsir göstərmişdir.

Köhnə şəhərlərin inkişafı ilə bərabər İranın ərazisində yeni dini mərkəzə çevrilmiş şəhərlər əmələ gəlir (Qum, Məşhəd). Köhnə tarixi şəhərlər öz əhəmiyyətini saxlayaraq əyalətlərin, müxtəlif dövrlərin dövlət quruluşlarının mərkəzinə, liman şəhərlərinə və s. çevrilməyə başlamışdırlar.

"IX-X əsrlərdə İran vilayətləri xilafətdən ayrılmağa başlamışlar. IX əsrin sonunda Xorasan və İranın Şərqi Orta Asiya sülaləsi olan Samanidlər dövlətinin tərkibinə daxil olmuş, Qərbi İranda isə 935-ci ildə Buidlər dövləti əmələ gəlmişdir" (134, s. 144).

"Xilafətdən qurtuluş iqtisadi dirçəliş və istehsalat gücünün artmasına gətirib çıxartmışdır. Sənətkarlıq və ticarət inkişaf edir, mədənlər qazılır, hidrotexniki tikililər inkişaf etdirilirdi. İqtisadiyyat, əsasən də şəhərlərin inkişafı üçün böyük əhəmiyyət daşıyan tranzit dəniz ticarəti fəaliyyət göstərirdi: onun yolu İran körfəzindən keçir, Hindistandan Aralıq dənizinə kimi uzanırdı" (134, s. 146). Ulu Səlcuqların zərbəsi ilə Buidlər sülaləsi süquta uğradı (1055-ci il) və bu vaxtdan Pəhləvinin (1925-1979-cu illər) qısa müddətli hakimiyyətinə qədər türk sülalələri bərqərar oldular.

Səlcuqların hakimiyyəti zamanı İsfahan İranın paytaxtı olmuşdur. "Bu şəhər

Yaxın Şərqin ən iri şəhərlərindən biri sayılaraq, X-XIII əsrlərdə İran memarlığında Afinanın Misirdə, Romanın isə İtaliyadakı olan rolu qədər əhəmiyyət daşıyırdı" (134, s.146).

İlhanidlər dövləti Hülakilərdən sonra (XIV əsr.) İran ərazisində yeni Qaraqoyunlu və Ağqoyunlu dövlət quruluşları yarandı. 1502-ci ildə onları Azərbaycanın Səfəvilər dövləti əvəz etdi. Səfəvi sülaləsinin şahları İsmayıl, I Təhmasib, I Şah Abbas mərkəzləşdirilmiş hakimiyyət və ölkənin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün böyük əmək sərf etmişdirlər. I Şah Abbasın dövründə İran daha yüksək müvəffəqiyyətlərə nail olmuşdur (1587-1629).

I Şah İsmayılın dövründə ölkənin paytaxtı Təbriz olmuşdur. "XIV əsrin əvvəlində əhalinin sayı burada 300 000 nəfərə çatmışdır. Təbriz-ticarət karvanlarının Avrasiya tranzit yolunda qovşaq, həmçinin yükləmə məntəqəsi olmuşdur. Şah iqamətgahının Qəzvinə köçürülməsinə qədər bura sənətkarlıq, istehsalatın ipəkçilik, yun emalı, pambıq parça, tumac, silah istehsalının və s. mərkəzi olmuşdur" (87, s. 286).

I Təhmasibin təşəbbüsü ilə 1548-ci ildə paytaxtın Qəzvinə keçirilməsi İran və Türkiyə arasında müharibəyə səbəb oldu və o, şəhəri əlində saxlaya bilməyib, türklərə verdi. Türklər başqa yerlərdə olduğu kimi burada da yaxşı möhkəmləndirilmiş qala tikmişdilər. Təbrizdə isə sonradan I Şah Abbas tərəfindən dağıdılmış çoxsaylı dini, ictimai və saray tikililəri inşa etmişdilər. Şah Abbas tərəfindən atılan bu addım camaatın narazılığına səbəb olmuşdur.

*Təxt-e süleyman"da sarayın xarabalıqları.*





*Kir məqbərəsinin ümumi görünüşü.*

Onların gözlərinin qarşısında türklərin hakimiyyəti dövründə tikilmiş gözəl tikililər məhv edilmişdir.

I Təhmasibin Qəzvini paytaxt elan etməsi, sonra isə Şah Abbas tərəfindən ölkənin dərinliyinə - İsfahana köçürülməsi İranın Qərb və Şərq arasında olan beynəlxalq ticarətdə Təbrizin aparıcı rolunu azaltdı. Ümumiyyətlə, bu hökmdarın doğma bölgəyə, Azərbaycana olan münasibəti çox qəddardır. Onun bu addımlarının səbəbi dövlət deyil, şəxsi səbəblərdən irəli gəlib. Burda yaltaq farsların azad türk xanlarını sıxışdırmaq cəhdi irəli plana çəkilmişdir. Şah Abbas 40 ildən çox davam edən hakimiyyəti dövründə böyük nailiyyətlər əldə etsə də, ondan əvvəlki dövrdə hərbi potensial fars əyanlarının əlində olub və artıq qonşu hücumlarını əks etdirmək gücündə olan sürətli qüvvə deyildi.

Səfəvi hökmdarlarının arasında I Şah Abbas yeganə hökmdar idi ki, nəhəng şəhərsalma və memarlıq proqramını həyata keçirirdi. Amma bu iş əsasən fars əhalisi yaşayan yerlərdə aparılırdı. Əvvəllər ölkənin paytaxtı olmuş ticarət və sənətkarlıq mərkəzləri sayılan Təbriz və Qəzvin inşaatçı-şahın diqqət mərkəzində deyildi. O, öz şəhərsalma ideyalarını başqa vilayətlərdə həyata keçirməyə üstünlük verirdi (116, s. 325;117, s. 331).

Şah Abbas İsfahanı paytaxt edərək, buranı qısa müddət ərzində gözəl binalarla, prospektlərlə, bağlarla bəzəmişdir. Şarden, Pyetro del Valle və başqa Avropa səyyahları bu haqda çox yüksək fikirlər söyləmişdilər. Şah Abbas isə öz növbəsində belə hesab edirdi ki, bütün bunlar onun şöhrəti üçün kifayət deyildir. Şahın tədbirlərinin şahidi Pyetro del

Valle bu haqda belə yazmışdır: "Bu səfəvi şahı Fərəhabadda, dənizin kənarında, geniş düzənlikdə yerləşən "Şən Müstəmləkənin" planını özü tərtib etmişdir. Şəhər buradan 2 mil aralıdır, amma mən düşünürəm ki, zaman keçdikcə Xəzər dənizi onun sərhədinə çevriləcəkdir" (1586-1652-ci il) (22, s. 57).

Fərəhabadın inkişafı istiqamətində Şah Abbasın fikirləri çox geniş idi. O, nəhəng ölçülü, "dairəvi formada, Roma və Konstantinopol kimi, bəlkə də ondan da böyük" şəhəri fikrində tutmuşdur. Bura İsfahandakı Çahar bağa bənzər, uzunluğu 1600 m-ə çatan, sonradan memarlıq planlaşdırma istiqamətində inkişafı nəzərdə tutulan xiyabanlar qoyulmuşdur.

İsfahanın mərkəzinin planlaşdırma sistemi: xiyabanları, sarayları, kompleksləri və bağları Fərəhabadda daha geniş şəhərsalma tədbirlərinin həyata keçirilməsi üçün nümunə olmuşdur. Ərazi boş, tikilisiz olduğundan burada istənilən memarlıq planlaşdırma işləri üçün şərait var idi.

Yeni şəhərin ümumi kompozisiya sxemi ənənəvi prinsiplərə dayaqlanırdı. Planlaşdırma həndəsi mənşəli, məhəllələr düzbucaqlı formada, şəbəkə şəklində nəzərdə tutulmuşdur. Bura geniş meydanlar, dini və saray kompleksləri, bağlar və köşklər daxil edilmişdir.

"Şahın ölümündən sonra tikinti üçün buraya yığılmış müxtəlif qəbilə və dindən olan camaat dağılmışdır. Kərpic qalaqları və bir neçə qübbələr bu tikililərin ölçülərindən xəbər verir"(22, s. 57).

Şah Abbasın varislərinin Xəzər dənizinin sahilində, bataqlıq ərazidə tikinti aparmağa və buna vəsait xərcləməyə heç bir həvəsi və meyli yox idi. Bu vaxtlar onsuz da dövlətin büdcəsi zəif idi. Onlar artıq abadlaşmış və genişləndirilməsinə ehtiyac olmayan İsfahanı Şah Abbasın əmri ilə tikilən başqa iqamətgahlardan üstün tuturdular. Fərəhabadın ticarət və karvan yollarından, sənətkarlıq və dini mərkəzlərdən uzaq olması, nə strateji, nə iqtisadi, nə paytaxt əhəmiyyəti daşımaması onu əvvəlcədən viran qalmağa məhkum etmişdir.

Bu 1612-ci ildə xəzər dənizinin sahilində Əşrəfdə təməli qoyulmuş "Şəhərlərin ən nəcibi" - "Əşrəf ul Bilad" park və sarayı da bu tale gözləyirdi.

Geniş tikintisi nəzərdə tutulan Fərahabaddan xatirlərdən başqa heç nə qalmamışdır. Bu mənada Əşrəfin bəxti gətirmişdi. "Böyük Abbas bir neçə iqlimi: qarlı dağların soyuğunu və sahilin qızmar havasını, şam ağacından tutmuş portağala kimi bütün ağac növlərini özündə birləşdirən əsrarəngiz meşələri çox sevirdi". O, bu bataqlığın ortasına öz "dəlisov ehtirasını" - Əşrəfi tikməyi başlamışdır. Bura Marli və fars Trianonu kimi daxilində 200-300 qadın, 2000-3000 kamerger və xidmətçi, ənderun (hərəmxana) və rəiyyət üçün nəzərdə tutulan onlarla heyvan yerləşdirməli idi" (22, s. 86).

Əşrəfin saray hissəsi ən yüksək nöqtədə yerləşir və dənizdən yaxşı görünür. Saray komplekslərinin hündürlükdə, bağların içində tikilməsi Səfəvilər dövründən də əvvəl gəlir, ancaq Şah Abbas və onun mirasları dövründə bu daha da inkişaf etmişdir. Şərqin bu bağ-park incəsənət ənənəsi Əşrəfdə uğurla istifadə olunmuşdu.

Saray tikililəri və bağlar sistemi yerləşən ərazinin memarlıq-planlaşdırma kompozisiyası dəqiq həndəsi quruluşu ilə seçilir. Bu terras və kaskadların ox xəttinin dəqiqliyi xiyabanın kanal, arx və pavilyonlarının gözəlliyinə təsir etmişdir. Bütöv bağlar sistemi vahid kompozisiya əmələ gətirir. Bunların arasında terrasların arasında yerləşən Baği-Şah (450x200 m), Baği-Çeşmə və Baği-Sahib-Zaman seçilir.



*Ktesifon. Sasanilər sarayı. Ümumi görünüş.*

Bağİ-Şah başqa bağlara nisbətən mərkəzdə yerləşir və kanallarının kənarı kaskad sistemi ilə xiyabanlarla bəzədilib. Əsas xiyabanlar kəsişən yerdə kvadrat formalı hovuz vardır. Belə planlaşdırma üsulu Qacarlar tərəfindən saray bağlarında geniş istifadə edilmişdir. Terras sistemi İsfahanın məşhur Xəzər-Cərib parkında təqdim olunmuşdur. Əşrəf bağlarında suyun müxtəlif variasiyalarda işlədilməsi virtuozluq dərəcəsinə çatdırılmışdır. Kompozisiya üsulunun yük-



*Sasanilərin Ktesifondakı nəhəng alaqapısı.*

sək təzahürü kimi Sahib-Zaman və Baği-Çeşmədə pavilyonların nohur üzərində yerləşməsini nümunə gətirmək olar. "Bir çox tikililərdə divar rəsmləri, erotik səhnələr, nimafaların təsvirlərinin qalıqları qalıb" (134, s. 176).

Terraslı bağların plastik ifadəsinin gözəl xüsusiyyətlərindən biri - üstü taxçalarla tərtib edilmiş dirək divarlarıdır. Yaşıl terraslar bir-birini üzərində asılmışdır və "memarlıq qiyafəsində "sanki təbiətdən götürülmuş" valehedici süni peyzaj yaradırdı".

V.Berar yazır: "Hal-hazırda baxımsız hovuzlar və şəlalələr yüzillik sərv ağacları, nəhəng şümşad və portağal ağaclarının əhatəsindədir. Qalereyasız pavilyonlar və təpəsiz qüllələr cığırların arasında itməyə başlayır. Hələ də uzun küçəyə bənzər "Şah yolunda" indi atlılar keçə bilməz. Burada çıxarılmış daşlara görə nəhəng çalalar əmələ gəlmişdir" (22, s. 86).

Beləliklə, Şah Abbasın Fərəhabad və Əşrəflə bağlı şəhərsalma niyyətləri öz yaradıcısından sonra çox yaşamadı. Onlar İrandakı bir çox mənzərəli xarabalıqlardan birinə çevrildilər. Öz bütövlüyünü itirməyən Trianon və Marli isə o dövrə aid memarlıq abidələri kimi Fransanın tarixi irsinə daxil oldu. Bunu Fərəhabad və Əşrəf haqqında demək mümkün deyil.

Ümumiyyətlə, XVII əsrdə ölkənin iqtisadi balansında, əsasən də təsərrüfatda Mərkəzi və Qərbi İran şəhərləri (İsfahan, Şiraz, Qəzvin, Həmədan, Kerman, Ləhican və s.), Cənubi Azərbaycan şəhərləri (Təbriz, Ərdəbil) və Xorasan (Məşhəd, Kandəgər) əsas yeri tuturdu, yerdə qalanlar isə durğunluq vəziyyətində qalmışdırlar.

XX əsrin əvvəlinə kimi İran şəhərlərində, Qərbi Avropada olduğu kimi özünüidarə hüququ yox idi. Onlar şəhərsalma və memarlıq nizamına aid çətin işləri, şəhər tikililərinə nəzarət, abadlıq işləri kimi məsələləri özləri həll edə bilərdilər. "Şəhərin başında kələntər dururdu. Şah hakimiyyəti tərəfindən təyin edilmiş, yerli zadəganların arasından - həmin tin mahalın ticarətlə məşğul olan iri feodallarından, nadir hallarda isə tacirlər ola bilərdi" (87, s. 286)

Şəhərin böyük hissəsi feodal-xanlara mənsub idi. Onlar şəhəri öz bildikləri kimi idarə edir və bunun nəticəsi olaraq inkişaf birtərəfli, kortəbii, iqtisadi və şəhərsalma imkanları nəzərə alınmadan gedirdi. Əsas tikinti iri şəhərlərdə (İsfahan, Fərəhabad, Əşrəf, Qəzvin və s.) dövlət səviyyəsində aparılsa da və burada Şah sarayının maraqları olsa da tikinti məqsədyönlü quruluş alırdı.

F.Engels yazır: "Şərq hökmranlığı kapitalist quruluşu ilə ziddiyyət təşkil edir; əlavə edilmiş izafi dəyər strap və paşaların yırtıcı əllərindən mühafizə olunmur; burjuaziyanın ilk əsas nailiyyəti olan tacirin şəxsiyyətinin və onun uyğunluğunun təminatı yoxdur" (?????, s. 22)

Səfəvilər dövləti zəngin, geniş ərazisi və əhalisinin sayı yüksək olan ölkə sayıldığına baxmayaraq, Fransa (10 dəfə) və İngiltərə (2.5 dəfə) kimi Avropa dövlətlərindən illik gəliri xeyli aşağı olub və XVII-XVIII əsrlərdə iqtisadi cəhətdən bu ölkələrdən geri qalıb (87, s. 294).

Səfəvilərin hakimiyyətinin sonuna yaxın (1722-ci il) ölkə iqtisadi böhran və siyasi zəifləmə dövrünü yaşayır, bu da yeddi il davam edən, öz növbəsində əfqan yürüşlərinə gətirib çıxardır. Bu dövrdə İranın əsas şəhərləri: İsfahan, Şiraz, Qəzvin, Yezd, Təbriz qarət və müflis olunmuşdular. Onlar XIX əsrin sonuna kimi bu işğaldan özünə gəlməmişdilər. İsfahan, Qəzvin və başqa şəhərlərdə hətta XX əsrin əvvəllərində iflasın izləri qalmışdır.

Nadir şahın (1729-cu il) İranın siyasi və hərbi arenasında peyda olması, yadelli işğalçıların qovulmasına və ölkənin birləşməsinin təməlini qoymuşdur. Nadir



*" Tak-i-Bostan". Ümumi görünüş.*

şah özü işğalçı siyasəti yürüdərək, qonşu dövlətləri qarət etməyə başladı. Əldə edilmiş vəsaiti isə İranın məhsuldarlıq gücünün dirçəlməsinə deyil, qismən hərbi ehtiyaclara, qismən də Xorasanda alınmaz qala Keltin tikintisinə sərf olunurdu. Qala saray və xəzinə ilə təmin edilmişdir. Nadir şah istedadlı sərkərdə kimi öz siyasətində hərbi potensialının əhəmiyyətini nəzərə alaraq, bütün gücünü ölkə miqyaslı hərbi sənayenin yaradılmasına yönəldirdi. "Beləliklə, Buşirdə Fars körfəzinin sahilində top tökmə zavodu, Amül yaxınlığında, Mazandaranda isə top nüvəsi istehsal edən dəmiryol zavodu tikilmişdir" (87, s. 323).

Dağılmış suvarma sisteminin bərpası boşalmış şəhərlərin və yaşayış məntəqələrinin yaşıllaşdırılması tədbirləri iqtisadiyyatın dirçəlməsinə və İranın məhsuldarlıq qüvvəsinin artmasına kömək edə bilmədi.

Nadir şahın iri feodallara qarşı münasibətindən və ümumiyyətlə, ölkənin iqtisadi vəziyyətindən irəli gələn narazılıq ona qarşı sui-qəsdə və 1747-ci ildə ölümünə gətirib çıxartdı. İranın tarixində Kərim xan Zəndin qələbəsi ilə nəticələnən (1758-ci il) yeni qarşıdurmalar, müxtəlif feodal qruplaşmalarının hakimiyyəti uğrunda mübarizəsi dövrü başlandı. O, Xorasandan başqa bütün İranı öz hökmü altına aldı və Şirazı paytaxt elan etdi. "Kərim xanın ölümündən sonra (1779-cu il) Zəndlər sülaləsinin üzvləri arasında qarşıdurmalar başlandı. İranın feodal-zadəganlardan ibarət iri qruplaşması - şimalda Qacarlar, cənubda isə Zəndlər arasında qarşıdurma başlandı. Bu mübarizə Qacar qruplaşmasının qələbəsi ilə nəticələndi (87, s. 327).

Qacar qəbiləsinin yaranması Sərtak-Noyenin oğlu Qacar-Noyenin adı ilə bağlıdır. O, İrana XIII əsrdə Hülaki xanın

ordusu ilə gəlmişdir. Qacar türkləri Qazan xanın hakimiyyəti dövründə İrana səpələnmişlər, sonra isə İrəvan və Gəncəyə köçmüşdürlər. Bu dövr ərzində güclənmiş Qacarlar yeddi ən güclü Qızılbaş qəbilələrindən biri sayılırdılar. Onlar Səfəvilərin əsas hərbi qüvvəsi idilər. Qacarların davakar və narahat xüsusiyyətini bilən I Şah Abbas onları Qarabağ, Xorasan və Astarabadın ərazisində yerləşdirmək qərarına gəlir. Bu onların mərkəzi hakimiyyəti narahat etməməsi və sərhədlərin qorumağı üçün edilmişdir" (61, s. 9).

Qacarlar sülaləsinin banisi Qacar Ağa Məhəmməd xan Zəndlərlə uzun sürən mübarizədən sonra İranda hakimiyyəti ələ keçirməyə nail olmuş və 1786-cı ildə Avşar şahlarının keçmiş iqamətgahı olan Tehranı paytaxt elan etmişdir.

1796-ci ildə Ağa Məhəmməd xan Gürcüstana yürüşündən sonra Muğan çölündə, təntənəli şəraitdə sərkərdələr, əyanlar və şiə rühanilərinin ətrafında şah elan edilmişdir və bu yeni sülalə Qacarların təməlini qoymuşdur. Bu sülalədən İranın tarixində yeni dövr başlayır. Beləliklə, İran inkişaf etmiş Avropa dövlətlərinin siyasi və iqtisadi maraqlarının nüfuz dairəsinə daxil olmuşdur.

Şah Qacarların dövlət işlərinə deyil, şah sarayına daha çox diqqət yetirməsinə baxmayaraq, onların dövründə bəzi reformaların keçirilməsinə başlamışdır. "Beləliklə, dövlətin idarə edilməsində (nazirliklərin yaradılması, bürokratik aparat rolunun artması yeni üslublu Avropa təhsilli məmurların əmələ gəlməsi), baş verən Şərq istibdad hakimiyyətinin ziyalı monarxiyaya çevrilmə əlamətləri XIX əsrin ortasında dövlət quruculuğunda yeniliklərdən xəbər verir (61, s. 59).

Fətəli şahın dövründə (1798-1834-cü il) Avropa diplomatik missiyalarının qəbulu başlayır. 1800-cü ildə İngiltərə hökumətinin nümayəndəsi Con Melkomun İrana



*Persepolun ümumi görünüşü.*

səfərindən sonra, 1801-ci ildə bəzi siyasət və ticarət sazişləri imzalanmış, həmçinin böyük imtiyazlar verilmişdir. Tezliklə fransızlar ingilisləri sıxışdıraraq, 4 may 1804-cü ildə Finkenşteyndə (Şərqi Prussiyada) Fransa-İran sazişi bağlayırlar.

Bunun nəticəsində Klod-Matye Qardanın hərbi missiyası İrana gəlir və İran ordusunun təkmilləşdirilməsində, istehkamların, həmçinin Qacarların fəxri sayılan Ərdəbil qalasının tikintisində iştirak edir.

Qacarların hakimiyyətə gəlişindən sonra, tikdikləri bir çox saray tikililəri arasında ən məşhuru şəhərsalma və memarlıq həcmi-məkan həllinə görə, Fətəli şah dövründə tikilmiş "Qəsri Qacar" seçilir. Qacarların çoxsaylı saray tikililəri inşa etməsinə baxmayaraq, öz sələflərinin tikinti fəaliyyətinə qiymət vermirdilər, özlərini və gələcək nəsillərin faydalana biləcəkləri sarayları qorumurdular. Məhəmməd şahın (1834-1848-ci il) xəstə olması səbəbindən dövlət işlərinə maraq göstərməmiş və bu da İranın nə daxili, nə də xarici siyasətdə uğur qazanmamasına səbəb olmuşdur. 1841-ci ildə ingilis-İran sazişindən sonra İngiltərənin İranda iştirakı daha da gücləndi.

Nəsrəddin şahın hakimiyyəti zamanı (1848-1896-cı il) İranın tarixində tamamilə yeni dövr başlanır. Ölkə dünya kapitalist bazarına cəlb edilir, İngiltərə və Rusiyanın bura olan təsiri artır və bu ölkələr İranın təbii sərvətlərindən istifadə imkanı əldə edir.

İngilislər və ruslar tərəfindən teleqraf xətlərinin tikilməsi və istifadəyə verilməsi, 1872-ci ildə İngiltərə vətəndaşı Baron Peyterin dəmiryolu və tramvay yollarının, zavod və fabriklərin tikilməsi, banklar açması və s. monopoliya haqları Rusiyanın təzyiqi altında ləğv edilmişdir. Bu da İranın inkişafına özünəməxsus təsiri olmuşdu. 1888-ci ildə "Linç qardaşları" ingilis firması Harun çayında gəmiçiliyin təşkili, sonradan isə İranın cənubunda şose yolunun tikintisinə və istifadəsinə konsessiya almışdır (6, s. 27).

İngiltərə planlı şəkildə cənubdan İrana soxulsa da, Rusiya şimaldan öz təqibindən qalmırdı. 1890-cı ildə Rusiya vətəndaşı Polyakov sığorta və nəqliyyat cəmiyyətinin təşkil edilməsi üçün konsessiya almışdır. O, Xəzərdə Ənzəli limanının, İranın şimalında iki şose yolunun, sonradan isə Hesab-borc bankının tikintisinə başlamışdır.

1889-cu ildə Nəsrəddin şah İranda İmperiya (Şahinşah) bankının təşkili hüququnu Reytera verir. Bu minvalla İran demək olar ki, İngiltərə və Rusiyanın yarımkoloniyasına çevrilməyə başlayır. "İki dövlətin rəqabəti İranda öz rəsmi həllini tapır. 31 avqust 1907-ci ildə imzalanan rus-ingilis razılaşmasına görə ölkənin şimalı Rusiyanın, cənubu isə İngiltərənin nəzarəti altına götürülür. Onların arasında yerləşən ərazi isə neytral zona hesab edilir" (6, s. 29).

Coğrafi, tarixi, iqtisadi və siyasi baxımdan İranın ərazisi hələ XX əsrin əvvəlində əsas inzibati bölgələrə bölünür:

1. Əsas şəhəri Təbriz olan Azərbaycan
2. Gilan - Rəşt
3. Mazandaran - Amol
4. Astarabad - Astarabad
5. Xorasan - Məşhəd
6. Ərdalan - Səna
7. Xəmsə - Zəncan
8. Qəzvin - Qəzvin
9. Tehran - Tehran
10. Kirmanşah - Kirmanşah
11. Həmədan - Həmədan
12. Lorestan - Hürrəmabad
13. Məlair - Dövlətabad
14. Ərəbistan (və ya Xuzestan) - Şüştər
15. İraq-Əcəmi - İsfahan
16. Kuhestan - Bircənd
17. Yəzd - Yəzd

18. Kirman Fars Belucistanı ilə - Kirman
19. Fars körfəzinin sahili və adaları - Bəndər-Buşir
20. Farsistan - Şiştər
21. Larstan - Lar
22. Seyistan - Nüsrətabad (60, s.33).

İran qədim şəhər və şəhər məntəqələri ölkəsidir. XX əsrin əvvəlində onların sayı yüzə çatır, kapitalist ölkələrində olduğu kimi iri şəhərlər əmələ gəlmir. Bəzi inqilabdan qabaqkı tədqiqatçıları qeyd edirlər ki, şəhər əhalisinin sayı ümumi ölkə əhalisinin 12%-dən çox təşkil etmir (101, s.14). İran üzrə sovet tarixçisi N. A. Kuznetsova "İran XIX əsrin birinci yarısında" monoqrafiyasında yazır ki, "Bir çox tədqiqatçıların fikrinə görə İranın şəhər əhalisi əhalinin ümumi sayından 20% təşkil edirdi. Şarl İsavi XIX əsr Orta Şərq və kapitalist Qərbi dövlətlərinin əhalisinin tərkibini tədqiq edərkən, şəhər əhalisinin maraqlı müqayisəsini verir. Orta hesabla Şərqin müsəlman ölkələrinin şəhər əhalisinin sayı 10-20% təşkil edirdi. İran şəhər əhalisinin yüksək faizi olan ölkə sayılırdı - 20% (Fransada-10%, Almaniyada-10%-dən az, ABŞ-da 1790-cı ilin siyahıya alınmasına görə 3,3%) "(61, s.125).

Lakin İran şəhərləri Qərbdə müşahidə olunan sosial-iqtisadi səciyyəli inkişaf sisteminə çatmamışdılar. Əhalinin axınını özünə çəkən fabrik-zavod sənayesinin olmaması böyük şəhərlərin inkişafında vacib şərt sayılır. İran hökumətinin Tehran ətrafında, Avropadan lazımi mütəxəssislər gətizdirmək yolu ilə fabrik və zavodlar tikmək təşəbbüsü müsbət nəticə vermədi. Bunun obyektiv səbəbləri var idi: İran ictimaiyyətinin buna hazır olmaması, iri kapitalın olmaması və kapitalist ölkələrinin firmalarının mallarının satış bazarı olan İranın milli sənayesinin inkişafında Avropa dövlətlərinin marağı olmaması. Kustar sənayeyə malik yerli bazarın iqtisadi özülünü parçalayan və şəhər əhalisinin borc ödəyə bilmə qabiliyyətini məhv edən xarici mallarla rəqabətə girə bilmirdi.

Demək olar ki, İranın bütün şəhərləri yarımkustar səciyyəli olub, onların əraziləri bağlarla, bostanlarla, kənd təsərrüfatı torpaqları ilə əhatə olunub. İranın iri şəhərlərinin bu cür şəhərsalma sistemi XIX əsrin axırına kimi, xarici kapital planlı şəkildə daxilinə və ümumavropa kapitalist bazarına cəlb olunmasına qədər davam etdi. XX əsrin əvvəllərində İran şəhərlərinin əhalisi stabil qalıb. Təbrizi və Tehranı istisna etməklə onların əhalisi 1 mln. nəfərə çatmırdı:

| | |
|---|---|
| Tehran | 350 min |
| Təbriz | 300 min |
| İsfahan | 80 min |
| Məşhəd | 70 min |
| Yəzd | 50 min |
| Kirman | 50 min |
| Kirmanşah | 50 min |
| Həmədan | 50 min |
| Xoy | 50 min |
| Qəzvin | 40 min |
| Qum | 30 min |
| Səna | 30 min |
| Şirva | 30 min |
| Rəşt | 25 min |
| Urmiya | 20 min |
| Buşer | 15 min |
| Nişapur | 10 min |
| Şahrud | 10 min |
| Muhamməri | 10 min |
| Şustər | 10 min. |

Bu İran şəhərləri arasında elə mərkəzlər vardır ki, bu və ya digər tarixi hadisələrdən asılı olaraq paytaxt statusunu digər şəhərlərə güzəştə getmək məcburiyyətində qalırdı. Bunlar: Təbriz (XIII əsr), Qəzvin (XVI əsr), İsfahan (XVII əsr), Şiraz (XVIII əsr) və Tehran (XVIII əsr) şəhərləri idi (60).



*Nəqşi-Rüstəm. Padşah məqbərələri.*

İslam qəbul olunduqdan sonra İran tarixində bu şəhərlər ardıcıl olaraq bir-birini əvəzləyərək memarlıq və şəhərsalma baxımından ölkənin ümumi mədəniyyətinə əhəmiyyətli qatqı edib, ən yaxşı ənənələri tamamlayıb inkişaf etdirirdi.

Yüksələn və süquta uğrayan, viran olub sonra dirçələn şəhərlər müxtəlif dövrlərdə yaranmışdılar. Hökmran sülalələrin dəyişməsi yeni bir paytaxtın seçilməsi ilə nəticələnirdi ki, bu da əhalinin azalmasına tikinti və inkişafın zəifləməsinə gətirib çıxarırdı. Bu karvan və ticarət yollarının, iqtisadi rifah yeni paytaxta doğru istiqamətini dəyişirdi. Bir şəhərin boşalması digərinin şəhər və qəsəbələrin dirçəlişinə səbəb olurdu. Bu sistem şəhərlərin həyatında qanunauyğun inkişafla birlikdə planlaşdırma strukturu və məkanın kompozisiyasında dəyişməz iz qoyurdu.

Paytaxtla yanaşı dini mərkəzlər də (Ərdəbil, Qum, Məşhəd) şiddətlə inkişaf edirdi və ictimai-iqtisadi cəhətdən heç də İranın məşhur şəhərlərindən geri qalmırdı. Müqəddəslərin məzarı ətrafında yaranan bu məkanlar tədricən nəinki şəhər üslublu yaşayış məntəqələrinə, eyni zamanda ziyarətgahlar, dini mərkəzlər kimi təsir gücü ilə İran sərhədlərini aşan böyük şəhərlərə çevrilirdi. Bu ziyarətgahlar çox sayda tikililərlə, bazarı, hamamı, məscidləri ilə çoxplanlı ansambl təşkil edirdi. Müasir şəhərin strukturunda dini mərkəzlərin inkişafını "şəhər içində şəhər" kimi ifadə etmək olar.

Şimaldan onun sahillərini Xəzər dənizi, cənubdan isə Fars körfəzi yumasına baxmayaraq, (Bəndər-Abbas, Rəşt, Örmüzd, Bəndər-Buşer) İranın dəniz limanları isə o qədər də çox deyildi. İqtisadi cəhətdən dəniz limanları karvan yolları qədər ölkənin həyatında rol oynamırdılar. Ona görə də ilk limanlar burda Qərbi Avropa dövlətləri ilə ticarət əlaqələri yaratmaq məqsədi ilə Şah Abbasın zamanında yarandı.

İranın Kirman, Kirmanşah, Həmədan, Hürrəmabad, Dövlətabad, Şüştər, Bircand, Yəzd, Lar, Nüsrətabad, Amol, Astarabad, Sene, Zəncan kimi tarixi əyalətləri özünün istehsalat xüsusiyyətləri, fərdi əlamətləri, şəhərsalma və memarlıq xüsusiyyətlərinə görə şəhərsalma sisteminə daxil idilər, bu onların daxili məzmununu səciyyələndirir.

Kiçik şəhərlərə gəldikdə isə onlar bütün İran ərazisinə səpələnərək şəhərsalmanın inkişafında önəmli rol oynayırdı ki, bu kiçik şəhərlərin fonunda paytaxt, əyalət, dini mərkəzlərin memarlıq abidələri daha çox seçilirdi (241, s. 426).

# FƏSİL 2.

# PAYTAXT ŞƏHƏRLƏRİN SALINMASI

Selevkidlərin qısa müddətli hökmranlığı (331-256 e.ə.) nəzərə alınmazsa Əhəməni (550-331 e.ə.) və Sasanilər (224-642 e.ə.) imperiyası arasında Parfiya imperiyası (250-224 e.ə.) yaranır. Bu imperiyaların paytaxtları öz monumental saray binaları, bu binaların bəzək işləri heyran hissi yaradırdı. Daş binaların çoxsütunlu zalları, yüksək platformlar üzərindəki saraylar zamanla tərk edilmiş və unudulmuşdur (189, s.14, 264, s.198).

Əhəmənilərdən Persepol və Kirin mavzoleyi kimi möhtəşəm sarayların xarabalıqları qalsa da, parfiyalılardan onlardan daha çox hökmranlıq etdiklərindən (474 ilə qədər) abidələr nisbətən yaxşı qalıb. Onlar Romanın zəhmli rəqibləri idilər və İranın ərazisi xaricində yerləşən Nisanı hesab etməsək, özlərinin əzəmətlərinə layiq paytaxtın təməlini qoymamışdılar.

Sasani dövlətinin paytaxtı Ktesifont 637-ci ildə ərəblər tərəfindən istila olunur və dağıdılır. İmperiyanın məhvi paytaxtın taleyini həll edir.

Müsəlman şərqinin, o cümlədən İranın şəhərləri əsasən gözəl və yumşaq planlı sistemlə tikilməsinə baxmayaraq, onların xaotik, plansız və şəhərsalma ideyalarından uzaq olduğu söylənilir. Bir çox şəhərlərin planlaşdırma strukturunun analizi, tarixi formalaşma və inkişafdan görünür ki, tikinti sahəsi ayrı-ayrı yaşayış məhəllələrinin vahid şəhər ərazisində birləşməmək tendensiyası var. Çünki şəhər hakimlərinin və planlaşdırıcının iştirakı olmadan tikilirdi. Bu xüsusən qonşu mülkləri, ümumiyyətlə şəhərin planını nəzərə almadan, nizamsız tikilən şəxsi tikintilərə aid idi (211, s. 172).

Ancaq sifarişçi şahinşah, şahzadə və ya canişinlər, bir sözlə hakimiyyət dairələrindən olduqda məsələ dəyişirdi. Böyük şəhərlərin (İsfahan, Əşrəf, Sultanabad) struktur planı, mərkəzi ansamblı (Məşhəd, Tehran, İsfahan), kompozisiya bəndləri (Kirman, Kirmanşah), saray kompleksləri (Təbriz, Buncurd) şəhərsalma ideyası ilə tikilib. Böyük məsələlərin həllində mütəşəkkillik, əsas elementlərin düzəlişində dəqiqlik, səmərəlilik məsələləri İran şəhərlərinin planlı quruluşunda önə çəkilir və inkişaf edən şəhər sisteminə daxil edilirdi (177s. 120).

Qeyd olunan özəlliklər təsadüfən ortaya çıxmırdı, bu qədim şərq şəhərsalma ənənələrindən irəli gəlirdi. Burada həm iqlim, həm insanların yaşayış tərzi, həm də tikinti sənətinin incəlikləri nəzərə alınırdı.

Parlaq memarlıq-planlaşdırma ansamblların, şəhər tikililərinin təsiredici məzmunlu, dəqiq həndəsi əsaslı elementlərinin meydana gəlməsi təsadüfi hal yox, qanunauyğun haldır. Belə tarixi dəyəri olan şəhərsalma ənənələri indi də müasir İranın şəhər strukturlarında aktiv işlədilir.

Məsələn, Təbrizdəki Bağmeş alaqapısı yanındakı Abbas Mirzə sarayı 1827-ci ildə II dərəcəli topoqraf Sazonov tərəfindən cizilib. Saray böyük bir kompleks (390x256 metr) şəklində hazırlanıb. Bu-



*Təbriz. Şardenin təsvirində. 1665-1673.*

raya bağça ilə əhatə olunan giriş, inzibati və yaşayış hissəsi daxildir (253, s.88).

Sarayın kompozisiya planı pavilyon sistemi prinsipləri və qapalı daxili həyət kimi tikilərək üstübağlı keçidlərlə birləşdirilib. Sarayın yerləşdiyi bütün ərazini üç əsas hissəyə bölmək olar: mərkəzi, kazarmaya və təsərrüfat.

Mərkəzi qrup özündə aynalı pavilyonu, hərəmxana, hamam və qəbul otaqları yerləşən binanı birləşdirir. Qala və bürc layihəsini hazırlayan fransız və ingilis mühəndislərinin onun qərarına əhəmiyyətli dərəcədə təsir göstərməsinə baxmayaraq Abbas-Mirzənin sarayında ənənəvi saray planlaşdırma quruluşu hakim yer tutdu.

Lakin müsəlman şərqinin sosial məişət qaydaları, qapalı həyat tərzi sarayı 2 hissəyə: birun (kişi) və əndəruna (qadın) bölünməsini tələb edirdi və Abbas Mirzənin sarayında da bu qaydalara ciddi şəkildə əməl olunub. Fontanlar, gül bağçaları dövlət başçısının sarayının daxili həyətini bəzəyir və özünəməxsus mikroiqlim və bədii mühit yaradırdı. Həm kiçik sahələri olan mərkəzi binalar qrupunun həllində, həm əsgər kazarmalarda və iri açıq fəzalı tövlələrdə olduğu kimi, saray planının əsasını düz həndəsi fiqurlar təşkil edir. Burada şəhər ərazisinin planlaşdırmasında qarma-qarışıqlıq yaradan nə əyri dalan, nə də döngələr var. Sarayın kompozisiyasının mütəşəkkilliyi, binalara xas konstruktiv dəqiqlik, abadlıq elementləri ölkədə şəhərsalmanın inkişafında vacib yer tutur.

Təbrizin gözəlliyini həm şəhərdəki, həm də şəhər ətrafında salınan təmtəraqlı bağlar təmin edirdi. Bəzi bağlar ətraf mü-

hitin dəyişməsində aktiv rol oynadığına görə memarlıq-planlaşdırma baxımından tamamilə başqa məqsədlər güdür, adi bağlardan quruluşuna və miqyasına görə seçilirdi. "Xalat Puşan", "Şah goli", "Bağı Şimal" bağları Qacarların dövründə "böyük Təbriz" ərazisinin açılmasında planlaşdırma funksiyasını daşıyırdı. Məkanın topoqrafik vəziyyətindən asılı olaraq bu bağların hər biri memalıq-planaşdırma, bədii-estetik funksiya daşıyırdı. Yerin seçilməsi, ətraf mühitin istifadəsi, obyektlərin tikintisi saray kompozisiyalarının yaradılmasında təyinedici rol oynayırdı.

"Xalat Puşan" bağı ümumilikdə Təbrizin park sisteminin əsasını təşkil edir. Bağın quruluşunda sistematiklik gözlənilib: dairəvi ikimərtəbəli bina mərkəzdə hovuz və dövrələmə ağaclar tədricən gül kollarına keçir. Bağın bütün ərazisi və hovuz daş ilə haşiyələnmiş, daşlarla bəzədilmiş cığır ümumi kompozisiyanı tamamlayır.

Dairəvi binanı mərkəzini günbəzli səkkizguşəli zal və buxarı quraşdırılmış

**۲.۳.۱۴. ائل‌گلی**

از بانی نخست مجموعهٔ ائل‌گلی که آن را استخر شاه و شاه‌گلی نیز می‌نامیدند، اطلاعی در دست نیست، اما معلوم است که قهرمان‌میرزا پسر عباس‌میرزا و برادر محمدشاه استخر آن را مرمت کرده و عمارت دو طبقه‌ای در میان آن بنا کرده بود. محمدحسن‌خان اعتمادالسلطنه در این باره چنین نوشته است: «در یک فرسخی شهر در سمت شرقی دریاچهٔ بزرگی شاهزاده قهرمان میرزای مرحوم ساخته است. بنیان این عمارت در وسط دریاچه گذاشتند و عبارت است از کلاه‌فرنگی دو طبقهٔ بسیار آباد که نهایت با روح و صفا بوده است و از وسط دریاچه خیابانی برای راه کلاه‌فرنگی تعبیه شده و کوه‌بلندی را که مقابل این عمارت است پله‌پله نموده و مجموع را گلستان کرده‌اند و بزرگی این دریاچه به درجه‌ای است که به قدرت دو سنگ آسیا آب وارد آن می‌شود و مع‌ذلک در مدت شش ماه پر و مملو می‌گردد.»[۱۷۷]

گفته‌اند که قهرمان میرزا می‌خواست این مجموعه را به عنوان کاخ ییلاقی خود مورد استفاده قرار دهد اما پیش از اتمام تزئینات بنا فوت کرد و فرزندانش این بنا را بدیمن دانستند و آن را رها کردند تا به شکل بنایی متروکه درآمد.

نادرمیرزا که بیشتر عمر خود را در تبریز به سر برده و آشنایی کافی با بناهای تبریز داشته است دربارهٔ عمارت شاه‌گلی مطالب مفصل و جالبی به این شرح نگاشته است:

«بجانب شرقی مایل بجنوب مزرعه کوچک است موسوم به شاه‌گلی و چند خانوار رعیّت در آنجا ساکن است و ملک یک سلسله سادات تبریز است که راه و رسم دیری دانند در آن



□ نقشهٔ ائل‌گلی.
□ مأخذ: دونالد ویلبر.

*Təbriz. "Şah-gölü"n planı.*




*Təbriz. "Şah-gölü" pavilyonunun planı.*

dörd otaq təşkil edir. Zalın dörd tərəfində yerləşən şəbəkəli pəncərələr bütün daxili fəzanı işıqlandırır. İkinci mərtəbənin planlaşdırılması da eynidir. Bina ümumilikdə diametri 35 metr, 16,5 metr hündürlüyündə tikilməsinə və müqayisədə o qədər də böyük olmamasına baxmayaraq, bağla birlikdə formasına görə planlı fokus mövqeyi tuturdu.

İ.Beryozin yazırdı ki, "Xalat Puşan sarayının fasadı ağardılmasa da, ümumilikdə gözəl binadır..." (23, s.79).

Azərbaycan əvvəlki hakimi Qəhrəman Mirzə tərəfindən tikdirilən, dağlar arasında vadidə yerləşən məşhur "Şah goli" sarayının tikintisində "Xalat Puşan" kompozisiyasının memarlıq planlaşdırma işləri daha da inkişaf etdirilir. Yonulmuş daşdan hazırlanmış lociyalı pavilyon üslublu ikimərtəbəli bina ada kimi süni gölün məkəzində yerləşir. Binanın çevrəsini daş səki, ondan sonra 1830-cu illərin sonu – 1840-cı illərin əvvəlində əkilmiş ağaclardan xiyaban əhatə edir.

Xiyabanın arxasında şəhərə tərəf daş yamac salınıb. Yamacdan sonra isə, aşağıda bağın bir hissəsi görünür. Daha sonra "meboriz", yəni bostan gəlir.

Saray pavilyonlarının su hövzələrinin içində tikilməsi Qacarlar tərəfindən geniş istifadə olunan saray üslubu idi. Bu xüsusən Nəsrəddin şahın zamanında, daha çox Tehranda yayılmışdı. Saraylar rəngarəng kompozisiyaların planlaşdırılması, konstruktiv formaları olan tağların, şəbəkə pəncərələrin və digər memarlıq elementlərinin, çoxrəngli kaşıların hesabına eyni stilistik istiqamətə malik idi.

Təbrizin kənarlarında bağ-park kompozisiyaları Tehrandan daha erkən yaranmağa başlamışdı. "Şah gölü" İran memarlıq sənətində bu istiqamətin ən yaxşı nümunəsidir. Xiyaban yaşıllığı ilə əhatələnmiş «Şah gölü» açıq qalan su səthinin qarşı tərəfindən kompozisiyaya ərazinin yüksək təpə şəklində olan relyefi daxil olaraq olaraq inandırıcı memarlıq həlli qazanmışdır. Gölün bütün eni boyu təpə «Qacar Qəsri»ni xatırladan doqquz daş teraslara bölünür. Bu terraslaşdırılmış monumental kompozisiyanın ən yüksək nöqtəsini daş koşklü hovuz bəzəyir. Köşkdən daş pilləkənlərə qədər olan məsafəni şəlaləyə bənzər sistemdə quraşdırılmış kaskaddan bulaq suyu axır. Kaskadın hər iki tərəfindən gəzinti üçün kiçik pillələr quraşdırıb və burdan "Şah gölü"nə gözəl mənzərə açılır. I.N.Beryozin yazırdı: " Daş pilləkənlərin üzərindən su axınını dayandırıb bulaq-

*Təbriz. "Şah-gölü"n ümumi görünüşü.*






*Təbriz. Abbas-Mirzə sarayının planı.*

dan o qədər su götürmək olar ki, o, doqquz çıxıntının eni boyu üzrə düz şəlalə formasında hərəkət edəcək və bu zaman parlaq günəş işığı altında suyun oynaması əsrarəngiz olacaq"yazırdı (23, səh. 81).

«Şah gölü» pavilyonu sahillə damba şəkilli daş səki ilə əlaqələnir. "Şah gölü"nün daxili kompozisiyasının mərkəzində "Xalat Puşan"da olduğu kimi doqquz borucuqlu, eyni formalı hovuzla səkkizguşəli zal təşkil edir. Zalın çatısı yonulmuş stalaktit kapitelli səkkiz tağın üzərində qurulub. Zal rəngarəng şüşəli böyük şəbəkə-pəncərələrdən keçən günəş şüaları ilə işıqlanır. Zalın ümumi kompozisiyasında hovuz mühüm rol oynayır. Burdan artıq olan su gözəl əl işi ilə işlənmiş novçalardan və daş pillələrdən süzülərək gölə tökülür. Zalın hər küncündə ikinci mərtəbədə olduğu kimi dörd otaq var. İkinci mərtəbənin güzgü qırıqları ilə örtülmüş tağlı tavanı var, mərkəzdə isə ümumi həcmi tamamlayan günbəz tilkilmişdir. "Şah-gölü" XIX əsrin əvvəlidə saray tikintisində yayılan pavilyon üslublu tikilidir, bir qədər "Qəsre-Qacarın" bağ pavilyonunu xatırlatsa da, kompozisiyası özünə məxsus memarlıq ifadəsinə malikdir.

"Baba bağı" dağının ətrafında, geniş vadidə, Yucan deyilən yerdə şahzadə Abbas Mirzə XIX əsrin əvvəllərində saray tikdirmişdi. 1817-ci ildə A.P.Yermolov öz rəiyyəti ilə Abbas Mirzənin Yucan sarayında olub. Bu zaman ikimərtəbəli sarayın mezoninli (bala-xana) üçüncü mərtəbəsi düzəldilib səliqəyə salınsa da, tikintisi tam bitməmişdi. Sarayın ərazisi abadlaşdırılmış, ağaclar əkilmiş, cığırlar salınmışdı. 1834-cü ildə Şahzadə Abbas Mirzənin ölümündən sonra saray tərk edilir və sahibsiz qalır.

1827-ci il planına əsasən şəhərin ərazisi qala divarlarının əhatəsində çox yığcam şəkildə salınmışdı. Cənubda şəhərin həndəsi oxu sayılan Ərk qalası şəhər divarlarının ümumi xəttindən kənara çıxırdı. Ərk qalasının şəhərin struktur planında yerləşməsi, xüsusən də Şah Abbasın əmri ilə 1600-cü illərin əvvəllərində tez-tez baş verirdi. I Şah Abbasın əmri ilə məşhur "Həşt-Behişt" sarayının ətrafında tikilən Təbriz qalasının üç dəfə dağıdılması (1603, 1610, 1611) Azərbaycan memarlığının incisi hesab edilən "Həşt-Behişt" sarayına da ziyan vurub.

İ.Beryozin 1842-ci ildə Təbrizdə olarkən qeyd edib ki, şəhər aralarında 10-4- addım olan iki divarla və çuxurla əhatə olunub. Qala divarından birinin hündürlüyü 3,55-5,70 m, digərinin hündürlüyü isə 5-7 m arasında idi. Hər divarın qalınlığı 1,5 m təşkil edirdi. Xəndəyin eni və dərinliyi 5 m-dir və kənarları qum təpələri ilə müdafiə olunub. Bütün divarların ümumi perimetri təqribən 4, 8 km təşkil edir (23, s. 347).

Şəhərin səkkiz darvazası vardı: şimalda – İstanbul, Dəvəçi; şimal-şərqdə – Sarab; şərqdə – Bağmeşə (bu tərəfdə şahzadə Abbas Mirzənin sarayı yerləşirdi), cənubda – Noubar, cənub-qərbdə – Miyarmiyan, qərbdə – Qacil, cənub-şərqdə Xiyaban qala divarlarının bu hissəsini yonulmuş daşlar və şir fiqurları

bəzəyirdi. Demək olar ki, bütün bu alaqapılar 1780-ci ilə qədər mövcud olub (2, s.163).

Təbriz şəhərinin bütün ərazisinin müdafiə sədləri magistralların dəqiq karkas sistemə daxil deyildi. Yəni magistral bir alaqapıdan başlayıb digərində bitirdi (Qacildən Noubara qədər). Bəziləri Bağmeşədən və Xiyabandan başlayıb, şərqdən qərbə bütün ərazidən keçərək əyri yollarla şəhər meydanları da daxil olmaqla Qacil alaqapısına gedib çıxırdı.

En şəhər magistralları meridional magistrallarla kəsişir, lakin onların hamısı sıldırım səciyyəlidirlər və en magistrallarını bir-birilə birləşdirirlər. Şəhərin planlaşdırılmış strukturunda magistral yollar çox olsa da dəqiq şəbəkəsi yox idi.

Şəhərin planında bir meridional magistral yol xüsusi rol oynayırdı ki, onun da İsfahan və ya Məşhəddə olduğu kimi düz klassik sxemi yox idi. Burada şəhərsalma strukturunun inkişaf sistemi ərazinin tarixi topoqrafiyasını nəzərə almaqla hazırlanıb və magistrallar da bu nöqteyi-nəzərdən salınıb.

Dəvəçi alaqapısından magistral yaşayış məhəllərindən keçib çayla paralel olan böyük qapalı meydana çıxır. Meydan çayla üç körpü vasitəsilə əlaqələnir. Qeyd etmək lazımdır ki, magistrala əsas istiqamət verilərkən çətin olmayan bir neçə keçidlərdən keçir. Belə çıxışlar magistralları əsas məqsəddən, bütün şəhərin yaşayış məhəllələrinin strukturunun mərkəzi olmaqdan ayırmır. Yalnız kənardakı üçüncü körpüdən olan keçid şəhərin əsas magistralının başlanğıcını qoyurdu və üzvi sürətdə Təbrizin ticari mərkəzinə daxil olaraq bütöv vahid təşkil edirdi.

1200 metr uzunluğu olan şəhərin ticarət mərkəzi çoxsaylı karvansaralar, mağazalar daxil olmaqla mürəkkəb planlaşdırma orqanizmi təşkil edir. İ.Beryozin bu barədə yazır: "Təbriz bazarı öz rəngarəngliyi ilə seçilirdi. Buradakı geniş, çoxsaylı mağazalar və malların çeşidliliyi ilə yalnız Tehran istisna olmaqla heç bir İran bazarı ilə müqayisə oluna bilməz. Malların sayının hesabına gəlincə isə Təbriz bazarı İranda rəqib tanımırdı" (23 s. 58).

Beryozinin zamanında (1842-ci il) ticarət mərkəzində 35 karvansara var idi və onların çoxu yerli zadəganlar Hacı Şeyx Kazım və Seyyid Hüseynə məxsus idi. Demək olar ki, bütün karvansaralar XIX əsrin əvvəllərində tikilmişdi və səkkizbucaqlı, düzbucaqlı həyətləri dükan və mağazalarla əhatə olunmuşdur.

Ticarət mərkəzinin bu cür planlaşdırma sisteminin təşkili şəhər ərazisinin ümumi sahəsini əhəmiyyətli dərəcədə zənginləşdirirdi. Karvansaraların memarlığı və planlaşdırması arasında sıx əlaqə yaranır ki, bu da bu günə kimi Təbrizdə öz aparıcı rolunu saxlamışdır.

Ticarət mərkəzindən keçən magistral yol hər iki tərəfdən geniş ikimərtəbəli pasajdan ibarətdir ki, vaxt keçdikcə kiçik meydançalara çevrilərək davam edir. Pasajın üstünü örtən nəhəng köndələn tağların üzərində, gözlüklərdə yeləşdirilmiş işıq fənərləri ifadəli memarlıq-konstruktiv sistemi təşkil edir.

Mərtəbələr arasında passajın plastik həcmli kütləsi daşıyıcı, hörgü tağları və mərtəbələrarası çatıların üfüqi hissələri vasitəsi ilə əldə olunub. Kərpiclərdən hazırlanmış naxışlar öz monumental formaları ilə pasajın bədii görünüşündə mühüm rol oynayır ( 228, s. 32-46).

Cənuba doğru magistral öz mahiyyətini itirərək, digər enli magistrallarla kəsişərək, düzənliyə çıxır və yenidən geniş küçəyə çevrilib Ərkin yanında bitir.

İki çay Acı-çay və Meydani-çay Təbrizin memarlıq strukturuna heç bir təsir göstərmədən, şimal sərhədlərindən keçə-

rək, ağır şəhərsalma sisteminin yerli halqəsi olaraq qalır. Acı-çay Baba-bağı dağın daşlı dağlarından axıb gəlir. Buranın yabanı təbiəti çox əsrarəngizdir, Acı-çayın üzərindən gözəl daş körpü keçir.

İranda Səfəvilər və Qacarlar tərəfindən tikdirilmiş saray tikililərinin baxımsız qalması tez-tez rast gəlinən haldır. Çünki dinastın ölümü ilə onların tikdirdiyi binalar da boşaldılaraq baxımsız qalır və xarabalığa çevrilirdi. Ona görə də belə bir mənasız prinsip bir çox İran şahlarının saraylarını Fətəli şahın Nigaristan, Tehran yaxınlığındakı Qəsr Qacar, Sultanabadda, Finədə və digər şəhərlərdəki saraylar ya uçurulub, ya da ilk görünüşlərini itiriblər. Bunun nəticəsi olaraq, Nəsrəddin şahın sevimli şəhərkənarı sarayları, əsasən də Dovşan təpəyə hələ onun oğlu Müzəffər şahın dövründə baş çəkilmirdi. Başlı-başına buraxılmış saray otaqları yararsız hala gəlmişdir: arakəsmələr uçmuş, divarlardakı qızılı haşiyələr və naxışlar öz incəsənət keyfiyyətini itirmişdir. Dövlət xəzinəsindən şahların ağılsız höcətləri üçün xərclənmiş böyük vəsaitlər bu gözəl saraylara əməyini sərf etmiş memarların əziyyəti varislər tərəfindən nəzərə alınmamışdı. Mövcud olan bahalı tikililər onları maraqlandırmırdı və əvvəlki sarayların aqibətini təkrar edən yeni saraylar ucaldılırdı.

Şəhərkənarı "Bağі Şimal" sarayı Təbriz şəhərinin cənubunda yerləşirdi. XIX əsrin əvvəlində təməli qoyulmuş bu sarayın planlaşdırma strukturu və həcm kompozisiyası sahibinin, yəni vəliəhdin (taxt-tacın varisi) dəyişməsi ilə dəyişirdi. Ona XX əsrin əvvəlinə uyğun stilistikada memarlıq görünüşünü dəyişdirərək yeni tikililər əlavə edirdilər.

Abbas Mirzənin dövründə tikilmiş "Bağі Şimal" XIX əsrin sonuna demək olar ki, olduğu kimi qalmışdı. Onun ikimərtəbəli memarlıq və həcm kompozisiyası saray tikintisinin klassik üsullarını ifadə edir. Memarın yaradıcılıq ideyalarının kökündə olan xüsusiyyətlər burada nəzərə alınıb. Memar əsas fasadın tikilməsində klassik sxemi qoruyub saxlayıb: birinci mərtəbə kiçik pəncərə oyuqlarını və stalaktit konxalarla bəzədilmiş girişi nəzərə alınmasa, demək olar ki, bağlıdır. İkinci mərtəbədə zalın enini və boyunu tutmuş nəhəng şüşəşəbəkəli təmtəraq zalı, yanlardan birinci mərtəbəyə girişin üzərində yerləşən kiçik dəhlizlər, otağın fasada çıxan hissəsində də vitraj-şəbəkə vardır.

Memar bu ümumi elementləri fasadın kompozisiyasının ənənəvi ifadəsi kimi istifadə edir. Fasadın memarlıq gövdəsini qurduqdan sonra, onun plastik həllinə keçir. İfadəlilik vasitəsi kimi dayaz, ekranşəkilli camaxatanlardan, nazik dekorativ tağlardan istifadə edir.

Mərkəzdə, döşənmiş otaqlarda yerləşən rəngarəng şüşə, fasadın kürəklə şaquli hissələrə bölünməsi, dinamik çatma tağlar və təravətli rənglərdən hörülmüş kərpic artırmalar öz emosionallığına görə ümumi kompozisiyadan seçilir. Bu gözəllik sarayın ətəyində tikilmiş hovuzun sularının güzgüsündə əks olunur.

İ.Beryozin 1842-ci ildə Təbrizdə səfərdə olarkən "Bağі Şimala" baş çəkmiş və onun görünüşü, xüsusi ilə də zalın interyeri haqqında təəssüratları ilə bölüşmüşdür. "Zalın divarları güzgü parçaları ilə bəzədilmişdir. Onların arasında isə avropalı və fars qadınlarının rəsmləri çəkilmişdir. Qapının yanlarında naşı rəssam tərəfindən fars ənənəsində ov təsvir olunmuşdur. Qapıların üstündə isə bir tərəfdən Napoleonun, o biri yanda isə İmperator Aleksandrın ayaqüstü rəsmləri təsvir edilmişdir. Rəsmlər fars rəssamı tərəfindən işlənmişdir. Binanın arxasında iki bağ vardır: ikincisi öz genişliyi

ilə valeh edir, birincisində isə buynuzları kəsilmiş ceyranlar gəzir"(23. s. 82).

Təbrizin müasir planında "Bağı Şimal" əvvəlki qədər böyük ərazini əhatə edir və bura Pəhləvi xiyabanından "Bağı Şimal" xiyabanı uzanır.

"Bütün küçələr boyu arxlar axır, amma bu bağlardakı meyvə bolluğuna təsir göstərmir. Küçələr İranda çinar adlanan gözəl kölgəli ağaclar ilə bəzədilib. Bu ağacların gövdəsi o qədər qalındır ki, onu dövrələmək üçün iki-üç adam lazımdır. Bunları nəzərə almasaq, Tehranda qeyri-adi, nəzər cəlb edən bir dənə də bina yoxdur" (221).

1553-cü ildə Təhmasib şahın dövründə Tehran qala divarları ilə əhatə edilmişdir. Şəhərdə istehkamlar (Ərk) və ticarət mərkəzi – bazar üçün yer ayrılmışdır. Müasir sərhədə malik Ərk ticarət mərkəzi açıq və örtülü piştaxtaları ilə birləşmişdir.

Ticarət və işgüzar mərkəzinin Ərkin himayəsi altında inkişafı tipik və nəticə etibarı ilə qanunauyğun bir haldır. 300 ildən artıq Tehranın ərazisi Təhmasib dövründə tikilmiş qala divarları çərçivəsində təyin edilib. Tikililər tarixi mərkəzin ətrafında təbəqələnməmiş küçələr şəbəkəsi, relyef, ictimai, iqtisadi və başqa faktorlar nəzərə alınmaqla inşa edilib. Şəhər məhəllələrinin planlaşdırılması zamanı olan faktorları nəzərə almamaq və onları xaotik qaydada olmasını hesab etmək düzgün deyildir. Burada planlaşdırma həm də ictimai-iqtisadi qanunauyğunluq nəzərə alınıb. Bütün bunlar şəhərin şəhərsalma strukturunu ifadə edir.

*Qəzvin. Nəbi məscidi. Qacarlar dövrü.*



Şəhərin planlaşmasının mərkəzində duran azad inkişaf sistemi şəhər darvazasına doğru istiqaməti əsas kimi götürülmüşdür. Kiçik mərkəzlərə malik məhəllələr əmələ gəlmişdir. Bir-birindən əlverişli məsafədən yerləşən bu mərkəzlər şəhərin qovşaqlar kimi şəhərsalma elementini təşkil etmişdir (183).

Tehranda Ərk və ticarət mərkəzi şimaldan cənuba doğru ox şəklində bir az şərqə meyl edərək şəhər ərazisinin böyük hissəsini tutmuşdur. Kiçik mərkəzlər, möhkəm qurulmuş siyasi və işgüzar mərkəzə nisbətən əsas mövqe tutmuşdur.

İngilis Gerbert qeyd edir ki, Tehran vadinin mərkəzində yerləşir. Evlər ağ daşdan tikilmişdir. Şəhərdə 3000 ev var, lakin ən yaraşıqlı Xan sarayıdır. Bazar iki hissədən ibarətdir: açıq və örtülü.

Ortasında Zəndə-Rud çayı keçən İsfahan düzənlikdə yerləşir. Şəhər divarına bitişən cənub-şərqdən başqa, hər tərəfi dağlarla əhatə olunub. İqlim cəhətdən qədim İsfahan yerləşən düzənlik İranda ən yaxşıdır və kultivasiya yolu ilə ölkədə bitən istənilən bitkini burda yetişdirmək olar.

Bəzi məlumatlara görə İsfahan adı ərəb sikkələrində çəkilən Ceya şəhərinin xarabalıqlarının yerində meydana gəlmişdir. İsfahan adına tarixi vilayət kimi şəhərin mövcudluğundan əvvəl rast gəlinir. "Məsələ burasındadır ki, Pəhləvi mətnində parfiya çarına Ərdavana məxsus vilayətlərin sırasında İsfahan və Fars"ın adı çəkilir (260).

İsfahanın qədim şəhər olmasına şübhə yoxdur, ancaq onun şəhərsalma fraqmentlərinin ilk rəsmləri 1673, 1711 və s. illərdə müəyyən edilmişdir. Bu fraqmentlər tarixi və memarlıq planlaşdırma nöqteyi-nəzərindən böyük maraq doğurur, şəhərin şəhərsalma məzmununu, mərkəzi hissənin planlaşdırma quruluşunun təssəvvürdə canlandırır. İsfahanın düzgün təşkil edilmiş meydanları, saray kompleksləri və əsrarəngiz bağları Şərqin klassik bağ-park incəsənətinin zirvəsi sayılır. 1673-cü ilin rəsminə əsasən Meydani-Şah meydanı təsvir olunsa da onun ətrafındakı tikililər o dövrün şəhərsalma prinsiplərini əks etdirmir. Bu şərti təsvir Şah Abbas dövründə gedən planlaşdırma yenidənqurması haqqında dəqiq məlumat vermir. Bununla belə bu rəsm Meydani Şahın həcm və memarlıq sahəsini əks etdirir və bununla da İsfahan üzrə yığılan ikonoqrafik kompozisiyalarının təməlini qoymuşdur.

İsfahanın 1711-ci il üçün olan təsviri memarlıq və planlaşdırma nöqteyi-nəzərindən ustalıqla yerinə yetirilib, şəhər ərazisini daha geniş əhatə edir, Meydani-Şahdan qərbə tərəf uzadılaraq, şəhərin ən vacib şəhərsalma məqamlarını qeyd edir. Şəhərin mərkəzi hissəsinin planlaşma səciyyəsi düzgün qeyd olunub, magistral və sıravi küçələrinin həndəsi toru, Səfəvilər saray kompleksinin daxili planı, məşhur Çahar bağ xiyabanının həlli burada öz əksini tapıb.

Şəhərin əsas hissəsinin meydanların, sarayların, məscidlərin, bazarların və bağların, çoxgünbəzli tikililərin təyinatını ayrı-ayrılıqda açan və memarlıq ümumiliyini dəqiq əks etdirən aksonometrik təsvir, zəngin məlumatla dolu tarixi mahiyyət kəsb edir (238, s. 71-79). Bu rəsm şəhərsalmanın miqyasını, Şah Abbas və onun varisləri tərəfindən aparılmış böyük planlaşdırma məsələlərinin həlli üçün nəzərdə tutulmuş şəhərsalma proqramının bütövlüyünü anlamağa imkan yaradır. Müsəlman Şərqinin tarixində XVII-XVIII əsrlərdə İsfahanın planlaşdırılması və tikintisinin əsasını təşkil edən şəhərsalma tədbirlərinin bədii cəhətdən tayı bərabəri yoxdur (111, s.10).

İranın şəhərsalma incəsənətinin bu zirvəsinə çatmağının səbəbinin kökündə

ölkə şəhərlərinin çoxəsrlik inkişaf ənənəsi durur. Bu Təbriz və Qəzvin kimi keçmiş paytaxt mərkəzlərində özünü büruzə verir. Qazanxanın və ondan sonrakı hökmdarların dövründə aparılmış irimiqyaslı tikinti tədbirləri, Təbriz memarlıq məktəbinin memarlarının yaratdığı yüksək incəsənət nümunələri sayılan memarlıq komleksləri, Şah Abbasın tikinti fəaliyyətində böyük rol oynamışdır (262).

İsfahanı özünə paytaxt seçən Şah Abbas, qarşısına dövrün əzəmətini və çiçəklənməsini əks etdirən memarlıq ansambllarıilə zəngin şəhərin yaradılması məqsədin qoyur. Monumental memarlıq formalarının dekorativliyi tikiliyə təmtəraq və əhatəlilik verir, ümumiləşdirilmiş formalı çoxüstünlü ibadət zalı isə interyerin ciddi detallarını səciyyələndirirdi.

Məscidin yanında geniş və uzun, çoxsaylı qolları olan bazar yerləşir. Üstübağlı, tağtavanlı bazar öz konstruktiv formaları, bişmiş kərpicdən tikilmiş işləməli qarınaltı tağları və yuxarı hissəsinin oyuqları ilə çox gözəl tikili sayılır. Çoxəsrlik ənənəyə və müxtəlif kompozisiya və konstruktiv fəndlərə malik bu üslub Şərq pasajı Vekila bazarında öz əksini tapmışdır. Bazarın daxili hissəsi uzun formalıdır və aşırımlarının genişliyi 8 metr təşkil edir, uzununa iki konstruktiv hissəyə bölünür. Aşağı hissədə yastı dördkünc camaxatanlar, yuxarıda isə taxtapuş vəzifəsini daşıyan mürəkkəb tağtavan sistemi vardır. Qarınaltı tağlar sırası köndələn tağlarla birləşir, sonra isə tromplar vasitəsi ilə günbəzə keçir. Konstruktiv formalar və təsirli memarlıq fəndləri bazarın yuxarı hissəsinin həllində yeni kompozisiya məzmununu canlandırır.

Planlaşdırmanın və tikilinin dayaq məntəqəsi kimi monumental dini və mülki tikililər yaşayış məhəllələrin inkişafı səciyyəsini təyin edərək şəhərin şəhərsalma şəbəkəsinə daxil olur. Dövrün sosial-məişət, stilistik, bədii, memarlıq xüsusiyyətlərini əks etdirən yaşayış evləri və saray üslublu evlər bu mənada böyük maraq doğurur. Burada su bütün formalarında bağ-park incəsənətinin aktiv elementi kimi istifadə olunur, cənub iqlim şəraitində yaşıllıq memarlığından və memarlıqdan istifadə heç bir yerdə olmayan kimi var gücü ilə özünü göstərir (239).

Xiyabanların ortasında kənarları enli daş lövhələri ilə hörülmüş modi (kanal) düzəldilib. Modinin hər iki tərəfi möhtəşəm çinarlarla bəzədilmişdir. Kanalları vahid sistemdə birləşdirən bu cür planlaşdırma sxemi platforma üzərindəki sarayın vəziyyətini möhkəmləndirir. Düzbucaqlılara bölünmüş bağın yerdə qalan sahəsi yerli səciyyə daşıyır. Planda kvadrat formalı, tinləri kəsik və təraşlanmış taxta sütunlu portikli saray bu geniş sistemin kompozisiyasının əsasını təşkil edir. Sütunlar portikin hündür tavanına dayaq verir, divarlarda olduğu kimi xırda güzgü parçaları ilə bəzədilmişdilər. Portikin arxasında (mərkəzində) hovuz yerləşən sarayın içəri hissəsinin mənzərəsi açılır. "Bu hissənin tavanı böyük zövqlə işlənmiş qızılı naxışı olan stalaktitlərdən ibarətdir. Onun mərkəzində sınıq künclü, səkkiz pəncərəli günbəz ucalır, tavanın altında qızılı stalaktitlərlə bəzədilmiş alçaq eyvanlar düzülüb. Aşağıda, terasın sağında və solunda Fətəli şahı təsvir edən iki rəsm vardır " (21, S. 26). Sarayın interyerinin bir hissəsi Fətəli Şah dövründə bərpa edilmiş, Zilli-Sultan isə onu dağılmaqdan xilas etmişdir.

Həşt-Behiştin və İsfahanın başqa binalarının dəqiq ölçmələri fransız memari Paskal Koste tərəfindən aparılmışdır və 1867-ci ildə Parisdə dərc edilmişdir (182). Sarayın binasında 1882-ci ildə əsl adı Məsud-Mirzə olan Zilli-Sultan əla-

həzrətlərinin şərəfinə adlandırılmış "Mədrəsə-mübarəki-məsudiyyə" məktəbi, yəni "Məsudun xeyir-duası ilə məktəb"açılmışdır" (8, s. 48).

Çahar-bağ üslubunda tikilmiş başqa xiyabanların salınması şəhərin müxtəlif rayonlarında XVII-XVIII əsrin əvvəllərində də davam etdirilmişdir. Lakin planlaşdırma və tikilməsi ilə daha rahat və perspektivli, Çahar-bağın qərbində yerləşən, düzbucaqlı məhəllələr rayonunun şəhərsalması bu rayonun qərbindən və enindən keçən xiyabanın tikilməsi ilə başa çatdı (56, s. 83).

Meydani-Şahın cənub-şərq küncündən 1851-ci ildən üstübağlı küçə ticarəti fəaliyyət göstərirdi, bundan sonra isə bağlı hasarlı boş küçələrlə Fəthabada, Çahar-bağa bənzər xiyabanın ərazisinə çıxaraq, öz yolunu Zəndə-Rud çayının sahilində bitirir. Xiyaban cənub-şərq məhəllələrinin daxilində yeganə magistral idi və tarixi və yeni məhəllələrin ümumi quruluşunda uşusu yer tuturdu. Onun memarlıq-planlaşdırma cəhətdən İsfahanın planında aydın və dəqiq karkasdan ibarət, şəhərin əsas şəhərsalma elementləri ilə əsaslı əlaqəsi yox idi. Xiyaban bu günə qədər şəhərin bu hissəsində öz əhəmiyyətini qoruyub saxlamışdır. Baş tərəfdən Çahar-bağa paralel olaraq, şimal istiqamətində gələcəkdə ümumşəhər əhəmiyyəti daşıyan magistral çəkilmişdir.

Cənub istiqamətində inkişaf edərək, xiyaban dördüncü Taxta-Fülənd (dəmir lövhələrin ağlaması) körpüsünü keçib, şəhərin başqa bir saray parkının yarandığı əraziyə keçir. Ətrafi bağçalı saraylarla tikilmiş Çahar-bağ və Əmin-abad xiyabanları ərazini çarpazlayaraq, Şiraz darvazalarına qədər, ordan da Şiraza aparan karvan yoluna çıxır.

1851-ci ildə Çahar-bağ və Əmin-abad xiyabanlarının hər iki tərəfində bağçalı saraylar, belvederlər və pavilyonlarla əhatə olunmuşdur. Onların ən yaxşıları "İsfahan şəhərinin müfəssəl planı" əsərində öz əksini tapmışdır: ərazisində saraylar yerləşən Bağí Saadatabad (səadət bağı), Qəsri Həft Dəstevəli (yeddi fligelli saray), Qəsri Ayne Karan (güzgülü saray), Kösk Naməhtun (nadir pavilyon), Hamami Vali, Bağí Dadi Əminədoule (bağban Əminin bağı), Bağí Əmin-abad (Əminin yaşadığı bağ), Bağí Nigarestan, Bağí Təkiyyə Ağa Məhəmməd Qasım (Dərvişlərin qalması üçün karvansara və ya sığınacaq), Bağí Molla Məhəmməd, Bağí Molla Səid, Bağí Taxta Füləd, Taxta Füləd karvansarası, Bağí Baba Ruh, İmamzadə Baba Ruh və s.

Üçyüzmetrlik eni olan bağ üç paralel xiyabanlara bölünüb: mərkəzi və nohuru, kanalı və güllükləri olan cinah hissələrə, onların arasında isə müxtəlif gül və meyvə kolları əkilmişdir. Bağın eninə olan üç hissəsi kanallarla kəsişir. Mərkəzi xiyabanın bu cür həndəsi planlaşdırma kompozisiyası bir sıra dəbdəbəli pavilyonlara, kaskadlı fontanlara, hovuzlara malikdir. Bağ bütünlüklə dörd terras üzərində qurulub və saraydan tədricən cənuba tərəf qalxır.

Ən hündür terrasdan su aşağı tökülür və nohurları, kanalları dolduraraq fontanları işə salırdı. Memarlıq-planlaşdırma baxımından zəngin olan bağ ətraf mənzərəyə yaraşır, yüksən etnik funksiyaları yerinə yetirərək, Çahar-bağın ümumi kompozisiyasını tamamlayır.

İsfahanın 1851-ci il planında birbirini tamamlayan iki geniş bağının yerləşməsi qeyd olunur, bağların rəsmi və planlaşdırma səciyyəsi, bu mənzərəli kompozisiyanın əsas və yerli şəbəkəsinin incə və böyük zərifliklə çəkilməsi insanı heyrətə gətirir. Bağların ərazisi mütənasib hissələrə bölünüb, həcmli elementlər uğurla yerləşdirilib, onların mikrostruk-

turu plastik surətdə həll edilib. Şəhərin bi sahəsi Şərq şəhərsalmasının ən gözəl nümunələrindən biridir.

"Bu bağda (yəni Baği Xəzər-Cərib) bir vaxtlar yeddi saray və ayrıca bağ və bostan Bağçeyi Təlai (qızıl bağ) olub, indi isə adı çəkilən saraylar və bağların hətta izi də qalmayıb. Deyilənə görə bu sarayların materialı indiyə qədər mövcud olan şəhərkənarı saray Həft Dostenin (yeddi fligel) tikintisinə sərf olunub". Avropa qravyuralarının birində Baği Xəzər-Cəribin mərkəzi xiyabanının şimal istiqamətində olan təsviri çəkilib. Xiyabanın hər iki tərəfində olan möhtəşəm çinarlar bütöv hovuz sistemini və onları birləşdirən kanalı və sonunda Xəzər-Cəribi bəzəyir.

Ərəblər bu şəhərin üstünlüklərindən istifadə etməmiş və o atılmışdır.

Şəhərlərin inkişafı sosial-iqtisadi, siyasi, dini və başqa faktorlardan asılıdır və onların mövcudluq müddətini təyin edir. Bu və ya digər faktorların olmaması onların inkişaf tempini zəiflədir, sonra isə məhvinə gətirib çıxardır. Nadir hallarda atılmış şəhərlər, əsasən də keçmiş paytaxtlar yenidən dirçəlir, əvvəlki inkişaf həddinə çatır və yaxud ərazisini genişləndirməkdə, tikililərinin monumentallığında, abadlığında irəli gedir. Məşhur Persepol, Süzə, Ktesifont bunun əksinin sübutudur. Atılmış şəhər, ətraf torpaqların məhsuldarlığının və əhalinin rifahının əsasını təşkil edən süni suvarma sistemi onun dirçəlişinə təkan vermirdi. Şəhərlərin arasında iqtisadi əlaqələrin kəsilməsi, karvan yollarının yerinin dəyişməsi şəhər törəmələrinin inkişafında vacib rol oynadı (92).

İranın yeni paytaxt mərkəzlərinin meydana çıxması ölkənin ərəblər tərəfindən işğalından sonrakı vaxta təsadüf edir. İranın sonuncu islama qədər paytaxtı Ktesifontun (637 il) süqutu və Təbrizin XIII əsrdə Hülakülər-İlhanilər dövlətinin mərkəzi olması arasında çox böyük zaman məsafəsi durur. Məhz bu dövrdən Təbriz İran ərazisində əmələ gələn müxtəlif dövlət quruculuqlarının dəyişməsinə, sülalələrin bir-birini əvəz etməsinə və yeni paytaxt mərkəzlərinin əmələ gəlməsinə baxmayaraq həm iqtisadi, həm də mədəniyyət baxımından öz aparıcı əhəmiyyətini saxladı (111, s.10-15).

Təbrizin memarlıq məktəbinin və miniatür rəssamlığının təsiri Yaxın və Uzaq Şərqdə çox böyük idi (42, s.325; 51, s.165). Təbrizin memarları və rəssamları Yaxın Şərq bölgəsində, İstanbuldan tutmuş Dehliyə qədər şah əsərlərin yaradılmasında iştirak etmişlər (53, s.117; 207, s.51). Təbriz türk ordusu tərəfindən zəbt olunduqdan sonra səfəvi imperiyasının paytaxtı rolunu itirmiş, və öz yerini 1548-ci ildə Təhmasib Şahın paytaxt elan etdiyi Qəzvinə vermişdir (207, s.51). Qəzvinin əlverişli təbiət-iqlim xüsusiyyətləri və karvan yollarında, Xorasan və Türkiyə arasında yükboşaltma məntəqəsi olsa da paytaxt mərkəzi kimi cəmi yarım əsr, 1598-ci ildə I Şah Abbas buranı tərk edib, qədim İsfahanı özünə paytaxt seçənə kim, qala bildi (250, s.27).

Qəzvinin azmüddətli paytaxt statusu müəyyən dərəcədə şəhərin təsərrüfatında, memarlıq-tikinti inkişafında müsbət rol oynamışdır. Şah Abbasın arzusu ilə İranın əsl paytaxtı İsfahan oldu. Şəhər öz memarlıq əsərləri ilə bundan sonra dünya əhəmiyyətli yüksək şəhərsalma incəsənətinin göstəricisinə çevrildi (141, s. 221-234).

Nəhəng tikintinin geniş fonunda İsfahanda çoxəsrlik memarlıq və şəhərsalma ənənələri nümayiş etdirilmiş, o dövrün kompozisiya fəndləri, həcmi-məkan və stilistik xüsusiyyətləri cəmləşdirilib və dərk edilib. İsfahan 1598-ci ildən 1722-ci ilə kimi ölkənin əfqanlar

tərəfindən işğalına kimi İranın paytaxtı qalmışdır. Şəhərin tarixində bu dövr memarlıq və şəhərsalma hadisələri ilə zəngindir, Şah Meydan, Çahar-Bağ xiyabanı, Əli-Qapı sarayı (XV-XVII əsr), Məcid şah (1612-1630-cı il), Lütfullah məscidi (1603-1618 il), Çəhəl Sütun saray pavilyonları(1603-1618-ci il.), Həşt-Behişt (1670 il ), Tələr Əşrəf, mədrəsə və karvansara Madəri şah (1706-1714-ci il), Allahverdi Xan körpüləri (XVII əsr), Pole-Hacı (1642-1667-ci il) və s. kimi incəsənət ansambllarının yaranması ilə qeyd olunub.

Baxmayaraq ki, Şiraz İranın paytaxtı kimi (XVIII əsr) İsfahanın yerinə keçir, İsfahan müstəsna əhəmiyyətə malik şah əsərlərinin memarlıq və şəhərsalmanın Məkkəsi sayılır.

İran incəsənətinin inkişafının sonuncu dövrü ölkənin potensial imkanlarını zəifllədən sosial-iqtisadi sarsıntılar memarlığın ümumi dirçəlişinə təkan verməmişdir. Buna baxmayaraq, İsfahanın Səvəfi dövrünün memarlığı İranın növbəti paytaxtı Şirazı və başqa şəhərləri bəzəyən memarlar üçün əsl məktəb olmuşdur.

Kərim Xan Zəndin səyi nəticəsində Şiraz (1750-1779-cu il.) inkişaf etmiş planlaşdırma mərkəzinə sahib oldu, məscid və üstübağlı Vəkil bazarıyla (1773-cü il), kitabxana və öz planlaşdırma təşkilatı, rəng çalarları və pavilyonları ilə məşhur olan bağlara bəzəndi (142, s.272).

1779-cu ildə Kərim xan Zəndin vəfatından sonra yaranmış qarşıdurmalar və Zəndlər və Qacarlar arasında hakimiyyət uğrunda mübarizə tikintini, əsasən də irihəcmli tikintilərin inkişafını məhdudlaşdırdı. Qacarların hakimiyyətə gəlməsi və sülalənin başlanğıcı ilə ölkənin yeni paytaxtı əvvəllər İranın şimalında yerləşən və heç nə ilə nəzərə çarpmayan Tehran oldu. Bu fars dövlətinin tarixində sonuncu paytaxt oldu və bununla da memarlıq və şəhərsalmada məsələlərin həllində öz prinsipləri və yanaşması, keçmişin bazasında, amma bununla yanaşı ifadəliliyə, yeni dövrün ruhunda stilistik istiqamətə malik yeni səhifə açıldı (261, s. 713-720).

**Təbriz.** Şəhərlərin taleyi də, insanlarda olduğu kimi fanilik və müsibətlərlə doludur. Yüksəliş və yıxılma, dirçəliş və unudulma bir çox şəhərlərin qismətidir. Sasanilərdən sonra İranın heç bir şəhərinin Təbriz qədər şöhrətli və eyni zamanda faciəvi qisməti olmayıb.

Bəziləri Təbrizin köklərinin antik dövrdən gəldiyini, başqaları isə İranın ərəblər tərəfindən işğalından sonra yarandığını söyləyir. Məlumdur ki, hələ Rəvvadilər dövründən IX əsrdə Təbrizdə müdafiə divarları olmuşdur. Şair Nəsir Xosrov 1046-cı ildə Təbrizdə olarkan yazır ki, şəhər abaddır, eni və uzunu 1400 addımdır. "Şəhər öz əhəmiyyətini daha sonra, Hülagidlər-İlhanilərin hakimiyyəti dövründə qazandı. Təbrizin çiçəklənməsi dövrü Hülagid Qazan Xanın hakimiyyəti dövrünə, şəhərin məşhur rayonları olan Qazaniyyə (Şənb-Qazan) və Rubi-Rəşidinin tikintisindən sonraya təsadüf edir" (96, s.99).

Bu dövrdən, yəni XIII əsrdən Təbrizdə şəhərin planlaşdırması və tikilməsi üzrə irihəcmli şəhərsalma tədbirləri başlanır. Təbrizin paytaxt statusu, şərq və qərbi birləşdirən beynəlxalq ticarət yolunda yerləşməsi onun çiçəklənməsinə təkan olmuşdur. Daha səmərəli tikinti işləri XV əsrdə, Qaraqoyunlu Cahan şah və Ağqoyunlu Uzun Həsənin dövründə aparılmışdır. "Cahan şah tərəfindən tikdirilmiş Göy Məscid Təbrizin keçmiş tikililərini kölgədə qoymuş və şəhəri dünya memarlığının möhtəşəm əsəri ilə zənginləşdirmişdir" (96, s. 100).

XVI əsrin əvvəlində Səfəvi dövlətinin paytaxtı olduqdan sonra, Təbriz bu üstünlüyündən istifadə edə bilmədi. XVII əs-

rin ortasına kimi fasilələrlə davam edən, 1514-cü ildə baş vermiş Çaldıran döyüşü keçmişdə zəngin olmuş şəhərə heç də xüsusi parlaqlıq və gözəllik verə bilməzdi. Təhmasib şah şəhəri türklərdən qoruya bilmədiyinə görə, ölkənin paytaxtını Qəzvinə (1548 il), Şah Abbas isə 1598-ci ildə daha uzağa - cənubda yerləşən İsfahana köçürtdü. Təbriz İsfahandan sonra ikinci şəhər statusunu qoruyub saxladı, lakin Qazan xan və Cahan xanın dövründə olduğu səviyyəsinə qalxa bilmədi (144).

Müharibələr, səfalət və zəlzələlər iri tikililərin inkişafına mane olurdu, memarlıq görünüşlərinə görə isə keçmişin tikililərindən seçilmirdilər. XVIII əsrdə şəhər müdafiə divarlarından məhrum olmuş və "nəhəng kəndi" xatırladırdı. Şəhərin inkişafının yeni dövrü Qacarlar dövründən, "vəliəhdin", yəni taxt-tacın varisinin paytaxtı olandan sonra başlayır. Yaşayış, mülki və saray binalarının tikintisi üçün müəyyən əlverişli şərait yaranmağa başlayır.

Təəssüflər olsun ki, İranın başqa şəhərlərində olduğu kimi Təbrizin XIX əsrin əvvəli üçün olan dəstək planı bizə məlum deyil. 1827-ci ildə rus qoşunlarının işğalı zamanı üzərində fars dilində şəhərin müxtəlif məhəllərinin adları, müdafiə divarları göstərilən Təbrizin dəstək planı tapılmışdır. Bu zaman rus qoşunlarının hərbi komandanlığının göstərişi ilə I dərəcəli topoqraflar Manontov və Kolokov şəhər darvazalarının yerləşməsini göstərən "Təbriz şəhərinin möhkəmləndirmə planı" - nı instrumental qaydada çəkmişdilər (140, s.446).

*Təbrizdəki məscid.*



*İran. Təbriz. Şəhər şurası binası. XIX-XX əsrlər.*





*Təbriz şəhərinin planı.*

Təbrizin planlaşdırmasına daha fəal şəkildə ümumi istifadə üçün nəzərdə tutulmuş bağçalar daxil olur, strukturunda yeni kompozisiya fəndləri və formaları nəzərə çarpır.

XX əsrin ikinci yarısında Təbriz köhnə memarlıq-planlaşdırma sistemini saxlamaqla, tarixi magistralların əsasında yeni, şaxələnmiş, avtomobil nəqliyyatına uyğunlaşdırılmış müasir küçələr əldə edir. Əsas küçələrdən biri olan Xiyabani Pəhləvi əvvəlki kimi əsas magistral olaraq qalaraq, Monayəm, Xəyyam, Şahnaz, Şahpur, Xəqani və s. küçələri ilə kəsişirdi (135, s.216).

Bağlar, əvvəlki tək sıx şəkildə şəhəri əhatə edir və yaşayış kvartallarına qatılaraq, əlverişli iqlim şəraiti yaradırdı. Baği-ərəb, Bağı Hacı Qulam, Bağe Golestan, Bağe Fəth dovle, Bağe Hacı-ağa Huseyn, Goli-Bağe, Bağı Mirəhab kimi bağlar nəinki şəhəri yaşıllanmasında iştirak edir, eyni zamanda onların hər biri öz fərdi siması ilə Şərqin ən gözəl ənənələrində olan bağ-park incəsənətinin parlaq nümunələri sayılır (233).

**Qəzvin şəhəri.** Təhmasib şahın Səfəvilər dövlətinin paytaxtı Təbrizi türklərdən almaq təşəbbüsləri uğursuzluğa uğradıqdan sonra o, 1548-ci ildə Qəzvini paytaxtı etdi.

Qəzvin, deyilənə görə IV əsrdə Sasani II Şapur tərəfindən yaradılmış, 645-ci ildə isə ərəblər tərəfindən fəth edilmişdir. "Müsəlman imperiyasının sərhəd nöqtəsi olaraq, Qəzvin İslamın yayılmasında mühüm rol oynamışdır, xüsusilə indiki Gilanın dağlıq hissəsində. XIV əsrə kimi Qəzvin sakinləri Shafi'i məsləyinin sünnüləri idilər. Baxmayaraq ki, XI əsrdə ortaya çıxan ismayıllı-Assassinlərin dini, Qəzvinin şimalında yerləşən bir ərazini

*Qəzvin şəhərinin planı.*

öz mərkəzləri seçmişdilər. Şəhərlərdən 6 farsax aralıda 50 ismayıllı sahəsi qalası, o cümlədən də sektanın başçısı yaşadığı Alamut qalası cəm olunmuşdu» (24, s.10).

Səfəvilər dövründə Qəzvin çiçəklənən bir dövlət səviyyəsinə çatdı, lakin paytaxtın İsfahana köçürülməsi öz mənfi rolunu oynadı. «Qəzvin də taleyi o biri fars şəhərlərin məruz qaldığı kimi oldu: ora nə qədər ki, dövlətin paytaxtı və hökmdarın yaşayış yeri idi, çiçəklənirdi, ali hakimiyyət oranı tərk edən kimi tezliklə bütün mənasını itirirdi» ( 87, s.15). İranın qədim tarixində də belə olmuşdu, belə ki, Suzlar Pasagardiləri, sonra Persepol və Sasanilər dövründə Ktesifont əvəz etmişdi. Orta əsrlərdə Təbriz Qəzvinlə (1548) və o isə Böyük Şah Abbasın İsfahanıyla əvəz olunur (1598). 1750-ci ildə Kərim xan Zənd Şirazı İranın paytaxtı edir, Məhəmməd Şah isə, yeni sülalə yaradaraq, Tehran kimi kiçik bir şəhəri 1788-ci ildə öz paytaxtı elan edir (148).

Müxtəlif dövrlərdə İranın ayrı-ayrı şəhərlərinin paytaxtlara çevrilməsi onların sosial-iqtisadi, mədəni memarlıq və planlaşdırma yönündən inkişafına təkan vermişdir. Bu amil ölkədə ümumi şəhərsalmanın inkişafına güclü təsir etmişdir. Bu və ya digər bir paytaxt mərkəzində yeni və mənalı kompozit və planlaşdırma yollarının ortaya çıxması digər şəhərlərin nailiyyəti olurdu, onlar memarlıq planlaşdırma müəssisələri yaratmaq üçün bu yeni üsullardan istifadə edirdilər.

Deməк olar ki, ölkənin bütün tarixi şəhərlərində şəhərsalma ənənələrinin davamlılığı müşahidə olunur. Belə ki, İsfahandakı məşhur meydan olan Meydani- Şah, Təbrizdəki mərkəzi meydanında yaranmış və belə meydanlar ansamblları ilə Vermanşahda, Qəzvində və digər şəhərlərdə yaradılmışdır. Şəhər mühitinin inkişafının təkamül prosesi yerlərin tarixi topoqrafiyasını nəzərə alaraq İran şəhərlərinin şəhərsalma



*Tehrandakı şəhər darvazası. Qacarlar dövrü.*


Rasht
Tabriz
Hamadan
Tehran
Ave. Khayam
PAHLAVI AVE.
SABZ-E
Ferdowsi Avenue
Midan
Saa
dat
Shahpour
Sohrab
Hotel
Ardekani
PIGAMBARIEH
Farokhi
MOLAVI AVENUE
KHIABAN-E-SEPAH
Saghafi
Nourozi
Tehranchi
TEHRAN AVE.
TEHRAN AVE.
1
2
3
4
5
6
7
8
QAZVIN
0
100
200
300
400 m

sisteminə müsbət təsir göstərmişdir (139, s. 36).

Xüsusi individual planlaşdırılmış və memarlıq görünüşlü şəhər mühitinin yaranması, paytaxt mərkəzlərinin çoxəsrlik ənənəvi tikintisinin nəticəsidir. Bunu həm Şah Abbasın İsfahan dövrünün planlaşdırma strukturu və həm də Kərim xan Zəndin mənzərəli ticarət və Şiraz sosial mərkəzinin yaranması, heç bir əlamətdar olmayan Tehranın, müasir İranın paytaxtına çevrilməsini açıqlayır.

Qəzvin isə coğrafi-strateji mövqeyinə görə çox mühüm yer tuturdu: bir tərəfdən Ənzəli-Tehran Yolunda, digər tərəfdən isə Tehrandan Təbrizə gedən hərbi yolun üzərində yerləşirdi. Həmçinin, buradan Kiçik Asiyaya, Həmədan, Kermanshahdan Bağdada və Fars körfəzinə, Tehrana, İsfahan və Şiraza birbaşa yol gedirdi (22, s. 86).

İranın bir çox şəhərlərindən fərqli olaraq, harada ki, çay şəhərin memarlıq və planlaşdırma strukturuna onun fəal elementi kimi daxil olub, ümumi kompozisiyaya aid olaraq bir çox məsələləri həll edirdisə, Qəzvin və onun ətraf yerləri bundan məhrum idi. Lakin İran şəhərlərində belə mühüm amilin olmaması elə də əsas bir problem deyildi. İran sakinləri su xətləri tikintisinin və ətrafdakı dağlardan suyu kanallar və kəhrizlər vasitəsilə cəkdirməyin böyük ustaları idilər. Buna görə də, bol olmasa da, kifayət qədər şəhər və onun ətrafları gözəl bağlar salmaq uçun Qəzvində lazımi miqdarda kanal və kəhrizlər var idi.

Qəzvin də İranın bir çox şəhərləri kimi qala xəndəyi, qüllələr və qapılar ilə əhatə olunmuşdu. Bu şəhərlərin orta əsr görünüşü XIX-XX əsrin astanasında heç bir qoruyucu məqsəd daşımırdı, sadəcə inkişaf etmiş Avropa şəhərlərinin fonunda anaxronizm kimi görsənirdi. Buna baxmayaraq, onlar yeni sosial və iqtisadi proseslərin mövcud planlaşdırma strukturunun tədricən dağıldığı bir dövrdə yaşayırdılar, onların tikintilərinə müasir üslublu mülki mühəndis qurğularının tikintisi vasitəsilə, öz memarlıq formaları və dekorativ elementləri ilə yeni məzmun gətirilirdi.

Yeni şəraitdə, İran şəhərlərinin planlaşdırma və tikintisinə gətirilən hər şey yeni şəraitdə əhəmiyyətli və geniş miqyaslı idi və çoxəsrlik memarlıq və bədii ənənələrinin təzyiqi altında özünəməxsus rəng, yerli şərh qəbul edirdi. Nəticədə, Qacar dövründə yaşayış və mülki tikinti Səfəvilərin XVII əsri əhatə edən dövrünün memarlığından geri qalsalar da, öz estetik xüsusiyyətlərini əldə edir, lakin yeni bir zaman himayəsi altında inkişaf edirdi.

Qəzvin həmin şəhərlərindən biridir ki, harada memarlıqda yeni istiqamət şəhərin qapılarında, kvartalların salınmasında öz əksini tapır. Üfüqi, kompozisiyon-bədii rəsm və dekorativ əl işləri-lə, üzərində rəngli "makaci" naxışlar ilə işlənmiş şəhər qapılarının üzərində sarı və qara ləkələr üstünlük təşkil edir.

Bu monumental və gözəl qapılardan keçib şəhərə daxil olmaq olardı. XIX əsrin birinci yarısında 1835-ci ildə buranı ziyarət edib Tehrana gedən baron F.Korf yazırdı: «Biz dekabrın 2-də İranda gördüyüm ən gözəl şəhər olan Qəzvin şəhərinə gəldik. Burada küçələr olduqca genişdir və əyri deyil, natəmizlik o qədər də nəzərə çarpmır, Qəzvinin hökmdarı Şahzadənin sarayı qarşısındakı meydan hər tərəfdən çinar ağacları ilə əhatə olunmuşdur, məscidlər çox böyük zövqlə inşa edilmiş, təkcə bazarlar ümumi şəhərə uyğun gəlmir» (59, s.193).

XIX-XX əsrin astanasında bu mənzərəli şəhər planlaşdırma strukturu arasında böyük çinar ağacları ilə əhatə olunmuş iki geniş prospekt - xiyaban nəzərə çarpır. Bu şəhər məhəllələrininn üzərinə





*Qəzvin: Şahzadə Hüseyn.*

qoyulmuş müxtəlif abrisli, xüsusiyyətli xiyabanlar idi və heç bir bələdiyyənin qərarı, heç bir memar-planlayıcısı olmadan meydanlar bu xiyabanların istiqamətləndirici nöqtəsi idi.

O dövrdə, İran şəhərlərində ümumi planlaşdırma və şəhərsalma siyasəti aparan, müəyyən dərəcədə şəhərin planlaşdırılmasını və salınmasını tənzimləyə bilən memarları, memarlıq və planlaşdırma idarələri yox idi.

A.Rjevuskiy öz Qəzvin haqqındakı qeydlərində, geniş, hər iki tərəfdən böyük çinar ağacları ilə əhatə olunmuş Qubernator küçəsindən bəhs edir (93, s.17). Şəhərin bu baş küçəsi valinin yaşadığı, rəngli plitələr, həndəsi və çiçək şəkilli naxışlarla bəzədilmiş orijinal qapısı olan iqamətgahın yerləşdiyi meydandan başlayırdı. Formaların ekspressiyası, ənənəvi üsullarla tamamlanmış, bölmələrin şaquliliyi, qapıların monumentallığı şəhərin əsas prospektini tamamlayır. Qapıların arxasında bağ ilə əhatə olunmuş Valinin sarayı yerləşirdi. İranda landşaft sənətinin ən gözəl texnika nümunələri bu bağın salınmasında istifadə olunmuşdur, hansı ki, bir az Şah Abbasın əmri və gücü ilə Mazandaranda salınmış Əşrəf və Fərəhabad bağlarını xatırladır (163, s.129-137).

Əgər Vali prospekti, onun iqamətgahından başlayırdısa, əsasən dini mərasimlər üçün nəzərdə tutulan monumental teatr binası ilə bitirdi. Belə teatrlardan 20.000-lik tamaşaçı üçün İsfahanda, Tehranda, içlərində ən zəngini tamaşaçılar üçün dörd mərtəbəli, dəyirmi zalı olanı və İranın digər böyük şəhərlərini də nümunə göstərmək olar. Bu möhtəşəm binalar şəhərin monumental tikililərinin içərisində mühüm yer tutmuş, hər bir şəhərin abadlaşmasında, şəhərin bədii görünüşünün formalaşmasında əsas yer tuturdular.

Mənzərəli binalar, Cümə məscidi, mədrəsə, bazarlar və valilər yaşadığı iqamətgahlar şəhərin quruluşunun əsas hissələrini təşkil edir, mühüm yollar və magistrallar oradan başlayırdı. Aparıcı üç ölçülü obyektlərin üzərində qurulmuş mərkəzi küçə və avtomobil yollarının inkişafı, şəhərin həyat nəbzini planlaşdırmanın əsasını təşkil edir. Bu canlı və dinamik mühitə şəhərin hər bir məhəlləsindən, dalan və döngələrindən insan axını üz tutur.

Qəzvin şəhəri Sabzi Pəhləvi prospektlərindən tutmuş Tehrana kimi və şəhərin mərkəzindən, şimaldan cənuba kimi Mövləvi prospekti ilə Xiyabani-Sepah istiqamətində bütün inkişaf tendensiyasını özündə əks etdirir. Xiyabani-Sepah Əli Kapudan, yəni dövlət hakimiyyəti iqamətgahından başlamışdır.

Cümə məscidi, Şahzadə-Hüseyn, Şah məscidi, Heydəri mədrəsəsi və Mostefi məqbərəsi elə yerləşdiriliblər ki, onlar əslində planlaşmaya görə bir-biri ilə qarşılıqlı əlaqədə deyil, hər biri xüsusi mövqe tutaraq müstəqil işləyir. Eyni zamanda onların üç ölçülü forması, kompozisiya və memarlıq dizaynı, eyni milli memarlıq üslubunda tikildiyindən şəhərin özünə məxsusluğunu və bədii çalarlarını göstərərək şəhərin mühüm estetik funksiyasını özündə daşıyır (143, s. 193).

Qacar dövrünə Qəzvində olan otel (mehmanxana) təşkil edir, köhnə karvansaralardan fərqli olaraq yeni bir memarlıq planlaşdırma məzmunu alır. Mehmanxana bir neçə həyətdən ibarət olur, ön, qapalı üstüaçıq həyət, qonaqların heyvanları və faytonları üçündür, sonra mərkəzi arkanı keçir və ön həyətə düşürdülər. Burada mehmanxana binasının ikimərtəbəli möhtəşəm kompozisiyası plan xəttini tamamlayır. Binanın birinci mərtəbəsində olan açıq qalereya 56 kobud üslublu sütunların üzərində duran yarımdairəvi arkada formasındadır. Bu qayda ikinci mərtəbədə də pilasters

formasında qorunub saxlanır, silueti isə Qacar memarlığının yarımdairəvi frontonlu divar xüsusiyyətlərini daşıyır (161).

Binanın memarlığı yeni növ və məzmun baxımından öz sivri tağları, vitrajlı-şəbəkə, keramika üzlüklü fasadları ilə Tehranın Fəth Əli Şah zamanı saraylarında fəaliyyət göstərən forma və motivlərə uyğun gəlmir.

Tağların yarımdairəvi müxtəlif quruluşda olan formaları və binaların fasadlarının məhdud şəkildə olmağı üstünlük təşkil edirdi. Müəyyən dərəcədə binaların yeni memarlıq və kompozisiya üsulları bədii keyfiyyətin, yerli xüsusiyyətlərin itirilməsi hesabına meydana gəldi. Eyni zamanda, zəngin dekorativ motivlər və kafel soba ilə planlaşdırma və binaların fasadları, həm də milli adət-ənənələrin dirçəlişi memarlıqda cavab impulslar yaratdı. Səfəvilər və Qacar erasının tarixi binaları, Qəzvin şəhərinin mərkəzi hissəsində yerləşir, lakin bəzi məscidlər qədim zamanlarda tikilib. Məsələn, «Məscidi-Cümə baş meydanda tikilib, İ.Berezin onu Xəlifə Harun Ərrəşidin (170/786 il) vaxtına aid edir (23).

Əslində, bu ikonik obyekt Səlcuqlar dövründə inşa edilib və yeniləşərək Səfəvilər dövründə, hazırda olan şəkil alıb (216).

Prof. İ.Beryozin sitayiş edilən binalar kimi Şah Nəsrəddin Qacar dövründə zənginləşdirilmiş İmam Rza oğlu Şahzadə Hüseyn türbəsini, şəhər divarının yaxınlığında Ağa Seyid Hüseyn kiçik bir məscidini, bazarın başında olan gözəl Hacı Kazım məscidini, Hüseyn xanın məscidini və şəhər ərazisində yerləşən bir çox digər dövlət obyektlərini qeyd edib.

Lakin, onların təsadüfi yerləşdirilməsi obyektiv şəhərsalmanın kompleks halda quruluşunu yaratmadı. Ümumiyyətlə maraqlı abidələr olmaqlarına baxmayaraq, onlar hər hansı bir üç ölçülü görünüşsüz, bir-birindən ayrı olan maraqlı bir memarlıq abidəsidirlər.

Şəhərin əsas küçələrində olan gözəl yaşıllıqlar, Ab-anbarlar, mədrəsə, karvansara, Şah Təhmasib tərəfindən inşa edilmiş «Əli Qapı" saray kompleksi, şəhərin şimal-qərb hissəsində yerləşən böyük bazar Qəzvinin mühitini müəyyən edirdi.

Bazarın planlaşdırma strukturu, geniş Əl-Nəbi məscidi yerləşən hissədən Təbrizdən fərqli olaraq, şimal-cənub istiqamətində bazarın bütün tikililərini ətrafında cəm edərək tikilmişdir.

*Qəzvindəki bazar. Qacarlar dövrü.*



*Qəzvin. Əli-Nəbi məscidinin kəsiyi.*



*Qəzvin. Nəbi məscidinin. Kəsik.*



*Qəzvin. Əli-Nəbi məscidinin planı.*



Planlaşdırma və fəza-məkan baxımından hər bir ticarət binası Yaxın Şərq regionuna aid olan memarlıq formalarını, davamlılıq və ənənəvi metodların xüsusiyyətlərini özündə daşıyır. Qəzvin bazar kompleksi planlaşdırma və inkişaf motivləri ilə səciyyələnir və kiçik böyük karvansaralar ilə təmsil olunur. Halbuki, bazar sahəsini cənubdan şimala uzanan üç hissəyə bölmək olar.

Bazarın əsas hissəsi kompleksin həndəsi mərkəzində, Əl-Nəbi məscidinin böyük bir hissəsi ilə, bütün planlaşdırma quruluşunda əsas yer tutur. Bazarın heç bir yerində şərti sərhədi yoxdur, buna baxmayaraq, memarlıq planlaşdırma və kompozisiya həllində, bazarın bütün daxili konsepsiyasına təsir göstərən xüsusi quruluşu vardır.

Kompleksin planlaşdırılmasında əsas meridian istiqamət üstünlük təşkil edir, hansı ki, mərkəzi və qərb hissələrdə özünü göstərir. Şərq hissəsində bir qədər ayrılır, lakin müəyyən dərəcədə alış-veriş yerləri ilə bir qədər mərkəzlə birləşir. Qərb hissəsi planlaşdırılma həllinə görə kiçik miqyaslı tikinti səciyyəsini daşıFyır, o, kiçik məhəllələr və ərazilərdən ibarətdir. Burada heç bir böyük karvansara, yoxdur, burada hər şey kasıbdır.

Bazarın bu hissəsi özünün mütəşəkkil şəhərsalma quruluşuna görə bazara gələnlərin istiqamətləri ilə uyğun gəlmir. İnandırıcı məkan fəza açıqlığı, planlı kompozisiya və plastik formaları həndəsi formada olan ayrı-ayrı obyektlər müşayiət edir, hansılar ki, ornamental motivdə olub hər tərəfi təntənəli və əzəmətli memarlıq kütlələri ilə doldurur və layiqli binalarla tamamlanır. Fiziki ölçülərinə və məzmununa görə kompleksin əsas obyekti kimi Əl-Nəbi məscidi, şimaldan qısa bir küçə ilə kəsilirsə də, cənubdan məscid və karvansara ilə tamamlanır. Cənub-şərqdə «Cənub» karvansarası ilə öz planlaşdırılmasına görə çox maraqlı olan Hacı Rza karvansarası ilə həmsərhəddir.

Bucaq şəklində girişi olan çarpazvari zal bazar strukturunun planlaşdırılmasında müəyyən formalı yer tutur. Bu hissə, şişuclu arkadalı və geniş tavanlı ikimərtəbəli karvansaraların əsas hissəsi kimi çıxış edir, hansı ki, dördbucaqlı şəklində olan sarayla əhatə olunmuşdur.

Bazar kompleksi şərq hissəsində planlaşdırma və memarlıq məzmuna görə daha da inkişaf etmişdir. Burada, bütün tikinti obyektlərini, həndəsi və məkan baxımından əsas bir kompozisiya sistemi hökm sürür. Xüsusilə şimal-şərq hissədə yerləşən beş karvansara bir-biri ilə sıx əlaqədədirlər. Bütün planlaşdırma sistemi öz-özünə inkişaf etmiş, çardaq üslublu, günbəz ilə vurğulanan, şərq-qərb istiqamətində tikilmiş bir vestibülün ətrafında cəmlənir və burada qonşu qapalı alver yerləri birləşir. Belə kompozisiya və fəza həlli Azərbaycan və İranın digər tanınmış bazar komplekslərində də müşahidə olunur.

Bazarın uzununa və eninə bölmələri, məkan-yer strukturuna uyğun olduğunu göstərir. Bütün böyük məkan ətraf mühit cəmlənərək özündə bədii obrazın maraqlı bir kompozisiya və memarlıq xəttini ifadə edir.

Günbəzlərin başında qurulan sivri tağların memarlıq formaları, tavanı genişləndirən mürəkkəbləşdirilmiş konxalar yüksək peşəkarlıqla yerinə yetirilmiş kompleksin ümumi üslub istiqamətini müəyyən edirdi. Karvansaraların həcmi elementlərinin, onların plastik həllinin əlaqəliliyi, bazar kompleksinin mərkəzi hissəsinin memarlığının əsas sivri günbəzli kompozisiyasına gətirib çıxardı.

Daim səliqəli bir yaşıl şəhər kimi Qəzvin, səyahətçiləri cəlb edirdi. İ.Beryozin (Kazan, 1852, s. 130) «Şimali İrana

səyahət» kitabında yazırdı ki, Məhəmməd şah taxt-taca yiyələnərkən, Qəzvini İranın paytaxtı təklifini irəli sürmüşdü, lakin bu niyyət orada suyun olmamasından təxirə salındı. Daha sonra o yazır ki: «şəhərin ətrafı 6 kilometrdir, lakin şəhər divarı alçaqdır, bir çox yerlərdə yararsız hala düşmüşdür. Faktiki olaraq, şəhər divarı, Qəzvində, İranın bir çox başqa şəhərlərində olduğu kimi, müdafiə üçün yararsız, kiçik dəyirmi qala halında, 30-50 m bir-birindən aralı məsafədə yerləşdiyindən pis təsir bağışlayırdı. Bu divarların içində 10 tarixi qapı inşa edilib: 1. Şahzadə Hüseyn. 2. Kendava. 3. Bağləvan. 4. Qoyun-Meydan. 5. Sevelən. 6. Ragipeyk. 7. Hikli-Bad. 8. Ragi-Rey 9.Rag-Rey. 10. Maglavay» (23, s.130).

Qəzvin şəhəri memarlıq abidələri ilə zəngindir. Burada çoxlu ikonik tikililər, ictimai hamamlar, ab-anbarlar, çoxsaylı karvansaralar və uzun-uzadı meyvə bağları var (50, s. 56).

İ.Beryozin orada olduğu zaman 36 karvansara var idi, onların arasında Mirzə Rza (və ya Hacı Rza) və ayrı 29 hamamı göstərmək olar. İ.Beryozinin fikrincə, bunların içində ən gözəli 1841-ci ildə inşa edilmiş tacir Hacı Kazım ab-anbarını» (içində 20-ə yaxın quyusu olan) göstərmək olar.

İ.Beryozin İran və Azərbaycan şəhərləri haqqında dolğun məlumat vermişdir, bu gün bu müasir şəhərin rekonstruksiyası ilə əlaqədar olaraq tarixi abidələrin dağıldılaraq öz orijinal görünüşünü itirdiyi və ya dəyişdirildiyinə görə xüsusilə çox qiymətlidir.

Qəzvinin ən gözəl ab-ambarlarından biri olan «Sərdar ab-anbar»ı Delefua şəklində qələmə alınmışdır (191).

Bu hər iki tərəfində şaquli və üfüqi hissələr olan, hər tərəfdən sivri çıxıntıları olan üç yaruslu bir əzəmətli kompozisiyadır. Onlar hamısı kürsüdən portal xəttinə kimi bir kərpicə birləşirlər. Çərçivəyə daxil edilmiş portal da öz növbəsində ənənəvi olaraq sivri arka ilə vurğulanıb. Yuxarı hissədəki stalaktit konxa ümumi memarlıq kompozisiyasını parlaq şəkildə bəzəyir. Üfüqi hissələnmə ərəb dilində dini yazı ilə birgə portalın yuxarı hissəsini giriş hissəsindən ayırır. Timpan qaçılmaz ornametal motivlərlə zəngindir.

Portalın oxu üzərində, üç nəfis sütunlu dördkünc formada pavilyon yerləşir. Bu yaşayış mühitində həm həcminə, həm də kompozisiyalı inşasına görə Ab-Sərdar anbarı da hakim mövqe tutur. Şəhərin yaşayış yerləri küçəyə gözyorucu qapalı divarlarla baxırsa, mülki quruluşlu açıq üslublu Ab-anbar isə ətraf mühitin dəyişilməsində aktiv rol oynayır. Əgər şəhərin yaşayış tikililəri küçələrə hasarların səssiz divarları ilə baxırsa, açıq üslublu mülki tikili Ab-anbar isə əksinə, müasir tərzdə tikili olaraq, məkan mühitinin yenilənməsində fəal iştirak edir.

Maraqlıdır ki, əks tərəfdə Ab-anbar, əsas fasadın dekorativ zənginliyindən fərqli olaraq, tamamilə fərqli bir şərhdədir. Konxanın həcmi kərpic tektonikası günbəzin boşluğuna keçən bir düzbucaqlı bünövrə üzərində bərkidilərək, küçə tərəfdən yüksəldilmişdir. Bu kontrast həcmli memarlıq kütlələrinin plastikasını əsas fasadın təntənəli şəraitində Ab-anbarın xüsusiyyətlərini və konstruktiv forma və üsulları aşkar edib olduğu kimi açmağı bacaran sənətkarlara dərin hörmət bəsləməyə səbəb olur.

Qapılar Şərq və Qərb orta əsr şəhərlərinin görkəmli obyektləri arasında vizit kartları kimi baxılmışdır. İlk dəfə atlı və ya piyada şəhərə daxil olmaq üçün şəhərin darvazalarına yaxınlaşıb onların vasitəsilə şəhərə daxil olurdular. Bir çox hallarda, onların gözləri qarşısında kompozisiya texnikası baxımından, dekorativ bədiiliklə

bərabər həm də müdafiə səciyyəsi daşıyırdı. Bu bir növ şəhərin reklamı idi.

Azərbaycan və İran şəhərləri də bu mövzuda heç bir istisna təşkil etmir. Onların da döyüş qüllələri və çökəklikləri ilə layiqli şəhər qapıları var idi, onlara psixoloji təsiri olan xüsusi memarlıq örtüyü verilmişdir. Zamanla, strateji əhəmiyyəti olan şəhər qapıları, funksionallıq rolu ilə yanaşı, bəzəyə çevrilir.

Qacarların hakimiyyət dövründə şəhər darvazaları mövzusu böyük əhəmiyyət kəsb edir və şəhərin hər başçısının xüsusi diqqət məqamına çevrilir.

Qəzvinin şəhər darvazalarını nümunəvi adlandırmaq olmaz, lakin, onların həllində şaquli hissələr, dekorativ minarələrin ifadə olunmuş üslublu, ornament işləmələri və müstəqil şəkilli kaşı plitələri ilə zənginlik baxımından ümumi kompozisiya üsulları üstünlük təşkil edir.

Kompozisiyada darvazaların oxşəkilli tağı, əsas mövqeni tutaraq, yan hissələrin əhəmiyyətini azaltmır və qeyd olunan yan hissələr də ümumi məkan görünüşündə nəzərə çarpan rol oynayır. Onlar ikinci dərəcəli funksiyaya malikdir, lakin, memarlıq plastikasında mərkəzi hissəyə keçid yumşaq formada baş verir. Fasadların həndəsi sxemdə xalça örtüyü üslubu istifadə olunmuşdur və bu baxımdan "nəfəs almaq" üçün sərbəst konstruktiv hissə saxlanılmamışdır. Burada ənənəvi memarlıq işləri ümumi tikinti tektonikasına zərər vurur. Onlar öz dekorativliyinə baxmayaraq, şəhər həyatında böyük informasiya xidmətinə malikdir və Qəzvini birmənalı olaraq gözəlləşdirir.

Qəzvinin şəhər tikilisində daha çox üstünlük təşkil edən elementlər istər həcmi-məkan, istərsə də memarlıq-



*Qəzvin. Çəhəl-sütun sarayı.*

planlaşdırma məzmununa görə kult binalarıdır. Onlar təkcə ətrafdakı yaşayış kvartallarını birləşdirən şəhər mühitinin əsas elementləri deyil, həmçinin, ideoloji tərzdə əhalinin bütün mənəvi vəziyyətinə təsir göstərən elementlərdir. Kult binası ilə şəhər cəmiyyəti arasında gözlə görünən əlaqə mövcuddur.

İbadət binalarının şaquli kompozisiyası şəhərin birmərtəbəli tikililəri üzərində daim rəhbərlik edir və memarlıqda İslam dünyasını əks etdirir. Sonuncu tam şəkildə inkişaf edir və möhtəşəm formalarla, zəngin siluetlə və bədii obrazlarla təsir edərək, xaliqlərinin yaradıcı qüvvəsi qarşısında pərəstiş və ehtiram obyektləri kimi xüsusi aura bəxş edir.

*Sarayın günbəzi.*



Həqiqətdə isə heç bir incəsənət insana memarlıq kimi təsir göstərmir, o, eyni zamanda daşa çevrilmiş musiqi və daş poeziyası, rəssamın rəngarəng palitrasıdır. Təsadüfi deyil ki, Misir ehramları insana ecazkar təsir göstərir, eləcə də Axemenidlərin məşhur Persepolu, Qərbin qotik cameləri və müsəlman Şərqinin kult tikililəri. Böyük istilaçı Teymur deyirdi: "əgər siz mənim qüdrətimə inanmırsınızsa, mənim tikililərimə baxın".

Hal-hazırda Qəzvində memarlıq abidələri arasında çox şeylər itirilib, yenidən tikilib, bu səbəbdən də mənbələr, rəssamların və səyyahların cizgiləri keçmiş abidənin bu və ya digər mühitini və onun ətrafını təsəvvür etmək imkanını verir. Bu nümunələrə XIX əsrin birinci yarısında, yəni, 1841-1842-ci illərdə Qəzvinin Əli-Qapı və ya Çehel-Sütun sarayında olmuş professor İ.Beryozinin məlumatları da aiddir (23).

İ.Beryozinin məlumatlarına əsasən saray kompleksi üç hissədən ibarət idi: Əli-Qapı, Şah-Təhmasibin tikilisindən (XVI əsr), "Rükn-ed-doulet" titulu ilə "Əli-Nağı-mirzə tikilisindən" və sonuncu hissə isə böyük Şah Abbas tərəfindən tikilmiş, xidməti yerlər, saray əhli tikililəri və bağlarla əhatə olunmuş müxtəlif binalardan ibarətdir. Şah Təhmasibin inşa etdiyi tikililər sonradan Nadir şah tərəfindən onunz istəyinə uyğun bərpa edilmişdir. Nadir şahın tikililəri "Talaram" təqdim olunmuşdur. "Burada əsasən gözəl buxarlı təmtəraqlı "divan-xanə" taxt-tac salonu, taxçalar, tağlar, çoxsaylı rəngli və yapma naxışlar, əksəriyyəti qızıl ilə işlənmiş arabesklər diqqəti cəlb edir". Ön tərəfdən fasad iki incə ağac sütun ilə dəstəklənir. Zalın aşağı hissəsi mərmərlə

işlənmişdir. Həyətdə divan-xanənin önündə hovuz mövcuddur, lakin, təəssüflər olsun ki, hazırda qurudur! Böyük zal otağının yan tərəflərində xidmətçilər üçün alaqapılı otaqlar tikilmişdir (otaqlar – Ş.F.). Zadəganlar üçün tikilmiş divanxananın kiçik zalları, ağardılmış, yapma işlərlə bəzədilmişdir və burada taxçalar az istifadə olunmuşdur. Yan tərəflərdə yenidən xidmətçilər üçün və keçid üçün otaqlar tikilmişdir, onlardan sonra yenidən taxta sütunlu divan-xanələr sırası gəlir. Bu uzun zalın, orta hissəsini xırda bəzəklərlə işlənmiş geniş divanxana tutur və İranda ən gözəl İsfahan saraylarından sonra əsrarəngiz sayılır" (23, s.133, 134).

İ.Beryozin tərəfindən təsvir edilmiş tikililər "Əli-Qapı" tikilisindən başqa artıq mövcud olmadığından istər tarixi, istərsə də memarlıq baxımından böyük maraq doğurur.




*Çəhəl-sütun sarayının planı.*

Şübhəsiz ki, Nadir şahın Qəzvindəki geniş və inkişaf etmiş saray kompleksi Şah Abbasın təkcə İranın memarlıq tarixində deyil, həmçinin, dünya memarlığı tarixində layiqli yer tutmuş




*Qəzvin. Sarayın plan təsvirləri və kəsiyi.*

saray tikililərinin bilavasitə təsiri altında yaranmışdır.

XIX əsrin birinci rübündə Fəth-Əli şahın oğlu Rükn-ed-doulet özünə təmtəraqlı saray tikə bilməzdi, Nadir şah isə bunu özü üçün yaratdı, onun barəsində "Qılıncın böyük oğlu" deyirdilər. Əli Nağı mirzənin tikililəri Nadir şahın saray kompleksinin zəif formasıdır.

Kompleksin qalan hissəsi özündə doqquz həyət, xidməti ərazilər, hərəmlər, nökər otaqları və at tövlələrini daxil edirdi. Bu sahədə həmçinin: günbəzli zal, 6 mərtəbəli qüllə, "böyük pavilyonlu "Küləgi-frengi" bağı" yerləşir. Bu bağ, vaxtilə Təhmasib şah tərəfindən tikilmişdir və bu bağın ərazisində şahın qardaşı Zilli-Sultanın oğlu Seyf-ül-mülk həbsdə saxlanılırdı (23, s. 134).

16 sajin (Qədim Rusiya məsafə ölçü vahidi, (34,13 m bərabərdir) hündürlüyə malik altımərtəbəli qüllə, yuxarı hissədə naxışlarla bəzədilmişdir. Bu qüllə çox gözəldir və səkkizbucaqlı formaya malikdir. Aşağı mərtəbədə qapılar hamar alaqapılar şəklində işlənmişdir, ikinci mərtəbədəki rəngarəng şüşəli pəncərələr tağlarla işlənmişdir; üçüncü və dördüncü mərtəbələrdə kiçik dəlikli yalançı pəncərələr qoyulmuşdur, beşinci mərtəbədə kiçik pəncərələr və naxışlı çərçivəli böyük eyvan vardır" (23, s. 135). İ.Beryozin böyük qüssə ilə qeyd edir ki, yalnız taleyin iradəsinə buraxılmış Ruknià istisna olmaqla, möhtəşəm saray kompleksi boşalmışdır və faktiki olaraq dağılmışdır".

Memarlıq üslubunda işlənmiş qüllələr, siluet və kompozisiya elementləri kimi fəal formada saray komplekslərinə daxil olmuşdur, ələlxüsus Nəsrəddin şahın dövründə geniş yayılmış şaquli formalar.

Qəzvinin yaxınlığında Kərəc kəndində İ.Beryozin digər memarlıq abidələri arasında xüsusi olaraq Fəth-Əli şahın möhtəşəm sarayını qeyd edir ki, bu saray əzəmətli zala, müxtəlif naxışlarla bəzədilmiş divarlara, qızıl arabeskli güzgülərdən yığılmış tavana malikdir. Zalın yan tərəflərində naxışlarla bəzədilmiş pilləkənlər tikilmişdir (23, s.140). Qəzvin sarayında olduğu kimi, burada da sonuncu mərtəbədə baxış meydançası ilə beş mərtəbəli qüllə ucalır.

Professor İ.Beryozinin məlumatları, müşahidələri, bəzi Azərbaycan və İran binalarının gözəl fasadlarının planlarının cizgiləri və şəkilləri Şərq memarlığının tarixi üçün böyük dəyər kəsb edir.

İranın orta əsr şəhərləri arasında ən məşhur şəhər İsfahan olmuşdur ki, onun cazibəsi: planlaşmanın şəhər tikinti prinsiplərinə uyğunluğu, möhtəşəm saraylar, ibadət və xatirə tikililəri sayəsində bu günə qədər qorunmuşdur (149).

**Qədim Aspadana** (yəni, atlarla zəngin yer), orta əsrlərdə İsfahan adlanan ərazi İranın kiçik şəhəri olan Bağdadın xəlifələri tərəfindən İraqın paytaxtı – Əcəmi şəhərinə çevrilmişdir. Onun ilk inkişaf mərhələsi bu dövrə aiddir. 1837-ci ildə Tamerlan şəhəri ələ keçirmiş və dağıtmışdır, əhali isə öz hakimindən narazı olduğuna görə cəzalandırılmışdır. Bununla o, İsfahanın süqutunun və viranəliyinin başlanğıcını qoydu. Şəhərin ikinci dəfə yüksəlişi və inkişaf dövrü 1597/98-ci illərə təsadüf edir ki, bu zaman Şah Abbas İsfahanı öz dövlətinin paytaxtına çevirmiş və onun qədim abidələrini dağıntılar arasından yüksəldərək, yeni abidələrin tikintisini əmr etdi (159; 20, s. 172).

Bu dövrdə İsfahan İran paytaxtı kimi tək parlaqlığı ilə deyil eləcədə bütün Şərq aləmi üçün ticarət meydanına çevrilərək, buraya mümkün olan bütün malları göndərir, buradan müxtəlif zinət əşyalarını, fars incəsənətinin əşyalarını alırdı. İsfahanın Şərqdə bu cür rolu 1722-ci ilə qədər davam etmişdir. Əfqanlar İrana qalib gəldikdən sonra isə acımasız şəkildə onun qədim abidələrini və bina-




*İsfahan şəhərinin planı.*

larını dağıntılara çevirdilər. Fərəhabadın yanından Culfayadək uzanan dağıntılar buna dəlalət edir və burada yalnız indi məhv olmuş İsfahan bağları qonşu dağlardan şahzadə Zilli-sultanın iradəsi ilə aparılan işlər nəticəsində canlanmağa başlayır" (21, s. 24).

İsfahan yeddi il əfqanların hakimiyyəti altında qalmışdır. Bu dövrdə "parçalanmış və qana bələşmiş İran məhv olmaq həddinə çatmışdır. Lakin, "qılınc övladı", "dahi sehrbaz türkmən" Nadir öz dəmir iradəsi ilə ona yeni həyat bəxş etməklə, ayağa qaldırıb, onu əbədiləşdirərək, şöhrətə bürümüşdür ki, bu şöhrət hər hansı dövrlərdə yer üzündə mövcud olan bütün hökmdarların parlaqlığına kölgə saldı" (8).

Nadir şah əfqanları İrandan qovaraq, onun sərhədlərini genişləndirdi, lakin, İsfahan dağıntılar altında qalmış, şəhərin ticarəti pozulmuş, abidələri məhv edilmişdi, yeniləri isə tikilmirdi. Fətəli şah Qacar İsfahanı sevdiyi üçün onun bəzi bina və saraylarını bərpa etdi, lakin, dağıntılar tikililərə hökmranlıq etdiyi üçün bütün bunlar şəhərə canlanma gətirə bilmirdi. Şəhərin iqtisadi bazası məhv olmuşdur və bərpa üçün İranda artıq nə vəsait, nə də imkan var idi.

Y.Belozerskiy öz "İran haqqında məktubların"da yazır ki, "Onun hazırki hökmdarı (1870-ci illər) şahzadə Zilli-Sultanın gəlişi vaxtına şəhər böyük dağıntılara, ağlasığmaz çirkablı küçələrə, azsaylı sakinlərə malik olan acınacaqlı bir şəhər idi".

Qeyd edək ki, Çahar-bağı, Emin-Abad bağı və Səadət-Abad xiyabanının rayonunda yerləşən məşhur bağlardan



biri XVIII əsrin qravüralarından birində saray tikililərinin tam parlaqlığı ilə, xiyabanların, çiçəkliklərin və fontanların ətrafında təqdim olunmuşdur. Xüsusilə bağın əsas oxu üzərində olan tikililər diqqəti cəlb edir ki, bunlar belveder ilə açılır və sonra xiyabanların kəsişməsində yüksək qüllə şəkilli saray ilə göz oxşayır. Qüllə şəkilli saraylar Səfəvilərin bağ-park memarlığında daha sıx rast gəlinir və Qacarların dövründə geniş istifadə olunmuşdur. Məsələn, bu cür saraylara Tehranda yerləşən Şəms-imarət, İşrət-xan kimi tikililəri aid etmək olar.

XIX əsrin abidələrindən göründüyü kimi, memarlıq ənənələri yeni tikililərin strukturuna plastik obrazlarla, bədii elementlərin zənginliyi ilə geniş daxil olmuşdur. Lakin, yeni şəraitdə ənənələr yeni istiqamət almış, memarlıq formaları və üsulları sayəsində yeni kompozisiya sisteminə malik olaraq memarlıqda

*İsfahan. Bazarın planı.*



*İsfahan. Cümə Məscidinin planı.*



*İsfahan. "Meydani-Köhnə" meydanının ümumi təsviri.*

tətbiq olunmuş və adətə köhnə ənənələri əvəz etməyə başlamışdır.

XVII əsr İsfahanın planlaşdırma strukturunda şəhərin cənub hissəsində Zagəndə-Rud çayı sahilində Culfa adlı qəsəbə yaranmışdır. XIX əsrin ortalarında 18 məhəllədən ibarət olan Culfa Hüseyn-abad və Siçan kəndləri ilə birgə vahid ərazini özündə birləşdirirdi. Şimaldan başlayaraq, 1851-ci ilin planına əsasən məhəllələr aşağıdakı adları daşıyırdı: Məhəlleyi-nəzər, Məhəlleyi-Qanun, Məhəlleyi-küçə, Çari Zari, Məhəlleyi – Purt Vapis və ya Şirhanə (şirlər məskəni), Məhəlleyi – Meydan və ya Cüzi, Məhəlleyi – Cou-Bers, Məhəlleyi – Çahar-su (dörd su), Məhəlleyi – Qarakül (qara çirkab), Məhəlleyi – Sənq Təraşan, Məhəlleyi – Tavrizi (tavrizi), Məhəlleyi – İrəvan (irəvanlı), Məhəlleyi - Sarun, Məhəlleyi – Çaharbağı bala (dörd yuxarı bağ), Məhəlleyi – Hüseyn-abad, Məhəlleyi – Siçan bala (yuxarı siçanlı).

Culfanın həndəsi cəhətdən düz olan, lakin tam təşkil edilməmiş məhəllə və malikanələrindən ibarət planlaşdırma stukturunda bir darvazadan digərinə kimi və və uzunluğu bir qədər məhdudlaşmış əsas küçələrdə bir enli magistral fəaliyyət göstərir və sonra dar küçə və dalanlarda itir.

Culfa rayonu çoxsaylı bağ və bostanlarla əhatələnir. 1851-ci ilin planına əsasən 3 əsas meydan mövcüddur: I.Meydane Culfa, II. Meydane Mərnan, III. Meydane Qanun. Culfanın mərkəzində əsas bazarlar yerləşir: Çarşı Meydanı (17 piştaxta), Məhəllei Təvriziha (14 piştaxta), Çarşı Meydane İrəvan.

Culfanın bütün ərazisində yaşayış evləri, saray, məscidlər, ziyarətlər, ha-

mam, bağ, qüllələr, kanallar və xarabalıqlar tikilib. Culfadan 16 istiqamətdə darvaza yerləşirdi. 1851-ci ilin planına əsasən adları bunlardır: 1. Dərvazeha-Culfa, 2. Dərvazeha-İrəvan, 3. Dərvazeha-Marnan, 4. Dərvazeha-Nəcəf-abad, 5. Dərvazeha-Bala-İrəvan, 6. Dərvazeha-Abbas-abad, 7. Dərvazeha-Hoseyn-abad, 8. Dərvazeha-Səng Təraşun, 9. Dərvazeha-Məzarestan, 10. Dərvazeha-Çəhar-su, 11. Dərvazeha-Şari-man, 12. Dərvazeha-Siçan, 13. Dərvazeha-Bala Siçan, 14. Dərvazeha-Məncan, 15. Dərvazeha-Taxta Fulad, 16. Dərvazeha-Şirazi (140, f.446, d.136).

Culfanın rayonu bilavasitə şərqdən şəhər ətrafı sarayların rayonuna birləşir, şimaldan isə 32 daş dirəkləri və 30 alaqapısı olan Pule Marnan və Pule Allah-verdi-xan körpüləri vasitəsilə şəhərin şimal hissəsi ilə birləşmişdir. Culfa Zayəndə-rud çayı ətrafında məskunlaşma yeri kimi planlı şəkildə heç cür şəhərin ümumi şəhərsalma sisteminə daxil olmaq üçün hazır deyildir. Yalnız XX əsrin ortalarında İsfahan vahid planlaşdırma sxemini aldı ki, bu sxem şəhərin bütün rayonlarını birləşdirirdi. Bu sxemi şəhər uzun illər ərzində əldə etmişdir.

Şəhərin planlaşdırma strukturunda XIX əsrin ortasında onun inkişaf etməsinin əsas istiqamətləri, mərkəzin və onun məhəllələrinin əraziləri müəyyən olunmuşdur.

XX əsrin əvvəlində Təbrizdə Avropa konsulluqlarının, Rusiya bankının və digər memarlıq baxımından əzəmətli və tikinti formaları baxımından monumental binaların inşası "vəliəhdin" rəğbətini qazanmış, onu yeni "Bağı-şemal" sarayının inşasına başlamağa məcbur etmişdir. Mənbələrdən bizə tikilinin müəllifi barədə bir məlumat verilmir. Bağı-şemal sarayının yerli və ya avropalı memar tərəfindən layihələndirildiyi, yaxud, birgə əməyin nəticəsi olduğu dəqiq bilinmir.

Bağı-şemal yaruslu oxlu həcmi-məkan kompozisiyasının bir qədər mürəkkəb şəkildə yaranması İran memarlığı, xüsusilə də Qacarlar dövrünün memarlığı üçün yeni təzahür deyildir, lakin, bütün bunları o, sosial-iqtisadi yenidənqurmalar mövqeyindən nəzərdən keçirmək lazımdır ki, onlar memarlıq sahəsinə də toxunmuşdur. Tikilinin həcmli strukturunun həllində memarlıq-planlaşdırma üsulları kifayət qədər sabit və həyat qabiliyyətinə malik idi, yaranmış ənənələri qətiyyən pozmurdu. Əgər binaların memarlıq sisteminə portallar, tağlarının yarımpərgar formaları ilə ikiyaruslu qalereyalar daxil olurdusa, onlar kompozisiyanın əsas və tabe hissələrinin ümumi tikinti modelində yerli memarlıq kontekstində yeni məzmun əldə edirdilər, fantaziya zənginliyi, memarlıq irsinin formalarının istifadəsi xüsusilə diqqəti cəlb edir.

"Bağı-şemal" sarayında mərkəzi hissənin planlaşdırması səkkizguşəli fiqur şəklində təsvir edilmişdir ki, bu forma adətən XIX əsrin qüllə kompozisiyalarında geniş tətbiq olunurdu. Sarayın həcmli həlli yaruslu struktura malikdir ki, bu da onu qüllə sisteminə yaxınlaşdırır. Lakin, üfüqi hissələrin üfüqiliyi bir qədər şaquli istiqamətdə inkişafı ləngidir. "Bağı-şemal" bağın ərazisində əsas mövqeyi tutur, lakin, mərkəzi hissənin memarlıq abidələrinin xüsusi dinamikliyi müşahidə olunmur. "Bağı-şemal" oxu üfüqi səmtdə iki mərtəbəli iki sütunlu port ilə ifadə olunmuşdur ki, sonradan yan hissələrdən yüngül üslublu alaqapılara keçid alır. Stalaktit kapitellərlə incə sütunların geniş yerləşdirilməsi klassik Avropa sütunlarını qətiyyən xatırlatmır. Burada kompozisiyanın şəxsi işlənmiş üsulları üstünlük təşkil edir ki, onlar İran memarlığında, İsfahanda "Həşt-behişt" tikilisində, Teh-




*İsfahan. Saray binalarının planı.*

randa mərmər sarayında, "Baği-şemal" və digər tikililərdə mövcud idi. Portun divarı naxışlı dekorlardan kəsiklər və elementlərlə parçalanmışdır, ornament işləri ilə və artıq həndəsi şəkilli deyil, bitki səciyyəli, yerli flora toplusundan olan nümunələrin vitrajı ilə zənginləşdirilmişdir.

Fasadların mühüm memarlıq elementi qismində XIX – XX əsrlərdə geniş istifadə olunan dəqiq həndəsi işləmə ilə şəbəkə-vitrajlar artıq yeni vitraj formaları ilə əvəz olunmağa başlayır. Bu əvəz etmə sadəcə bitki əsaslı işləmələrlə deyil, geniş planda ustalıqla yerinə yetirilmiş panno yolu ilə baş verir. Bu bədii üsul artıq daha maraqlı və təzə hesab olunur ki, bu da "Baği-şemal" sarayında həyata keçirilmişdir, baxmayaraq ki, şəbəkə-vitrajlar fasadlı yaşayış binalarının memarlıq işində aparıcı əhəmiyyətini qorumuşdur.

Port və onun yan hissələri ilə üst yarusları arasında səkkizguşəli forma ilə ifadə olunmuş aralıq yarus mövcuddur. Hər guşə üçün pəncərəni nəzərə almasaq, yarus divarların qapalı səthləri sayəsində əzəmətli və ifadə olunmuş görünür, geniş terras ilə yaruslar üçün geniş platformadır ki, buradan Təbrizə görünüş açılır.

Üst yaruslar çox guşəlidir, plastikdir və oxşəkilli tağların stalaktit çanaqları, eləcə də, timpanların rəngli kaşıları ilə zəngindir. Çoxyaruslu kompozisiya geniş karniz ilə tamamlanır və kiçik təraşlanmış günbəz ilə örtülür. Bağі-şemal tikilisinin həcmi-məkan və memarlıq-planlaşdırma strukturunun yeni kompo-



*İsfahan. Saray və daxili görünüş.*



zisiya üsulları, plastik formalar və ifadə olunmuş vasitələr baxımından maraq yaratmadığını demək olmaz. Eyni zamanda Baği-şemalın memarlıq görünüşündə dinamik siluet yoxdur, həcmin proporsional birləşmələri zəifdir, detalların şəkilləri öz aralarında uyğunluq təşkil etmir və ya bu kompozisiya memarlıq üsullarına və formalarına yeni tərzdə yanaşmağı qərara almış yerli memara məxsusdur, yaxud da ki, sarayın layihələndirilməsinin sifarişi Avropa memarına tapşırılaraq, yerli əsaslarla memarlıq işini tərtib etmək həvalə olunmuşdur.

Hər iki halda effektiv saray binasının yaradılması üçün memarlıq vasitələrinin geniş palitrasından istifadə etmək cəhdi uğurlu alınmamışdır, çünki Avropanın və kapitalizmin dağıdıcı təsiri altında ənənəvi memarlıq öz xüsusiyyətlərini itirirdi və yerli memarlığın spesifikasını əhatə edən yeni üslub istiqaməti isə hələ dəqiqləşməmiş və "vətəndaşlıq hüququnu" əldə etməmişdir. Bu şəraitdə, müsbət nəticələr əldə oluna bilməzdi. "Baği-şemal" sarayı və Təbrizin digər binaları da belə bir vəziyyətdə tikilərək, dəqiq memarlıq üslubundan məhrum olmuşlar.

XX əsrin əvvəlində Təbrizin tikintisində və planlaşdırılmasında Avropa təsiri özünü daha fəal göstərirdi, bunu yaşayış binalarında da, inzibati tikililərdə də müşahidə etmək mümkün idi. Lakin, Avropa memarlığı üslubunda tikililər yaratmaq iddialarına baxmayaraq, istər-istəməz iqlim xüsusiyyətləri, kompozisiya üsullarının işlənməsi, detalların işlənməsində mükəmməlliyin olmamağı hiss olunurdu və onların mənşəyini bildirirdi.

Bu cür nəticənin əminliyi Təbrizin ən zəngin binalarından biri olan "Divanxana" binasının memarlıq görünüşünü təsdiqləyir. Nə fasadların order sistemi, nə əsas fasadın frontonu, nə üçüncü mərtəbənin üstündə belveder, inkar edə bilməz ki, onun memarlığı yalnız Avropanın klassik üslublarından istifadə etmək və bu zaman ümumilikdə Şərq məzmununu qoruyub – saxlamaq cəhdidir.

XX əsrdə şəhər rəhbərliyinin yeni şəhərin rayonlarının birində sırf Avropa üslubunda binasının yaranması Təbrizin memarlıq-planlaşdırma işinin təşkil olunması üçün böyük əhəmiyyət kəsb edirdi. Bu obyektin sayəsində yeni abadlaşdırılmış rayon yaranmağa başlamışdır, burada rahat nəqliyyat və piyada yolları mövcud idi. Gül qazonları ilə böyük hovuz şəhər rəhbərliyinin binasının qarşısında ərazinin görünüşünün mərkəzi hissəsini təşkil edir.

Müsəlman Şərqinin bütün şəhərləri kimi Təbriz də ümumilikdə 20 məhəlləyə bölünmüşdür. Beryozinə görə burada aşağıda qeyd olunan məhəllələr mövcud idi: 1. Çahar-minar, 2. Sorxab, 3. Dəvəçi, 4. Varci, 5. Əmri-qız, 6. Naubar, 7. Xiyaban, 8. Miar-miar, 9. Sencaran, tikililər arxasında isə digərləri: 10. Leylabad, 11. Əqrəb, 12. Bağmeşə, 13. Küçəbağ, 14. Maxsudiyə, 15. Çarandab, 16. Xiyaban, 17. Surxab, 18. Varci, 19. Əmri-qız, 20. Dəvəçi.

Şəhərin yaşayış kvartalları ticarət mərkəzinin ətrafında yerləşmişdir ki, bu mərkəz şəhərin ictimai həyatının cəlb olunma fokusuna çevrilmişdir. Lakin, hər kvartal müstəqil vahid kimi xidmət etmişdir, ibadət üçün tikililər strukturda ən məsul əraziləri tuturdu. Məhz onlar şəhər mühitinin həcmi-məkan kompozisiyasının yaradıldığı elementlər qismində çıxış edir.

Ümumilikdə yaşayış məhəllələrinin kult tikililəri Əli şahın və Göy məscidin əzəmətli tikililəri ilə yanaşı Təbrizin bədii siluet və memarlıq kompozisiyasını təşkil etmişdir. İranın inkişaf etmiş memarlıq-planlaşdırma mərkəzlərinə, fərdi kompozisiya həllərinə malik olan Qəz-

vin, Kərmanşah, İsfahan, Şiraz, Məşhəd və hətta, Tehran kimi digər şəhərləri ilə müqayisədə XIX əsrin birinci yarısında Təbriz bu şəhərsalma xüsusiyyətlərindən məhrum idi. Bu cür komponentin mövcud olmamağı ölkənin qədim planlaşdırma ənənələrinə malik olan ikinci paytaxtında şəhər mühitinin özünəməxsusluğunu əhəmiyyətli şəkildə azaltmışdır. Təbriz özünün mühüm kompozisiya elementi, Təbriz kimi şəhərə və hətta istənilən şəhərə lazım olan psixoloji şəhərsalma atmosferindən məhrum olmuşdur (209, s.137).

Bu şəhərsalma vəziyyətinə güclü axınla çarşı (bazarlar) sistemi daxil olmuşdur, onlar Meydani – şah ətrafında, onun şimal sərhədlərindən şimal-şərq istiqamətində, şərqə və cənub-şərqə uzanırdı. Məlum olduğu kimi, ərazinin qərb sərhədləri saray kompleksi ilə tutulmuşdur.

Açıq və qapalı çarşılar şərq şəhərlərinin planlama strukturunda nadir təzahürdür. Həcmi-məkan planında obrazı müəyyən edərək, onlar eyni zamanda bu kilometrlik arteriyalar daxilində təkcə şəhərlərin deyil, həmçinin, feodal dövrdə tam regionun iqtisadi əsasını təşkil etmişdir. Çarşı – şəhərin yaşayış ürəyidir, burada şəhərin sosial-iqtisadi, siyasi və mədəni maraqları toqquşur, bütün əhali təbəqələrini informasiya ilə təmin edirdi (150, s. 320-347).

Ən məşhur çarşılar Təbriz, Şiraz, Tehran və İsfahan çarşıları hesab olunurdu. Bütün İsfahan çarşılarının ümumi uzunluğu 6000 metrdən artıq olmuşdur, onlar 60-dan artıq olmuşdur, lakin, onlardan əsasları 1851-ci ilin planına əsasən aşağıdakılar idi: Meskera-ha, Keysariyyə çarşısı, Aqançərx çarşısı, Məsud-ha çarşısı, Naheçina-ha Hacı çarşısı, Palanduz-ha çarşı, Meydani-İr-ha çarşı, Mezre-ha çarşı, Xaruni Veliyad-ha çarşısı, Rasta-ha çarşısı, Meydane-Kohne çarşısı, Bezzas-ha çarşısı, Toxum-çi-ha çarşısı, Çaharsuk Naxeşi çarşısı, Çahar-suk Naqsud çarşı (şirazlıların bazarı), Çahar-suk Şirazan

*İsfahan. "Meydani-Şah" meydanının mənzərəsi.*





*İsfahan şəhər mərkəzinin ümumi görünüşü.*

çarşısı, Niv Çahar-suk çarşısı. Bütün bu bazarlarda, karvansaralar və xanılar istisna olmaqla, 2030 piştaxta mövcud idi. Hər iki tərəfdən çarşılar karvansaralar və xanlıqlarla əhatə olunur, fərdi planlaşdırma - memarlıq sahələri təşkil edirdilər, birlikdə mürəkkəb, lakin, məqsədyönlü xətti səciyyəli ictimai mərkəz təşkil edirdilər.

Burada təxmini olaraq 20 karvansara yerləşirdi. Onlardan daha yaxşılarını qeyd edək: Gülşən Şikənnov, Nou, Əlnağı, Məhəmməd-sadıq xan, Fərh, Gülşən, Şah Abbas, Lombun. İctimai tikililər çoxluğu: 100-dən artıq məscid, 30-a qədər ziyarət, 50-yə yaxın mədrəsə, 32 hamam və sairə tikinti zonasının strukturuna daxil olur, aktiv memarlıq və həcmi-məkan funksiyasını daşıyır, fasadsız və qapıpəncərəsiz küçələrin yoruculuğunu və qəribəliyini pozur. Panoramda müxtəlif rəngli kaşılarla zəngin məscidlərin fasadlarının və minarələrinin görünməsi, karvansaraların və hamamların qübbə siluetlərinin çoxluğu şübhəsiz ki, boğuq dolayı küçələrin bozluğuna rəng qatırdı.

Şəhərin planlaşdırma strukturunu daha müasir görünüşə gətirmək, nəqliyyatın artan əhəmiyyətini nəzərə almaq, ayrı-ayrı magistralları vahid şəhərsalma sisteminə cəmləmək üçün yüzilliklər tələb olundu.

XX əsrin ortalarında keçmişdə ada vəziyyətində olan əsas mövcud magistrallar, müstəqil şəkildə şəhərin planlaşdırmasında iştirak edərək, bütün planlaşdırma sxeminin yaradılması və geniş inkişaf etdirilməsi üçün əsas kimi çıxış etdilər (218). Şəhərin əsas şimal-cənub oxu şimal və cənub istiqamətlərində yerləşən və İsfahanın tarixi məhəllələrindən keçən, təkcə şəhərsalma irsi ilə deyil, həmçinin, gözəl memarlıq irsi ilə zəngin olan xiyabani Çahar-bağ olmuşdur. Çahar-bağ xiyabanının yardımına isə boşaltma magistralları kimi meridian xiyabanları Şəhri Hürrəm, Şahpur, Hafiz, Dövrə-şah gəlmişlər və vahid gözəl kompozisiya yaratmışlar.

Meydanda Nağara xana (musiqi köşkü), Top və Barat-xanə (arsenal və barıt evi), ayrı tikilmiş qüllə və bazar cəmləşdirilmişdir. Qalanı şəhərlə üç darvaza birləşdirirdi: Darvazə Əbül Əzim, Darvazə Dərə və Darvazə Tapülə.

Şəhər məhəllələri yerin relyefinə və karvan yollarına uyğun salınmışdır (ibadət tikililəri və məbədlər, digər şəhərlərdə olduğu kimi o qədər də çoxsaylı deyil). Şəhərdə meydan Ələf-xanə adlı düzbucaqlı meydan, onun ətrafında isə Məhəmməd-Həsan-xanə, Əli-Mirzə-Əli karvansaraları ucaldılmışdır. Karvansaralar kompleksi bucaqlı qüllələri ilə etibarlı bərkidilmiş yol karvansarasını xatırladır və dörd tərəfdən ona aparan küçələrdən isə mərkəzi portala çıxmaq mümkündür. Bundan əlavə, çox sayda memarlıq baxımından gözəl yaşayış binalarıda xüsusi diqqəti cəlb edir.

Şəhərin digər meydanı Meydançe Kilisə qeyri-mütəşəkkil səciyyəyə malikdir və ikinci dərəcəli meydan rolunu oynayır. Meydani-Ələf-xana meydanından əlavə şəhərsalmanın inkişaf etməsini vurğulayan digər planlaşdırma yerləri və magistralları mövcud deyil. Yalnız şəhər əhalisinin pilləkənli yerləşmə sistemi: Narın-Qala-Qalaxan Əhməd Keqne - ərazisinin tarixi topoqrafiyası ilə şəhərdir və o, XIX əsrin ortalarının Senanın fərdi ifadəsini müəyyən etmişdir.

Şəhərin uzunluğu şimal-qərbdən cənub-şərqə doğru 1500 metr təşkil edir, ən böyük en isə şimaldan 1000 metrdir. 2120 qədər ev, 10.240 nəfər sakin vardır (1851-ci ilin məlumatlarına əsasən). Şəhərin arxasında Asavlya, Tarvaşan, Xosrov-abad, Kaqı-Şassi, Gül (Qızılgül bağları), Keriz-zala, Amanulla bəyin imarət-sarayı, Gülüstan (çiçəklik), Çeşmə (Xosrov-abad bulağı),

Qacar Taxtları (yəni, yüksəkliklər), Kuhi-Kuçka-Reş dağları yerləşmişdir. 1920-ci illərə Sennada əhalinin sayı 30.000 nəfər təşkil etmişdir (60, s.48).

**Şiraz**. Şiraz İranın ən qədim şəhərlərindən biridir, Fars əyalətinin paytaxtıdır, Kərimxan Zəndin hökmranlığı dövründə (1779-cu il) İranın paytaxtı olmuşdur. Bu dahi şairlər Hafizin və Sədinin şəhəridir, ölkənin zəngin ticarət ərazisidir. Şəhər məhsuldar torpaqda yerləşmişdir, burada şəhərin yaxınlığında Rudxanə-keşk çayı axır, sahə və bağlar suvarma üçün suyu qanovlar və yeraltı kanallar vasitəsilə alır. Əksər İran şəhərləri kimi, şəhər çiy kərpicdən tikilmiş, qüllələrlə, Rudxanə-

*Şiraz şəhərinin planı.*



keşk çayından asanlıqla dola biləcək quru xəndəklə əhatə olunan qala divarları ilə təchiz olunmuşdur (176, s. 89).

1678-ci ilin qravyurası Şirazı kiçik və güclü qala divarları arasında, su ilə dolmuş geniş çuxurla əhatə olunmuş tərzdə təsəvvür etmək imkanını verir. Şəkildə Şiraz şimal tərəfdən bir-birindən çox uzaq yerləşən iki qala darvazası ilə təsvir edilmişdir. Darvazalar karvan yollarından birini çuxurun üzərində tikilmiş körpü vasitəsilə qəbul edir. Şəhəri əhatə edən bağlar və ayrı-ayrı tikililər peyzajı əlavə edir. Şəhərin daxilində sıralı yaşayış tikililəri arasında ibadət binalarının minarələri seçilir. Məscidlərin qübbələri ya qala divarları arxasında gizlənir, ya da yoxdur. Onların şəhərin ümumi görünüşündə iştirakı müşahidə olunmur, lakin, qala divarlarının perlonları dağların fonunda passiv relyef üzərində yerləşmiş şəhərin kompozisiyasında aktiv element təşkil edir. Ön planda qala divarlarının arxasında saray üslublu tikili görünür. Rəssamın bu tikiliyə də Avropa memarlıq üslubunu tətbiq etməsinə baxmayaraq (bu da şərq şəhərlərinin şəklinin çəkilməsi zamanı adi hala çevrilmişdir), onun müəyyən yerləşmə yeri qeydə alınmışdır, bu yer Alaqapı olmasa da, feodal qəsrin yeri idi.

Maraqlıdır ki, 1778-ci ilin qravyurasında yəni, 1678-ci ildə çəkilmiş şəkildən düz 100 il sonra Şiraz eyni nöqtədən - əsas şəhər darvazaları və şimal tərəfdən əks etdirilib. Bu şəkil əsasında şəhər əhəmiyyətli dərəcədə böyümüşdür, şərqdən qərbə uzanmışdır, minarələrin şaquliliyinə baxmayaraq, daha sabit cizgilər əldə etmişdir.

Bu nümunələrə Məhəmmədhəsən tərəfindən tikilmiş saray aiddir. Onun həcmi-məkan və memarlıq kompozisiyası yerli memarlığın ən yaxşı ənənələri əsasında tikilmişdir. Yeni axtarışların meydana gəlməsi ilə novatorçuluq xüsusiyyətləri, ənənəvi üsulları memarlıq sənətinin müasir məqsədləri ilə uyğun şəkildə istifadə etmək cəhdləri müşahidə olunur. Kendzo Tanqe yazır ki, "Ənənə - cəmiyyətin reallığında olduğu kimi, fərdin də reallığının bir hissəsidir; ona qalib gəlmək və onunla uğurlu işləmək xarici məqamlardan çox özünü ələ almağı tələb edir" (Kendzo Tanqe, Yaponiya memarlığı, 81, s. 72).

Bu planda memar Məhəmmədhəsən ənənəyə və özünə qalib gələrək, tikilinin şəxsi üslub xüsusiyyətlərinə və bədii obrazına malik olan yeni memarlıq konsepsiyasını irəli sürmüşdür. Fasadın

*Şiraz şəhərində Vəkil məscidi.*



bölünməsi, şaquli dayaqların ritmikası, rəng işinin mozaikası və nəhayət, məkan formalarının siluetini və dinamikasını yaradan özünəməxsus yarımpərgar frontonlar özündə memarlıq biliklərinin digər kateqoriyalarını daxil edir ki, onlar da ölkə memarlığında yeni üslub istiqamətini müəyyən edir. Binaların memarlıq kompozisiyasında bu cür siluet müxtəlif variasiyalarda möhkəm

*Şiraz. "Arəm-Bağ" sarayı. XVIII-XIX əsrlər.*



təsdiqlənmiş oldu və şəhər tikililərinin həcm ifadəsinin müəyyən olunma səciyyəsinə öz təsirini göstərdi ki, bu da ümumilikdə şəhərin memarlıq həllində özünü göstərmişdir.

"Şiraz şəhərinin baş qərargahın polkovniki 1-ci Çirikovun (SSRİ MDHTA, f.446, d.156) rəhbərliyi altında Qərargah kapitanı Proskuryakov tərəfindən topoqrafların korpusunun təkrar addımları ilə ölçülmüş əsasları və tor vasitəsilə çəkilmiş ətraflı planı. Miqyasına görə ingilis düymu ilə 100 sajdan 1850-ci ildə" təkcə XIX əsrin birinci yarısında deyil, həmçinin, Kərim xan Zəndin dövründə şəhərin planlaşdırma strukturunu onun şəhərsalma tədbirləri ilə səciyyələndirir. Bu hərəkətlər XIX əsrin ikinci yarısını da əhatə etmişdir.

Şəhər mərkəzinin budaqlanmış şəbəkəsi şəhərin bütün ərazisini əhatə edir və kompozisiya elementlərini meydanlar, ibadət tikililəri, karvansaralar və örtülü bazarlar şəklində qoruyur. İsfahan darvazalarının rayonunda ticarət və kustar sıraları başlayır, içqala da yerləşir. Məhz şəhərin bu sahəsində 10 meydandan ibarət əsas meydanlar yerləşmişdir: Top-xanə meydan, Seray meydan, Vəkil Məscidi meydan, Kevt düzü meydan, Mal Furuşi meydan. Meydanlar Ərkin qarşısında qruplaşmışdır, lakin, qapalı səciyyəyə malikdir, qismən karvansaralar, ticarət sıraları ilə əhatə olunmuşdur. Mərkəzin düzbucaqlı toru yaşayış məhəllələrinin aralarına ticarət sıraları ilə və mənzərəli sistemlə daxil olur, sonra isə ictimai tikililərlə dəqiqlik alır. Nəhayət

*Şiraz. Şəhərin mərkəzinin quş uçuşu hündürlüyündən görüntüsü.*








bir kilometrdən artıq olan ticarət sıraları əyri küçə şəklini alaraq "Sallaqxana darvazasında" tamamlanır.

Şəhərin ümumi mərkəzinin kompozisiya strukturunda iki məqam dəqiq qeyd olunur: 1. Ərk tikililər kompleksi, 2. Bir tərəfdən planlı və həcm baxımından birləşdirilmiş, meydanlar qrupu və digər tərəfdən şəhər darvazalarından gələn üç magistral küçənin birləşmə nöqtəsində tikili. Şəhər mərkəzinin iki qarşılıqlı tənzimləyici məqamı ticarət sıraları vasitəsilə bir-birinə doğru uzanır və çox güclü və inkişaf etmiş kompleks yaradırlar ki, bu kompleks təkcə şəhərin Baş planında deyil, həmçinin, memarlıq planında da üstünlük təşkil edir.

Burada plan işinin kontrastlığı tam aydın şəkildə təzahür edir ki, alaqapı sabit həndəsi xətləri ilə meydanlar və digər tikililər qrupu, ictimai binalarla əhatə olunur, ticarət sıralarının mənzərəli əymələri nəzərə çarpır ki, burada küçələrin hər döngəsində rəngli kaşılı plitələrlə üzlənmiş qübbələrin və minarələrin səciyyəvi formalarında əks olunmuş memarlıq çalarları açıqlanır.

Mülki binaların, ibadətgahların həcmi-məkan kompozisiyası və rəng çalarları XIX əsrin ortalarında mövcud olan şəhərin bədii görünüşünü müəyyən etmişdir.

Şiraz şəhəri qala divarları ilə əhatə olunmuşdur və sıx qüllələrlə gücləndirilmişdir, altı darvazaya malik idi ki, bunların da hər birinə karvan yolları aparırdı. Yan tərəflərdən darvazalar hərbi qüllələrlə əhatə olunmuşdur və aşağıda qeyd olunan adları daşıyırdı: Baqqi şah darvazə, İsfahan darvazə, Sədi darvazə, Kasab kunə darvazə, Şah Duy darvazə, Kazrun və ya Bender-Buşir darvazə. Şəhərin daxilində bu darvazalar-

*Qalanın qülləsi.*

*Şiraz. Qalanın planı.*

dan küçələr ayrılırdı, onların qırmızı xətləri mərkəzi hissəyə aparan mənzərəli kvartalların konturlarını davam edirdi. Şirazın planlaşdırma həllinin fərdiliyi onun coğrafi yerləşməsi ilə, qala qapılarının sistemi ilə, yerin tarixi topoqrafiyası ilə müəyyən olunur ki, onlar 9 şəhər məhəlləsinin və geniş şəhər mərkəzinin inkişafına səbəb olmuşdur (140).

Şirazın planlaşdırma strukturu İranın məşhur şəhərləri olan İsfahandan, Təbrizdən, Məşhəddən və Tehrandan fərqlidir. Bundan da tarixi əsaslarla yaradılmış və inkişaf edən şəhərlərin şəhərsalma sistemlərinin özünəməxsusluğu ibarətdir. Onun əsasları bu xüsusiyyətlərin inkişafına əhəmiyyətli təsir göstərmişdir, şəhərlərin həyata davamlılığı zamanın özü ilə müəyyən olunmuşdur.

Bu xüsusiyyətlər səbəbindən böyük şəhər ərazisində (2200-1200 m) Şirazın 9 məhəlləsi yaranmışdır: Dari şahzadə, Meydani Şah, Senqi Sıyaq, Sarıbağ Qərib, Sarı Dixaq, Ləb-ab, Çaloqoft, Hüseyn bəy, Bazar Mülk. Onlar vahid planlaşdırma sisteminə, yerli mərkəzlərə malik məhəllə tikililərinə malik idilər ki, onlar da ümumi şəhər mərkəzinə daxil idi.

Şirazın mərkəzi şimal-şərqdə "İsfahan darvazasından" cənubda "sallaqxana darvazasına" qədər şəhərin bütün ərazisini əhatə edirdi. O, Məşhədin xətti mərkəzindən fərqli olaraq geniş, maraqlı, çox planlı şəkildə inkişaf etmişdir, kiçik məhəllə mərkəzlərini və magistral küçələrini öz təsiri altına daxil edirdi.

Tarixi mərkəzin planlaşdırma strukturunda mənzərəli səciyyəli mütəmadi tikililər bir-biri ilə uyğunlaşır, onların istiqamətləri şəhərin yaranmış tras yollarının xətləri ilə uyğun gəlir. Eyni zamanda bu mərkəzdən digər yollar ayrılır və yaşayış məhəllələrinin aralarına müəyyən ox şəklində daxil olaraq, sanki əsas mərkəzin peyklərini yaradırlar.

1850-ci ilin planı öz planlaşdırma dəyərindən əlavə şəhərsalma sənədi kimi şəhərin qala divarları arxasında uzun əsrlər boyu inkişafını əks etdirir, Şirazın kompozisiya strukturunu açıqlayan təkcə tarixi mərkəzi haqqında deyil, həmçinin, onun tikililəri haqqında məzmunlu informasiyanı təqdim edir.

Burada şəhərin ictimai binaları və möhtəşəm tikililəri əks olunmuşdur ki, onlar şəhər mühitinin bütün sisteminə böyük emosional təsir bağışlayır.

Onların arasında bazarlar, ziyarətgahlar (ibadət yerləri, məscidlər, karvansaralar, xanılar, hamamlar, yeni və ya köhnə saraylar, saray üslublu evlər qeyd olunur. İri və ya kiçik miqyaslı bu obyektlər yüksək təmtəraqlı portallarla, Şiraz üslublu minarələrlə, gözəl rəng çalarları ilə zəngin olan Səfəvi qübbələri ilə, qübbələr sistemi ilə, bağlı bazarlar və digər boğuq hamam tikililəri ilə tarixi mərkəzin daxilində yerləşmişdir və Şirazın ümumi həcmi-məkan və bədii-memarlıq istiqamətlərini müəyyən etmişlər.

Şəhərin 20 bazarından 11 bazarı öz ölçülərinə, planlaşdırma strukturuna və kompozisiya əlamətlərinə görə seçilir. Bütün tarixi mərkəz boyu geniş bazar şəbəkəsi sanki şəhərin bu istiqamətində ictimai və ticarət funksiyalarını müəyyən edir, diqqət sahəsində ən mühüm mülki tikililəri cəmləşdirir.

Doktor Uils XIX əsrin ikinci yarısının şəhərləri haqqında, o cümlədən, Şərq bazarları haqqında obyektivlikdən və dərin məzmundan məhrum olmayan çox maraqlı və müxtəlif məlumatlar qoymuşdur. O, yazırdı ki, "Avropanın bazar haqqında anlayışı Şərq bazarlarına ümumiyyətlə aid edilə bilməz. Şərqdə bazar yan tərəflərdə piştaxtaları olan ensiz qapalı küçədir. Bazarların damları keçənləri yandıran yay günəşindən, yağış və qarlardan qoruyur... həmçinin, bu

vasitəsilə qışın çirkindən və yayın tozundan xilas olmaq mümkün idi. Bəzən Şərq bazarlarının memarlığı böyük təmtəraqla fərqlənir, məsələn: Tehranda və Şirazda bazarlarının hündürlüyü bəzi yerlərdə 60 fut (18,26 m) çatır".

1778-ci ilin təsvirində sağ yolun Rudxanə-keşk çayı ilə kəsişməsində qüllə üslublu monumental tikili yaranmışdır, bu tikili hamar dam üzərində səkkizguşəli baraban əsasında Səfəvi qübbəsi ilə bəzədilmişdir. Maraqlıdır ki, Şirazın 1850-ci il planında bu qüllə qeyd olunan yerdə dördbucaq plan və qübbə ilə qeyd olunmuşdur, hökmdarın şəhər divarları daxilində feodal sarayı və ya qəsri 1678-ci ilin planında qeyd olunduğu yerdə qeyd olunmuşdur. Biz 1850-ci ilə qədər Şirazın planlaşdırma strukturu, şəhər mərkəzinin bağlı bazarlarla və məscidlərlə yerləşməsi barəsində məlumat ala biləcəyimiz planlarına malik olmadığımızdan 1678 və 1778-ci illərin şəkilləri bizə müəyyən dərəcədə İranın bu tarixi şəhərinin həcmi-məkan görünüşünü təsvir etmək imkanını verir.

XVIII əsrin ikinci yarısında Şiraz İran hökmdarı Kərim xan Zənd tərəfindən ölkənin paytaxtına çevrilmişdir. Bu hal Vəkil (Regent) adlandırılan ağıllı və enerjili hökmdarın rəhbərliyi altında Şiraz üçün müsbət əhəmiyyət kəsb etmişdir. Kərim xan Zənd şəhəri iri tikinti meydançasına çevirməsə də, tam şəhər orqanizminin təşkil olunması, inkişaf etmiş ictimai və ticarət mərkəzinin yaradılması, magistral küçələrin və kustar sıraların yaradılması, şəhər ərazisinin genişləndirilməsi və qala divarlarının möhkəmləndirilməsi istiqamətində böyük qüvvə sərf etmişdir.

Şəhərin planlaşdırılmasının və tikilməsinin ən aktiv elementləri məscid (1773-cü il) və Vəkil bazarı olmuşdur ki, onlar şəhərin mərkəzi özəyini təşkil etmişlər. Məscid istər memarlıq-planlaşdırma strukturuna, istərsə də həcmi-məkan sisteminə görə ənənəvi forma və üsulları pozmur. Səfəvi memarlığının davamçısı olaraq qalır, dekorativ motivlərlə və rəng örtüyünün zənginliyi ilə seçilir.

Çəkməçilərin piştaxtaları bir tağ sırası altında, dəmirçilər – digər sırada, dərzilər isə – üçüncü sırada yerləşir; Misgərlərin və qazançıların piştaxtalarını çəkiclərin və dəmirçi zindanlarının səsinə görə tapmaq çətin deyil. Bazarın bu cür quruluşu alıcıya kifayət qədər rahatlıq verir, çünki tacirlər arasında yarışma ruhu kifayət qədər inkişaf etmişdir. Dükanlar (piştaxtalar) öz aralarında yalnız ölçülərinə görə fərqlənir. Hər dükanın tağlı girişinin qarşısında kərpicdən eni dörd fut olan (1,219 m) kiçik platforma quraşdırılmışdır. Piştaxta pəncərəsiz, ağ təmiz divarları olan kiçik dördbucaq yeri əks etdirir; kobud işlənmiş qapılar gecə saatlarında piştaxtaya girişi bağlayır (107, s. 222-223).

Ola bilər ki, Doktor Uils Şiraz bazarı haqqında yazanda o, Kərim xan Zəndin "Buzuk Vəkil Bazarı"nı nəzərdə tutmuşdur. "Ən zəngin və ən yaxşı, xanılar və karvansaralarla ticarət əşyalarına görə dörd hissəyə bölünmüş bazar, uzunluğu 400 saja (875 m) bərabərdir, "İsfahan darvazasından" başlayır və digər bazara keçir" (SSRİ MDHTA, f.446, d.156). Qalan bazarlar aşağıdakı adları daşıyır: Meydani Şah bazarı, kevş-Düze bazarı, Morx bazarı, Seid Əli-Hüseyn bazarı, Bala Qovt bazarı, Məscid Əli bazarı, Məscid Cümə bazarı, Fim xanı bazarı, Ləbeib bazarı, Kazrun Dervazı bazarı, Baği Şah bazarı. Bütün bunlar öz bölmələrinə və adlarına malikdir. Sıx tikililərlə bazarların şəhər mərkəzi boyunca bu qədər sayda olması 30.000 nəfər əhaliyə malik olan Şirazın əhəmiyyətli ticarət fəaliyyətini qeyd edir. Ölkənin digər yaşayış əraziləri

ilə müqayisədə Şiraz yaşayış, ibadət və mülki tikililərin inşa edilməsi üçün böyük iqtisadi imkanlara malik idi.

"İri bazar mərkəzləri ilə yanaşı karvansaralar yerləşir ki, burada tacirlərin və topdan satışla məşğul olanların kontorları müəyyənləşdirilir. Karvansaraların bəzi binaları böyük zövqlə tikilmişdir. Tacirlərin və malların anbarlarının yerləşdirilməsi üçün nəzərdə tutulmuşdur" (107, s.222). Şirazda bu cür karvansaraların sayı 10-a çatırdı, onların arasında 1850-ci ilin planının tərtib edilməsi zamanı aşağıdakılar əsas hesab olunurdu: Vəkil Kərim xan Vəkil xana, Gömrük xana (gömrük), Gömrük xana (rüsumların yığılması üçün mal anbarı), Ruhani, Fin (müxtəlif kiçik mallar üçün anbar). Bu tikililərlə yanaşı 15-dən artıq xanılar yerləşir. Onlardan əsasları bunlardır: Şah Pyaser, Za-al bəy, Mirzə-İbrahim, Vəkil xan, Seid Vəli, Səngi-Siyaq.

Bu təkcə tarixi mərkəzin deyil, həmçinin, şəhər məhəllələrinin kompleksinə çoxsaylı məscidlər və ziyarətgahlar daxil olmuşdur. Həcmli ölçülər, kompozisiya quruluşu, ibadət yerlərinin karvansaraların və digər tikililərin kub formalarından fərqli olan memarlıq formaları onların fonunda kəskin şəkildə ifadə olunur. Siluet panoramı, memarlıq obyektlərinin dinamikası şəhərin inkişafına və ənənəvi memarlıq üslublarının qorunmasına yardım etmişdir.

20 ziyarətgahdan şəhərdə ən məşhur Şah Çıraq Səəd Nur Məhəmməd ziyarəti idi, burada məscid və dərvişlərin yaşaması üçün yerlər vardır; Seyid Əlidin, Seyidi – Əli Hüseyn, Şah zadə Mənsur, Seyid Hacı Qərib ziyarətgahları və digərləri diqqəti cəlb edirdi.

İranın bütün şəhərlərində olduğu kimi Şirazda ibadət tikililəri istər şəhərin mərkəzində, istərsə də yaşayış məhəllələri sistemində üstünlük təşkil edir və onların təşkil olunmasında şəhər mühitinin yerini və rolunu müəyyən edirdi. Məscid – təkcə şəhər mühitində dini funksiyalar daşıyan ibadət yeri deyil, həmçinin, sosial aspektə malik tikilidir ki, bu da ictimai səciyyədən məhrum olmuş dindar əhali üçün böyük əhəmiyyət kəsb edir.

Şirazda təxmini olaraq 20 məscid vardır, onlardan ən yaxşıları bunlar hesab olunurdu: Baba xan məscidi (ən böyük), Vəkil Kərim xan məscidi, Naib Hacı məscidi, Sarı Dizək məscidi, Selah Sosyu məscidi, Şükür Əli xan məscidi, Vəzir məscidi, Əli məscidi, Cümə məscidi, Nou məscidi. Onlar şəhərin həcmi-məkan strukturunda iştirakları ilə çox fəaldır, ətraf şəhər peyzajına memarlıq məzmununu əlavə edir. Ümumilikdə müəyyən estetik model formalaşır ki, o, Şirazın bütün görünüşünə təsir göstərir.

Şəhərin planında və tikilməsində hamam kimi kommunal üslublu qurğuları da qeyd etməmək olmaz. Onlar təkcə ictimai və ticarət mərkəzi sistemində deyil (30-a qədər), həmçinin, yaşayış rayonlarının məhəllə mərkəzlərində də geniş yayılmışdır. Hamamlar Şərq şəhərinin daimi tikililəridir, demək olar ki, həmişə xüsusi vəsaitlər hesabına tikilmişdir və məscidlərə yaxın yerləşmişdir.

İslam davamçılarının mərasim xüsusiyyətləri su prosedurlarının geniş istifadəsi ilə sıx əlaqəlidir, bu da hamamların şəhər miqyası planında tikilməsinə səbəb olmuşdur. Hamamların şəhərin planlaşdırma strukturunda, küçə magistrallarında, ibadətxanaların yaxınlığında ərsəyə gəlməsi bu obyektlərin su təchizatı mənbələri ilə razılaşdırılmalı idi.

Hamamların böyük və kiçik qübbələrlə iri və uzadılmış həcmləri karvansaralarla və xanılarla birgə şəhərin ansambl elementlərini təşkil edən tikililər idi, onlar XVIII - XIX əsrlərin üslubunda plastik və dinamik tərzdə ifadə olunmuş kom-

pozisiya ilə yerinə yetirilmişdir. Şirazın 30 hamamının arasında ən yaxşıları: Vəkil hamamı, Atagorey hamamı, Əli hamamı, Bela Qoft hamamı, Ləbe-ab hamamı hesab olunurdu.

İctimai səciyyəli tikililərin böyük sayı sıralarında şəhərin özünəməxsus tarixi mərkəzinin strukturuna 1850-ci ilin planına əsasən saray üslublu binalar da daxil olmuşdur: Vəkil xanın qəsri və ya yeni sarayı, Vəkil xanın Köhnə sarayı, Hind naibinin evi, Mirzə evi, Vəzir və daha bir çox binalar. Bu planda Baği-Eram Narincistan, Kavam kimi saraylar qeyd olunmuşdur ki, onlar öz həcmi-məkan strukturu və memarlıq-planlaşdırma sistemi ilə, möhtəşəm interyerlərlə, yeni dekorasiya motivləri və üsulları ilə diqqətə layiqdirlər (140, f.446, d.159).

Kərim xan Zəndin sarayları (Yeni və Köhnə Vəkil xan sarayları), Hind naibinin evi, Mirzə evi, Vəzir sarayı və s. Şiraz üslubunda inşa edilmişdir. Burada fasadların üfüqi bölünməsi ilə Qacar frontonları, rəngarəng vitrajlarla geniş şəbəkə ləkələrinə, memarlıq kompozisiyasının mərkəzi hissəsinin sütunlarına əks qoyulmuşdur.

Ornament motivlərinin mənzərəliyi frontonların iri formaları ilə yanaşı göz oxşayır. Fasadların memarlıq sisteminə suyun və yaşıllıqların memarlıq işləmələri orqanik uyğunlaşır.

Sahənin mərkəzi hissəsində ensiz hovuzlar, şəlalə və pilləkən sistemləri, parter yaşıllığı və şam ağaclarının ucalıqları saray üslublu binaların və zəngin evlərin ümumi kompozisiyasında əvəzolunmaz rol oynayır. Bu cür doktor Uils Şiraz məhəllələrindən birini bu cür şərh edir: "...Mən daxil oluram və ətrafa nəzər salıram. Biz uzunluğu 30 arşın (21,33 m) və eni 10 arşın (7,11 m) olan böyük məhəllədəyik. Məhəllənin orta hissəsində hovuz var, kənarları hamar cilalanmış daşlarla işlənmişdir, suyun səsi ilə gözəl ahəng təşkil edir. Aydın suda böyük qızılbalıqlar oynayır, suyun üzündə isə bir cüt çöl ördəyi üzür. Hovuz çiçəklərlə əhatə olunmuşdur, üst hissələrin səthi məhəllənin səthindən 6 aşağıdır, məhəllə hamar, təmiz kərpiclərlə örtülmüşdür. Su xoş sərinlik verir, çiçəkliklər qırmızı qızılgüllər və sıx əkilmiş nərgizgülü ləkləri ilə doludur, bütün bunlar – hər məqamda gözəl təmizlikdir. Burada çirkli divarlar və ləkəli pərdələr yoxdur, məhəllə kölgəli portağal ağacları ilə günəşdən qorunmuşdur, bəzi yerlərdə ötən ildən gözəllik üçün saxlanılmış narıncı rəngdə meyvələr görünür" (107, s. 93).

Daim şəhər ərazisindən kənarda çoxsaylı ziyarətgahlar, hamamlar, qarovullar, karxanalar və kərpic zavodları yerləşir. Şəhəri kəndlər və bağlar əhatə edir. Yerin bu cür topoqrafiyası bu və ya digər şəkildə şəhər miqyaslı bu yaşayış ərazisinin spesifikasını, onun sosial-iqtisadi imkanlarını, əhalinin istehsalat üslubunu əks etdirir. Bu baxımdan Şiraz İran şəhərləri arasında istisna deyil, çünki şəhər dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşdiyindən möhtəşəm iqlimə malikdir.

1850-ci ilin baş planında şəhərdən kənarda kənd təsərrüfatı zonasında şimal-qərb istiqamətində məşhur Şiraz bağları yerləşmişdir. Şəhərin mənzərəli planlaşdırma strukturuna və ictimai məhəllələrə malik olan əsas ərazisinə əks olaraq Şiraz bağları adətən dəqiq həndəsi düzbucaq sahələri əks etdirir. Bağlarda onların hermetikliyinə baxmayaraq o qədər fantaziya və poeziya vardır ki, landşaft memarının yaradıcılıq qabiliyyəti istər ümumi planlaşdırmada, istərsə də su güzgülərinin paylaşdırılmasında, onların yaşıllıqlarla uyğunluğunda, əsas və ikinci dərəcəli oxların kompozisiyasında tam şəkildə təzahür edir (213).

Buraya dərin perspektiv və havalılıq təsəvvürünü yaradan, ərazinin uzunluğunu daha da gücləndirən, əsas xiyabanlarda çinar, sərv ağacları ilə, qovaqlarla zəngin olan terrasların da quruluşunu əlavə etmək lazımdır. Hovuz xətlərinin incəliyi, fontan şırnaqlarının incə naxışları, şəlalələrin sakit axınları bağlara xüsusi cazibə bəxş edir. İran tarixinin və memarlığının məşhur tədqiqatçısı D.Uilber bu ölkənin bağ və pavilyonlarına əsaslı monoqrafiya həsr etmişdir ki, burada İranın, o cümlədən, Şirazın demək olar ki, bütün məşhur bağları təsvir edilmişdir (239).

Şirazın şəhərkənarı bağları sırasında xüsusi olaraq Baği Xafter, Baği Həft, Hafiz, Bağe Çağeltep, Bağe Cunama, Bağe Ferqat-abad, Bağe Fermun-Fərman, şairin məzarı olan Baği Hafizə (hazırda şəhər ərazisinə daxil olmuşdur), Baği Şah Mir Həmzə və eyni adlı ziyarətgah, Baği taxt. Sarayla, süni göl, fontanlarla, çiçəkliklər ilə Baği Eram bağı çox gözəldir, həmçinin, nar ağacları ilə zəngin Baqe Nari bağı, çox böyük və bir neçə bağdan ibarət olan Baği Əbül Fəth xan bağı, Baği Heybova, Çahar bağı diqqətəlayiqdirlər. Hal-hazırda bu bağların arasında Baği Eram, Baği Nari və ya Narcistan, Baği Hafizi və Baği Taxt və Əfifabad bağ muzeyi abadlaşdırılaraq, köhnə adları altında mövcudluğunu davam edir. XX əsrin birinci onilliyində



*Şiraz. Arif-Abad bağı. Planlar.*



*Şiraz. Arif-abad bağı.*

Şiraz öz qədim tarixi çərçivələrində, seçilən istehkam xüsusiyyətlərinə malik olmayan və faktiki olaraq dağılmış və öz əhəmiyyətini itirmiş qala qapılarının əhatəsində qalmaqda idi (194).

Pəhləvinin hökmranlığı dövründə ölkədə sosial-iqtisadi yeniliklərlə əlaqədar olaraq İran şəhərləri, o cümlədən, Şiraz kapitalist inkişafının orbitinə cəlb olunur. Şəhərdə XX əsrin ikinci yarısında tikiş və toxuculuq fabrikləri, sement və şəkər zavodu tikilmiş və istismara verilmişdir, köhnə və bağlı bazarlarda yerləşmiş bir çox karxanalar bu günə qədər qalmışdır.

Müasir nəqliyyatın yaranması şəhərin planlaşdırma strukturunun yenilənməsini tələb edirdi. Tarixi magistralların əsasında yeni, düz və daha geniş nəqliyyat yollarının şəhərini planlaşdırma şəbəkəsinə daxil edilməsi müəyyən dəyişikliklərlə nəticələndi. Ola bilər, onlar şəhərin əsrlərlə yaranmış şəhərsalma strukturunu korlamış oldular, Şirazın memarlıq quruluşuna müəyyən ziyan vurdular, lakin, köhnə məhəllələrin mövcud olan planlaşdırma sisteminə müəyyən müasir istiqamət də vermiş oldular.

En istiqamətində prospektlər yarandı: Xiyabani Kərim-xani Zənd, Xiyabani Lütfəli-xani Zənd, meridian istiqamətində isə - Xiyabani Farmayan, Xiyabani Şahnur, Bazari-nov. Bu üç xiyaban Kərim-xani Zənd tərəfindən tikilmiş keçmiş istehkamın ərazisində

*Şiraz. Qacarlar dövrünün müzeyi. Kəsiyi.*



*Şiraz. Qacarlar dövrünün muzeyi.*



tikilmişdir və eyni zamanda şəhərin tarixi hissəsinin əhəmiyyətini və varisliyini təsdiqləmişdir. Onun planlaşdırma sisteminin inkişaf etdirilməsi zamanı qala qapılarının yanından Qaani, Dariya, Sədi, Firdovsi, Darvaze Səədi, Dövre şah, Cənnət xiyabanları salınmışdır. Bu sanki xiyabanların qapalı dairəsi bütün istiqamətlərdə inkişaf etmiş və müasir şəhər ərazisini əhatə edirdi, bununla da onun bağlarının azaldılması prosesinin inkişafına müəyyən dərəcədə səbəb olmuşdur. Şirazın müasir tikinti üslubu şimal-qərb istiqamətində və Rudxanəkeşk çayının sağ sahili boyunca inkişaf etmişdir. Şəhərin cənub və şərq hissələri hələ ki, bağlarla və kənd təsərrüfatı tikililəri ilə sərhəddir.

Əgər Şirazın tarixi ərazisinə, onun mənzərəli küçə şəbəkəsinə həndəsi dəqiq məhəllələr toru qoyulmuşdursa, yeni tikili müasir şəhərsalma tələblərinin nəzərə alınması ilə, memar - planlaşdırıcının birbaşa iştirakı ilə planlaşdırılmışdır.

**Tehran.** VII əsrdə istilaların təzyiqi altında b.e.ə. 224-cü ildən mövcud olan Sasani hakimiyyəti məğlub olmuşdu və İran, öz dövlət quruluşunu itirərək və İslam dinini qəbul edərək, xəlifənin tərkibinə daxil olmuşdur. Bu dövrdən İranın inkişaf tarixində tamamilə yeni dövr başlayır və bu dövr mədəniyyətin, incəsənətin və memarlığın bütün sahələrini əhatə edir.

Şəhərsalma və memarlıq yeni dinin xüsusiyyətlərinin təsirindən şəhərlərin planlaşdırma strukturuna, mərkəzlərin kompozisiya üslubuna, həcmi-məkan sisteminə, siluetin yaşayış yerlərinin panoramında aktivliyinə təsir göstərən müddəalar irəli sürür.

Qədim şəhərlərin inkişafı ilə yanaşı İranın ərazisində xəlifə dövründə yeni, dini mərkəzlərə çevrilmiş şəhərlər yaranır (Ərdəbil, Məşhəd). Əsasən qədim tarixi şəhərlər öz əhəmiyyətini qoruyur, əyalətlərin mərkəzlərinə, müxtəlif dövrlərdə dövlət qurumlarının paytaxtlarına, liman şəhərlərinə və s. çevrilir.

"IX-X əsrlərdə İran vilayətləri xəlifədən ayrılır. IX əsrin sonunda Xorasan və Şərqi İran Orta Asiya Samanilər sülaləsinin dövlətinə daxil olur və 935-ci ildə Qərbi İranda Büveyhilər dövləti yaranır" (134, s. 144).

"Rəvayətə görə, bu bağlar Şah Abbasın dövründə onun nazirlərinin və saray kübarlarının" yaşadıqları yer idi, burada onların aşağıdakı adları qeyd olunur: Baği zaraşk-i be Sərdar (ordunun baş komandanı və ya polkovniki Sərdar bağı), Bağı İtimad-i doule (eyni adlı hökumət əyanının belveder ilə), Bağı Nazir (saray nəzarətçisinin bağı), Bağı Daruqe Defter (eyni adlı əyanın bağı); Bağe Tuşmanbaşi (eyni adlı əyanın bağı); Bağe Enesor (eyni adlı əyanın bağı); Bağı Mustoufi (nəzarətçi bağı), Bağı İşq Ağasi-başı (təşrifat məmurunun bağı)". Alaqapı darvazalı uzununa olan küçə bağın aşağı hissəsini yuxarı hissədən sağa və sola ayırır. Sonra bağlar davam edir: Bağe Xan (eyni adlı əyanın bağı); Bağe Divan Bega (dövlət şürası prezidentinin bağı); Bağe Mir Ahur-başi (oberştalmeysterin bağı); Bağe Muhurdar (dövlət möhürünü qoruyan məmurun bağı); Bağe Kule-Aman (xilas etmə qülləsinin bağı); Bağe Daruqe İsfahan (İsfahan polismeysterin bağı); Bağe Tüfenqçi Ağasi (oxatan başçısının bağı); Bağe Bağban-başi (bağbanların rəisinin bağı) (140, f.446, d.136).

Cənubda bağ-saray kompleksi çıxış darvazaları olan küçə ilə tamamlanırdı. Belveder ilə Bağı Xəzər-Cerib bağı başlanırdı (min onluq bağı). Burada bir bağdan digər bağa keçid əsas oxda saray ilə qeyd olunurdu. Qəsri-Allah-verdi xan sarayının əks tərəfində mərkəzi alleyanın elementləri kimi pavilyonlar, fon-

*Berezinə görə Tehranın baş planı. 1852.*




*Tehran zastavası. 1860-1861-ci illər.*



tanlar və hovuzlar göz oxşayırdı, yəni, kompozisiyada tabeçilik rolu oynayırdı. Baği Xəzər-Cerib bağında planlaşdırma strukturunun kompozisiya görünüşü bir qədər fərqlidir, fərdi məzmunla daha zəngindir.

"Xəlifədən azad olma istehsalat qüvvələrinin iqtisadi inkişafına yardım etmişdir. Peşə işləri və ticarət inkişaf edirdi, mədənlər işlənir, hidrotexniki qurğular tikilirdi. İqtisadiyyat üçün, xüsusilə də şəhərlərin inkişaf etməsi üçün böyük rolu tranzit dəniz ticarəti oynayırdı, onun yolları Hindistandan Fars körfəzi vasitəsilə orta Aralıq dənizinə gedirdi" (134, s. 146). Dahi Səlcuqların zərbələri altında Büveyhilər fars sülaləsi süqut etdi (1055-ci il) və bu zamanlardan Pəhləvinin qısamüddətli hakimiyyət dövrünə qədər (1925-1979-cu illər) türk sülalələri müəyyən olmuşlar.

Səlcuqların hakimiyyət dövründə İranın paytaxtı İsfahan olmuşdur. "Bu Yaxın Şərqin ən böyük şəhərlərindən biri idi, X-XIII əsrlərdə İran memarlığı Yunanıstanda Afina şəhərinin və ya İtaliyada Roma şəhərinin memarlığının oynadığı rolu oynayır".

İlhanilər-Hülakülər (XIV əsr) dövlətindən sonra İran ərazisində Qaraqoyunlu və Ağqoyunlu dövlət qurumları yaranmışdır, onları isə 1502-ci ildə Azərbaycanın Səfəvi dövləti əvəz etmişdir. Səfəvi sülaləsinin şahları I Təhmasib, I Abbas mərkəzi hakimiyyətin möhkəmləndirilməsi və ölkənin sosial- iqtisadi səviyyəsinin yüksəldilməsi üçün çox güc sərf etdilər. Xüsusi olaraq İran I Şah Abbasın dövründə (1687-1629-cu illər) böyük uğurlar qazanmışdır.

I Şah İsmayılın dövründə Təbriz şəhəri dövlətin paytaxtına çevrildi. Burada XVI əsrin əvvəlində 300.000 qədər sakin vardır, Avropa - Asiya karvan ticarətinin tranzit yolları qovşağı, onun yükləmə məntəqəsi, kustar sənayesinin mərkəzi - ipəkçilik, yun toxuculuq, pambıq, tumac, silah və sair sənayelərinin mərkəzi burada cəmlənmişdir. Şəhər hətta şah rezidensiyasının Qəzvin şəhərinə köçürülməsindən sonra da Səfəvi dövlətinin ən böyük şəhərlərindən olaraq qalırdı" (87, s. 286).

Uzunluğu iki kilometr olan xiyaban Həşt-Behişt bağının uzununa oxundan başlayırdı və Çahar bağ ilə kəsişərək, qərb xiyaban ilə birləşirdi. Xiyabanlar sisteminə ciddi nəzarət olunurdu, geniş ərazinin planlaşdırma karkasını təşkil edirdi, 400 ha əraziyə malik olan böyük ansambl təşkil edirdi. Bu rayon bizim üçün bu gün də şəhər planının ən intizamlı ərazisi olaraq qalır ki, o, en magistralları ilə Çahar bağı vasitəsilə şəhərin tarixi kvartalları ilə birləşir.

Çahar bağ şəhərin əsas planlaşdırma oxu kimi öz sonrakı inkişafını cənub istiqamətində davam etmişdir, şəhərin ən əsas və gözəl körpülərindən biri olan Pile çahar bağı köhnə Şah-Abbas (Şah Abbasın dörd bağının köhnə körpüsü) vasitəsilə sarayların rayonuna uzanırdı. Körpü 40 daş dirək üzərində 35 alaqapı ilə tikilmişdir. Əsas hissənin yan tərəflərində isə piyadalar üçün yollar salınmışdır. Körpünün ikinci adı Pil Allah-verdi xan onun inşası ilə məşğul olmuş Allah-verdi xanın adı ilə bağlıdır, üçüncü adı isə Pile Culfa – şəhər sakinləri tərəfindən verilmişdir. Bu körpü simvolik olaraq Çahar bağı xiyabanının yeni inkişaf fazasını simvolik olaraq açmışdır.

Bu rayon iki hissədən ibarət olmuşdur: sarayla böyük Qəsri Allah-verdi xan və onun davamı olan Bağİ-Xəzər-Cərib bağlarından. Onların ümumi uzunluğu üç kilometrdən artıq olmuşdur, hər iki bağ çox geniş ərazidə yerləşmiş və onları klassik mükəmməllik səviyyəsinə çatdırılmış vahid memarlıq-planlaşdırma kompozisiyası birləşdirir. Əsas xiyaban

Qəsri Allah-verdi xan sarayından başlayır ki, bu saray mərkəzi hissədə yüksək belveder ilə ifadə olunmuşdur, Taxte adı ilə, və bağı iki eyni hissəyə bölür, bağın hər iki yarısı giriş darvazaları ilə qeyd olunur, onların arxasında isə pavilyon üslublu saray tikilmişdir. Pavilyonların uzununa yerləşmiş xiyabanlarla birgə ahəngliyi eninə, əsas xiyabana paralel olaraq salınmış xiyabanlarla tamamlanır. Bütün ərazinin aydın planlaşdırma kompozisiyası yaranır.

Plana görə Tehran şəhəri çiy kərpicdən tikilmiş qülləli divarla əhatə olunmuşdur, ətrafında torpaq bəndi və quru dərə vardır ki, zəruri olan halda onu su il doldurmaq olurdu. Düzbucağın dörd bucaqlarında bənd planda yarımpərgar qalalarla təchiz olunmuşdur, kərpicdən tikilmişdir. Bucaq qalalarının yanında Kontreskarpın qarşısında kiçik torpaq töküntüləri vardır, hündürlüyü 2 ½ fut təşkil edir. Eyni zamanda darvazalardan 140 sajın məsafədə hərbi dairəvi qüllələr yerləşirdi.

İçqala, 30 ha sahəyə malik olan şah rezidensiyası, şəhər kvartallarına daxil olaraq, şəhərin özü kimi qala divarları ilə əhatə olunmuşdur. Dairəvi qüllədən iç qalanın Dövle-Darvazə yeganə darvazasına xiyaban aparırdı ki, düz küçə şəklində davam edərək hər iki tərəfdən dükanlarla, xırdavat piştaxtaları ilə əhatə olunmuşdur və Dervaze -Adet darvazası ilə tamamlanırdı ki, onun vasitəsilə saray kompleksinin şəhər ilə əlaqəsi həyata keçirilirdi.

Saray binalarının tərkibi, apartamentlərin aşkarlayıcı məzmunu də maraqlıdır. Saray meydanından sarayın daxili yerlərinə Firuz-darvaze (şöhrət darvazası) giriş darvazası vardır.

Bundan sonra Zalu-Amarete-Xorşid (günəş məbədi) əsas qəbul yerinə daxil olursan. Əsas zal ilə sarayın bir hissəsi olan və Şahın daxili otaqlarını əhatə edən gülüstan yerləşmişdir. Gülüstanın yanında ilk qəbul zalı mövcuddur ki, burada büllur hovuz və digər müxtəlif bəzək əşyaları vardır ki, onlar 1817 və 1819-cu illərdə Rusiya

*Tehran. Gülüstan sarayı.*





*Tehran. Sarayın daxili görünüşü. Gülüstan.*

*Gülüstan sarayındakı tovuz taxtacı.*



Ali Sarayı tərəfindən Şaha hədiyyə olaraq göndərilmişdir" (82, s. 336).

Göz oxşayan "ikinci xüsusi qəbul zalı" da burada yerləşir. "Bu zalın daxilində 1826-cı ildə Rusiya Ali Sarayı tərəfindən Şaha hədiyyə olaraq göndərilmiş büllur çarpayı yerləşdirilmişdir." Yaxınlıqda köşk yerləşirdi (Külaf-rəngi). İstirahət üçün nəzərdə tutulmuş bu köşk özünəməxsus qüllə şəklində tikilmişdir. Bu cür istirahət yerləri ölkənin ev tikintisində geniş tətbiq olunurdu. Şəhər xəzinədar palatası, anbar yerləri öz təyinatlarına görə şahın Divanı xanəsi ilə bilavasitə əlaqəli idilər. Tikilinin böyük sahəsini əndərun (şah hərəmini daxil edən şöbə) tuturdu. Şəhər kompleksinin bu hissəsi öz planlaşdırma strukturu ilə çiçəkliklər və bağlarla, planda ümumi şəkildə göstərilmişdir, çünki planın fiksasiyası üçün müdaxilə etmək təbii ki, qadağan idi.

Şah sarayına cənub-şərqdən şəhəri idarə edən şah oğlu Əli-Şah-Mirzənin sa-

rayı birləşirdi. Bu saray və şah qvardiyasının kazarmaları arasında geniş meydan yerləşirdi – Amarat-Meydan. İçqalada saray xanlarının evləri də yerləşirdi.

Əgər saray kompleksi dördbucaqlı planlaşdırma sisteminə malikdirsə, o zaman zadəganların məskunlaşdığı içqalanın küçə şəbəkəsinin təşkili qədim Şərq ənənələrinə cavab verirdi.

İçqala cənub tərəfdən qala divarları ilə bilavasitə Bazar-Meydan və ya Urusmeydan (Rusiya meydanı) meydanına yönəlmişdir. Sonuncu öz adını qonşu məhəllənin adından almışdır ki, burada dustaq rus əsgərləri saxlanılırdı. Meydanın yanında təxmini olaraq 13 ha ərazidə öz əsasında formalaşmış memarlıq-planlaşdırma həllinə görə tam və dəqiq, həcmi-məkan ifadəsinə görə mənzərəli, bazarları, bağlı küçələri və karvansaraları olan kompleks yerləşmişdir.

*Tehran. Bazar.*



Burada əslində inkişaf etmiş şəkildə Tehran şəhərinin mərkəzi təqdim olunmuşdur. İranda 1834-1835-ci illərdə olmuş Baron F.Korf öz xatirələrində yazırdı ki, “Tehran bazarları uzun, üst tərəfdən işıqlandırılan qapalı dəhlizlər şəklində tikilmişdir. Bu dəhlizlərin daxilində hər iki tərəfdə piştaxtalar, tacirlər və kustar işlə məşğul olanlar vardır, onlar sakit oturub, hərə öz işi ilə məşğuldur: biri at nalı düzəldir, digəri ayaqqabı tikir, qəlyan çubuqlarını düzəldir və ya çörək bişirib, plov süzür. Bazar həm fabrikdir, həm də ticarət yeri” (59, s. 213).

Bazarın bu cür tərifi onun mövcud olan məzmununa tam uyğun gəlirdi, bazar tikiliyə davam edirdi və öz planlaşdırma sxeminə məscid və hamamları da daxil edirdi. Bazarın son sıraları demək olar ki, Şah-Əbdül-əzim Darvazəyə qədər uzanırdı.

İçqapının şəhər ərazisinin böyük hissəsini tutmuş düzbucağından əlavə yaşayış məhəllələri və ticarət kompleksləri də öz yerlərini tutmuşlar. Tehranın bütün qalan ərazisi, xarici darvazalarla bitişik idi və kifayət qədər dağınıq küçə şəbəkəsini özündə əks etdirirdi. Küçə şəbəkəsi Şimransk, Şah-Əbdül-əzim və sair adları ilə şəhər məhəllələrini daxil edir. Baron F.Korf yazır: “Tehran küçələri – bu şəhərin tikintisindən hələ bir dəfə də süpürülməmişdir, heç kim buna ehtiyacın olduğunu hiss etmirdi, istəyənlər burada bütün heyvanların anatomiyasını öyrənə bilər. Tehranın iqlimi bu bağışlanılmaz səliqəsizlik üçün şərait yaradır; başqa

yerdə bu cür natəmizlikdən əhalinin yarısı məhv olardı, burada hava o qədər qurudur ki, cisimlər çürümədən quruyur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Tehranın tikintisi üçün ərazi düzgün seçilməmişdir. Hər tərəfdən bu və ya digər şəkildə yaxın dağlarla və düzənliklərlə əhatə olunmuş şəhər tamamilə çuxurda yerləşir, bir qədər, 5-6 metr uzaqlaşdıqdan sonra siz burada bitən ağacların başları ilə bir səviyyədə olursunuz. Yüngül, təmiz hava yaradan küləklər şəhərə çatmır, güclü qasırğalar isə burada uzun müddət qonaq olur" (59, s. 23).

Küçələrin kəsişməsində və məhəllələrin sərhədlərində öz dükanlarına, məscid və hamamlarına malik kiçik ictimai mərkəzlər yerləşirdi. Bu cür mərkəzlərin geniş ərazidə yerləşməsi ümumilikdə "eşşək yolu" qarışıq tikilini birləşdirir ki, onu Korbüzye həm qəti şəkildə əyri küçələrdən imtina edirdi, həm də hər yerdə onları düz prospektlərlə əvəz etməyə çalışırdı. Lakin, zaman keçdikcə düz xətli küçə və düz bucaq kultu zəifləməyə başladı və elə həmən Korbüzye dağların yamacında amfiteatr ilə yerləşmiş Əlcəzairin planlaşdırılmasında özünün elan etdiyi düz xətli "insan yollarından imtina edib, əyri nəqliyyat yollarını tətbiq etməli olmuşdur" (14, s. 67-68; s. 237; 63, s. 247; 64, s. 114).

Orta əsrlərin Avropasında olduğu kimi, Şərqdə də əyri xətli küçələr çoxdan öz yerlərini almışlar və şəhərlərin planlaşdırma sisteminə daxil olmuşlar. Tehranın planlaşdırma strukturunda təxmini 35 ibadət tikilisi yerləşirdi, bunların əsası Şah məscidi idi, məscidin başında qızılı qübbə vardır. Məscid 1808-ci ildə Fətəli şah tərəfindən tikilmişdir. Bundan əlavə, burada 24 karvansara vardır ki, onlar tacirlər və daşıyıcılar üçün məskunlaşma yeri kimi çıxış edirdi. Bu daşıyıcılar digər



*Tehran şəhərinin planı. 1858-ci il.*

əhalidən ayrı da bir təbəqə təşkil edirdilər. Onların düzgünlüyü xasiyyətlərinin mütləq xüsusiyyəti idi (9, s. 217).

Şəhərin planlaşdırma strukturuna yeddi kiçik mərkəz və bir-biri ilə sıx birləşən əyri küçələrdən ibarət olan ticarət kompleksi Tehranın 1826-cı il tarixli istinad planına müsbət təsir edir.

Şəhər bağları, xüsusilə də qala divarlarının cənub hissəsində paytaxt mərkəzinin planlaşdırma strukturunu əlavə edirdi. Şəhərin qala divarlarının xaricində, xüsusilə də, iqlim baxımından daha əlverişli şimal hissəsində, həmçinin, çoxsaylı bağlar yerləşmişdir. Onların arasında şah oğlu Mirzə şaha və vəzir Mirzə Məhəmməd-Əli xana məxsus olan bağlar da yerləşir. Xüsusi olaraq XIX əsrin əvvəlində Fətəli xan tərəfindən tikilmiş Nigarestanı qeyd etmək lazımdır (230, s. 115).

Tehran şəhərinin 1826-cı il planının əhəmiyyətini fərqli dəyərləndirmək çətindir, çünki o, tərtib olunmuş planlardan birincisidir, burada ciddi şəkildə şəhərin şəhərsalma sistemi, ətraf mühit ilə geniş ərazinin kompozisiya məqamları əks olunmuşdur, həmçinin, növbəti planlarda onun təkamül inkişafını görmək imkanını verir. 1826-cı il planına qədər Tehranın tikintisi üzrə heç bir-nə Qərbi Avropanın, nə də yerli mənbələrini aşkar etmək mümkün olmamışdır.

1826-cı il Tehranın planından başqa biz Məhəmməd şahın dövründə (1834 - 1848) şəhərin inkişafını səciyyələndirən heç bir planlara rast gəlməmişik. İ.Beryozinin "Şimali Farsda səyahət", "Şərqdə səyahət" (Kazan, 1852) adlı kitabında Tehranın "Baş planı" dərc olunmuşdur (Moskva, 01.06.1852. Hərbi - topoqrafiya deposunun razılığı ilə dərc olunmuşdur). Tehranın 1852-ci il planı 1826-cı ilin planı ilə müqayisədə daha dəqiqdir və topoqrafiya baxımından şəhərin planlaşdırma strukturunun daha düzgün mənzərəsini əks etdirir (23).

Şəhər divarlarının, ayrı-ayrı kəsiklərin istiqamətinin kəsiyi və onların birləşməsi naturaya yaxınlaşdırılır, bu da informativ məlumatlar və materialın mövcud planlaşdırılmanın analizi zamanı obyektiv istifadəsi üçün mühüm əhəmiyyət kəsb edir. Ərkin, əsas istiqamətləndirici küçələrin, ticarət mərkəzinin və onun bağlı və açıq piştaxta sıralarının, karvansaralarının və digər tikililərinin yerləşmə yerləri daha dəqiq qeyd olunmuşdur. Həmçinin, planda Şah sarayı ilə rus səfirliyinin sarayı ilə, məhərrəm nümayişləri üçün yer ilə alaqapının strukturu dəqiq müəyyən olunmuşdur.

1852-ci ilin planının müsbət cəhəti mətn hissəsi ilə bərkidilmiş geniş informasiyanın mövcud olmasından ibarətdir. Şəhər ərazisində iki şəhərsalma elementi kimi digər tikililəri tabe edicisi kimi çıxış edir, bütün: Ərk – hökumət və dövlət mərkəzidir və dövlətin mürəkkəb çoxplanlı strukturudur. Ərk həmçinin, alaqapının cənub sərhədlərindən şah Əbdül-əzim darvazasına qədər uzanan ticarət və ictimai mərkəzi daxildir. Bağlı və açıq ticarət sıraları boyunca 29 sahibin karvansarası yerləşirdi. Onların adları: 1. Zeqera, 2. Cebbe-xanə, 3. Hacı Seyid Mühəmməd-Hüseyn, 4. Hacı Molla-Əli, 5. Gürcü, 6. Hacı Həsənə, 7. Xudan, 8. Hacı Zamuna, 9. Nikar-xaqo, 10. Kaşie, 11. Şah, 12. Keysariyə, 13. Hacı Naem, 14. Hacı Nad-Əli, 15. Süleyman xanə, 16. Düst-Əli xane, 17. Hacı Musa, 18. Dalan-deraz, 19, 20. Hacı Kamal, 21. Mirzə İsmayıl, 22. Gərdən-kəc, 23. Hacı Hadi, 24. Aləm şekən, 25. Zuqali, 26. Ser gələn, 27. Xaşki-Bedi, 28. Köhnə, 29. Dağılan (171).

Karvansaraların planlaşdırma ölçülərinə görə bu cür zənginlik ticarət mərkəzinin mühüm kompozisiya əhəmiyyətini təşkil edirdi. Onun planlaşdırması yaşayış məhəllələrinin yerli tikililərinin

əhatəsində mürəkkəb həcmi-məkan sisteminin açıqlanmasına yönəldilmişdir.

Vahid kompleksi kimi ticarət mərkəzi şəhərin ümumi planlama sisteminə ən aktiv şəkildə daxil olmuşdur və özünə əsas istiqamətləndirici yolları birləşdirirdi. Öz sisteminə kult tikililərlə kiçik mərkəzləri daxil edən küçələr ümumi şəhər miqyaslı şəhər karkasının potensial təşkil olunmasında böyük məsuliyyət daşıyırdı (145).

İbadət tikililəri şəhərin strukturunda üstünlük təşkil edən İranın digər şəhərlərindən fərqli olaraq, Tehranda doqquz məscidi (Şah məscidi, Yunus xan məscidi, Hacı Rəcəb məscidi, Çaləsər məscidi, İmamzadə məscidi, Sədrəddin məscidi, Hacə Əli məscidi, Cümə məscidi, Hakim məscidi, Seyid İsmayıl məscidi), üç İmamzadə (İmamzadə Zeyd, İmamzadə Yəhyə, İmamzadə), üç mədrəsə (Əbül - Vahhab mədrəsəsi, Mirzə-Zəki mədrəsəsi, Mirzə-Saleh mədrəsəsi) vardır (204, s. 352-370).

Şəhər strukturuna bir neçə dövlət binaları da daxil olur: Fətəli-şahın tikdirdiyi "Barud-xane" (barıt anbarı), "hovuz, emalatxana, dəmirçixana, ingilis maşınları və fars əlləri ilə müxtəlif silah, o cümlədən tüfəng istehsal edən tökmə emalatxanasından ibarət böyük həyəti" olan "Cəbbə-xane" (silah fabriki) (23, s.154).

1852-ci ilin planında 1826-cı il planının elementləri qeyd olunmuşdur: şah heyvanxanası, Şərq - Avropa memarlığının ingilis səfirliyinin evi və bağı, zərbxana və sair. 1826-cı ilin tikililəri ilə müqayisədə ərazinin sıxlığı əhəmiyyətli şəkildə artmışdır, bu da müəyyən dərəcədə topluluq şəklinə gətirib çıxarmışdır. Lakin, boş yerlər də hələ vardır.

Şəhərin daxili divarlarının boyunca böyük bağlar yerləşmişdir ki, bu da təəccüblü deyildir, çünki dağlardan gələn su böyük məharətlə istifadə olunurdu. Şəhərin ətrafında, dağ silsiləsinin hündürlüklərində Şah sarayları və bağları yerləşmişdir. Şəhərin yaxınlığında dağ çıxıntılarında ucaldılmış qala "Qəsri-Qacar" qalası yerləşir. 1826-cı ilin planında şah bağı "Nigarestan" və Tehrandan yarım kilometr aralıqda yerləşən "Laləzar" (lalələr bağı) bağı əks olunmuşdur. Fətəli şah Tehranın ətrafında zümrüd bağı "Bağı zümrüd", Əli çeşməsi "Çeşme-Əli" və Nuş qülləsi "Bürcü-Nuş" tikdirmişdir (23, s. 177).

1852-ci ilin planı istər şəhər ərazisinin, istərsə də alaqapıların bir qədər sxematik formasını əks etdirir və şəhərin planlaşdırma sisteminin tam inkişafının çalarlarını əks etdirmir.

Fətəli şahın hakimiyyəti dövründən (1798-1834) müxtəlif missiyaların iştirakı formasında Avropa ölkələri ilə əlaqələr güclənir, iqtisadi, siyasi və hərbi məqsədlər qarşıya qoyulur, lakin, buna baxmayaraq, İran Avropanın dövləti idarəetmə prinsipləri ilə, hərbi sənəti ilə, qala tikintisinin incəlikləri və sənayenin, mədəniyyətin, incəsənətin və digər sahələrin incəlikləri ilə tanış edilirdi.

Sədrazam Əmir-Kabirin təşəbbüsü ilə "maariflənmə İranın sosial, siyasi, mədəni inkişafının əsas faktlarından biri kimi nəzərdən keçirilirdi". ... lisey üslublu kübarlar üçün "Dar-ül-fünun" ("Elm evi") təhsil müəssisəsi yaradılmışdır ki, burada hərbi mütəxəssislərin, həkimlərin, mühəndislərin, musiqiçilərin və s. hazırlanması nəzərdə tutulmuşdur. Təhsili əsasən Avropa müəllimləri həyata keçirirdilər" (61, s. 235).

Məhz bu dövrdə təxmini olaraq 1:2000 miqyasında "İranın paytaxtı Tehranın" planı tərtib olunmuşdur. 1275-ci ilin cümada ayında (1858-ci ilin dekabr ayı) Əlihulla Mirzə şahzadənin təşəbbüsü ilə artilleriya müəllimi Avqust Krizisin və onun ali peşə məktəbinin (universitetin) tələbələri Zülfi-xara və Məhəmməd

Təki-xanın yardımı ilə rəngarəng kətan üzərində fars dilində Tehran xəritəsi tərtib olunmuşdur. 1 üz, 79x94 (82x97 sm). Torsuz. İstiqamət şimal-cənub, miqyas böyük barmaq enində (1 sm 20 m) yüz addım (fut). Şərti işarələr aşağıdakılardır: məhəllə və küçələrin sərhədləri, çuxurlar, bağlar, səhralar, hamam dağıntıları, məscidlər İmam-zadə məscidi, mədrəsə, dərviş evləri, eləcə də, şəhər meydanları qarovullar, qəbiristanlar, buzluqlar".

Avstriya mühəndisinin rəhbərliyi ilə hazırlanmış Tehranın 1858-ci il planı planlaşdırma və texniki işlənməsinə görə tamamilə yeni üslubda idi, çünki ərazinin bütün səciyyəvi cəhətləri ilə topoqrafik xüsusiyyətlərini əks etdirirdi. İlk növbədə plan şəhər divarlarının yüksək dəqiqliyini və hüdudlarını, alaqapının şəhər strukturunda düzgün yerini əks etdirir. Bundan sonra bütün küçə şəbəkəsi, məhəllələr, bu mühüm koordinatlarla əlaqəli olan tikililər, hər biri obyektiv yerləşmə şəklini almışdır ki, bu da şəhər ərazisinin şəhərsalma analizi zamanı böyük əhəmiyyət kəsb edirdi.

İ.Beryozin tərəfindən tərtib olunmuş 1852-ci ilin planı 1858-ci ilin planı ilə müqayisədə şəhərin planlaşdırma vəziyyəti haqqında bir qədər təhrif olunmuş təsəvvür yaradır, tənqidi istifadə üçün ilkin materialı vermir. Lakin, qeyd etmək lazımdır ki, Beryozin şəhər haqqında dəqiq məlumatlar almaq üçün adı çəkilən tam planın müəlliflərinin malik olduqları texniki və iqtisadi imkanlara malik deyildi.

1858-ci ilin planına görə şəhərin inkişafının əsas xüsusiyyətləri aşkar olunur: Əsas tras Qəzvin darvazalarından başlayır və iki kəsişən küçədən keçərək məşhur şah Əbdül-Əzim darvazasının bağlı bazarının sıralarına daxil olur.

1852-ci ilin planında Qəzvin darvazasından tras sönük xəttə malik idi, o, planlı və səmərəli şəkildə inkişaf etmə-

*Tehran. "Meydani Top-xana" meydanı.*



mişdir, passiv şəkildə şəhər tikililərinin yaşayış mühitinə daxil olurdu. Lakin, 1858-ci ilin planında trasın bu hissəsi öz dəqiq istiqamətinə malikdir, sonradan isə ticarət küçəsinə çevrilir. O, şəhərin qərb və şərq hissəsi arasında boşaltma məntəqəsi olan karvansaraların iri kompleksinə daxil olur, şəhərin şərq hissəsində düzbucaq formalı bağlar yerləşmişdir. Düzbucaqlı planlaşdırma sxeminə malik olan bağ-park tikintisi ən çox sevilən üsluba çevrilmişdir və Qacarların çoxsaylı şəhər komplekslərinin kompozisiyasına daxil olmuşdur. Bu səbəbdən geniş məkanların planlaşdırma həllində bir mövzu da, mütəmadilik və formaların yaradılmasında xəttilik mövzusu aşkar olunur (236, 234, s. 23-27).

1858-ci ilin planı əvvəlki planlarla müqayisədə coğrafi işləmənin dəqiqliyi ilə, planlaşdırma məzmununun dəqiqliyi ilə, şəhər mühitinin informasiya zənginliyi ilə fərqlənir. Ümumilikdə bu plan XIX əsrin əvvəllərində İranın şəhərsalma sahəsində qiymətli sənəd hesab olunur və Tehranın tarixi məhəllələrinin regenerasiyası zamanı material kimi istifadə oluna bilər.

Nəsrəddin şah dövründə İranın şəhərsalma strukturu 1870-ci ilə qədər demək olar ki, dəyişilməz olaraq qalırdı. Şahlar yayda sərin yerlərdə yarı köçəri həyat tərzi sürürdülər, çadırlarda qalır, qışda isə növbəti ilə qədər içqalaya qayıdırdılar. "Səhra Tehranın küçələrinə qədər uzanırdı. Uzun kanallar şəhərin bağları və fontanlarına su təchizatı üçün nəzərdə tutulmuşlar. Elbrusun son çıxıntıları ensiz terrasları, yay saraylarını və balaca kəndləri əks etdirir. Bu gözəl dekorasiya iti bucaqlı piramida ilə və Demavendin tüstüləri bəzədilmişdir, onu iranlı rəssamlar yaponlar öz Fudzi-yamasını məşhur edən kimi şöhrətləndirmişlər. Lakin, bu gözəl dekorasiya köçəri həyat, köçəri həyatın maraqları üçündür, sivil həyat və faydalı əmək üçün mənfi çərçivədir" (22, s. 179).

Planlaşdırma strukturunda və şəhərin həyatında əsaslı dəyişiklik Nəsrəddin şahın dövründə (1848-1896) baş verir. O, şahların yarı köçəri həyatını paytaxt mərkəzində daim məskunlaşma ilə əvəz edir.

Tehranın iqtisadi imkanlarının artırılması şimal-cənub istiqamətində bəzi küçələrin səciyyəsinə təsir göstərməyə bilməzdi. Şimalda Şimran darvazasından gələn küçə şimal-şərq rayonunun əsas magistralına çevrildi və bazarın planlaşdırmasına fəal daxil olaraq, onun vasitəsilə şah Əbdül-Əzim və Qəzvin darvazalarını birləşdirdi. Bu şəhərin qərb, şərq və cənub rayonlarını və sonra isə Elbrusun yamaclarına açılan Şimran darvazasına gedən yolları birləşdirən yeganə magistral idi, qeyd olunan yamaclarda şahın və onun yaxınlarının sarayları yerləşdirilmişdir.

Şəhərin ümumi planlaşdırma strukturunda alaqapı əsas yerlərdən birini tutmağa davam edirdi. Ərazidə əhəmiyyətli dəyişikliklər baş vermişdir. 1826-cı illərin planlarında Ərk maraqsız bir sxemi özündə əks etdirir, kifayət qədər planlaşdırma informasiyasını əks etdirmir ki, bu istiqamətdə müvafiq nəticələr çıxarılmış olsun.

Ərk üç hissədən ibarət idi: şah saray kompleksinin Meydani-alaqapısı, məscid, Arsenal və Darül-Fünun, yaşayış yerləri və piştaxtalar arasında əhəmiyyətli ərazini tuturdu. Bu hissələr arasında əlaqə dar düz küçələr vasitəsilə həyata keçirilirdi. Meydani Ark cənub-qərb bucağı əhatə edirdi, orta hissədə hovuz və Nadir şahın vaxtından qalan toplar qoyulmuşdur. Ərkin mərkəzi hissəsi, yəni, saray hissəsi yaşıllıqlarla zəngin qapalı saraylar sistemi ilə tikilmişdir, ərazidə fontanlar, hovuzlar, yaşıllıqlar hökm-




*Tehran şəhərinin planı. 1971-ci il.*

ranlıq edərək, ərazini ümumilikdə park zonasına çevirirdi, bu da Tehranın isti iqlimi şəraitində xüsusilə mühümdür.

Bağların planlaşdırılması kompazisiya üslublarına görə bir birindən fərqlənirdi. Vərəsəlik şəhər kənarı sarayların və Tehran ənənələrinə uyğun aparıldı.

Şahın 1873-cü ildə Avropa ölkələrinə ilk səyahəti, məşhur paytaxtlar Peterburq, Vena və Paris ilə tanışlığı ona ən dərin təəssüratlar bəxş etdi. Bu şəhərlərin ümumi planlaşdırılması sayəsində onların həcmi-məkan və memarlıq həllinə görə, bina və tikililərin memarlıq işlənməsinə görə, yüksək abadlaşdırma mədəniyyətinə və şəhər təsərrüfatına görə şah böyük məmnuniyyət hissi keçirmişdir (58, s. 344).

Nəsrəddin şah tozu, qapalı üslublu, dar küçə və döngələri olan Tehranı Av-

ropa paytaxtlarının açıq və həyat sevər küçə və meydanlarının memarlığı ilə müqayisə etməyə çətinlik çəkmişdir. Avropadan qayıdandan sonra şah Tehranı dövlətin əsl paytaxtına çevirmək, onun memarlıq-planlaşdırma strukturunu dəyişmək və yeni şəhərin yenidən qurulmasına başlamaq qərarına gəlmişdir. Bu məqsəd ilə köhnə şəhər divarları, qüllələr sökülmüşdür, çuxurlar doldurulmuş və şəhərin inkişafına mane olan xəndəklər uzaqlaşdırılmışdır. Köhnə şəhər divarlarından 1 mil məsafədə böyük ərazidə fransız hərbi mühəndisi Vobanın sistemi üzrə 1874-cü ildə yeni qala divarları tikilmişdir. Bu divarların tikintisinə İrana ingilis fondundan yardım vəsaitləri sərf edilmişdir. Yeni şəhər divarları heç nə ilə bərkidilməmişdir, onlar 11 mil dairəsi olan səkkiz bucağı xatırladırdı. Bu bərkitmələr hərbi baxımdan heç bir tənqidə dözmür. Q. Kerzo yazır ki, "hər şeyə rəğmən Tehran fəxr edə bilərdi ki, ətrafında 13 millik Avropa üslublu, 12 darvazası olan qala divarlarına malikdir" (181, s. 306).

Nəsrəddin şahın dövründə qala divarları çərçivəsində şəhər ərazisi 10x10 km sahəni əhatə edirdi. Şəhər ərazisinin geniş sahəsi küçə və məhəllələrin nisbətən düzbucaqlı toruna bölünmüşdür və müəyyən dərəcədə mütəmadi səciyyəyə malik idi. Şəhərin qədim tarixi hissəsi yeni yenidənqurma işlərinin yaradılması ilə öz əhəmiyyətini itirmədi, yeni şəhərin əsas küçələri köhnə məhəllələrin əraziləri ilə kəsişir, hər iki hissəni vahid şəkildə birləşdirirdi.

Hələ 1880-ci illərin sonunda ərazi mütəmadi üslublu məhəllələrlə mənimsənilməmişdir, öz abadlaşdırılmasını gözləyən köhnə, çirkli yaşayış yerlərinin əsirliyində qalırdı. "Dünyanın mərkəz paytaxtı", "Padşah paytaxtı", "Şahın şah paytaxtı", "Nəsrəddin şah", "Məhəmməd şahın məşhur davamçısı olan şahın", "Fətəli şahın" paytaxtı – Tehran şəhəri qumlu-daşlı düzənlik üzərində yerləşir və tikililərlə əhatəyə alınmış kifayət qədər düzgün dairəni özündə əks etdirir. Bu tikililər qala, torpaq çuxurlarıdır, səhra istehkamı formasına malikdir, yanında kifayət qədər dərin çuxur qazılmışdır, üzərində 14 körpü atılmışdır ki, onlar qala qapısının 14 darvazasına gedir (78, s. 17).

Həmin dövrdə Tehranın dairəsi çuxur ilə birlikdə 30 verst təşkil edirdi və üç hissəyə bölünürdü: Şah sarayından və ya Ərkdən şimal tərəfdə yerləşmiş Avropa hissəsi, şəhərin bazarlarla birgə mərkəzi ərazisini əhatə edən Asiya hissəsi və səhralıqlar, cənub tərəfə torpaq səngərin tikilməyən hissəsi.

Avropa hissəsi müntəzəm planlaşdırmaya malik idi, geniş küçələr burada yan tərəflərdən ipək ilə əkilmişdir, həmçinin, içməli su kanalları da buradan axırdı. Plitələrdən daş örtüklü səkilər mövcud deyildir, onlar iri çay daşları ilə tikilmişdir, küçələr isə şosse halına salınmışdır. Avropa məhəlləsində bağlı bazarlar ərazisində tikilmiş rus missiyasından başqa bütün diplomatik missiyalar yerləşmişdir. Burada xanların çoxsaylı zəngin sarayları, "hansısa şübhəli pul mənbələri hesabına tikilmiş polis sarayı" yerləşmişdir (78, s. 18). Avropalılar üçün iki mehmanxana da vardır, bundan sonra polis idarəsi, hərbçilər və həkimlər üçün mədrəsə, patron zavodu, amerikan şirkətinin teleqraf stansiyası, iki ictimai hamam və əsas meydanlar "Meydani-Məşq" (təlim üçün) və "Top-meydan" (artilleriya meydanı) yerləşmişdir. Bu məhəllədə artıq küçələrin adları da vardır: "Avropa küçəsi", "Taləzar küçəsi" və sair.

Cənubdan Avropa məhəlləsinə şah sarayı ilə alaqapı birləşirdi. Bu saray hündür divarlarla öz görkəmini qoruyurdu

*Parlamentin ön görünüşü.*



*Tehran. Parlament. İclas zalının daxili görünüşü.*



ki, onların arxasından saray tikililərinin qüllə hissələri görünürdü.

Saray kompleksinin arxasında 1826-cı ildə olduğu kimi şəhərin sakit küçə və döngələri ilə qədim Asiya hissəsi və məşhur bağlı ticarət mərkəzi yerləşmişdir. Bu zaman ərzində o, daha da genişlənmişdir və onun planlaşdırılması çoxsaylı piştaxtalar, hamamlar və məscidlər ilə mürəkkəbləşmişdir.

Şəhərin üçüncü hissəsi funksional - əməli səciyyə daşıyırdı. Burada Avropa üslublu sənaye müəssisələri olmasa da, buna baxmayaraq, düzənliklərin ortasında kərpic zavodları və dərin quyular yerləşirdi ki, buradan gil götürülürdü, karvansaralar və bostanlar yerləşirdi. Burada həmin dövrdə ölkədə yeganə olan dəmiryolu stansiyası yerləşirdi ki, onun uzunluğu Şah Əbdül Əzim İmamzadəsinə qədər 11 verst təşkil edirdi.

XIX – XX əsrlərdə şəhərin əsas planlaşdırma xüsusiyyəti ondan ibarət idi ki, qala divarları boyunca enli dairəvi küçə ilə birləşən radikallıq mövcud idi. Yeddi radikal küçə məhəllələrin şəhər şəbəkəsinə daxil olaraq, ikinci dərəcəli yollarla kəsişərək əsas şəhər meydanı, inzibati və ictimai mərkəz olan "Top-xananın" yanında birləşirdi.

**İçqala**. Tehran şəhərinin 1874-cü ildən sonra memarlıq-planlaşdırma strukturunda dəyişikliklərlə əlaqədar olaraq içqalanın ərazisində və onun hüdudlarından kənarda da müəyyən dəyişikliklər baş vermişdir.

1858-ci ilin planı ilə müqayisədə içqalanın xarici perimetri ilə xəndək və torpaq səngərlərinin yerinə şəhərin planlaşdırma şəbəkəsinə daxil olan küçə yaradılmışdır, bu küçə inzibati və ticarət mərkəzləri ilə əlaqəli idi və cənubdan Dəbbək-xana, qərbdən Dəlhabad, şərqdən isə Naseriyyə adlarını almışdır. Şimaldan içqala ərazisinin saray hissəsinin sərhədində qərbdən şərqə gedən Əndərun küçəsi kəsir, şimal istiqamətində isə Top-xanaya daxil olan geniş Almaziyə küçəsi ayrılır. Bu əsas istiqamətləndirici küçələr şəhər mərkəzinin özəyini təşkil edib, şəhərin sonrakı inkişafını müəyyən edirdilər.

İçqalanın saray hissəsi öz planlaşdırma strukturuna görə inkişafını davam etdirmişdir və yeni tikililər hesabına çətinləşmişdir. Şimaldan cənuba ox - küçə yarandı və bütün ərazini iki hissəyə bölmüş oldu: yaşayış hissəsi və təntənəli-mərasim və inzibati hissəsi və eyni zamanda özündə hər iki hissəni vahid saray sisteminə birləşdirirdi. Baxmayaraq ki, şəhərin planlaşdırılmasında həndəsi xətlər hökm sürürdü, tikilinin hər bir obyekti məkanın təşkilində öz yerli planlaşdırma sisteminə malikdir. Böyük meydanın başlanğıcı qismində bağların yaşıllığı və hovuzların su səthi çıxış edirdi ki, bunlar da demək olar ki, saray kompleksinin bütün hissələrini əhatə edirdi (167, s. 181-184).

1890-cı ildə kompleksə daxil olmuşdur: Nəsrəddin şahın oğlu Naibe Soltane sarayı, nazirliklər, taxt-tac salonu, dəftərxana, şah qaremi (əndərun), Gülüstan parkına üz tutmuş muzey və oranjereya, Şəmsi İmarət sarayı, İmarete Badqir sarayı, teatr – təkiyə və Nəsrəddin şahın leyb-həkimi Fevriyənin evi yerləşirdi (200).

Bütün obyektlər Naibe Soltan küçəsindən şərq hissədə yerləşirdi; qərb hissədə qvardiyanın kazarmaları, şəhər kompleksinin mühafizəsinin digər tikililəri yerləşirdi. Bütün kompleks cənubda Meydani-Ark və Nağara ilə Xana Meydanı Şah meydanında öz ictimai əksini tapırdı.

Saray kompleksində bütün əsas binalar memarlıq-planlaşdırma və həcmi-məkan həllində fəal iştirak edir. Xüsusilə də taxt-tac salonu gözə çarpır, o, böyük bağın mərkəzi hissəsində hovuzlarla birgə yerləşir və Novruz bayramı (bahar bayramı) zamanı

təntənəli qəbullar üçün xidmət edirdi. Saray kompleksinin bu açıq hissəsi müəyyən dərəcədə sarayın daxili hissəsindən böyük darvazalarla ayrılmışdır ki, burada şah kitabxanası yerləşir.

Bu kitabxanada misilsiz şərq əlyazmaları saxlanılır. Şahlar öz istəklərinə həddindən artıq vəsait sərf edirdilər, xüsusilə də bunu Nəsrəddin şah haqqında demək olar. M.Əlixanov-Avarskiy "Persiya Oçerkləri" əsərində (Tiflis, 1898) yazır ki, "ölkə gəlirlərinin demək olar ki, 15 milyondan artıq olmayan üçdə bir hissəsini ordu aparır, digər hissəsi - əndəruna sərf olunur, yerdə qalan hissə isə - onun həyatının və şəxsi istəklərinin təmin olunmasına, məsələn, brilyant və müxtəlif nadir əşyaların alınmasına güclə kifayət edir".

Nəsrəddin şahın dövlət sərvətlərinə bu cür münasibəti sayəsində İran üçün əhəmiyyətli heç bir şey edə bilmədi, lakin, əvəzində digər məqsədə nail oldu – şəxsi varlanma məqsədinə. Bu baxımdan o, Krezidə keçmişdir, onun Tehran sarayını isə əsl nağıllara bənzər saray kimi təsvir edirlər. İngilis səyyahlarından biri bu gözəl binanın memarlıq üslubundan yazarkən, onun kiçik əlavə tikililəri ilə yanaşı gözəl pilləkənlərini və təntənəli zallarını, mükəmməl şəkildə kanallarla suvarılan, zümrüd-yaşıl xətlərlə yaradılmış bağlarını, bir sözlə, hər bir məqamını qeyd edir, öz yazısının bir hissəsini Nəsrəddin şahın cavahiratının şərh olunmasına həsr edir: "Avropa üslubunda bəzədilmiş və müxtəlif əşyalarla və şahın Avropa səyahəti zamanı gətirdiyi bərbəzəklə doldurulmuş uç otaqla yanaşı muzey yerləşir, o, təəssüf ki, nadir hallarda açıq olur... bu mükəmməl zaldır, sözün əsl mənasında dəyəri, misli olmayan zaldır. Şəhrizad nağıllarında olduğu kimi hər yerdə qucaq-qucaq daş-qaşlar, qızıl, zinət əşyaları parıldayır. Onların parıltısı tamaşaçını müsbət şəkildə məftun edir. Lakin, onları kölgədə qoyaraq, "krallar kralının" reqaliyaları gözləri öz parlaqlığı ilə yandırır" (8, s. 136).

Həqiqətən də, bu zalın interyeri təkcə öz dekorativ bəzək əşyalarının təntənəsi, bütün divarların, qapıların, keçid və qübbələrin səthini örtən cah-calalı ilə gözəl deyildir. Burada seksiyaların vahid raportla sıralara bölünməsi vasitəsilə daxili məkanın konstruktiv təşkil olunma sistemi mövcuddur (172, s. 329-345).

Zal ox şəkilli arkaların mərkəzi yerləşməsindən ibarətdir ki, onlar təntənəli kompozisiyanın dərinliyini açıqlayır. Zalın dördbucaq seksiyası zəngin profil işləmələri və ornament yapmaları ilə qeyd olunmuşdur. Bu cür seksiyanın zalın bütün uzunu boyunca dəfələrlə təkrarlanması zalın çoxplanlı kompozisiyasının mənimsənilməsinin optik dərinliyini artırmaqla yanaşı bu memarlıq və konstruktiv sistemin ümumi dəyərini artırır ki, onlar da memarlar tərəfindən layiqincə dəyərləndirilmişdir.

Bahalı büllur çilçıraqlar, qızılı çərçivələrdə Venesiya güzgüləri, şəkillər və bədii işlənmiş xalçalar mərkəzi sahənin bütün eninə zalın interyerinin çalarlarla zəngin effektiv mühitini yaradır ki, bu zal saray kompleksinin çoxsaylı otaqları arasında diqqəti cəlb edir.

Muzeyin yanında qış zalı yerləşmişdir. Burada hovuzun ətrafında yüksək narınc və limon ağacları yerləşmişdir. Saray evlərində və zəngin yaşayış evlərində otağın interyerinin genişləndirilməsinin bu cür yolu ənənəvi səciyyə daşıyır və geniş yayılmışdır. İranda yaşıl əkililərə və güzgülü səthlərə qarşı sevgi böyükdür. Buna görə də böyük sahələrdə bağlar salmaq istəyindən əlavə sakinlər parad yerlərində də mikrobağlar salmağa can atırlar.

Gülüstan bağına şərqdən Şəmsi İmarət sarayı baxır. Bu şahın Tehranın ətrafında yerləşən çoxsaylı saraylarından biridir.

Çoxmərtəbəli, yəni, dördmərtəbəli sarayların yaranması Nəsrəddin şahın adı ilə bağlı olsa da, öz ənənələrinə malikdir və Qəsri-Qacar məşhur qəsri ilə bağlıdır (112, s.334).

Şəmsi İmarət ayrı tikilmiş binadır, hər tərəfdən görünüşə malikdir, yəni, pavilyon üslublu fasaddan ibarətdir. Onun həcmi-məkan kompozisiyası çox mənzərəli səciyyə daşıyaraq, iki dünya mədəniyyətinin sintezini əks etdirir: Avropa Qərbinin və müsəlman Şərqinin. Kompozisiyanın memarlıq həllinin simmetrikliyi mərkəzi ox sistemi ilə nə klassik Avropa, nə də Şərq memarlığına ziddiyyət daşımır.

Əsas fasadın həcmli kompozisiyasına portikin daxil edilməsi xüsusi elementdir. Həm də ki, geniş müəyyənləşdirilmiş sütunlarla, zəngin friz və frontonla portik klassik orderin nisbət uyğunluğunda bölünmələrini təkrarlamır, yerli memarlıq mövqelərindən nəzərdən keçirilir.

Həcm və memarlıq - dekorativ motivlər yerli bədii xüsusiyyətlər prizmasından keçir, bu elə maraqlı və koloritli şəkildə baş verir ki, Qacarların saraylarının memarlığı çərçivəsindən kənara çıxan yeni üslub imkanlarının yaranmasına yardım edir (222).

**Taxt-tac zalı**. Qacarlar özləri üçün həddindən artıq çox tikililər tikirdilər. Xüsusilə də onlar saray kompleksinin pavilyonlarından biri olan "Taxt-tac" zallarını sevirdilər. Sarayda memarlıq ənənələri öz cəlbedicilik qüvvəsini qorumuşdur və kompozisiya üsullarının zənginliyinə, dekorativ motivlərin gözəlliyinə, rəng seçimi-

*Tehran. Sarayın daxili görünüşü.*



nin müxtəlifliyinə, ustalıqla yaradılmış keramika plitələrinin, həndəsi və bitki mənzərəsinin mükəmməlliyinə malik idilər.

Fasadın memarlıq kompozisiyasında həcmli və konstruktiv formaların ifadəsində monumentallıq, ciddilik nəzərə çarpır. Əsas cənub fasadı arkada – lojiya ilə əhatə olunmuş, gözəl formalı hovuzla bəzədilmiş fontanla diqqəti cəlb edən həyətə açılır. Həyət daş plitələrlə örtülmüşdür ki, o, açıq səma altında özünəməxsus zalı xatırladaraq, sanki taxt-tac zalının davamı kimi çıxış edir.

Həcminin üfüqi olmasına baxmayaraq, fasad bellərinin şaquli bölgüsü şəbəkə vitrajlar, divar oyuqları və taxt-tac zalının sütunları ilə dəqiq ifadə olunur. Fasadın sərt mütənasib kompozisiyası mərkəzi açıq tipli taxt-tac zalı və yan cinahlarda yerləşən ikimərtəbəli hissələr ilə həll olunub. Saray binasının kompozisiya sistemində olan açıq zal bu yerin iqlim şəraitinin xüsusiyyətlərindən irəli gəlir. İnteryer vahid kompozisiya təşkil edir və mühitin dəyişməsində müəyyən bədii vəzifə daşıyır. İkimərtəbəli cinahların divarları yağlı boya ilə çəkilmiş gözəl, zəngin motivlər və rəsmlərlə bəzədilmişdir. Şahın qəbulunda bu otaqlarda nazirlər və qonaqlar bir fincan qəhvə və qəlyanla söhbətlər aparırdılar (182).

*Tehran. Parlament ərazisinə mərkəzi giriş.*



Sarayın fasadının zənginliyi taxt-tac zalının interyerindən geri qalmırdı. Taxt-tac zalı kompozisiyanın mərkəzi və saray binasının mühüm guşəsi sayılır.

Çatma tağların camaxatanlarının dərinliyində qeyd olunan taxt-tac zalı özözlüyündə təmtəraqlı kompozisiyadır. Zalın divarlarının nazik üfüqi bölgüləri, memarlıq və dekorativ motivlərin ustalıqla istifadəsi hesabına taxt-tac sarayı Şərq incəsənətinə məxsus bədii fantaziya, daxili harmoniya ilə zəngindir. Zalın ortasında Kərim Xan Zəndanın Şirazdan Ağa Məhəmməd Qacar tərəfindən gətirilmiş Yezdin ağ mərmərindən düzəldilmiş taxt-tacı dayanmışdır (198, s. 170).

Taxt-tac zalının dayaq tirlərinə dayaqlanan, dairəvi formalı iki mərmər sütun da Q.Kerzonun dediyinə görə Kərim Xan Zəndanın əmri ilə Şirazda hazırlanmışdır. Hündür burulmuş mərmər sütunlar alçaq əsas hissəyə və həndəsi şəklinə mütənasib olmayaq çoxyaruslu sütun başlıqlarına malikdirlər. Lakin bu fasadan ümumi bölgüsü, mütənasib düzülüşü və incə ornament örtüyü ilə işlənmiş memarlıq formaları ilə ziddiyyət yaratmır. Sarayın fasadı böyük zövqlə işlənib və dekorativ




*Tehran. "Arka" planı.*

incəsənət ustalarının rolu burda tam olaraq özünü büruzə verir.

Memar və tətbiqi incəsənət ustası burda əl-ələ verərək sarayın binasının təmtaraqlı obrazını tam açmağa nail olmuşlar. Memar P.Kosta yerinə yetirdiyi sarayın qrafik memarlıq rəsmində Şərq memarlığının incəliklərini, bu dövrə xas olan çalarları ustalıqla göstərməyə nail olmuşdur.

Baron F.Korf yazır: "İncəsənətlə tanış olmayanlar insanlar asiyalıların binalarında rəssamlığı görə bilmirlər: bunu duymaq üçün gərək memarlığı yaxşı biləsən. Bu sarayların və ibadətgahların gözəlliyini öz vətənlərindəki formalara öyrənmiş insanlar üçün zövqsüzlük kimi gəlir. Bu mənada Şah sarayına nəzər salmaq vacibdir:burada mükəmməllik dərəcəsinə çatdırılmış Asiya incəsənətinin incəliklərini öyrənmək olar" (59, s. 209).

Taxt-tac zalının tikintizi zamanı binanın xarici görünüşündə xeyli dəyişikliklər baş vermişdir. Əsas həcminin mərkəzində kiçik günbəzlər olan ikiçatılı damlar meydana gəlmiş, attik məhv olmuş və yan hissələrdə taxta pərvazların arxasında günbəzlər üzə çıxmışdır. Mərtəbələrin şəbəkələrini dekorativ aralıqlı taxta çərçivəli pəncərələr əvəz etmiş, və bununla da bina öz milli istiqamətini itirərək Şərq memarlığının eklektik süjetinə çevrilmişdir. Lakin taxt-tac zalına aparan yaşıl xiyaban və onun ətəyindəki fəvvarəli uzun hovuz binanın itmiş orijinallığının əvəz edir.

Saray kompleksinin çox hissəsini kiçik həyətlərin ətrafında bağlı otaqlar şəklində tikilmiş Şahın hərəmxanası tutur. Tikintinin mərkəzini Şərqin bağ-park incəsənətinin ənənəsində planlaşdırılmış, düzbucaqlı formalı və ortasında fəvvarəli gözəl hovuzu olan iri bağ tutur. Sonradan hovuzun yerində bədgir adlanan ikimərtəbəli saray tipli bina tikilmişdir. Bu bina çoxfasadlıdır, hündür podiumun üzərində stilobat şəklində qoyulub və öz memarlığında Avropanın bar motivlərini əks etdirir.

Binanın həcmi planda yarımkürəvi olan ikimərtəbəli, birinci mərtəbənin tinlərində enlənən və açıq giriş pillə-kanları olan erkerlərlə boldur. Gözəl yaşıl bağ bu ağ binanın fonu kimi çıxış edir;onun memarlığının ənənəvi memarlıqla heç bir əlaqəsi yoxdur, həmin stilistik xüsusiyyətlərdən uzaqdır və hərəmxananın hüdudlarında olan çoxsaylı tikililər ilə seçilir.

**Təkiyyə.** Saray kompleksində olan binaların arasında müsəlman teatr binası böyük maraq doğurur. Burada Gülüstan bağı ilə yanaşı müqəddəs şəbihlər "təkiyyə"-lər baş verirdi.

"Bu mərasim Məhərrəmlik ayı vaxtında müqəddəs hadisələrin yad etmək məqsədilə verilir və "Təziyyə" adlanır. Mərasin baş verən bina isə "Təkiyyə" (sığınacaq) adlanır. Kəndlərdə "təziyyələr" açıq havada, məscidin yanında və yaxud kəndin hüdudunda meydanda; şəhərlərdə isə xanların həyətində iri çadırların altında qurulurdu. İranın paytaxtı Tehranda şah təziyyəsi baş verən yer iri, hündür, bir neçə yaruslu kərpicdən və işləməli rəngli kaşıdan olan, tavansız dairəvi binadır. Məhərrəmlik vaxtı tavanı çatıların üzərinə günbəz şəklində çəkilən parusin örtük əvəz edirdi. Binanın daxilindəki meydanın diametri 200 addımdır; binanın divarlarında içəri açılan çəpərsiz lojalar, daha dəqiq desək bir neçə yaruslu balaca otaqlar var. Yerli ziyalılar şəbihə burdan, sadə camaat isə parterdən-meydanın ortasında ucalan və tamaşa baş verən "Taxtə" adlanan yerin ətrafından tamaşa edirdilər.

"Taxtə"-nin hündürlüyü $1^{1\backslash 2}$ arşın, diametri isə 50 addımdır. Buranın və tamaşaçıların arasında tamaşada iştirak edən



*Tehran. Təkiyyənin daxili görünüşü.*

artistlər və heyvanlar üçün keçid yeri var. Şəbih tamaşaları zamanı binanın içi çoxlu çıraqlar, fənərlər, güzgülər və şallarla bəzədilir. Bunun hesabına işıq dolğun olur. Hətta ortada əsasən səhnəyə işıq salan Yabloçkov fənəri asılır. Binanın bir tərəfindən Şahın hərəmləri üçün lojalar sırası jalüzilərlə örtülmüşdür, bu da orda oturanların üzlərinin görünməsinə imkan vermir. Şahın lojası açıqdır və hərəmlərin lojasının altında yerləşir. "(78, s. 101-102).

Təkiyyənin binası XIX əsrin 70-ci illərində tikilib və yuxarıdakı müəllif onun memarlıq-planlaşdırma həllini dürüst göstərir və bu iki kitab müəlliflərinin fransız Doktor Fevriye "İran sarayında keçirdiyim üç il" (199, s. 141) və alman F.Rozenin "İran kəlmələrdə və rəsmlərdə" (224, s. 144) kitablarından olan fotoşəkillərlə sübut olunur.

Nəsrəddin Şahın 1889-1891-ci illərdə saray həkimi olan fransız həkim İran üzrə olan kitabların yeganə müəllifi kimi bizə məlumdur. O, qalanın planını saray kompleksi ilə birgə təqdim etmiş və dairəvi planlı Şah "Təkiyyə"-sinin yerləşməsini də əlavə etmişdir. Düzdür, burada binanın bir dənə də olsun daxili planlaşdırmasının planı yoxdur, lakin planda dairəvi və iri miqyaslı "Təkiyyə" qalanın planlaşdırılmasında və tikintisində mühüm yer tutur və öz həcmi ilə şəhərin siluetində seçilir.

Təəsüflər olsun ki, qalanın əsas planında dairəvi binanın dəqiq diametrini müəyyən etmək üçün onun miqyası göstrərilməyib. Misil Rüstəm tərəfindən verilən məlumat "Binanın daxili diametri 200 addımdır" həqiqətə uyğun deyil, çünki əgər bir addımı 75 sm hesab etsək, onda zalın diametri 150 m. , yəni təxminən Roma kolizeyi (188x156 m) ölçüsündə olmalıdır. Tehranın 1826-ci ilə aid olan planından belə görünür ki, qalanın miqyası 320x250 sajın (683x533 m) təşkil edir. Bunun əsasında onu müəyyən etmək olar ki, "Təkiyyə" zalının diametri 50 m. artıqdır və İranın o dövrü üçün bu tip tikililərin arasında böyük nailiyyət kimi qiymətləndirilir.

Doktor Fevriyenin kitablarının İran üzrə başqa kitab müəlliflərindən üstün cəhəti ondadır ki, o qalanın əsas planında bütün tikililərin, meydanların və şah sarayı kompleksinin bağlarının yerləşməsini göstərir və demək olar ki, bütün binaların fotoşəkillərini də əlavə edir. Bu üsulla o qalanın planlaşdırmasının əsas məqamları və həmçinin onun tikililərinin memarlığı haqqında qiymətli məlumat verir.

"Təkiyyə" əslində şəbih tamaşaları üçün nəzərdə tutulmuş bir metr hündürlüyündə səhnəsi olan özünəməxsus və dərin təsir bağışlayan tikilidir. Bu zalın mərkəzində tirlərə dayaqlanmış platformadır. Dörd pilləli bir neçə pilləkan "taxt"-a-insanların və heyvanların iştirakı ilə keçirilən şəbih yerinə qalxırdı. Dairəvi kasa üç mərtəbəyə bölünmüşdür. Burada kaşı lövhəciklərin yastı bölgüləri ilə qeyd olunmuş iri yarımdairəvi tağ-lojalar üstünlük təşkil edən elementlərdəndir. (98, s. 94-103).

Zalın divarlarında lojalar tağlarının arasını yastı kürələrlə, mərtəbələrarası bölgülər olan yerlərin profillənməmiş üfüqi dartıcılarla işlənməsi, tağların çərçivələnməsi buranın boş səthlərinin dekorativ kaşı lövhəciklərlə üzlənməsi xüsusiyyətindən irəli gəlir.

Ornament rəsmlərin zənginliyi, rəngi və frizin epiqrafik məzmunu zalın daxili səthini xalça rəsmləri ilə doldurmuşdu. Bu doğurdan da zəngin teatr zalı idi, onun memarlığı qədim ənənələri yeni nöqteyi-nəzərdən təqdim edirdi.

Binanın əsas həcmindən açıq taxta tirlərin irəli çıxması onun konstruktivliyini qeyd edir. Kərpic fasad yuxarı kimi yarımdairəvi tağların yastı camaxatanları ilə işlənib. Kərpic hörgünün tağ motivi öz

məzmununa görə nadir olan"Təkiyyə" binasının əhəmiyyətini qeyd edir. Bu tikilinin memarı kim olduğu bilinmir (98, s. 94-103).

Şimaldan cənuba olan istiqamətdə Naibə-Səltənət küçəsinin ox xətti həcmməkan sisteminə dirənir və Nağaraxanaın binası ilə tamamlanır. Bunun qarşısında hərbi nazirliyin bağları ilə əhatə olunmuş "Meydani Ərk" meydanı yerləşir. Nağaraxanaın binasının qarşısında hovuzun ox xətti ilə "Top-Mirvarid" yəni mirvari top adlanan misdən düzəldilmiş nəhəng top dayanırdı.

Kerzonun sözlərinə görə bu top haqqında müxtəlif hadisələr danışılır. Bəziləri onun Nadir Şah tərəfindən Dehlidən gətirildiyini, başqaları isə topun İranda tökmə üsulu ilə hazırlandığını deyir. Bir zamanlar Ser R.K.Porter bele fikir söyləmişdir ki, bu Şardenin İsfahanda gördüyü topdur. Kerzon isə qeyd edir ki, o, hardasa oxuyub ki top Şirazda Kərim Xanın əmri ilə düzəltdirilib, sonra qacarlar tərəfindən Tehrana gətizdirilib və müqəddəs sayılır.

Nəsrəddin Şahın dövründə Mədəniyyət naziri olan Cahangir Xan Kerzona belə nəql edirmiş ki, İran tarixçilərinin məlumatına görə bu top Portuqaliyadandır və 1622-ci ildə Ormuzdda iranlılar və ingilislər tərəfindən zorla alınıb (181, s. 306).

Bu məhşur topun qarşısında Nağaraxana ucalır. Hər axşam günəşin batmasından sonra kornet, tütək, təbil və nəfəsli alətlərdən ibarət olan orkestr şəhərin hər tərəfində eşidilən müxtəlif mahnılar çalırdı. Bu cür mahnılar iki əsr bundan əvvəl Tavernyenin və Şardenin yuxusuna haram qatırmış.

Nağaraxana binası pavilyon tiplidir və birinci mərtəbəsinin mərkəzində iri tağlı aşırımı olan rəngarəng kompozisiyalı bina Dəbbək xan küçəsinə, oradan da Səbzi meydana və bazara çıxırdı. Ox xəttində yarımdairəvi səfləri olan fasadın pilləli silueti Qacarlar dövrünə xas olan fənddir və Nağaraxananın görünüşündə öz əksini tapmışdır. Pavilyonun yuxarı hissəsi lociya şəklindədir və tirə dayaqlanan iki sütununa dayaqlanıb. Kamer tipli pilləli kompozisiya yaşıllıqlarla zəngin xırda həcmli tikililəri olan meydanla həmahəngdir.

Fasadın özü yarımdairəvi tağların dayaz camaxatanları, tağların kənarında yastı çərçivələr və pilləli kompozisiyanın uzununa düzülmüş dekorativ pərvazların hesabına həcmli və plastik həllə malikdir. Fasadın saxsı lövhəciklərlə işlənmiş zəngin dekorunun bu cür plastikliyi pavilyonun memarlığının kompozisiya həllinə optimist görünüş verir, bu da "Meydani Ərk"-ın ümumi görünüşündə əks olunurdu.

Nağaraxananın qarşısında yan fasadı Naibə Soltana çıxan Dəftərxana yerləşirdi. Dəftərxananın əsas hissəsi Nağaraxananın artıq məlum memarlıq kompozisiyasını təkrar edir, lakin girişin mərkəzi stalaktit tağı və yan çatma tağların camaxatanları ilə fərqlənirdi. Məzmununa görə müxtəlif olan binaların memarlıq üsulları, forma və motivləri İran ictimaiyyətinin tələblərinə uyğun olan o dövrün memarlığının stilistik istiqamətini qeyd edir.

"Meydani Ərk"-ın ətrafındakı bütün tikililər Avropada peşəkar təhsil almış memar Mirzə Mehdixan Şəqaqi (məhşur türk Şəqaqi nəslinin nümayəndəsi) tərəfindən tikilmişdir. O, 1843-cü ildə Tehranda doğulmuşdur və 1857-ci ildə Nəsrəddin şahın əmri ilə başqa məzunlarla birgə Parisə təhsil almağa göndərilmişdir. Burada Şəqaqi "Memarlıq" fakültəsinə daxil olur və təhsilini 1863-cü ildə başa vuraraq İrana qayıdır. Mirzə Mehdixan 1880-ci ildə ilk dəfə İran üçün Beynəlxalq hüquq kitabı yaratmışdır və Xarici İşlər Nazirliyinin nəzdində siyasi məktəbin əsasını qoymuşdur. Bu fəaliyyətinə görə o, Şah

tərəfindən "Mimtəxul-Dövlə" adını almışdır. Mirzə Mehdixan Şəqaqi memarlıq sahəsində böyük sənət uğurları qazanmış, çoxaysı lahiyələrə və tikintilərə imza atmışdır. 1865-ci ildə Nəsrəddin Şahın əmri ilə memar "Firuzə" sarayını, 1874-cü ildə "Sipahsalar" məscidi və mədrəsəsini, dövlət parlamentinin binasını və Şahın zadəganları üçün başqa imarətləri layihələndirib, tikmişdir. Bununla yanaşı onun tərəfindən Ark meydanının ətrafında Nağaraxana və Dəftərxana binaları tikilmişdir (121, s. 4).

Ərkin şimal divarlarının qarşısında yaranmış Topxananın nəhəng ərazisi şəhərin şəhərsalma prinsiplərini və inkişafını əks etdirir. Bu şəhərə olan tələblər hökumətin və Şah sarayı əhlinin həmişə Tehranda olmasından irəli gəlir.

Lakin, şəhər orqanizmin tərkibində olan bu böyüklükdə düzbucaqlı sahə İranın şəhərsalması üçün yeni deyil və Təbriz, Qəzvin, İsfahan və digər qədim şəhər mərkəzləri üslub memarlığını ən yüksək səviyyədə təmsil edən tikintisi olan başqa meydanlara malik idilər.

Tehranın Topxana meydanı Nəsrəddin şahın 1870-ci ilə təsadüf edən şəhərsalma tədbirləri zamanı yaransa da, bu istiqamətdə yetişmiş özünəməxsus sistemi vardır. Meydan şübhəsiz ki, məhşur Şah Abbas meydanın təsiri ilə yaranmışdır.

Topxana meydanın planlaşdırılması və tikintisi başqa sosial-iqtisadi və siyasi şəraitdə, ölkə Səfəvilər sülaləsinin ilk şahları dövründə olduğu qüvvəyə və zənginliyə malik olmadığı bir dövrdə baş vermişdir. Bununla belə, Tehranın meydanlarının, həmçinin Topxananın tikintisi Tehranın şəhərsalmasına yeni məzmun gətirən əhəmiyyətli planlaşdırma elementləridir.

Əgər iri miqyası, bölgüsü və rəngi ilə adi ticarət sıralarına təsir edən dini və saray tikililəri İsfahan meydanının əsas memarlıq və bədii elementləridirsə, Topxanada isə başqa obyektlər, memarlıq motivləri və formalar əmələ gəlmişdir. Obyektlər memarlıq kütlələrinin iri həcmi ilə seçilmirdi, lakin həm planlaşdırma, həm də həcm ifadəsi ilə Topxananın strukturuna uğurla daxil olurdu. Almaziyə küçəsi vasitəsi ilə Topxana saray kompleksi ilə sıx əlaqəlidir, şəhərin ticarət hissəsi və səfirliklər rayonu isə Nəsriyyə və Laləzar xiyabanları ilə bağlanırdı. Topxana meydanının qapalı xarakterli olmasına baxmayaraq o, memarlıq cəhətdən qeyd olunmuş təntənəli darvazaları vasitəsi ilə şəhərin başqa meydanları ilə əlaqəsini itirmirdi və onların hesabına daxili qala divarlarının dibi ilə gedən ümumi dairəvi magistral yol ilə birləşmiş planlaşdırma strukturunun radial istiqaməti ilə qovuşurdu.

Darvazaların memarlıq və həcmli həlli təntənə və cah-calalla qeyd edilmişdir. Onları çoxluq təşkil edən minarə tipli dekorativ qüllələr və üz tərəfin barokko üslublu əyri xətli birgədər narahat silueti fərgləndirir. Qüllələr darvazaların ümumi pilləli kompozisiyasına, dekorativ olmasına baxmayaraq, dinamiklik və hərbi kazarmanın ərazisini əhatə edən üfüqi bölgülərə ifadəlik verir.

Darvazanın həcmli həllinin kompozisiyasına ənənəvi keramik üzləmə də daxildir ki, o, meydanın formalaşmasına əhəmiyyətli təsir göstərir. Fasadların bölünmələrinin şaquliliyi, alınmış tağların memarlıq formaları, epiqrafik uzlaşma, üzləmənin rəngli keramikası şübhəsiz ki, heyran qoyur, bu da Tehrana gələn və bu darvazaları görən qonaqlar tərəfindən xüsusilə vurğulanırdı. (C.Kerzon, Misl Rüstəm, S.Lomnitskiy (Rəcəb), F.Rozen) (78, 69, s. 238, 224).

Ümumi mənzərə, darvazaların kompozisiyası və silueti yerli memarlıq ənənələrindən irəli gəlir, lakin, Qacar-

ların dövrü ilə əlaqədar olan yeni memarlıq elementləri ilə əlaqədardır. Şəhər darvazalarının, mühüm şəhərsalma qovşaqlarının təntənəliliyi – ölkənin XIX əsr memarlığının yeni istiqamətinin məhsuludur. Darvazalar, öz memarlıq artıqlarına baxmayaraq, öz təntənəsi və tamlığı ilə dövrün fərdi xüsusiyyətlərini özündə əks etdirir.

Bu cür memarlıq və dekorativlik baxımından tamamlanmış darvazalar ötən əsrlərdə müşahidə olunmurdu ki, məhz onlar şəhərin strukturunun mühümlüyünü bu cür vurğulamış olsun. Sonradan bu hal İran memarlığında müsbət istiqamət kimi istifadə olunmuşdur.

Hərbi kazarmaların ikimərtəbəli tikilişi Top-xananı əhatə edir və ötən dövrlərlə müqayisədə digər memarlıq formaları və dekorativ motivləri əks etdirir. Meydan tikilisinin memarlıq kompozisiyasının əsas elementi yarımpərgar formalı tağdır ki, o da istər arakəsmələrin, istərsə də fasadların plastikasında hamar divar qismində istifadə olunur.

Kazarmaların fasadları mərtəbələrin yarım sütunları ilə bir sıra eyni seksiyaya bölünür və bu seksiyalar vahid memarlıq üslubu altında birləşmişdir. Fasadların bölünmələrinin üfüqiliyi, onların ikinci mərtəbələrdə açıq balkonları və yüngül metal hörmələri, memarlıq forma və motivləri meydan məkanının təşkil olunmasında mühüm yer tutur.

Meydan tikilisinin memarlığı kifayət qədər mənzərəlidir, həcmi-məkan strukturuna dörd zəngin darvaza və "təsadüfən "İran dövlət bankının" adını daşıyan ingilis bankının ikimərtəbəli binası" təbii surətdə daxil olur. Həmçinin yaxınlıqda poçtamt, Ost-Hindistan teleqrafının bürosu və hauptvaxta yerləşir (69, s.79).

Meydanın orta hissəsini böyük düzbucaq hovuz və onu əhatə edən ağaclar tutur, "bağçanın künclərində dörd böyük və uzun top yerləşir, onlar deyilənlərə görə şaha (dəqiq xatırlamıram hansına) Hindistan şahzadələrinin biri tərəfindən hədiyyə olunmuşdur" (69, s. 79).

Topxana meydanının bütün tikilisinin strukturu boyunca planlaşdırma sisteminin əksində, həcm həllinin quruluşunda, kəskin ifadə olunmuş darvazaların görünüşündə ifadə olunan təntənə yerli memarlıq mövqelərindən irəli gəlir.

Əgər şəhərin tarixi mərkəzini şah sarayı ilə sıx əlaqəli olan tikili tuturdusa, onun hüdudlarından kənarda yeni hökumət müəssisələri, dini ibadətgahlar yaranır ki, tarixi mərkəzin təsir sahəsini Tehranın yeni məhəllələrinə yayır.

Yeni Tehranın əsas binalarına Baharistan sarayı aiddir ki, bu İran məclisi üçün ayrılmış və Sepahsalar məscidinə birləşən parlamentdir.

Bina böyük ərazini tutur və məhəllənin dərinliyinə inkişaf edirdi. Əsas fasad plastik və həcmi-məkan həllinə malikdir. Burada qüllə şəkilli girişlər, hamar dam, giriş pilləkəni ilə birgə binanın memarlıq kompozisiyasına daxil olan sütunlar diqqəti cəlb edir. Kərpic fasad o qədər memarlıq detalları ilə deyil, mənzərəsinə görə sönük tağ formaları, birləşmələr və müxtəlif motivlər ilə yüklənmişdir. Əsas fasadın və onun yan tərəflərinin Avropa memarlıq üslubu milli səciyyə daşıyır, baxmayaraq ki, qərbin klassik irsinin mahiyyətinə nail olmaq istəyi mütənasib həcmlərin və memarlıq formalarının və üsulların ifadəsində dəqiqliklə izlənir.

Memarlıq baxımından məclisin iclas zalı maraq doğurur, burada mərkəzi lojiyanın böyük tağı, ikinci mərtəbə səviyyəsində açıq balkonlar diqqəti çəkir. Zalın geniş frizinin incə plastikası izlənir, divarlar ekran şəkilli profillənmiş çərçivələrə bölünmüşdür.

Rus jurnalisti N.P.Mamontov məclis binasının interyerləri haqqında maraqlı

məlumatlar vermişdir. O, yazır: "Məni alt zala daxil etdilər. İçərisində oynaşan qızılbalıqlarla dairəvi hovuz orta hissəni əhatə edirdi. Döşəmə rəngli mərmərlə işlənmişdir, divarlar qızılı parlayır, tavan ayrı-ayrı büllur plitələrlə və asmalarla bəzədilmişdir və bağ ağaclarının budaqları arasından düşən batan günəş şüalarını əks etdirirdi. Hörmə pilləkən ilə biz ikinci mərtəbəyə daxil olduq. Bu "İclas zalı" idi. Bunu mənə müşayiətçilərimdən biri bildirdi. Kəsmə kapitellərlə sütunlar, böyük güzgülü pəncərələr, tavanın və divarların işləmələri, döşəmənin üzərində bahalı xalçalar öz gözəlliyi ilə məftun edirdi" (72, s. 143).

Şəhərin canlanmış magistralında Sepaxsalar məscidi tikilmişdir. Bu məscid 1878-1890-cı illərdə Mirzə Hüseynağanın vəsaitləri hesabına tikilmişdir.

Məscidin ümumi kompozisiyası əvvəlki məscidlərin kompozisiyasından onunla fərqlənir ki, burada həcmlərin tikilmə qaydası, mərkəzi günbəzin forması, minarələrin yerləşməsi və xarici fasadların ciddiliyi gözə çarpır. Magistral tərəfindən fasada ikimərtəbəli piştaxtalar baxır, onlar ənənəvi memarlıq formalarında tikilmişdir, yəni, oxşəkilli tağlarla. Məhəllə tərəfindən məscid həmçinin, yerli memarlıq ənənələri ilə tikilmişdir. Giriş portal və iki lojiya ilə ifadə olunmuşdur. Divarların üzləmələri, oxşəkilli tağların,

*Tehran. "Sepəhsalar" mədrəsəsi.*





*Tehran. "Sepəhsə-lər" mədrəsəsi.*



lojiyaların üzlükləri bitki ornamenti ilə minalanmış plitələrlə bəzədilmişdir və təsdiq edir ki, memarlıq sənəti dərinlik qüvvəsini qoruyur və bu baxımdan onun inkişafına təsir etməyə davam edirdi.

Sepahsalar məscidinin həcmi-məkan kompozisiyasında Qacar dövrünün üslub xüsusiyyətləri tam şəkildə özünü büruzə verir. Burada Səfəvilər dövründə müşahidə olunan mütənasiblik incəliyi, həcmlərin həllində yumşaqlıq mövcud deyil.

Dövrün səciyyəsi, memarlıq sənətinə münasibət, tikinti bacarıqları yeni tikililərə öz kəskin izini buraxır. Tikilinin obraz həllinə daxil olma prinsipi azalır, bundan da memarlıq kompozisiyasına səliqəsiz münasibət, müəyyən qanunauyğunluqların pozulması, memarlıq həcmlərinin qeyri-tektonikliyi irəli gəlir.

Tikilinin memarlıq kompozisiyasında əsas və tabe olmuş məqam lokallaşır, detalların tam işlənməsi rəhbərlik edir, onların mənzərə səciyyəsi kobudlaşır. Bu sistemə rəng həllini də daxil etmək olar, bir qədər yayılmış tendensiyalı şəkil ilə ifadə olunur. Fasadların divarlarında kaşılar üfüqi və şaquli kəsiklər arasında xalça örtüyü qismində divarda əks olunsa da, dekorativ-tətbiqi incəsənətin yüksək harmoniyasına nail ola bilməmişlər.

Bu məqamlar memarlığın ümumi inkişaf prosesində onların əhəmiyyətini azaltmır. Çünki memarlıq müharibələr səbəbindən nə qədər zəifləsə də, Nadir şahdan, Zendlərdən sonra Qacarlar tikintini davam etdirirdilər, bununla da memarlığın və dekorativ-tətbiqi incəsənətin inkişafına yardım edirdilər. Bu səbəbdən Sepaxsalar məscidində memarlıq-tikinti ənənələri davam etdirilmişdir, lakin, həcmi-məkan və bədii məsələlərin həllinə münasibət bir qədər dəyişmişdir.

Yeni ictimai-iqtisadi şərait yeni tələblər və məsələləri irəli sürürdü. Planlaşdırma həllərinin təntənəsi, onların Səfəvi hökuməti dövründə monumental binalarla tikintisi (İsfahan), Qacarların ibadət tikililərinin ayrı-ayrı binaları ilə əvəz olunur, əsasən pul vəsaitləri paytaxt ətrafında saray tikintisinə yönəlirdi.

Tehranın müasir memarlığının yaradılmasına təsir göstərən tikililərə romantik istiqamətdə Loqante restoranının binası aiddir. Bu Nəsrəddin şahın dövründə böyük vəzirin keçmiş iqamətgahı olmuşdur. Bina bağda yerləşirdi, əks tərəfdə düzbucaqlı formada hovuz tikilmişdir. Hovuza su dağlardan gəlirdi.

"Böyük Abbas bu gözəl meşələri sevirdi, burada bir-birinin üzərində bütün iqlimlər birləşir – qarlı dağların soyuğundan tutmuş sahilyanı bürküsünə qədər Həmçinin, burada küknardan portağala qədər bütün ağac növləri bitir. O, bataqlıqlar tikməyə başladı: "Özünün ağılsız ehtirası, Əşrəf, Marlya və Trianon kimi, lakin, fars Trianonu" (22, s. 186)

Bu cür irs istər saray tikililərinin, istərsə də icraçıların – memarların təəccübünü və heyranlı münasibətini doğurmaya bilməzdi, onlar öz memarlıq keçmişlərinin ənənələrinə böyük hörmətlə yanaşaraq, bu irsin davamçıları kimi çıxış edirdilər.

# FƏSİL 3.

# İRANIN DİNİ MƏRKƏZLƏRİ

**Ərdəbil**. İranın dini mərkəzləri arasında Ərdəbil Qum və Məşhəd şəhərləri ilə yanaşı xüsusilə Səfəvilər dövründə böyük əhəmiyyət kəsb etmişdir. Ərdəbil şeyxlərinin iqamətgahı olaraq, İranda Səfəvilərin hakimiyyətə gəlişindən sonra Ərdəbil ibadət yerinə çevrilir ki, bu da Səfəvi şahları tərəfindən hərtərəfli dəstəklənirdi (113, s. 106).

"XVII əsrin ortalarına Səfi şeyxin evindən başqa Ərdəbil nekropolunda Səfi şeyxin oğlu Sədrəddin şeyx, Sədrəddinin oğlu şeyx Cüneynd, Cüneyndin oğlu Sultan Heydər, Heydər Sultanın oğlanlarından biri şeyx Heydər, Heydər şeyxin oğlu şah İsmayıl, şah İsmayılın oğlu Təhmasib şah, Təhmasib şahın oğlu 2-ci şah İsmayıl, İsmayılın oğlu şah Məhəmməd Xudavəndi, İsmayıl-mirzə və Hama-mirzə, eləcə də Şah Abbas dəfn edilmişdir" (96, s. 106).

Dini mərkəz, şəhərin böyük rayonunu əhatə edirdi, burada çoxsaylı tikililər, yüksək memarlıq formaları mövcud idi və onlar dövrün üslub xüsusiyyətlərini müəyyən edərək, memarlığın dəyərli irsi kimi çıxış edirdi. Bu rayonun ətrafında əvvəllər əhəmiyyət kəsb etməyən şəhər böyük, həm dini, həm də ticarət mərkəzinə çevrilmişdir (229, s. 67).

Şəhər meydanı, bazarlar, sərbəst şəkildə qruplaşdırılmış dini ibadətgahlar şəhərin planlaşdırma strukturunda mühüm rol təşkil edərək, Balıqlı-çay çayının hər iki tərəfində inkişaf edə bilərdi. Savalan dağından və bilavasitə Balıqlı-çay çayından kifayət qədər həcmdə su ilə təchiz olunmuş şəhər bağların yaşıllığında boğulurdu, küçələr boyu ağaclar isə kölgəli xiyabanlar yaradırdı.

Bu cür əlverişli şəhər mühiti yaşayış məhəllələrinin və ümumilikdə şəhərin abadlaşdırılması üçün əlverişli idi. Ərdəbilin əsası qədim zamanlara aid olsa da, o, Sasanilərin Mərvdə Azərquşaspdan Bağrama yolunda yerləşən şəhərləri sırasında qeyd olunur. Səfəvilərin dövründə şəhər inkişaf etmişdir. 1571-ci ildə Təhmasib şahın rəhbərliyi dövründə Ərdəbil xoradan və aclıqdan zərər çəkmişdir; 30.000-ə qədər əhali tələf olmuşdur. XVIII əsrdə Nadir şah Ərdəbildə tacını taxmışdır. 1828-ci ildə Ərdəbil rus generalı qraf Suxtelen tərəfindən alınmışdır.

1842-ci ildə, İ.N. Beryozinin Ərdəbilə gəldiyi vaxt şəhər dairəvi olaraq 5 verstə malik idi, şəhərin çiy kərpicdən tikilmiş və dörd darvazası olan ensiz şəhər divarları vardır. Astara tərəfindən Niyar, Təbriz tərəfdən Ket-xuran Təbrizi, Meşkin tərəfdən Meşkin.

Şəhər düzənlikdə yerləşmişdir, onun ərazisindən Balıqlı-çay axır, öz qolları ilə bütün şəhər ərazisini əhatə edir. Tikili Balıqlı çayın hüdudları ilə məhdudlaşmırdı, əks sahilləri də tuturdu. Beləliklə, Ərdəbil qismən ada mövqeyində idi, bu da ona Aran ərazi ilə yanaşı fərdi əhəmiyyət verirdi.

Berezin qeyd edir ki, Balıqlı-çay çayının üzərində yaxın Niyar darvazalarına gedən Niyar körpüsü atılmışdır (23,

s.18). Dapperin şəklinə əsasən 1656-cı ildə Balıqlı-çay çayının üzərində çoxsaylı körpülər inşa edilmişdir. Berezinin şəhərə gəldiyi dövrdə bu körpülərin əksəriyyəti sökülmüşdür, Niyar körpüsü daha güclü, qorunmuş və istismar edilən körpü olmuşdur, bu da Berezinin diqqətini cəlb etmişdir.

Şərq şəhərlərinin tikilisi qapalı səciyyə daşıyır, işlənmiş fasadları yoxdur və yalnız kiçik girişlərlə ifadə olunmuş şəhərlər, onların təbii eyniliyi və solğunluğu darıxdırıcıdır və şəhər haqqında ən mənfi təsəvvürlər yaradır.

Dini ənənələr, məişət şəraiti, evlərin birun və əndəruna bölünməsi, yəni, kişi və qadın hissələrinə bölünməsi, küçələrə pəncərələrin olmamağı müəyyən darıxdırıcı təsir yaradırdı. Şəhər tikilisi yalnız böyük miqyaslı ictimai meydanlar, dini ibadətgahlar, minarələr, açıq və qapalı üslublu bazarlar, memorial tikililər, yaşıllıq, şəhərin ərazisindən axan kanallar hesabına müəyyən çalarlara malik olurdu. Bu memarlıq - planlaşdırma elementlərinin kompleksindən Şərq şəhərinin obrazı yaranır ki, bu obraz onu Avropa şəhərlərindən fərqləndirən öz spesifik xüsusiyyətlərinə malikdir.

Bu baxımdan Ərdəbil istisna hal deyildir, həmçinin, bu şəhər ölkənin dini mərkəzlərindən biri olmuşdur, əhalisi isə fanatik və eyni dərəcədə də konservativ idi.

İranın digər şəhərləri kimi Ərdəbil də məscidlərin monumental portalları, geniş meydanları, ticarət yerləri, səs-küylü toplusu olan ictimai tikililərə əks olaraq yaşayış evlərinin qapalı divarlarının arxasında var qüvvəsi ilə açılır.

Perimetr ilə tikilmiş sahə öz estetik imkanlarını açır. Şəbəkə-vitrajları ilə giriş yerləri, rəngli xırda şüşələri ilə daş plitələrdən döşənmiş məhəlləyə baxır, hovuz və fontan ilə bağın yaşıllığı məhəllə daxili məkanın təşkilində mühüm əhəmiyyət kəsb edir. Belə ki, ekran üslublu incə ağac şəbəkələri otaqların bütün uzunluğunu və hündürlüyünü tutur və bağla məhəllə vahid orqanizmə birləşərək, rəngarəng bədii mühit yaradır.

İranın rusiyalı tədqiqatçısı N.P.Mamontov yazır ki, "Asiya şəhərlərinin bədbəxtliyi ondan ibarətdir ki, onların sakinləri çox qapalı yaşayır. Bütün evlər və bağlar adətən daxildən çox gözəldir, lakin yüksək, ikisajinli gil-palçıq hasarlara alınmışdır. Onun arxasından yalnız yaşıl budaqlar görünür və küçə tozundan boğulan yol ilə keçən insanı məftun edir. Əgər xoşagəlməz lüt gildən tikilmiş divarlar yüngül və incə şəbəkə hasarlarla əvəz oluna bilsəydi, Tehranın küçələri dünyada ən gözəl küçələrdən olardı" (72, s. 42).

Ərdəbil bazarı şəhərin strukturunda mühüm yer tuturdu, Şərqin bütün digər şəhərlərində olduğu kimi "zəruri həzz verirdi: şərqdə hər yerdən qovulmuş ictimai həyat yalnız burada xüsusi enerji ilə özünü büruzə verir. Ərdəbil bazarı karxanalarla, dəmirçilərlə, çörəkçilərlə, kababxanalarla..., ümumiyyətlə piştaxtalarla tutulmuşdur; o, öz eninə və piştaxtaların genişliyinə görə cəlb edir" (23, s. 19).

Bazar kompleksi təkcə ticarət sıralarının açıq və qapalı tipində deyil, həmçinin, çoxsaylı piştaxtalardan və karxanalardan, atelyelərdən ibarət idi. Bazar kompleksinə çoxsaylı karvansaralar daxil idi ki, kompleksdə böyük fərdi səciyyəli memarlıq-planlaşdırma ansamblını təşkil edirdi, yerli üslub xüsusiyyətlərini, konstruktiv üsulları və memarlıq formalarını ifadə edirdi.

XIX əsrdə Ərdəbildə kərpicdən tikilmiş yeddi karvansara mövcud idi. Onlardan ikisi "yaxın zamanlarda Vəkil və onun qardaşı tərəfindən tikilmişdir, hər iki bina çox gözəldir, xırda kərpicdən yığılmışdır və dairəvi qübbələrlə örtülmüşdür.

Karvansaraların orta hissəsini quyu tutur, ətrafda isə yüzə qədər boş piştaxtalar mövcuddur. Olearinin vaxtında burada "Keysari" karvansarası məşhur idi. Burada bahalı mallar satıldığından bu karvansara bu cür adlandırılmışdır" (23, s. 19).

Əsasən içqala (Ərkdən) və şəhristandan ibarət olan İranın şəhərləri, vahid müdafiə tikililərinin kompleksi ilə birləşdirilirdi. Bu cür mövqe Kirmanədə, Sultanabadda, Bəndər-Buşirdə, Yezddə, Burucirdə, Hürrəmabadda, Şusterdə, Gülpayqanda, Senada və sair yerlərdə müşahidə olunurdu.

Lakin, XIX əsrin əvvəlində şəhərlərin müdafiə sistemində yeni üslublu istehkam tikililəri yaranır, onlar mövcud şəhərlərin yanında ayrı-ayrı tikilmiş qalalar şəklində ifadə olunur. Bu Fətəli şahın oğlu Abbas Mirzənin hərbi əməliyyatları ilə əlaqədar idi ki, o, Abbas Mirzənin yanında xidmət edərkən strateji obyektlərin tikintisinə rəhbərlik edən fransız mühəndisi Qardanenin planları əsasında bir sıra qala tikmişdir.

Bunlara Naxçıvan rayonunda, Araz çayı yaxınlığında Abbas-Abad qalası, Ərdəbil qalası və Xoy şəhərinin qalasıdır. Bu cür tendensiya, həmçinin Cənubu Qafqazda rus ordusuna da xas idi ki, onların hərbi mühəndisləri, məsələn 1807-ci ildə Bakı qalasının yanında dəniz kənarında ayrı ucalan qala tikməyi təklif etmişlər. Rusların Cənubu Qafqazda qələbəsindən sonra Bakıda yeni qalanın tikilməsinə ehtiyac qalmadı.

Ərdəbil qalası Avropa hərbi sənətinin bütün qaydalarına riayət olunmaqla tikilmişdir, şəhərin cənub-qərb hissəsində yerləşir, dördbucaq formasındadır, ümumi uzunluğu 1 ½ verst (1,6 km) təşkil edir. Dərinliyi 2 sajen (4,26 m), eni 5 sajen (10,67 m) olan xəndək və bütün perimetr boyu torpaq təpəsi qalanın müdafiə imkanlarını artırır.

*Ərdəbil. Məscidin ön görünüşü.*



Divarların hündürlüyü 3 sajen (6,4 m) olan ikiqat sırası mövcuddur, sıralar bir-birindən 2 ½ sajen (5,32 m) aralıdırlar, kiçik daş və kərpiclərdən tikilmişdir, torpaqlı gil ilə üzlənmişdir, birinci divarın qalınlığı 1 ½ sajen (3,18 m), ikincisinin qalınlığı isə 1 sajen (2,13 m) təşkil edir. Qalanın künclərində divarlardan bir ərşin (0,71 m) hündür olan istehkamlar müəyyənləşdirilmişdir. Körpü vasitəsilə qalaya iki darvaza açılırdı. Qalada Şahzadənin sarayı, "divan-xanə" dəftərxanası, kazarmalar və məhbusların saxlanılma yerləri yerləşirdi. İngilislərin qiymətləndirmələrinə görə qalanın ümumi dəyəri 160.000 funt sterlinq təşkil edirdi.

XIX əsrin birinci yarısında şəhərdə mühüm yer tutan Şeyx-Səfi ibadət kompleksindən əlavə Ərdəbildə altı məscid, səkkiz hamam və 800 ev mövcud idi, onlar Balıq-çay çayı boyunca nisbətən enli küçə və dar döngələr arasında müxtəlif məhəllələrdə yerləşirdilər.

1876-cı ilə şəhər əhəmiyyətli şəkildə böyümüşdür. Uzunluğu 4 verst (4, 26 km), eni isə 1 ½ (1,59 m) təşkil edirdi. Şəhərin cənub tərəfində Narınqala qalası istehkam tikilisinin əhəmiyyətini qoruyurdu, şəhər tikilisindən 200 sajin (448,05 m) aralıda yerləşirdi. "Qalanın şərq hissəsindən Balıqlı-çay çayı axır, qərb hissəsindn isə şəhərə yeraltı su kəməri çəkilmişdir. Onun əvvəli həmən Balıqlı-çay çayından götürülmüşdür, əsas fasad şimala yönəlmişdir; qala planı dördbucaq şəklindədir, hər tərəfi 100 sajin (213, 36 m), ön tərəfdə xəndəklər, künclərdə isə qüllələr tikilmişdir. Şimal qüllə lərində silahlar üçün yeddi mazğal, cənub-qərb qülləsində altı mazğal, cənub-şərq dairəvi qüllənin üzərində isə üç mazğal yerləşdirilmişdir. Qalanın ətrafında eni 15 sajin (32,00 m) olan tökmə qlasis, sonra isə eni 24 arşın (17,06 m), dərinliyi 6 arşın (4,26 m) xəndək; xəndəyin kontreskarpının hündürlüyü 6 arşın; birinci divarın hündürlüyü 7 ½ arşın (5,34 m) və qalınlığı 7 arşın (4, 98 m) təşkil edirdi. Quru xəndəyin eni 5 arşın (3,56 m); ikincisinin daxili divarının qalınlığı 7 arşın, hündürlüyü isə 9 arşın (6,40 m) təşkil edirdi; divarlar aşağı tərəfdə xırdalanmış daşdan, sonra isə çaydaşından üzlənmişdir, birinci və ikinci divarlarda yuxarı tərəfdə silahlardan atəş açmaq üçün dişlər; hər iki divarın daxili tərəfində banket müəyyən olunmuşdur. Şimala yönəldilmiş daxili divarda və hər iki qüllənin üzərində üst tərəf bişmiş kərpiclə örtülmüşdür, dişlər isə əhənglə ağardılmışdır" (84, s. 199).

Bu vaxta qalada əhəmiyyətli dağıntılar müşahidə olunurdu: cənub istehkam yarı sökülmüşdür, iki cənub qülləsi və divarlar dağılmışdır; qalanın daxilində tikililər sökülmüş vəziyyətdədir. Eni 19 arşın (13,52 m) olan küçə şimaldan cənuba qalanı iki hissəyə bölürdü. Küçənin sol hissəsində topçular, onların rəisi və atların tövləsi yerləşirdi; ikinci hissədə isə inzibati-ictimai hissə: məscid, həbsxana, atların tövləsi, top sarayı, hamam və nəhayət, qərb divarına birləşən əyalətin hökmdarının evi yerləşirdi.

Qala tikililəri saman kərpicindən, hamar torpaq qapaqlarla işlənmişdir, burada istisna barıt zirzəmisi və hökmdarın evidir ki, onlar bişmiş kərpic ilə üzlənmişdir. Müxtəlif yerlərdə qazılmış 10 quyu vardır, onların dərinliyi 5-7 arşın (3,56 və 4,98 m) təşkil edirdi, suyunun dadı xoşagələn idi.

Qalanın daxilində çiçəkliklər xarici su kəmərindən suvarılır; bu kəmər hər iki xəndəyin üzərindən atılmış taxta nov qismində cənub-şərq qülləsinin yanından keçir; qalanın şimal qüllələri şəhərə rəhbərlik edir. İ.A.Oqranoviçin sözlərinə görə "Narınqala - bütün İran ərazisində hərbi sənətin qaydalarına uyğun olaraq tikilmiş yeganə qaladır". Oqranoviç yazırdı ki, 1875-ci ildə şəhərdə 6000 ev vardı, rus tacirlərinə 80 ev məxsus idi; bu

əsasən Şimali Azərbaycan şəhərlərindən gələnlər idi (Bakı, Şuşa, Şəki, Dərbənd, Gənə, Lənkəran) (84, s. 162).

İ.N.Beryozinin Ərdəbildə (o, burada 1842-ci ildə olmuşdur) 800 evin olması haqqında məlumatları, Oqranoviçin isə burada 6000 evin olması haqqında məlumatları dəlalət edir ki, Berezinin məlumatları səhvdir. Bu onunla təsdiqlənir ki, Ərdəbilin sakinlərinin sayı bu dövrdə 20.000 nəfərə çatırdı. Beləliklə, əgər hər evdə ailə üzvlərinin sayını beş nəfər qəbul etsək, evlərin sayı artıq 4000 çatır.

Ərazisi 7 km$^2$ olan Ərdəbil 16 məhəlləyə bölünmüşdür: 1. Dərvazə, 2. Zeynal, 3. Qəriban, 4. Bağmeşə, 5. Qara-Dəyanək, 6. Təbriz qapısı, 7. Təkiyə-Mənsur, 8. Təzə Meydan, 9. Üç dükan, 10. Çeşmə başı, 11. Pir Əbdül Malik, 12. Yaqubiyyə, 13. Seyid-abad, 14. İbrahim-abad, 15. Pir Zərgar, 16. Pir Şəmsəddin.

Bütün məhəllələr şəhərin tarixi topoqrafiyasını əks etdirir, onun Şeyx Səfi kompleksindən bu və ya digər istiqamətdə inkişafını göstərir, "cinayətkarların məskunu kimi çıxış edir. Qətllərə, oğurluğa görə izlənən şəxslər, şahın xoşuna gəlməyən əyanlar – hamısı bestə qaçmaqla canlarını qurtarır, buradan heç kim, hətta şah onları ala bilmir. Bəziləri bestdə bir neçə il yaşayır, digərləri isə əfv edilərək, çıxır; bestə qaçan hər kəsi ruhanilər məscidin gəliri hesabına yedizdirir" (84, s. 163).

Şeyx Səfi kompleksi qırmızı və minalı kərpiclərlə üzlənmiş mükəmməl tikililəri olan bir neçə məhəllə ətrafında qruplaşır. Bu kompleksə müxtəlif zamanlarda tikilən məscidlər və məqbərələr, Çinixanə, yaşayış yerləri daxildir. (96, s. 15).

Kompleksin kompozisiyasının mərkəzi elementini məscid təşkil edir (XVI - XVII əsrlər). Onun daxili məkanı memarlıq-planlaşdırma həllinin həcmliyi ilə fərqlənir. Zal güzgülü qübbə ilə örtülmüşdür, lakin, bu Nəsrəddin şahın




*Ərdəbil. "Mirzə-Əli-Əkbər" məsçisi və mədrəsəsi.*

dövrünə aiddir (1848-1896-cı illər), bahalı metallardan dekorativ elementlərlə örtülmüşdür. Belə ki, məscidi Şeyx Səfi məqbərəsi ilə birləşdirən hörmə qapıların birincisi təmiz gümüşdən, ikincisi isə üzdən işlənmiş qızıldandır.

Məscidin arxasında Çini-xana (çini qabların saxlanc yeri) yerləşir. Zalın divarlarında kiçik taxçalar yerləşir. Zalın divarları və qübbəsi göy, ağ və qırmızı rəngdə kaşılarla üzlənmişdir. "Fətəli şahın hökmranlığı dövründə bu zalda cavahirat saxlanılırdı – bütün fars çarlarının və əyanlarının hədiyyələri, onlar qızıl və gümüş əşyalardan, bahalı çini və yapon çini və saxsı qablardan ibarət idi; bütün bunlar taxçalarda dururdu". Bu zalın yaxınlığında yarımdairəvi məhəllə yerləşir, burada ibadət yerinin üstündə qübbə müəyyənləşdirilmişdir. Deyilənlərə görə feldmarşal Paskeviçin sərəncamına əsasən tikilmişdir (84, s. 164).

Ərdəbilin şəhərsalma strukturunun planlaşdırma elementləri aşağıda qeyd olunan meydanlar idi: 1. Əli-qapı meydanı, 2. Təzə meydan, 3. Pir Əbdül Məlik meydanı. İki sonuncu meydan eyni adlı məhəllələrin ərazisində yerləşirdi.

Bu məhəllələr şəhərin mərkəzi rayonu ilə yanaşı mühüm şəhərsalma funksiyalarını daşıyır, meydanların yerini və əhəmiyyətini müəyyən edirdi ki, onların tikililəri böyük karvansaralar və məscidlər sayəsində miqyaslı səciyyə daşıyırdı.

Belə ki, Əli-qapı məscidi Əli-qapı Meydanı strukturuna daxil olurdu, Təzə meydan məscidi – Təzə meydan meydanının strukturuna, həmçinin, Təzə meydan məhəlləsinə daxil olurdu. Əbdül Məlik Piri Pir Əbdül Məlik meydan və Pir Əbdül Məlik məhəlləsinin tikili struktura daxil idi. Şəhərin ümumi memarlıq-planlaşdırma kompozisiyasında şəhərsalma məqamlarının vahidliyi onun inkişafının mühüm səciyyəvi xüsusiyyətlərini, onun şəhər miqyaslı həcmi-məkan tikililərinin yaradılmasında istiqamətliyini aşkarlayır.

Planda ictimai tikililərin, məsul planlaşdırma düyünlərinin, şəhər mühitinin kompozisiya elementlərinin məhəllələrin formalaşmasında əhəmiyyəti açıqlanır. İbadət tikililəri, mülki tikililər (karvansara və hamamlar), təhsil, ticarət tikililəri, abadlaşdırma elementləri (yaşıllıqlar, çeşmə bulaqlar), kompleksdə yadda qalan, fərdi, siluetli və yaşıllıqlarla zəngin şəhərin memarlıq görünüşünü yaradır.

Ərdəbildə şəhər tikililəri arasında öz yerini almış aşağıdakı məscidlərin adlarını qeyd etmək olar ki, onlar bəzi məhəllə və meydanlara ad verdilər və aktiv həcmli vahidlər kimi şəhərin memarlıq-planlama həyatına daxil oldular: 1. Cümə, 2. Meydan, 3. Əli-qapı, 4. Zeynal şah, 5. Bağmeşə, 6. Toz qopardan, 7. Qara Dəyənək, 8. Hacı-Mühsin (müşteid), 9. Hacı Mirzə Məhəmməd (Piş namaz), 10. Molla İbrahim, 11. Pir Əbdül Məlik, 12. İbrahimabad, 13. Yaqubiyyə, 14. Seqşabad, 15. Pir Zərgar, 16. Xirman Hacı Nağı, 17. Təzə meydan, 18. Təkiyyə Mənsur, 19. İariban, 20. Hacı Lətif, 21. İmamzadə Saleh, 22. Mirzə Əli Əkbərin məscidi və mədrəsəsi.

Mirzə Əli Əkbərin məscidi və mədrəsəsi Ərdəbilin yeni ibadət binalarına aiddir (1249-1833; 1293-1878-ci illər), burada Azərbaycanın və İranın məşhur memarlıq-planlaşdırma üsulları müşahidə olunur. Yalnız geniş məhəllə məkanına malik olan, şərqdən və qərbdən yerləşdirilmiş tələbə hucrələri və xidməti yerlər ilə məscid ənənəvidir (113, s. 66-72).

Dördbucaq formasında olan bu məscid (32,5x32,5 m), Abşeronun Maştağa kəndində yerləşən Cümə məscidini xatırladır. Giriş qeyri-ənənəvidir və bu cür miqyaslı məscid üçün şəffaf ifadə olunmuş portala malik deyil, şimal-qərb küncündə kiçik, az gözə çarpan

qapı ilə təsvir olunmuşdur ki, bu qapı səkkizguşəli vestibülə aparır. Buradan bilavasitə memarlıq və konstruktiv baxımından zalın davamı olan ibadət zalına və yan hissəyə keçid mümkündür.

Prinsipcə ərəb məscidi üslubunda ifadə olunmuşdur, lakin, daxili məkan fərqli tərzdə işlənmişdir, böyük ibadət zalı və sütunların çoxluğu ilə özünəməxsus gözəlliyi vardır. Mərkəzi eninə nef bir qədər geniş yerləşmişdir, buna görə də ibadət zalının əsas oxunun digər memarlıq elementlərinə nisbətən bir qədər transformasiyası və aktivasiyası baş verir.

Buna baxmayaraq, ibadət zalının həllinin məcmusunda oxlu arkadalı sütunlar bir-biri ilə birləşən zaman lirik memarlıq formaları yaranır və daxili əşya mühiti yeni tektonik sxemdə əks olunur. Bu yarı tünd daxili atmosferdə xətlər, kiçik elementlər və memarlıq formalarının detalları gözdən itir. Siz müsəlman dünyasının bu əzəmətli strukturunun bir hissəsinə çevrilmiş olursunuz.

Ərdəbil bazarı Təbriz bazarı ilə yanaşı şəhər üçün mühüm ictimai-iqtisadi əhəmiyyətə malik idi. Hacı Əhməd sarayı bu struktura daxildir. O, standart formada yerləşmişdir. Giriş küncdə müəyyən olunmuşdur. Qapalı düzbucaq həyət perimetri ilə piştaxtalarla əhatə olunmuşdur, həyətin qaranlıq üstü örtülü sıralardan yeganə geniş keçid yolu vardır ki, burada ola bilər ki, tacirlərin malları toplanırdı. Sarayın planlaşdırılması və sahənin kəsiyi tikilmiş qonşu binalarla müəyyən olunmuşdur ki, bu da ənənəvi üsullara uyğun olaraq dəqiq daxili sistemi təşkil etmək imkanından məhrum etmişdir.

Ərdəbil bazarının maraqlı binalarından biri üstü örtülü sıraların kəsişməsində tikilmiş çardaq keysariyyədir, qübbənin diametri 12 metr və hündürlüyü təxmini olaraq 13 metr təşkil edir. Otağın geniş məkanı ən yaxşı memarlıq üsulları ilə ifadə olunmuşdur. Tağların iri oxşəkilli formaları çox möhkəm sütunlar üzərində tikilmişdir və diqqətəlayiq proporsional kəsiklərə malikdir. Memarlıq formaları həddindən artıq təmizdir, bu da onları yaradan ustaya qarşı hörmət doğurur ki, o, kasıb konstruktiv vasitələrlə qübbə altı məkanın məzmununu bacarıqla çatdıra bilmişdir.

Şəhər və məhəllə mərkəzlərinin ictimai tikililər kompleksinə məscidlərlə, ticarət sıraları ilə yanaşı hamamlar da daxil idi. Şərqdə təkcə tətbiqi obyekt olmaqla yanaşı geniş əhali təbəqəsinin ünsiyyət yeri olan və ən çox istismar edilən obyektlərdəndir.

Onlar planlaşdırma həllinin səciyyəsinə görə müxtəlif təyinatlı və profilli otaqların tam sisteminə malikdir, yüksək texnoloji proseslərin nəzərə alınması ilə tikilmişdir ki, çimmə zallarının isidilməsi və soyudulması ustalıqla, hamamın qazanxana bölməsi vasitəsilə tənzimlənir.

Bölmələrdə konstruktiv tağ, qübbə, tağtavan formalarının istifadə edilməsi hamamın daxili məkanını memarlıq baxımından mürəkkəb, lakin, özünəməxsus bədii xüsusiyyətlərə malik olan orqanizmə çevirirdi. Bu binalardan əksəriyyəti əsl memarlıq əsərləridir ki, onlar şəhər mərkəzinin ictimai tikililər kompleksinə daxildir. Onlara xüsusi olaraq Kaşan, Kirman, Şiraz şəhərlərində və sair yerlərdə tikilmiş hamamları aid etmək olar. Onlar möhtəşəm interyerlərə malik olan və öz obrazına görə qədim "Romanın ümumi hamamlarını" xatırladan binalara bənzəyir.

14 şəhər hamamı (Hacı Müşteid, Müqeyn, Şeyx hamamı, Hacı-ağa hamamı, Xan hamamı, Hacı Zeynal Abidin hamamı, Hacı Sadıq, Hacı Allah Qulu, Seyidlər Vəkil hamamı, Köhnə hamam, Rüstəm xan hamamı, Seyful Mülk ha-



*Ərdəbil. Hamamın planı.*

mamı) təsdiq edir ki, bütün məhəllələrdə yerləşdirilmiş tətbiqi səciyyəli bu tikililər yüksək səviyyəli su təchizatına malik idi, yaşayış məhəllələrinin ayrılmaz hissəsini təşkil edərək, onların memarlıq həllinə yardım edirdi.

Hamam və məscidlərlə yanaşı mərkəzlərdə fontanlar (çeşmələr) də mövcud idi (Hacılar çeşməsi, Hacı İmam çeşməsi, Hacı Müqeyn Müşteid çeşməsi, Şeyx-ul-islam çeşməsi). Onlar fərdi insanlar tərəfindən xeyirxahlıq məqsədləri ilə tikilirdi, suyu sakinlər pulsuz istifadə edirdi, fontanlardan əlavə hər bir evdə quyular da vardır. Ərdəbilin digər ictimai tikililəri arasında karvansaralar bazar komplekslərinin strukturunda əsas yerlərdən birini tuturdu (Hacı Şükür, Hacı Əhməd, Hacı Amin, Şeyx-ul-islam, Hacı Rəhim, Hacı Zeynal Abidin, Hacı Sadıq Ərbəb, Timçə, Hacı Mirzə, Hacı Kafur, Hacı Rəhim). İlk səkkiz karvansara malların yığılması üçün piştaxtalara, dördü isə gələnlər və çarvadarlar üçün nömrəli at tövlələrinə malik idi.

Məktəblər (mədrəsələr) həmçinin şəhərin ictimai komplekslər sisteminə daxil idi, öz həcmlərinə görə şəhər tikilisinin mühüm hissəsini təşkil edirdi. Burada 500 nəfərlik Xan mədrəsəsini qeyd etmək olar. Molla İbrahim mədrəsəsi və Şeyx mədrəsəsi 150-300 şagirdə malik idi. Kifayət qədər böyük məktəblər yerli memarlığın ənənəvi üsulları ilə tikilmişdir. Şəhərin daxilində 8 qəbiristan, şəhərdən kənarda da 8 qəbiristan vardır.

Şəhər məhəllələrinin planlaşdirma strukturuna müxtəlif fabriklər, dəri zavodları və emalatxanalar daxil idi, lakin, bu kustar sənayesi idi, qeyri kapitalist istehsal üslubuna malik idi. Buna baxmayaraq, bir neçə aşağı növ pamdıq parça fabriki 5-20 nəfər işçiyə, 18 dəri zavodu – hər zavodda 5-15 sayda işçiyə, keçə və palazların istehsalı ilə məşğul olan 3 fabrik və köçəri adamların arabaları üçün çubuq və halqalar düzəldən 8 emalatxana müəyyən sayda işçilərə malik idi. Həmçinin, müxtəlif çit parçaların hazırlanması ilə məşğul olan bir fabrik də mövcud idi. Ümumilikdə, Ərdəbil kimi şəhər üçün 1875-ci ilin sənayesi kifayət qədər təqdim olunmuşdu, nəzərə alsaq ki, 12 karvansara, 4.000 piştaxta vardır və ticarət uğurla həyata keçirilirdi, şəhər Təbrizdən sonra Rusiyaya gedən malların anbarı qismində çıxış edən ikinci məntəqə idi.

Ərdəbil şəhərsalma inkişafının səciyyəsi sayəsində məhəllələrlə salınmış dini mərkəz və şəhər kimi öz mərkəzlərinə, böyük dini və mülki tikililərə malik idi və bu səbəbdən onu maraq doğuran planlama qurumlarına aid etmək olar. Burada memarlıq ənənələri və varislik nəsildən-nəslə keçir və yerli memarların, inşaat işi ustalarının, epiqrafçıların, keramikaçıların və dekorativ incəsənət ustalarının mühitində günü-gündən inkişaf edirdi.

Şəhərin memarlıq irsi yerli memarlıq məktəbinin inkişafına səbəb olmuşdur, ustalar uğurla öz evlərində və İranın digər şəhərlərində və Zaqafqaziyada yaradıcılıqla məşğul idilər. Bu ustaların fəaliyyətinə təsadüfi deyil ki, Ordubadda, Salyanda, Azərbaycanın Qazax rayonunun kəndlərində müşahidə olunurdu. Onlar mühitə öz üsul və bacarıqlarını tətbiq edirdilər, yerli ənənələrdən istifadə edir və əsl memarlıq əsərlərini yaradırdılar.

Təsadüfi deyil ki, İ.A.Oqranoviç xüsusilə qeyd edir ki, Ərdəbilin bir çox sakinləri "müxtəlif ustalıqla məşğuldur, şəhər sakinləri arasında öz ustalığı ilə məşhur olan bənnalar, yapma işi ustaları, xüsusilə də tavanların və karnizlərin arabesklərlə bəzədilməsi ilə məşğul olan ustalar çoxdur" (77, s. 185).

XX əsrin əvvəlində Ərdəbilin əhalisi 20.000 sakinə çatmışdır, şəhər əvvəlki kimi Balıqlı çaydan su ilə bol şəkildə təmin olunurdu, planlaşdırma strukturunda xüsusi dəyişikliklər baş verməmişdir.

Şəhərin beş əsas küçəsi geniş və ağaclarla əkilmişdir, şəhər mərkəzi də öz əvvəlki görünüşünü qorumaqda idi. Cümə məscidi şəhərin mərkəzi hissəsində ən böyük və gözəl görünüşü ilə Ərdəbilin siluetində üstünlük təşkil edirdi. Yalnız şəhər divarları hazırda dağılmış vəziyyətdə idi. Narın qala öz qala divarları və dördbucaq ərazinin künclərində istehkamları ilə, xəndəklə əhatə olunmuşdur, qaldırılan körpülərlə təchiz olunmuşdur və Balıqlı çayın sahillərində yaşıl şəhərlə yanaşı öz əhəmiyyətini qoruyurdu.

**Məşhəd**. Xorasan əyaləti Azərbaycanla yanaşı İranın taxıl mənbəyi hesab olunur. Şərqdə Əfqanıstan, cənubda Belucistan, qərbdə İrak-i-Əcc ilə sərhəddir, şimal tərəfdən isə Türkmənistanla birləşikdir. Xorasanın əsas şəhəri Məşhəd dəniz səviyyəsindən 975 m hündürlükdə, onun şimal-şərq hissəsində yerləşir. 1894-cü ildə şəhərin əhalisi 45000 nəfər təşkil edirdi (123).

İranın əksər şəhərləri kimi Məşhəd də çiy kərpicdən gil-torpaq divarı ilə əhatə olunmuşdur, 4 ½ ingilis milinə, yəni, 8-10 verstə bərabərdir, digər mənbələrə görə 15 km artıqdır. Şəhərin yaranması imam Musa-ər-Rizanın məqbərəsi sayəsində baş vermişdir ki, bu da Məşhədin əsas və yeganə diqqətəlayiq yeridir.

İranın dini mərkəzləri arasında (Məşhəd, Qum, Ərdəbil) ən məşhur və hörmətli Məşhəd hesab olunurdu. "Şəhərin adı ərəb sözü "şəhad"dan yaranır – təsdiq etmək (müqəddəslik mənasında) buradan müşahad – və ya təsdiqləyən, yəni, İmam Musanın oğlu 8-ci imam Rzanın (12 imamdan) əziyyətli vəfatı və dəfn edildiyi yerini təsdiqləyən şəhər" (19, s. 272).

Məlumatlara görə o, 819-cu ildə Məmun xəlifi tərəfindən zəhərlənmiş və bu adı almış yerdə dəfn edilmişdir, yəni "əziyyət yeri"; digər mənbələrə görə İmam Rza Tusada vəfat etmişdir və Sennabadda dəfn edilmişdir. İmam Rzanın məqbərəsi uzun müddət diqqəti cəlb etmirdi, o vaxta qədər ki, Səncər Sultanın hökmdarlığı dövründə (1118-1157-ci il) burada hansısa şəxsin şəfa tapması ilə məşhurlaşmışdır. Səncər Sultan öz məşhur məqbərəsinin tikintisi ilə yanaşı İmam Rzanın məqbərəsini də bəzəmişdir, ətrafda daha bir neçə bina tikmişdir ki, bu da müqəddəs Best məhəlləsinin inkişafının təməlini qoymuşdur. Bu yer ədalətdən gizlənənlər üçün və yoxsullar üçün məskunlaşma yeri olmuşdur, burada insanlar sanki İmam Rzanın himayəsi altında olurdular.

O zamandan İmamın məzarı zəvvarlıq üçün ən fəal və məşhur yerə çevrildi, xüsusilə də Səfəvilərin dövründə "İmamın məzarı şəhərin mərkəzində yerləşir, ibadətgahın parlaq qübbəsi artıq


MASHHAD
To Kuhsangi
To Khajeh Rabi'a
KH. DANESHGAH
BALA KHIABAN
KH. KHAJEH RABI'A
KH. KHAJEH NASR TUSI
KH. GOMROK
JAHANBANI
Chamber of Commerce
KH. JAM
Shah Square
Tourist Office
KH. PAHLAVI
Nadir Shah Monument
KH. SHAHREZA NOW
KH. SHAHREZA
Railway Station
Bazar Sarshur
Holy Shrine of Imam Reza
Mosque of Gawharshad
KH. TABARSI
NOW
Museum
Library
KH. TEHRAN
PA'IN KHIABAN
KH. KHOSRAVI
Kurush Park
Kuy-i Amin
Tehran Rly.
Mashhad -
KH. GARAZHDARHA MANSUR
Huseinabad Kermaniha
Kuy-i Naqibi
Kuy-i Jalaliyeh
KH. GOLKHATMI
To Airport & Tehran

uzaqdan özünə diqqəti cəlb edir. Binada məzar yerləşir, gözəl rəngarəng kaşılardan tikilmişdir, müqəddəs yerin içərisinə gümüşü qapıdan keçirsən ki, onu Afşarid Nadir şah qurban demişdi. Binanın içində qübbədən təmiz gümüş çilçıraq asılmışdır" (19, s. 31).

Məşhədə və onun müqəddəs məhəlləsinə avropalılar qonaq gəlirdi, hər biri bu yerin özünəməxsus, lakin, düzgün təsvirini qoyurdu, onun planlaşdırılmasının bu və ya digər tərəfini açıqlayırdı. A.F.Baumqarten 1894-cü ildə Məşhədə gəlmişdir və Xorasanın coğrafi-ticari tədqiqatını həyata keçirmişdir. O, yazır ki, "bazarın sonunda Bestdə məhəllə və ya saxen yerləşir ki, burada məzar və digər tikililər yerləşir; həyətin mərkəzində fontan vurur, daş hasarla hörülmüşdür, burada ibadət edənlər dəstəmaz alırlar, sonra məzara yaxınlaşırlar; dörd tərəfdən məscid, İmam Rzanın çox gözəl bəzədilmiş məzarı və digər tikililər yerləşir. Minarələrin qübbələri lay qızılla örtülmüşdür, günəş şüalarını əks etdirir, bundan əlavə, bestdə həmçinin, Harun-ər-Rəşidin və Abbas Mirzənin (Fətəli şahın oğlunun) məzarları yerləşir, həmçinin, Gövhər şah məscidi və Mirzə Yafir mədrəsəsi, 4.000 cild əlyazma və çap işindən ibarət İmam Rza kitabxanası (o cümlədən, 1000-ə qədər Quran) yerləşir" (19, s. 275).

1890-cı illərdə məzarın böyük sayda xidmətçiləri və qulluqçuları var idi (2000 nəfərə qədər). Bu müqəddəs məhəllənin böyük iqtisadi imkanlarını qeyd edir ki, burada illik gəlir nəzirlərdən və digər gəlirlərdən əlavə 250.000 rubl təşkil edirdi.

"Qulluqçular və məmurlar ştatının saxlanılmasına, binaların təmirinə, isidilməsinə, işıqlandırılmasına və mətbəxinə hər il 150.000 rubl sərf edirdi. Hər zəvvar İmam Rzanın qonağı hesab olunur, ac zəvvarlara 600 çörək və 300 funt düyü paylanır" (19, s. 275). Məşhədin əhalisi 1894-cü ildə daimi (45.000) və müvəqqəti (5000-12000) əhalidən ibarət idi ki, bu da cəmdə 50.000 – 57.000 nəfər deməkdir.

*Məşhəd şəhərinin planı.*

İranın məşhur dini mərkəzi kimi bizim əlimizdə 1858-ci ilə qədər qrafik və digər ikonoqrafik materiallar mövcud deyil. 1858-ci ildə "Məşhəd şəhərinin planı" tərtib olunmuşdur. Gözəyarı 1858-ci ilin bussolu vasitəsilə rus topoqrafı Jarinov tərəfindən çəkilmişdir.

Planların mövcud olmamağı xristianlar və digər dinlərin təbliğatçıları üçün qadağan olunmuş şəhərin qapalı səciyyəsi izah olunur. Baxmayaraq ki, 1822-ci ildə 2 fevraldan 11 marta qədər D.B. Brauzer müsəlman şeyxi adı altında Məşhəddə ola bilmişdir. O, memarlıq-planlaşdırmadan daha çox coğrafi tədqiqatlarla məşğul olurdu.

Digər ingilis, britaniyalı zabit A.Konolli 1830-cu ilin iyul-avqust ayında Məşhədə daxil ola bilmişdir və onun təsvirini vermişdir.

N.V.Xanıkovun rəhbərliyi altında Xorasana 1858-ci ildə elmi ekspedisiyanın tərkibində iki topoqraf -unterzabit vardır – Jarinov və Petrov. Onlar ekspedisiyanı "demək olar ki, İrana edilən bütün səyahətlərdə müşayiət edirdi, onların öhdəliklərinə uzun marşrutun çəkilişlərinin həyata keçirilməsi daxil idi" - Xanıkov belə yazırdı (123, s. 76). Beləliklə, 1858-ci ildə Məşhəd şəhərinin planının yaranmasına görə biz Xanıkovun ekspedisiyasına borcluyuq ki, bu zaman şah hakimiyyəti onların uğurlu fəaliyyəti üçün əlverişli şərait yaratmışdır.

Topoqraf Jarinov tərəfindən tərtib olunmuş dayaq planı şəhərin 1858-ci ildə mövcud olan şəhərsalma vəziyyəti ilə yanaşı yerin ətraf vəziyyətini də fiksasiya edirdi. Məşhədin tutduğu ərazi nisbətən düzbucaq formasına malikdir və Qərbdən Şərqə yönəlmişdir.




Plan of the Shrine of Imam Reza, Mashhad

1. Bast-i Bala Khiaban
2. Bazaar
3. Gunbad-Chehel Sutun
4. Maqsureh Porch
5. Gawhar Shad Mosque
6. Holy Shrine
7. Tomb Chamber
8. Old Court
9. Museum
10. New Court
11. Library
12. Pa'in Khiaban

*Məşhəd. "İmam Rza" komplesinin planı.*

Divarlarla əhatə olunmuş və çoxsaylı qüllələrlə bərkidilmiş şəhərin qapalı halqası fərdi memarlıq-planlaşdırma kompozisiyasına malik idi. Şəhərin planlaması geniş və qərbdən şərqə istiqamətlənmiş, Keçən-Qerat karvan trassında yaranmış magistral ilə ifadə olunur.

Tras Məşhədin planlaşdırma oxunu müəyyən etmişdir və böyük miqyaslı şəhər mərkəzinin xətti paylaşdırma formasının yaradılması üçün əsas olmuşdur. Şəhərin xətti mərkəzi və müqəddəs məhəllə tədricən böyük memarlıq-planlaşdırma kompleksinə çevrilərək, şəhərin strukturunda vahid tamlıq təşkil etməyə başladı.

Müqəddəs ərazinin ətrafında küçə şəbəkəsinin radial-halqavari formasını alan tikinti zonası yerləşmişdir. Digər şəhərlərdən fərqli olaraq yaşayış məhəllələri kiçik mərkəzlərin inkişaf etmiş sisteminə malik deyil və müqəddəs əraziyə meyllidir, bununla da tarixi mərkəzin xətti istiqaməti təmin olunur.

İçqalanın darvazalarla birgə Məşhədin cənub-qərb hissəsində qala divarlarının strukturunda yerləşməsi yeni magistral küçələrinin yaranması üçün böyük əhəmiyyət kəsb etmişdir. Küçələr bilavasitə müqəddəs ərazi ilə bitişik idi ki, bura şəhərin əsas planlaşdırma mərkəzi kimi çıxış edir. Bu cür xüsusiyyət İranın dini mərkəzlərindən birinin fərdi planlaşdırma həllinin əsasını təşkil etmişdir.

Geniş əraziyə malik İçqala xüsusi ayrılmış mövqeyə malikdir. İçqala ilə yaşayış məhəllələri arasında şəhər bağları zonası mövcuddur ki, buradan aparıcı küçələrdən biri vasitəsilə birbaşa müqəddəs əraziyə daxil olmaq mümkündür.

Şəhərin qala divarlarının konturu düz və dəqiq sahələrə malik deyil, onların istiqaməti ərazinin şərtlərinə uyğun olaraq verilmişdir. Yalnız İçqala ərazisində qala divarları düzbucaq formasını və təşkil olunmuş müdafiə xəttini alır. Yaşayış məhəllələri mənzərəli planlaşdırma strukturu ilə fərqlənir ki, bu da qeyd olunan ərazinin daxili tikinti məntiqi ilə müəyyən olunur.

Lakin, bu mürəkkəb şəhərsalma sistemində istehkam tikililəri əsasən ərazinin mühüm strateji hissələrini əhatə edir. Onlar dəqiq, səmərəli şəkildə tikilmişdir. Altı qala divarı – Bala Xiyaban, Yedivar,

Ərk, Serab, Pain Xiyaban, Nouqan şəhəri xarici dünya ilə birləşdirirdi. Onların qala divarlarının müəyyən yerlərində yaranması Məşhədi ölkənin digər şəhərləri ilə birləşdirən yolların istiqaməti ilə əlaqəlidir. Yollar, şəhər ərazisinə daxil olaraq, ən aktiv arteriyalara çevrilmişdir və şəhərin planlaşdırma karkasını yaradır ki, onların arasında yerli təyinatlı küçələrlə yaşayış məhəllələri yerləşir.

Burada mühüm rol şəhərin mərkəzi magistralına məxsusdur ki, o, müxtəlif

*Məşhəd. "İmam Rza" komplesi.*



sahələrdə müxtəlif adlar almışdır: Nadir şah, Bala Xiyaban, Xiyabani Nadiri, Xiyabani Səfəvi, Pain Xiyaban. 1858-ci ildə magistral Xiyaban adlanırdı, orta hissəsində Bala Xiyabandan Pain Xiyabana qədər geniş kanal keçirdi.

Kanal boyunca hər iki sahildə ağaclar əkilmişdir, "onun sahilyanı küçələri şəhərin iki ən gözəl küçələridir". Bu uzunluğun ikidə üç hissəsində qərb darvazalardan hesablasaq, müqəddəs ərazi başlayır, hasarla əhatə olunmuşdur və sahəsi təxmini olaraq 400 x 500 m olan dördbucaq ərazini əhatə edir. "Şəhərin bu hissəsi əhali tərəfindən həddindən artıq dəyərləndirilir ki, müsəlmanlar özləri bura atlarla daxil olmağa cürət etmirlər; xristianlara, yəhudilərə və hindulara gəldikdə isə, onlara burada görünmək belə qadağandır" – N.V.Xanıkov bu cür yazırdı (123, s. 98).

Əgər topoqraf Jarinov Məşhədin dayaq planını tərtib etmişdirsə, Xanıkov kimi erudisiyalı şərqşünas ümumilikdə şəhərin və onun ayrı-ayrı hissələrinin, eləcə də memarlıq əsərləri olan və müxtəlif dövrlərin üslub xüsusiyyətlərini əks etdirən tarixi abidələrinin çox dəyərli təsvirini qoymuşdur. Xanıkovun təsvirləri şəhərin planlaşdırma səciyyəvi xüsusiyyətlərini əhəmiyyətli şəkildə əlavə edir və genişləndirir, birgə sanki XIX əsrin ikinci yarısında Məşhədin həcmli modelini yaradır.

"Zəngin bazarlar, karvansaralar və şöhrətli hovuzlar, nəhayət, digər yerlərdən daha çox vəsaitlərə malik olan mədrəsə və məktəblər şəhərin məhz bu hissəsində yerləşir" (123, s. 98).

Müqəddəs məhəllə memarlıq-planlaşdırma strukturunda böyük kompleksi təşkil edir, ölkənin şəhərsalma prinsipləri və müsəlman Şərqinin uzun əsrlərin üslub ənənələri burada kəskin ifadə olunmuşdur.

Məlum olduğu kimi, kompleks İmam Rzanın məqbərəsi və məscidi bazasında yaranmışdır və tədricən çoxsaylı tikililəri ilə böyüməyə başlamışdır. Ərəb səyyahı İbn-Batuta (1304-1377-ci illər) Məşhəddə olarkən, İmam Rzanın məscidinin mövcud olmasını qeyd edir, lakin, onun əsasının necə olduğunu deməkdə çətinlik çəkir.

Kompleksin əsas inkişafı Səfəvilərin dövründə başlamışdır ki, onlar şiəlik dinini rəsmi din kimi elan etmişlər. Onların himayəsi sayəsində müqəddəs ərazi müxtəlif səciyyəli və təyinatlı tikililərlə zənginləşir: dini tikililərdən tutmuş, ticarət, tədris, mülki və ictimai təyinatlı tikililərlə.

Bu əzəmətli kompleksi Qacarlar memarlıq-planlaşdırma baxımından tam kondisiyaya çatdırdılar. Onu ayrı şəhərsalma orqanizminə çevirdilər. Çoxsaylı memar nəsilləri tərəfindən yaradılmış planlama kompozisiyası onun strukturunda varisliyi, ənənəyə olan hörməti qeyd edir, lakin, bununla yanaşı, yaradıcılıq sərbəst ifadə olunmuşdur.

Kompleksin planlaşdırma sxeminin mürəkkəb olmasına baxmayaraq, kompleks təşkil olunmuş planda təqdim olunur, onun əsas və əlavə elementləri bir-birini tamamlayaraq, İranın maraqlı və tam şəhərsalma komplekslərindən birini əks etdirir.

Kompleks qismən Xiyabanda yerləşir, onu oxuna paralel olaraq sağ tərəfdə yerləşir. Kompleksin perpendikulyar oxu İmam Rza məscidinin eninə oxu ilə üst-üstə düşür və planlaşdırma kompozisiyasında mühüm halqanı təşkil edir. Eninə ox köhnə məhəllə tərəfdən başlayır və məqbərə vasitəsilə digər məqbərəyə keçərək, Gövhərşad məscidini qəbul edir, meydança ilə açılaraq, İmam Rza məscidi ilə tamamlanır.

Ox öz ətrafında çoxsaylı ticarət sıralarını, bazarı, mədrəsəni, yeni həyəti, kitabxananı və Pani Xiyabanı bir yerdə cəmləşdirir. Bütün kompleks üç tikili

qrupundan ibarətdir: mərkəzi İmam Rza məscidi, Bala Xiyaban və bir neçə mədrəsə və yanaşı tikililərlə Pani Xiyaban. Lakin, Xiyabanın bütün kəsiyi müqəddəs məhəllə çərçivəsində anfilada sisteminin xətti ifadəsidir.

Kompleksin planlaşdırma strukturunda açıq və qapalı məkanlar sistemi mövcuddur, ümumi kompozisiyanın mütəşəkkilliyi gözə çarpır. Planlaşdırma kompozisiyasının azad mənzərəsi müqəddəs ərazinin ümumi ideyasının inkişafına zidd olmur. Tədricən ayrı-ayrı tikililərlə inşa edilməsinə baxmayaraq, planlaşdırma işinin səciyyəsində hermetiklik və oxlu tikinti sistemi mövcuddur.

Binaların düzbucaq formaları, onların sərbəst, lakin mütəşəkkil uyğunlaşması, memarlıq-planlaşdırma və həcmi-məkan kompozisiyasının mənzərəsinin yaranmasına təsir göstərməyə bilməzdi. Planlaşdırma strukturunun bütün əsas elementləri, məsələn, Best-i-Xiyaban, Köhnə məhəllə, Pain Xiyaban, Yeni Məhəllə, kitabxana, mədrəsə və bazar eyni üslublu özüllərlə əhatə olunmuş qapalı məhəllələri özündə əks etdirir.

Lakin, bütün bunlar memarlara müxtəlif çoxplanlı memarlıq-bədii kompozisiyalarını yaratmağa mane olmurdu. Səfəvi memarlıq məktəbinin kompozisiya üsulları demək olar ki, müqəddəs ərazinin bütün obyektlərində istifadə olunmuşdur, məsələn Saxne kimi.

İmam Rzanın məqbərəsinin qübbəsinin üzərində epiqrafik yazıda qeyd olunur ki, əsas məscidin inşası şah Abbasın əliaçıqlığı sayəsində mümkün olmuşdur. Qızılı eyvanın üstündə ornament yazısı qeyd edir ki, məqbərə 1085-ci ildə (1674-

*Məşhəd. "İmam Rza" kompleksinin quş uçuşu hündürlüyündən görüntüsü.*



1675-ci illər) Hüseyn şahın dövründə başa çatdırılmışdır.

Məşhur Nadir şah Əfşar eyvanı 1145-ci ildə (1732-1733-cü illər) qızılı örtüklə örtmüşdür ki, bu qızılı Böyük Moqoldan almışdır. Eyvanların üzərində yazılar kompleksin tikili növləri haqqında müxtəlif informasiyaya malikdir. Belə ki, məsələn, eyvanda qapı II Şah Abbasın əmri ilə 1059-cu ildə (1649-cu il) tikilmişdir.

Gövhərşad Ağa gözəl məscidi müqəddəs məhəllənin tikintisində və planlaşdırılmasında mühüm yer tutur. Teymurun oğlu, Şahruhun sevimli arvadı tərəfindən 821-ci ildə (1419-cu il) tikilmişdir. Məscidin cənub eyvanı 1087-ci ildə (1676-1677-ci illər) Hüseyn şah tərəfindən yenidən tikilmişdir. Zəlzələdən sonra məscid müəyyən dərəcədə zədələnmişdir, şah 1088-ci ildə (1677-1678-ci illər) onu praktiki olaraq bərpa etməyi əmr etmişdir.

Şiə dünyasının dini mərkəzi olan şəhər öz spesifik xüsusiyyətlərinə malik idi, bu da onun tarixi topoqrafiyasında qeyd olunmuşdur. Bu ilk növbədə şəhər ərazisində qəbiristanlarla ifadə olunmuşdur; müqəddəs ərazidən şimal tərəfdə Qatlıgah və cənub tərəfdə Eydigah; "onun ərazisi ən gəlirli yerlərdən biridir, hər il bura şiə dininin rəhbərlik etdiyi ərazilərdən çoxsaylı meyitlər gətirilir. Dərbənddən, Hindistandan, Bağdaddan, həmçinin Əfqanıstandan gəlmiş heç bir karvan bu cür yüksüz olmur. Ruhanilər məzarların üzərinə abidələr qoymağa icazə vermir, çünki zaman və hava şəraiti gil plitəni dağıdan kimi yer azad hesab olunur və burada (təbii ki, pulla) ilk meyiti dəfn edirlər, ondan əvvəl yatan meyitin qalıqlarına görə isə heç bir narahatlıq keçirmirlər" (123, s.103).

Məşhədin kult və memorial, tədris və mülki tikililəri müqəddəs məhəllənin ərazisi ilə məhdudlaşmır, mərkəzi Xiyabanda və onun təsir sahəsində yerləşirlər. Onlara Nadir şahın məqbərəsi ilə Mehdi şah və şah Abbas məscidini (1032-ci il, 1622-1623-cü illər) aid etmək lazımdır.

Şah məscidi bazarın ərazisində eyvanın üstündə yerləşir; 1119-cu il (1707-1708-ci il) yazısı ilə epiqrafika, həmçinin "Təbriz memarı Şəmsəddin Məhəmməd oğlu Əhmədin" və "855 il" (1451) yazısı qorunmuşdur (123, s.104).

Bu cür epiqrafik məlumatlar abidələrin üzərində çox geniş yayılmış haldır, çünki binalar tikilir, yenidən bərpa edilir və yenilənirdilər, xüsusilə də, əgər onlar ehtiram olunan obyektlər sırasına aid idilərsə.

Məşhəd təkcə ibadət yerləri və memorial tikililərlə deyil, həmçinin, çoxsaylı tədris müəssisələri ilə - mədrəsələrlə məşhur idi, burada İslam ölkələrinin tələbələri oxuyurdu. Xanıkov yazır ki, "Məşhəddə 14 universitet məktəbi vardır. Onların ən qədimi "Douder" ("İki qapı") məktəbidir, onun üzərində yazı qeyd edir ki, o, Şahruh xanın dövründə 823-cü ildə (1420-ci il) tikilmişdir. İkinci mədrəsə Heyrət- xana II Şah Abbas dövründə 1058-ci ildə (1648-ci il) təsis edilmişdir; üçüncü – Mirzə Cəfər məktəbi – 1059-cu ildə (1649-cu il) tikilmişdir və müqəddəs ərazidə yerləşir, dördüncü Nəvvab mədrəsəsi Süleyman şahın dövründə 1076-cı ildə (1665-1666-cı il) inşa olunmuşdur".

Digər altı məktəb həmçinin bu hökmdarın hakimiyyəti dövründə yaradılmışdır: Abbasqulu-xana və Penpa (1078-ci il, 1667-1678-ci illər); molla Məhəmməd Bayqır (1083-cü il, 1672-1673-cü illər); İrnazarə və Bole zarə Mirzə Səəd-əd-Din tərəfindən 1091-ci ildə (1680-ci il) təsis edilmişdir və nəhayət, Hacı Həsən məktəbi - onun dəqiq tikilmə tarixi isə məlum deyil. Daha üç məktəb - Süleyman xana, Mirzə Tac, Əli Hakim Mirzə məktəbləri hal hazırda boşdur. Onların

tikilmə tarixləri müəyyən olunmamışdır" (123, s. 104-105).

Xanıkovun Məşhəddə mədrəsələrin sayı haqqında məlumatlarına əks olaraq topoqraf Jarinov 1858-ci ilin planında cəmi beş məktəbi qeyd edir: Fızıl xana, Hacı Həsən, Məhəmməd Bağır, Naib və Abbasqulu xan. Deməli, Jarinov tərəfindən tərtib olunmuş plan şəhərin planlaşdırılmasında mövcud olan vəziyyəti tam olaraq əks etdirmir, və Məşhədin tarixi planının analizi zaman ki tam material qismində istifadə oluna bilməz. Bu karvansaraların fiksasiyasında da təsdiq olunur: "Şah Verdi xana, İmam Cümə, Doruzənvarə, Özbək" (SSRİ MDHTA, f.446, d.142).Xanıkov isə Məşhəddə 16 karvansara sadalayır: Kaşan sakinlərinin, Derud və Qəzvin; Salar Rza, Qulu Mirzə karvansaraları, Kumuk, Zamburekçi, Bədəl xan, İmam Cümə, Qendumabad, Zuqal (yəni, kömürçülər karvansarası), dördü müqəddəs ərazidə yerləşir: İsmayıl şahın oğlu Təhmasib şahın dövründə tikilmiş Sultan karvansarası, Mir Muen Riaz karvansarası, Süleyman şahın dövründə tikilmiş 1091-ci ildə Dar-uz-Zəvvar karvansarası. O, plitənin üzərində kəsilmiş və öz təsisçisinin iradəsini əks etdirən uzun yazısı ilə diqqəti cəlb edir: bu tikilidən gələn gəlirlər imam məscidinin işçiləri və kasıblar arasında bölüşdürülməlidir. Onlardan ən qədimi Sultan karvansarasıdır (123, s. 105).

Şəhərdə Xiyabanda olduğu kimi uzun bazar sıraları vardır. Bu bazarlar

*Məşhəd. "İmam Rza" komplesi.*



şəhərin fəal ticarət fəaliyyəti səbəbindən yaranmışdır, burada məşhur emalatxanalar mövcud idi. 1858-ci ildə Məşhəddə mövcud olan "şal fabriki və şüşə zavodu" təəccüb doğurmur. Onlar Jarinov tərəfindən 1858-ci ilin planında qeyd olunmuşdur. Onlar hələ müasir üslublu sənaye müəssisələri deyildi, lakin, onların şəhərin planına daxil olması onların Məşhədin planlaşdırılmasında əhəmiyyətini müəyyən edir.

Şəhərin memarlıq görünüşündə yaşayış yerləri qapalı kub formaları ilə ikinci dərəcəli elementləri təşkil edir, onlardan bir çoxunun həyət daxili məkanının memarlığın gözəl nümunələri kimi çıxış edirdi. Ön otaqların həyətə açılması, tağ oyuqlu və incə taxta şəbəkəli yaşayış evləri açıq səma altında həyətdə xüsusi səciyyəli sima yaradırdı. Bu həyətə fəvvarəli hovuz, gül və yaşıllıq kimi abadlıq elementləri daxil edilirdi.

Şəhər mühitinə küçələrdə əkinlərdən başqa İmam Cümənin, Asif-ud-Dövlenin və Saların böyük bağları da daxil idi.

Şimal-qərb və cənub-şərq hissələrindən şəhər gözəl bağlarla əhatə olunmuşdur, yarımsəhralarla düzənlik ərazini isə əzəmətli oazis elementini daxil edir. Şəhərin yaxınlığında yerləşmiş bağın ərazisində Herat yolu boyunca Müsəllah dağıntıları vardır ki, bu tikili Süleyman şahın dövründə inşa edilmişdir (1676-1677-ci illər). O, İranda ən böyük və gözəldir, İsfahandan Hacı Şucun minalanmış mozaikalarının yüksək keyfiyyəti ilə şöhrət qazanmışdır. Tikinti tarixini əks etdirən yazı isə Məşhədin məşhur kalliqrafı tərəfindən yazılmışdır.

Səfəvi tipli məqbərə Hacı Rəbi 1031-ci ildə (1621-1622-ci il) Şah Abbasın əmri ilə Məşhədin şimal tərəfində 6 ½ məsafədə tikilmişdir. Gözəl əl işləri ilə ağac sarkofaq göstərir ki, burada ağa Məhəmməd şahın atası Fətəli xan Qacar dəfn edilmişdir. "O, Nadir şah tərəfindən Şimali Mazandaranda köçəri tayfalar arasında üsyan qaldırdığına görə cəzalandırılaraq, başı vurulmuşdur". Bu ərazinin yaşıllığı Məşhədin keçmiş qubernatoru Musaxan tərəfindən 1254-cü ildə (1838-1839-cu il) salınmışdır.

Pəhləvinin dövründə müasir nəqliyyat vasitələrinin və dəmiryolunun yaranması ilə əlaqədar olaraq əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Prospektlərin salınması şəhərin tarixi topoqrafiyasının, magistral küçələrin, şəhər darvazalarının, qala divarlarının nəzərə alınması ilə həyata keçirilirdi.

Şəhərin müqəddəs ərazisi ilə əsas kompozisiya oxu sonrakı planlaşdırmalar zamanı da öz əsas əhəmiyyətini qorumuşdur. Ona diaqonal və perpendikulyar oxlar, məsələn, Daneşgah, Pəhləvi, Şah Rza, Tehran, Təbəri kimi oxlar əlaqədar idi, planlaşdırma strukturunda isə mənzərəli küçələrin və tarixi kvartalların qədim şəbəkəsini qoruyurdu.

Müasir urbanizm qanunları İranın tarixi şəhərlərində öz yerlərini tapsalar da, fərdi yollarla inkişaf edirlər, çünki memarlıq və şəhərsalma irsi şəhər mühitinin xüsussiyyətini qorunmasında vacib amildir.

**Qum**. Qum şəhərinin şəhərsalma və memarlıq-planlaşdırma strukturunu bizə məlum olmayan Avropa rəssamının ikonoqrafiya şəklindən nəzərdən keçirmək məqsədəuyğundur. Bu şəhərin həcmi-məkan sisteminin bu və ya digər şəkildə obyektiv əksidir, şəhərin planlaşdırma strukturunu müəyyən etmək imkanını verir, xüsusilə də dini kompleks və ticarət mühiti ilə tarixi zonanı və Qum şəhərinin memarlıq abidələrini müəyyən etmək olur.

Qum şəhərinin formalaşması və inkişaf etməsi İslam tarixində mühüm tarixi hadisə ilə əlaqəlidir. Burada İmam

Rzanın bacısı Məsumə xanım dəfn edilmişdir və onun məzarı zəvvarlıq yerinə çevrilmişdir. Zaman keçdikcə ətraf tikililər Qum şəhərinin və dini ərazinin İranın mühüm dini mərkəzlərindən birinə çevrilməsinə yardım etmişdir.

Qum-çay çayı əsas şəhərsalma amili və şəhər tikililərinin əsas cəlb etmə yerinə çevrilmişdir ki, bura memarlıq-planlaşdırma kompozisiyası da daxil idi.

Şəkildə ön planda çayın geniş xətti çəkilmişdir. O, şəhər kvartallarının ərazisindən keçir və körpülərlə birləşirdi. Şəkilin sol küncünü dini ərazinin böyük sahəsi tutur, burada minarələrin və Səfəvi dövrünə xas qübbələrin ifadəliyi cəlb edir. Kompleks şəhərin tarixi özəyi kimi əsas mövqeyi tutur və bir və iki mərtəbəli tikililərlə əhatə olunmuşdur. Onların arasında sərbəst məkan müqəddəs ərazinin əhəmiyyətini daha da işıqlandırır.

Geniş küçə müəyyən ərazidə sol tərəfdən ticarət mərkəzi ilə, sağ tərəfdən isə yaşayış evləri ilə əhatə olunmuşdur. Çoxsaylı dini binalar, şəhər mühitinin fəal iştirakçıları olub, sakit relyef üzərində şəhər siluetini formalaşdırır.

Ticarət zonasında karvansaraların, hamamların iri formaları görünür. İctimai binaların şəhər tikilisində iştirakı



*Qum şəhəri. Plan.*

Qumun sonrakı inkişafını müəyyən etmişdir. Qum təkcə dini mərkəz deyil, regional əhəmiyyətli şəhər olub, dulusçuluq və şüşə məmulatlarının geniş istehsalatı ilə məşğul olurdu (101).

Nəzərdən keçirilən şəkildə ilk dəfə olaraq Qumun əsas şəhərsalma mövqeləri fiksasiya olunmuşdur. Əvvəlcədən Baş plan hazırlanmasa da, müqəddəs ərazinin şəhər yaradan amil kimi yaranması, kiçik kult tikililəri ilə kvartallara bölünmə şəklində tikintinin yaranması şəhər ərazisinə planlaşdırma karkasının mühüm elementləri qismində müəyyən olunmuşdur.

Qumun inkişafı ayrı-ayrı hissələrin birləşməsinə və vahid şəhər orqanizminin formalaşmasına səbəb olmuşdur.

Qumun yaranmış planlaşdırma strukturu bütün əsas komponentlərlə birgə ümumi tarixi mühiti yaradır. Sonradan şəhərin qədim ərazisindən məhəllələr arasından iki magistral salınmışdır, şərq sərhədlərindən qərbə doğru, sahil xəttinə.

Düz həndəsi magistrallar yerli eninə küçələrlə müəyyən dərəcədə tarixi mənzərəyə yeni məzmunda planlaşdırmanın nizamlama forması kimi əks olunmuşdur. Şəhərin qərb, nisbətən yeni hissəsi küçə və kvartalların kiçik düzbucaq şəbəkəsi ilə əks olunmuşdur. Burada şəhərin yeni hissəsinin diaqonal səciyyəli iki magistralı salınmışdır. Onlar üzvi olaraq Qumun tarixi hissəsi ilə Əli xan körpüsü vasitəsilə birləşmişdir ki, bu körpü köhnə magistralın davamı idi. Körpüdən digər diaqonal magistral başlayır və dəmiryolunun vağzal ətrafı meydanı ilə tamamlanır.

Şəhərin qədim hissəsi öz tarixi mövqelərini qorumuşdur, müqəddəs kompleksin parlaqlığı altında Qum şəhərinin inkişafı üçün zəminlər yaradılmışdır. İranın bütün tarixi şəhərləri fərdi mərkəzləri olan nadir şəhərsalma obyektlərini əks etdirir. Qum bu baxımdan müstəsna hal deyildir, bu da şəhərin mərkəzi hissəsində aydın ifadə olunmuşdur.

Müqəddəs kompleks Qum-çay çayının sahilində künc sahəsini tutur. Körpünün yanından ticarət hissəsi başlayır, bu hissə hər iki tərəfdən çoxsaylı piştaxtalarla, karvansara və emalatxanalarla əhatə olunmuşdur. Kompleks körpü ilə qısa xiyabanla birləşmişdir, buradan ticarət hissəsinə çıxış mövcuddur. O, təcrid olunmuş mövqe tutur və dairəvi küçənin qırıq çevrəsi onun sahəsindən keçir.

Şəhərin tarixi hissəsi yarım halqa üslublu qala divarları ilə əhatə olunmuşdur, şəhər darvazaları mövcuddur: Şimal-şərqdə Rey darvazası, Cənub-qərbdə Qala darvazası, Cənubda Dağ darvazası və Kaşan darvazası. Şəhər darvazaları magistrala birləşibdir, sonra isə karvan yolları ilə əlaqəlidir.

Qum əsasən ölkənin cənub hissəsinə cəlb olunur, Qum şəhərinin yerləşməsi barədə demək olar ki, onun ərazisi əlverişli coğrafi və sosial-iqtisadi şəraitə malik idi, çünki bilavasitə çay ilə, cənub-şərqdə karvan yolları ilə birləşirdi ki, bu da şəhərsalmanın inkişafını əsaslandırırdı (hazırda Qum çayı şəhər magistralına çevrilmişdir).

Qala divarlarının çevrəsi qərbdə Qum çayı ilə kəsilir ki, burada qapalı ərazidə 17 tarixi məhəllə yerləşir: Kəmaliyyə məhəlləsi, Çexel doxtərək (40qız) məhəlləsi, Baş hovuz məhəlləsi, Çal Çöl məhəlləsi, Seyfidan məhəlləsi, Hacı Hüseyn məhəlləsi, Cümə məscid məhəlləsi, Sennband məhəlləsi, Seyidlər məhəlləsi, Çahar meydan məhəlləsi, Pambıq bad məhəlləsi, Esqeli məhəllə, Elvenir məhəllə, Firdous məhəllə.

Şəhər məhəllələri ticarət mərkəzinin ətrafında qruplaşmışdır ki, o, körpünün ərazisindən şərq istiqamətində Çallələ məhəlləsinə və Hacı Hüseyn məhəlləsinə qədər uzanmışdır. Ticarət mərkəzindən



*Qum. Cümə məscidinin kəsiyi və planı.*



*Qum. Cümə məscidinin aksonometrik planı.*



*Qum. Cümə məscidinin planı.*

radial olaraq əsas magistrallar yerləşmişdir, onlar bilavasitə və ya əlavə küçələr vasitəsilə qala qapılarına bitişmişdir.

Qumun toponimikası maraqlı əks olunmuşdur, Əlixan körpüsündən başlayaraq müqəddəs əraziyə qədər. Cənub tərəfdə qala divarlarının arxasında Qaxən adlanan ərazi yerləşmişdir, daha şərqə doğru isə - Qazı Yaxçalı buzlağı. Şimal-şərq kvartalında Cümə məhəlləsi, ticarət zonasının sərhədində isə Cümə məscidi və Cahangir xanın mədrəsəsi yerləşmişdir.

Rey qala divarlarının yanında Rey küçəsi yaranmışdır, bu küçə Cümə məscidi məhəlləsinə birləşirdi və Museviyan məhəlləsinə çıxırdı. Mərkəzi ticarət küçəsi ilə böyük sahə "Ərəbistan" qonşuluq edir. Bura "Təkiyə" və Cahagir xanın mədrəsəsi ilə Cümə məscidi birləşir. Cənubdan Lab-çal ərazisi Çahar-meydan məhəlləsi ilə həmsərhəddir. Körpüdə başlayan ticarət magistralı bazarın yeni hissəsinin inkişafının başlanğıcını təmin edir (Təzə bazar).

Memorial ibadət kompleksi geniş ərazini əhatə edir: cənub-qərbdə qala divarlarının yanından Qala küçəsi keçir, kompleksin önündə təntənəli meydan "Astana" yerləşmişdir, ondan sonra isə şimal-şərq istiqamətində İmam məscidinə çıxan böyük qəbiristan yer almışdır.

Məlumdur ki, müqəddəs meşə şəhərin yaranmasına səbəbi idi, lakin onun bir tərəfdən Qum-çayının sahilində, digər tərəfdən qala divarlarının ətəyində yerləşməsi ərazinin perimetr boyunca genişlənməsini məhdudlaşdırdı və şəhərsalma nöqteyi-nəzərindən künc vəziyyətə saldı. Bu səbəbdən, yaşayış, ibadət və ictimai binalardan ibarət və xüsusi memarlıq-planlaşdırma strukturuna malik olan şəhər şimal-şərq istiqamətdə inkişaf etməyə başladı.

Şəhər küçələrinin planlaşdırma şəbəkəsi ticarət zonası ilə əlaqəli olması ilə

yanaşı cənub-qərbdə şərti olaraq paralel küçələri, dalan və döngələrlə tikililəri əks etdirir. Şəhərin tarixi hissəsinin ümumi planlaşdırılmasında iki tərəfə çıxma səciyyəli dörd magistral əks olunmuşdur. Onlar şəhərsalma məzmununa görə bir-birindən fərqlənir. Biri Əlixan körpüsündən başlayır, sonra ticarət zonası yanından Cahangir xan mədrəsəsi və Cümə məscidi vasitəsilə Köhnə meydana çıxır. Köhnə meydanda magistral sanki azad nəfəs alır, Museviran məhəlləsi ilə Çal Çöl məhəlləsinin sərhədlərini müəyyənləşdirir. O, şimal-şərqdən cənub-qərbə gedən digər magistral ilə kəsişərək, nəhayət, qala divarlarının hüdudlarından çıxır.

Bu en səciyyəli yeganə magistral şəhər ərazisini şimal-şərq hissədə, ticarət zonasını iri ibadət binaları ilə (Cahangirxan mədrəsəsi və Cümə-məscidi) öz təsiri sahəsinə daxil edir. Meridian istiqamətli üç magistral Qumun müxtəlif hissələrində bu magistral ilə kəsişir.

İnkişafı karvan yolu ilə əlaqəli olan ilk meridian magistralı Rey darvazasından ticarət zonasının sərhədinə və Senkbənd məhəlləsinə qədər uzanır. Ticarət sıralarına daxil olur, Hacı Hüseyn məhəlləsinə daxil olur və Qum-çay çayına paralel istiqamət alır, Təkiyə Firdovsinin yanında başa çatır. Magistral şəhər mərkəzinin planlaşdırma strukturunda fəal iştirak edir, eyni zamanda mərkəzi ticari küçəyə daxil olmaqla ağır yüklü funksiya daşıyır, öz nəqliyyat incəliklərini əlavə edərək yaranmış mühitdə cəmlənir.

Burada bəzi çətinləşmələr baş verir, ticarət küçəsi öz tələbatları ilə ümumi şəhər magistralı ilə birləşir və müəyyən dərəcədə şəhər bazarının həyat ritmi pozulur. Lakin, şərq şəhərində bu cür hallar böyük pozuntulara səbəb olmur və qısa müddətdə tənzimlənərək, ticarət fəaliyyətinin davam etməsinə şərait yaranır.

En və birinci magistrallar birlikdə fəaliyyət göstərir, şəhərin mərkəzi hissəsində ümumi təsir sahələrinə və bazarın mərkəzindən qarşı sahilə yeganə çıxışa malikdirlər.

Qeyd etmək lazımdır ki, İranın və Azərbaycanın qədim şəhərləri sosial-iqtisadi və dini xüsusiyyətləri səbəbindən öz şəhərsalma formalarının ifadəsini almışlar. Bunlar məsələn, Ərdəbil, Qum, Məşhəd, Mahan və başqalarıdır. Kult tikililəri böyük memarlıq komplekslərinin yaranmasına və inkişafına şərait yaratmışdır, şəhərlərin formalaşmasına təkan vermişdir və onları iri ticarət və kustar istehsalı mərkəzlərinə çevirmişdir (113, s. 106).

İkinci magistral qeyri-xətti səciyyəyə malikdir. O, Rey şəhər darvazaları ilə en magistralına birləşən kiçik küçə vasitəsilə bitişikdir.

İkinci və üçüncü meridian magistralları tarixi mərkəzin hüdudlarından kənarda yerləşir, şimal-qərb hissədə birləşərək, qala qapılarının xaricinə vahid tamlıq qismində çıxır. Magistrallar cənub-şərq hissəsində müstəqil fəaliyyət göstərir. İkinci magistral şəhər ərazisi Seidlər məhəlləsi və Məhəmməd Şərif məhəlləsi ilə kəsir. Magistralların biri "Darvazeyi Qala" darvazasından, digər isə "Darvazeyi Kuhestan" darvazasından keçir.

Magistrallar şimal-şərqdən cənub-şərqə qədər Çeheldoxtoran, Museviran məhəllə, Baş hovuz məhəllə, Kənd dövlətxanası məhəllə, Çal lələ məhəllə, Sefidab məhəllə və Hacı Hüseyn məhəlləsi kimi məhəllələrinin ərazisindən keçir. Üç meridian magistralı ərazini dörd qeyri-bərabər hissəyə bölmüşdür. Bu zaman planlaşdırmanın fərdi sistemi qorunmuşdur.

Şəhərsalma strukturunda xüsusi yeri memarlıq baxımından müqəddəs bazar zonası tutur. Körpüdən başlayaraq,

*Qum. Plan.*



şəhər ərazisinə qədər çatır və armudvari şəkildə Qumun tarixi hissəsinin özəyini təşkil edir.

Ticarət küçəsi Əlixan küçəsindən başlayır və Köhnə meydanda başa çatır, onun sıx strukturu böyük karvansaralar, ticarət sıraları ilə uyğunlaşır. Onun sıx tikililəri iri karvansaralarla, timçə və ticarət sıraları ilə birləşir. Küçənin əvvəli və qurtaracağı memarlıq və əyani-mühit məkanı təşkil edən komplekslərlə təqdim olunub, maraqlı planlaşdırma strukturu təşkil edir, təsir dairəsini bazar sahəsinə meylli olan ətraf tikililərdə genişləndirir.

Bir məqam da gözə çarpır ki, körpünün yanında "Parça satış" (Bezaz) bazarı yerləşmişdir, İmam məscidinin qarşısında isə kiçik küçə vasitəsilə Astana və Həzrəti Məsumə kompleksi ilə birləşir.

Burada bazar sahəsinə fəal daxil olmuş və onun ticarət cərgəli formalaşmış sitemini pozmayaraq planlaşdırma kompleksinin formalaşma prosesini davam edir.

Bazarın planlaşdırılması və tikilisi şərqdə iri kompleksi "Şahzadə Həmzə kompleksi" ilə tamamlanır, burada çoxsaylı karvansara kompleksləri mövcuddur ki, onlar "Köhnə meydana", "Şahzadə Həmzə küçəsinə" çıxışlara malikdir. Parça bazarı ilə Şahzadə Həmzə kompleksi arasında Köhnə bazar yerləşmişdir ki, o, zamanla hər iki kompleksi birləşdirmişdir.

Bu baxımdan Qumda "Timçə bazarı" memarlıq sənətinin gözəl nümunəsi qismində çıxış edir.

Sədrəazam ticarət tikilisi digər planlaşdırma formasında inkişaf edir, iki hissədən ibarətdir, bu hissələr bir-birini tamamlayır. Əsas ox ilə geniş zal uzanır və tağtavan ilə örtülür. Binanın mərkəzi hissəsi öz miqyası ilə, memarlıq formaları ilə və digər konstruktiv formalarla gözə çarpır. Zalın üç seksiyadan ibarət olan plafonu incə və gözəl elementlər toruna çevrilmişdir, onlar öz aralarında əlaqəlidir və qübbələrlə, tağlar ilə, tağta-



*Qum. Dini mərkəz.*

van ilə kəsişir. Memar ustalıqla ənənəvi memarlıq formalarını və kompozisiya üsullarını burada tətbiq etmiş və işə ifadəliklə elastiklik vermişdir.

Bunun nəticəsində Qumun şəhərsalma strukturunda, onun tarixi hissəsində şəhərin şəxsi görünüşünü müəyyən edən bir sıra memarlıq-planlaşdırma və həcmi-məkan tikililəri yaranmışdır.

Şəhərin ticarət hissəsinin planlaşdırma hissəsində "Timçə bazarı" təqdim olunmuşdur. Uzun sahə perimetrlə qapalıdır, yeganə girişə malikdir, buradan uzun, ikimərtəbəli zal açılır və kiçik şəxsi ərazilərlə birləşir.

Timçənin planlaşdırması daxili həllin memarlıq-planlaşdırma və həcmi-məkan kompozisiyasını yaratmışdır. Zalın mərkəzinin iki mərtəbəli tikilisi tağ oyuqlu üç seksiyaya bölünmüşdür: birinci mərtəbədə soğanaq şəkilli, ikinci mərtəbədə çatma formalı tağlarla. İnteryerin memarlıq kompozisiyası bir qədər sakitdir, işıqlandırma üçün üst



*Qum. "Həzrəti Məsum" məscidinin kəsiyi.*



*Qum. "Həzrəti Məsum" məscidinin kəsiyi.*

fənərlərlə və eninə müəyyənləşdirilmiş tağtavan ilə pozulur. Daxili məkanın hündürlüyü, aydın formalar və memarlıq elementləri çox emosional ifadəli sistemi yaratmışdır.

Burada qalxanvari yelkənlərlə köməkçi tağlar seksiyanın tağtavan qişasını zəngin dekorativ formaya çevirmişdir (18, s. 261). Yandırılmış kərpic və minalanmış plitələr interyerin memarlığında istifadə olunaraq, timçənin obrazına bədii istiqamət vermişdir.

Bazarın şimal-şərq hissəsində bir-birinin qarşısında Cümə məscidi və Cahangir xan mədrəsəsi yerləşmişdir. Hər iki tikili Nəsrəddin şahın dövründə tikilmişdir. Cümə məscidinin tikili sahəsi dörd eyvanlı üslublu plandadır, mərkəzi pavilyon, zəif ifadə olunmuş portallar mövcuddur. Məscidin ərazisinə giriş memarlıq və həcm baxımından nəzərə çarpır. İbadət zalının lojiyasının çatma tağı ətraf tikilinin üzərində üstünlük təşkil edir. Portal üfüqi kəsişmələri ilə memarlıq karkasını yaradır, 12 metrlik mərkəzi tağ və iki yaruslu yan tağlar mövcuddur. Yüksək portalın arxasından ibadət zalının qübbəsi görünür. İbadət zalının interyeri üst yarusda stalaktit özüllərlə işlənmişdir, onlar sadə mənzərənin həcm plastikasını yaradır.

Çatma formalı günbəzin üstü minalanmış plitələrdən ibarət ornament mövzüları olan üfüqi zolağlara bölünüb. Məscidin zəhmli memarlıq və həcm kompozisiyasının həcm və konstruktiv həlli milli irs abidəsi kimi böyük əhəmiyyət kəsb edir.

Cümə məscidi ilə yanaşı Cahangir xanın mədrəsəsi yerləşir. Məscid ilə eyni üslubda tikilmişdir. Bu sahəyə mədrəsənin mənzərəli planlaşdırma strukturu daxil olunmuşdur. Həcmli giriş şərqə tərəf istiqamətlidir, üslub memarlığı Nəsrəddin şahın hakimiyyət dövrünə aiddir.

Mədrəsənin dördbucaq həyəti həndəsi formalarla mürəkkəbləşmişdir. Çoxbucaqlı formaya çevrilmişdir, divarlar hamar oyuqlarla işlənmişdir. Gözəl ölçülü otağlarda mədrəsənin daxili planlaşdırma strukturu incə işlənib, qübbə və köməkçi tağlarla örtülüb, divarlar isə dəyaz taxçalarla işlənib.

Həyətin bütün perimetri boyu tikili oxlu tağlar ilə hücrə lojiyalarına malikdir və hamar çərçivələrlə parçalanmışdır. Künc otaqlar planın çoxtərəfli olması sayəsində mürəkkəb memarlıq konstruksiyasını almışdır, bu da onlara xüsusi ifadəlik bəxş etmişdir. Həyət fəzasının qarşı perpendikulyar və diaqonal oxları dərin plastikalı konstruktiv elementlərlə vurğulanan maraqlı kompozisiya üsullarının və memarlıq formalarının meydana gəlməsinə səbəb oldu.

Həyətin mərkəzində səkkizguşəli hovuz yerləşir, diaqonal ilə çiçəkliklər salınmışdır. Beləliklə, rahat memarlıq - planlaşdırma mühiti yaranmışdır ki, o da Qumun tikililəri arasında xüsusi yerə malikdir.

Qeyd etmək lazımdır ki, İranın və Azərbaycanın bütün tarixi şəhərləri sosial-iqtisadi və dini xüsusiyyətləri sayəsində öz şəhərsalma formalarına malikdirlər. Məsələn, Ərdəbil, Qum, Məşhəd, Mahan və başqaları. Kult tikililəri böyük memarlıq komplekslərin yaranmasına və inkişafına səbəb olmuşdur, şəhərlərin formalaşmasına təkan vermişdir və onları böyük ticarət mərkəzlərində və kustar istehsalatı mərkəzlərinə çevirmişdir.

# FƏSİL 4.

# ƏYALƏTLƏRİN MƏRKƏZLƏRİ

**Kirman**. İranın əksər şəhərlərinin yaranması nəsildən-nəslə keçən poetik əfsanə ilə əlaqəlidir. Bu baxımdan Kirman istisna deyil və əfsanə belə bir məzmunda səslənir: "Ölkəni çariça idarə edirdi, saray və 40 qız ilə əhatə olunmuşdur ki, onlar onun mühafizəçiləri idi. Bir dəfə çariçanın sədəqə verdirdiyi yoxsul ona barama hədiyyə etdi və onu göz bəbəyi kimi qorumağı tövsiyə etdi, çünki baramanın içində olan qurd ona xoşbəxtlik gətirməli idi (151, s. 119-125).

Buna görə hökmdar xanım hazırki şəhərin şərq – cənub - şərqində yerləşən dağ zirvəsində möhkəm qəsr tikməyi əmr etmişdir. Bu qəsr Kell-e-Doxtər adlanır, yəni – "Qız qəsri". Dağın ətəyindən bir qədər kənarda kənd yaranmışdır, sonra isə şəhər salınmışdır, bura növbə ilə 40 mühafizəçi xanım gedib, qurdun qidalanması üçün ən yaxşı yarpaqlar gətirirdilər.

Bir müddət keçəndən sonra gənc çariça öz gözəlliyinin tam zirvəsinə çatmışdır, günlərin birində ciddi qorunan otağa daxil olanda qurdun yerinə orda ideal gözəlliyə malik gənc oğlanı görmüşdür. O, çariçanın ürəyini məftun etdi, onlar evləndilər, Kirm-qurd, tırtıl – Kirman adlanan şəhərin abadlaşdırılması ilə məşğul oldular" (Baumqarten, 19, s. 194).

Kirman qədimdən Fars körfəzi ilə orta Asiya ölkələri arasında ticarətdə mühüm rol oynamışdır. Sonuncu Sasani şahənşahı Yezdəgird ərəblərdən qaçıb, Kirmanı öz iqamətgahına çevirmişdi. Bundan sonra ərəbləri ardıcıl olaraq Səlcuklar, Çingiz xanın Ordası, Timurun Ordası, əfqanlar və Nadir şah əvəz etdilər. 1794-cü ildə şəhər Qacarlar sülaləsinin Ağa Məhəmməd xanın ordusu tərəfindən dəhşətli dağıntılara məruz qaldı. Yalnız 70 il sonra şəhər köhnə ərazidən şimal-qərb tərəfdə yenidən tikilmişdir.

Kirman dəniz səviyyəsindən 1730 m hündürlükdə, Zərənd düzənliyinin cənub-şərq hissəsində yerləşir. Şimal tərəfdən şəhəri Kuh-şah-Herat dağları, Babəkin və Səidinin təpələri, cənubdan isə Cupar dağları əhatə edir. Qərb tərəfdən şəhərə vadi yaxınlaşır ki, o, Kuh-uda dağları və Bədbəxt - Kuha və Kuhə-Nuqa dağının şərq davamı ilə yaradılmışdır, bu vadi ərazisi ilə böyük nəqliyyat yolu uzanır – Yəzd-Kirman və sonradan Belucistan. Şimal-qərb hissədə Murat-Kun dağları görünür ki, onlar Kuha-Çəkin dağının davamıdır. Cənubda, bilavasitə Kirmandan sonra Cupar dağları ilə şəhər arasında 15-20 verst olan qum düzənliyi uzanır.

Üç vadinin birləşməsi ilə Kirman da dağlarla əhatə olunmuşdur. Kirman və qərb tərəfdə yerləşən Bağın arasında qumluqlar uzanır, şəhərdən 6 verst (6,4 km) aralıqda qrunt bərkiyir, torpaq gilləşir, kifayət qədər suvarıldıqda isə məhsuldar olur. Şərq hissədən dağlar bilavasitə şəhərə bitişir. Cənub-qərbə, Mahun kəndinə doğru ərazi tədricən yüksəlir, qərbə, Bəhrəmabada doğru isə, əksinə, vadi enməyə başlayır. Şəhəri əha-

tə edən dağlar yaxında yerləşən kəndlərin adları ilə adlandırılmışdır. Qərb hissədən Kuh-Pemüye-Parun, Orqas, Qumo-Saxar, Çerno- mun birləşir.

Kirman şəhərinin yerləşdiyi düzənlik cənuba 30 verst (32 km), şimala isə 15 verst (16 km), qərbə 20 verst (21, 33 kv) uzanır. Düzənliyin sahəsi 900 km verst (1017 kv.km) müəyyən olunur.

Şəhərin su təchizatı məsələləri Cüpar dağlarından 46 kəhriz vasitəsilə müsbət həll olunmuşdur. Bundan əlavə, Kirman buzlaqlar sistemi ilə əhatə olunmuşdur ki, onlar sakinləri yayda su ilə təmin edir. İçməli su Yəzddə olduğu kimi anbarlarda saxlanılır, lakin, burada dərinlik daha azdır.

1859-cu ilin planı Kirman şəhərinin və onun ətrafının planlaşdırma strukturunu açıqlamaq, onun topoqrafik vəziyyətini öyrənmək imkanını verir. Bu şəhərin tarixi topoqrafiyadan, su təchizatı mənbələrindən asılı olaraq inkişafını müəyyən etmək imkanını verir. (SSRİ MDHTA, 446, d.135, 1859-cu il).

Yəzddən fərqli olaraq Kirmanın ərazisi daha kompakt yerləşmişdir və giltorpaq divarlarla və xəndəklə əhatə olunmuşdur. Divarlar müəyyən məsafələrlə ritmik olaraq qüllələrlə təchiz olunmuşdur, həmçinin, beş darvaza mövcuddur.

Kirman dördbucaq forma planında alaqapıdan və şəhərin özündən ibarətdir. Şəhər darvazaları: Darvaze-Məcid, Darvaze Riq-abad, Darvaze-sultaniyə, Darvaze-Qəbriyə, Darvazae- Bağ şəhərə aparan yol trasları ilə əlaqəlidir.

Kirmanın əsas darvazası olan Dərvaze Məciddən alaqapı qarşısında meydanla bilavasitə birləşən mərkəzi küçə uzanır. Meydan, mərkəzi küçə, bazarlarla və karvansaralarla əhatə olunmuş və Dərvaze-Məcid darvazası şəhərin memarlıq-planlaşdırma strukturunun əsas elementləri kimi çıxış edir. Bu kompozisiya oxu ilə Kirmanın aşağıdakı küçələri bağlıdır ki, onlar xarici trasların istiqamətindən inkişaf etmişlər və şəhərin planlaşdırma özəyini təşkil etmişlər.

Kirmanın nisbətən dəqiq planlaşdırma şəbəkəsi məhz əsas küçələrin sxemi ilə müəyyən olunmuşdur ki, ona yaşayış kvartalları birləşir. Xüsusilə şəhərin mərkəzi magistralının tikintisini vurğulamaq lazımdır ki, o, alaqapı ilə meydana çıxır. O, Hacı Əli xan, Xin-duye, Qəbriyə, Gülxan, Mirzə Hüseyn xan, Salehi Nazir, Xorxaniyə karvansaraları ilə tikilmişdir.

Karvansaralar magistralın şimal tərəfində yerləşmişlər, cənub hissə isə bazarlarla əhatə olunmuşdur. Şəhərin əsas magistralı çox maraqlı həcmi-məkan kompozisiyasını özündə əks etdirir. Şərqdə Darvaze-i Məcidin tağtavanları altından Cümə məscidin rəngli kaşılarla monumental portalı görünür.

Bundan sonra bazar qübbələri və karvansara sıraları ilə bazar tam şəkildə açılır, dəqiqliklə şəhərin planlaşdırma sxeminə daxil olur, ox üzrə isə şəhərdə hakim mövqe tutan Ərkin hündür divarlarının dişli üst nöqtəsi görsənir. Ərkin Kirmanın ümumi planlama strukturunda yerləşməsi İran şəhərləri üçün tipik olmaqla yanaşı, həm də alaqapı şəhər divarlarının müdafiə sisteminə daxil olur və şəhər divarlarının müdafiə sistemini təşkil edir.

Kirmanda Ərk əsas mövqe tutur; dördbucaq formasına malikdir, yarısı şərq tərəfdən yaşayış məhəllələrinə daxil olur, bununla da şəhərin üzərində öz hökmranlıq mövqeyini müəyyən edir, qərb tərəfdən isə qüllələrlə və geniş fontanla ətraf əraziyə nəzarət edir. Ərkin divarlarının uzunluğu 300 və 350 m təşkil edir, daxildə qubernator sarayı, xidməti tikililər və iki bağ yerləşir: Gülxan və Bağı-Nəzər.

Kirman şəhərinin topoqraf Jarinov tərəfindən həyata keçirilmiş 1859-cu il

planına N.V.Xanıkovun təsviri xüsusi əlavə kimi çıxış edir. Şərq İranının şəhərlərinin əksəriyyətinin planları şübhəsiz ki, təsvirlər və onların tarixi inkişafının şərhi sayəsində daha həcmli məzmuna malikdir. Onun məlumat və səciyyəvi xüsusiyyətləri planlar üçün dəyərlidir. Çünki planlaşdırma sxemləri nə dərəcədə düzgün tərtib olsa belə, onlar şəhərin şəhərsalma həyatının bütün çalarlarını əks etdirmir (123, s. 164).

Məsələn, 1859-cu il Kirman planında alaqapıda iki bağ qeyd olunmuşdur. Bağların planlaşdırılması, onların ağac tərkibi, güllər toplusu və s. barədə isə biz Xanıkovun təsvirlərindən öyrənirik. O, yazır: "Gülhan bağı qubernator sarayının daxili həyətində salınmışdır. Bu bağdan çox çiçəklikdir, çünki burada əzəmətli ölçülərə malik olan fıstıq ağacından və iki solğun sərv ağacından başqa heç bir ağac yoxdur. Əvəzində çoxsaylı qızılgül və itburnu bitir. Qızılgüllər həddindən artıq gözəldir, müxtəlifdir, iki növü xüsusi diqqəti cəlb edir – mən onları daha heç yerdə görməmişəm, bu yüz yarpaqlı sarı qızılgül və ölçüləri kiçik, lakin çox gözəl formalı solğun qırmızı çalarlı qızılgüldür. Beləliklə, iyun ayına qədər bu çiçəklik təravəti ilə məftun edir. Sarayln yaxınlığında digər bağ – Baği-Nəzər yerləşir, burada yalnız qovaq ağacları və müxtəlif meyvə ağacları bitir" (123, s. 164).

Şəhər mühitində Cümə məscidindən əlavə (1349) çox gözəl Məlik məscidi (1092), Kələntər məscidi və Gülbazi Kabus məscidi yerləşir. Onlar faktiki olaraq Kirmanın yaşayış kvartallarının sıralı tikilisi üzərində tarixi görünüşünü müəyyən etmişdir.

Kirmanın yaşayış evləri öz xüsusiyyətlərinə malik idi, Yəzddə olduğu kimi, ərazinin isti iqlimini nəzərə alaraq, burada qoruyucu badgirlər tikilirdi, onların şaquli vəziyyəti məscidlərin minarələri ilə rəqabət aparırdı. Şəhərin strukturunda Kirman qubernatoru tərəfindən Fətəli şahın hakimiyyətinin (1797-1834-cü illər) əvvəlində tikililər də cəlb edir.

1859-cu ilin planına görə Kirmanın ətrafında çoxsaylı dağıntılar mövcuddur, onlar qədim dövrlərdən qalmışdır. Cənub-şərq divarının yanında qayalıq təpənin üstündə Kaley-Doxter qəsrinin qalıqları yerləşirdi.

Məişət səciyyəli gözəl tikililər buzlaqlar idi, onlar haqqında Xanıkov deyirdi ki, "onlardan İranda daha heç yerdə yoxdur" (123, s. 169). Onlar özünəməxsus memarlıq üslubuna malik idi, uzun konusşəkilli formalar cənubdan, şərqdən və qərbdən yüksək divarlarla müdafiə olunurdu. "Divarlar buzlaqları gün şüalarının təsirindən qoruyur. Qışda havanın temperaturu 0 dərəcədən aşağı olan halda dərin olmayan hovuzlar su ilə doldurulur, burada yaranan buzu bütün yay boyu yığırlar" (123, s. 169).

Şəhərin ətrafında kəndlər cənubda Riç-abad, Firizan, şimal-qərbdə Fəthabad, şimalda Seidi sonradan böyük bağçılıq təsərrüfatı olan kəndlərə çevrilmişlər. Xəndəkdən şəhərin şərq hissəsində axan çayın yanında Məhəmməd İsmayıl xan və Ağa xan bağları salınmışdır, onların sahəsi 10 ha təşkil edirdi.

Kirmanın 1859-cu il planına "izahatlar" dini ibadətgahlar (4), şəhər darvazaları (5), karvansaralar (7), mədrəsələr (1) haqqında dəyərli məlumatlar verir. Bütün bunlar şəhərin yaşayış evlərindən başqa malik olduğu hər şey idi. Çoxsaylı müharibələr, dağıntılar İranın tarixi şəhərlərindən birinin inkişafının potensial imkanlarını azaltmışdır.

Baumqarten yazır ki, "əyalət (1794-cü ildə Qacar dağıntılarından sonra) ən böyük inkişafına I və II Vəkil-ul-Mülklərin dövründə nail olmuşdur. Birinci Vəkil şəhərin bərpasını təşkil etmişdir (yəni, 1865-ci ildən

– Ş.F.), əkinçiliyi və yeni bitki növlərinin inkişaf etdirilməsini zəruri bilmişdir; ikinci Vəkil əhalinin hər il ciddi siyahısının tərtib olunmasını tətbiq etmişdir və onun dövründə inzibati ərazilər tikilərək vergi hissəsi qaydaya salınmışdır".

Beləliklə, şəhərdə əsrin sonunda əhali 50000 nəfər və 5000 ev təşkil edirdi. Onlar yeddi kvartalda yerləşmişdir: Bazar-əziz, Bazar şah, Mədxələ-şehər, Xiyaban, Çahar-suk Köhnə, Meydan Kelye, Gülbaz xan. Deməli, şəhərin ərazisində və onun ətraflarında tikinti intensiv şəkildə gedirdi, dağıntılar yox olmuşdur, yeni yaşayış kvartallarına və tikililərə yer vermişdir.

İranda həmin dövrdə bu cür inkişaf edən ikinci şəhəri tapmaq çətindir. Bu inkişaf əyalətin iki qubernatoru Vəkil-ul-Mülklərin sayəsində baş verirdi. Şəhərin 1800-cü il planında 1859-cu il ilə müqayisədə memarlıq-planlaşdırma səciyyəsinin elə keyfiyyət dəyişiklikləri baş vermişdir ki, sonrakı dəyişikliklər onun strukturuna əhəmiyyətli pozuntular daxil edə bilməzdi.

Əsas ticarət mərkəzi genişlənmişdir, bazarlarla və yeni karvansaralarla şəhərin mərkəzi magistralını zənginləşdirmişdir. Mərkəzin memarlıq kompozisiyası tikililərin həcmləri və minarələrin siluetləri ilə güclənmişdir, bütün bunlar da Kirmanı İranın digər şəhərlərindən fərqləndirirdi. Planlaşdırmada və tikintidə çoxsaylı ictimai tikililər yaranmışdır: böyük (6) və kiçik (18), bazarlar, karvansaralar (11), ictimai hamamlar (43), böyük (5) və kiçik (56) mədrəsə, su anbarları (12), məscid (37), təkiyə (48). Bütün bunlar şəhərsalma miqyasında böyük rol oynayıb, Kirmanın XIX-XX əsrlərdə inkişafında mühüm mərhələni təşkil etmişdir.

Bu bunaların əksəriyyəti 1870-1890 illərdə II Vəkil-ül Mülkün fəaliyyəti nəticəsində meydana gəlmişdir.

Şəhərin ən canlı hissəsi bazarlarda müəyyən olunmuşdur. Bazarlar yüksək səviyyəli təmizliklə, emalatxanaların çoxluğu ilə, xüsusilə mis emalatxanalarının çoxluğu ilə fərqlənirdi. Kirmanın əsas bazarı şərq darvazasından Darvaze-Məsciddən başlayırdı və şəhərin kompozisiya oxundan keçərək qərb darvazasında Darvazə-Bağda başa çatırdı. Bir çox karvansaralara öz darvazaları ilə əsas bazara açılırdı, xüsusilə də hindularla tutulmuş İmam Cümə karvansarasını qeyd etmək lazımdır.

Şəhərin canlanmış yolda, qərbi İranla İran Belicistanı arasında yerləşməsi onun yüksək mövqeyi və su ilə təmin olunması ticarətin, kənd təsərrüfatının, yun istehsalatının, parça, şal, məşhur Kirman xalçalarının inkişafına səbəb olmuşdur. Burada 1890-cı illərdə 250 toxuculuq emalatxanası vardır ki, onlar şəhərin iqtisadiyyatına əhəmiyyətli təsir göstərirdi.

Şəhər üçün onun bağları böyük əhəmiyyət kəsb edirdi. Şimal tərəfdə Rahimabad, Fəthabad bağları və Seidi kəndi, qərbdə Bezat, Baği-Dövlət və Nişat bağları, cənub tərəfdə Rihabad kəndi, şərqdə isə Sere-Asiad və Bayramabad kəndləri yerləşirdi.

Bu kəndlər yaxşı suvarılır, Kirman bazarlarına meyvə, tərəvəz və süd məhsullarını təchiz edirdi. Xüsusilə də Fəthabad kəndi fərqlənirdi. Burada saraylar, kanallar, hovuzlar və fontanlar mövcud idi. Baği-Dilquş bağı İranın bağ-park sənətinin ənənələrində planlaşdırma həllinin aydın nümunələrindəndir. Burada bağın kompozisiya oxu dərinlikdə ikimərtəbəli saray binası ilə bərkidilir, Qacar üsulları ilə tikilmişdir, özünəməxsus frontonlara, qübbələrə, damlara malikdir, yarımpərgar tağlar fasadların üzərində Səfəvi mədəniyyətinin izlərini aradan qaldırmışdır. Uzun düzbucaq

hovuz yan tərəflərdə çinar ağaclarından xiyabanlarla və hovuzda üzən quşlarla gözləri oxşayır.

İranda bütün Şərqdə olduğu kimi bağların salınmasına xüsusi diqqət yetirilirdi. Əgər bağların planlaşdırılması mütəmadi səciyyəyə malik idisə, yaşıllıq mənzərəsi, rəng çalarının seçimi, xüsusilə də qızılgüllərin növlərinin seçimi, hovuz və fontanların formaları böyük fantaziya ilə salınır və onun fərdi, memarlıq məzmununu müəyyən edirdi.

Bol sulu çayların, təbii su hovuzlarının olmamağı həmişə cənub sakinlərini yaşayış ərazilərinin və bağların su təchizatını dağlardan çəkilən kərgizlər və kəndirlər sistemini ciddi şəkildə təşkil etməyə məcbur edirdi. Su mənbələrinin çətin əlverişsiz yerlərdə olması, onlardan yaşayış ərazilərinə və şəhərlərə çox kilometrlik xətlərin çəkilməsi insanların ustalığı qarşısında heyran qoyur.

Memarlar suyu dəyərləndirərək onu imkanlarından maksimal istifadə edirdilər. Təntənəli bağ su güzgüləri ilə şəhər və ya kənd şəraitindən asılı olmayaraq İran üçün tipik hal idi, və bu ənənə Qacar dövründə uğurla inkişaf edirdi.

Qacarlar İran ətrafında çoxsaylı bağ-park komplekslərini yaratmışlar, onlar yaşıl memarlığın inkişafında yeni mərhələyə çevrilmişlər. Qəsri Qacar, Dovşan təpə, İşrətabad, Nigaristan əyalətlərin qubernatorlarının baza qurduqları bünövrələr olmuşlar.

Kirmanın yaşayış yerləri və ictimai tikililəri memarlıq üsulları və formaları planında ənənələrə yeni münasibət planında inkişaf edirdi, onlar XIX əsrin ikinci yarısından geniş istifadə olunmuşdur. Yaşayış binalarının fasadları birinci və ikinci mərtəbələr, üfüqi və şaquli kəsiklərlə ifadə olunmuş divarların plastikası hesabına daha həcmli səciyyə alır. Yaşayış yerlərinin memarlığında ənənə ilk növbədə şəbəkələrin və lojiyaların istifadəsi ənənəsini qoruyur, konkalar yarımpərgar tağların formalarına uyğunlaşır.

Pəhləvi sülaləsinin qısamüddətli hakimiyyəti dövründə Kirmanın memarlıq-planlaşdırma strukturunda əhəmiyyətli dəyişikliklər baş verməmişdir. Avtomobil nəqliyyatının artması ilə əlaqədar işlər aparılmışdır, qala divarlarının yerində şəhərin bəzi hissələrində geniş magistrallar salınmışdır, məsələn, Xiyabani Şahpur, Naseri şah. Şəhərin mərkəzi magistralı əsas bazar və karvansaralar ilə əvvəlki funksiyasını daşıyır, lakin, müəyyən dərəcədə tənzimlənmişdir. Şəhər ümumilikdə əvvəlki kvartallarını qorumuşdur, çoxsaylı bölünmüş hissələr, dalan və keçidlər və daxilə yönəlmiş tikintilər üstünlük təşkil edirdi.

**Yəzd**. Yəzd uzaq tarixi keçmişi olan şəhərlərə aiddir ki, burada Əhəmənilər və Sasanilər sülalələri istər əfsanələrdə, istərsə də nağıllarda mövcuddur. Yerli sakinlər şəhərin adını Sasani çarı Yəzdəgirdin adı ilə bağlayır. Şəhərin digər adı da var: Dar-ul-İbadə, yəni, "dinin məzhəb yeri". Bu ad Yəzdin əhalisinin özünü İslamın və şiə məzhəbinin ən təmiz keşişləri hesab etdiklərinə görə verilmişdir" (19, s. 130).

Yəzd qumlu, gilli torpaq üzərində yerləşir, qumlar qum təpələrini əks etdirir və asanlıqla küləklə bir yerdən digər yerə daşınır; bu qum təpələri qabarıq tərəfləri ilə şərqə və şimal-şərqə yönəlmişdir, onların uzunluğu 15-20 sajin təşkil edir (32,00-42,67 m); yerli üfüqün üzərindən 3 sajen qalxır.

Düzənliklərin şimal və cənub hissəsində şəhər yerləşir və Kuhe-Tarune və Şir-Kuh dağlarını birincinin ətəyinə qədər 21 verst (22 km) bağlayır, cənub dağların ətəyinə qədər isə - 18 verst (19,20 km); Şir-Kuh sistemi şəhərin üzərində hökmranlıq edir, günəşdə parlayan qar-




*Yəzd şəhərinin planı. 1859-cu il.*

lı başları ilə diqqəti cəlb edir. Bu cür vəziyyət İranın bir çox şəhərlərində müşahidə olunur.

Bu cür coğrafi yerləşmənin əyani nümunəsi kimi Tehran şəhərini qeyd etmək lazımdır. Bu şəhər Elbrus dağlarının ətəyində ucalır. Şimal-qərb istiqamətində Yəzd düzənliyi tədricən genişlənir və onun maksimal eni 50 verstə çatır (53,34 km).

İran şəhərlərinin əhatəsi baxımından səciyyəvi xüsusiyyətini qeyd etmək istərdik. Baxmayaraq ki, şəhərlər təbii su təchizatından məhrumdur, öz ərazilərində bol suyu olan çaylara malik deyillər, onlar ətraf dağlardan "kəndirlər", kərgizlər və kanallar vasitəsilə kifayət qədər su ilə təmin olunur.

İranlılar su təchizatı sistemlərinin quraşdırılması üzrə gözəl ustalardır. Bunun sayəsində şəhərlər və onların ətrafı oazislərə çevrilmişdir, bağçılıq inkişaf edir, yaşıllıq şəhər memarlığının aktiv elementidir və öz sərhədlərindən çıxır. Əksər şəhərlər yaşıllıqla əhatə olunsa da, onların əraziləri səhralardan və qum təpələrindən alınmışdır.

Yəzdin ətrafında 17 kənd yerləşir, onlar təkcə bağlardan ibarətdir. Bu ətraf tikililər Xume adını daşıyır. Şimaldan Seyidabad yaşayış yerinin ardınca qumlu təpələrin yüksək sıraları uzanır ki, onlar Kuhe-Tarune dağlarına paralel yerləşir.

Şəhərin yerləşdiyi ərazi cənub tərəfə yüngül meyllidir (128, s. 54).

Şəhərlərin inkişafı və artması üçün yaxşı su təchizatı mühüm rol oynayır. Yəzd su ilə bol tərzdə təmin olunmasa da, o, gözəl dad xüsusiyyətlərinə malik bulağa malik idi, burada su anbarları tikilmişdir. Bu anbarlarda su hətta yay vaxtlarında buz kimi soyuq olurdu.

Şəhəri su ilə təchiz edən kəhrizlər və ya "kəndirlər" 1894-cü ildə Baumqartenin sözlərinə görə 43, Kerzona əsasən isə 70 verstə çatırdı, Şir-Kuxa dağlarından cənub və cənub-qərb hissələrdən çəkilmişdir. İçməli su 150 fut (45, 72) dərinliyində 6 ədəd su anbarında saxlanılırdı. Onlar gözəl tikilmişdir, havalandırma qurğuları və mis kranlarla təchiz olunmuşdur. Anbarlar qışda doldurularaq, buz bağlanırdı, bununla da təzə və keyfiyyətli suyu qoruyurdu. Şəhərin demək olar ki, bütün küçələri bir və ya iki ab-anbara malik idi, ictimai yerlərdə və bazarlarda isə bu cür anbarlar bir neçə olurdu. Məhz bu su təchizatı sistemi şəhərin planlaşdırma sistemini müəyyən edirdi ki, bu sxem üç fərdi sxemdən ibarət idi: içqala, şəhristan - rabad.

1859-cu ilin planına əsasən şəhərin ərazisi üç fərdi sxemdən ibarət struktura baxmayaraq, şəhər kvartallarının müxtəlif ölçülərdə və cizgilərdə qeyri mütəşəkkil şəbəkəsini əks etdirir. Onlar sanki təsadüfən bir neçə kəndin birləşməsi vasitəsilə əmələ gəlmişdir (SSRİ MDHTA, f.446, d.135).

İçqala şimal-cənub oxunda yerləşir və 1700 m uzunluğuna, 440 m enə malikdir. Relyefin sayəsində şəhristanın və rabadın üzərində əhəmiyyətli üstünlük təşkil edir. İçqala təbii qayalıq təpədə tikilib və sərt monolit kütlədən ibarətdir.

Şəhər köhnə və yeni hissələrdən ibarətdir. Köhnə hissə İranın bütün şəhərləri kimi divarla əhatə olunmuşdur və iki darvaza ilə yeni hissə ilə birləşir. Yeni şəhər XIX əsrin ikinci yarısından sonra inkişaf etməyə başladı, bu zaman Yəzd iqtisadi cəhətdən daha varlanmışdır və onun gəlirləri sabitləşmişdir.

Şəhərin bütün ərazisi 17 kvartala bölünürdü. Birinci hissəyə aiddir: 1. Tell, 2. Püştə-xanə Əli, 3. Şəhr-bağ, 4. Güzargah, 5. Mir Çəkmək, 6. Hacı-Xəzər, 7. Təbrizun, 8. Musalla, 9. Püştə-bağ, 10. Meydani-şah və sonra darvazalar: 1. Dövlətabad, 2. Mussalla. 3. Püştə-bağ, 4. Püştə-xanə Əli, 5. Kassaban.

Yeni şəhər və ya yeni hissə köhnənin şimal tərəfində yerləşir və uzunu 3 verst (3,2 km) və eni 1,3 verst (1,75 km) olan ərazini tutur. İntensiv inkişaf sayəsində yeni şəhər köhnədən çox öndədir. Köhnə hissədə yeddi kvartal yerləşir: 1. Bulmiri, 2. Bağe-qendum, 3. Şeyx-dad, 4. Şeyx Əbil Kazım, 5. Kuşk-i-Nou, 7. Kel-i-Köhnə və daha sonra darvazalar: 1. Şahi, 2. Mehriz, Nağara-xana. Hər iki şəhər Məhəlləmir və Kuşk-i-Nou darvazaları ilə birləşir.

Gildən tikilmiş dişli divarlar Ərkin qüllə və çuxuru ilə sistemsiz məhəllə şəbəkəsini əhatə edir. Kvartallarda inzibati binalar, kazarmalar, 1 həbsxana, poçt, teleqraf, bağlar və çoxsaylı dağıntılar yerləşir.

Dünyanın bütün müsəlman şəhərlərində olduğu kimi, İran şəhərlərində də yaşayış kvartalları və dar küçələr faktiki olaraq şəhərin bədii görünüşünün formalaşmasında demək olar ki, iştirak etmir. Onlar tikililərin passiv elementləri kimi çıxış edir. Bu qapalı hasarlar tam şəkildə açılsa, Şərq şəhərlərinin küçələri memarlıq baxımından ən cəlbedici və əmin olardı. Lakin, hasarların vəziyyəti

*Yəzd. Suötürmə anbarı.*







*Yəzd. Çakmak məscidinin yerləşdiyi ərazi.*

öz mənfi təsirini davam etdiyinə görə şəhər kvartallarının planlaşdırma strukturuna ictimai tikililər, kilometrlərə malik bazarlar, bir və iki mərtəbəli karvansaralar, hamamlar, orijinal ab-anbarlar və dini ibadətgahlar daxildir. Şəhərin ərazisində ictimai binaların əraziləri faiz nisbəti ilə əhəmiyyətli yer tutur, bununla da şəhər tikintisinə fərdi xüsusiyyət və orijinallıq verir və onun fəal və mühüm elementidir.

Şəhərin bu cür səciyyəvi xüsusiyyəti Yəzdə də aid oluna bilər, burada XIX əsrin sonunda 12 bazar mövcud idi: Bazar xan, Bazar Məhəmməd Əli xan, Keysariyyə bazarı, Sədri bazarı, Təbrizun bazarı. Şəhər kvartallarının ümumi uzunluğu 3 verst (3,2 km) təşkil edirdi. Bazarlar ənənəvi sistem üzrə tikilmişdir: qeyd olunmuş giriş-portallar əvvəldə və axırda tağtavanla örtülmüş dəhlizə aparır ki, onun eni 2-3 sajen (4,26 – 6,4 m) təşkil edir, yan tərəflərdə piştaxtalar və emalatxanalar yerləşir.

İctimai və ticarət mərkəzinin strukturunda bazarın bu cür həcmi-məkan kompozisiyası öz funksional xüsusiyyətlərindən əlavə memarlıq əhəmiyyətini də kəsb edirdi. Mərkəzin sisteminə 12 böyük karvansara daxil idi: 1. Həccə, 2. Xanə-qədim, 3. Vəli, 4. Təbrizun, 5. Ərb (Xarandi), 6. Gülşən, 7. Böyük Şirazi, 8. Kiçik Şirazi, 9. Hacı Əbdül Məcid, 10. Pənceyi, 11. Beyabun-Kiyə, 12. Hacı Sadıq (Baumqarten, 9, s. 134).

Bu karvansaraların bəziləri, yəni: Hacı Sadiq, Pəncə-Əli, böyük Şirazi, kiçik Şirazi, Hacı Əbdül Məcid Yəzdin 1859-cu ilə olan planında qeyd olunublar. Yəzdin 1859-cu ilə olan planında 11 karvansara, Baumqartenin işlərində 12 karvansara-



*Yəzd. Quş uçuşu hündürlüyündən görüntüsü.*



*Yəzd. "Molla İsmayıl" məscidinin kəsiyi.*



*Yəzd. "Molla İsmayıl" məscidinin planı.*

da 5 göstərildiyi üçün, digərlərinin ya sahiblərinin və ya adlarının dəyişilməsi ehtimalı var.

Karvansaralar ab-anbarları və timçə (çox zaman piştaxtasız kiçik karvansara) (Kermane, Tehrane, Hacı-Sale, Vəli, Hacı-Qasım) ilə birgə şəhərin ticari inkişafını təsdiqləyən zəngin memarlıq-planlaşdırma orqanizmi təşkil edir.

Bazarların qübbələri və tağtavanları, karvansaraların düzbucaq formaları, qeyd olunmuş portallar, kaşılı qübbələrlə məscidlər, şəhər mühitinin elə elementləri idi ki, onlar onun formalaşmasında iştirak etməklə yanaşı Yəzdə məxsus çoxplanlı şəhərsalma kompozisiyasını yaradırdı (154, s. 141-156).

Bu baxımdan 15 kvartal ibadətgahı cəlbedicidir, lakin, onlardan yeddisi şəhərin siluetində əsas funksiyanı daşıyır: (Məscide Cümə, 1324-1364), Məscide Molla İsmayıl, Məscide Rik, Məscide Bea Xun, Məscidə-Mir Çakmaq, Məscidə-Furt, Məscidə-Sehrbaz.

İbadət tikililərindən əlavə mədrəsələr diqqətə layiqdir: Xan mədrəsəsi, Şəfie mədrəsəsi, Şahzadə mədrəsəsi, Musallə mədrəsəsi, Həzirə-Molla mədrəsəsi. Dini və tədris müəssisələrinin əsas hissəsi müxtəlif kvartallarda yerləşərək bu və ya digər kvartalın əhalisinə xidmət göstərirdi. Kvartal şəhər strukturunda yaşayış qurumunu əks etdirərək, böyük ictimai mərkəzə malik idi ki, burada məscid, hamam, mədrəsə, havalandırma qülləsi ilə ab-anbar yerləşirdi.

Şəhərin isti iqliminə baxmayaraq, diqqəti təntənəli bağlar çəkir. Şəhərin qərb hissəsində 1859-cu ilin planında öz planlaşdırması və sarayın memarlıq üslubu ilə nəzərə çarpan əzəmətli Baği-Dövlət qeyd olunmuşdur.

Bağın əsas tikilisi ənənəvi formalı səkkizguşəli Hovuz-xanadır, şəhərdə ən yüksək bağdır ilə təmin olunmuşdur, hündürlüyü 20 sajenə (42,60 m) çatırdı. Binanın bu cür struktur kompozisiyası yaşıllıqlar fonunda memarlıq həcmlərinin kontrastlığını və dinamikasını əks etdirir. Bağ, şahzadələrin və yay vaxtında əyalətin qubernatorunun qaldığı yer idi.

Şəhərin cənub ətrafında, Taft kəndinin yolunda böyük sarayı hündür sərv ağacları ilə əhatə edən gözəl Bağe Xan yerləşir. Sarayın qarşısında mərmərli səkkizgüşəli hovuz yerləşir, əsas girişə tərəf çinar ağacları olan xiyaban uzanır.

Puştə-xane Əli məhəlləsində, şəhərin sərq tərəfində, hündür gil hasar arxasında yerli tacir Hacı Mirzə Məhəmməd Tağı Şirazinin geniş Selse-bil bağı yerləşir. "Selsebil" ərəbcə "həsrəti çəkilən yer" deməkdir.

Yəzd kimi isti iqlimi olan şəhər üçün yaşıllıqlı, hovuzlar və kanalları olan bağlar, sözsüz ki, günün isti şüalarından gizlənmək üşün həsrətli yer idi.

Yəzdin sakinlərinin ən sevimli yeri Taft kəndi idi. O, Şir-Kux bulağının hər iki tərəfində yerləşmişdir və geniş bağları ilə 6 kv.verst ərazini (6,83 kv.m) tuturdu. Burada təxmini olaraq 900 ev yerləşir, onların bir qismi bazar ərazisini əhatə edir, digər hissəsi yaşıllıqlarda itir. Ərazi çoxsaylı bulaqlarla suvarılır, bu da Yəzdi böyük sayda meyvə və tərəvəzlə təmin edir.



*Yəzd. Cümə məscidi.*

İranın əksər şəhərləri iqlim və təbii şərait nəzərə alınmadan ərazilərdə yaranmışdır, suvarma üçün zəruri olan su mühəndis baxımından həddindən artıq mürəkkəb şəraitdə əldə olunurdu. Ustaların və sakinlərin əsrlər boyu etdikləri cəhdlər sayəsində dağlarda və onların ərazisindən kənarda gözəl bağlar yaradılmışdır ki, onlar bağ-park sənətinin abidələri kimi çıxış edir.

# FƏSİL 5.

# ORTA ÜSLUBLU ŞƏHƏRLƏR

**Bürücərd**. Bürücərd İranın miqyasına görə orta şəhərlərə aiddir, 40.000 nəfər əhali sayına və 12.000 evə malikdir (1850-ci ilin məlumatlarına əsasən). Şəhər düzənlikdə yerləşmişdir, hər tərəfdən qala divarları ilə əhatə olunmuşdur və böyük və kiçik qüllələrlə möhkəmləndirilmişdir (57). Şəhərin uzunluğu 2245 metr, eni 1500 m təşkil edir. Qala divarlarının və şəhər ərazisinin ümumi konturuna görə Bürücərd Şirazı, Məşhədi və Kirmanşahı xatırladır. Lakin, bu ilk baxışdandır. Əslində bütün şəhərlər istər memarlıq-planlaşdırma, istərsə də həcmi-məkan baxımından fərqlidir, hər biri özünəməxsus xüsusiyyətlərinə malikdir (147).

Bürücərd şəhəri iki hissədən ibarətdir: Ərk qəsri və şəhərin özü. Onlar bir-birini üzvi tamamlayır. Ərk şəhərin qərb hissəsini əhatə edir, 430x430 metr ərazidə yerləşir, üç tərəfdən müxtəlif həcmli və konfiqurasiyalı kvartallarla əhatə olunmuşdur. Ərkin mərkəzində qala meydanı yerləşir, ətrafda top-xana, əsgər-xana (kazarmalar), barıt anbarı, saray (qubernatorun evi), köşklər (pavilyonlar), Məhəmməd və əlbəttə ki, alaqapının yarısını əhatə edən bağlar yerləşir (SSRİ MDHTA, f. 196. d. 130, 1850-ci il).

Qala şəhərlə Dərvaze Ərk vasitəsilə, ətraflarla isə Hürrəmabada gedən karvan yolu olan Dərvaze Suzan ilə birləşir. Digərləri isə şəhər darvazalarıdır: Həmədan və ətraf məntəqələrə gedən karvan yolunda - Dərvaze Çarsu, Gülpayqan və Tehrana gedən karvan yolunda – Dərvaze Dudunu, İsfahana gedən karvan yolunda – Dərvaze Bervana, dervaze Yəxqəl, Noubənd.

Şəhər üçün ərazinin məhəllələrə bölünməsi, cənubi-qərbdən şimali-şərqə uzanan və nohurla bitən ifadəli və inkişaf etmiş ticarət və istimai mərkəz səciyyəvidir. Burada Məşhəd, Şiraz və İsfahanda olduğu kimi dəqiq xiyabanlar yoxdur.

Kiçik mərkəzlərə malik kvartallar tədricən alaqapının ətrafında tikilmişdir, kvartalların tikintisi həyat üçün əhəmiyyətli özəyə çevrilmişdir. Nəticədə funksional baxımdan özünü doğrultmuş planlaşdırma sistemi yaranmışdır.

Mərkəz şəhərin planlaşdırma strukturunda üstünlük təşkil edərək, ümumi şəhər miqyaslı oxa çevrilmişdir. Şəhərdə meydan çox idi, ona qədər, onlar mərkəzin təşkil olunmasında böyük rol oynayırdı: Cümə meydanı, Bezistan meydanı, Gömrük meydanı, Cama Torab meydanı, Dervazı Bərba meydanı, Dervazı Dudungə meydanı.

Ona qədər bazar vardır, onlardan əsasları: Məşədi Axund bazarı, Bürk bazarı, Məşədi Sağır bazarı, Torab-meydan bazarı. Onlar meydanlar sistemi ilə vahid ticarət və ictimai mərkəzə birləşirdi. Bazarlarda 700 qədər piştaxta vardı, şəhərin mərkəzinin uzunluğu 850 metr təşkil edirdi və məscidləri, hamamları, ziyarətgahları, karvansaraları və mədrəsələri daxil edirdi.

Qeyd edək ki, şəhərdə 23 məscid vardır, onlar mərkəzdə və kvartallarda

yerləşirdi. Şəhərin ərazisində yerləşən dini ibadətgahlar lokal və həcmi-məkan şəbəkələrini yaradır ki, onlar mühüm şəhərsalma funksiyasını oynayır və Bürücərdin memarlıq obrazını əks etdirir. Şəhərin kult tikililəri arasında memarlıq-bədii baxımından Axund məscidi, ən zəngin və gözəl Cümə məscidi, Hacı Bəkir məscidi, Ağa Torab məscidi, Şah məscidi qeyd olunur.

Şərq şəhərləri onunla fərqlənir ki, planlaşdırma strukturunda kult tikililəri izolyasiya edilmiş həcm vahidləri kimi çıxış etmir, onlar demək olar ki, adətən öz ətraflarında ictimai binaları, hamamları, ticarət piştaxtalarını və karvansaraları formalaşdırır. Beləliklə, dini binanın əhəmiyyətindən asılı olaraq, onun təsir sahəsinə qeyd olunan ictimai səciyyəli obyektlər daxildir və bu kompleksin ümumi şəhər miqyasında şəhərsalma səciyyəsini genişləndirir (158, s. 191).

Bürücərddə 1850-ci ildə 30 ictimai hamam var idi. Onlardan ən yaxşıları Axund hamamı, Cümə hamamı, Bazar hamamı, Şah hamamı və digərləri idi. Hamamlar Axund, Cümə və Şah məscidinin təsir dairəsinə daxil olur və şəhər tikintisinin daha çox mütəşəkkil olan memarlıq-planlaşdırma hissəsini təşkil edirdilər.

Şəhər qəbiristanlarını da qeyd etməmək olmaz, onlar istər mərkəzi kvartalların strukturunda, qala divarları boyunca yerləşirdi.

Bürücərd ətrafında Qala-Kərim, Suzan, Qumen-Ağa-xan, Çahar-Çinar kəndləri, karvanların dayanacaq yerləri, köşklər, bağlar, Baği-Şah, Baği Nazar, Cahar bağ, Kərbəlayi Həsən bağı, Abi-anbar (su anbarı), quyular, çeşmələr və sair yerləşirdi.

Bürücərdin şəhər kənarı bağları arasında Şah bağını qeyd etmək lazımdır, onun ölçüləri 540x360 m təşkil edirdi. Darvaze-Suzan Şah bağı ilə yaşıl xiyaban vasitəsilə birləşirdi. Həndəsi düzbucaq planlaşdırılması mənzərənin gözəlliyi və incəliyi ilə fərqlənir, xüsusilə də mərkəzi xiyaban qeyd olunur. O, hovuzlar və şəhər kənarı saray sistemi ilə Şah bağının yaşıl memarlığının əzəmətli tikilisini tamamlayır.

İran Kürdüstanının əsas şəhəri **Sena** və ya kürd dilində desək Sennendiç şəhəridir. Bu şəhər Abi Div şəhərinin sol sahilində yerləşir, üç hissəli bölünməyə malikdir, hər hissə digər hissənin yaranmasına zəmin yaratmışdır: 1. Narın-qala (qəsr), 2. Qala-xan Əhməd Köhnə, 3. Şəhərin özü (SSRİ MDHTA, f.446, d.144, 1851-ci il).

Narın qala şəhərin tarixi hissəsidir, burada hökmdarın sarayı, bağ, digər tikililər vardır.

Qala Darvaza ağa Rəhim darvazasının yanında qala divarlarının şimal-qərb hissəsində yerləşir. Üç tərəfdən qala divarları xəttinə malikdir. Şimal-şərq tərəfdən isə qala divarlarının dəqiq xəttinə malikdir. Mərkəzdə Narın qala qarşısında meydan-Vəli meydanı tikilmişdir, onun ətrafı yaşayış məhəllələri ilə əhatə olunmuşdur. Qala divarları boyunca şimal-qərb və şərq hissələrdə imarət Moşir Vəziri, Xosrovabad, imarət Asif Vəziri, imarət Əbdül Fəth xan, imarət Mirzə-Məhəmməd-Riza-Vəziri, Mirzə Abbas məscidi yerləşmişdir. Muhəmməd-xan, Mahmud-xan-kel və Saq-Verdi-xan imarətləri şəhərin qarşı tərəfində yerləşirdi.

**Lur** şəhəri Luristan dağlarının ətəyindən 10 km məsafədə, Dız çayının sol sahilində yerləşmişdir. Şəhərin şimal tərəfindən Dız çayı axır ki, bu da demək olar ki, su mənbəyindən məhrum olan əhali üçün mühüm əhəmiyyət kəsb edir. Qərbdə şəhərin aşağı hissəsində yüksəklik aran hissəyə keçir. Şəhər şimaldan cənuba uzanmışdır, qala divarları, sıx qüllə sıraları çiy kərpicdən hörülmüşdür. Şəhərin şimal-qərb hissəsi Dız çayına yönəlmişdir və ifadə olunmuş relyef baxımından strateji funksiyaya malikdir.


ПОДРОБНЫЙ
ИЗЪЯСНЕНІЕ ЗНАКОВЪ
ОПИСАНІЕ ПЛАНА




*Bürücərd şəhərinin planı. 1850-ci il.*



*Kaşan. Yaşayış evinin bir hissəsi və aksonometrik görünüş.*





*Kaşan. Bürücərd də yaşayış evi.*



*Kaşan. Bürücərd də binasının bir hissəsi.*





*Kaşan. Bürücərd də yaşayış evinin daxili görünüşü.*

*Senne şəhərinin baş planı.*



Şəhər şimal tərəfdən cənuba 2500 metr, qərbdən şərqə isə 1200 metr uzunluğa malikdir. Qala divarlarının uzunluğu boyunca 6 darvaza və 57 qüllə yerləşir. Qala divarları boyunca bu cür qüllə sıxlığı şəhərin müdafiə qabiliyyətini təmin edirdi.

Dız çayı şəhərin həyatında mühüm rol oynayır: bol su təchizatı, bağlara və əkin yerlərinə böyük məhsul yığımını təmin edirdi. Çayın eni şəhər hüdudlarında 96-180 metr təşkil edirdi, cənub-qərb hissəsindən 22 daş dayaq üzərində tikilmişdir. Şəhərdə 40.000-ə yaxın sakin vardır, şəhər dörd kvartala bölünürdü: Qala məhəllə, Məscid məhəllə, Maxron məhəllə, məhəllei-Ket-Ketun. Altı darvaza şəhərdən karvan yolları ilə müxtəlif istiqamətlərdə aparır, əyalətin və ölkənin ayrı-ayrı hissələrinə: şərq darvazası Baba Yusuf, darvaze Bəxtiyar, Şuşter, qərb darvazaları Şah Xorasan və şimal darvazası Səbiyun, darvazei Pul.

Şəhər kompakt planlaşdırma sisteminə malikdir, əsas küçə istiqamətləri müəyyən dərəcədə Dız çayına paralel keçir. Şəhərin planlaşdırma strukturunda bölünmə müşahidə olunur: ərazinin kvartallara mütəşəkkil bölünməsi və planlaşdırma səciyyəsinə görə daha sərbəst olan şəhərin cənub-şərq hissəsi.



*Sənanc. Asif Vəzirinin evinin bir hissəsi.*



*Sənanc. Asif Vəzirinin evinin bir hissəsi.*

Məhəllələrin ilkin tikintisinin şəhərin şimali-qərb hissəsində daha mütəşəkkil həyata keçirildiyini güman etmək olar. Şəhər böyüdükcə planlaşdırma cənub-



şərq istiqamətində qaydalara riayət edilmədən hərəkət edirdi və mənzərəli şəhərsalma mühitinə çevrildi.

Şəhərin ümumi planlaşdırma sisteminə ona yaxın meydan daxil olmuşdur, lakin, onlardan yalnız altısı şəhər mühitinin yaradılmasında mühüm rol oynamışdır: Meydani Ordu, Meydani küçük, Meydani Barut, Meydani Bazar-Buzurq, meydanı Şeyx Cəmil, meydanı Qara saray. Meydanı Bazar-Buzurq mərkəzi şəhər meydanı rolunu oynayırdı. Uzununa çaya paralel meydan 245x74 m formaya malik idi, bir qədər İsfahan meydanını xatırladırdı, lakin, yalnız formasına görə.

Burada Bazare-Bozorg bazarı yerləşirdi, perimetrə görə tikilmişdir, digər sahələrdə həmçinin bazarlar və piştaxtalar mövcud idi. Şəhər tikilisinin sisteminə



15 ziyarətgahlar və məqamlar, 7 məscid, 2 karvansara, 5 hamam və məzarlar daxil idi və şəhərin infrastrukturunda çox əhəmiyyətli halqanı təşkil edirdi.

**Şuşter** şəhəri Karun çayının sahilində, Şat-əl-Ərəb qolunun sol sahilində, bu axın ilə eyni çayın digər qolu olan Abi-Qerqerin birləşməsində yerləşir, şəhəri Şərq tərəfdən əhatə edir. Abi-Qerqerin sahilləri şəhər boyunca qalxmaq və enmək üçün çətinliklər yaradır. Şəhərin bu topoqrafik mövqeyi Disful topoqrafiyasını xatırladır, öz xüsusiyyətlərinə malikdir, Şat-əl-Ərəb ilə Abi-Qerqer arasında yerləşmişdir, sahil xətti fərqlidir, planlaşdırma strukturu kvartalların yerləşməsinə görə bir qədər fərqlənir.

Şəhər üç tərəfdən qala divarları ilə əhatə olunmuşdur, dördüncü tərəfdən isə demək olar ki, Abi-Qerqer çayı sayəsində sarsılmazdır. Üç hissədən ibarətdir: qəsr, şəhərin özü və Abi-Qerqer sahilində kiçik yaşayış ərazisi.

Qəsr şəhərin şimal-şərq hissəsində, Şat-əl-Ərəb çayı sahilində qalalı təpənin üzərində yerləşmişdir. Bu cür topoqrafik mövqe İranla yanaşı Qərbi Avropa dövlətlərinə də xasdır. Şəhər əhəmiyyətli əraziyə malikdir: şimal-şərqdən cənub-qərbə 2800 metr, şimaldan cənub-şərqə isə 1700 metr, yəni, 500 ha yaxın ərazi, həmçinin, dörd darvazası vardır: Darvazeye Qerqer, Darvazeye Disful, Darvazeye Çilə, Darvazeye Ləşkər.

Şəhərin planlaşdırma strukturu yerin topoqrafik xüsusiyyətləri, qəsrin yerləşməsi və ərazinin uzun məhəllərlə məhdudlaşması baxımından inkişaf et-

*Şüştər. Şəhərin quş uçuşu hündürlüyündən görüntüsü.*



mişdir. Şəhərin şəhərsalma sisteminin əsasına sərbəst planlaşdırma prinsipləri və bir kvartalın digərinin yanına qədər artırılması yolu ilə inkişaf etdirilməsi prinsipi daxildir. Planlaşdırma sistemi sahəsinə və ölçülərinə görə müxtəlif meydanlardan, şəhər kvartallarından, küçə kəsişmələrindən ibarətdir. Şəhərin cənub hissəsində Məskər xanə meydanı, Rəng xanə meydanı, bazarlar yerləşərək, şəhər mərkəzini təşkil edir. Məscidlər, ziyarətgahlar, karvansaralardan keçən mühüm magistrallar məhz bura cəmlənir.

*Şüştər. Mustafa imarəti.*







Məscidlər şəhər tikilisində öz əksini tapmışdır. Onların meydanlarda, magistrallarda, sıra küçələri arasında yerləşməsi mülki tikililərlə yanaşı şəhər miqyasının həcmi-məkan strukturunu əks etdirir. Burada rənglər zəngin və yumşaqdır, portallarda və tağların üzərində emosional elementlərin işlənməsi bədii enerji verir. Bu amili dəyərləndirməmək İran memarlığını özünəməxsusluğundan məhrum etmək deməkdir.

Həcm və memarlıq formalarının rəng həlləri olmasa, onlar şəhərin sıravi elementi olaraq, emosional əhval-ruhiyyəsiz, estetikasız qalacaqdır. Şəhərdə



1850-ci ilin məlumatlarına əsasən 17 kult binası var idi: Mescidi Əhməd, Məscidi Hacı Hadi, Məscidi İmamzadə Abdullah, Məscidi Cümə, Məscidi Xıdır, Məscidi Minarə, Məscidi Baak, Məscidi Abdullah, Məscidi Əli, Məscidi Mişkal, Məscidi Hüseyn, Məscidi Molla Həbib, Məscidi Şah Səfid, Məscidi Məhəmməd Əli, Məscidi Xan, Məscidi Şekafte.

Ziyarətgahlar və məqamlar 15-ə qədər mövcud idi: Məqam Sədad, Məqam Seyid Nəsrəddin, Məqam Hüseyn. Ziyarət Sədad, Ziyarət Saleh, Ziyarət Bero Molla, Ziyarət Beleda, Ziyarət Daharun, Məqam Hüseyn, Ziyarət Abbas, Ziyarət Hacı Xıdır, Ziyarət Saleh Peyğəmbər, Ziyarət Seyid Məhəmməd, Ziyarət Şah Nəcəf Qədimi, Ziyarət Şah Zeyr. Şəhər kvartallarının kult və memorial tikililəri ilə bu cür zənginliyi müəyyən memarlıq mühitini yaradırdı ki, bu da planlaşdırmada və həcm strukturunda əks olunurdu.

Iranın şərq və qərb, cənub və şimal şəhərləri, məntəqənin coğrafi şəraitindən asılı olaraq fərdi memarlıq-planlaşdırma statusu əldə etmişdilər. Onlarda şəhərsalma ənənələri, memarlıq üsulları, su xəttləri əks etdirilir. Ab-ambarlar, buzxanalar, badgirlər, kanallar kimi maraqlı tikililər sıx əlaqəlidir və şəhərin həcmməkan strukturunda üstüörtülü bazarlarla, emalatxana-piştaxtalarla, karvansaralarla, imamzadələrlə birgə mühüm yer tuturlar.

Əfqan işğalı zamanı bir çox şəhərlər dağılmış, çoxsayli zəlzələlər nəticəsində xarabalığa çevrilmişdirlər. İri ticarət istehsalı olmadığından, ölkənin istehsal gücünün zəif olması şəhərlərin inkişafına təkan vermirdi. Yerli sənət istehsalı və müstəmləkələrdən idxal edilən mal üzərində qurulan ticarət şəhərlərin inteqrasiyasına şans vermirdi. Onları ölkənin ümumi bazarına cəlb etmək üçün əhalinin demoqrafik inkişafı və İranın istehsalının artması üçün böyük şəhərlərdə müasir sənayeni inkişaf etdirmək lazım idi (186).

Bu istiqamətdə heç bir cəhd nəticə vermədi: yerli ticarət şəxsi sənayenin irimiqyaslı əməlliyatlarına hazır deyildi, xarici sərmayəyə isə dövlət torpaq sistemi, fəhlə kadrlarının, istehsalın orta zəncirinin olmaması, ümumilikdə isə ölkənin geridə qalmağı mane olurdu. Feodal istehsal rejimi, əyalət qubernatorlarının, köçəri və yarıköçəri tayfa xanlarının separatist məqsədləri vahid dövlət bazarının yaranmasına imkan vermirdi. Bu da istehsalın inkişafında, eyni zamanda əyalət mərkəzlərinin və kiçik şəhərlərin inkişafına təsir edirdi.

İranın kiçik şəhərlərinin zəif imkanları ərazi strukturunu dəyişməsə də, yaranmış tikili sistemini dağıtmırdı, memarlıq ansambllarını yaratmırdı, la-



*Buşer. Mehriban kompleksi.*

kin, yerli bazarın bazasında əmtəə istehsalatı hər şəhərin obyektiv inkişafının göstəricisi idi. Lakin, şəhərləri birbirindən ayrı şəkildə nəzərdən keçirmək lazım deyil. Baxmayaraq ki, İran "klassik yolsuzluq ölkəsi" hesab olunurdu, böyük şəhərləri birləşdirən karvan yolları müəyyən dərəcədə kiçik şəhərlərlə də əlaqə vasitəsi kimi çıxış edirdi. Bir əyalətin şəhərləri arasında kiçik məsafələr, ticarət əlaqələri və kustar istehsalatının oxşar profilləri bu şəhərlərin memarlıq-planlaşdırma səciyyəsinə, ictimai tikililərin kompozisiya həllərinə, minalanmış plitələrin geniş tətbiqi ilə rəng çalarlarına öz təsirini göstərməyə bilməzdi.

Rəngli minalanmış plitələrin çoxəsrlik ənənəsi böyük ustalıqla XVIII-XIX əsrin tikililərində həkk olunmuşdur. Lakin, Səfəvilərin klassik memarlıq dövründən sonra tikililərdə, xüsusilə də kult binalarında onların geniş tətbiqi texnoloji keyfiyyətin istehsalını itirir, bu da rəng çalarlarının azalmasına və nadir səciyyəli tikililərin yüksək estetikasının azalmasına gətirib çıxarır.




*Buşer. Mehriban kompleksinin kəsiyi və hissələri.*





# FƏSİL 6.

# İRANIN KİÇİK ŞƏHƏRLƏRİ

İranın kiçik şəhərləri böyük şəhərləri kimi şəhərsalma və memarlıq sənətinin minillik irsinə bu və ya digər miqyasda malikdir və vahid sosial-iqtisadi şəraitdə inkişaf etmişdir. Memarlığın tipoloji xüsusiyyətləri, istehkam qurğularının tikintisinin ənənəvi üsulları, qala divarlarının oxlarında şəhər darvazalarının mövcudluğu, şəhər tikililəri üçün vahid tikinti materialı, ərazinin kvartallara bölünməsi şəxsi inkişaf xüsusiyyətlərinə malikdir (196, s. 276).

Kiçik şəhərlərin nümunəvi üslublarından biri Cənubi Azərbaycanda **Sərab** şəhəridir. Bu şəhər 15.000 nəfərlik əhaliyə və 3000 evə malikdir (1875-ci ilin məlumatları). O, iki kiçik çay arasında düzənlikdə yerləşmişdir: şərqdən Xedarxan-çayı, qərbdən Taciyar çayı, çayların hər ikisi Acı çaya axır. Düzənlik demək olar ki, hər tərəfdən dağ silsilələri ilə əhatə olunmuşdur: şərqdən Buzqüş, şimaldan Savalan, cənubdan Qedıki-Sain, qərbdən Mehran-rud və Alanbur-kuş mahalları.

Şəhər adi qaydada iki kvartala (məhəlləyə), burada altı bölünmüşdür: 1. Qala məhəllə, 2. Xalfa-bağı məhəllə, 3. Aqarre məhəllə, 4. Mavalli məhəllə, 5. Aralıq məhəllə, 6. Hacı Mirağa məhəllə.

İki çay və düzənlik ərazi şəhərin bütün ümumi planlaşdırma strukturunu əvvəlcədən müəyyən etmişlər. Burada dar, mənzərəli küçələr, dalanlar və keçidlər, bütün istiqamətlərə ayrılır, lakin, şəhər mərkəzinə meyllidir ki, burada məşhur Xudafərin çeşməsi yerləşir.

Şəhər meydanının ərazisində hovuz şəklində su elementinin mövcudluğu şəhərsalma strukturunda mühüm amildir. Su mərkəzin məkan əhatəsinin obraz ifadəsini genişləndirir, tikilini onun tağlı araları ilə abadlaşdırır və əlverişli şəhər mühitini kvartalların strukturuna daxil edir ki, burada qübbə həcmləri və məscidlərin minarələrinin quruluşu diqqəti cəlb edir.

Sərabın kvartalları tarixi qatlardır ki, onların üzərinə əsas küçələrin şəbəkəsi yığılmışdır, şəhərsalma irsinin planlaşdırma karkasını əks etdirir. Yaşayış tikilisinin ətrafında müxtəlif dövrlərin kult tikililərinin həcmli vahidləri uyğunlaşır, lakin onlar vahid ənənəvi üsullara malikdir ki, onlar milli memarlığın irsini əks etdirir.

Lakin, tikinti üslubları və üslub xüsusiyyətləri sosial-iqtisadi və siyasi şəraitin təsiri altında öz dövrünü, öz memarlıq zamanını bildirir ki, bu da şəhərin məkan simasında çox zəruridir.

On yeddi məscid və yeddi mədrəsə, dörd İmamzadə, dörd hamam şəhər kvartallarına daxil olaraq, Sərabın birmərtəbəli yaşayış tikililəri fonunda kiçik şəhərin həcmli sistemini akkumulyasiya edir və eyni zamanda məkan strukturunda hər həcm vahidi özünəməxsus yer tutur və ümumi harmoniyanı pozmur.

Şəhərin məscidləri bunlardır: 1. Hacı-Əbdül-Kazım-Attar (daş qübbə ilə 900 il əvvəl tikilmişdir), 2. Məscidi Cümə, 3. Məscidi Naibul-Sultanat, 4. Məscidi

Xəlfə-bağı, 5. Məscidi Mir-Sədrəddin, 6. Məscidi Qara Daş, 7. Məscidi Qala, 8. Məscidi Hacı Əzim, 9. Məscidi Mirzə Abdurra-zax, 10. Məscidi Uz-Qezli, 11. Məscidi Molla Murtuzaqulu, 12. Məscidi Mövla, 13. Məscidi Şahzadə Ziyad-dövlə, 14. Məscidi Hacı Mir Hüseyn, 15. Məscidi Meydan, 16. Məscidi Darvazə, 17. Məscidi Ağ-qara.

Tarixi və memarlıq tikilisi baxımından İmamzadələr maraqlıdır, xüsusilə onlardan biri öz orijinallığına və qədimliyinə görə diqqəti cəlb edir. Bu tikililər öz səciyyəsinə, həcmlərin obraz həllinə, fasadların dekorativ işləmə üslublarına görə şəhərə xüsusi çalar bəxş edir ki, bu da şəhərsalma və bədii planda çox mühümdür.

Sərabda dini tikililərdən başqa 160 piştaxta ilə karvansara və iki yağ zavodu vardır ki, onlar yaşayış tikililəri və yaşıllıq sahələri ilə birgə vahid ərazi orqanizmini təşkil edərək, şəhərsalma mühitinə öz töhfələrini verir.

Xorasanın ərazisində bir çox kiçik şəhər yaranmışdır ki, onların yaranması İranın müqəddəs ərazisi olan Məşhəddə İmam Rza varislərinin məzarları ilə əlaqəli idi.

Bu şəhərlərin arasında **Qaçan** da qeyd olunur ki, bu şəhər Atrek çayının sol sahilində dəniz səviyyəsindən 1280 m hündürlükdə yerləşir və çayın sağ sahilində hökmranlıq edir. Şəhər qalın gil divarla və hər darvazada qoruyucu qüllələrlə dövrələnib.

Şəhərin divarları Fətəli şahın dövründə tikilmişdir və 1830-cu ildə Abbas Mirzə tərəfindən Qaçan xanının separatçı cəhdlərinə görə sökülmüşdür. Şəhər uzunluğu 1.5 km, eni 1,0 km ərazini əhatə edir. Dar küçələr toru bazara aparır, burada Şərq şəhərlərinin gündəlik həyatı cəmlənir. Şəhərdə təxmini 15 məscid vardır ki, onların arasında ən yaxşısı Məscidi Paçinardır.

Memarlıq göstəricilərinə görə, kaşı plitələrinin zənginliyinə görə, rəng həllinə görə İbrahim Sultanın İmamzadəsi fərqlənir ki, bu İmam Rzanın oğlanlarından birinin imamzadəsidir, XV əsrdə Teymurun nəvəsi Bəysunqur tərəfindən tikilmişdir.

M.Əlixanov-Avarskiy qeyd edir ki, məzar Qaçan xanının anası tərəfindən bərpa edilmişdir. "Lakin, yeni fars incəsənətinin izləri onun üzərinə kobud ləkələrlə vurulmuşdur. Məsələn, bunu Suzdal dindarının öz fırçası ilə Rafaelin əsərində silinmiş yerləri doldurması ilə müqyisə etmək olar" (8, s. 44).

Qaçanın özəlliyi onun gözəl bağlarındadır, lakin, təkcə şəhərdə deyil, həmçinin, onun qala divarlarının arxasında salınmış bağlarında, yaşıllığında və hovuzlarındadır ki, onlar planlaşdırmada Şərqin bağ-park sənətinin ən yaxşı izləri kimi qeyd olunmuşdur. Qaçan bağlarının strukturuna hovuzlarla birgə orqanik olaraq əzəmətli və orijinal buzlaq tikililəri də daxildir.

Konusşəkilli başlıqlarla və hündürlüyü 17 metrə qədər olan silindr şəkilli qüllələr yaşıl bağlardan görünür və öz şaquli həcmləri ilə ətraf əraziyə plastik imkanlar dinamikasını, estetik qayda çalarlarını verir. Tətbiqi tikililər kifayət qədər səmərəli şəkildə tikililərin konstruktiv və memarlıq əhəmiyyətini ifadə edirsə, çox gözəl həcmi-məkan strukturunu almış olur. Tikililər forma və üslubu sayəsində orijinal məqamlara çevrilir və bu əraziyə onun ayrılmaz hissəsi kimi daxil olaraq, informasiya səciyyəsini daşıyır, izahata ehtiyacı olmayan özünəməxsusluğu müəyyən edir.

Qaçanda özünəməxsusluq bağlarda buzlaqlar hesabına əldə olunmuşdur ki, "burada buz torpaq altında adi zirzəmilərdə saxlanılır, qüllələr isə yalnız günəş şüalarının zirzəmiyə təsirini aradan qaldırmaq üçün nəzərdə tutulmuş-

dur. Bu tikililər sayəsində Qaçan əhalisi bütün yay boyu gözəl buzdan istifadə edirlər" (8, s. 52).

Şərq əhalisinin həyatında bağlar xüsusi yer tuturdu, onların bədii və memarlıq görünüşünə sehrli məna verirdilər. Təbiətlə uyğunlaşmanın bu təsiri öz mənasını almışdır ki, bu da məsələn, yapon və ya "borc alınmış" çin bağlarının mənasından fərqli idi.

M.Əlixanov-Avarskiy 1883-cü ildə Qaçan ətrafında bu cür bağlardan birinə gəlmişdir. Onun dedikləri bunlardır: "sanki anidən öz arxasında nağıllar aləmində yaşayan Şərqin mənzərələrindən birini gizlədən pərdə açıldı və rəngli arabeskalarla tikilmiş və böyük məkanı əhatə edən mənzərə qarşımızda açıldı. Düşünmək olardı ki, "min bir gecənin" sehrli imarətlərindən biri yarandı - bax bu cür effekt və ətrafın zənginliyi əvvəllər gördüyümüz hər şeyi öz görünüşü ilə kölgədə qoydu... çadırın kölgəsində gözəl formalı geniş hovuz parlayırdı, ətrafda isə hər şey çox cazibəli və qırıq xətlərlə yerləşmişdir, yolları xalça şəklində döşənmişdi – rəngli ipək parçalar ilə" (8, s. 57, 58).

Qaçan bağları arasında Nəzər bağı qeyd etmək lazımdır. Bu Qaçan xanının şəhərdən kənar bağıdır və şəhərin ən yaxşı mülklərindəndir. O, Artek çayının sol sahilində yerləşmişdir və bir kvadrat kilometrə qədər ərazini əhatə edir, gözəl hasarla əhatə olunmuşdur ki, hasarın darvazası şərq tərəfdən qoyulmuşdur. Bağın planlaşdırılmasında ənənəvi üslublar öz üstün yerini almışlar: bağın ərazisi yol şəkilli xiyabanlara bölünmüşdür, meyvə ağacları və çiçəklər düzbucaqlar şəklində əkilmişdir.

Bağın memarlıq kompozisiyasının mərkəzi alebastr ilə örtülmüş geniş kərpic platformadır. Onun perpendikulyar oxları ilə çarpaz şəklində dörd əzəmətli hovuz yerləşmişdir. Onlar mürəkkəb formaya malikdir. Bağın planlaşdırma üslublarının ənənəsinə, onun strukturunun ardıcıllığına baxmayaraq, onlar hamısı fərdidir, özünəməxsus orijinallığa malikdir.

Qaçanın yaxınlığında Bücnurd şəhəri ilk baxışdan bütün şəhərsalma əlamətlərinə malikdir. Lakin, bu dövrdə tip şəhərlər formalaşmırdı, çünki tarixi topoqrafiya, relyef, coğrafi xüsusiyyətlər istər şəhərsalma strukturuna, istərsə də şəhərin memarlıq palitrasına müəyyən təsir edirdi.

Bücnurd düzənlik ərazidə, dördbucaq formasında tikilmişdir, hər tərəfdən qala divarları ilə əhatə olunmuşdur, böyük darvazalara malik idi. Qərb fasadı açıqdır, çünki burada axar su ilə dərin kanal keçir. Şəhərin düz küçələri Qaçan küçələrindən fərqli olaraq darlığı və qapalılığı ilə yanaşı planlaşdırmada mütəşəkkilliyi və şəhərin mühüm obyektlərinə istiqamətliliyi səciyyələndirir.

Şəhərin mərkəzi magistralı bazar magistralıdır, düz, geniş yoldur, fontanlarla bəzədilmişdir, şəhərin mərkəzindən keçərək, qala divarlarının cənub fasadında gözəl ağ rəngli darvaza ilə tamamlanır.

Şəhər yaşıllıqda batır, hər həyət bağla əhatə olunaraq, su ilə təchiz olunmuşdur. Bu üstünlük şəhəri bu növ kiçik şəhərlər arasında qeyd edir. Onu Cənubi Azərbaycanın Ordubad şəhəri ilə müqayisə etmək olar ki, burada da su, bağ bolluğu və yüksək şəhərsalma mövcuddur. "Bücnurdda ümumiyyətlə adətən Şərq küçələrinə xas olmayan təmizlik gözə çarpır. Bunu hamı əslində memar olan hazırki bacarıqlı hökmdar Yar-Məhəmməd xanın qayğıkeşliyi ilə əlaqələndirir" (8, s. 100).

Memar-xanın bacarıqları onun sarayında təqdim olunmuşdur. Onun şəxsi rəhbərliyi altında tikilmiş mərmər hamamda və şəhərkənarı Azər-bağ bağında

da onun ustalıq qabiliyyəti aşkar edilir. Yerli memarlıq sahəsində biliklər, Tehranda həyata keçirilən üslub istiqaməti onun tərəfindən şəhərdə öz sarayının və Azər-bağ iqamətgahının tikilməsi zamanı əhəmiyyət kəsb etmişdir.

Hər şey inşaatın yeni şəraiti ilə, ənənəvi memarlığa digər münasibətlə qeyd olunmuşdur ki, bu da xan tərəfindən inşa edilmiş binaların planlaşdırma strukturunun və həcmi-məkan kompozisiyasının həllində təzahür edirdi.

Bücnurd xanının sarayı şəhərin şimal-qərb hissəsində yerləşir və bilavasitə şəhər divarına birləşərək, onun vahid tamlıq yaradır. Burada içqala yoxdur, lakin, onun yerləşməsi və şəhər üzərində rəhbər mövqeyi məşhur şəhərsalma üsullarını qeyd edir.

*Bücnurt. İmamzadə Cəfər pirinin ümumi görüntüsü.*



Şəhər kompleksinin ərazisinə tağ vasitəsilə ikimərtəbəli bala-xana altından keçirdilər, fasad geniş bağa istiqamətlənmişdir ki, "bu bağ simmetrik yerləşdirilmiş çiçəklikləri olan fars xalçasını xatırladırdı" (8, s.174). Ənənəyə uyğun olaraq bağın orta hissəsini böyük bəzəkli hovuz tuturdu, dərinlikdə isə dinamik, həcm həllinə görə mürəkkəb saray mülki tikilidən daha çox dini tikilini xatırladırdı.

Ön planda gözəl qalereya, yüngül sütunlar, mərkəzdə böyük mavi qübbə ucalır, yuxarısında isə qüllə tikilmişdir. Bu cür həcmi-məkan kompozisiyası İran və ümumiyyətlə Şərq memarlığı üçün qəti xas deyil.

Burada memarın yaradıcılıq kaprizi özünü göstərir; bir həcmdə minarəni və qübbəni birləşdirmək və orijinal kompozisiya əldə etmək istəyi uğurla başa çatmışdır. Sarayın mərkəzi hissəsi orijinal üslublu qüllələrlə tənzimlənirdi, rəngli kaşılarla və ornamentlərlə örtülmüş qübbə və qüllələr isə bağın sıx yaşıllığı fonunda effektli mənzərə yaradırdı.

Memar faktiki olaraq fantaziyasını işlədir, yeni bir şey yaratmağa çalışmışdır. Lakin, burada da konstruktiv və həcm sistemlərinin pozuntusu qeyd olunur.

Sarayın interyerləri ənənəvi üsullarla yerinə yetirilmişdir: güzgülü tavanlar, fıstıq qapılar, rəngli şüşələrlə şəbəkə-pəncərələr, mərmər döşəmələr. İnteryerlərin bütün memarlıq kompozisiyasında şablon bir şey yox idi, hər bir məqamda yenilik axtarışı, yeni fikirlər izlənirdi.

"Xüsusilə, qəbul otağına bitişik olan otaq maraq doğurur. Onun ortasında ətrafında limon və digər ağaclardan ibarət gözəl mərmər hovuz yerləşir. Bu otağın

küncündə nəhəng çinar ağacı tavandakı dəlikdən çölə çıxır və sarayın üzərində böyük papağı xatırladır" (8, s. 176).

Zəngin interyerlərdə mərmər hovuz limon və digər sitrus meyvələri ilə tipik haldır, qədim ənənəyə malikdir, heç kim buna təəccüb etmir. Lakin, qonaq otağında bu elementlərlə yanaşı canlı təbiətin bir hissəsi olan çinar ağacı görünəndə və orqanik olaraq interyerə uyğunlaşanda bu orijinal hal yerli landşaftın bədii motivinə çevrilir və müəllifin memarlıq bacarıqları qarşısında hörmət doğurur.

F.L.Raytın vaxtlarından müasir memarlar göydələnlər, asfalt və digər amillərin şəhərlərdən təbiətin uzaqlaşdırılmasını hiss edərək, canlı təbiətə qayıdışa görə mübarizə aparmağa başladılar. Bu baxımdan nə dərəcədə uğurun qazanılması barədə danışmaq hələ tezdir, lakin, şəhər mühitində təbiət landşaftı məsələsi artıq əksər memarları düşündürür (112, s. 246; 66, s. 263).

Kasıb təbiəti olan İran üçün hər ağac insanın zəhməti və qayğısı hesabına bitir, yaşıllıq memarlığı şəhərlərin strukturunda mühüm yer tutmuşdur, yaşıl ətraf mühiti əldə etmək və ümumi təbii landşafta yaxınlaşmaq bu ölkənin sakinlərinin əzəli istəyidir.

Məhz bununn nəticəsində təbiətin hissəsi olan çinar ağacı qonaq otağında yer tutaraq gələnlərin heyranlığına səbəb olmuşdur. Yar-Məhəmməd xan doğma şəhər üçün yaxşılıq etmişdirsə, memar-hökmdar kimi etmişdir ki, bu da 10.000 əhalisi olan yaşayış ərazisi üçün mühümdür.

Onun şəxsi rəhbərliyi altında tikilən mərmər hamam, onun səciyyəvi və texnoloji xüsussiyyətlərdən ibarət olan mülki tikililər sahəsində olan biliklərini əks etdirir.

Bücnurd bağlarla əhatə olunmuşdur, onlardan ən gözəli Yar-Məhəmməd xana məxsus Azər-bağdır. Bu bağ şəhərdən 1.5 km aralıqda yerləşir. Bağ və şəhər arasında düz xiyaban (prospekt) salınmışdır, hər iki tərəfdən ağaclarla əkilmişdir. Axar su ilə iki arx xiyabanın ortasında inşa edilərək, oturacaqlarla əhatə olunmuş kiçik hovuzlar sistemini tamamlayırdı. Bu cür xiyabanlar Tehranda və İranın digər şəhərlərində də var idi və müəyyən dərəcədə Şah Abbasın dövründə İsfahanda salınmış Çahar bağı əks etdirirdilər.

Bücnurd xiyabanı artıq elə dövrün nəticəsidir ki, bu zaman İranın paytaxtı Tehran Nəsrəddin şahın Avropa basqınlarından sonra memarlıq-planlaşdırma baxımından dəyişməyə, yeni növ xiyabanlar və Avropa üslublu kvartallar salınmağa başladı.

Lakin, böyük və kiçik şəhərlərin heç birində yeni şəhərsalma prinsipləri Bücnurdda olduğu kimi belə tezliklə geniş tətbiqini tapmır. Şəhərlərin əksər hökmdarları bu istiqamətdə müəyyən addım atsalar da, bu əsasən şəxsi və şəhərkənarı evlərin tikintisində ifadə olunurdu. Müasir anlamda mülki tikinti XX əsrin əvvəlinə qədər demək olar ki, inkişaf etmirdi, şəhər idarəsinin binaları, banklar, ticarət şirkətləri və sair tikilmirdi, çünki bu baxımdan ölkə öz sosial-iqtisadi və siyasi səviyyəsinə görə hazır deyildi.

Şəhərin yenidən planlaşdırma işləri aparılarkən saray kompleksinin tikintisi, Azərbağa aparan məhəllənin tikintisi və onun bağ-park sənətinin bütün qanunlarına uyğun abadlaşdırılması zamanı Bücnurd xanın fəaliyyəti sıravi tikinti çərçivəsindən qırağa şıxırdı. Yar-Muhamməd-xan memar-peşəkar, memar-səhərsalma mütəxəssisi kimi çıxış edirdi.

Orta əsrlərdən ibadət, memorial və digər tikililərin memarlarının məşhur adları qalmışdırsa, XIX əsr memarları ilə zəngin deyildi, onların tikdiyi əksər tikililər anonim idi. Hətta Tehranda məşhur Gülüstan sarayının əsl müəllifi yoxdur. İran me-

*Bücnurt. İqamətgahın ön görünüşü.*



marlığının tədqiqatçılarından heç kim Qacarlar dövrünün tikililərindən danışarkən tikintiyə, xüsusilə də saray tikintisinə böyük əmək sərf etmiş memarların adlarını çəkmirlər.

Bu səbəbdən, öz dövrünün memarı olan Yar Məhəmməd xanın adı XIX əsrin ikinci yarısının memarlıq tarixindən silinməməlidir. Zamanla tədqiqatçılar onun yaradıcılığına qayıdacaq və onun yeniliklərini və fantaziyalarını araşdıracaq.

Bu baxımdan Azər-bağ ən yaxşı tərzdə təqdim olunmuşdur. Geniş və yaşıl xiyaban, hovuzu və fontanı olan bağın enli terrası ilə başa çatır. Burada fontanın şırnağı on metrə qədər hündürlüyə qalxırdı. Hovuzun ətrafında üç kiçik və incə hovuz, fontanlar yerləşmişdir və bağın memarlıq kompozisiyasının mərkəzini təşkil edirdi. İfadə olunmuş su kompozisiyasının arxasında hovuzların hamar səthləri fontan şırnaqlarının şaquli formaları ilə kontrast təşkil edirdi, daha sonra isə yay sarayı ucalırdı.

M.Əlixanov-Avarskiy yazır ki, "Bu binanın fontanlara istiqamətlənmiş qəşəng fasadı mənzərəli qalereyanı təşkil edir. Yüngül hörülmüş sütunların bir sırasınada zəngin karniz dayanır, o, çoxsaylı qatlardan ibarətdir ki, onlar yapma işi bəzəkləri ilə qarşıya çıxır. Pavilyonun fasadı iki tağlı pilləkənlə başa çatır ki, bu tağlar sütunlar sırası ətrafında yerləşir" (8, s. 165).

Həcmi-məkan həlli və memarlıq formalarına görə şəhərkənarı saray şəhər sarayı ilə tam ziddiyyət təşkil edir və özünün bədii xüsusiyyətlərinə malikdir. Sarayın mərkəzi hissəsində çarpazvari qəbul zalı yerləşir, yəni, baş meydandan zalın oxları ətrafında tağtavanlı dərin kaşılar yerləşdirilmişdir, onlar zahirən zalın məkanını böyüdür. Zalın mərkəzi hissəsini də sarımtıl rəngli mərmər hovuz yerləşir. İnteryer hovuzun künclərində qızılı sütunlarla tamamlanır. Bağa baxan taxçalar qalxan xırda rəngli şüşələrli məhəccər-şəbəkə ilə əhatələnib, gün şüaları zala daxil olaraq interyerdə qeyri-adi mənzərə yaradır. Zalın ortasında sarımtıl rəngli qəhveyi damarcıqlı hovuz yerləşirdi. Zalın interyeri hovuz künclərində yerləşən taxta tavanı saxlayan qızılı sütunlarla tamamlanırdı. Ağ saray üçün fon qismində çinar və müxtəlif Azər-bağın meyvə ağaclarından yaşıl divar çıxış edir.

Kiçik şəhərlər sırasında **Səbzavarı** (yaşıl şəhər) qeyd etmək lazımdır. Bu şəhər Cüveyn və ya Tabes dağlarının cənub yamacının ətəyindən 10-12 km aralıda



*Bücnurt. İqamətgahın planı və daxili görünüşü.*





yerləşir. Şəhərin şimal kənarından dağlara yaxınlıqda əkilmiş sahələr arasında çoxsaylı bağlar əkilmişdir ki, onlar dağlardan kəhrizlər və axar su vasitəsilə bol suvarılır.

Şəhərlə dağlar arasında bir neçə böyük kənd yerləşir, onlar adi halda yüksək gil-torpaq hasarlarla əhatə olunmuşdur. Qala divarlarından şimal-şərq tərəfdən çoxsaylı kərpic tikililərinin dağıntıları yerləşir. Bu dağıntılar böyük Səlcuqlar tərəfindən inşa edilmiş və dəfələrlə, sonuncu dəfə isə XVIII əsrdə əfqan ordusu tərəfindən dağıdılmış qədim Sabzavara məxsusdur.

Müasir Səbzavər XVIII-XIX əsrlərdə Əliyar xan Mazandaranskiy tərəfindən Fətəli xanın hakimiyyəti dövründə tikilmiş və bərkidilmişdir. Sultanabad şəhərinin təməlini qoymuş Fətəli şahla yanaşı yerli xanlar tərəfindən əfqan hücumu zaman dağılmış və atılmış şəhərlərlə yanaşı bir çox şəhər tikilmişdir. Yeni şəhərlər öz meydanlarının sahələrinə, memarlığına və tarixi irsinə görə köhnə şəhərlərdən geri qalırdı.

Yeni şəhərləri tikmək iqtisadi və şəhərsalma baxımından daha asan idi. Yeni şəhərin ərazisi düzbucaq ərazidə yerləşdirilir və qala divarları ilə əhatə olunaraq, künclərdə qüllələrlə möhkəmləndirilirdi, darvazalar qoyulurdu. Daxildən şəhər bir sıra düzbucaqlı kvartallara bölünürdü. Künclərdən birinin üzərində hökmdarın İçqalası tikilirdi. Bu cür planlaşdırma sistemi Sabazavarda olduğu kimi yeni şəhərlərdə də istifadə olunmuşdur.

*Bücnurt. Məscid.*





*Bücnurt. Məscidin ümumi görünüşü.*

N.V.Xanıkov 1858-ci ildə Sabazavarda olan zaman şəhəri bu cür təsvir etmişdir: "bizi qəsrdə yerləşdirdilər, bu qəsr kvartalını bütün tikililəri arasında aydın üstün vəziyyəti tuturdu. Onun üst terrasından çox gözəl mənzərə açılırdı. Şəhərin mərkəzində - qala və qəsr yerləşirdi. Bərkitmələrin xətti demək olar ki, dördbucaq formaya malikdir: şimal tərəfin uzunluğu 260 addım, şərq tərəfin isə - 211 addımdır. Şimala yönəlmiş divar kənarlarında qüllələrə malikdir, eyni məsafələrdə qalanın qərb və şərq tərəfləri bərkidilmişdir. Cənub tərəfə gəldikdə isə onun yalnız dörd yarım qülləsi vardır. Onların arasında orta hissədə giriş darvazaları ilə əzəmətli qüllə ucalır. Şəhər iki məhəlləyə bölünmüşdür, burada cəmi 400 ev var, ən çox əhalisi olan kvartal – cənub məhəlləsidir" (123, s. 112-133).

Şəhərin yerləşdiyi vadi gözəl iqlimə malikdir və təbii hüdudlarla müdafiə olunmuşdur. Onun sərhədlərinin üçdə bir hissəsi Adraskan çayı ilə əhatə olunmuşdur. Şəhərdən cənub tərəfə 4 km məsafədə qayalıq dağlar silsiləsi uzanır, burada Sənge Doxtər qalasının qalıqları mövcuddur. Üfüqdə yüksək dağ görünür ki, onun zirvəsində müqəddəs Məhəmməd Sərburidə (başı vurulmuş Məhəmməd) məzarı yerləşir, ərazi isə onun adı ilə adlandırılmışdır.

Şərqdən vadinin üzərində amfiteatr ilə üç dağ silsiləsi görünür. Şimalda bu aran ərazinin sərhədi qismində Adraskan sahilinin qayalıq dağlıq hissəsi çıxış edir. Qərb tərəfdən dağlar şəhərdən 14-15 km məsafədə uzaqdır. Vadi adətən Adraskan çayından suvarılır və əkilmiş sahələr və otlaqlar şəklində çıxış edir.

Düzbucaq formalı şəhər qərbdən şərqə 15 km uzunluqla, şimaldan cənuba isə 800 metr uzunluqla planda əks olunmuşdur. Qala divarları və qüllələr xam kərpicdən yığılmışdır, divarların oxları ilə böyük tağtavanlı darvazalar və ağır qapıları quraşdırılmışdır. Darvazaların adları aşağıdakı kimi idi: Şimal darvazası – Ərk, cənub darvazası – Təbriz, qərb darvazası - Nişapur, şərq darvazası – İrak.

1893-cü ildə şəhəri tədqiq etmiş A.F.Baumqartenin məlumatlarına əsasən burada 6000 ev var idi, onlardan 1500 atılmış, burada heç kim olmur. Qərb Nişapur darvazalarından şərq İrak darvazalarına qədər şimal darvazalarından şimal Təbriz darvazasına qədər şəhərin ərazisini dörd məhəlləyə bölürdü. Nişapur darvazasından İrak darvazasına qədər küçə əsas şəhər bazarı ilə tutulmuşdur. Beləliklə, 1,5 km boyunca bazar çoxsaylı piştaxtalar sistemi ilə tikilmişdir və işıqlı pəncərələri olan tağtavanlı dam ilə örtülmüşdür. "Burada bazarda açıq qapılarla müxtəlif ustalar işləyir; onlardan qırmızı misdən orijinal formalı qablar hazırlayan mis ustaları seçilir" (19, s. 13, 53).

Ticarət küçəsinin kəsişməsində şimal darvazasından cənub Təbriz darvazasına qədər böyük məscid Məscidi Cümə yerləşir. Alaqapı isə şəhərin şimal tərəfinə birləşirdi ki, burada hökmdarın sarayı, divan-xanə, həbsxana və digər müəssisələr yerləşirdi. Əsas bazardan əlavə şəhərdə kiçik bazarlar da var idi. Cəmi şəhərdə 800 piştaxta və səkkiz karvansara mövcud idi.

Karvansaralara gəldikdə isə, iki karvansara şəhərin şərq və qərb divarının yanında yerləşirdi, biri karvansara isə - cənub darvazasının yanında yer almışdır. Şəhər tikilisi arasında Məscidi Camidən başqa Pamunar məscidi qeyd olunurdu. Kiçik və ya kvartal məscidlərinin sayı altıya çatırdı, ziyarətgahlar isə dörd idi. Baxmayaraq ki, Sabzavar kiçik sahəyə malik idi, onun mütəşəkkil planlaşdırması, inkişaf etmiş ticarət mərkəzi, gözəl dini tikililəri onu İranın əhəmiyyətli kiçik şəhərləri sırasına daxil edirdi.

**Tabes** şəhərinin əhalisi 8.000 – 10.000 nəfər təşkil edir (1893-cü ilin məlumatları). Yaşayış evlərinin sayı 1500-ə çatır, İceqerd-kuxa sisteminin cənub hissəsinin cənub-qərb yamacının ətəyindən 15 km məsafədə yerləşir. Sonra isə İranın səhralıq hissəsi başlanır. Şəhər və onun ətrafı yaşıllıqda itir, bağlar, idi sahələri qərbdən şərqə 2 km, şimaldan cənuba isə 1 km uzunluğunda yerləşir (252, s. 292-304).

Ölkənin əksər şəhərləri kimi Tabes qala divarları ilə əhatə olunmuşdur, alaqapıya malik idi ki, o, XIX – XX əsrlərdə tam dağılmış vəziyyətdə idi. Burada maraqlı planlaşdırma strukturu yaranmışdır. Kiçik bazar meydanının ətrafında Meydane-dan şəhər ustaları və kasıb əhalinin yaşayış yerləri, bağlarda isə əhalinin imkanlı qatlarının bahalı evləri yerləşmişdir. Evlər bağlarda yerləşməklə yanaşı badgirlərlə (külək qəbulediciləri) və həddindən artıq istilərdən qorunmaq üçün yaxşı işıqlandırılan zirzəmilərlə təchiz olunmuşdur.

Şəhərin su təchizatı İceqerd-kux dağlarından bir neçə kəhriz vasitəsilə həyata keçirilirdi İki-üç kəhriz istisna olmaqla, bütün kəhrizlər öz suyunu şəhərin şərq başlığında yerləşən 5,4 ha sahəsi olan Baği-Gülşən bağına boşaldırdı. Baş vakfın mülkiyyəti idi, üzüm bağlarından və iydə ağaclarından ibarət idi. 1893-cü ildə Baumqarten başa gələrkən şəhər kənarı iki mərtəbəli saray boş idi. Kəhrizlərin suyu hovuza yığılırdı, sarayın altı ilə keçib, səthə çıxaraq, Xiyabanın iki dərin kanalına tökülürdü. Şəhər əhalisi üçün içməli su üç dərin ab-anbarda saxlanılırdı. Onlardan böyüyü Xiyabanda yerləşir, digər ikisi isə meydanda və bazarda yer almışdır. Şəhərdə iki məscid var idi. İmamzadə Yafir məscidi (şəhərdən kənarda yerləşmişdir), bir neçə hamam və 120 piştaxta bazarda yerləşirdi.

Şəhərin strukturunda yaşayış evlərinin bağların ətrafında yerləşməsinin xüsusiyyətlərini, badgirlərin və aydın zirzəmilərin olmasını qeyd etmək lazımdır. Yaşayış evlərinin həcmi-məkan strukturu memarlıq həcmlərinin çox mənzərəli strukturunu yaradır. Şəhərin yaşayış evinin memarlıq sənətinin ən yüksək təzahürü xan sarayı idi, onun təsvirini bizə Baumqarten qoymuşdur: "Xan sarayı geniş bağda yerləşmişdir, həddindən artıq diqqətsiz buraxılmış yollar dələlət edirdi ki, hökmdar öz iqamətgahı ilə qəti məşğul olmur. Bir neçə tikili (iki ikimərtəbəli) bağın müxtəlif yerlərində tikilmişdir. Xüsusilə də biri qeyd olunurdu, uzununa xarici divarın yerinə böyük ağır pərdə çəkilmişdir, onu qaldıran zaman qarşımızda teatr səhnəsində olduğu kimi böyük zal açıldı. Onun divarları bütöv güzgülərdən ibarət idi, tavanda üç çilçıraq asılmışdır, onlar cilalanmış şüşədən zəncirlərlə bəzədilmişdir. Döşəmə bütöv bahalı xalça ilə döşənmişdir. Bu yalnız təntənəli hallarda açılırdı. Deyilənlərə görə bu fikir xana, 15.000 tümənə başa gəlmişdir, bu da rus pulu ilə tikinti dövründə 50.000 rubl təşkil edirdi. Hazırda bunlar hamısı xanın xəstəliyi ilə əlaqədar olaraq tam düşkünlüyə uğramışdır" (19, s. 13, 53).

**Sultanabad** şəhəri Fətəli şah tərəfindən tikilmişdir, lakin, onun tam formalaşması Nəsrəddin şahın dövründə (1848-1896) baş vermişdir. Lakin, Məhəmməd şahın dövründə (1834-1848) əsas dini tikililər inşa edilmişdir, su təchizatı təmin olunmuş və qala divarları tikilmişdir.

Şəhər Sultaniyə ilə yanaşı salınmışdır. Burada əhəmiyyətli mədəniyyət abidələri tikilmişdir, o cümlədən, məşhur Olcaytu Xudavəndə məqbərəsi də burada yerləşirdi. Fətəli şahın dövründə buradan yeni şəhərin tikintisi üçün tikinti materialını daşıyırdılar. Yeni şəhər

memarlıq baxımından elə də yüksək səviyyəli alınmadı, lakin, Sultaniyəyə əhəmiyyətli zərbə vurulmuşdur.

Sultanabad şəhəri və ya Şehr-Nov (Yeni şəhər) tamamilə düzəngah ərazidə, Abi Rudab çayının sağ tərəfində, ondan 640 km məsafədə düzbucaq şəklində yerləşmişdir. Çiy kərpicdən hündür divarlara malik idi. Böyük və kiçik fasadlı künc qüllələri xəndəklə əhatə olunmuş şəhər divarlarının konturunu birləşdirir (SSRİ MDHTA, f.446, d.146).

Şəhərin ən çox uzunluğu cənub-qərbdən şimal-şərqə 740 metr, eni isə cənub-şərqdən şimal-qərbə 640 metr təşkil edir. Şəhərin küçələri düzbucaq sistemi ilə kvartallara bölünmüşdür, lakin, müxtəlif parametrlərə və sahələrə malikdir. Bütün küçələr qala divarlarının yanında başa çatırdı. İki mərkəzi geniş küçə düz bucaq altında kəsişərək, şəhəri dörd eyni hissəyə bölür. Bu küçələrin kəsişmə yerində ticarət mərkəzi yerləşmişdir, bu mərkəz küçələr boyu bir darvazadan digər darvazaya qədər uzanır. Şəhərin bu cür planlaşdırma sxemi yeni hal deyildir və İranın şəhərsalma fəaliyyətində tətbiq olunurdu.

Bu səbəbdən Sultanabadın planlaşdırması tam qanunauyğun haldır. Bu cür planlama prinsiplərinə bağların salınması zaman ki riayət olunur, ərazilər dəqiq mütəmadi şəbəkələrə bölünür.

Əgər İranın qədim köhnə şəhərləri planlaşdırmanın müəyyən qeyri-mütəmadi səciyyəsinə malikdirsə, bu planlama sosial-iqtisadi və siyasi hadisələrin təsiri altında yaranmışdırsa, ilkin olaraq onlar mütəşəkkil tikiliyə malik idi.

Sultanabadın düzbucaq planlaşdırma strukturuna şimal-qərb küncündə şəhərdən şəxsi divarı ilə hasarlanmış Alaqapı yerləşdirilmişdir. Alaqapı ölkənin demək olar ki, bütün şəhərlərinin ayrılmaz hissəsidir, onun yerləşməsi ərazinin strateji xüsusiyyətlərindən asılıdır. Alaqapı şəhərə münasibətdə əsas mövqeni tutur ki, şəhər və ətraf ərazinin əhalisini tabeçilikdə saxlamaq mümkün olsun.

1851-ci ildə polis baxımından şəhər dairələrə (hissələrə) bölünürdü: şərq – Küçə-bağ (dex) və qərb – Xassar. Şəhərdə bu dövrdə 2000-ə qədər ev mövcud idi, əhalinin sayı 6000 nəfərə çatırdı, XX əsrin əvvəlində isə 5000 sakin vardır.

Şəhər darvazası beş idi – dörd darvaza bilavasitə şəhərə aparırdı, beşinci isə - Alaqapıya. Darvazalar aşağıdakılardır: 1. Kəblə darvazası – Bürücirdə və Gülpayqana gedən karvan yollarında, 2. Xamadan darvazası – xamadana və birbaşa Tehrana gedən karvan yolunda, 3. Rozun darvazası – Quşr və Rozuna gedən karvan yolunda, 4. Şer-Qird darvazası – Gülpayqana və İsfahana gedən karvan yolunun üzərində.

Şəhər faktiki olaraq iki hissədən ibarət idi: alaqapı və şəhər özü. Alaqapıda bütün dövlət müəssisələri və hökmdarın sarayı yerləşmişdir, onlar şəhərin və ətraf ərazilərin bütün işlərini idarə edirdi: 1. Ayna xana, 2. Bürc (qüllə) Küləgi frengi, 3. Əndərune-Əmir, 4. Hovuz-xana, 5. Divan-xana, 6. Talar-Kerna xana, 7. Vəzir xana, 8. Məşhədi Ərk, 9. Ser-Tavile, 10. Darvaza.

Şəhərdə doqquz məscid vardır: Məscidi Kərbəlayi, məscidi molla Məhəmməd Sadıq, məscidi Molla Hüseyn, məscidi Ammu-Bin, məscidi Seneqar, məscidi Molla Hüseyn Əli Sultan, məscidi Axund Şəms Əli, məscidi məhəllə (dehi Suza bağ), məscidi Kəblə. Məscidlərin yanında hamamlar yerləşirdi, onların sayı səkkizə bərabər idi.

Məscid və hamam, iki mülki tikili kiçik məhəllənin ictimai mərkəzini təşkil edirdi, yaşayış tikililərini vahid orqanizmə birləşdirirdi. Şəhər magistrallarının kəsişmə yerində şəhər miqyaslı bütün ictimai tikililər müəyyən olun-

muşdur: məscidlər, hamamlar, karvansaralar, çeşmələr, eləcə də boyaxanalar. Burada Hacı Əlixan, Mirzə-Səmi, Hacı Seyid Əhməd karvansaraları yerləşirdi. İctimai tikililərin, xüsusilə də hamamların əksəriyyəti hətta kiçik şəhərlərdə Şərq və İran şəhərlərinin tikintisi üçün səciyyəvi xüsusiyyətdir.

Sultanabadın şəhər divarlarının hüdudlarından kənarda yaxçalar (buzlaq – su anbarları), kürələr (yandırma sobaları), Qala Səlim xarabaları (dağıntılar), deqi (kənd) Taramiz, xaraba Şəhər Destaqird (Destaqird şəhərinin dağıntıları), Cəfər xana karvansarası, qəbiristan, yeraltı su kəmərləri yerləşirdi. Bu su kəmərləri şəhəri içməli və məişət suyu ilə təmin edirdi. Həmçinin burdan Rudab çayı axırdı.

"Sultanabad şəhərinin dəqiq planı tor və ölçü addımları, topoqraflar korpusu vasitəsilə Qərargah kapitanı və praporşik Oqranoviç tərəfindən 1851-ci ildə Baş Qərargahın Polkovniki Çirikovun rəhbərliyi altında çəkilmişdir" (SSRİ MDHTA, f.446, d.146). Bu plan tərəfimizdən şəhərsalma sənədi qismində istifadə olunmuşdur, şəhərin Məhəmməd şah və sonradan Nəsrəddin şah dövründə formalaşdığı zaman planlaşdırma strukturunu fiksasiya edir.

İ.N. Beryozin bu yerlərdə olmuşdur, bu zaman içqala hələ tikilməmişdir, onun yalnız əsası qoyulmuşdur, qala divarı olmayan şəhər isə düzbucaq planlaşdırması olmadan formalaşma mərhələsində idi. O, qeyd edir ki, burada Fətəli şah tərəfindən tikilmiş gözəl şah sarayı ucalır. Saray süni yaradılmış təpənin üzərində inşa olunmuşdur və bütün saray tikililərində olduğu kimi bir qrup binadan ibarətdir.

1851-ci ilin planını təhlil etdikdə və sarayın Beryozin tərəfindən təsvirini nəzərdən keçirdikdə görmək olur ki, bütün kompleks yeni inşaat işləri nəticəsində meydana gəlmiş sonrakı tikililərlə birlikdə Ərakın tikinti sahəsinə daxil olmuşdur. Zəncan yoluna baxan fasadla birlikdə sarayın mövqeyi belədir: Altda iri dördkünc hovuz; 10 sajin (21,34 metr) hündürlükdə artıq malası tökülmüş qızılı pərvazlı divan-xana. Pərvazlar zalın yan tərəflərində, dəhliz boyunca və içərisində buxarı olan kiçik otaqdadır. Qəbul zalından yuxarıda isə "xəlvəti" adlanan padşah otağı yerləşir. Divarlar fars rəngkarlığının nümunələri ilə bəzədilmişdir. Otağın yuxarı hissəsində, buxarının üstündə vəliəhdlər: Abbas Mirzə, Məhəmməd Əli Mirzə, Hüseyn Əli Mirzə, Məhəmməd Nağı Mirzə və Əlişahın şəkilləri təsvir olunub. Sol tərəfdə Hüseyn Mirzə, Həsən Əli Mirzə, Məhəmmədvəli Mirzə, Əli Nağı Mirzə və Şeyx Əli Mirzənin təsviri vardır. Xəlvətinin yan tərəflərində buxarılı otaqlar yerləşir. Əndərunlu sadə xəlvət otaqlarının kifayət qədər uzun sırası bürcdən, "küləfirəngi" adlandırılan belvederdən və şah arvadlarının hərəmindən ibarətdir. Bürc sadə otaqlı kiçik dairəvi qüllədir. Buradan Zəncan yoluna uzaq və gözəl mənzərə açılır. Bu qüllə sarayın sol küncündə yerləşir, onun ortasında isə "küləfirəngi"- avropasayağı şapka ucalır. Farslar onu belə adlandırırlar. Çünki, onların fikrincə, qüllə Avropa şlyapasına bənzəyir. Onu əksər saraylarda görmək olar. Sultanabadda isə o sarayın ən yaxşı binasıdır (23, s. 17, 114).

Qeyd etmək lazımdır ki, Sultanabadın ipək xalçaları bütün İranda məşhurdur. Bu xalçalar təkcə şəhərin özündə deyil, həm də başqa ətraf kəndlərdə də istehsal olunur.

**Gülpayaqan şəhəri** İranın adi yaşayış məntəqələrindən biridir. Ovalıq ərazidə Gülpayaqan çayının qərb sahilindən 1200 metr aralıda yerləşir. Hərənk adlı dağ çayı

şəhərin cənub və şərq sərhədləri boyunca axaraq Əbu Hünsar çayına tökülür. Bu o deməkdir ki, şəhər su və bağ-bağatla zəngindir. Şəhər İranın bir çox şəhərləri, məsələn, Ərak və s. kimi iki hissədən ibarətdir (SSRİ MDHTA, f. 446/1850-ci il).

Şəhər hamar, düz yerdə qərarlaşsa da öz planlaşdırma strukturu baxımından qeyri-mütəşəkkilliyi ilə seçilir. Şəhər divarlarının konturu bir qədər dolaşıqdır. Ərk şəhərə şimal-qərb tərəfdən bitişir. Ərakın planlaşdırılması da bu cür qeyri-mütəşəkkildir. O sanki, şəhər küçəsinin davamı kimi şimal-qərb istiqamətində uzanır və Ərkə tərəf meyl edir.

Şəhərdə ya əfqan işğalından, ya da Babilər üsyanından qalmış xeyli sayda xarabalıq mövcuddur. Bununla belə ictimai və mülki tikililərin sayı 21-ə çatır. Bunlardan altı məscid (Qala Ərk məscidi, İmamzadə məscidi, Şeyxzadə, Şeyx Sadıq, Donim məscidi).

Minarə (tərpənən minarə) məscidinin qalıqları, İmamzadə məscidinin xarabazarlığı, Həbdətan xaraba məscidi; iki mədrəsə (Şah-mədrəsə və Əli Müctəhid Xan). Buzur bazarı, yəni böyük bazar adlanan bir bazar var. Dükanların sayı isə 150-yə qədərdir. 8 ədəd ictimai hamam vardır. Bunlardan ən yaxşıları: Ərak qala hamamı, Tarla hamamı, Mədrəsə hamamı, Kətxuda hamamı, İmarət hamamı, Şahzadə, Xanlar Mirz (qubernator) hamamıdır. Bunlar Ərakda yerləşirdilər. Həmçinin Mirzə Zəkinin evi seçilirdi (MDHTA SSRİ, f.446).

Şəhərdə əhəmiyyətli sayıla biləcək ictimai və ya ticarət mərkəzi yox idi. Bazar, karvansara və bəzi hamamlar Əraka yaxın ərazilərdə cəmləşmişdir. Sultanabadda olduğu kimi şəhərin xarici aləmə çıxışını beş darvaza təmin edirdi: Burucerd darvazası, Şəhri Nov darvazası, Hunsar darvazası, Ağa darvazası, Qala-Arx darvazası.

**Müasir Xürrəmabad** qədim şəhərin qalıqları üzərində, pişekutlar adlanan Fili və Mali xalqlarını idarə edən Xürrəm şahın keçmiş paytaxtının xarabalıqları üzərində inşa olunmuşdur (SSRİ MDHTA, f.446, d.158) (1850-ci il). Şəhər Kərx çayının qollarından biri olan Xürrəmabad çayının sağ sahilində, Səfir-Kuh dağının ətəyində mövqe tutur və iki hissədən: Qəsrli qaladan və bağ-bağçalı şəhərdən ibarətdir.

Qeyri-düzgün çoxbucaqlı formasında olan və divarın ön tərəfi və künclərində ucaldılmış 14 qüllədən ibarət qala ərazidə çox gözəl mövqe tutmuşdur. Qalanın cənub-şərq hissəsindəki divarlar öz konturu üzrə çayın sahil zolağı ilə eyni istiqamətdə uzanır. Bu çay həmin müdafiə zonasında təbii xəndək rolunu oynayır. Qalanın şimal-qərb hissəsi şəhərə tərəf baxır. Qalanın üç qapısı var: şəhərlə əlaqəsi olan Darvazeyi şəhr (şəhər qapıları), qala divarlarının şimalında çayın əks istiqaməti ilə əlaqə saxlayan Darvazeyi-Pul (körpü qapıları) və arxasında gözəl bağlar yerləşmiş çaya tərəf açılan Darvazeyi-Qala (qala qapıları).

Xürrəmabad qalası sahəsinə görə genişdir, şimaldan cənuba doğru 362 metr, qərbdən şərqə doğru 304 metr və ya 10 hektar sahəyə malikdir, Bakı İçərişəhər qalasının (21 hektar) yarısı qədər olan bir sahəni əhatə edir. Onun ərazisində əhəmiyyətinə və xronoloji əlamətlərinə görə müxtəlif olan üç şəhərsalma elementi birləşdirilmişdir: səkkizguşəli, düzgün olmayan dördbucaqlı şəklində Qala qədimi (Qədim qəsr). Yəqin ki, bu qəsr qədim şəhərin özəyi olmuş və şəhərin ətəyində yerləşdirilmişdir.

Şərq və Qərbin şəhərsalmasında şəhərlərin qəsrlərin bazasında yaranıb inkişaf etməsini, qədim özəyin isə öz əvvəlki mövqeyini itirərək tarixi və memarlıq irsi olaraq qalması nümunələrini müşahidə

etmək mümkündür. "Qala qədimi" də istisna deyildir. Burada qədim qalanın, həbsxana və başqa binaların xarabalıqları qalmışdır. Qəsrin üç qapısı var. Şəhərin şimal-şərqində qalanın qalan hissəsindən divar ilə ayrılmış müasir Şahzadə sarayı (imarəti) yerləşdirilmişdir. Bu ərazidə saraydan əlavə müxtəlif tikililər, bağlarla əhatə olunmuş və sakinlər tərəfindən tərk edilmiş qəsr durur.

Topoqraflar korpusunun Ştabs-kapitanı Proskuryakov və I dərəcəli topoqraf Oqranoviç tərəfindən Baş Qərargahın polkovniki Çirikovun rəhbərliyi altında cədvəl (şəbəkə) vasitəsi ilə çəkilmiş və əsası təkrar addımlarla ölçülüb təyin edilmiş Xürrəmabad şəhərinin ətraflı planında Cümə məscidi, Minarə məscidi xarabalıqları (titrəyən minarə), İmamzadə Zebdatan məscidi xarabalıqları, xarabaye məscid (məscidin xarabalıqları); iki məktəb var idi (Şah mədrəsə və mədrəsə), Buzurq xanlarının ən yaxşıları olan iki karvansara (Dənsur xan, Əsəd Əli Müştəhid xan) var idi. Buzur bazarı, yəni böyük bazar adlanan bir bazar var. Dükanların sayı isə 150-yə qədərdir. 8 ədəd ictimai hamam vardır. Bunlardan ən yaxşıları: Ərk qala qala hamamı, Tarla hamamı, Mədrəsə hamamı, Kətxuda hamamı,

*Hürrəmabad əyaləti.*





*Hürrəmabad əyaləti. Fələk-əl-əflak qəsri.*

İmarət hamamı, Şahzadə Xanlar Mirzə (qubernator) hamamıdır. Bunlar Ərkdə yerləşirdi. Həmçinin Mirzə-Zəkinin evi seçilirdi.

1850-ci ildə şəhərin XIX əsrin ortalarına aid əsas planını nəzərdən keçirmək mümkün olmuşdur. Şəhər divarlarla əhatə olunmuşdu və iki darvazaya - Kirmanşah şəhərinə gedən karvan yolunun üstündəki Darvazeye Gird (gird darvazası) və Disful şəhərinə aparan karvan yolundakı Darvazeye Xuz (Xuz darvazası) malik idi.

Planlaşdırma quruluşuna görə müəyyənləşdirmək olur ki, ilkin olaraq şəhərin ərazisi Qaladan qərb tərəfə xırda məhəllələr və əyri-üyrü küçələrin hesabına inkişaf edirdi. Sonralar şəhər şimal-qərb istiqamətində böyüməyə başlamışdır. Burada məhəllələr daha geniş, küçələr isə səliqəli tikilmişdir. Lakin şəhərdə əhəmiyyətli sayıla biləcək ticarət mərkəzi yox idi, az sayda dini və ictimai binalar isə əsasən şəhərin şimal hissəsində cəmləşmişdi. Şəhərdə cəmi 1200 nəfər əhalinin yaşadığı 325 yaşayış evi (1850-ci ilin rəqəmləri) var idi. Xarabalıqlarla yanaşı burada üzərində yazılar olan qədim daş parçaları tapılırdı. Burucird şəhərinə gedən karvan yolunda, Xürrəmabad çayının üzərində yerləşən, 15 böyük və 29 kiçik tağdan ibarət Puli nov (yeni körpü) maraqlıdır. Şəhər bağlarla əhatə olunmuşdur. Yaxınlıqda Şahabadın xarabalıqları, qədim Xürrəmşah şəhərinin yerindəki xarabazarlıq, qüllə, məscid, minarə və İmam zadə və s. qalıqları var idi.

# FƏSİL 7.

# DƏNİZ SAHİLİNDƏKİ ŞƏHƏRLƏR

İran şimal tərəfdən mərkəzi hissədə Xəzər dənizinin, cənubda isə Fars körfəzinin dalğaları ilə yuyulur. İran ərazisinin böyük bir hissəsi dənizlə əlaqədə olsa da liman şəhərləri bir o qədər inkişaf etməmişdir.

Şərq və qərb ölkələri ilə qızğın ticarətin aparıldığı quru karvan yolları dəniz ticarətinin canlanmasına və limanların yaradılmasına mane olurdu. Osmanlı imperiyasının karvan yollarını kəsməsi və Avropa ilə olan əlaqənin çətinləşməsi limanların yaradılmasını zərurətə çevirirdi. Bu da öz növbəsində liman şəhərlərinin tikilməsi ilə nəticələnirdi.

XX yüzilliyin əvvəllərində Fars körfəzinin sahillərində Masşur, Gindian, Bəndər-Deylim, Bəndər-Rikq, Bəndər-Buşir, Dəyər-Minqəx və Bəndər-Abbas kimi limanlar var idi. Bunlar nə ticarət, nə də hərbi əhəmiyyətə malik deyildi. Çünki quru yollarla ölkənin mərkəzi şəhərləri ilə əlaqələndirilməmişdilər (75, s.113). Limanlarla iri yaşayış məntəqələrini birləşdirən yol şəbəkəsinin olmaması bu təbii liman şəhərlərini perspektivdən məhrum qoyur və onlarla İranın daxili əyalətləri arasındakı əmtəə mübadiləsinin inkişafını mümkünsüz edirdi. Təkcə Bəndər Buşir və Bəndər Abbas digər limanlarla müqayisədə qismən inkişaf etmiş və İranın Avropa, Hindistan və Çinlə dəniz ticarətində müəyyən dərəcədə əhəmiyyət daşıyırdılar-(185, s.33-47).

**Bəndər-Buşirin** əsası bu liman vasitəsilə Qərbi Avropa ölkələri ilə sıx əlaqə yaratmağa çalışan Nadir şah tərəfindən 1736-1747-ci illərdə qoyulmuşdur. İngilis tacirləri ilə yaxınlıq edən Nadir şah "Rusiya" ingilis ticarət şirkətinin İrandan Rusiya ərazisindən keçirilərək Qərbi Avropaya aparılan bütün malları öz əlinə keçirməsi cəhdlərinə himayədarlıq edirdi (SSRİ MDVTA, f. 446, d. 129, 1850-ci il).

"Rəştdə ingilis ticarət faktoriyalarının əsası qoyulmuşdu". Nadir şahın hərbi yürüşləri onu Bəndər-Buşirdə topqayırma zavodu, Amul şəhəri yaxınlığındakı Mazandaranda isə top güllələri düzəldən dəmirqayırma zavodu tikdirməyə məcbur etdi (86, s. 366; 87, s. 339). Bəndər-Buşir ovalıq yarımadanın şimal qurtaracağında 21 km uzunluqda və 6,5 km enində yerləşmişdir. Axınlar zamanı yarımada tez-tez adaya çevrilirdi. Ovalığın sahil burnu şəhərdən şimala doğru bir neçə km uzanır.

Bəndər-Buşir buxtası dayazdır, su çəkilməsi zamanı 30 sm-ə qədər çatır və bu da limana böyük dəniz gəmilərinin yaxınlaşmasına mane olurdu. Gəmilər yalnız sahildən 6-9,5 km aralıda, dərinliyin 3,7 metrə çatdığı yerdə dayana bilirdi.

Buna baxmayaraq, limanın coğrafi mövqeyi və ölkənin daxili vilayətləri ilə əlaqəsi Bəndər-Buşiri Cənubi İranda mühüm ticarət məntəqəsinə çevirmişdir. Burada Çaxbar daxil olmaqla Fars körfəzinin və Hind okeanının bütün sahil xəttinin qubernator iqamətgahları, həmçinin böyük Avropa dövlətlərinin səfirlikləri də yerləşirdi. Buşirdə yalnız ingilislər hakim mövqeyə malik idi.



*Ənzəli. Xəzər dənizinin sahilində.*

Bizim sərəncamımızda "1850-ci ilə aid Bəndər-Buşir şəhərinin topoqraflar korpusunun Ştabs-kapitanı Proskuryakov tərəfindən Baş Qərargah polkovniki I Çirikovun rəhbərliyi altında şəbəkə vasitəsi ilə çəkilmiş və təkrar addımlarla ölçülmələrə əsaslanan ətraflı planı" var (139, f.446, d.129).

Planda Nadir şahın əsrindən nələrin qalmasını demək çətindir, lakin 1850-ci ilin planında Bəndər-Buşirin tikilmə əsasını təşkil edən İranın şəhərsalma xüsusiyyətləri açılır. Şəhərin üçbucaqlı formasında olan planı dəniz tərəf istisna olunmaqla yanmamış kərpicdən tikilmiş qala divarları ilə dövrələnmişdir. Dəniz tərəfi isə sahil batareyaları və Ərk tərəfdən gücləndirilmişdir.

Ərkin şəhərin qala divarları sistemində küncvari vəziyyəti İran şəhərsalması üçün səciyyəvidir. Müxtəlif miqyaslı məhəllələrdən ibarət şəhər küçələri şəbəkəsi ticarət sıraları və sənətkarlıq emalatxanaları olan sahil xəttinə doğru uzanırdı.

10000 əhalisi olan şəhər 6 məhəlləyə bölünmüşdür. Məhəllələrin mərkəzini şəhərin plan quruluşunda əsas istiqamətləri vahid sistemdə birləşdirən 4 əsas bazar-çarşı müəyyənləşdirirdi.

Şəhərin dəniz kənarında yerləşməsi, Ərkin olması şəhər mərkəzinin fərdi şəkildə həll edilməsinin əsasını təşkil edirdi. O, Şərq məhəllələrinin mərkəzində çarşı şəklində başlayaraq 500 metr uzunluğunda qala divarlarına paralel və dənizə tərəf perpendikulyar idi. Çarşının ikinci hissəsi Ərkin divarlarına qədər çatırdı, lakin sahil boyu 700 metrə qədər sahədə yerləşdirilmiş çarşılarla birləşirdi. Ərk şəhərin bu iri miqyaslı ticarət mərkəzinin təşkiledici elementi idi.

Şəhərin dəniz kənarında olması bu istiqamətdə ticarət və işgüzar mərkəzin inkişafını tələb edirdi. Şəhərin əsas çarşılarının strukturuna daxil olan karvansaralar, xanə, gömrükxana və başqa qurğular məhz burada yerləşdirilmişdi. Şəhərin plan quruluşundakı şəhərsalma elementləri və dini binalar mərkəz və əsas çarşı şəklində öz memarlıq məzmunu ilə Bəndər-Buşirin sxemini müəyyənləşdirirdi.

Fars körfəzinin cənub-şərq hissəsində yerləşən **Bəndər-Abbas** şəhəri vaxtilə İranın ən mühüm tərsanələrindən sayılır-

dı və onun əsası XVII əsrin əvvəllərində Şah Abbas tərəfindən qoyulmuşdur. Şəhər sahildən 3,5 km aralıda lövbər dayanacağına malik idi. Ölkə daxilində Kirman, Yəzd kimi şəhərlərlə əlaqə yükdaşıyan heyvanlar vasitəsilə həyata keçirilirdi, bu da İranın bu hissəsinin şimalla müntəzəm ticarət əlaqələrini aparmasına mane olurdu.

1678 və 1712-ci illərin qravyuralarında şəhərin dənizdən ümumi görünüşü göstərir ki, Bəndər-Abbas istehkam qurğularına, cinahlarda aralı duran sıx məhəllələrə və işlək, gediş-gəlişli limanlara malik idi. Sahil tərəfdən şəhər Bəndəri-Buşirdə olduğu kimi bütünlüklə açıq idi, qala silahları batereyalarının qorunması altında müdafiə divarlarına malik idi.

Bəndər-Buşirin əsası Nadir şah tərəfindən Fars körfəzinin daha münasib yerində qoyulmasaydı, İranın şərq və qərblə ticarət əlaqələri üçün Bəndər-Abbasın əhəmiyyəti nəinki qalardı, eyni zamanda daha da inkişaf edərdi.

İqtisadi cəhətdən zəif olan ölkə Fars körfəzinin iki nöqtəsində ticarət və hərbi əhəmiyyətə malik olan və rəqabət aparan iki şəhər saxlaya bilməzdi.

Bəndər-Abbas öz yerini ticarətdə daha perspektiv olan şəhərə verməli oldu. "Fars körfəzi şəhərlərinə Qarun və Şatəl-ərəb çaylarını birləşdirən Xəfər kanalında yerləşən Mohəmmər şəhərini də aid etmək olar. Mohəmmər dəniz gəmiləri üçün rahat və təhlükəsiz dayanacaq idi. O, Qarun çayı vasitəsilə Şüştər şəhəri ilə birləşir". Mohəmmər şəhərinin dəniz kənarında olan hissəsi qismən yaşıllaşdırılmış və burada ikimərtəbəli binalar və birmərtəbəli ticarət sıraları yerləşdirilmişdir (75, s. 119).

İranın şimalında, Xəzər dənizinin cənub-qərb küncündə İranla Rusiya arasında ticarəti həyata keçirən **Ənzəli şəhəri** yerləşir. Fars körfəzinin digər limanları kimi bu şəhər də dəniz gəmilərini dərin suya oturma ilə qəbul edə bilmir. Gəmilər sahildən 3km aralı lövbər ataraq dayanırlar.

XX əsrin əvvəllərində Ənzəlidə 5000-ə qədər əhali və 1000 həyət var idi. Şəhər açıq üslubludur, onun qala divarları və istehkamları yoxdur. Şəhərdəki bir-ikimərtəbəli evlər yaşıllıqlar içərisində itib- batmışdır. Şəhər abaddır, lakin burada 1870-ci illərdə tikilmiş və əsrin əvvəllərində pis hala düşmüş çəhrayı rəngli səkkizguşəli saraydan başqa abidə yoxdur. "Sahildə geniş şəkildə yayılmış kölgəli bağların arasından orijinal formalı, yapma naxışlarla bəzədilmiş divarları və hər mərtəbə ətrafında bütöv balkonları olan qüllə ucalır. Nəsrəddin Şahın Avropaya ilk səyahəti zamanı tikilmiş qüllə öz təmtəraqlı daxili tərtibatı ilə fərqlənirdi, lakin indiki tamamilə boş otaqlardan, uçulmuş bankonların və divarların xarici tərtibatının acınacaqlı qalıqlarından ibarətdir. (93, s.4)

İranın ən qədim şəhərlərindən biri olan **Həmədanın və yaxud qədim Ekbatanın** əsası Herodota görə e. ə. VII əsrdə əfsanəvi Midiya çarı Deyok tərəfindən qoyulmuşdur. "Tarixin atası"nın təsvir etdiyi kimi şəhər konsentrik dairələrdən ibarət idi, bürc təbii ki, mərkəz rolunu oynayırdı (31, s. 13)

E.ə. 550-ci ildə Midiya dövləti süquta uğradı, Midiya çarı Axemenidin keçmiş vassalları hakimiyyəti öz əllərinə aldılar. Yaxşı möhkəmləndirilmiş şəhər-qala, gözəl iqlimə malik, dəniz səviyyəsindən 1800 metr yuxarıda yerləşən Ekbatan Əhəmənilərin yay iqamətgahına çevrildi. Makedoniyalı İsgəndərdən sonra Selevkidlər dövründə şəhər mühüm və yaxşı möhkəmləndirilmiş məntəqə kimi öz böyük əhəmiyyətini saxlamaqda davam edirdi, lakin Ekbatan nə Parfiya, nə də Sasanilər dövründə paytaxta çevrilmədi.


ПОДРОБНЫЙ П
Г. ХАМАД
снятый, посредствомъ сѣтки и основанія вы
ИЗЪЯСНЕНІЕ ЗНАКОВЪ:
ОПИСАНІЕ ПЛАНА

Öz tarixinin sonrakı dövrlərində o, ticarət-sənaye baxımından əhəmiyyətli məntəqə olaraq qalırdı. XIX-XX əsrlərin qovşağında "onun əsas təyinatı yerli məhsulların istehsalında deyil, Bəsrə və Bağdaddan gətirilən və yaxud ingilis-hind istehsalı olan malların bölüşdürülməsində idi. Beləliklə, bu malların bölüşdürülməsi rolunda çıxış edən Həmədan onları Şimala iki yolla, məhz Azərbaycanda Souçbulağa və Tehrana göndərirdi (19, s. 14).

Türk rəssamı, memarı Nasuhi Mətrəkçi Sultan Süleymanı (Böyük Qanuni) iki dəfə İrana yürüşündə müşayiət etmiş və bir çox şəhərlərin, o cümlədən Həmədanın şəklini çəkmişdir.

Nasuhi Mətrəkçi öz miniatüründə divarla birləşdirilmiş iki müstəqil qaladan ibarət Həmədan şəhərini ilk dəfə təsvir etmişdir. Hər iki qala düzbucaqlı səciyyəli ciddi həndəsi formada təqdim olunmuşdur. Sahəsinə görə böyük olan qala üzərindən çox əyri, bükük formalı körpülər salınmış çayın aşağı sahilində yerləşdirilmişdir. Çayın qolu girintili-çıxıntılı zolaq şəklində qala divarlarından keçir.

Qala divarlarının dördbucaqlı künc hissəsində yüksək çadır üslublu örtüyə malik döyüş qüllələri yerləşdirilmişdir. Qala perimetr üzrə istehkamlarla qorunur. Bir-birinə əks iki divarda ox üzrə, lakin planlaşmaya görə əlaqəli olmayan qala qapıları yerləşdirilmişdir. Qalanın kompakt ərazisində ön planda iki dini tikili: sağ tərəfdə bir qülləli, sol tərəfdə isə Səfəvi naxışlı iki qülləli məscid göstərilmişdir. Binaların küncləri İstanbul üslublu ikiyaruslu minarələr ilə birlikdə yerli memarlıq ənənələri üçün səciyyəvi deyildir.

Qalanın yuxarı sağ küncündə ortasında iç qala olan uzaqdan Abşeron qəsrlərini xatırladan səkkizkünclü qəsr vardır. Mətrəkçi Azərbaycanın demək olar ki, bütün tarixi şəhərlərində mövcud olan və şəhərin miqyasından asılı olaraq hökmdar tağının yeri müəyyənləşdirilir. Bir qayda olaraq qəsrlər şəhər ərazisinin hökmran mövqe tutan məntəqəsinin künclərindən birində yerləşdirilirdi və yaxud qismən qala divarlarından kənara çıxarılırdı.

Küçə şəbəkəsi strukturunda canlı mühit göstərilməmişdir. Müəllif Həmədanın birinci qalasında olan əsas kompozisiya elementlərini qeyd edərək onların uyğun təsvirini və miqyas hissi vermişdir. Matrakçının dini tikililərində yal-

*Həmədan şəhərinin baş planı. 1851-ci il.*



*Nəsuhi Mətrakçi miniatyuru.*

nız minarələr daim, heç cür imtina edə bilmədiyi İstanbul görünüşü alır.

Həmədan, hündür, qayalı, konusabənzər zirvəsi daim qarla örtülən Əlvənd dağları ilə yanaşı yerləşir. Dağların bu xüsusiyyəti kəndləri, zəngin buğda tarlaları, üzüm və meyvə bağları olan geniş və məhsuldar vadini su ilə təmin edən bulaq və çeşmələr üçün tükənməz su ehtiyatının yaranmasına şərait yaradır. Şəhərin Səfəvilərin keçmiş paytaxtı İsfahan və indiki paytaxt Tehran, həmçinin Türkiyənin ticarət şəhərləri: Bağdad, Bəsrə, Mosul, Diyarbəkir və s. arasındakı ticarət yollarının üstündə yerləşməsi Həmədanın inzibati və ticarət baxımından inkişafına təsir göstərir. Şəhər ölkənin iqtisadi potensialına öz qiymətli töhfəsini verir, dövlətin xəzinəsini zənginləşdirir (SSRİ MDHTA, f. 446, d. 131, 1851 il).

Baş Qərərgahın polkovniki Çirikovun rəhbərliyi altında Topoqraflar Korpusunun Ştabs-kapitanı Proskuryakov və həmin korpusun praporşiki Oqranoviç tərəfindən cədvəl (şəbəkə) vasitəsi ilə çəkilmiş və əsası təkrar addımlarla ölçülüb təyin edilmiş "Həmədan şəhərinin ətraflı planı"nı ətraflı öyrənib təhlil edərkən verilən məlumatlara əsasən şəhərin qədimliyini aşkara çıxaran planlaşma xüsusiyyətləri diqqəti cəlb edir. Şəhərin planlaşması vasitəsilə arxeoloji xəritədən oxuyurmuş kimi onun tarixi təbəqələri haqqında məlumat əldə etmək olar. Bu xarabalıqlar, qala divarlarının qalıqları, küçə şəbəkəsi və şəhərsalma qovşaqlarının öyrənilməsi sayəsində mümkündür. Onlar şəhərin hər bir tarixi sahəsi üçün elə səciyyəvidir ki, qədimliyi və yeni tikintinin miqyasını əks etdirərək,

*Həmədan.*



Həmədanın bütün şəhərsalmasının əsasında durur. (195, s.184)

Şəhərin geniş ərazisi təxminən 4 km dən 2,5 km-ə qədər sahəni əhatə edir. Bir neçə axın və Abi Murad Bəy çayı onu kəsərək iki hissəyə: şərq və qərb hissələrinə ayırır. Şəhərin zəngin tarixi topoqrafiyası şimal-şərq tərəfdə yanmamış kərpicdən tikilmiş mənşəcə daha qədim olan divarın bir hissəsində öz izini qoymuşdur. Cənub-Şərq hissədə isə alçaq təpənin üzərində uzadılmış düzbucaqlı formasında olan və "Müsəlla qalası" adlandırılan qülləli qala divarlarının izləri görünür. "Cənuba doğru getdikcə olduqca qədim olduğu şübhə doğurmayan xarabalıqlara rast gəlinir. Güclü yağışlardan sonra sakinlər çoxlu metal əşyalar və fars çarlarının və Aleksandr Makedonskinin pullarını tapırlar" (SSRİ MDHTA f. 446, d. 131).

Həmədanın kiçik qalası şəhərin yüksək nöqtələrində yerləşərək ətraf yerlərə nisbətən hakim mövqe tutur. O, öz möhkəm istehkam qurğuları və küncdəki çadırabənzər döyüş qüllələri ilə öz qüdrətini nümayiş etdirir, strateji əhəmiyyətini nəzərə çarpdırır.

Burada tikintinin strateji səciyyəsini müəyyən edən dini və memorial qurğular yoxdur. Qalanın planlaşdırılma strukturunda əsas element hərbi qarnizonun yerləşdiyi kazarmalardır.

Həmədanın iki hissəli yerləşməsi İran memarlığının inkişafına mühüm töhfələr vermiş uzaq keçmişin abidələri ilə zəngin olan şəhərin həcmi-məkan və memarlıq-planlaşdırılma strukturunun özünəməxsus həllinə səbəb olmuşdur.

Həmədan şəhəri İranın və Azərbaycanın şəhərləri içərisində coğrafi və



*Həmədan.*

tarixi vəziyyətinə görə ətraf mühitin şəhərsalma təşkilində meydana çıxan spesifik xüsusiyyətlərinə görə və eyni zamanda Nasuhi Mətrəkçinin miniatürlərində təsdiq olunmuş tikintilərin şaquli vəziyyətində fərqlənir. Şəhər binalarının və qala divarlarından kənarda olan yerlərin rəng həlli şəhərin mövcud vəziyyətinin səciyyəsini açır. Həmədan yaxınlıqda axan çaylar vasitəsilə suvarılan münbit torpaqlara, çoxsaylı bağlara malikdir. Bu həm də regionun iqtisadi inkişafına müsbət təsir göstərir.

Həmədan haqqında, onun möhkəm qala olması barədə İ.Xammer özünün çoxcildlik Osmanlı imperiyasının tarixi (c.7, h.2 s.320) əsərində maraqlı qeydlərə yer vermişdir. O yazır ki, "Türklər 1724-cü ildə şəhərə hücum etdilər. Şəhər yaxşı möhkəmləndirilmişdi, onun ətrafında dərin və geniş yarğanlar var idi. 200-dən çox istehkam iki qat divarları qoruyurdu və qalanın mərkəzində iki qəsr var idi". İ.Xammer sözlərinə davam edərək yazır ki, "54 günlük hücum heç bir nəticə vermədi. 55-ci gün türklər hər tərəfdən hücuma keçdilər. Hücum edənlər qala divarlarından birini partlatdılar və Həmədan qalasına daxil oldular".

Beləliklə, Həmədan qalası, hələ 200 il qabaq Nasuhi Mətrəkçi tərəfindən qeyd olunan güclü müdafiə və strateji məntəqə kimi özünün ən yaxşı tərəflərini aşkara çıxardı, öz istehkam qurğularının və müdafiəçilərinin imkanlarını nümayiş etdirdi.

Həmədanın qədim abidələri keçmiş şəhərin tarixi və memarlığının xüsusi tədqiqat sahəsidir. Şəhərsalma strukturuna daxil olan və ətrafdakı bəzi salamat qalmış ünsürlər ilk Əhəmənilərin Yaxın və Orta Şərq ölkələrinə qalibiyyət yürüşü zamanı qeydə alınmış mixi yazılı cədvəllər şəklində keçmişin əzəmətini açmağa imkan yaradır. (94, s. 140) Əhəmənilər cədvəldə özlərini, öz çarlıqlarını tərifləməklə yanaşı, eyni zamanda qalib gəldikləri xalqlar, işğal etdikləri yerlər və ölkələrin coğrafi adları, sülalələr haqqında zəngin məlumat vermişlər. Bu İran tarixinin Makedoniyalı İsgəndərin işğalına qədərki dövrünün kiçik səhifələrindən biridir. Burada qazıntılar zamanı bir çox məişət əşyaları və bəzəklər tapılmışdır. Həmədandan tapılmış, Əhəmənilər dövrünə aid olan qızıl qab xüsusi qeyd olunmalıdır. Ellinizm dövrünə mənsub olan və memarlıq-bədii əhəmiyyətli elementlərdən sayılan bu qabı şəhərin tarixi keçmişinin xüsusi ifadə forması, şəhərsalma və memarlığa təsir göstərən amil kimi qiymətləndirmək olar. (124, s. 22).

Həmin dövrün maraqlı abidələrinə pyedestal üzərindəki şir heykəlləri də aiddir. Şirlərin təsviri realistdir, onlarda qədim Misirin təsviri incəsənətinə məxsus olan şərtilik yoxdur.

Daş şirlər kompozisiyaya görə müstəqil həll olunmuşlar. Burada xarakterin fərdiliyi və rəsmlərin ifadəliliyi diqqəti cəlb edir. Kompozisiyada fərqli xüsusiyyət dinamik pozada antik formalı pyedestalda oturmuş şirə məxsusdur. Çoxpilləli pyedestal açıq meydançada yerləşir və keçmişdə abad sahə ilə əhatə olunmuş və şəhərin ən mərkəzi şəhərsalma qovşağına daxil olmuşdur. Platformada yerləşdirilmiş pyedestal təmiz yonulmuş daş bloklardan ibarətdir.

Platforma gözlərini uzaq ənginliklərə dikmiş şir heykəlli pyedestalın ümumi miqyasını və kompozisiya həllini müəyyən etmişdir. Şir heykəlli pyedestal planda düzbucaqlı formada təqdim olunmuşdur. O, əla mütənasib ölçülərə malikdir və antik dövrün klassik üsullarını əks etdirir. Kiçik memarlıq forması olan pyedestal üfüqi bölgülər üzrə üç hissəyə bölünmüşdür: Kiçik ölçülü hörgülərlə tikilmiş üç pilləli kürsülük, iri bloklardan ibarət əsas hissə və onu

tamamlayan val profilli pərvaz və bərabər hissəli attik. Pyedestalın elementlərinin bir-birinə uyğunluğu mükəmməldir. Burada memarlıq kütlələri ahəng təşkil edir. Kiçik həcmdə dövrün bədii təsvir sənətinin bütün incəlikləri öz əksini tapmışdır. Hissələrin həndəsi dəqiqliyi, kompozisiyanın rəsmlərinin incəliyi ümumilikdə memarlıq və heykəltəraşlığın maraqlı sintezini təşkil edir və Qədim Həmədanın planlaşdırma strukturunda ən aparıcı yerlərdən birini tuturdu.

Həmədan haqqında XIX əsrin ortalarının fransız rəssamı Yevgeni Flandin və memar Paskal Kostanın bir neçə şəkli nəşr olunmuşdur. Onlar İranın və Cənubi Azərbaycanın memarlıq abidələrini araşdıraraq İranın memarlıq tarixinin tədqiqatçılarını şəhərsalma və memarlığa dair zəngin məlumatlarla təmin etmişlər. (182; 198, s.170)

Həmədan İranın bir çox orta əsr şəhərləri kimi qala divarları ilə əhatə olunmuşdur. Bu divarlardan şəhəri karvan yolları vasitəsilə ölkənin çox şəhərləri ilə birləşdirən 10 ədəd darvaza tikilmişdir: 1. Seyidabad məntəqəsinə, Kəpkəvar şəhərciyinə və Kirmanşah şəhərinə gedən karvan yolunun üzərindəki Binə-Bazar darvazası; 2. Sənna şəhərinə aparan karvan yolunun üstündə Çahar bağ darvazası; 3. Təbriz şəhərinə gedən karvan yolunun girişindəki Çəhar bağ darvazası; 4. Tehrana aparan karvan yolunun üzərindəki Tehran darvazası; 5. Sultanabad və Gülpayaqan şəhərlərindən keçərək İsfahana gedən karvan yolunun üstündəki Şirin darvazası; 6. Burucerd şəhərinə aparan karvan yolunun üzərindəki Sepen Şar darvazası; 7. Nouvənd və Burucerd şəhərlərinə gedən karvan yolunun girişində yerləşən Vərməziyad darvazası; 8. Əlvənd dağı ətrafındakı məntəqələrə gedən yolun üzərindəki Qala Hacı Abbas darvazası; 9. Tülər-qan yoxuşundan keçən və Kəngavər məntəqəsinə aparan yay karvan yolunun üzərindəki Əli Kabul darvazası; 10. Gülbəd darvazası.

Şəhərin bütün ərazisi öz tarixi inkişafından irəli gələrək altı məhəlləyə bölünür: Binə Bazar məhəlləsi, Cövlan məhəlləsi, Dərdabad məhəlləsi, Muxtaran məhəlləsi, Vərməziyad məhəlləsi və Mehdiabad məhəlləsi. Bu məhəllələrdə 40000 insanın yaşadığı 9500-ə yaxın ev var idi (1851-ci ilin məlumatı).

Ətrafında ictimai binaların tikildiyi meydanlar (məscid, hamam, dükanlar və s.) şəhər məhəllələrinin mərkəzi ro-

*Həmədan şəhərinin baş planı.*



lunu oynayır və şəhərsalma strukturunun dayaq nöqtəsini təşkil edir. Onlar, yerlərdə ictimai həyatı cəmləşdirməklə yanaşı, həm də məhəllə miqyasında müvafiq tikinti işlərinin aparılmasını tənzimləyir və həcmi-məkan və memarlıq fokusu kimi çıxış edir. Şəhərin bütün məhəllə mərkəzlərində yaraşıqlı tikinti kompleksləri mövcuddur. Estetik əhəmiyyət kəsb edən bu tikililər şəhərin ümumi bədii sisteminə öz fərdi yanaşmasını diktə edir və yaşayış binaları ilə birlikdə yaşayış məntəqəsinə özünəməxsus çalarlar qatır.

Kiçik məhəllə mərkəzləri küçə şəbəkəsi vasitəsilə öz başlanğıcını cənub-qərbdən şimal-qərbə 2 km məsafədə uzanan Verməziyad və Qala Hacı darvazalarından götürən şəhərin mərkəzi hissəsinə tərəf meyl edir. Şəhərin ictimai və ticarət mərkəzi xeyli mürəkkəb və müəyyən qədər nizamlı memarlıq-planlaşdırma kompozisiyasına malikdir. Mərkəzin bu cür formalaşmış strukturu onun qədim şəhərin ərazisində çoxəsrlik inkişafından və şəhərsalma ənənələrindən xəbər verir.

Mərkəz təxminən 1 kilometr məsafədə cənub-şərq istiqamətində inkişaf etmişdir. Şəhər meydanlarının ətrafında qruplaşmış əsas tikinti qurğuları burada təmərküzləşmişdir. Daha sonra mərkəz öz istiqamətini dəyişir və şəhərin məhəllələrini kəsib keçərək 1200 metr məsafədə şimal-qərbə tərəf üz tutur. Yaranmış planlaşdırılma vəziyyətində, mərkəzi hissədə beş əsas meydan yerləşir: Miragəl meydanı, Çəhar Suq meydanı, Bozorq meydanı, Bəhqan meydanı, Cudi meydanı, Kiçik meydan.

Şəhərin digər beş baş meydanları: Qala Müsəlla meydanı, Qurbança meydanı, Gülbətə meydanı, Qəbiristan meydanı, Vərməziyad meydanı cənub-şərq hissəsində yerləşir. Şəhər ərazisinin şimal-qərbdən şimal-şərqə tərəf uzanan böyük bir hissəsində tikililərdən, yerli əhəmiyyətli kiçik ictimai mərkəzlərdən ibarətdir.

Meydanların həcmi-məkan kompozisiyasının əsas təşkiledici elementləri kimi mühüm rol oynadığı mərkəzin şəhərsalma strukturuna iyirmiyə yaxın bazar daxildir: Binə-Bazar, Miragəl meydanı bazar, Bozor bazarı, Bozor meydanı bazarı, Kuçuk meydani bazar, Məşədi Şahhüseyn bazarı, Cudi meydanı bazarı, Quzər Pul bazarı, Kilisə bazarı, Puli Nəzər bəy bazarı. Bazarlarda şəhərin mühüm sənaye-iqtisadi potensialını təşkil edən müxtəlif təyinatlı 400 dükan və sənətkarlıq emalatxanaları vardır. Açıq və üstü örtülü bazarların ticarət cərgələri dini və mülki tikinti qurğuları arasında mühüm həlqə rolunu oynayırdı.

1851-ci ilə aid "Həmədan şəhərinin ətraflı planı" şəhərin planlaşdırılma strukturu, onun məhəllələri, ictimai tikililərinin öyrənilməsi baxımından qiymətli mənbə olmaqla yanaşı, bu planda həm də "qədim və yeni, gözəl binalar" təqdim olunur, şəhərin tarixi topoqrafiyası açıqlanır, Qacarlar dövrü memarlığı və şəhərsalmasının inkişafı tarixinin öyrənilməsi baxımından xeyli maraq kəsb edən yeni tikililər haqqında məlumat verilir.

Şəhərdə qədim tarixi abidələrə demək olar ki, hər yerdə, Müsəllə qalasının xarabalıqlarında, qədim Ekbatanda, Qurbançı bürcündə, Muxtoran məhəlləsində, Yaquda Gümbədində və həmin məhəllədə yeraltı yolu və qəbirləri olan Alal-Biyan xarabalıqlarında da rast gəlmək mümkündür. Bura da İsgəndər Zülqərneyn adlanan hansısa Aleksandrın məzarı və Köhnə Qala (keçmiş qala divarlarının hissəsi) da mövcuddur. Memarlıq tarixinin qədim abidələri şəhər, onun istehkam qurğuları, şəhər ərazisinin inkişafının planlaşdırma xüsusiyyətlərini əks etdirən zəngin məlumat daşıyıcılarıdır.

Şəhər hüdudlarında, onun cənub-qərb hissəsində Hacı Abbas Qalası və Şahzadə Bəhmən Mirzə Qacar Qalası yerləşir. Çox güman ki, Hacı Abbas Qalası qəsr olmuşdur, belə ki, bu bina kiçik ərazini tutur və şəhər tikintisində çox da nəzərə çarpmır. Şahzadə Bəhmən Mirzə Qacar Qalası o dövrün istehkam sənətinin bütün qanunauyğunluqları nəzərə alınaraq tikilmişdir. Şimal-cənub oxu üzrə uzunsov, planda dördbucaqşəkilli (470x213 m) olan bu bina şimal və cənuba doğru istiqamətlənmiş sıx yerləşdirilən bürclərlə, qərb və şərq divarları isə azsaylı bürclərlə, və həmçinin köndələn ox boyunca darvazalar və cinahlardan bürclərlə təchiz olunmuşdur.

Şahzadə Bəhmən Mirzə Qacar Qalası planlaşdırma strukturu baxımından yeni qalalarda, şəhərətrafı şah iqamətgahlarında istifadə olunan ənənəvi üslubları özündə əks etdirir. Planda düzbucaqlı olan (470x213 m), ox üzrə şimal-cənuba uzanaz, simala və cənuba baxan divarlarda sıx-sıx qüllələr tikilib. Qərb və şərq divarlarında qüllələr seyrək halda tikilib. Köndələn ox üzrə darvazalarda qoruyucu qüllələr tikilib.

Şahzadə Bəhmən Mirzə qalasının planlaşdırma strukturu şahların şəhər kənarında yerləşən yeni qalalarında işlənən ənənəvi üsulları əks etdirir. Qalanın mərkəzi hissəsininin ərazisini Bəhmən Mirzənin iki saray binası, qalan ərazini isə xiyabanların güllüklərlə, hovuzlar və pavilyonlarla əvəzləndiyi, nizamlı planlaşdırmaya malik geniş bağ tutur. Möhtəşəm struktura malik Qacar bağlarının bu üslubunda yaşıl memarlıq və kiçik formalardan istifadə edən memarlar zəngin təxəyyüllərinin möhtəşəm əsərlərini açıq səma altında yaradırdılar.

Yaşıl memarlığa malik açıq ərazilərin ustalıqla yerləşdirilməsi və geniş su elementlərinin istifadə olunması sayəsində planlaşdırma ideyasının nizamlı səciyyəsi İranın park-bağ sənətində çox geniş yayılmışdı.

Qaladan fərqli olaraq şahzadə Bəhmən Mirzənin imarəti ümumşəhər mərkəzinin təsir dairəsinə daxildir və strukturda ticarət dükanları və Çeşmə Qulyan Məscidinin yerləşdiyi kiçik mərkəzlərdən birində müvafiq mövqeyə malikdir. Çahar Sukxanə pavilyonu ölkənin Təbriz, İsfahan, Tehran və digər şəhərlərində çox geniş təmsil olunmuş yeni tikililərə aiddir.

Şəhər ərazisinin Əbu Murad bəy çayının hər iki sahilində inkişaf etməsində mühüm rol 4 körpüyə məxsusdur: Pul Zafrani, Güzər pul, Nəzərbəy pul və Şal-baran pul. İlk iki körpü şəhər mərkəzini sol sahilin yaşayış məhəlləri ilə birləşdirirdi. Bu amil onların həm də iqtisadi baxımdan intensiv inkişafına təkan verirdi. Şəhər ərazisində yaşayış məhəllələri arasında dağınıq adalar şəklində yerləşmiş qəbristanlıqlar böyük ərazi tuturdu. Kanallardan əlavə su təchizatı elementləri Yaxqal (su anbarı), çeşmələr (bulaqlar), Pein Müsəllə, Çeşmə Gülyan, Çeşmə Binə-Bazar, fəvvarələr və s. ilə təmsil olunmuşdur.

Səciyyəvi memarlığa malik çoxaşırımlı daş körpülər, xüsusi qurğuları və həcmi olan su dəyirmanları sayəsində çay sahillərində yerləşmiş şəhərlə fərqli xüsusiyyətlərə malik idilər. Əbu Murad-bəy çayının sahilində duran dəyirmanlar sahil zolağında yerləşən şəhər tikintisinə və şəhərsalma sisteminə öz töhfələrini vermişdi.

Kərpic hazırlanması üçün istifadə olunan kürəşəkilli gil bişirmə sobaları ilə təmsil olunan tikinti materialları sənayesi şəhərin şimal-şərq hissəsində geniş yayılmışdı. Ümumilikdə demək olar ki, XIX əsrin ortalarında Həmədan şəhəri həmin dövrdə İranda mövcud sosial-iqtisadi vəziyyətə uyğun olaraq inkişaf etmişdi

və o zaman kapitalist münasibətləri mövcud cəmiyyətin əsaslarına təsir etmirdi.

Pəhləvi dövründə müasir şəhərsalma tədbirləri demək olar ki, İranın bütün iri şəhərlərinə təsir etdi. Köhnə yaşayış məhəllələri arasında geniş magistrallar salınırdı ki, bu da öz əksini planlaşdırmanın radial sxemində tapırdı. Həmədan şəhəri də belə sxemə qovuşmuşdu. Şəhərin tarixi hissəsində, ictimai mərkəz ərazisində şəhəri cənub-qərbdən şimal-şərqə (Xiyabani Dəryavuş-Xiyabani Şapur), şimal-qərbdən cənub şərqə (Xiyabani Babatahir-Xiyabani Siroye) doğru başdan başa kəsən 3 magistralın kəsişmə nöqtəsində təxminən 180 metrlik diametrə malik dairəvi meydan salınmışdı. Planlaşdırma baxımından yaşayış mülklərinin inkişafında növbəti addım kamera üslublu memarlıq-plastiki həllə malik ikinci həyət məkanın yaranması oldu. Burada kəsik küncləri olan düzbucaqlı həyətlər zəngin memarlıq üsullarının mövcudluğunu nümayiş etdirirdi.

Yaşayış malikanələrinin planlaşdırma inkişafında kamera üslublu ikinci həyət fəzasının meydana gəlməsi növbəti mərhələ oldu. Burada küncləri kəsik düzbucaq həyətlər memarlıq üsullarının zənginliyini göstərir.

Həyəti əhatələyən şaquli kürək ritmli tikililər çatmatağ formasında olan ənənəvi tağlar və geniş şəbəkə ekranlarının daxil olduğu plastik təşkilati struktur yaradırdı. Səkkizguşəli formaya malik həyətlər, xüsusən də künc hissələr, tağ aşırımlarının stalaktit sonluqlu konxası ilə həllə qovuşduğu fərqli memarlıq traktovkası əldə etmişdi.Həyətin proporsiyaları, nəcib ənənəvi formalar, yumşaq ifadə olunmuş dekorativ detallar və böyük məharətlə həll edilmiş torpaq qrafikası yaddaşlarda açıq səma altında möhtəşəm zal görüntüsünü canlandırırdı. Bu mövzu eyni malikanədə daha kiçik miqyaslı memarlıq sahəsində tez-tez davam etdirilirdi.

Yaşayış malikanələrinin 2 və ya 3 daxili həyətə malik memarlıq-məkan strukturu əslində şəxsi mülkiyyət infrastrukturunun yaradılması üçün bədii imkanlar baxımından geniş bir dünya idi. Yaşayış evinin ümumi planlaşdırma və həcmi-məkan təşkili yüzilliklər boyu davam edən uzun təkamül prosesi idi.

# II BÖLMƏ.

# İRANIN YAŞAYIŞ VƏ SARAY MEMARLIĞI

# FƏSİL 1.

## CƏNUBİ AZƏRBAYCAN MEMARLIĞININ DİALEKTİKASI. İMARƏTLƏRİN İNKİŞAFININ ÜMUMİ MÜDDƏALARI

İranın müxtəlif iqlim şəraiti və qədim ictimai-iqtisadi vəziyyəti yerli tarixi törəmələrin əmələ gəlməsinə imkan yaratdı.

Ölkənin səhra və yarımsəhralarla bölünmüş ərazisi, mücərrəd halda inkişaf edirdi, yalnız şimal-cənub və şərq-qərb istiqamətində olan geniş şaxələnmiş karvan yolları qarşılıqlı əlaqə yaradaraq böyük vilayətləri ümumi səmərəli dövlət sisteminə birləşdirdi (45, s. 66).

Bünövrəsi hələ Əlamilər dövründə qoyulmuş İranın bir çox tarixi şəhərləri, Əhəmənilər və xüsusilə Sasanilər dövründə inkişaf edərək, gələcəkdə iri paytaxt, ticari və sənət mərkəzlərinə çevrildilər (44, s. 12, 184). İslamın intensiv inkişafı dövründə Şərq şəhərinin ayrılmaz hissəsi olan ibadət və ticarət kompleksləri planlaşdırma strukturuna daxil olaraq şəhər mərkəzi ilə birgə tikinti üçün ayrılmış məntəqələr yaranmağa başladı (111, s. 10).

Maraqlıdır ki, Azərbaycanın və İranın bütün şəhərləri məntəqənin topoqrafiyası, tarixi və memarlıq ənənələri baxımından fərdi xüsusiyyətlərə malikdirlər. Məntəqələrin formalarının müxtəlifliyinə baxmayaraq, ifadəni birləşdirən strukturu, bütün ölkədə geniş miqyasda müddəa qismində çıxış edən yeni İslam dini özünəməxsus memarlıq şəhərsalma sistemini yaratdı (77, s. 324).

Şəhərlərin və yaşayış məntəqələrinin memarlığının formalaşmasında, ərazilərində yaşayış memarlığını müəyyən edən fərdi üslublu tikililər qurulur və inkişaf edən Təbriz, Ərdəbil, Qəzvin, Həmədan, Kaşan, İsfahan, Tehran, Yəzd, Kirman, Kirmanşah, Semnan, Məşhəd, Şiraz və s. kimi şəhərlər xüsusi rol oynamışdır.

Yaşayış mühiti şəriətin və müsəlman cəmiyyətinin qanunları əsasında yaranırdı (38, s. 94). Bu xüsusiyyət Şərq şəhər əhalisinin həyatında güclü iz buraxmışdır. Yeni dinin qanunlarının ehkamlarının dərketmə prosesi baş verir və mülkün daxili fəzasının qapalılığından memarlıq-planlaşdırma üsulları meydana gəlir.

Məhəllə, küçə və prospektlərlə əlaqə vasitəsiz və ya dalan və döngələrin vasitəsilə həyata keçirilir. Məhəllə birləşdirici elementlərlə örtülərək kiçik miqyaslı planlaşdırma strukturuna və eyni zamanda, şəhərsalma sisteminin əsas hissəsinə çevrilir.

Yaşayış malikanəsinin kompozisiyası memarlıq strukturunun əsas həcmlərini birləşdirən həyətlər mərkəzi ox üzərində yerləşərək uzununa və eninə inkişaf edir. Həyət sahəsində perimetr boyunca yaşayış və digər otaqlarla tikilmiş birinci həyət əsas yer tutan elementdir.

Baş fasad həyətin oxu üzərində bol memarlıq formaları və mövzuları ilə həll edilib. Birmarşlı pilləkənlərin yan oyuqları ilə mərkəzi oxda yerləşən eyvanlar kompozisiyanın üstünlük təşkil

edən elementidir. Yeni kompozisiya üsullarına zidd olmayan, yaşayış evinin mühitinə fəal surətdə daxil olan memarlıq ənənələri güclü və aktualdırlar (244, s. 67, 71).

Bir və ya iki daxili həyətli yaşayış evlərinin, istər şəbəkə ilə şüşəbəndlənmiş eyvanın oyuqları kimi, istərsə də lojiyaların girişləri kimi tikinti üsullarında küçə tərəfə baxan bütöv divarlardan fərqli olaraq bütün sistem açıqdır. Divarlar düz və təmizdir, oyuqlar arasında balaca aralıqlar qəbul edilmiş sxemi vurğulayır. Eyvan və lociyaların açıq formalı şəbəkə vitrajları yaşayış evinin kompozisiya strukturuna ayrılmaz surətdə daxil olduqlarından həyətin daxili otaqlara qarışması təəccüb doğurmur.

Həyət memarlığı kürəkcik şəkilli şaquli hissələrlə bədii ifadənin xüsusi formasıdır, fasadların əsas hissələrinə qarşı kürsülüyün üfüqi xətləri və karnizlərin yüngül profilləri qoyulub. Həndəsi formaların dəqiqliyini və həllin ox mütənasibliyini qoruyaraq yaşayış evlərinin səliqəli və gözəl həyətləri dolğun həcmli plastika ilə qarşımıza çıxır.

Yaşayış evinin vacib elementi olan interyerlərin həlli böyük əhəmiyyət kəsb edir. Yaşayış evlərinin uzununa olan kəsiklərinə nəzər saldıqda, üslub sisteminin ümumi cəhəti saxlanılaraq, həyət məkanının memarlıq formalarının hərəkəti otaqların interyerinə sərbəst daxil olduqlarının zəngin mənzərəsini görürük. Burada xarici və daxili memarlıq üsulları fərqlənmir, onların işlətmə xasiyyəti ənənəvi forma və mövzularla birgə, şaquli oyuqlarda dərin olmayan taxça və rəngli şüşəli şəbəkələrdən ibarət yarımdairəvi tağlarla vahid kompozisiya vasitəsi yaratmağa imkan verir. Ön otaqların interyerləri planlaşdırılmaya əsasən çoxkünclüdür, memarlıq elementləri plafon və tağtavanla birgə plastik ifadə olunmuş bədii mühit kimi, mürəkkəb xasiyyətli həcmi-məkan sistem təşkil edir.

İnteryerdə ən çox sevilən mövzu iki yarusda yerləşən səthi taxçalardır. Onlar divarların səthini formalaşdırır, interyerlər bəzəkli naxışlarla doldurulduqda, onları vizual olaraq zənginləşdirir (136, s. 182).

İnteryerlərin memarlıq kompozisiyasına otağın həcmi-məkan həllinin səciyyəsini tamamilə dəyişən əzəmətli günbəzlər, qübbələr və tağlar daxil edilir. İnteryerin strukturunu genişləndirən, memarlıq kütlələrin nisbətinə tamamilə yeni məna verən yeni üsullar yaranır.

Əslində, saray və yaşayış tikililərində möhtəşəm formaların istifadəsi Qacarlar dövründə itməyən qədim ənənəyə malikdir. Onlar yerli mühitdə yaşayış evlərinin tikintisinə və memarlıq-planlaşdırma üsullarının meydana gəlməsinə şərait yaradırdılar və onların geniş şəkildə istifadəsinə imkan yaradırdılar.

Stalaktit örtüklü günbəzin üstünlük təşkil etdiyi və ya çatma qübbələrin üzvi surətdə bitişdiyi zaman memar cəhətdən məzmunlu daxili məkanın yaradılması - ənənələrin bir növ vərəsəliyidir. XIX-XX əsrlərdə yeni cərəyanla birgə ənənələrin mənimsəmə prosesi və müasir memarlıq üsullarının inkişafı həm mülki memarlıqda, həm də yaşayış tikintisində yetərincə intensiv keçir.

Yaşayış evlərinin planlaşdırma strukturunda daxili məkanın həllinə mövqeyi yanaşma mövcuddur, həmçinin memarlıq kompozisiya üsullarına yanaşma dəyişir. Ümumilikdə əsas və tabe elementlərin müvafiqliyi və qarşılıqlı əlaqəsi meydana gəlir. Həcmli kütlələrin qapalılığı yox olur, memarlıq formaları daha çox həyət mühitində açılır.

Ətraf tikintinin üfüqi üsullarının fonunda ənənəvi həcmli elementlərin yeni tərzdə istifadəsi onların inkişafına təkan

oldu və müsbət nəticə verdi. İnteryerdə daxili konxaların vasitəsilə günbəz məkanına mülayim keçən mərkəzi tağqübbələrlə möhtəşəm portallar şəklində memarlıq kompozisiyaları meydana gəldi. Kompozisiya üsullarının inkişafı ön zallarla planlaşdırmanın özəyini mürəkkəbləşdirərək, eyni zamanda onun həcm mahiyyətini zənginləşdirirdi, dövrün müəyyən üslubi istiqamətini ifadə edərək memarlıq hallarının qanunauyğunluğunu təsdiqləyirdi.

Baş zalların interyerləri böyük fantaziya ilə həll edilir, çox zaman otaqların mərkəzi hissəsi gücləndirilmiş iki cərgə pəncərə ilə işıqlanır, çevrələri kapitelli taxta sütunla saxlanan dərin "ciblərlə" ifadə olunurdu (17, s. 20). Divarlar pilyastr sırasına bölünür, onların arasında stalaktit tamamlamalı çatma tağlar yerləşir. Divarlarda bəzək elementləri və həndəsi mövzular boldur. Stalaktit karniz daxili divarların bütün perimetri boyunca keçir. Zalın interyerində sütunlar təsiredici rol oynayır və ikicərgəli pəncərələr daha həcmli və plastik surətdə təqdim olunub. Daxili hissələr stalaktit karnizdən keçir, şaquli işlənmiş ekranların hərəkəti üfüqi işlənmiş səth əldə edir. Sonra pilyastrların nisbətən sakit səthi karnizin stalaktit qurşağından ağırlaşdırılmış plafona keçir.

Əsas elementlərin və formaların əvvəlcədən şəbəkəyə bölünmüş divarların xalça naxışına oxşar örtüsü gözlənilmədən dekorativ baxımdan maraqlı nəticəyə gətirib çıxardır. Burada memarlıq kütlələrin quruluşunu axtarmaq lazım gəlmir, interyerin həlli o qədər incə ifadə olunub ki, burada hər şey bədii mühitin estetik mənimsənməsinə yönəlib (240, s. 128, 129).

Formalaşmış memarlıq-kompozisiya üsullarına, yaşayış evlərində istifadə edilən həcmli elementlərə, formalara və mövzulara yeni üslubun yaranması mövqeyindən baxılırdı. Bu üslub memarlıq dərəcəsi kimi yaşayış və saray tikililərində öz yerini tutdu (52, s. 26). İbadət binalarının həllində istər memarlıq-planlaşdırma, istərsə də həcmi-məkan baxımından daha çox ənənəvi üsullara üstünlük verilirdi. Yeni memarlıq cərəyanı memarlıq fəaliyyətinin bu sahəsindən də yan keçmədi (69, s. 66).

Məscidlərdə taxtadan yonulmuş yarımdairəvi tağların hərəkəti ilə divarların bütün səthlərində geniş şəbəkə ekranları yerləşdirilməyə başladı. Mehrablı qalereyalar da buna oxşar formada işlənirdi, bununla yanaşı məscidlərin namaz otaqları bədii ifadənin tamamilə fərqli əlamətlərini əldə etdilər. Məscidlərin ənənəvi interyerləri haqqında ümumi təsəvvürü dəyişərək zalın daxili strukturu digər memarlıq rakursunda təfsir edilirdi. Yeni memarlıq formalarının iştirakı ilə ənənəvi üsulların yenilənmə prosesi gedirdi. Əhalinin məişət şəraiti ilə sıx bağlı olan yaşayış evləri daha çox dəyişikliklərə məruz qaldı. Onların daxili strukturu yeni üslubi cərəyanın mahiyyətini təşkil edən formaları əks etdirirdi.

Yaşayış ev qruplarının tipoloji nümunələri ölkədəki yeni mürəkkəb üslubların əlamətlərini və yerli ənənələrin xüsusiyyətlərini mənimsəyən memarlıq üsullarının müxtəlifliyini və fərdiliyini daha aydın göstərməyə kömək edir. Baş fasadları həyətin oxu ilə həcmli ifadənin müxtəlif variasiyalı portiklə ifadə olunan binalar xüsusi qrupa aiddir. Binanın planlaşdırma strukturunun əsasına qoyulmuş estetik məqsədlərdən irəli gələn memarlıq formaları, binanın kompozisiya özəyini daha təmtəraqlı və təntənəli həll etməyi tələb edirdi.

Kaşan şəhərində Rza Hüseyninin yaşayış evi Qacar dövrünün memarlıq simasının formalaşmasında əhəmiyyətli rol oynayan tikililərə aiddir. Bütöv di-

varın sağ küncündə yerləşən giriş balaca otağa və oradan kvadrat formalı geniş həyətə aparır. Qeyd etmək lazımdır ki, həyət məkanının ox həllinə baxmayaraq girişlər bir qayda olaraq, gözə çarpmayan yerlərdə qoyulub və evin planlaşdırma strukturuna təsir göstərmir (244, s. 83, 86).

Rza Hüseyninin evinin planlaşdırılması, binanın əsas olan ön hissəsindən başqa həyətin çevrəsi ilə tikilmiş ikicərgəli sistemlə bir sırada tikilmiş otaqlardan ibarətdir. Həyət məkanının çevrəsi çəkilmişdir, qabağa çıxan həcmli elementləri və rizalitləri yoxdur, görkəmi qorunub saxlanmışdır. Yaşayış və köməkçi otaqlar təyinatı üzrə qruplaşdırılıblar. Memarlıq-planlaşdırma kompozisiyasında fəal mövqe tutan hər bir qrupa yer ayrılıb. Uzununa yerləşən otaqlar balaca günbəz və qübbələrlə örtülmüş rahat mütənasibliklə seçilirlər. Usta, bu qrup otaqların daxili məkanında memarlıq formalarının ənənəvi mütənasibliyini saxlayıb.

Yaşayış binasının əsas ön hissəsi planlaşdırmaya görə əlavə xüsusiyyətlərə malikdir və özünü büruzə verir. Malikanənin daxili məkanının təşkili çox gözəldir: uzununa və eninə yerləşən oxların dəqiqliyi, otaqların ikicərgəli quruluşu eninə yerləşən yan otaqlarla yanaşı gedir (109, s. 21). Üçtağlı portik-lojiya şahnişinli ön zalın girəcəyidir. Zal yan otaqlarla incə sütunlarla əlaqələnərək memarlıq formaları ilə bölünən geniş məkana çevrilir. Şahnişinə anfilad sistemli otaqlar bitişir. Maraqlıdır ki, təsərrüfat həyətinə yönəlsələr də həm zallarda, həm şahnişində pəncərə oyuqları var və bütün ön otaqlar təbii işıqla işıqlandırma və cənub iqlim şəraitində vacib olan ventilyasiya imkanı əldə etdilər (18, s. 546).

Yaşayış malikanəsinin əsas həcmi yan hissələrə nisbətən üstünlük təşkil edir və fasad təntənəli memarlıq kompozisiyası kimi təsvir edilib. Simmetrik ox sisteminə riayət olunub və yarımdairəvi formalı üçtağlı portik-lojiya şəklində həll edilib. Mərkəzi tağ bu memarlıq mövqeyinin əhəmiyyətini vurğulayan geniş interkolumniyaya malikdir. Profilləşmiş düzbucaq çərçivəyə alınmış portik ox üzərində yarımdairəvi forma alır. Memar bu üsulla ön zalın interyerində davam edən ox kompozisiyasını daha da inandırıcı qeyd etmək istəmişdir. Fasadın yan hissələri həmçinin düzbucaq çərçivəyə alınıb, portiklərin mütənasib hissələrində divarlar yarımdairəvi tağlarla bəzədilib. Portikli fasadın fəal mərkəzinə qarşı üç güclü profilləşdirilmiş pəncərələrin sakit




*Kaşan. Yaşayış evinin planı.*

*Kaşan. Yaşayış evinin ön görünüşü.*



*Kaşan. Yaşayış evinin kəsiyi.*



səthi qoyulub. Fasadın meydana gəlmiş əyani-məkan mühiti yetərincə həcmli plastika ilə doludur və İran memarlığının yeni üsul və formalarının qanunlarını ifadə edir.

Baş fasadın ümumi memarlıq konsepsiyası, eyni üsul və formalar bir qədər sakit şərhdə istifadə edilərək yan fasadlarda davam edir. Burada həmçinin klassik mütənasiblik üstünlük təşkil edir. Fasad üç seksiyaya bölünüb: mərkəzi və üç yarımseksiyalara bölünən yan seksiyalar.

Fasadın tağlı, dayaz düzbucaq çərçivəli üç hissəyə bölünməsi qəbul edilmiş həllin kompozisiya istiqamətini müəyyən edir. Yan fasadların zəngin memarlığı onların daxili məzmununun əsasını təşkil edir.

Baş və yan fasadların mütənasibliyi yaşayış malikanəsinin memarlıq-planlaşdırma strukturunda təsadüfi deyil. Baxılan mövzuya həm memarlıqda, həm də dekorativ-tətbiqi incəsənətin kvadrat və düzbucaqların dəqiq ox istiqamətləri ilə mütənasiblik sistemi yaratdığı bütün bu hallarda ənənəvi kosmoqonik münasibət müşahidə edilir.

Həyət məkanının ümumi kompozisiyasına ənənəvi üsullar baxımından tamamilə yeni olan memarlıq formalarının daxil edilməsi fasadların həllinin mahiyyətini dəyişdi. Çatma tağlar, kompozisiyanın möhtəşəmliyi, hissələrin orijinallığı, dekorativ mövzuların səciyyəli şəkildə ifadə olmuş ənənəvi, aydın göstərilmiş formalar arxa plana keçdi. Tağ sıralı portik kompozisiyasının əmələ gəlməsinə zəmin yaradan yarımdairəvi formalar yaşayış evinin həm xarici, həm daxili görünüşündə yer tutdular (23, s. 68).

İran memarlığında yarımdairəvi tağ təsadüfi forma deyil. O, Sasanilərin ibadət və saray tikililərində geniş istifadə edilirdi: Ktesifonda, Servistanda, Təxte-Süleymanda, Firuz-Abadda, Tağı-Bostanda və digər abidələrdə (189, s. 59, 69). Qacarlar dövrünün yaşayış və saray tikililərinin həllinə münasibət əhəmiyyətli dərəcədə dəyişir. Memarların fikirlərində dəyişiklik baş verir, ənənəvi kompozisiya üsullarının istifadə prinsiplərinə yenidən baxma bir çox memarlıq xüsusiyyətlərinin itməsinə gətirib çıxardır. Lakin bu cəmiyyətin yeni inkişaf şəraitində yerli memarlığın milli xüsusiyyətlərini saxlamağa mane olmur.

Memarların yaşayış binalarında yeni kompozisiya üsullarından və memarlıq formalarından istifadə etmələrinə baxmayaraq, o dövrün bədii simalarının fərdi xüsusiyyətlərini qoruyub saxlamaq mümkün oldu. Binanın həcmi-məkan strukturu, fasadın hərəkəti və hissələri, əsas elementlərinin modelləşdirilməsi onların milli mənşəsini və törəmə mühitini göstərir. Günbəz və qübbələrin fəal formaları daxili məkanı dəyişərək, tarixi kompozisiyanın mahiyyətini qoruyan bu memarlıq üsulu ilə həll edilən Rza Hüseyninin imarətini qeyd etməmək olmaz (57, s. 58).

Damın üzərində mərkəzi-günbəz formalarından başqa binaların həcmi və memarlıq kompozisiyasını fəallaşdıran otaqların kiçik günbəzləri çıxan imarətlərin ümumi silueti maraq doğurur. Rza Hüseyninin imarəti Qacarlar dövrünün ən yaxşı tikilisi kimi İranın memarlıq irsinə daxil olub.

Kaşan şəhərində Bani-Kaziminin yaşayış evi memarlıq-planlaşdırma baxımından bu mövzunun inkişaf etmiş variantıdır. Şübhəsiz ki, Kaşanın fərdi xüsusiyyətlərə malik olan və İranın şəhərləri arasında keçmişin ənənələrinə riayət edən bazar, hamam, məscid kimi memarlıq abidələri şəhərin yaşayış memarlığının formalaşmasına təsir göstərməməyə bilməzdilər.

Yuxarıda göstərilən variantdan fərqli olaraq, Bani-Kaziminin yaşayış evinin

divarı küçə tərəfdən vurğulanmış giriş-portalın sayəsində bir qədər yumşaq səciyyəlidir. Beləliklə, küçəyə baxan divar adi hərəkətsiz kütlə təşkil etmir, müəyyən quruluş strukturu ifadə edir. Küçə fəzasında öncədən verilmiş əhəmiyyət kəsb edir. Malikanənin daxili fəzasında böyük əhəmiyyət kəsb edən məhəllənin bütöv divarının tərtibatına addım atılmışdır.

Bani-Kaziminin yaşayış mülkü birbirini tamamlayan ümumi simmetrik oxun üzərində yerləşən və çəpləndirilmiş künclü geniş düzbucaq həyətlə birləşən iki əsas hissələrdən ibarətdir (36x26 m). Hər iki hissədə otaqlar iki cərgə ilə tikilib, lakin hər biri sərbəst planlaşdırma strukturu və otaqların yerləşmə spesifikası ilə fərqlənir (244, s. 119, 120, 122).

Planın klassik simmetriyasına baxmayaraq, ön korpusla üzbəüz binanın yan qanadı planlaşdırmaya və həcmli həllə bəzi dəyişikliklər gətirir. Planın strukturunda biri oxda, ikincisi yan qanadda yerləşən, mürəkkəb daxili örtüklü günbəzlərlə örtülmüş səkkizguşəli otaqlar meydana gəlir. Həyətə baxan otaqlar köndələn düzülüblər, interyerlərin tam açılmasına imkan yaradan anfilad sistemə malikdirlər.

Bu otaqların arxasında uzununa günbəzli və yan zallar yerləşir. Onlar keçid vasitəsilə əlaqələnir və yalnız günbəzində balaca fənəri olan zaldan başqa işıqlanmaları yoxdur. Günbəzli səkkizguşəli otaqlar Kaşanın yaşayış evlərində geniş yayılmışdır və bu da həm həcmi plastikaya, həm memarlıq mövzularına müəyyən təsir göstərdi. Eyni zamanda, Kaşan şəhərinin yaşayış evlərində memarlıq-planlaşdırma ənənələri, yeni şəraitdə öz spesifikliyini yenilənmiş rakursda saxlamışdır.

Bani-Kaziminin yaşayış evinin ön hissəsi daha inkişaf etmiş formada birinci hissənin davamı oldu. Burada ənənələr öz əsas şərtlərini saxlayırlar, lakin tağlı və həyətə baxan səkkiz metr eni olan eyvan yay zalı qismində qarşımıza çıxır və mərkəzdə günbəzli, səthi şahnişinli uzadılmış ön zal görsənir.

Yay və ön zalları eyvanın bütün eninə olan gözəl vitraj-şəbəkə birləşdirir, açılanda memari cəhətdən dolğun, yüksək bədiiliyə malik olan vahid interyerə çevrilir. Yan otaqlarla eyvan uzununa ox üzrə anfilad sistemi ilə əlaqələnir. Onun arxasındakı otaqlar birinci hissədə olduğu kimi qapı oyuqlarından başqa heç yerdən işıqlanmır. Evin sakinləri yan qanadların yuxarı yarusuna həyətdən künc pilləkən qəfəslərindən daxil olurlar. Yaşayış və ön otaqları bir tərəfdən birmərtəbəli tikililər olan qanad, digər tərəfdən yastı taxçalı çəpər birləşdirir. Eninə olan oxun üzərində həyətdə şəlalə səciyyəli hovuz və şəhərin isti iqlimində mikroiqlim və ekoloji təmiz mühit yaradan meyvə ağacları var.

Yaşayış binasının ön hissəsi həyət məkanından çatma tağın səkkizmetrli aralığı ilə qaldırılıb və mərkəzi ox üzərində ətraf tikililərin arasında üstünlük təşkil edir. Fasadın memarlıq kompozisiyası şəhərin ənənəvi üsullarının inkişafının yeni istiqamətdə davamıdır. Dayaz damın üzərində yüksələn və Qacar formalı frontonlu çox böyük və möhtəşəm tağ fasadda öz yerini möhkəmlədərək İranın "şir və günəş ölkəsi" olduğunu sübut edib (125).

Çəpləndirilmiş künc formalı ikiyaruslu yan hissələr yuxarı yarusda çatma tağlarla və aşağı yarusda dayaq-tir sistemi ilə təqdim olunaraq əyani-məkani mühiti təşkil edir. Ənənəyə uyğun olaraq, bu formalara səthi taxçalar salınıb, şaquli bel əmələ gəlib. Bu hissələrin ritmi və mərkəzi tağın dərin lojiyası həcmli kütlələrin zidd nisbətində fasad həllinin kompozisiya istiqamətini müəyyən edir. Vurğulanmış memarlıq

incəlikləri ənənəvi üsulların bədii plastikasının daha aydın açılmasını memarlıq elementlərinin götürülməsi ilə deyil, müstəqil sima yaratmaq təşəbbüsü ilə imkan verir.

Proses interyerlərdə, xüsusilə ön zalda tağlarda və günbəzlərdə əks olunur. İnteryerdə verilən həcmli elementlər vizual olaraq daxili məkanı genişləndirir və dekorativ-tətbiqi incəsənətin geniş istifadəsinə imkan verir.

Binanın ön hissəsinin damı üzərində şaquli çıxan badgirlər öz yerlərini tapıblar. İranın isti iqlimində istifadə olunan xüsusi ventilyasiya sistemi olan badgirlər yaşayış evinin həcmli həllinə əlavə element kimi daxil olaraq onun məkan strukturunu tamamlayırlar.

Kaşanın memarlıq irsi yeni cərəyanın formalaşdığı zaman həcmi-plastiki həllərin xüsusi kompozisiya üsullarını yaratmaq üçün katalizator olaraq, əhəmiyyətli rol oynayırdı. Məhz bu atmosferdə imarət üslublu yaşayış evləri meydana gəldi. Memarlar ölkədə və memarlıq sahəsində gedən proseslərə öz münasibətlərini müəyyənləşdirərək, yeni şəraitdə şəhərin ənənələrinə cavab verən mövqeni tutmuşdular. İmarətlərin memarlıq-planlaşdırma kompozisiyası vərəsəliyin qarşılıqlı əlaqəsini təsdiq edirdi. Məkani mühit və zaman keçmişin memarlığını cəmiyyətin tələbatı əsasında ustaların yeni axtarışları ilə yaxınlaşdırırdı (244, s. 157).

Qacarlar dövründə Kaşan şəhərində Əli Yasinin imarəti şəhərin memarlıq ənənələrinin həyat qabiliyyətini və onların yeni şəraitdə istifadəsini təsdiqləyir. Bu halların mahiyyətini dərk etmə memarlıq simaları və sərbəst həcmi-məkan kompozisiyalar yaradır, məşhur şəhər tikililərini təkrarlamır. Yaşayış binalarında əsas mövqeləri yalnız planlaşdırma deyil, həcmi-məkan cəhətdən də tutur. Həyət oxunun sağ və sol tərəflərində pilləkənli dərin lojiyalar, kvadrat formalı otaqlar və anbar otaqları yerləşir. Bu üsul yetərincə məşhurdur və yerli memarlıq məktəbinin qanunlarına cavab verir. Bu sxem üçün çatının tağtavanlı, konstruksiyalı, köndələn divarlar səciyyəvidir.

Yaşayış evinin ön hissəsi planlaşdırma baxımından çarpazşəkilli formadadır, sahəsi ilə qeyri-bərabər qollarla və baş fasadın qabağında geniş terrasa baxan künc otaqlarla qarşımıza çıxır. Terras nisbətən hündür platformadadır, fasadın uzunluğu boyuncadır, daha təntənəli memarlıq-kompozisiya strukturunun başlanğıcı olaraq, malikanənin bu hissəsinin əhəmiyyəti haqqında məlumat verir. Platformanın oxunda yan otaqlarla anfilada ilə birləşən avanzal yerləşir. Bu sistem yaşayış və saray binalarında otaqların əlaqələndirilməsində daha zəngin forma kimi geniş istifadə olunurdu (244, s. 151, 154, 155).

Qeyd etmək lazımdır ki, yaşayış binalarının planlaşdırma həllində düzbucaq formalı otaqlar üstünlük təşkil edir, çox zaman interyerin daxili məkanının inkişafına səbəb olan çoxsaylı taxça və T-şəkilli künclü çevrə ilə qarşımızda durur. Yan qollarla əhatə edilmiş avanzalın arxasında imarətin bütün kompozisiya sisteminin mərkəzi olan səkkizguşəli formalı zal yerləşir. Onun köndələn oxu balaca həyətlə tamamlanır. Ön hissə tağtavanlı, yuxarı işıqlandırmalı günbəzin yarımsferasına keçən konxalı məkan formaların ümumi mürəkkəb sistemindən ibarətdir. İkiyaruslu künc elementli ənənəvi memarlıq formaları məkan elementlərilə birgə zəngin plastik və dekorativ fantaziyalı bədii mühiti özündə əks etdirir.

Baş fasad şəbəkələrin geniş oyuqları və şaquli hissələri ilə ayrılıb, rəngli şüşələr gözəl çalar məzmunlu orijinal

xalça örtüyü yaradır. Burada baş fasadın həlli deyil, Səfəvi ənənələrinin təsiri altında memarlıq kütlələrin həcmli həlli üstünlük təşkil edir. Bu vəziyyət təkrar olunur və həyətə baxan yan fasadların həllində təsdiqlənir.

Fasadın mərkəzi oxu yüksəlmiş hissəli geniş portal formasında həll edilib, memarlıq ənənələrinə uyğun dayaz düzbucaq taxçalara çatma tağlar əlavə edilib. Günbəzlə, tağlı formalarla və həcmlərin ifadəli siluetləri ilə həll edilən binanın dam hissəsi maraq doğurur. Əli Yasinin imarəti əmələ gəlmiş əyani mühit və qədim ənənələrə meylli nəcib memarlıq formaları ilə fərqlənir.

Kaşan şəhərində İsfahanyaninin yaşayış malikanəsinin ön hissəsi eyni ənənəvi şəkildə, lakin daha inkişaf etmiş formada təsvir edilib. Fasadların mərkəzləri tağlı portik, dərin lojiya və ya şəhər malikanələrin strukturunda portal şəklində həll edilmiş bir sıra yaşayış binaları müstəqil əhəmiyyət əldə edərək, vətəndaşlıq hüququ qazanmışdırlar. Onlar yeni üslubi cərəyana təkan verdilər. Ənənəvi memarlıq üsullarına və formalarına olan münasibətə baxmayaraq, memarlar tərəfindən qəbul edilərək yaradıcılıqlarında azad şərhdə istifadə edilmişdir (244, s. 145).

Malikanənin inkişaf etmiş planlaşdırma sistemi cənubi-şərqdən şimali-qərbə tərəf uzadılıb. Geniş həyətin hər iki tərəfində eyni əhəmiyyətli, sütun sırası ilə birləşdirilən binalar yerləşir. Quruluş sistemi bu planlaşdırma strukturuna ənənəvi olan rahat köndələn divarlar üzərində qurulub.

Baş fasadın sütunları damın üzərindən çıxan mərkəzi çatma tağlarla və kiçik aralığın yan yarımdairəvi tağları ilə vurğulanıb. Üzbəüz yerləşən binanın fasadı korinf kapitelli sütunlar üzərində tikilib.

Malikanənin həcmli kompozisiyasında ənənəvi memarlıq qaydaları ilə bərabər məkani strukturların həllinin yeni forması açılıb. Tağtavan, tromp, yelkən kimi üstünlük təşkil edən kons-

*Kaşan. Saleh iqamətqahı.*





*Kaşan. Saleh iqamətgahının planları və kəsiyi.*




*Kaşan. Saleh iqamətgahı.*



truktiv elementlərin vasitəsilə interyerlər daha da ustalıqla yerinə yetirilib. Konstruksiya, oyuq və taxça şəklində olan çoxsaylı tağlar, ənənə ilə dərin əlaqənin əlaməti kimi malikanənin bütün daxili məkanı boyunca yerləşib. Eyni zamanda, məşhur formaların istifadə metodikası malikanənin həllinə digər münasibəti də bildirir: memarlıq üsullarının daha azad seçimi həcmli kütlələrin ziddliliyini gücləndirir və ifadənin yeni formalarını meydana gətirir (244, s. 147, 148).

Qacarlar dövrünə aid olan Kaşan şəhərindəki Xane-Saleh yaşayış malikanəsi XIX əsrin ikinci yarısında təşəkkül tapan və yaranmış memarlıq-planlaşdırma üsullarının mənimsənmə prosesi zamanı tamamilə formalaşmış tipoloji qrupa aiddir. İran memarlığının yeni cərəyanı demək olar ki, yeni parametrləri ilə memarlığın digər sahələrində irsin davamçısıdır.

Sözsüz ki, Xane-Saleh bu memarlıq sahəsinə daxil olaraq, yaşayış evinin cəmiyyətin xarici təzahürünə daha həssas reaksiya verməyini və eyni zamanda daxili halldə belə passiv qalmamasını təsdiqləyir. Malikanənin sifarişçisi tanınmış zadəgan ailəsinin başçısı Mirzə Həsən-xan-Mobassər-ol-Mamalək, memarı isə Məhəmməd Həsən Abadi idi.

Xane-Salehin planı imarətin daxili məkanının təşkilinə təsir göstərməyən bəzi çıxıntılı uzadılmış düzbucaq şəklindədir. Ənənəyə əsasən dəqiq simmetrik-ox sistemi uzununa olan oxun üzərindən bütün malikanədən keçir. Geniş həyətin əla proporsiyaları keçici qalereya vasitəsi ilə şimal və cənub qanadlarını birləşdirir. Hər iki hissənin planlaşdırma qanunu eynidir: mərkəzdə künc cibli şahnişinli zal və eninə yerləşdirilmiş yan otaqlar (244, s. 59, 62).

Malikanənin cənubi ön hissəsi planlaşdırmada ikicərgəli tikilidən ibarətdir, mərkəzi ox üzrə eyvanlı portik vasitəsi ilə interyerin daxili həllinə də təsir göstərmiş daha yetişmiş səciyyə almışdır. Ümumiyyətlə planlaşdırma üsulları və

*Kaşan. Saleh iqamətgahının aksonometrik görünüşü.*



memarlıq formaları cəmdə o qədər çox deyil. Bir qayda olaraq, kompozisiyanın simmetrik-ox sistemi yaşayış və ya saray binası olmağına baxmayaraq, planlaşdırmanın bütün hallarında istifadə edilir.

Özək təşkil edən şahnişinli ön zal Səfəvilər dövründən gələn ənənədir və daxili məkanın təşkilində maraqlı forma kimi yayılmışdır. Planlaşdırmanın ümumi klassik sxemi dar pilləkən oyuqlarının və zalın yanında qoruyucu otaqların daxil edilməsi ilə tamamlanırdı. Planlaşdırmanın uğurlu həlli və memarlıq kütlələrin həcmli şərhi memarın yaradıcı təşəbbüsündən, istedadından və təcrübəsindən asılı idi (55, s. 172).

Bu baxımdan Xane-Saleh böyük maraq doğurur. Planlaşdırmanın "klassik" sxemi yalnız ifadəli memarlıq kompozisiyasının yaradılmasına deyil, interyerin bədii-effektli daxili strukturunun da yaradılmasına mane olmadı. Cənubda üstünlük təşkil edən ön hissənin həcmlərinin əks nisbəti yaşayış evinin hərəkətli inkişafına səbəb oldu.

Həcm pilləkən əsasında qurulub, ön planda incə oyuqlu pilləkənlərlə və yan qanadlarla dərin eyvanlı ikisütunlu portik tikilib. Fasadın ön hissəsi arxa tərəfə nisbətən bir qədər alçaqdır, burada şahnişinli zal və bitişik olan otaqlar yerləşir. Həcmlərin çıxıntılarının üzərindən memarlıq kütlələrinin gözəl platformasını yaradan tağtavanlar yüngülcə qabağa çıxır. Şimali qanad dayaz düzbucaq çərçivələrdə pilyastrlarla və tağlarla daha sakit ifadə olunub. Yalnız mərkəzi hissə bir qədər enlidir və tağlı örtüklə vurğulanıb.

Yaşayış evinin ümumi həcmi və plastiki strukturu zamanın müəyyən etdiyi təmayülün inkişafının əsas xüsusiyyətlərini üzə çıxartdı. Binalarda planlaşdırma üsullarının məhdudluğuna baxmayaraq həcmli kütlələrlə ifadə olunmuş kompozisiya forması, fasadların və interyerlərin memarlıq şərhi fərdi üslubun yaranmasına səbəb oldu. Kaşan şəhərinin tikililərinin bəzi nümunələri memarlıq həllinin müxtəlifliyini, əvvəlkindən fərqli olan kompozisiya üsullarını tamamilə yeni təfsirdə dərk edərək yeni üslub formasında açır.

Həmçinin Xane-Salehin yeni üslub cərəyanının memarlıq platforması baş fasadın və həyət məkanının yan fasadlarında tam gücü ilə özünü büruzə verən memarlıq elementlərinin digər bədii forması ortaya çıxır. Burada kərpic hörməsi karkas formasında işlənilib, Avropa tərzini xatırladan memarlıq forma və elementləri daxil edilib. Bununla belə, interyerlər səciyyəvi çatma tağları və düzbucaq taxçaları ilə ənənəvi formalara sadiq qalıblar. Eyni zamanda, malikanənin daxili mühitini dəyişdirərək kiçikmiqyaslı yarımdairəvi tağ bəzək elementi kimi təsir göstərir. Bu təmtəraqlı yaşayış binası öz memarlıq fəlsəfəsi və yeni üslubun açılması ilə memarın ənənəyə meylli olmasını göstərir. Memarlar yeni memarlıq təzahürlərinə olan maraqlarına baxmayaraq yaradıcılıqlarının bəhrəli olması üçün ilhamlandırıcı mənbələrə müraciət edərək yeni cərəyanın əhvali-ruhiyyəsini ənənəvi kompozisiya üsullarına və memarlıq formalarına yaxınlaşdırdılar. Bunun nəticəsində Qacarlar dövrünə mənsub olan memarlığın gələcək inkişafı üçün bəsləyici mühit yarandı.

İranın memarlıq irsinin zənginliyi, öz bədii məzmununa görə əhəmiyyəti həmişə dərin hörmətə səbəb olmuşdur. Onun ənənələri geniş və hərtərəfli, istər üfüqi, istər şaquli istifadə olunurdu, lakin xüsusi yaradıcılıq münaqişələrindən çəkinərək "məxməri" vərəsəliyin tərəfdarı idilər. Təəccüblü deyil ki, yaşayış binalarında yeni memarlıq-planlaşdırma fikirləri tədricən, ehtiyatla tətbiq olunur-

du. Yaşayış binasının memarlıq simasını hər iki üslub müvazi hərəkətdə, bir-birini tamamlayaraq və ümumi tarazlığı pozmayaraq açırdılar. Burada ənənəvi elementlərin plastikası yeni forma və üsulların daimi tətbiqi ilə müşahidə olunurdu (138, s. 58-65).

Fasad divarlarının səthi boş deyil, böyük və kiçik oyuqlara, vitrin-şəbəkələrə və ya eyvanlara çox böyük sahə ayrılıb.

Memarlıqda yeni üslubi xüsusiyyətlərin bərqərar olmasına baxmayaraq, ənənəvi kompozisiya üsullarına olan bağlılıq Qacarlar dövründə xüsusi yer tutur. Dövrün bədii-memarlıq prinsipləri müstəqil tarixi hal kimi demək olar ki, formalaşıb, yeni ifadə forması əldə edib.

Qədimi üsulların yenilənmə və İranın yeni üslub memarlığının möhkəmləndiyi platforma ilə eyni cərəyana daxil edilmə prosesi gedir. Memarlıq forma və elementlərinə maraq meydana gəlir və müasir milli evlərin yaranmasına imkan yaradır. Həm eksteryerdə, həm də interyerdə istifadə edilən, yeni mövzularla dolu olan dekorativ-tətbiqi incəsənətin sayəsində memarlığın bədii dili zənginləşdi. Hacı Həsən Qafurun yaşayış evində işlənən yeni üslub cərəyanı İsfahanın memarlığında da tam olaraq qərəzsiz mövqesini tapdı (245, s. 83).

Malikanənin planlaşdırmasında iki bağlı üslublu həyət seçilir: geniş mərkəzi və kamera üslublu, onların ətrafında əsas otaqlar qruplaşır. Həyətlərin bir-birinə nisbətdə yerləşməsi müsəlman cəmiyyətinin ictimai-məişət şəraitinə görə bir qədər təcrid olunmuşdur. Malikanənin planının aydın olmayan formasına baxmayaraq, həyətlər son dərəcə dəqiq simmetrik-ox parametrləri ilə tikiliblər və planlaşdırma kompozisiyasının klassik sxemini təmsil edirlər.

Malikanənin geniş sahəsinə sadə giriş və çoxsaylı seksiyalı çarpazşəkilli tağlarla örtülmüş əsas uzun dəhlizə aparır. Əsas girişin yaxınlığında kameralı hissəyə giriş yerləşir. Ensiz dəhlizdən dərhal sonra gözəl proporsiyalı həyətin daxili məkanı açılır. Dördeyvanlı kompozisiya qarşı perpendikulyarlı oxlar üzərində ənənəvi planlaşdırma struktu-

*İsfahan. Şeyx-ül-islamın yaşayış evi.*





*İsfahan. Şeyx-ül-islamın yaşayış evi.*



*İsfahan. Şeyx-ül-islamın yaşayış evinin planı.*



*İsfahan. Şeyx-ül-islamın yaşayış evinin kəsiyi.*

runu qoruyub. Yan otaqlar və dəhlizlər malikanənin digər hissələri ilə bağlayıcı elementlərdir (245, s.142, 143, 147).

Əsas ön hissəyə aparan baş dəhliz çox vaxt tromp vasitəsilə mürəkkəb formalı çatı ilə və səkkizguşəli taxçalı vestibüllə tamamlanır. Planlaşdırma strukturunun qarşılıqlı əlaqəsinin həllində yaşayış malikanəsinin həyətlərinin düzgün təşkil edilmiş fəzası kimi iri elementlərindən ibarət müəyyən xüsusiyyət mövcuddür.

Evin əsas elementlərinin simmetrik-oxu sistemində malikanəyə girişlərin aydın ifadə olunmuş istiqamət formaları yoxdur. Zəif işıqlanmış tağlarında balaca oyuqlu ensiz uzun və kor dəhlizlər yaşayış ərazisinin planlaşdırmasının kompozisiya mahiyyətini həll etmirdilər. Memarlıqda tam bədii ifadə almış daxili həyətlərin planlaşdırmasında və tikintisində giriş yollarının diqqətsiz işlənməsini inkar etməmək olmaz (110, s. 139).

Əsas həyət və ətaf tikililər ox simmetriyasının qanunlarını və daxili planlaşdırmanın eyniliyini qoruyub saxlayır. Dördeyvanlı həllin xüsusiyyətləri pozulmayıb, lakin vitraj-şəbəkə şüşəbənd istifadə edildiyindən fərqli şərh əldə edib.

Həyət tikilisinin baş fasadı iri formalarla, təmtəraqlı–təntənəli şərhdə verilibdir. Əsasına düz proporsiyalı üç çatma tağ qoyulub, şaquli ritm mərkəzi tağın yanlarından qoyulan qapı oyuqları düzbucaq çərçivələrlə vurğulanıb. Burada ox sistemi oyuqların yerləşməsində üstünlük təşkil edir və malikanənin simasının açılmasında ənənəvi formaların vacibliyini vurğulayaraq əsas memarlıq elementləri cəmləşdirilib.

Əgər fasad tamamilə ənənəvi üsullar üzərində qurulubsa, divar səthinin hissələrinə mütənasib olan formalar digər memarlıq elementləri ilə təqdim olunub. Fasadın kompozisiyasına yeni formaların tətbiqi memarlıq palitrasını həyətin əyani-məkan mühitinə kimi genişləndirməyə imkan yaratdı, yan fasadlarda göründüyü kimi daha azad məzmun daxil etdi.

Ənənəvi formalar üstünlük təşkil etdikdə yan fasadlar baş fasadla müqayisədə fərqli memarlıq mövzusuna malikdir. Burada uzadılmış fasad fərqli mütənasib hissələrlə eyni ox sisteminə malikdir.

Fasadın kompozisiyasındakı yarımdairəvi tağ həm qapı oyuqlarının tərtibatında, həm də taxta çərçivəli vitraj-şəbəkələrdə sərbəst təqdim olunub. Bununla belə, kamera üslubunun plastikliyi dekorativ səciyyəli incə xırdalıqlarla əldə edilib. Həcmli ifadə olunmuş baş fasadın fonunda yan fasadlar kiçikmiqyaslı tağları və aram hissələrlə dövrə uyğun üslubda çıxış edirlər.

Baş fasadda olduğu kimi üsulların müxtəlifliyi interyerlərdə də ənənəvi formalarda açılır. Binanın kəsiyində çəkici

tağların üzərindəki ifadəli günbəz, damın üzərində maraqlı siluet yaradan çatma tağlar görsənir. Bütün otaqlarda tağlı ikiyaruslu dayaz tağçalar yerləşdirilib, kompozisiya mahiyyətini müəyyən edən bir ədəd böyük çatma tağ üstünlük təşkil edir, interyerlərdə isə quruluşu vurğulanmış çəkici tağlarla, hələ ki, yerli şəkildə dayaq səciyyəli yarımdairəvi tağ iştirak edir. Müxtəlif formaların birgə istifadəsi Nəsrəddin şahın tətbiq etdiyi memarlıq cərəyanının sonrakı inkişafını müəyyən edir. Hər bir yaşayış evində yeni kompozisiya üsulları, formaları, mövzu və elementləri öz yerlərini tapır, məcmuda o dövrün evlərinin gözəl simasını yaradır.

İsfahan şəhərindəki Xane-Şeyxülislam ənənəvi memarlıq cərəyanı qrupuna aiddir, portal ilə ifadə olunmuş balaca girişlə düzbucaq sahədə yer tutur. Eninə yerləşən geniş həyətin ətrafında yaşayış və köməkçi hissələr qruplaşıb. Şərqi və qərbi hissələr dayaz və dərin taxçaları olan hasardan ibarətdir. Mərkəzi ox sistemi öz fəal vəziyyətini qoruyub, lakin yaşayış otaqlarının daxili planlaşdırması asimmetrik struktur əldə edib. Malikanənin planlaşdırma kompozisiyası geniş interkolumniyalarla ikisütunlu portikdən və hovuzlu dərin eyvandan, yanlardan isə balaca kameralardan və ona bitişik otaqlardan ibarətdir. Eyvanın arxasında mərkəzdə şahnişin formalı, üç qapı oyuqlu açıq üslublu lojiya otağa aparır. Şahnişinin içindən eyvanla perimetr boyunca taxçalı kvadrat formalı, ulduzşəkilli günbəzlə bağlı sol qanad və köndələn üslublu sağ qanad əlaqələnir. Şahnişinin və binanın sağ qanadı ikicərgəli otaqlardan ibarətdir. Burada, ənənəvi yaşayış evlərinə səciyyəvi olan qəbul üçün əsas zal mövcüd deyil. Ön zalda dərin taxçalı geniş eyvan və həyətə açılan stalaktit konxalı şahnişin yerləşirdi.

Binanın fasadının kompozisiyası Tehranda Gülüstan saray kompleksindəki "Taxt-tac salonunun" (251, s.115) məşhur fasadını xatırladır, ikisütunlu, yan ikiyaruslu pəncərə oyuqlarla, şəbəkə üslublu vitrinlərlə işlənmiş eyni memarlıq üsu-



*İsfahan. Şeyx-ül-islamın yaşayış evinin bir hissəsi.*

*İsfahan. Şeyx-ül-islamın yaşayış evinin bir hissəsi.*





lundan ibarətdir. Eyvanın daxili divarı üç çatma tağlarla vurğulanıb və iki taxçalı yarusa bölünüb. Qəbul edilmiş kompozisiya İran memarlığında Səfəvilər və Qacarlar dövründə müxtəlif variasiyalarda memarlar tərəfindən istifadə edilən ənənəvi klassik üsuldur.

Təntənəli həll edilmiş mərkəzi bina və onun həcmi-məkan strukturu bədii qaydalı memarlığın plastik xüsusiyyətlərini üzə çıxardır. Fasadın həndəsi quruluşu, eyni zamanda tağ xətlərinin ağırlığı, taxçalı mürəkkəbləşdirilmiş stalaktit konxa və kapitellərin inkişaf etmiş elementləri ilə sütunların qədd-qamətliliyi çox maraqlı memarlıq kompozisiyasının yaranmasına səbəb olmuşdur. Endirilmiş yan qanadlar torpağın yaxşı təşkil edilmiş qrafiki ilə həyət məkanının sərhəddini tamamlayır. Burada həyətdə salınmış böyük dairəvi bağlar və ənənəvi düzbucaqlı hovuz xüsusi mikroiqlimli əyani-məkan mühit təşkil etmişdilər. Həyət hasarının kor şərqi və qərbi divarları boyunca tağ sırasının dayaz və dərin taxçaları yaşayış malikanəsinin daxilində dinclik və rahatlıq hissi doğururdu (245, s. 81-84). Səfəvilər dövrünün ənənəvi memarlığına daha yaxın olan Yəzd şəhərindəki Dövlət-abad imarətini nümunə gətirmək olar.

Qacarlar dövrünün Yəzd şəhərindəki Xane Lariha malikanəsi tamamilə fərqli memarlıq-planlaşdırma kompozisiyası təşkil edir. Həyətin ətrafında ön, yaşayış və təsərrüfat-məişət təyinatlı otaqlar yerləşir. Malikanədə zirzəmi otaqlarına xeyli yer ayrılmışdır. Həyət təmtəraqlıdır. Planlaşdırmada simmetrik ox sistemi qanunauyğun haldır və bütün tikili kompozisiyanın özəyi olan dərin zala və səkkizmetrlik aralıqlı eyvana bağlanır. Planlaşdırmada, əsasən köndələn istiqamətdə, otaqlar iki cərgə ilə tikilib. Həyətin perimetri boyunca ənənəvi plan-

laşdırma sxemi müxtəlif kompozisiya həllində qüvvədə qalır.

Xüsusilə, hovuzlu və gülüstanlı həyətə açılan, dayaz tağlı zal-eyvan dəqiq işlənib. Zalın divarları mərkəzdən və yanlardan ikiyaruslu dayaz bəzək taxçaları ilə işlənilib. Son dərəcə möhtəşəm divarların təntənəli ifadə olunmuş plastikası Sasanilər dövrünün saray memarlığını xatırladır. Yan ikiyaruslu hissələr düzbucaq şaquli haşiyədə çox ifadəlidir.

Ciddi formalı oyuqlar tağın möhkəm və qüvvətli xətti ilə mərkəzə nisbətən fonun problemini həll edir. Fasadın üfüqi hissələri həm həcmi, həm də bədii cəhətdən bir-birini tarazlaşdırır. Çünki burada dövrün imkanları onun üslubunun fəlsəfəsini ifadə edə biləcək yüksək səviyyəli memarlıq və fəza kompozisiyası yaradılıb.

Meydana gəlmiş ətraf tikililərin memarlıq mühiti fasadların həllinin ənənəvi sxemini saxlayıb. Yəni girişlərin yan oyuqları ilə mərkəzin ox sistemini, sonra fasadın tamamlanmasında iştirak edən qoruyucu pəncərələri. Fasadın formalaşmasında, divar səthinin memarlıq strukturunun xəsiyyətini dəyişən və dövrün tələblərinə cavab verən üsulun açılmasına digər istiqamət verən qutu üslublu tağ və tağtavanlardan istifadə edilib (46, s. 82).

Cənubi fasad sadə naxışlı ornamentlə üslublaşdırılmış ənənəvi formalarla həll edilib. Memarlar həyəti əhatə edən tikililərin memarlığında kompozisiya üsulları ilə birgə yeni forma, mövzu və elementləri mənimsəyib, yaradıcılıq palitralarını zənginləşdiriblər və uğurlu həcmi-məkan sistem yaratmışlar. Bu obyektdə geniş miqyasda müxtəlif variasiyalarda işlənmiş dekorativ ornament elementi şəklində yarımdairəvi ikiyaruslu tağ-taxçalar istifadə edilib və fasadda yarımdairəvi tağ yerləşdirilmişdir.

Xane Lariha – həcmlərin məkandan üstün olduğu, yeni memarlıq cərəyanının üslub quruluşu təcəssüm tapan böyük malikanədir. Burada keçmişin memarlığının səciyyəvi hallarının bütün mahiyyətini dəyişən ənənəvi üsulları dərindən dərk edilmişdir. Biz fasadların memarlığında dördeyvanlı planlaşdırma kompozisiyasından ayrılan eyvanın ön zal qismində istifadə edilməsi kimi yeni mövzu, tarixi irsə hörmətli münasibət görürük.

Xane Kuçuk və ya Yəzd şəhərində Fəhadan məhəlləsindəki yaşayış evi həcm və məkan kompozisiyasının mürəkkəbləşdirilmiş memarlıq-planlaşdırma tikili nümunəsidir. Xane şərqdən qərbə və qismən şimali-şərqə uzadılmış sahəyə malikdir. Cənubda malikanə düz, pilləli çevrəyə malikdir. Belə tikili yaşayış malikanəsinin inkişafının ənənəvi qanunauyğunluqları ilə daxili planlaşdırma strukturuna çox nəzakətli münasibət tələb edirdi. Bu malikanə müxtəlif sahəli və təyinatlı dörd həyətdən ibarətdir, ətrafında otaqlar qruplaşıb. Qarşılıqlı əlaqə mürəkkəb keçidlər vasitəsilə həyata keçirilir, onlar hər bir həyəti fərdi dünyalara təcrid olunmuş daxili fəzaya çevirirlər.

Bu vəziyyətə baxmayaraq, ümumi memarlıq-məkan kompozisiya memar üçün həcmlərin quruluşu ilə, memarlıq formalarının şərhi ilə, həyət planlaşdırma strukturunun inkişaf prosesi ilə maraq doğurur. İki həyət – düzbucaq formalı ön həyət və kameralı, səkkizguşəli, bircərgəli otaqlar tikilisi ilə malikanənin planlaşdırmasının əsas özəyini təşkil edir. Üçüncü, balaca səkkizguşəli formalı açıq vestibül pozisiyasını tutur. Dördüncü tikilinin əsas həcmindən uzaqlaşdırılıb və köməkçi qismində çıxış edir. Ön həyətə iki ensiz dəhlizdən, şimali və şimali-şərqi girişdən daxil olurlar. Yaşayış malikanəsində bir-

başa həyətə aparan xüsusilə vurğulanmış portal girişlər yoxdur. Hər şey təntənə və açıqlığı istisna edir və qapalı səciyyəlidir. Qaranlıq uzun dəhlizlərdən keçdikdən sonra uzun hovuzlu, gülüstanlı və meyvə ağacları olan ön həyətə çıxmaq olur. Əslində, ox üzərindəki dərin eyvanların və vitraj-şəbəkəli digər otaqların yönəldiyi həyət cənub səma altında açıq üslublu zal təşkil edir.

Eyvanlarının qutu formalı tağlarında, binanın çatma tağlı girişlərində,

*Yəzd. Dövlət-abad. XVII əsr. Ümumi görünüşü.*





*Yəzd. Dövlət-abadın kəsiyi və plafonu.*



*Yəzd. Dövlət-abadın konstruksiyası.*



*Yəzd. Dövlət-abad plafonu.*

yan otaqların ikiyaruslu vitrajlarında ön həyətin bütün əyani-məkan mühitində bədii əhval-ruhiyyə hökmranlıq sürür. Memarlıq formaları digər mütənasiblik, şəkli digər xasiyyət əldə etdiklərinə baxmayaraq həyət məkani və mənəvi xüsusiyyətlərini qoruyub saxlamışdır. Zəngin həcmli plastika fasadların memarlıq kütlələrinin imkanlarını genişləndirərək, simmetrik çəkilmiş ox əsasında tikilmiş xüsusi kiçik dünya yaradır.

Malikanənin kameralı hissəsi səkkizguşəli həyətlə açıq üslublu zalın ifadəli məkan kompozisiyasını təşkil edir. Malikanənin rahat həyəti evə xas olan vacib xüsusiyyətlərə malik idi: məhrəmlik, qonaqlardan uzaq olma, istirahət və düşüncələr üçün əlverişli mühit. Stalaktit yarımgünbəz formasında olan dekorativ mövzulu həyətin müvafiq memarlığı, şəbəkəli ikiyaruslu pəncərələri olan şaquli taxçaların hərəkəti, divarların isti çalarlı açıq kərpic hörməsi sayəsində meydana gələn atmosfer qeyri-ixtiyari olaraq dərin emosiyalara səbəb olur. Səkkizguşəli formalı hovuzun bortları həyətin daş səthi ilə birləşir, ənənəvi qızılgül kolları, su şırıltısı mühitin gərginliyini tamamilə çıxardırdı.

Burada asayiş üçün hər bir şərait yaradılmışdır: həyət məkanının memarlığı, torpağın qrafiki, qızılgül ətri, su kompozisiyası. Həyətin və açıq eyvanlı zalın memarlığı İran memarlarının yaratdığı vahid mövzu təşkil edirdi. İkiyaruslu taxçaların çatma tağ formaları, interyerdə dekorativ mövzuların şərhi, həcmli kütlələrin plastikası bir-birinə qarışırdı. Ön və kamera hissələrinin dayaz damları üzərində düzbucaq taxçalı kor çəpərlənmə keçir və terras funksiyasını yerinə yetirən böyük səthlərin monotonluğunu aradan qaldırırdı.

Daxili həyətlərlə, eyni qaydalı memarlıq kompozisiyalı, ənənəvi üsul və mövzulu yaşayış malikanəsinin həcm-

lərinin yeni təfsirinin gözəl işlənməsi bu binanın XIX-XX əsrlərdə İranın yaşayış memarlığının məşhur abidələri sırasına daxil olmasına imkan yaratdı (121, s. 115).

Yəzd şəhərinin yaxınlığında Qacarlar dövrünün kompozisiya üsul və formaları ilə yanaşı, memarlıq kütlələrinin şaquli dinamikası ilə yanaşı xüsusi həcmli plastikliklə fərqlənən Abarkuh şəhəri yerləşir. Nümunə kimi, Ağa-zadə imarətini göstərmək olar (246, s. 2, 93).

Erkerli Xanədə memarlıq-planlaşdırma strukturu əvvəlkilərə nisbətən tamamilə fərqli interpretasiyada həll edilib. Günbəzlə örtülmüş, səkkizguşəli vestibüllü portal dəhlizdən birbaşa ikimərtəbəli tikililərlə əhatə edilmiş geniş həyətə (22x33) çıxır. Simmetrik-oxlu planlaşdırma kompozisiyası səliqəli həyətlə birgə eyvanlı ənənəvi həlli saxlayıb, divarların konstruksiyaların köndələn qaydası və həndəsi dəqiqlik üstünlük təşkil edir. Həyətin cənubi və şimali divarlarının oxları üst-üstə düşür və yaşayış seksiyaların həllinin mütəşəkkilliyi heyran edir. Binanın planlaşdırmasına iki simmetrik yerləşən erkerlərin daxil edilməsi və fasadların ikinci, hovuzlu (40x70) daha geniş həyətə baxması nadir haldır və diqqətə layiqdir. Həyət perimetr boyunca tikilməyib və bağ sahəsi üçün ayrılıb, ikinci mərtəbədən xiyabanlara və hovuzun kənarındakı gülüstanlara gözəl mənzərə açılır.

Həcm və məkan kompozisiya sərt həndəsi formalar əsasında qurulub. Fasadın mövzusu dayaz düzbucaq taxça ilə ifadə olunub, cüt və ya üççat pəncərələr

*Yəzd. Kiçik-Ərbaha imarətinin aksonometrik görünüşü.*



daxil edilib. Fasadın məhz müxtəlif həcmli elementləri olan karkas sxemi yaşayış binasının memarlıq strukturunu müəyyən edir. Şaquli hissəli daxil edilmiş pəncərə oyuqlu qapalı həyətin vitraj kompozisiyalarının səthini təşkil edir. Obyektdə üfüqi hissələri dəqiq və sadə həcmlər erkerlərin qüllələri ilə kəsilir. Ənənəvi kompozisiya üsulu olan digər malikanələrdən fərqli olaraq, burada orijinal və yerli konstruktiv yanaşma, həcmli kütlələrin zidd nisbətində üstünlük təşkil edir və fəal plastik gücə malikdir.

Disful şəhərindəki "Xane Hacı Kasab" son dərəcə ənənəvi üslubdadır, planlaşdırmasında və memarlığında milli və klassik üsullar əks etdirilib. Yaşayış evi yerləşən kiçik sahə çox sıx tikilib. Təşkiledici element olan həyət geniş deyil (10x10 m) və öz ətrafındakı tikililəri qruplaşdırır. Geniş terrasa çıxan, yuxarı mərtəbə ilə bərabər iki mərtəbənin bircərgəli otaqları "sınaqşəkilli" kərpic hörgülü düzbucaq dayaz çərçivəli çatma tağlarla bəzənib. Bu binanın ən görkəmli hissəsidir, tilli tağlarla örtülübdür. Tağların tilləri arasından ikiyaruslu taxçalar çıxır. Bu üsulun istifadəsi nəticəsində otaqların interyerlərində memar şərhli plastikanın bolluğu meydana gəlir. Həcmli formaların ciddiliyi, terraslıq və mərtəbələrin müxtəlif nişanları yerli binatikmənin qanunlarını qoruyan yaşayış evinin gözəl məkan kompozisiyasını tamamlayır.

Disful – İranın əyalət şəhərlərindən biridir, o zaman bura yeni memarlığın əlamətləri gəlib çıxmamışdır və buna

*Yazd. Kiçik-Ərbaha imarəti. Plan.*



görə ənənəvi üsul və formaları yabancı təsir olmadan inkişaf edirdi.

Şiraz şəhərinin yaşayış evlərini memarlıq baxımından maraqlı qrupa aid etmək olar. Yaşayış tikililərinin planlaşdırma strukturu İranın digər vilayətləri ilə qapalı daxili həyətlərdən, bircərgəli otaqlardan ibarət ümumi üsulları qoruyur. Dördeyvanlı həllin ənənəvi prinsipi çox vaxt bəzək örtüyü ilə şüşələnmiş qalereya-vitrajlara çevrilir, ənənəvi və səciyyəvi həcm və məkan sistemi sanki yox olur. Həyət məkanı eyvan-vitrajlara bölünərək hovuzdan və gülüstandan ibarət təcrid olunmuş meydançaya çevrilir. İnteryerlər və həyət arasında qarşılıqlı əlaqə itir. Qapalı səciyyəli memarlıq-planlaşdırma üsullarına üstünlük verilir. İnteryerlər müstəqil əhəmiyyət əldə edir və onlara xüsusi memarlıq-dekorativ diqqət verilir.

Şəhərin cənubi iqlimi şəraitində qapalı eyvanlara ehtiyac yox idi. Cəmiyyətin ictimai-iqtisadi inkişafı taxta və gətirilmə şüşədən geniş istifadə etməyə imkan yaradırdı və yaşayış malikanələrinin həcmi-məkan strukturuna təsir edən bu növ həllə təşviq edirdi. Şirazın yaşayış evləri həmişə fasadların zənginliyi və interyerlərin təmtəraqlığı ilə fərqlənirdi, ənənələr bu baxımdan öz qüvvəsini itirməmişdir. Sonralar da, rəsmi və yaşayış otaqlarının daxili məkanının bədii həllində öz mövqesini əldən verməmişdir.

Əvvəllər yaşayış malikanəsinin həyət məkanı açıq səciyyəli olsa da, zaman keçdikcə digər memarlıq məzmun əldə edir. Həyət gözəl vitraj-şüşəbəndləri sayəsində özünəməxsus memarlıq xüsusiyyətləri ilə yaşayış evinin müstəqil elementinə çevrilir. Vitrajın geniş ekranı dolğun memarlıq kompozisiyasını təmsil edir. Taxta tirlərin üfüqi hissələri şaquli dirəklərin hərəkəti ilə birgə karkas, dekorativ işlənmədə incə çəkilmiş yarımdairəvi tağlar təşkil edir. Tağlara ornamentli pəncərə çərçivələri daxil edilib.

Böyük ustalıqla doldurulmuş hər bir yarımdairəvi tağ güclü ifadə olunmuş kompozisiya kimi qəbul edilir. Ekranın geniş oyuğu yanlardan girişlərlə, stalaktit tamamlama və incə icra edilmiş dekorativ formalı aralıqlarla qorunur. Həyət tikililərinin fasadlarının belə ifadəsi yeni memarlıq strukturunun meydana gəlməsinə səbəb oldu. Eyni zamanda, uzun müddət öz əhəmiyyətini saxlayan eksteryer və interyerin qarşılıqlı əlaqəsini möhkəmləndirən həyət məkanının özünə məxsus çalarlarla yeni forması meydana gəlmişdir. O, müəyyən dərəcədə itmişdir və yeni həlli olan iki memarlıq pozisiyasına bölünmüşdür. Bu Şiraz şəhərinin yaşayış malikanələrinin həcm və məkan sistemində dəyişikliklərlə nəticələndi.

Şiraz şəhərindəki Xavali yaşayış malikanəsinin interyeri yeni kompozisiya və memarlıq üsullarının meydana gəlmə prosesini göstərir. Bununla belə ənənəvi həcmli şərh otağın ilkin forması kimi saxlanılıb, lakin onun daxili mahiyyəti digər istiqamətdə inkişaf edir. Oyuqların, ekranların və digər divar elementlərinin formaları ümumi quruluşa və interyerin bədii həllinə təsir göstərən yarımdairəvi səciyyəyə malikdirlər. Divarların dekorativ işlənməsinə ehtiyac yoxdur.

Divarların səthi və interyerlərin plafonları bitki və həndəsi şəkilli ornamentlə örtülmüşdür. Şaquli və üfüqi hissələrin dəqiqliyi mövcuddur, profilləşdirilmiş dartıcılar və karnizlər memarlıq elementlərinin həcmli plastikasını təşkil edir. Hər şey memarlıq və dekorativ üsulların həcmli mənimsənməsində qurulub. Güzgülü ekranlardan geniş istifadə və otaq interyerinin təkrar əksi, yaşayış malikanəsinin daxili məkanında yarımdairəvi formalarla yeni memarlıq ifadələrinin açılmasına imkan yaradırdı.

Qeyd etmək lazımdır ki, Qacarların hökmranlıq etdiyi dövrdən başlayaraq yaşayış və saray otaqlarının interyerlərində və həmçinin fasadların tamamlanmasında yarımdairəvi tağ memarlıq forması kimi üstün elementə çevrildi.

Əbdül-Məcid Tulaninin evinin interyeri tağların formalaşma prosesini və dayaz taxça və ya oyuq şəklində müxtəlif kompozisiya üsullarına daxil etmə tezisini sanki təsdiqləyir. Burada tağ mühüm əhəmiyyət kəsb edir və güclü profilləşdirilmiş dərin taxça vasitəsi ilə plastik formada aydın ifadə olunub. Yuxarı yarusun tağları ornament mövzuları və rəng çalarları ilə zəngindir. Yaruslar arasında stalaktit kəmər kimi bəzəyin əlavə edilməsi aşağı yarusun vacibliyini qoruyaraq müəyyən məsafə meydana gətirir. Dayaz, naxışlı tavan dekorativ təməlinə baxmayaraq interyerin neytral zonası kimi qalır. İnteryerin maraqlı daxili məkan strukturdan irəli gələn memarlıq və ifadəli vasitə ehtiyatı zəngin və müxtəlifdir.

Şiraz şəhərində Bələndə Hamidin yaşayış evinin bir otağının interyeri Havalinin evinin interyerinin prototipidir. Xüsusilə, otağın dirək divarının həllində divar səthinin memarlıq şərhində kompozisiya üsulu, hissələrin şaquli və üfüqi nazik zolaqları, ornament mövzuları və yerləşmə prinsipi eynidir. Divarın səthi plastik ifadədə qəbul edilmir, oval çərçivədə Avropa üslublu qadın portretləri təsvir edilmiş rəsm əsəri modeli kimi qəbul edilir. Bu divar italyan İntibahı dövrünün saraylarının fraqmentinə yerli əlamət qataraq göstərir (246, s. 28-36).

Avropa incəsənət məktəbinin portretləri icra tərzi ilə və şəklin səciyyəsi ilə fərqlənirlər (43, s. 215). İnteryerin plafonu bu mövzunun davamıdır və qabarıq formada icra olunub. Plafon çıxıntılı dayaq tirləri, profilləri, şiddətlə çəkilmiş paduqası, ornament lenti, kessonlu tavanın keçidi kimi interyerin maraqlı hissəsidir. Rəngi tündləşdirilmiş plafon divarların açıq rəngli səthlərinin üzərindən sallanaraq ziddiyyət təşkil edir və hərəkətli mühit yaradır. Memarlıq formaları və dekorativ üsullar interyer həllində yeni variasiya yaratdıqda interyer kompozisiyası özünü ifadə etmək üçün yeni təkan alır. Otağın memarlığının avropalaşdırılmasına baxmayaraq, onun əsasını, yerli interyerlərin açılmasında memarlıq məktəbinin mahiyyətini qoruyan dekorativ siması və ənənəvi üsul və mövzular təşkil edir.

Ümumi səciyyəvi cizgilərə baxmayaraq, İsfahanın yaşayış memarlığı Şiraz memarlığından fərqlənir. Eyni zamanda, Qacarlar dövrünün memarlığına təsir göstərən klassik üslub aydın hiss olunur.

Seyid Əhmədin məhəlləsində, Vəliəsr xiyabanında yerləşən Ehrabinin yaşayış evi daxili həyətlərdən ibarətdir. Malikanənin şimali hissəsində yerləşən dördeyvanlı tikili sistemi olan ön həyət dəqiq ox istiqamətlərinə malikdir. Burada vitrajlar istifadə olunub, iki yarusda karkasda yarımdairəvi tağlar daxil edilib. Müəyyən dərəcədə yerli formaların iştirakının ənənəvi prinsipi yeni memarlıq təzahürlərindən istifadə edildiyi üçün pozulub. Lakin şəhərin klassik ənənələrinə sadiq qalan həyətin ümumi kompozisiyasında İsfahan formalı iri çatma tağlar, stalaktitli taxçalar, dayaz çərçivələr üstünlük təşkil edir.

Müasir memarlıq tendensiyaları memarların öz irslərinə bağlı olmaqlarına baxmayaraq, onların yaradıcılığına təsir göstərməməyə bilməzdi. Yaşayış və mülki binaların strukturuna müxtəlif kompozisiya üsul, forma və mövzularının daxil olması bundan irəli gəlir.

Bu hal Hocati Ələsalam Seyid Badabadinin yaşayış malikanəsində müşahidə olunur. Burada həyət məkanının dördeyvanlı



*Təbriz. İmarətin ümumi görünüşü.*



tikinti sistemi bundan qabaqkı malikanənin memarlığında olduğu kimi eyni şərhə malikdir. Simmetriyanın əsas oxu vitrajla tutulmayıb, ifadə olunan üç sadə pəncərə oyuqlarının kənarlarındakı yan pəncərələr çatma tağ şəklində qoruyucu kimi çıxış edir. Hakim çatma tağ tikilinin kompozisiyasına təsadüfən daxil edilməyib, əyani mühitdə öz memarlıq-funksional xüsusiyyətləri ilə qanuni elementdir.

Eyni zamanda, İsfahanda əsas oxları gözəl portiklərlə tamamlanan yaşayış malikanələri tikilmişdir. Bu müasir memarlığın və şəhərin ənənəvi prinsiplərinin özünəməxsus bir şəkildə ifadəsi idi. Bunlardan biri Əminənin evi yanında Əbdülrəzaq ünvanında "Xane Aləm" idi, digəri Xiyabani İbn Sina Məscide Səfa ünvanında yerləşən "Xane Ləbbaf" idi.

Özünün klassik memarlıq abidələri olan İsfahan kimi şəhərdə sütunlar sırası kimi məşhur kompozisiya üsulunun meydana gəlməsi təsadüfi hal deyildir. XIX-XX əsrlərdə Qərbi memarlıq İran cəmiyyətinin fəaliyyət mühitinə fəal surətdə daxil olurdu. Bu hal yerli memarların, həm şəhər sifarişçilərinin bəyəndikləri Avropa eklektika və üslublaşdırma üsullarını Şərqdə tətbiq edən xarici memarların yaradıcılığına təsir göstərməməyə bilməzdi. Oxşar hal İran memarlığında ümumiləşməmişdir, lakin əsasən imarət kimi gözəl abidə qoymuş Qacarlar üslubunun himayəsi altında inkişaf edirdi.

Bu üslubi cərəyanda parlaq surətdə təqdim olunmuş Təbrizin bəzi imarətləri şəhər tikintisində xüsusi yer tutublar. Bura Hacı Mehdi Kuzakonaninin, Şərbətoğlunun, Vəhdəmin və s. imarətlərini aid etmək olar. Onlar tikinti sənətinin ümumi inkişafına kömək edən yeni ideyalı memarlığın əmələ gəlmə qanununu təsdiqləyir.

Hacı Mehdi Kuzakonaninin imarəti məhdud yaşıllığı olan kiçik həyətə baxır. Planlaşdırma strukturu inkişaf etmişdir, geniş vestibülü var. Onun arxasında böyük sahədə işıqlandırma üçün üst fənəri olan təmtəraqlı üçmarşlı pilləkən tutur. Ətrafında həm birinci, həm ikinci mərtəbədə təcrid olunmuş otaqlar qruplaşır. Vestibülün üstündə baş zal, yanında isə fasadın portikinin ümumi kompozisiyasını təşkil edən eyvanlı yan otaqlar yerləşir.

Fasad mərkəzdə gözəl yarımdairəvi üçtağlı portiklə, sütunlarda isə ikimərtəbəli qanadlarla təqdim olunub. Korinf kapitelli qamətli sütunlar portikin incə tağlarını saxlayır, qoruyan hissələr isə bu memarlıq kompozisiyasının əhəmiyyətini daha da vurğulayırdı. Portikin arxasında baş zalın pəncərələrinin üç iri yarımdairəvi tağları əsaslı dərəcədə seçilirdi. Zalın pəncərələri incə işlənmiş memarlıq element və detalları ilə, rəngli şüşələrlə dolu vahid vitraj sistemi təşkil edirdi və gün işığında zalın inanılmaz dərəcədə gözəl görünüş verirdi.

Korinf kapitelli və yarımdairəvi tağlı portikin ümumi memarlıq kompozisiyası ənənəvi memarlığın çıxışını təşkil etməyinə baxmayaraq, binanın bütün üslubu yerli xüsusiyyətlərdən ibarət idi. Burada fasad şərhi, mütənasib hissələr, kapitellərin işlənməsi qədim və qüdrətli irsin tikinti mədəniyyətinin xüsusiyyətlərində əks olunurdu (102, s. 22).

Portiklərin binanın üzərində portalla yanaşı quraşdırma prinsipi Səfəvilər dövründə geniş istifadə olunurdu. Bunu xüsusilə Xəzər dənizinin sahilində, İsfahan şəhərində Əli-Kapu, Çehel-sütun, Güzgülü sarayda, Əşrəfin sarayında müşahidə etmək olar. XIX əsrin memarlığında belə üsulun istifadəsi, binanın kompozisiyasının həllində yerli memarların müəyyən dərəcədə Qərbin təsiri altında olmalarına baxmayaraq öz ənənələrinə müraciət etmələri təəccüblü deyil. Bu

səbəbdən İran şəhərlərinin memarlıq mühitində yad olmayan, milli irsin ayrılmaz hissəsi olan tikililər meydana gəldi (13, s. 58); (12, s. 126).

Ərdəbil şəhərinin memarlığı, ilk öncə Şeyx-Səfi kompleksi ilə təqdim olunmuş məşhur memarlıq abidələri Təbriz, Kaşan, Qəzvin, İsfahan və s. şəhərlər kimi kiçik sahələr və tikililərlə qane oldu və imarətlər şəhər mühitindən kənara çıxmadı. Yeganə nümunə kimi Zənd dövrünə aid olan "İbrahimin evi"ni göstərmək olar (246, s. 80, 181). Evin həcmi-məkan və memarlıq həlli maraq doğurmur, baş zalın interyeri ənənəvi üsulda həll edilib. Memarın süni dekorativ səciyyə alan konxalardan, interyerin daxili məkanına bağlı olmayan stalaktit forma və üsullardan istifadə etmək arzusu hiss olunur. Buna baxmayaraq, interyeri ənənəvi elementlərlə bəzəmək üçün çatma tağlarla stalaktit layı göstərmək cəhdi göstərilib.

İsfahanda saray binalarının tikintisi zamanı, Səfəvi dövrünün memarlarından şah sarayının ictimai-iqtisadi vəziyyətinə cavab verən yeni memarlıq simaları, kompozisiya üsulları, həcmli həllər yaratmaq tələb olunurdu.

Keçmişin saray memarlığı əsas sifarişçi olan şahı qane etmirdi. O, hərtərəfi fasadlı, bağ-park məkanına açılan təntənəli və təmtəraqlı kompozisiyalar tələb edirdi, binaların qapalı həcmli kompozisiyalarına şah biganə qalırdı. O həqiqətən incə memarlıq formalarını, incəsənətin sintezini, eksteryer və interyerin vahid kompozisiya strukturunun təşkil etdiyi daxili məkanda yüngüllüyü xoşlayırdı.

Memarlar İsfahan saray memarlıq mühitinə sütunlar sırasından ibarət portikləri geniş və azad şəkildə əlavə edirdilər (32, s. 171). Baş fasadın portikləri birsıralı sütunlarla təsvir edilməyib, mürəkkəb üslublu digər memarlıq-konstruktiv sistemini təşkil edirlər. Baş fasadın geniş üzündə portikin çoxsıralı sütunları İran memarlığına yad deyil, Əhəmənilər dövrünün Apadanasında iri miqyasda istifadə edilib. Düzdür, Səfəvi dövrünün portikləri ilə Apadana arasın-



*İsfahan. Kahi iqamətgahının əsas görüntüsü.*

da iki min ilə yaxın zaman keçir. Orta əsr durğunluğu Avropaya qədim Yunanıstan və Roma portiklərindən istifadə etməsinə mane olmadı (26, s. 300).

Səfəvilərin portikləri taxtadan tikildikləri üçün fərqli bədii məzmuna malikdirlər. Buna baxmayaraq, ölkənin qədim memarlıq ənənəsi özünü yeni ifadədə göstərdi. Taxtadan olan, hündür və qamətli sütun portikin həllində fərdi forma kimi əhəmiyyət kəsb edir. Sütun portikin strukturuna müstəqil element kimi daxil olur, binanın həcm və məkan kompozisiyasında öz vəzifələrini yerinə yetirir. Eyni zamanda ayrılıqda da işləyə bilir, çünki sütun şaquli dirəklərin hərəkətini təşkil edən tir-dirək sisteminə daxil olur. Dirəklər estetik surətdə həll olunub və portikə Apadananın sütunlarından fərqli olaraq, öz dövrünə cavab verən yeni üslub istiqaməti verir. Burada memarlığın eklektika əsası yoxdur, yeni rakursda kompozisiya üsullarının yaranması müşahidə olunur.

Sasanilər dövrünün günbəz və tağları vacib memarlıq-quruluşlu forma alaraq, gələcəkdə interyerlərinin əsas elementlərinə və ictimai və mülki binaların həcmli həllinə çevrildilər (30, s. 282). Səfəvilər sarayında bu formalar quruluşçu əsasla birgə, tikinti xüsusiyyətləri alan zəngin dekorativ örtük əldə edirlər. Sarayın binasında tağlı və günbəzli örtü kimi mülayim formaların və sütun sıralı portikin istifadə edilməsi memalıq kompozisiyasının həcmli həllinin yeni şərhdə meydana gəlməsinə səbəb oldu. Forma və həcmlərin zənginliyi əyani-məkan mühitində binanın hərəkətli inkişaf etmə imkanını artırır.

Portik saray binalarında güclü quruluş bünövrəsi alaraq, Şah Abbasın dövründən sonra da bu istiqamətdə inkişaf edir (91, s. 45). Bu növ sonrakı tikililərdə böyük yaradıcı fantaziyaya malik olan

*İsfahan. Kahi iqamətgahının kəsiyi.*







*İsfahan. Kahi iqamətgahının daxili görünüşü.*

memarların yüksək tikinti bacarıqlarını nümayiş etdirən tağ və günbəzlər inkişaf edir. Hərtərəfli fasada və gözəl portiki olan sarayın binası gələcəkdə daxili zallarda sütunlara, ya tağ sıralı eyvana və ya imarətlərin fasadlarının mərkəzi hissəsinin lojiyasına çevrilirdi (245, s. 169).

Saray tikililərinin memarlıq inkişafının mühiti ənənəvi kompozisiya üsulu, forma və həcmli elementlərlə həmahəngdir. İranın Səfəvi dövrünün sarayları daha aydın İsfahanda göstərilib. Məhz burada, ölkənin o dövrdəki paytaxtında öz simalarında dövrün qüdrətini və əzəmətini cəmləşdirən və klassikaya çevrilən saray tikililəri meydana gəldi (240, s. 265).

Səfəvilər dövrünün ən məşhur tikilisi "Çehel sütun"dur ("Qırx sütun", 1950-ci il) (116, s. 325). Geniş saray kompleksində yaşıl bağlarla əhatələnmiş təmtəraqlı memarlıq gözəlliyinə malik olan "Çehel sütun"-un qarşısında çox böyük düzbucaq hovuz tikilib. Çoxsütunlu portik suda əks olunduğuna görə "Çehel sütun" adlandırılıb. Əslində fasadın qarşısında olan portik üççərgəli altı taxta sütündan ibarətdir, onların arxasında lojiyaların daha iki sütunu yerləşir. Məcmuda sarayın həcmi-məkan strukturunda iyirmi sütun üstün mövqe tutublar.

Saray düzbucaqlıdır, eninə və uzununa yerləşən dəqiq oxlarla və simmetrik əsasla binanın planlaşdırmasının daxili sisteminin inkişaf xasiyyətini ardıcıllıqla açan üç seksiyaya bölünüb. Sarayın planlaşdırmasında əsas və tabe elementlər qanunu işləyir. Burada nə daxili həcmlərin yerləşdirilməsində, nə də divar və çatıların konstruktiv həllində təsadüfi hallara rast gəlmirik (116, s. 325).

Sütunlarla çoxlu seksiyalara bölünən portik Apadanaya bənzəyir. Misal üçün, Persepolda Kserks sarayının taxt-tac salonu sütunları 19,5 metrdir, "Çehel sütun" portikinin sütunları 14,6 metrdir. Əlaqəli olmalarına baxmayaraq, ritmika və formalar, ifadənin memarlıq vasitələri



*İsfahan. Kahi iqamətgahının əsas görüntüləri.*





*İsfahan. Kahi iqamətgahının bir hissəsi.*



*İsfahan. Kahi iqamətgahının hissələri.*

də tamamilə fərqlidir. Bu arada portik saray binasının təntənəli kompozisiyasını təqdim edir. Lakin sütunlar çox deyil, portikin eninə və içəri inkişafı yoxdur. Bununla, portik öz məzmununu saxlayaraq, fərqli memarlıq-bədii mövqelərdə və həcm qanunları ilə şərh olunub.

Portikin eninə və uzununa oxlarının mərkəzini bir seksiyada alçaq hovuz tutur. Şərqdə qədim zamanlardan suya olan ibadət otaqlarının daxili məkanın və ətraf mühitin planlaşdırmasında öz qüvvəsini itirmirdi. Bu səbəbdən hovuzlar, xüsusilə alçaq hovuzlar mikroiqlimin həllində iştirak edərək, interyerdə aparıcı rola malikdirlər və eyni zamanda memarlıq vəzifələrinə xidmət edirlər.

"Çehel sütun"un orta hissəsi geniş və dərin lojiyalarla və köndələn istiqamətdə qoruyucu zallarla təqdim olunub. Zallar perimetr boyunca çoxsaylı oyuqlarla açılması nəticəsində lojiyanın bir hissəsinə çevrilirlər. Bütün yeni otaqların açıq əlaqələndirmə prinsipi saray planlaşdırmasının mühüm hissəsini təşkil edir. Bu prinsip o dövrün digər tikililərində də saxlanılıb və Qacarlar dövründə davam etdirilib. Sarayın orta hissəsi avanzaldır. Baş zala keçid şahnişindən keçir. Yan fasadların lojiyaları bitişən kiçik künc otaqlar sarayın çarpazşəkilli hissəsində yerləşir.

Ön zal mütənasib iki kvadratdan ibarətdir, funksional yük tacın həcmində daşınır. Planın ciddi ox simmetriyası ənənəvi üsulları qoruyur, lakin eyni zamanda saray binasının əsas mövqesinin müstəqil təfsirini həll edir. Planın inkişaf xəttinin konstruktiv xüsusiyyətlərlə uyğun gəlməsi sarayın memarlıq-bədii sistemini müəyyən etmişdi.

Sarayın hər tərəfi fasadlardan ibarətdir, lakin ön tərəfdən qəbul edilir. Baş fasadın portiki ifadəli qamətli sütunların hərəkəti ilə və karnizin üfüqi xətləri təmtəraqlıq gətirir olunur və çox böyük hovuzun güzgüsündə əks olunur (116, s. 325). Antablement bünövrəsindəki şirlərlə taraşlanmış taxta sütunlar üçün vizual olaraq ağırdır. Sütunlar üzərində duran antablementin geniş zolağı memarlıq kütlələrin hərəkətini yaradır və portik kompozisiyasının sabit səciyyəli məlum cərəyanını seçir. Müəyyən şəkilli sıx əkilmiş ağacların fonunda portik uzaqdan teatr dekorasiyasına bənzəyir, fərdi "mövqe, yaxud müxtəlif nöqteyi-nəzər, dayanma və tamaşa" üçün nəzərə alınmış, yaxından dolğun həcmli memarlıq mənzərəsindən ibarətdir (55, s.100, 108).

Portikin daxili məkanı tamamilə eksteryerdən fərqlənir. Portikin altına keçən ziyarətçi çox hündür sütunlarla bölünmüş məkanı olan və saray tikilisinin əsas element və formalarının miqyasını və uyğunluğunu hiss etdirən memarlıq mühitinə düşür. Memar yalnız Şərq memarlığının imkanlarının göstərməyi deyil, psixoloji xarakterli vəzifələri həll

etməyə səy göstərib. Əsas sifarişçi olan şahın tərifi memarlıq təriqilə həyata keçirilib. Açıq çalarlı tonlarla tamamilə açılan portikin strukturunda işıq və kölgə atmosferi üstünlük təşkil edir.

Portikin sütunları çinar ağacından hamar tavanı saxlayır. Plafonun mərkəzi hissəsi inkişaf etmiş formadadır, ornament mövzuları və divar naxışları ilə əsaslı surətdə bəzədilib. Təraşlanmış sütunların stalaktit kapitelləri və ümumi plafonun səthi plastikası möhtəşəm portiklə ziddiyət təşkil edir. Portikin kompozisiyasında sütunların şir heykəlli mərmər əsasları gözəl görsənir.

İranın memarlığında heykəltəraşlıq, xüsusilə Əhəmənilər və Sasanilər dövründə layiqli yer tuturdu. İslam bu incəsənəti ölkənin bədii həyatından uzaqlaşdırdı və inkişafını qadağan etdi (38, s. 94). I Şah Abbas zamanında yenidən canlanmağa başladı. Sütunların mərmər bünövrələri heykəltəraşlığın binaların memarlığına bütövlükdə daxil olmasını sübut edir (9, s. 135).

Üç ölçüdə həcmli plastika ilə təqdim olunan portik "şahnişin" adlanan taxt-taxçalı dərin lojiya ilə tamamlanır. Onun stalaktit günbəzi lojiyanın sütunları kimi ən gözəl memarlıq ənənələrinə uyğun güzgülü mozaika ilə işlənilib, plafon isə naxışla bəzənib.

Kiçik pəncərələr portikin divarı fonunda iki sütunla saxlanılan lociyanın böyük oyuqu şahnişininin stalaktit yarıgünbəzi olan çatma tağın çərçivəsi funksiyasını yerinə yetirir. Dekorativ cəhətdən dolğun olan şahnişin açılan çoxsütunlu portik vasitəsi ilə izlənən memarlığın yeni dərk edilmə forması meydana gəlmişdir.

Binada İsfahan cərəyanının incəsənət sintezi güclü formada təsir göstərir. O, saray interyerlərinin həllində zəngin ənənəyə malik olan bədii təzahürlərin mahiyyətini təcəssüm edir (54, s. 176-177).

İnteryerin inkişafının ən yüksək nöqtəsi üç günbəz altında olan və həyətin daxili kompozisiyasını tamamlayan qəbul zalıdır. Zalların dirəklərinə yan portiklər birləşir. Qəbul zalının interyerindəki köməkçi tağlar göy, qırmızı və yaşıl rənglərə boyanmış günbəzlər daxili məkanının monotonluğunu yox edir və memarlığın tamamilə yeni aspektində çıxış edir. Divarın süjetli şəkillərlə və mayolikalı plitələrlə bəzənməsi interyerin memarlığında və strukturunda müəyyən gözəllik və xəyali mühit yaradır (7, s. 20; 48, s. 135, 153).

Dirək portikləri süjetli şəkillərlə və mayolik plitələrlə zəngindir, səthində ornament naxışı üstünlük təşkil edir. Memarlar memarlıq və dekorativ mövzularına zənginliyi və təmtəraqlığı həcmli kütlələrin həlli ilə deyil, əsasən təbiətdən götürülən elementlərinə tamaşa etməklə verməyə çalışırdılar (199, s. 56, 58, 60).

Portik əhəmiyyətli dərəcədə yan fasadlarının memarlığının qabağını tutaraq sarayın həcmi-məkan strukturunda üstünlük təşkil edən yer tuturdu. Onlar tabe səciyyəlidirlər, divarların plastikası hərəkətsiz tamaşaya meylli olan dayaz elementlərlə ifadə olunan yerli formalarla işləniblər. Lakin əsas hissələrin qarşılıqlı əlaqəsi, çatma tağlı portiklər, kompozisiyanın ornament mövzuları və rəngli mayolik plitələrlə doldurulması, yan fasadların həllinin baş fasadla eyni istiqamətdə inkişaf etməsini göstərir. Dekorativ bəzəklərin sayəsində bütün fasadlarla oxşar olan sarayın güclü daxili məkanı ümumi tematikada binanın kompozisiyasının bütövlüyünü və möhkəmliyini üzə çıxardır (73, s. 143).

Hələ 1847-ci ildə memar Paskal Kosta tərəfindən İsfahanın, o cümlədən "Çehel sütun"-un gözəl uvrajları tərtib edilmişdir. Ölçülər götürüldükdən və çertyojlar çap edildikdən sonra bina əhəmiyyətli dəyişikliklərə uğramamışdır (182).

# FƏSİL 2.

# QACARLAR DÖVRÜNÜN TEHRAN SARAYLARI

Qacarlar sülaləsinin şahları hakimiyyətə gəldikdə saray tikintisini inkişaf etdirdilər. Onlar çox tikirdilər: geniş bağ və parklarla əhatələnmiş saraylar deyil, mülki binalar, yaşayış evləri, bazarlar, karvansaralar, hamamlar, məscid, mavzoley, imamzadə, təkiyyə, müsəlman teatrları kimi ibadət yerləri.

Qacarlar dövründə İranın bir çox şəhər və yaşayış məntəqələrində cəmiyyətin fəaliyyətinin bütün sahələrinə daxil olmuş Avropa üslubunun təsiri altında memari cəhətdən yenilənmiş yeni üslublu yaşayış binaları tikilirdi. Bununla yanaşı, yalnız Qacarlar dövrünə xas olan üslubi cərəyanın yaranmasına səbəb olan ev tikintisində milli ənənələr saxlanılmışdır.

Çoxsaylı saray tikililəri əsasən dağların arasında çuxurda yerləşən Elbrus dağının ətəyində Tehranla müqayisədə xoş iqlimi şəraitdə tikilib. Şahların yay evi üçün seçdikləri Şimran qəsəbəsi kurort zonasına xas imkanlara malik idi. Keçmişdə səhralıq olan boş yer halhazırda Qacarların saray tikililəri olan park mühitinə çevrilib (166, s. 161-180).

Səfəvilər kimi Qacarlar da özlərini gözəl mənzərə ilə əhatələməyi xoşlayırdılar və cürbəcür təmtəraqlı saray tikirdilər. Parklara məzmunlarına görə gur adlar verilirdi ki, şahların xüsusilə də Fətəli şahın və Nəsrəddin şahın şöhrətpərəstliklərini təmin etsinlər. Nəsrəddin şah böyük park zonaları, geniş su məkanları və Qacar üslubunda tikilən memarlıq binaları ilə öz babasını ötüb keçmişdir (166, s. 161-180).

Qacarlar dövrünün saray tikililəri planlaşdırma, həcm və məkan və memarlıq həllinin müxtəlifliyi ilə seçilirlər. Fətəli şahın hakimiyyəti dövründə Qəsri-Qacar, Nigarestan kimi saraylar ənənəvi üsullarla tikiliblər. Burada memarlıq kompozisiyasında qədimi memarlığın hörmətə layiq ən maraqlı plastik forma və elementləri istifadə edilib.

Gənc dinastiya yalnız Zendlər üzərində qələbə nəticəsində əldə etdikləri hakimiyyətin gücü ilə deyil, dövlətin və cəmiyyətin vizit kartı olan tikinti və memarlıqla möhkəmlənməyi cəhd göstərirdi. Xüsusilə, bu baxımdan saray tikililərin planlaşdırma strukturuna interyerlərin daxili məkanının müxtəlifliyi ilə fərqlənən yeni kompozisiya üsulları daxil olan Nəsrəddin şahın dövrü seçilir. Binanın planında yumru ellipsşəkilli və yarımdairəvi formalar geniş tətbiq olunur (172, s. 329).

Şahnişinli, iri vitraj-şəbəkəli, iki yan girişli mərkəzi baş zal binanın planından çıxardılır. Binanın həcm və məkan kompozisiyası tikilinin təmtəraq və əhəmiyyətini vurğulayaraq, çox vaxt ikiyaruslu sütunlarla bərkidilmiş daha təntənəli ön girişli mərkəzi ox sistemi əldə edir.

Binanın oxu üzrə daxili planlaşdırmaya yumru xəttə salınmış açıq üslublu əsas pilləkən qəfəsinin daxil edilməsi saray interyerinin bütün mahiyyətini dəyişir. Bu baxımdan binanın planlaşdırması yeni məzmun əldə edir, memarlıq

kompozisiyasının həllində azadlıq yaradan daxili tematikası genişlənir.

Binanın planında maraqlı formalı baş pilləkən qəfəsinin daxil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Keçmişdə İranın saray binalarının planlaşdırmasında pilləkən qəfəslərinə baş yer deyil, ikinci dərəcəli yer ayrılırdı. Ümumi planda yalnız təmtəraqlı qonaq zalı seçilirdi (251, s. 115).

Nəsrəddin şahın Avropa paytaxtlarına səyahəti şübhəsiz onun memarlığa olan münasibətinə təsir göstərdi. O, orada bina fasadların gözəl həcm və məkan həllərindən başqa maraqlı kompozisiya üsulları, memarlıq formaları və dekorativ elementləri gördü. Şahı həmçinin bina interyerlərinin daxili həcmli plastikası və pilləkən qəfəsinin ümumi kompozisiyaya əsas və təntənəli element kimi daxil edilməsi də heyrətləndirdi.

Qacar saray tikililərinin planlaşdırmasının və həcmli palitrasının genişlənməsində Fransada xüsusi təhsil almış peşəkar memar Mehtixan Şahaği mühüm rol oynamışdır. Onun layihələri əsasında Kaxe Dərabad, Abgind muzeyi (Kavamas-Saltane), dövlət parlamenti və s. saray və imarətlər tikilmişdir.

İranın memarlıq şəraitində bütün obyektlərdə özünə yer tapmış yeni planlaşdırma və həcmli elementlərə bünövrə yaradaraq İran memarları pilləkən qəfəsinə təmtəraqlı forma verməyə çalışıblar.

Memarlıq irsinin tərəfdarı olan memarlar yaradıcı, rəssam idilər və bu onların tikililərində, iri miqyaslı həcm və kompozisiyalarında əks olunurdu. Buna görə memarlar şahların sifarişlərini yerinə yetirərkən yaradıcı axtarışda idilər. Bu axtarışlar çox vaxt maraqlı memarlıq tapıntıları, ümumilikdə isə o dövrün memarlıq cərəyanını müəyyən edən yeni bədii əsərlərlə nəticələnirdi.

Qəsri-Qacar (1798) bir çox saray tikililərinə memarlıq həyatı verən, müəyyən dərəcədə onların üslubi sisteminə təsir göstərən obyekt idi. Lakin həcmli həllin səciyyəsinə görə və memarlıq kütlələrinə bölündüyündən təqlidedilməz idi (112, s. 334).

Kerzon onun kənardan çox güclü təsir bağışladığını yazırdı. İranlılar İranın memarlıq irsində öz yerini tutan Qəsri-Qacarın memarlıq mahiyyətini Vindzor qəsrindən və ya Versaldan üstün tuturlar.

Qəsr geniş sahədə və şimaldan cənuba, şimal tərəfdən məntəqənin hündür hissəsində meydançalarda yerləşir. Saray tikililərinin hündür meydançalarda yerləşdirilməsi İran memarlığı üçün səciyyəvidir. Qəsri-Qacarın çoxplanlı mənzərəli kompozisiyası üçün belə nümunələr təsadüfi deyil.

Baron F.Korf 1834-cü ildə qəsri nisbətən yaxşı vəziyyətdə gördükdə onun haqqında maraqlı təsvir yazmışdır: "o, dağın enişində pillə-pillə tikilibdir, ona yaxınlaşdıqda üçmərtəbəli ev görəcəyini fikirləşirsən, əslində isə hər bir mərtəbə digərlərindən ayrı sahələrdə tikilib. Sarayın qarşısında İranda ən böyük bağlardan biri salınıb: burada çox böyük hovuz və gözəl köşklər var; xüsusilə hündür söyüdlər çox gözəldir: onların budaqları uzun salxımlarla o qədər poetik sallanırlar ki, yaşıllıqları o qədər şəffafdır ki, bundan gözəl nə isə təsəvvür etmək mümkün deyil. Şair mütləq onları gözəl qızın saçlarına oxşadardı. Qəsri-Qacarın otaqları haqqında danışmağa dəyməz: onlar İranın bir çox ictimai binaları ilə birgə dağılırlar" (59, s. 224).

Qəsrin girişi təntənəli kompozisiya ilə vurğulanıb, onun arxasında həndəsi cəhətdən düz planlaşdırılmış geniş bağ salınıb. Bağın yaşıllaşdırma sahəsinin eyni düzbucaqlara bölünməsi mexaniki olmayıb, əsrlər boyu dərk edilib işlənmiş böyük yaşıl massivin planlaşdırma kompozisiyası, memarlıq və bağ-park sənəti-



*Tehran. Qəsri-Firuzə qəsri. Fasadı.*



*Tehran. Qəsri-Firuzə qəsri. Planlar.*

nin elementlərinin uğurlu daxil edilmiş fərdi həllidir.

Bağın geniş mərkəzi xiyabanı həndəsi oxların kəsişməsində dörd sıra daşlar üzərindəki stilobatın səkkizguşəli rotondası ilə bərkidilib. Rotondanın eni boyunca yerləşən dörd düzbucaq hovuzu olan sahəsi bağın vacib kompozisiya elementidir. Bağ uzununa beş, eninə yeddi əsas xiyabanlara bölünüb. Məhz rotondalı xiyabanın mərkəzi köndələn zolağı ox üzərində sahənin həndəsi monotonluğunu sındıraraq ona bol yaşıllıqla, hovuz və arxların şəffaf suyu ilə xüsusi ifadəlik verir. Bağda geniş hovuz və xiyabanların arasından axan arxları su ilə təmin edən su təchizatı sistemi təşkil edilmişdir.

Bağ kompozisiyasının oxu olan mərkəzi xiyaban hovuzlu geniş sahə ilə tamamlanırdı. Suyun üzərində pavilyon memarlığının yüngül formasında sarayın giriş hissəsi əks olunurdu. Bağın bütün perimetri boyunca yaşıllıq və ağac əkinlərinə çərçivə olan qalereyanın çatma tağları keçir. Saray binalarının terrasları məhz hovuzlu bağa baxır.

Misl-Rüstəm "İran Nəsrəddin şahın dövründə 1882-1888-ci illərdə" hekayələr xülasəsində yazır: "O, hündürlükdə yerləşir və onun gözəl bağı meydançalarla aşağı düşür, ən yüksək meydançadan isə həyətə çox geniş 80 pilləli daş pilləkən aparır. Sarayın planı iki tərəfdən xanımlar üçün birmərtəbəli otaqlarla, iki üzbəüz tərəfdən şahın otağı və baş zal yerləşən ikimərtəbəli tikililərlə əhatələnən hovuzlu və fəvvarəli dördbucaqlı həyətdən ibarətdir" (78, s. 166).

Qəsri-Qacar o dövrün müasirləri tərəfindən fərqli qiymətləndirilsə də, onun gözəl forması haqqında eyni fikirdədirlər və bu Şərq cərəyanının romantik memarlıq üslubunda tikilən sarayın əlamətdar xüsusiyyətlərini göstərir.

Bütün meydançalarda hovuzlar yerləşir, məntəqənin relyefi isə dayaz taxçalarla işlənmiş dirək divarları ilə tikilib. Meydançalarda məharətlə yerləşdirilən hovuzlar və yaşıllıq ansamblın ən yüksək nöqtəsini tamamlayan həcm və məkan strukturuna təbii şəkildə daxil olurlar.

Sarayın fasadı səthi bəzək taxçaların şaquli hissələri ilə səciyyəvi memarlıq tərzindədir. Yan qanadlar yonulmuş qüllələrlə, mərkəzi isə yuxarı mərtəbələrin lojiyaları ilə vurğulanan şaquli kompozisiya ilə bərkidilib. Sonralar mərkəzi hissənin kompozisiya və həcmli həlli uğurlu üsul kimi Tehranın saray tikililərində (Şəmsi-imarət, İşrət-xana, Firuzabad) istifadə edilirdi.

Həm saray ansamblının fasadlarında, həm də baş otaqların interyerlərində istifadə olunan dekorativ mövzuların və naxış kompozisiyaların zənginliyi ənənəvi idi, lakin müasir memarlıq sənətinin tələbləri nəzərə alınaraq yenidən düşünülmüşdür. Sarayların interyerləri Fətəli şahın, onun oğullarının, Avropa nümayəndələri və digər adamları təsvir edən divar naxışları ilə zəngindir.

Fransız memarı Paskal Kostun 1867-ci ildə Parisdə qravür şəklində hazırladığı və nəşr etdiyi gözəl ölçmə materialları olmasaydı, Qəsri-Qacarın təsviri yalnız şifahi qalacaqdı. Onun çertyoj və şəkilləri sayəsində Qacar memarlarının yaradıcı-

*Tehran. Abhind muzeyi (Kavam-az-Sultanə). Fasadı.*



lığını olduğu kimi, canlı, bütün gözəlliyi ilə dərk edirik (182).

Tehran şəhər divarları yaxınlığında şəhər kənarında XIX əsrin əvvəlində Fətəli şah tərəfindən tikilmiş Nigarestan sarayı yerləşir. Həm ərazinin planlaşdırma səciyyəsinə, həm həcmli həllinə görə sarayın üslubu Qəsre-Qacardan tamamilə fərqlənir.

Saray tikililəri onu ziyarət edən hər kəsi xiyabanları, cığırları və yaşıllıqları ilə valeh edən təmtəraqlı parkla müqayisədə bitərəf mövqe tutur. Cənubdan şimala uzanan sahənin düzbucağı maraqlı planlaşdırma sisteminə malikdir: birinci hissədə düzbucaq tora bölünüb, saraya yaxın olan ikinci sahədə isə çəpəki sxemlə həll olunub. Bağın hər iki hissəsi eninə və uzununa oxlar birləşdirir: bədii-memarlıq fikri saray tikililərində, bəzəkli hovuzlarda, sahənin abadlaşdırılmasında işlənən incə üsullarda, ağac, gül, kolluq növlərinin seçimində həyata keçirilibdir. Bu çox gözəl, rahat və sakit şah iqamətgahı idi.

1818-ci ildə Nigarestana səyahət etmiş ser R.K.Porteri bu əzəmət məftun və heyran etmişdir. Saray interyerlərdəki, xüsusilə iki baş otaqlarda olan divar naxışları sayəsində öz adını almışdır.

1834-cü ildə burada olmuş baron F.Korf sarayı belə təsvir edir: "Nigarestan şahın yay malikanələrindəndir və iki zalı diqqətə layiqdir: birində - divarın üzərində Fətəli şahın oğullarının şəkilləri çəkilib, o birində isə üç divar üzərində bunlar çəkilib: orta divarda – tac və şah geyimli Fətəli şah, ətrafında bir neçə oğlu

*Tehran. Kavam-az-Sultanənin planları.*



və dövlətin ən mühüm əyanları; qalan iki divarda Asiya geyimli çoxlu fiqurlar və 4-5 avropalı – bunlar mərhum şahın saray əhli olan müxtəlif dövlətlərin nümayəndələri idi. Avropalılar sırasında Malkolmun, ser Qor-Uzley və Moryerin portretləri var (9, s. 202). Bu tarixi səhnələr və divar naxışları məntəqənin quru iqlimində yaxşı vəziyyətdə qalmışdırlar və Qacarların hakimiyyəti dövründə İranın rəssamlıq tarixində görkəmli yer tutan rəssam Məhəmməd-Həsən-xan tərəfindən çəkilmişdirlər" (41, s. 153).

Bağ-park yaşıllıqlarının arasındakı çoxsaylı hovuz, fəvvarə və süni göllü şəhər qırağındakı saray kompleksləri paytaxtı əhatə edən təbiət mühitinin dəyişməsində əhəmiyyətli yer tuturdular.

Elbrus dağının ətəyində səpələnmiş Rüstəmabad, Səltənətabad, İşrətabad, Qəsri-Qacar, Qəsri-Firuz, Dovşantəpə və s. kimi geniş sahələrdə tikilən saray kompleksləri, boş yerləri suvarmaq üçün süni suvarmanın bütün imkanlarından istifadə edərək, bağ-park memarlığının inkişafında son dərəcə əhəmiyyətli rol oynayırdılar.

Hər bir saray kompleksi böyük və planlaşdırılmış, yaşıllıq və böyük hovuzları, süni gölü və kanalı olan sahəyə malik idilər və ümumi vahid sistemə fərdi memarlıq siması ilə daxil olurdular. Doğrudan da, simalar böyük yaradıcılıq fantaziyası ilə yaradılmışdır, binaların həcmli həllərinin gözəlliyi ilə, fasadların plastikliyi ilə, qədim memarlığın ənənələrini yeni istiqamətdə davam etdirərək həm interyerdə, həm də eksteryerdə dekorativ-tətbiqi incəsənət sintezinin istifadəsi ilə seçilirdilər (249, s. 153).

Bu növ binalara İşrətabadda yerləşən "Əyləncə sarayı" aiddir. Pavilyon üslublu dördmərtəbəli sarayın hər tərəfi fasaddır, parkın hər bir nöqtəsindən görünür və həcmi-məkan memarlıq həlli diqqəti cəlb edir.

Bina həcminin mərtəbələr üzrə üfüqi hissələri və fasadların şaquli kürəkciklərlə ritmik yerləşdirilmiş oyuq və taxça sırasına bölünməsi bu sxemin dəqiqliyini və konstruktivliyini müəyyən edir. Dördüncü mərtəbədə konstruktiv sxem yumru sütunlar üzərində açıq lojiyalarla ifadə olunub, eyni zamanda mürəkkəbləşdirilməsi ilə bütün binanın kompozisiyasının yuxarı ox hissəsi zənginləşir.

Baş fasadın memarlıq kompozisiyası yuxarı hissədə stalaktit kapitelli iki incə sütunla saxlanılan frontonlu yarımdairəvi tağla ifadə olunub.

Misl-Rüstəm yazır: "Meydança qülləsində böyük müşahidə borusu və qədimi üstürlab var. Şah yay aylarından birini bu sarayda keçirir... Şahın yuxarı mərtəbədə dik pilləkəndən necə istifadə etməsi maraq doğurur. Bəzi yerlərdə, misal üçün "İşrətabad" sarayında yuxarı mərtəbəyə iki əl və ayaq üstə çıxmaq lazım gəlirdi. Hər bir sarayda siz solmuş zər, güzgü və hətta royal görə bilərsiniz, lakin mebel demək olar ki, heç yoxdur" (78, s. 166).

Binanın sxeminin dəqiqliyinə qarşı saraya parlaqlıq, memarlığa bədii istiqamət verən fasadların rəngli kaşılarla üzlənməsi qoyulub. Bu binaya kaşıların zəngin rəng çaları, konstruktiv karkasın şaquli kürəkciklərinin arasında tağların timpanları, pəncərələrin üstündə çərçivəyə alınmış dairəvi xonçalar kimi dekorativ elementlərin incə naxışı ilə birləşməsi səciyyəvidir.

Baş fasadın memarlıq kompozisiyasına ox üzrə iki aralıq mərtəbələrin hündürlüyünə rəngli şüşələrlə doldurulmuş, çərçivələrin xırda həndəsi şəkilli vitraj-şəbəkələri daxil edilib. Binanın həcmli və memarlıq həllinin elementləri yerli memarlığın ənənələrinin vərəsəliyini vurğulayır. Kaşı plitələri ilə üzləmə və memarlığın ümumi məzmununun uy-

ğunluğu vasitəsilə rənglərin zənginliyinə can atma əmələ gəlir.

Şəms-əl-imarət və İşrətabad saraylarının 1865-1868-ci illər memarlığı arasında, binaların həcmli həllinin kompozisiya yanaşmasında olan fərqə baxmayaraq müəyyən əlaqə mövcuddur. Bu fasadların şaquli hissələrində, divar strukturunun dekorativ tikilməsində, kaşı üzləməsinin eyni rəngində və binanın memarlıq fantaziyasında ifadə olunub (251, s. 115).

Qacarlar dövrünün maraqlı tikililəri arasında, hündür qüllə üslublu tikililəri qeyd etmək olar. Onlar həm memarlıq-planlaşdırma, həm də həcmi-məkan kompozisiya ilə seçilirlər. Onlar bağın yaşıl sahəsində tikiliblər, həcmli kütlələrin şaquli quruluşu ilə, memarlıq kompozisiyanın üfüqi hissələri ilə və bədii ifadələri ilə seçilirlər.

Bütün ümumiliyə baxmayaraq, bu hündür tipli kompozisiyalar hər hansı bir halda fərdi həll təsvir edirlər. Bir saylı qüllə dördmərtəbəlidir, planda səkkizguşəlidür, öz qapalılığı ilə bir qədər hərbi qülləyə bənzəyir, çatma tağların kiçik oyuqları əsas tərəflərdə şəbəkə ilə işlənib və yuxarı mərtəbənin keçid qalereyası yumru dəmir damla örtülüb.

Qüllənin üfüqi hissələrində, divarların və üzlərin işlənməsində yerli memarlar ənənəvi memarlığın forma, üsul və mövzularından istifadə ediblər. Baxmayaraq ki, kaşıların suvarması və şəkli bir qədər azalır, burada incəsənətin sintezi tam gücü ilə inkişafdadır. Bu sifarişçilərin maddi imkanları ilə və həmçinin İranda gedən uzunmüddətli daxili qarışıqlıqdan irəli gələn dekorativ-tətbiqi sənət mədəniyyətinin ümumi düşkünlüyü ilə memarlıq və incəsənətin bütün fəaliyyət sahələrinə güclü təsir göstərən iqtisadi böhranla şərtlənirdi.

Lakin, XIX əsrin əvvəlində saray komplekslərinin və ibadət tikililərinin tikintisi onların bərpasına və digər keyfiyyətli binaların inşasına imkan yaratdı.

Qapalı səciyyəli qülləyə altımərtəbəli açıq üslublu ellips formalı bir qədər çıxıntılı düzbucaqla qarşı qoyulan qüllə gözəl memarlıq kompozisiyasına malikdir. Öz həcmi quruluşuna və üfüqi hissələrinə görə, o, Qacar memarlıq üslubunun forma və mövzularının əsasında tikilib. Qüllə qalereyaların aşağı mərtəbələrin yarımdairəvi tağlar şəkli ilə, yuxarı yarusların sütunlarının şaquli hissələri ilə, düzbucaq formalı dekorativ bəzəkləri ilə, divar naxışları ilə, icra tərzi ilə və məzmunu ilə ifadə olunub.

Üslubi imkanların belə palitrası qüllənin bədii ifadəsində və onun bitməsində canlanıb, şəkli yeni müasir üsulları, daha azad formaları göstərir. O, geniş bağın sıx massivi arasında memarlıq kütlələrin həcmi və plastikliyi ilə seçilir.

Digər bina həcmi-məkan strukturda aydın göstərilən səkkizguşəli formada şaquli kompozisiyaya malikdir. Mərtəbələrin qalereya sistemi və sıx-sıx düzülən nazik dirəklərin ritmi qüllə üslublu binanın ümumi həllini təşkil edir, aşağı yarusların divarlarında azsaylı oyuqların olmasına baxmayaraq yüngüllük və xəfifliyi ilə seçilir.

Qüllə memarlıq kompozisiyası XIX-XX əsrləri əvvəlində memarlıqda təsadüfi hal deyildir, əsası Səfəvilər dövründə qoyulmuşdur və Qacarlar dövründə Şəms-əl-imarətdə, İşrətabadda, Tehran yaxınlığındakı Dovşantəpə saray kompleksində inkişaf etdirilmişdir (164, s. 179-189).

Qacar üslubu - dövrün üslubudur və onun daxili mahiyyətində kompozisiya üsullarının görsənməsi, formaların istifadəsi və ornament mövzularının iştirakı vacib olduğundan onu İran memarlığından ayırmamaq olmaz. Yeni təbəqə yaranırdı, ölkənin klassik irsinin qanunauyğunluqlarında qurulan qaydaların

əhəmiyyəti vurğulanaraq binaların bədii siması formalaşırdı.

Qacar memarlarına məlum olan Avropa memarlığının kompozisiya üsullarını və formalarını milli ənənələr ilə birgə öz bildikləri kimi istifadə etməyə mane olmurdu. İranın XIX əsrin saray və mülki binalarında göründüyü kimi memarlıq materialına xüsusi yanaşma Qacar üslubunun yaranmasına səbəb oldu.

XIX-XX əsrlərin əvvəlində Avropada modern üslubu mövcud idi, Qacar üslubu da bu aspektdə inkişaf edirdi. Qacarlar dövrünün memarlıq abidələrini İranın "modern" üslubunun fərqli ifadə forması kimi qəbul etmək lazımdır. Düzdür, müqayisəyə yol verilə bilməz, çünki onlar Qərbin və Şərqin fərqli ictimai-iqtisadi və mədəni şəraitlərində meydana gəliblər. Bununla belə, memarlığın inkişafının ümumi qanunauyğunluqları mövcuddur və dünya memarlığı tarixində Qacarlar dövrünün "modern" üslubu ilə hesablaşmamaq olmaz (11, s. 217).

Qacar memarlığı – maraqlı haldır, onun mahiyyətinə fərdi məna almış yeni üslubi cərəyanın yaranması ilə nəticələnən, yenidən işlənmiş ənənəvi üsulların əsas qaydaları qoyulmasına baxmayaraq təkrar olunmur. Onun xüsusiyyəti böyük ərazinin həllində planlaşdırma yanaşmasında və binanın memarlıq kompozisiya üsullarında üzə çıxır. Saray tikilisi layihələşdirilərkən onun kompozisiya seçimində zəngin memarlıq palitrasından istifadə edilib. Burada Səfəvilər dövründə məlum olmayan həcmi-məkan həll meydana gəlmişdir. Mənzərə səciyyəli tikililər meydana gəlməyə başlayır, həcmli plastika yeni zamanın dekorativ üsullarının geniş fonunda memarlıq imkanları açır. Sa-

*Tehran. Kavam-az-Sultanənin cizgiləri.*





*Tehran. Qəsri-Firuzə sarayının daxili görünüşləri.*





*Tehran. Qəsri-Firuzə sarayının daxili görünüşü.*

ray tikililərinin fasad və interyerlərində dekorativ mövzuların bolluğu həcmli həllərin məkan funksiyalarının tələbatlarından irəli gələn bədii formaların tamamilə fərqli tematikasıdır. Binaların eksteryer və interyerini "alovlanan" Qacar üslubu ilə zənginləşdirmək arzusu Şəms-əl-imarət, İşrətabad, Nigarestan, Nezamiyyə və s. kimi sarayların yaranmasına səbəb oldu. Yeni kompozisiya üsulları, yeni həcmli təkliflər və dekorativ elementlərə fərqli yanaşma yeni üslubun təşəkkülü və formalaşmasında vacib rol oynadılar və binaların daxili strukturuna fəal surətdə daxil oldular.

Şəms-əl-imarət sarayı (1865-1866) Qacar üslubunun əsas fikirlərini həyata keçirən və fərdi xüsusiyyətlərini tam açan ən parlaq nümunədir. Sarayın binası Qacarların iqamətgahı olan "Gülüstan" sarayını bəzəyən bağ və hovuzların arasında Ərkin ərazisində yerləşir (167, s. 181-184). Bu ərazidə yerləşən digər saray binalarından fərqli olaraq Şəms-əl-imarət sarayı şəhər mühitinin formalaşmasında iştirak etmir. Şəms-əl-imarət sarayının şərq fasadı Nəsir Xosrov prospektinə yönəlib və küçənin kənarında yerləşir. Beləliklə, sarayın iri və dinamik həcmi ticari magistralın həcmi-məkan quruluşuna fəal təsir göstərir və eyni zamanda uzaq məsafədən şaquli şəmt göstəricisi kimi çıxış edir.

Şəms-əl-imarət sarayının dördmərtəbəli binasının zirzəmi otaqları yerləşən qərb fasadı çox böyük düzbucaq hovuza tərəf yönəlib. Bu üsulla saray Ərkin ərazisinin mikrolandşaftına və Kərimxan Zendin vaxtında yaranan vahid memarlıq-planlaşdırma sisteminə daxil olur. Təmtəraqlı çoxpilləli pilləkən frontonlu Avropa üslublu portiklə və dərin eyvanla təqdim olunduğu üçün binada bir qədər qeyri-adilik var. Planın sxemi çox dəqiqdir: ikicərgəli otaqlar, yan qanadlarda standart mərtəbələr qalaraq, mərkəzi

hissənin mərtəbələri artaraq açıq eyvana çevrilir. Binanın təmtəraqlığına baxmayaraq pilləkənlər lazımi qədər inkişaf etməyib və ensiz pilləkən qəfəslərinə salınıblar. Çox vaxt şah saraylarında pilləkən qəfəsinin yerinə əhəmiyyət vermirdilər və bununla binanın daxili mahiyyətinin ümumi mənimsənməsini ixtiyarsız olaraq azaldırdılar. Lakin gələcəkdə interyer mühitinin dəyişməsində pilləkənlərə əhəmiyyət verilməyə başladı.

Sarayın həcmi-məkan kompozisiyası qabağa çıxan portikli birinci mərtəbə ilə güclü ifadə olunubdur, onun arxasında kvadrat qülləşəkilli üçmərtəbəli qoruyucu həcmlər üstünlük təşkil edir. Onları ön zalın üfüqi həcmi birləşdirib, dam qüllələrin eni ölçüsündə eyvana çevrilib. Eyvanın üzərində saat qülləsi olan divar ucalır. Həcmlərin çoxplanlı sistemi, qüllələrin həll dinamikası, işıq və kölgə sayəsində daha da qabarıq görsənən dərin eyvanlar saraya xüsusi memarlıq ifadəsi verir. Baş fasada yönəldilmiş lojiya şəklində olan qüllələrin yuxarı mərtəbələri həmçinin sarayın həcmli plastikasının formalaşmasında iştirak edirlər. Qeyri-adi əzəmətli memarlıq kompozisiyası yaranıb, zəngin bədii palitranın işlənməsi nəticəsində təşkiletmə heykəltəraşlıq obrazı kimi təqdim olunub (47). Binanın memarlıq kompozisiyasında öz mövqelərini möhkəmlədən üsul və formalar yeni şəraitdə iştirak edir. Binanın formalaşmış strukturunda həndəsi həcmlər və şaquli üsullar aydın göstərilib. Fasadlar əsasən yarımdairəvi tağlar və çatma tağların daxil edilməsi ilə və şaquli kürəkciklər vasitəsilə karkas sisteminə bölünüb. Fasadların azad səthləri və oyuqları həcmli plastikanın estetik incəliklərini ifadə edən detallarla bəzənib. Ardıcıllıqla ornament mövzusu inkişaf edir və zəngin rənglərdən ibarət ənənəvi olan minalanmış plitələrli bədii üsul meydana çıxır. Memarlıq həcmləri ilə müqayisədə, dekorativ ifadə forması ilə bol olan sarayın hərəkətli həcm və məkan kompozisiyası yeni memarlığın son dərəcə parlaq simasını canlandırıb.

Saray interyerləri divarların və plafonların həllində zahirə çıxan bütün memarlıq çalarları ilə böyük maraq doğurur. Keçmiş dövrdə müşahidə olan milli islam memarlığının formaları, element və detalları üzərində qurulan interyer şərhi mövcüd deyil. O dövrdə interyerlər əsasən açıq tipli idi, ətraf mühitlə əlaqə hakim forma təşkil edirdi. Eksteryerin interyerin mühitinə məhdud formada daxil olması kimi belə hal binanın daxili fəzasının həllinə fərqli yanaşma tələb edirdi. Bu memarlara memarlıq formalarının miqyasından azad istifadə etməyə, kompozisiya üsullarının ümumi uyğunlaşdırılmamasından uzaqlaşmağa, otaqların interyerlərini vahid bədii platformada inkişaf etdirməyə imkan verirdi.

Qacarlar dövründə, xüsusilə XIX əsrin ikinci yarısından sonra saray tikililərinə olan münasibət tamamilə dəyişdi. Yeni zaman, Qərb mədəniyyətinin İran cəmiyyətinin ali təbəqəsinə səthi surətdə daxil olması ilə meydana gələn yeni tələbatlar saray üslublu binaların interyer həllinin yenidən baxılmasına gətirib çıxardı (17, s. 127; 29, s.659).

Şəms-əl-imarətin baş zalının interyeri zəngin memarlıq-dekorativ örtükdən ibarət olan otaqdır. Divarlar üfüqi xətt üzrə zərin, incə ornament yapmaların, zəngin büllur çilçıraqların əks olunduğu şaquli ekranlı güzgülərə bölünməsi bir növ əfsanəvi dekorasiya yaradır. Burada zalın güzgü ekranları üzərində, ağır üfüqi formada zərli kiçik çərçivəli şəkillər zolağı, onların üstündən tamamlayıcı kimi qabarıq enli memarlıq rəfi keçir. Çərçivəli şəkillərin alt sırasından memarlıq elementləri ilə daha da ağır-




*Tehran. Nəqaristan sarayı.*

laşdırılmış üst sıra keçir. Pəncərələrin altında bol dekorativ-tətbiqi elementlərin belə formada daxil edilməsi bu otağın səciyyəsini açıqlayır. İran memarlığına yad olmayan interyer zənginliyi burada tamamilə açılsa da məmnuniyyət gətirmir. Bu zənginlikdən ağırlaşan qavrama öz estetik coşğunluğunu itirir və ziddiyyətə çevrilir.

Kiçik zalın interyeri həmçinin memarlıq və dekorativ atributlarla doludur. Kessonlu plafon və divarların kiçik azad səthləri güzgülərlə örtülüb. Divar və plafon arasında perimetr boyunca karnizin əvəzinə zərli çərçivələrdə sıra ilə şəkillər düzülüb. Saray interyerinə belə dekorativ üsulun daxil edilməsi maraqlı haldır. Otaq interyerinin kompozisiya sisteminin həllində xüsusi strukturdan belə kontekstdə istifadəsi maraqlı bədii nəticələrə gətirib çıxarır (45, s. 174).

Nigarestan, Nezamiyye və digər saraylarda şahın, onun yaxınlarının və saray əyanlarının neçə metrlik divar rəsmlərindən sonra çərçivəyə alınmış rəsmlər memarlıq materialı kimi müsbət qiymətləndirilə bilər. Ayrı-ayrı medalyonlarda rəsmlər Tehranın taxt-tac zalında da mövcuddur, lakin interyerlərin strukturunda onların geniş miqyasda istifadəsi üslubun yaranmasına gətirib çıxardır.

Şəms-əl-imarətin interyerində Avropa kompozisiya üsulları, memarlıq forma və mövzuları ilə ənənəvi çatma tağlar, stalaktitlər, dekorativ elementlər, rəngli vitrajlar fərqli rakursda istifadə edilib.

Şəms-əl-imarətin həm eksteryerində, həm də interyerində öz dövrünün memarlıq mövqeləri, İranda baş verən hadisələrə münasibət və yeni tələblər əks olunub. Binanın strukturundakı memarlıq istiqaməti ənənəvi və yeni proseslərin müqabilində müəyyən ifadə forması yaranmışdır və bu bədii nöqteyi-nəzərdən maraqlı olan Şəms-əl-imarət sarayının yaranmasına səbəb olmuşdur.

Nəsrəddin şahın çoxsaylı saray tikililəri arasında Tehran şəhərindəki "Qəsre Firuz" (1852-1853) seçilir. Saray mənzərəli parkın ərazisində yerləşir. Planlaşdırma strukturuna görə, eninə və uzununa oxların dəqiq həndəsi xətləri ilə, yaşıl massivə baxan əsas binanın baş fasadına yönələn geniş mərkəzi xiyabanla İranın park bağ-park sənətinin ənənəvi üsullarına cavab vermir.

Parkın memarlıq-planlaşdırma və həcmi-məkan sistemində fərqli kompozisiya üsul və formaları mövcuddur, ümumi əyani ərazi mühitinə landşaftın yeni qanunlarını əlavə edirlər. Burada Avropa kompozisiya üsullarından törəyən digər memarlıq və planlaşdırma parametrləri istifadə olunub.

Bütün ətraf ərazinin planlaşdırma strukturunun inkişaf səciyyəsini müəyyən edən və uğurla əlavə edilən əyri cizgili xiyaban parkın əsas həcminin yanından keçir. Parkın mənzərəli planlaşdırma mühitinə uzununa mərkəzi xiyaban salınıb, əsas kompozisiya mərkəzi qərb-şərq istiqamətində iki tərəfi açıq darvaza ilə bərkidilib. Xiyaban çölün yan keçidləri vasitəsilə şəhər küçə şəbəkəsinə birləşir. Əsas giriş küçə tərəfdədir. Girişdən eninə geniş xiyaban və parkın əsas mərkəzi oxu xiyabanın uzununa olan oxu ilə birləşir. Parkın ümumi planlaşdırma karkası yarımdairəvi ikimarşlı pilləkəndən ibarət mürəkkəbləşdirilmiş kompozisiya üsulu vasitəsilə yeni inkişaf fazasına daxil olur. Onun yuxarı meydançasından həyətdəki binaya perpendikulyar pilləkən aparır. Ümumiyyətlə, pilləkənin forması çox maraqlıdır və parkın memarlıq mühitinin dəyişməsində hakim rol oynayır. Eninə yerləşən xiyabanın və pilləkənin oxları üst-üstə düşmür. Pilləkənin bir qədər sola yönəlməsi parkın planlaşdırma strukturunda saray ərazisinin yuxarı hissəsinin kompozisiya inkişafının əsasını təşkil edən həcmlərin hərəkətinə səbəb oldu.

Nəsrəddin şahın hakimiyyətdə olduğu dövrdə saray və park memarlığı böyük ansambl formasında və fərdi binaların pavilyon sisteminin inkişafı üçün yeni impuls əldə edir. Parkın yaşıllıqları və hovuzları fonunda orijinal tikililərin mənzərəsi Tehran və onun ətrafındakı saray tikintilərinin əsas fikri idi (97, s. 192).

"Qəsre Firuze" İranın memarlıq-planlaşdırma strukturunda təsadüfi meydana gəlməyib. Fətəli şahın hakimiyyəti dövründə Avropa ölkələrinin səfirləri, nümayəndələri, hərbiçiləri və səyahətçiləri vasitəsilə yerli tikinti sisteminə Qərbi memarlıq üsul, forma və mövzuları daxil olunmağa başladı. Xüsusilə, bu təsir memarlıq yeniliklərindən istifadə etməyi xoşlayan Nəsrəddin şahın Avropa ölkələrinə çoxsaylı səyahətlərindən sonra gücləndi. Qacar şahları saray, məscid, karvansara, bazar, ticarət mağazalarından və s. ibarət böyük memarlıq irsi qoydular. Qacarlar sülaləsinin hakimiyyəti dövründə tikintinin ümumi həcmi Səfəvilər dövründə olan tikinti canlanmasını ötüb keçmişdi (170, s. 167-178).

Qəsre Firuze sarayının əyri xətli çevrəsi parkın planlaşdırma strukturuna və məntəqənin relyefinə daxil edilib. Saray ərazinin ən yüksək nöqtəsində, sakit meydançada yerləşir, onun arxasında təpə yamacı başlayır. Sarayın ətəyindən park ərazisinin bütün mənzərəli nöqtələri, sonra qarma-qarışıq tikililəri olan şəhər məhəllələri görünür. Bu memarlıq-şəhərsalma üsulu Şimran rayonunda plana uyğun şah sarayları və bağlarının tikintisində geniş tətbiq edilməyə başlandı.

Ümumi parametrli səciyyəvi xətləri olan sarayın plan strukturu daxili sistemin həllini mürəkkəbləşdirdi. Planın inkişafının əsasını səkkiz şəkilli bünövrə

ilə simmetrik-ox kompozisiyası təşkil edir. Üçmərtəbəli saray binasının gələcək sxemi planlaşdırma özəyini təşkil edən yumru və ellipsformalı zalların ətrafında qurulub.

Mərkəzi giriş birinci mərtəbənin işıqlı və qaranlıq otaqlarını ayıran vestibülü olan sütunlu yumru avanzala aparır. Avanzaldan sonra geniş ellipsşəkilli sütunlu zal yerləşir. İran memarlığı üçün yeni olan bu iki zalın forma və şəkli maraqlı kompozisiya təşkil edir. Burada interyerlərin həcm və məkan həllində böyük bədii imkanlar açılır. Bu planlaşdırma elementləri yeni üsulların meydana gəlməsinə, o cümlədən ikimarşlı əsas pilləkənin zalın çevrəsinə daxil edilməsinə səbəb oldu. Düzdür, burada pilləkən "Kaxe imarəte Dərabad"da kimi ümumi kompozisiyada fəal və təntənəli tərtib olunmayıb. Firuzə sarayının bütöv divarları arasında gizlədilən sadə məzmunlu pilləkənin əlavə edilməsi vurğulanıb. Buna baxmayaraq, planlaşdırmada sarayın strukturunda kompozisiya elementi kimi pilləkənin əhəmiyyəti göstərilib. Bina geniş meydançada tikilib, mərkəzi və yan pilləkənlər sütunlarla əhatə olunmuş birinci mərtəbəyə aparır. İkinci mərtəbə birinci mərtəbənin planını təkrarlayır, lakin ellipsşəkilli zal iki işıqlandırması olan zala çevrilir. Üçüncü mərtəbənin mərkəzi səkkiz şəklindədir, ellipsşəkilli zalın xarici çevrəsində nazik pəncərə oyuqları ilə işıqlanan pilləkən yerləşir. Bütün kompozisiya sütunlu qalereya ilə dövrələnib.

Beləliklə, olduqca dolğun, mürəkkəb daxili strukturlu, həm üfüqi, həm şaquli xətt üzrə hakim formaya malik olan və kompozisiyanın xüsusi təşkil edilən həcmli həll ilə nəticələnən fəza sistemli dünya yarandı.

Saray binasının planlaşdırmasının xüsusiyyəti qeyri-adi həcm və məkanın yaranması oldu. Baş və arxa fasadların rəvan xətləri yan fasadların düz hissələri, üçüncü mərtəbə və günbəz vasitəsilə gücləndirilərək tikiliyə həcmli plastiklik verdi.

Mərtəbələrin perimetri boyunca sütunlarla əhatələnən binanın pilləli kompozisiyası binaya memarlıq baxımından maraqlı ifadə verir. Lakin kompozisiyanın əsas memarlıq mövzusu olan sütunların forması məhduddur. Baş fasadın mərkəzi hissəsi vurğulanmayıb, yalnız künclərdə çıxıntılı sütunların ikiqat artması ilə vurğulanıb. Şah Abbasın dövründə İsfahanın məşhur saraylarında üstünlük təşkil edən sütunlar burada tikilinin sıravi elementinə çevrilib. Halbuki, binanın kompozisiyasında təntənəlik və təmtəraqlıq yaratmaq üçün ona böyük əhəmiyyət verilirdi. Eyni miqyaslı və ölçülü sütunlar binanın üfüqi hissələrinin mütənasib bölünməsi olmadan həcmli kompozisiyasının bədii mövzusunu təşkil etmir.

"Qəsre Firuz" XIX əsrin ikinci yarısında İran memarlığında yeni cərəyanın əsasını təşkil edən üsul və mövzuların yaranmasında öz əhəmiyyətini qoruyub saxlayır.

"Bağe Firdus" sarayı (1857) şəhər magistralından çox uzaq olan parkda yerləşir. Sarayın tikintisi görkəmli şah əyanı Hüseynəli-xan tərəfindən 1857 ildə başlanmışdır. Onun ölümündən sonra oğlu Dostəli-xan davam etdirdi, dekorativ işlərin görülməsi üçün İsfahan və Yəzddən ustalar dəvət etdi. Daha sonra onun varisi Dost Məhəmməd-xan binanın bəzənməsini davam etdi və ondan sonra binanın sahibləri dəyişdi.

Bina plana əsasən düzbucaqlıdır, uzununa tikilib, portikin çıxıntılı həcmi simmetriyanın oxu ilə vurğulanaraq eninə yerləşib. Şəhər tərəfdən bina ikimərtəbəlidir, park tərəfə isə məntəqənin relyefi sayəsində üçmərtəbəli fa-

sad baxır. Planlaşdırma çox dəqiqdir, üç bərabər eninə olan seksiyaya bölünür. Planın üç mərtəbəsinin mərkəzi hissəsində zallar yerləşir. İki mərtəbədə yanlardan yaşayış və xidməti otaqlar yerləşir. Yalnız bir mərtəbədə zala geniş lojiyalar birləşir. Sarayın ümumi planına açıq üslublu əsas ikimarşlı pilləkənli dərin portikin əlavə edilməsi yeni haldır. Mərtəbələrdə zalların daxili yerləşdirmə sistemi gözəl həcm və məkan həllinə səbəb oldu. Yerli sənətkarlar və memarlar, Şərqin və Qərbin memarlıq və planlaşdırma maraqlarını birləşdirərək bir-birinə zidd çalarlar yaradırdılar.

Planlaşdırma strukturu və memarlıq simasına görə saray A.Palladionun villalarını xatırladır, lakin bu şərti ifadədir. Onlar müxtəlif memarlıq qütblərində yaranırdı, saray XIX əsrin ikinci yarısında, italyan intibahı ilə yaxından tanış olan memarların öyrəşdikləri forma və mövzuları yerli memarların köməyi ilə yeni mühitə gətirdikləri zaman tikilmişdir.

Burada memarlar klassik əslindən uzaq olan kompozisiya üsul, mövzu, forma və elementlərini ümumiləşdirilmiş surətdə mənimsəyərək, eyni zamanda öz memarlıq ənənələrindən də imtina etməyərək fərqli həcm və məkan həlli irəli sürürdülər. İran memarlığının yeni üslub cərəyanı ictimai-iqtisadi və siyasi dəyişikliklər şəraitində formalaşırdı.

Baş fasadın üzərində korinf orderli dördsütunlu portikin qabağa çıxması, fronton və ikinci mərtəbənin baş girişinə aparan yan ikimarşlı pilləkənlər saray kompozisiyasının əsasını təşkil edir. Portik divarın fonunda yarımdairəvi pəncərələrin sakit ritmi ilə çıxır. Qazonların geniş esplanadası və yarpaqlı ağaclar dərin estetik mənzərə təşkil edir və fasadın həcminə mənalılıq verir. Baş fasad əhatələndiyi parkın ümumi əyani-məkan mühitinə uğurla daxil olur.

Qarşı tərəfə çevrilən fasad baş fasadın memarlıq mövzusunu çıxıntılı portiklə təkrarlayır və üçmərtəbəli binadan ibarətdir. Hər iki fasadın mərkəzi hissəsi memarlıq formalarının böyüdülməsi vasitəsilə, dekorativlik zənginliyi ilə, memarlıq əsərinin yaranması zamanı detallara müstəqil element kimi yanaşmadan daha da inkişaf etmişdir. Fasadın portikinin daxili fəzası həddindən artıq zəngindir: sütunların gövdəsindən plafonlara kimi Avropa memarlığının səthi relyefi ilə bəzənib, sarayın interyerində özünü büruzə verən, memarlıq sənətini özünəməxsus mənimsənmə və üsullar ilə ənənəvi ev tikmə qanunlarına riayət edilib (265, s. 68).

İnteryerlərin həllində fasadlardan fərqlənən memarlıq sistemi istifadə olunub. Burada ənənəvi üsul və mövzulara üstünlük verilib. İkinci mərtəbənin zalı pilyastrlar vasitəsilə seksiyalara bölünüb, plafon isə eninə olan tağtavanla inkişaf etmiş stalaktit sistemli həcmli struktura çevrilib. Yüksək bədiiliyə malik sıx plastik memarlıq mühiti yaranıb və bu tikinti elementlərinin həyat qabiliyyəti kəskin formada təsdiq edilib. Bunu panellərin hamar divarları fonunda xırda oyuqlu çoxyaruslu stalaktit tağtavan ucalan Hovuz xane sarayında müşahidə etmək olar.

Tağtavanın plastikliyi işıq və kölgənin, xüsusilə pəncərə oyuqlarının üstündə qeyri-adi memarlıq formaları yaradan dərin relyef vasitəsilə əldə edilib. Stalaktit tağtavan ustası əsas və tabe elementləri bölüşdürərək memarlıq həcmlərinin tektonik düzülüşünün xüsusiyyətini üzə çıxarıb. Otaq künclərinin çoxyaruslu stalaktit qurşaqda daha mürəkkəb forma alması kompozisiyanın ümumi sistemini daha aydın göstərir.

Saray Nəsrəddin şahın dövründə tikilən maraqlı binalardan biridir, bura-

da İran memarlığında yaranan yeni memarlıq üslublarına fərdi yanaşma özünü büruzə vermişdir.

Saray bərpa edilmişdir, lakin mövcud olan tarixi materiallara, o cümlədən 1878 ilin şəklinə əsasən, memarlıq irsinə tamamilə fərqli yanaşma tələb olunurdu. Burada üçmərtəbəli fasadın bərpası iki mərtəbənin cüt yarımdairəvi pəncərələrin üçüncü mərtəbədə təkrar olunması ilə nəzərdə tutulmuşdur. 1878 ildə çəkilən şəkilə əsasən üçüncü mərtəbənin yan hissələrin planı tamamilə fərqlidir. Üçüncü mərtəbədə iri formalı tağlar, iki aşağı mərtəbədə isə əsas fasadın strukturuna daxil edilmiş yan fasadların açıq üslublu qalereyaları mövcud idi.

Bərpaçılar üçmərtəbəli fasadı daha maraqlı, mənalı və plastik həcmləri olan tarixi materialdan imtina edərək bərpa etmişlər. Bərpa etmə layihəsinin müəlliflərinin sarayın əsl şəklinə əsaslanmadan hansı səbəblərdən bərpa etməkləri mənə məlumdur. Şübhəsiz ki, bu memarlıq abidəsinin bərpa metodu deyil.

"Kaxe Dərabad" (1901-1902) Tehranın Şimran rayonunda saray tikililəri arasında yerləşir. Binanın planlaşdırması simmetrik ox sisteminə malikdir. Halhazırda bina tamamilə dəyişilib, ona müasir görünüş verilib. İkimərtəbəli portik, vurğulanmış mərkəz və sütunlu yan fasadların vasitəsilə köhnə tikili tamamilə başqa görünüş əldə edib. Nisbətən balaca binanın ilk görünüşü bizə məlum deyil. Mərkəzi dəhliz və bitişik otaqlardan ibarət bu imarətin planlaşdırma strukturu maraq doğurur. Planın ən parlaq hissəsi olan dəhlizin oxunda yerləşən baş pilləkən kompozisiyanı tamamlayaraq ellipsşəkilli formaya daxil edilib.

Qacarlar dövrünün sarayları arasında "Kaxe Dərabad" sarayında pilləkən həm forması ilə, həm həcmli kompozisiyanın şərhi ilə diqqətə layiqdir. Açıq üslublu üçmarşlı pilləkən dəhlizdən dərhal sonra yarımdairəvi formalarını açır. Bütöv divarların arasında olan və saray interyerinin formalaşmasında iştirak etməyən "Kaxe Firuze" sarayının pilləkənindən fərqli olaraq, Dərabad sarayında pilləkən binanın bütün memarlıq kompozisiyasının fəal ifadə formasıdır.

Mərkəzi səciyyəli pilləkən qəfəsinin həcm strukturu tamamilə sabitlikdən uzaqdır. Rəvan xətlər və marşların hərəkəti ilə birgə inkişaf edən formalar sayəsində plastik həcmli kütlələr əmələ gəlir. Mürəkkəb orderin sütunları öz tikinti funksiyalarını konstruktiv şəkildə yerinə yetirir. İkinci mərtəbəyə qalxdıqca pilləkən marşları memarlıq üsullarının müxtəlif rakurslarında qarşıya çıxırlar. Geniş mərmər pilləkənlər müəyyən yüngüllük, şəbəkəli metal məhəccərlər daxili məkana hərarət və xəfiflik gətirirlər. Pilləkən qəfəsinin daxili və xarici çevrəsi ilə sütunların hərəkəti, frizin dairəsi ilə gedən incə qabarıq plastiklik və spiralşəkilli məhəccər memarlıq kompozisiyasının ümumi sisteminə əlavə edilərək yüksək bədii əhəmiyyətin palitrasını formalaşdırır. Bu cür memarlıq və kompozisiya həlli olan pilləkən qəfəsi əsas otaqların "vizit kartı"na çevrildi.

Pilləkənin dövrələmə qalereyası üfüqi panellə və şaquli profilləşdirilmiş ekranlarla vurğulanıb. Çevrə ilə barokko mövzulu friz zolağı keçir. Plafon kessonlaşmışdır, həndəsi şəkillidir və bir qədər qabarıqdır. Avropa memarlıq mövzusu təmkinlidir, üçmarşlı pilləkənin çoxplanlı struktur forması ümumi harmoniyanı pozmur.

Burada məkan sistemi dəhlizin həlli ilə eyni istiqamətdə interyerin geniş planda inkişafı fikri ilə birləşir. Şaquli ekranlar dekorativ mövzularla və zəngin frizlə təmin edilib. Qalereyanın və dəhliz divarlarının mütənasib hissələri eynidilər,

döşəmənin ümumi şaquli xəttində bir məkan digərinə qarışır.

İkinci mərtəbənin interyeri əsas otaqlar kimi təntənəli formada həll edilib. Avropa memarlığının memarlıq üsulları və dekorativ mövzuları davam etdirilib və öz yerlərini tapıblar. Dəhliz interyerinin mövzusu pozulmayıb, əksinə otaqlarda daha da aydın açılıb. Divarların kompozisiya həlli əhəmiyyətli dərəcədə mürəkkəbləşib. Şaquli və üfüqi ekranlar əmələ gəlib, mürəkkəb qabarıq qurtaracaqlar formasında inkişaf edib. Pəncərə və qapı oyuqlarının çevrəsi həndəsi ornamentlə işlənib. Friz kompozisiyasının mövzu və üsulları bütün otaqlarda eyni şəkillidir. İnteryerlərin eyni bədii açarda açılmasının ardıcıllığı pozulmayıb.

Lakin, divarların ənənəvi xalça şəkilli ornament motivləri və başdan-başa dekorativ elementləri ilə örtülməsi həddindən artıqdır. Burada memarlıq kütlələrin əks nisbəti yoxdur, yorucu olsa belə hər şey fantaziyaya buraxılıb. Çünki bura Şərqdir. Yeniliklər təbii qəbul edilirdi, tikililərə qədim ənənə nöqteyi-nəzərindən baxılırdı. Onların gözləri qarşısında hər zaman memarların dünya anlayışının əsasını təşkil edən və nəsildən-nəsilə keçən müsəlman Şərqinin klassik nümunələri dururdu.

"Kaxe Dərabad" sarayı XIX-XX əsrlərdə İranda həcm və məkan səciyyəli və interyer mövzusunun bütövlükdə açılması kimi məsələlər qoyulduğu yeni memarlıq inkişafı şəraitində inşa edilmişdir. Sarayda memarlıq və bədii səciyyəli məsələlər uğurla həll olunub.

"Süleymaniyyə" imarəti XIX əsrin ikinci yarısının abidəsidir. Planlaşdırma baxımından uzununa çəkilmiş düzbucaq ənənəvi komposiziya üslubunda həll edilib. İkimərtəbəli binanın əsasını qoruyucu pilləkən qəfəsləri ilə əsas baş zal təşkil edir və ona digər otaqlar bitişir. Planın strukturuna görə tikililər bircərgəlidir, eninə ox üzərində anfilad sistemli otaqlar yerləşir. Planın belə işlənməsi otaqların məkan strukturuna təntənəli yanaşmasından irəli gəlir. Binanın memarlıq-planlaşdırma sistemi yeni kompozisiya üsulu deyil, həm İranın, həm də Azərbaycanın ərazisində geniş yayılmışdır. İrəvanda Sərdar sarayını, Şəki, Şuşa, Bakı, Quba, Lənkəranda xan saraylarını misal göstərmək olar (25, s. 271).

Digər daha mürəkkəb planlaşdırma üsullarından fərqli olaraq, bu üsul həm konstruktiv, həm memarlıq baxımından daha aydın və dəqiqdir. Otaqların gözəl proporsiyaları, əla işıqlanma, divaraların çoxsaylı taxçaları gözəl memarlıq mühiti yaradır. Baş zalın zəngin interyeri divar və plafonların dekorativ işlənməsi ilə boldur. Bitki ornamenti yalnız divarlarda deyil, tağların daxili səthlərini də örtür. Ornament mövzuları italyan İntibahından götürülüb, akant yarpaq forması üstünlük təşkil edir. Divarlar ekranlara, bəzi yerlərdə tağlı taxçalara bölünüb və müxtəlif mövzulu və şəkilli dekorativ elementlərlə bəzədilib. Görünür, sifarişçi və dekorativ işlərin icraçısı hədd hissini itirmişdirlər. Əlbəttə, ənənəyə, gözəlliyə və parlaq rənglərə olan münasibəti unutmamaq lazımdır.

Baş fasadın memarlığı kompozisiyanın təzad prinsipləri əsasında qurulub. Fasadın əsas və tabe elementləri mövcuddur. Fasadın memarlıq quruluşu binanın daxili planlaşdırma strukturunu əks etdirir. Otaqların əsas eninə olan divarları, tağ oyuqlarının dirək sütunları və planlaşdırmanın digər elementləri fasadın həcmində və fəzasında ifadə olunublar. Yan qanadların üzərindən qabağa çıxan fasadın mərkəzi həcmi klassik simmetriyalıdır. Əsas ox yanlara nisbətən daha böyük aralıqlı mərkəzi tağla vurğulanıb. Əlavə oxlar stalaktit konxalı çatma

tağla tamamlanan pilləkən oyuqlarına düşür. Ümumiyyətlə, fasadın üzərində yarımdairəvi formalı tağ oyuqlarına üstünlük verilib. Bütün tağ oyuqları şaquli kürəkcik şəkilli dayaz düzbucaq formalara salınıb. Fasada xüsusi təntənəlik verilməyib, lakin memarlıq kütlələrin mütənasibliyi, həcmli plastika və oyuqların gözəl taxta çərçivəsinin daxili formasına görə milli irsin abidəsi kimi çox diqqət cəlb edir.

Tehranda "Gülüstan" saray kompleksinin "Şəmsi-imarət" sarayının oxu ilə parkın qarşı tərəfində Kavam as-Saltanenin binası (1890-1891) Qacarların erkən dövrünün memarlığına aid köhnə tikililərə bitişik yerləşir. Tikili bir neçə mərhələdə tikilib və bu həm planlaşdırmada, həm də fasadların memarlığında əks olunub. Planın əsas hissəsi düzbucaqlıdır və uzununa inkişaf edib, cənubda çevrəsinə bir qədər pilləli səciyyə verilib. Birinci və ikinci mərtəbə uzununa divarların üzərində tikilib. Eninə və uzununa olan divarlar dəqiq tikilib. Birinci mərtəbənin kompozisiyasında geniş pozisiyalı baş pilləkənə əsas yer verilib. İkinci mərtəbədə pilləkənin sahəsinə bərabər olan sahədə baş zal yerləşir. Planlaşdırma strukturunda otaqların düzülməsində xüsusi hərəkət hiss olunur. Planın qərbi hissəsində olan uzadılmış dəhliz heç bir mərtəbədə funksional dəqiqliyə malik deyil. İkinci

*Tehran. Arkadakı Şəmsi imarət sarayı. 1868-ci il.*



mərtəbədə faktiki olaraq dəhliz qapalı məkana çevrilir. Memari cəhətdən gözəl ikimərtəbəli tikilinin əlavə edilməsi ilə dəhliz onun baş otaqlarla bağlayıcı hissəsinə çevrildikdə əhəmiyyət kəsb etməyə başlayır. Planın kompozisiyasında "Şəmsi-imarət" sarayında olduğu kimi qeyd edilmiş ox mövcud deyil və lokal planlaşdırma sisteminə malikdir. Eninə olan divarlarla binanın daxili strukturu şərq fasadın pilyastr şəklində tikilməsinə səbəb oldu. Pilyastrların ritmi dar və geniş məsafələrlədir. Geniş intervallara yerli səciyyəli pilyastrlar əlavə edilib. Fasadın kompozisiyasının ümumi memarlıq məxrəcinə gətirən

*Tehran. Arkadakı Şəmsi imarət sarayı.*



böyük və kiçik səthlərin xüsusi hərəkəti yaranır.

Binanın memarlığı Avropa üsul və formaları əsasında qurulub. Mərtəbə hissələrinin mütənasibliyi, mürəkkəb şəkilli karnizin işlənmə səciyyəsi, ekranların və pəncərə sandriklərinin tərtibatında azad şəkildə modelləşdirilib. İrana daxil olub yayılan memarlığın yeni üsullarının formalaşması mərhələsi bitmişdir. Şərq mühitində Qərb və Avropa memarlığına fərdi nəzər prosesi gedirdi. Pilyastrların şaquli ritmi sayəsində alınan fasadların dəqiq memarlıq sxeminə, pəncərə sandriklərinə və bütöv səthlərə ekran şəklində barokko movzulu elementlər daxil edilir. Binanın fasadları həcmsizdir, dekorativ elementlərdən ibarət zəif relyefli incə plastika və bədii formalar mövcuddur.

Memarlıq kütlələrin hərəkətinə səbəb olan ikimərtəbəli fasadın səthində üstün elementlər mövcud deyil. Birinci mərtəbədə şaquli dirəkli dayaz çərçivələrə bölünmüş fasadın üzərində üçqat pəncərələrlə yarımdairəvi tağ-taxçalar yerləşir. İkinci mərtəbədə düzbucaq seksiyalarda yalnız üçqat pəncərələr təkrar olunur. Bu cür memarlıq kompozisiyası tağ-taxçalar və mərtəbələrdə qabağa çıxan kürəkciklərin sayəsində xüsusi plastiklik əldə edir, timpanların ornament naxışı isə bütün mühitə gözəllik verir. Həcmi xeyli qabağa çıxan qərbi fasadın əlavə tikilisi Bizans memarlığının forma və üsulları istifadə edilən təntənəli kompozisiya kimi qəbul edilir. Bu yeni üslubi cərəyanların, o cümlədən eklektikanın, xüsusilə Nəsrəddin şahın hakimiyyəti dövründə İranda yayılmasının nəticəsidir. Əsas binanın və əlavə tikilinin üslub baxımından fasadının işlənməsi ilə əlaqəsi yoxdur, birləşdirici rolu yerinə yetirən şaquli kürəkcik və pilyastrların hərəkəti ümumi həcmin müsbət həllinə gətirən uyğunluq yaratmışdır.

Küçə tərəfdə yerləşən Əmir Bahadurun binası (XIX əsr) bağla əhatələnir və içəri hissəyə tərəf inkişaf edir. Şimali-şərqə yönələn binanın əsas hissəsi dəqiq düzbucaqla ifadə olunub, şimal tərəfdən pillə formalı tikili əlavə edilmişdir. İkimərtəbəli binanın ox sistemi mövcud deyil, üçmarşlı pilləkən qəfəsi binanın bir hissəsində tikilib. Mərtəbələr eynidir, divarlar əsasən eninə yerləşdirilib. Planlaşdırma kompozisiyasının əsasını geniş baş zal təşkil edir, perimetr boyunca ona yaşayış və xidməti otaqlar birləşir. Cənubi baş fasad ikimərtəbəli açıq qalereya şəklindədir. Sadə giriş uzun dəhlizə aparır və pilləkənlə tamamlanır. Binanın planlaşdırma strukturunun müəyyən dərəcədə dəqiq olmasına baxmayaraq, dəhlizin bir qədər bucaq altında yerləşməsi, pilləkən qəfəsinin təsadüfi yeri, əlavə tikilinin pillə şəklində olması və ikimərtəbəli qalereyanın peyda olması bütün binanın mərhələlərlə yenidən tikilməsinə əsas verir (217, s. 185-186).

Baş fasadın qalereyası gözəl dərin qalereya ilə təsvir edilib. Soğanaq formalı, tağlı və bir qədər alçaq birinci mərtəbəyə qarşı balyustradalı korinf orderinin yüngül sütunları qoyulub. Tağların arasında profilləşdirilmiş sütunlar yalnız konstruktiv deyil, memarlıq funksiyalarını da yerinə yetirir. Onlar tağların timpanlarını dolduran kərpicin rəng uyğunluğuna xüsusi mühit yaradırlar. Birinci mərtəbənin memarlıq və konstruktiv formaları sütun kimi klassik elementlərə keçid təmin ediblər. Sütunların geniş interkolumniyaları memarlıq formalarının plastik ifadəsini tamamilə azaltmır. Burada birinci sıranın elementi olan həcmli kütlənin imkanlarını açmaq üçün ikinci mərtəbənin qalereyası kimi geniş miqyas daxil edilir. Eyni zamanda, ikinci sıranın elementlərini, forma əmələ gətirən strukturlu birinci mərtəbənin plastik

mahiyyətini də nəzərə almaq lazımdır. Fasadın məkan şərhi dərin işıq və kölgə cəhətləri ilə memarlıq kompozisiyasının əsasını təşkil edir və saray üslublu bina üçün maraqlı mövzu meydana gətirir.

Qalereyanın divarları birinci mərtəbədə pəncərə və qapı oyuqları ilə əsasən tağ sırası formasındadır, yalnız taxta çərçivələr müəyyən dekorativ şəklindədirlər. Bu element sonra interyerdə fəal rol oynayır. Qalereyanın ikinci mərtəbəsində oyuqlar qeyri-proporsional yüksək frontonla və yüngül yapma ilə bəzənib. Sütunların memarlığının itirilməsi formaların uyğunsuzluğuna gətirib çıxarmışdır. Lakin fasadın təmtəraqlı kompozisiyası təntənəli karnizlə birgə memarlıq kütlələrin yeni ifadə formasını təşkil edir. Birinci və ikinci mərtəbələrin gözəl interyerləri və yuxarı mərtəbənin dəhlizi nisbətən təvazölü fasadın memarlıq inkişafının davamı kimi çıxış edir. Dəhlizin divarları ensiz olmasına baxmayaraq şaquli profilləşdirilmiş ekranlara bölünüb. Qapı oyuqlarının üstündə mürəkkəb şəkilli yapma var. Şərq həndəsi mövzulu kessonlaşmış plafona keçid forması kimi zəngin yapmalı karniz yuxarıdan keçir. Divarların həlli, barokko yapması və ciddi ornamentli tünd rəngli taxta

*Tehran. Gülüstanın güzgülü zalı.*



plafon arasında əks nisbət mövcuddur. Divarların ümumi fonunda plafonun səthi dəhlizin interyerində üstünlük təşkil edirdi və baş zalların memarlığının açılmasında müqəddimə idi. Birinci mərtəbənin zalı kompozisiya üsulları və memarlıq formaları ilə deyil, bütün interyerin dekorativ zənginliyi ilə seçilirdi. Sütunları saxlayan tağtavanlar, arxivoltlar və tağların daxili səthi, seksiyaların plafonlarının dekorativ mövzuları həddindən artıqdır. İnteryerdə həm Şərqin, həm də Qərbin forma və elementləri mövcuddur.

Bu növ dekorativ kompozisiyası yaradarkən üslubların qarışdırılması müəllifləri çaşdırmırdı, xüsusilə Nəsrəddin şahın dövründə bu adi hal idi. Stalaktit kapitelli sütunlar yerli ənənələrlə işlənib, arxivoltlar xırda ornamentlə doldurulub. Plafonlar səkkizguşəli, ulduzşəkilli və digər güzgü ötrüklü elementlərdən ibarət olan stalaktit tağtavanlarla bəzədilib. Yerli ali cəmiyyətin tələblərinə cavab verən, lakin dekorativ zənginlik baxımından yorucu olan memarlıq-məkan mühiti yarandı (34, s. 68).

İnteryerləri bütöv xalça örtüyü ilə bəzəmək ideyası Şərq memarlığının fəlsəfi anlayışından, dekorativ forma və elementlərin mürəkkəbləşdirilməsi vasitəsilə daxili məkanı maddiləşdirmək cəhdindən irəli gəlir. İran memarları və ustaları bu istiqamətdə bunu məqsədə çevirərək bir çox şeyə nail oldular.

Flem-Əlsalan sarayı (1900-1901) Muzaffereddin şahın dövründə bağı olan sahənin içəri hissəsində tikilib. Planda düzbucaq şəklində olan binanın otaqları dəhliz sistemi ilə tikilib. Binanın planlaşdırma kompozisiyasının oxu olan dəhliz fasadın üzərində yan pilləkənli ikisütunlu portikli baş girişlə tamamlanır. Planlaşdırmada dəhliz sistemi daxili məkanın rahat təşkil edilməsinə görə tikililərin strukturuna tədricən daxil olur. Otaqlar arasında olan əlaqələndirmə ilə yanaşı hər yaşayış və əsas otaqlar təcrid olunub. Bununla yanaşı bütün otaqlar insolyasiyanın vacib elementi olan təbii işıqla işıqlandırılır. Burada otaqların hava dəyişməsini yüngülləşdirərək mikroiqlim binanın bütün strukturuna müsbət təsir göstərir.

Tikilinin hər tərəfi fasad olmağına baxmayaraq, o dövrün möhtəşəm tikililərinə aid deyil. Binanın sadə ümumi memarlıq kompozisiyası baş fasadın dirək hissəsi ilə təqdim olunub. Belyetaj şəkilli bina və baş fasad ön giriş formasında şərh edilib. Şəbəkəli dəmir məhəccərli ikitərəfli qoruyucu açıq üslublu pilləkənlər geniş interkolumniyalı ikisütunlu dərin portikə bitişir. Kürsülü mərtəbə portikin oxu və tağ oyuğu ilə qeyd edilib, aralıq və kapitel formalı dekorativ kərpic elementləri ilə tamamlanıb. Portikin sütunları Gülüstandakı taxt-tac sarayının sütunlarını xatırladır və karniz əvəzinə nə memarlığın səciyyəsi ilə, nə binada istifadə edilən formalarla uyğun olmayan balyustrada ilə tamamlanır. Tikilinin əsas və yan fasadlarının pəncərə oyuqları haşiyələrlə, fronton formalı sandriklərlə və digər elementlərlə bəzədilib. Fasadın üzərində iri miqyaslı pəncərələr malalanmış divarların fonunda gözə çarpan kompozisiya elementləridir. Onların yüngül qabarıqlığı, qeyd edilmiş profilləşdirilmiş detalları və medalyonları sarayın memarlıq mövzusunun açılmasına xidmət edir. Karniz şərti adlanan antablementdə vizual və fiziki üstün yer tutaraq, tikili qaydalarının sadə normalarını pozaraq, binanın həcm və məkan sisteminin tamamlayıcı elementi kimi öz üslub formasını itirib.

İnteryerlər daha incə və mülayim həll edilib, xalça ornamentli örtüklə doldurulmayıb. Rokoko üslublu yapmanın sadə plastikliyi, buxarıların yuxarısın-

dakı Venesiya güzgüləri sarayın daxili məkanının mahiyyətini təşkil edirdi, binanın memarlığı ölkənin o dövrün memarlığının üslubi inkişafında böyük əhəmiyyət kəsb etmirdi.

Mənzele Pirniyye sarayı kiçik bağı olan ensiz sahədə yerləşir. Bağ yaşıllığı sahənin ölçüsündən asılı olmayaraq Tehran saray və yaşayış evlərinin səciyyəvi xüsusiyyətidir. Təbii ki, isti iqlimdə yaşıllığın mövcud olması mühiti nəcibləşdirir və binanın memarlığının mənimsənməsinə təsir göstərir.

Bu tikili şəhərdən uzaq deyil və onun memarlıq fonunda fəal iştirak edir. Ev iki mərtəbədən və yarımzirzəmi mərtəbədən ibarətdir. Plan üzrə kvadrat bina eninə və uzununa divarlara bölünüb və kompozisiyanın mərkəzi ox sisteminə malikdir. Geniş mərkəzi aralıq planda üstün yer tutub, kompozisiyanın özəyini baş üçmarşlı pilləkən təşkil edir. XIX-XX əsrlərdə saray və evlərin tikintisi zamanı planın həllinə ikicərgəli sistemdən daha münasib olan dəhliz sistemi və pilləkən qəfəsinin geniş sahəsi daxil olur. Binanın planı tərtib olunarkən baş pilləkənə xüsusi diqqət yetirilmişdir.

Mərkəzi aşırımın yarısından çoxunu tutan baş pilləkən təntənəli elementə çevrildi və küncləri bir az əyriliklə vurğuladı. Bununla yanaşı pilləkən qəfəsinin sahəsi daha çox mənalılıq və genişlik əldə etdi. İkinci mərtəbədə pilləkən bilavasitə ox üzrə baş otaqla əlaqələnir. Nəticədə yerli xüsusiyyətlərə malik olan dəqiq və rasional planlaşdırma strukturu yarandı.

Divarları yapma və ornament örtüklü zəngin interyeri olan əksər binalardan fərqli olaraq, burada interyerlərin həllində çox sadə memarlıq üsulu mövcuddur. Yalnız pilləkən yerlərinin tərtibatında qalereyanın bütün yükünü saxlayan, taxta balyustrada ilə əhatələnən Ion sütunları kimi konstruktiv elementlərin əlavə edilməsi ilə memarlıq formalarından azad istifadə edilib. Vizual və memari cəhətdən çoxplanlı məkan mühiti pilləkənlə yuxarı və aşağı hərəkət etdikdə müxtəlif bucaqlardan maraqlı perspektivlər açılırdı (266, s. 167)

Əyri cizgili pilləli əsas açıq pilləkən, birinci mərtəbənin dərin lojiyası və yuxarı mərtəbənin üç qapalı pəncərə oyuqları fasadın kompozisiyasının mərkəzi hissəsini təşkil edir. Yanlardan cüt pəncərələr həcmli mühitin ümumi səciyyəsini tamamlayır. Fasadın üzərində klassik üsul və formalarla birgə mərkəzi hissənin oyuqlarının qeyri-tektonik formaları üstünlük təşkil edir. Belə ifadə forması fasadın kompozisiyasının probleminə həm memarlıq yanaşma baxımından, həm də onun həlli baxımından təəccüb doğurur. Fasadın səciyyəsinə ümumilikdə yanaşdıqda yan pəncərə oyuqlarının həllinə diqqət yetirmək lazımdır. Birinci mərtəbədə onlar pilyastr, sandrik və frontonlar memar cəhətdən əhəmiyyətli dərəcədə işlənib. Fronton və sandriklərin arasında medalyonlar yerləşdirilib. Əyri cizgili kərpic elementlər və detallar istifadə edilib. Pəncərələrin aşağı hissəsi kürsülüyün dartı qüvvəsinə oturan gözəl dəmir məhəccərlərlə bəzədilib. Miqyas və pəncərə oyuqlarının memarlığının fərdiliyi sayəsində fasadın zəngin yan səthləri və mərkəzi hissə arasında tarazlıq əmələ gəlmişdir. Mərtəbələrarası taxça aşağı və yuxarı hissələrin keçid və əlaqəsini gücləndirib. Qeyd edək ki, mərkəzin aşırımlarının şəkli və pəncərələrin çərçivələri bu binada peşəkar inkişaf etməyən modern üslubunun təsiri altında işlənmişdir. Kronşteynli tamamlayıcı karniz və mərkəzi hissənin sipəri balaca yoxuşla vəziyyətini dəyişir, sonra əvvəlki istiqamətini davam etdirir. Binanın yuxarı hissəsinin belə forması Qacar üslubunda həll olunub.

Saray fasadının memarlığı yüksək səviyyədə olmayan eklektikanın yaranmasına səbəb olan struktur əldə etdi. Çünki memar oyuqların və formaların palitrasından formal olaraq, Qərb üslubunun mahiyyətini dərk etmədən istifadə edirdi.

Bağ fasadı mürəkkəbləşdirilmiş həcm və məkan kompozisiyasını nümayiş etdirir. Həm plan, həm memarlıq baxımından fasadın mərkəzi hissəsi əsas hissədən fərqli olaraq rizalit və barokko formalı iki mərtəbənin həcmi ilə qeyd olunub. Bağlı üslublu aşağı mərtəbə qaldırılmış hissəli yüngül belveder şəklində çıxış edir. Bu əyri xətli çalarlı malik olan əhəmiyyətli plastik kompozisiya şərti olaraq Ion sütunları ilə və memarlıq forma və elementlərindən azad istifadə edilərək təqdim olunub. Mərtəbələr taxçalar vasitəsilə ayrılıb, onların altında aşağı mərtəbənin yarımdairəvi pilyastrları fasadın mərkəzi hissəsinə möhtəşəmlik verir. Yan pəncərələr öz gözəl formaları sadədir və barokko kompozisiyasından kənara çıxmırlar.

Binanın memarlığının müxtəlif üslub və kompozisiya üsulları ilə inkişafı, atektonik forma və elementlərin istifadəsi həcm və məkan strukturu üçün təbii haldır. Bu hal özünü var gücü ilə binanın bədii simasında göstərdi və Qacarlar dövründə İranın memarlıq irsində öz yerini tutdu.

Eyni zamanda, o dövrdə ölkənin ictimai-iqtisadi və siyasi vəziyyəti, xarici




*Tehran. Qəsri-Firuzə sarayının baş planı. 1852-ci il.*





*Tehran. Qəsri-Firuzə sarayı.*

sərmayənin asta, lakin müntəzəm surətdə İran cəmiyyətinin bütün fəaliyyət sahələrinə daxil olması memarlığa təsir göstərməməyə bilməzdi. Ənənəvi memarlıq bütün səviyyələrdə üstünlük təşkil etdiyi zaman, yeni üslub cərəyanların təşəkkülü prosesinə səthi yanaşaraq yeni memarlıq əsərlərinin meydana gəlməsi mümkün deyildir (36, s. 253).

Kavam as-Saltanenin sarayı (XIX-XX əsr) ənənəvi olaraq bağı olan ensiz sahədə yerləşir. Binanın planı son dərəcə dəqiq və aydındır, mərkəzi dəhliz və dirəklərdə yerləşən pilləkənlərlə otaqlar iki cərgə ilə tikilib. Ön otaq qoruyucu otaqlarla birbaşa dəhlizə çıxır, üzbəüzdə digər əsas otaqlar yerləşir. Mərkəzi zal və köndələn yerləşən yan otaqlar dirək hissəsində erker üslublu yonulmuş formadadırlar. Aşağı və yuxarı mərtəbələr plan üzrə eynidirlər və konstruktiv cəhətdən rasional istifadə ediliblər. Belə sxem üzrə daxili məkanlar gözəl otaqlara, binanın çevrəsi isə gözəl struktura malikdir.

Perimetr boyunca tikilmiş, birun və endəruna bölünmüş geniş həyətli yaşayış evlərinin ənənəvi planlaşdırma üsullarına zidd olaraq yeni tikililərdə plan kompozisiyası ev tikmənin fərqli qaydaları əsasında tikilir. Çoxlu oyuq və fasadların vizual qavranması vasitəsilə yaşayış evinin planının ümumi həllinə, otaqların daxili məkanlarının açılmasına fərqli nəzər mövcuddur.

Binanın qəbul edilmiş həcm və məkan kompozisiyası memarlıq üsulları mövqeyindən, həllin səciyyəsi ilə planın inkişaf xəttini davam edir. Bina profilləşdirilmiş qurşaq vasitəsilə kürsülü və birinci mərtəbəyə bölünür. Bununla bütün səviyyələrdə kifayət qədər tədqiq edilməsi ilə fərqlənən fasadların memarlıq şərhi nəzərdə tutulur. Soğanaq şəkilli kürsülü mərtəbədən başqa oyuqların formaları müxtəlifdir. Yuxarı mərtəbələrdə oyuqlar bir qədər deformasiya olunmuş və atektonikdirlər, bədii və memarlıq nöqteyi-nəzərindən estetik hisslər oyatmırlar. Ciddi ox sistemli kompozisiyalı baş fasadın həlli mürəkkəb formalı girişin ensiz rizaliti ilə qeyd olunub. Kürsülü hissə pəncərə oyuqlarının profilləməsi ilə incə işlənib. Onlar öz əhəmiyyətini qoruyurlar və fasadın əsas yuxarı hissəsinin inkişafına keçid formasıdırlar.

Fasad fərdi memarlıq formasında ifadə olunub, kərpic hörməsinin hamar




*Tehran. Qəsri-Firuzə sarayının kəsiyi.*

fonunda iki düzbucaq formalı pəncərə oyuqları seçilir. Onların haşiyələri bir sıra kərpiclə hörülüb. Fasad divarının ciddiliyi, proporsiyaların təmizliyi memarı qane etmədiyi üçün o, oyuqların üstündən zəngin dekorativ elementli sandriklər əlavə edib və fasadın dayaz strukturuna təntənəlik verib. Perimetr boyunca balaca attikli dərin çıxmalı karniz binanın həcmli kompozisiyasının tamamlayıcı elementidir.

Daxili bağa baxan tikilinin qarşı tərəfdəki hissəsi dərin çıxıntılı tin-tin erkerlərlə balaca kurdoner təşkil edir. Fasadın memarlığından asılı olmayan həcmli plastikalı çox maraqlı məkan kompozisiyası əmələ gəlib. Burada memar fasad üzərində işləyərkən pəncərə oyuqlarının formasını daha da mürəkkəbləşdirdi. Üç ox tərəfləri meydana gəlib: fasadın mərkəzi və erkerlərin oxu üzərindəki tamalanmamış tağlar eyni pəncərə oyuqları ilə bərkidilib. Qeyd etmək lazımdır ki, fasadın üzərində üç oyuq forması nümayiş etdirilir və yalnız arxitrav olanlar öz formalarını doğruldurlar, qalan ikisinin funksional xüsusiyyətləri yoxdur və deformasiya olunublar.

Bununla yanaşı, pəncərə oyuqları sandrik əvəzinə dekorativ formalı yapma ilə işlənib. Xüsusilə mərkəzi hissədə onun fasadın ümumi sistemindəki kompozisiya əhəmiyyəti vurğulanıb. Fasadın üzərindəki əsas və tabe elementlər binanın memarlıq simasının açılmasında bir-birini tamamlayaraq sinxron işləyirlər.

Yan qərbi fasad digər fasadların bütün memarlıq və dekorativ atributları saxlayaraq nəticədə qədim rus memarlığının soğanaq formasını alan dayaz üslublu portallı girişin həlli ilə diqqəti cəlb edir. Burada qəribə kərpic naxışlı dekorativ forma və elementlər azdır, lakin binanın memarlığının struktur əsası ilə birgə onun funksional vəziyyətinin mahiyyətinə zidd deyil.

Sarayın memarlığında XX əsrin əvvəlində İran memarlığının inkişafı ümumi istiqamətinin üslub əsasına daxil olan yeni formaların yaranmasının xüsusi sistemi meydana gəlmişdir. Yerli ənənəvi çərçivədən çıxmaq cəhdi fəal ifadə forması əldə edir. Saray milli memarlığın yüksək potensialını saxlayaraq şəhər mühitinə həcmi-məkan və kompozisiya həllinin yeni forması kimi daxil oldu.

Abgind muzeyi saray üslubludur, 1911-1912-ci illərdə tikilib və ənənəvi olaraq çiçək ləkləri olan bağla, hovuzla və ön girişlə sahənin içəri hissəsində yerləşir. Binaya kimi yarpaqlı ağaclardan ibarət xiyaban uzanır. Plan çevrəsi ilə Kavam as-Saltane sarayını xatırladır, lakin o indi müzakirə etdiyimiz binadan öncə tikilib. Beləliklə, muzeyin binası hələ o zaman vətəndaşlıq hüququ qazanmışdır və sonralar Tehranın şəhərsalma sistemində yer tutan digər Avropa üslublu tikililərdə istifadə edilə bilərdi.

Burada simmetriyanın klassik oxu ilə daxili məkanın maraqlı planlaşdırma strukturu təqdim olunub. Bina iki mərtəbədən, xidməti və köməkçi otaqlar yerləşən kürsülü mərtəbədən ibarətdir. Ox üzrə vestibülün arxasında baş pilləkənin yumru formalı sahəsi yerləşib.

XIX-XX əsrlərdə Tehranın saray və imarətlərində kompozisiyanın fəal forması kimi tikilmiş çox hissəsini tutan baş pilləkən əlavə etməyə başlayırlar. Məhz təntənəli pilləkənin ətrafında əsasən qəbul otaqları və zallar qruplaşırdı.

Bu misallara planlaşdırmasında uyğun yer tutan pilləkəni olan binanı da aid etmək olar. Dairənin mərkəzində aralıq meydançasına kimi düz mərkəzi marş, ikinci mərtəbədə yarımdairəvi marşları olan pilləkən yerləşir. Keçid qalereyasını zəngin dekorativ səthli kvadrat sütunlara kəsən pilləkənin memarlığına xüsusi diqqət yetirilib.

Əgər pilləkən sahəsinin divarları sakit formalarda həll edilibsə, friz hissəsi yapma ilə zəngindir. Burada XIX əsrin ikinci yarısında tikilən binalarda müşahidə olduğu kimi bütün otaqların səthləri ornament mövzuları ilə xalça kimi örtülməyib. Sadə kompozisiya üsul və formalara daha çox diqqət yetirməyə başladılar. Məharətlə işlənmiş balyasinli ikinci mərtəbənin dairəvi keçid qalereyası çox maraqlı memarlıq sistemi təşkil edir. Ekranlarla qeyd olunmuş divarların dairəvi panoraması fon təşkil edir. Daxili həcmli və məkan formalı memarlıq kütlələrin incə əlaqəli bədii mühiti yarandı. Vestibüldə yarımdairəvi köməkçi tağların hərəkəti diqqətə layiqdir. Proporsional hissələrin, divarların hamar səthlərinin, perspektivli görünüşü sayəsində tağlar öz formaları ilə pilləkənin yarımdairəvi marşlar kompozisiyasına təbii şəkildə daxil olurlar. Baş fasada baxan tilli formalı künc otaqlar binanın həcmli kompozisiyasında fəal iştirak edirlər. Yoxuşun kiçik oxunun çarpazşəkilli tağtavanları ilə örtülmüş zalın interyerinin həllində memarlıq konstruksiyası layiqli yer tutur. Əmələ gəlmiş həcm və məkan mühiti tağtavanın vurğulanmış bağları ilə formaların müəyyən plastikasına səbəb olub. Sallaq tağtavanların vizual ağırlığı yapma elementlərin dekorativ bəzəyi ilə aradan götürülüb.

İnteryerlərdə zəngin səthli divar və plafonlar müşahidə olunur. İnteryerə olan münasibət mülki mühəndislikdə yeni üslubun yaranmasına səbəb olan memarlığın rasional əqidəsi nöqteyi-nəzərindən baxılır. Keçmişin memarlıq üsullarının nisbətən zəngin palitrası azalmırdı, həcmli sistemlərinin kompozisiya cəhətdən ciddi daxili məkanları nəzərdə tutulurdu. Qərbi Avropa profilinin dekorativ elementləri olan təmiz formalara üstünlük verilirdi. İran memarlığı inkişa-

fın yeni mərhələsinə qədəm qoymuşdur, lakin bu yenilənmənin mürəkkəb prosesi idi, burada eklektika və üslublaşdırma, yerli ənənələr və Avropa üsulları birbirilə əlaqələnirdi (156, s. 217).

Saray binasının hər tərəfi fasaddır və bir fasadı təntənəli və təmtəraqlıdır. Dartı qüvvəsinin profilləşmiş zolağı olan hündür kürsülükdə ikimərtəbəli binanın baş fasadı tamaşaçı önündə vurğulanmış mərkəzlə və qoruyucu təraşlanmış erkerlərlə durur. Portal girişli, sütunlarla bərkidilmiş geniş baş pilləkən və ikinci mərtəbədə balyustradalı balkon fasadın həcm və məkan kompozisiyasının inkişafına ümumi istiqamət verir. Hərəkətli formalı və elementli formalaşmış məkan strukturu fasadın həllinə plastik yanaşma tələb edirdi. Mərhələli hissələrin sistemi binanın daxili məkanının strukturunu əks etdirir, şaquli oxların qəbul edilmiş ritmi ilə uyğunlaşdırılıb. Simmetriyanın mərkəzi oxu memarlıq kütlələrin çoxalma qaydası üzərində qurulub. Perspektivdə vizual mənimsənən ön pilləkən, dərin çıxıntılı portallı eyvan və onun üzərində dekorativ işlənmiş qapı oyuğu olan divar səthi hərəkət edir. Fasadın bir hissəsi arabeskli geniş pilyastrlara bölünüb. Mürəkkəb formalı oyuğun üzərində divar səthi arabeskalı pilyastrların şaquli xətlərini kompozisiya ilə birləşdirən əyri xətli çevrəli profilləşmiş sandrik tutub. Dekorativ bəzəyin incə relyefi fasadın belə ifadə olunmuş formasını daha da nəcibləşdirir. Nisbətən sadə, lakin eyni səthdə olan pəncərə oyuqları ümumi memarlıq-əyani mühitin təşkilində iştirak edir.

Əsas həcmli elementlərin şaquli ritmləri olan baş fasadın üçhissəli ox sistemi təraşlanmış formalar və qeyd olunmuş mərkəz vasitəsilə memarlıq plastikasını müəyyən etmişdir. İranda kapitalizmin inkişaf etdiyi şəraitdə memar qarşısında qoyulan yeni saray üslublu imarət yaratmaq kimi məsələnin həllinə nail oldu və parlaq memarlıq şəkli əldə etdi.

Tehranın ətrafında Qacarların saray kompleksləri arasında "Qəsri-Qacar"dan sonra "Dovşan-təpə" diqqətə layiqdir. Bünövrəsi 1852-ci ildə Nəsrəddin şahın dövründə qoyulan "Dovşan-təpə" saray kompleksi əhatə olunduğu təpələrdə, uca dağların fonunda və boş yerdə meydana gəlmişdir. Səfəvi Şah Abbas Xəzər dənizinin sahilindəki öz böyük Əşrəfini xoşladığı kimi, Nəsrəddin şah da bu məntəqəni və saray kompleksini xoşlayırdı. Təbii ki, bu yalnız müqayisədir, çünki Şah Abbasın dövründə İran daha zəngin və güclü idi, Qacarlar dövründə isə İran dövləti öz keçmiş şan-şöhrətini itirmişdir (168, s. 347-360).

Bununla belə, Qacarlar öz tikinti, xüsusilə saray fəaliyyəti ilə Səfəviləri ötüb keçmişdilər. Memarlıq və kompozisiya üsulların müxtəlifliyi ilə, orijinal saray kompleksləri, karvansara, hamam, məscid və nəhayət memarlıqda Qacar üslubu yaradaraq İran memarlığına tamamilə yeni istiqamət vermiş oldular (161).

"Dovşan-təpə" geniş ərazidə yerləşirdi və tədricən artırılaraq tikilirdi. Bunun səbəbi məntəqənin relyefi və sarayın hakim mövqesi idi. Saray kompleksinə becərilmiş torpaqlar bitişik idi, rahat enişli yollar çəkilmişdir, park salınmışdır, xiyabanların sıx yaşıllıqları bütün ərazidən keçirdi. Şahın əmri ilə bu boş guşə Tehranın yanında çoxsaylı pavilyonlarla, köşklərlə, hamamla, su kəməri ilə, kanal sistemi ilə gözəl məntəqəyə çevrildi. Saray pavilyonundan uzaq mənzərə açılırdı, Tehranın çevrəsi çətinliklə seçilirdi.

Planlaşdırma strukturuna görə pavilyon çoxsaylı tərəfləri ilə mürəkkəb xarici görünüşə malik idi və baş fasadı eyvanlı tikililərə baxırdı. Fasadın qarşısında bağlı üslublu həyət, divarların



*Dovşantəpə.*

memarlıq şərhi, dekorativ elementlər açıq səma altında zalın interyerini təşkil edirdilər. İkimərtəbəli pavilyon simmetrik səciyyəlidir, ox üzrə balaca belvederlə vurğulanıb, baş fasadı mərkəzdə beştağlı dərin lojiya şəklində, ikinci mərtəbədə sakit lokal qanadlarla təsvir edilib. Birinci mərtəbə fasadın ümumi inkişafında asılı mövqe saxlayaraq öz funksional yükünü daşıyır. Pavilyonun ətəyində xidməti xüsusiyyətlərə malik olan tikili sistemi kaskad şəklində aşağı düşürdü. Kompleksin digər binalar qrupu baş yolun sağ tərəfində yerləşirdi, dairəvi ikimərtəbəli tikilidən ibarət idi, qülləşəkilli mülki üslublu əlavə tikili ucalırdı. Bina əla dairəvi seyr etməyə malik idi, əsas pavilyonla ümumi həcm və məkan kompozisiyasını tamamlayırdı. Yola baxan bütöv divarlı digər tikililər kompleksin memarlıq-planlaşdırma strukturunda ikinci dərəcəli hissə təşkil edirdi.

Relyefin üzərində yerləşən kompleks müxtəlif nöqtələrdən fərqli mənimsənirdi: ya azad məkanda ayrı tikililərlə, ya da sıx tikililər olan sahə ilə. Parkın yaşıl sahəsi və təpənin zirvəsində yerləşən kompleksin arasında açıq torpaq sahəsi yerləşirdi və abadlaşmış yol zolağı keçirdi.

Kompleksin ərazisində darvaza sırasını, xüsusilə mürəkkəbləşdirilmiş portal kompozisiyası şəklində ənənəvi Qacar üslubunda həll olunmuş parkın darvazalarını da qeyd etmək lazımdır.

Nəsrəddin şahın əmri ilə relyef üzərində "Dovşantəpə" saray kompleksinin pavilyonlarının və digər tikililərinin meydana gəlməsi təsadüfi deyil. Burada boş yeri çiçəklənən vahəyə çevirən iri miqyaslı şəhərsalma planının təməli qoyulub. Ölkə yeni inkişaf şəraitində geniş məntəqənin planlaşdırma strukturuna məna vermək və qoyulmuş məqsəd üçün ətraf təbiəti istifadə etmək cəhdi müşahidə olunur. İran hakimlərinin memarlığa və yaşıllıqlara olan meyli memar və bağçıları son dərəcə gözəl bağ-park və memarlıq sənət əsərlərini yaratmağa vadar edirdi. Qacar-

lar dövründə Tehran şəhərinin kənarında məşhur "Qəsri-Qacar" sarayının meydana gəlməsi təsadüfi deyil və bəlkə də o dövrün maraqlı saray komplekslərindən biri olan "Dovşan-təpə"nin tikintisinə səbəb olmuşdur (193).

Soltan-abad saray kompleksi (1857-1878) Nəsrəddin şahın şəhər qırağında olan çoxsaylı iqamətgahlarından biridir. Geniş süni gölün iki üzbəüz sahilində üfüqi uzanmış birmərtəbəli bina tikilmişdir. Onunla üzbəüz nisbətən ciddi şərhli üçmərtəbəli bina yerləşir. Ərazinin planlaşdırma strukturuna Nəsrəddin şahın xoşladığı iki şaquli qüllələr daxil edilmişdir. Saray kompleksini mənzərənin fəal elementi olan böyük park əhatə edirdi (172).

Sahənin formalaşmış memarlıq-məkan sistemi həcmli kütlələrin əks nisbətini göstərir. İnkişaf həm üfüqi, həm də şaquli istiqamətdə gedir, həcmli elementlər həndəsi formaların ümumi sxemini pozmayaraq ətraf ərazinin məkan hərəkətinə səbəb olur.

Saray komplekslərinin ərazisində böyük düzbucaq göllərin, xüsusilə Qacarlar dövründə meydana gəlməsi nadir hal deyil. Bunu Nigarestanın, Lalezarın, Nizamiyyenin, İşrat-abadın və digərlərin bağlarında görmək olar. Geniş göl saray kompleksinin həcm və məkan kompozisiyasında iştirak edərək, memarlıq və əyani mühitin dəyişdirilməsində böyük bədii məsələləri həll edir.

Üfüqi həcmli saray vurğulanmış ikimərtəbəli mərkəzlə, genişləndirilmiş qanadlarla və qülləşəkilli qoruyucu dirəklə simmetrik oxlu kompozisiyaya malikdir. Saray binası oyuqların və formaların sakit ritmi ilə, yerli memarlıq üsulları ilə şərh edilməsi Qacar plastik həlli üçün səciyyəvidir. Səfəvilərə saray binasının belə memarlıq ifadə forması xas deyil.

Təklif olunmuş kompozisiyanın mahiyyətindən irəli gələn memarlıq materialının üslub ifadəsinə və həcmli məzmunun şərhinə tamamilə fərqli yanaşılır. Enişli damı olan ikinci mərtəbənin dərin lojiyası, birinci mərtəbənin cüt pəncərəsi ilə soğanaq formalı tağların dayaz taxçalarlı, üçtağlı pəncərələrin növbələnməsi, nəzəri cəlb etməyən dekorativ elementləri incə plastik fasadın yaranmasına imkan yaratdı.

İkimərtəbəli fasadın mərkəzi hissəsində ənənəvi kompozisiya üsulu yenidən işlənmiş formada istifadə edilib. Burada rəngli vitraj-şəbəkə ilə doldurulmuş geniş oyuqlar, stalaktit konxalı qoruyucu portal-girişlər yoxdur. İkinci mərtəbədə çox aralı qoyulmuş sütunlarlı dərin lojiyaya üstünlük verilib. Pilləkənlərin girişi qeyd olunmayıb və demək olar ki, görünmür. Birinci mərtəbənin mərkəzindəki soğanaq şəkilli dayaz taxçada geniş oyuq var. Belə dərin taxçalar girişin yanlarında təkrarlanır. Taxçaların qəbul edilmiş formaları fasadın üzərində iştirak edir və bununla üfüqi uzanmış həcmin monotonluğunu pozur. Fasadın mürəkkəb olmayan forması aşağı mərtəbənin tinlərində çatma tağların dərin taxçaları ilə qeyd olunmuş təraşlanmış qülləşəkilli həcmlərlə bərkidilib. Oyuq formalarının müxtəlifliyi proporsiyaların vahid miqyası ilə müəyyənləşən fasadın strukturunu pozmur. Tağların çatma forması fasadın memarlığında üstün element deyil, yerli ənənələrə olan hörmətdir.

Mülayim üfüqi hissələr gölün sahil xəttini təkrarlayır və fasadın memarlığını bütün kompozisiya əks olunan su ilə yaxınlaşdırır. Sarayın binası şaquli qovaq ağacları fonunda tikilib, yaşıllıq və sudan olan çərçivəyə alınıb və çox mənzərəli və gözəl bədii mühit yaradıb (193).

Gölün üzbəüz sahilində tikilən üçmərtəbəli saray tamamilə fərqli parametrlərə malikdir, həcmi-məkan və memarlıq-planlaşdırma qaydaları əsasında tikilib.

Planda kvadrat şəkillidir, bütün fasadlıdır, hər bir nöqtədən görsənir və həcmli kütlələrin şərhi ilə diqqəti cəlb edir.

Qəbul edilmiş kompozisiya üsulu həcmlərin orijinal quruluşuna malik olan Qacar memarlığının yeni tendensiyalarını əks etdirir. Bina fərqli əmsallarla tikilib, aşağı iki mərtəbə qapalı üslubludur, yuxarı mərtəbənin yüngül sütunlarını saxlayır. Burada fəza strukturunun konstruktiv üsullardan qarşılıqlı asılılığı həll edilir. Aşağı mərtəbələrdə çox dayaz formada və yarımdairəvi oyuqların iştirakı ilə fasadların şaquli sistemi üstünlük təşkil edir. Böyük gölə baxan fasad xüsusilə qeyd edilib və baş fasadın funksiyasını yerinə yetirir. Fasadın mərkəzi oxundakı ikimərtəbəli yarımdairəvi sütunlar dayaz şaquli kürəkciklərin ritmində fəaliyyət göstərən portal kompozisiyası kimi dərin kölgələrlə mənimsənir. Fasadın səthinə daxil edilmiş yerli, açıq çalarlı tamamilə dayaz tağlar əsas element olan üçtağlı portalın imkanlarını açır. Fasadın aşağı mərtəbələrin ağırlığı daha təmkinli memarlıq elementləri ilə nəzərə çarpdırılır. Fasadın şərhində memarın həm kompozisiya üsullarına, həm memarlıq formalarına hörməti hiss olunur: istifadə etmək imkanına baxmayaraq onlardan yersiz istifadə etməyib. Fasadın plastik işlənməsi xüsusi diqqətlə yerinə yetirilib. Sarayın yuxarı yarusunun sütunlarına gücləndirilmiş obrazlı və emosional rol verilib. Binanın bütün perimetri boyunca qamətli sütunlar dayaz dörd enişli damı saxlayır. Sütunların arxasında ön otaqların qabağında dərin qalereya yerləşir. İnkişaf etmiş karnizin olmaması və balaca çıxarmanın sipərlə əvəz edilməsi ona maksimum yüngüllük və xəfiflik verir. Bununla saray memarlıq kompozisiyasında nəzərdə tutulduğu kimi həcmli həllin ziddiyyət sistemini əldə etmişdir.

Eksteryerdən fərqli olaraq keçmişin əsas ideyası öz aydın ifadəsini sarayın interyerində tapır, xüsusilə binanın daxili fəzasında mərkəzi mövqe tutan hovuzlu zalda. İnteryerdə zalın hakim olan səkkizguşəli forması bədii ifadə etmənin xüsusi əlamətlərini əldə edir. Məhəmməd Cəfərinin 1892 ildə çəkdiyi şəkildə Şərq memarlığının ənənələrində işlənmiş parlaq memarlıq kompozisiyası təqdim olunub. Zalın əsas tərəflərini iri çatma tağlar tutur, kiçildilmiş ölçülərdə olan künclər eyni formadadır. Bütün bunlar daxili məkanın konstruktiv quruluşunu yaradır. Künc dayaqlara və tağlara çatma formalı çoxüzlü günbəz dirənir. Ənənəvi, tin-tin günbəz zal interyerlərində üstünlük təşkil edən forma idi, təntənəli mühitin dəyişdirilməsinə, ifadə vasitələrinin plastik imkanlarının açılmasına imkan yaradırdı (165, s. 119-128).

Böyük və kiçik tağlardan ibarət zalın dekorativ elementlərlə zəngin olan bütün divar səthləri interyerin həcm və məkan sistemində fəal iştirak edirdi. Bucaq iki tərəfi açıq tağ oyuqları və dərin taxçaların üfüqi xətləri ilə eyni olan dirək sütunlarının şaquli hissələrinin ritmi memarlıq formalarının hərəkətinə səbəb olur. Günbəz nervürün tilləri ilə qeyd olunmuş tağtavanlarla, parus və tromplarla örtülüb və yuxarıda ulduzşəkilli plafona çevrilir. İnteryerin maddiləşdirilmiş fəzasının qeyri-adi şəkli yarandı. Dekorativ kütlənin xalça örtüyü altında səkkizguşəli zalın tektonik strukturu tamamilə yox olub. Memarlıq üsullarının gərginliyi aradan götürülüb. Günbəzin incə ornament yapmasının altında yüngüllük və sakitlik mühiti yarandı.

Əgər tamaşaçı qarşısına sarayın eksteryeri yeni üslub cərəyanın təmkinli memarlıq formaları ilə çıxırsa, interyerdə həm forma, həm məzmunca tamamilə fərqli bədii təsvirli dünyaya, özünün əsl yaşayış mühitinə düşür. Şərq sakini özünü parlaq rənglərlə, dekorativ-tətbiqi

incəsənətinin zənginliyi ilə əhatələməyi xoşlayır. Bu səbəbdən zalın memarlıq təqdimatında alçaq səkkizguşəli hovuzlu təsəvvürü cəlb edən interyer əmələ gəldi.

Saray binalarında fərdi əhəmiyyətə malik olan sütunlardan istifadə etmə üsulu Səfəvilərin dövründə, xüsusilə İsfahanda geniş yayılmışdır. Burada sütun tikilinin ümumi mühitinin dəyişməsində yerli təklik kimi iştirak edir, lakin ümumilikdə bu sütunlar vizual olaraq qüvvətli emosional təsir gücünə çevrilir. Saray öz kompozisiya üsulları ilə, fasadların həllində memarlıq formaların daxil edilməsi ilə Qacar memarlığının üslub cərəyanına yeni şərh gətirir. Memarlar cəsarətlə ənənələri qıraraq, onun imkanlarını dağıtmırdılar və memarlığın inkişaf etdiyi yeni şəraitdə keçmişin formalarının tektonik xüsusiyyətlərindən istifadə edirdilər. Soltanabadda yerləşən saray həcm və məkan strukturunda istifadə edilən bədii-memarlıq vasitələrindən asılı olmayaraq, İran memarlığının yeni istiqamətinin başlanğıcı olan Qacarlar dövrünün maraqlı tikililərindən birinə çevrildi.

Kərəc, Firuze, Nizamiyye, Lalezar, Nigarestan saraylarının memarlıq-planlaşdırma strukturunda, daxili fəzanın ornament motivlərinin bolluğu, boş divar qorxusu və quruluş üsullarının həlli kimi çox oxşarlıq var. Bununla belə, bütün saraylar fərdidir, memarlıq təsəvvürü üçün açıqdırlar. Eyni zamanda, XIX əsrin ikinci yarısından İran memarlığının inkişafında, xüsusilə, eksteryerdə yeni cərəyanlar qəbul edilməyə başlayır.

Buna Tehrandakı Zilli-Sultan sarayını nümunə gətirmək olar.

## ZİLLİ-SULTAN SARAYI

Qacarlar dövründə saysız saray binaları tikilirdi, memarlıqda ənənəvi kompozisiya üsul və formaları istifadə edilirdi, lakin Qərb ilə yaxın tanışlıq yeni üslub cərəyanı yaratdı. Yerli memarlıq ənənələrinin Qərb memarlığı ilə qarşılıqlı əlaqəsi öz fəlsəfəsi olan, milli irsin başlanğıcını qoruyaraq, İranın yeni memarlıq cərəyanının əyani-məkan mühitinə daxil olan yeni Qacar üslubunun əmələ gəlməsinə səbəb oldu.

Nəsrəddin şahın dövründə İran cəmiyyətinin tarixi və ictimai-iqtisadi vəziyyəti müasir tendensiyalar və bədii surət istiqamətində memarlığın geniş inkişafına imkan yaratdı. Onlar kompozisiya üsullarının xüsusi şərhi ilə, memarlıq formalarının əmələ gəlməsi ilə, fasadların mütənasib hissələri ilə, həcmli kütlələrin miqyaslı həlli ilə Səfəvi memarlığından fərqlənirlər.

Bu tendensiyalar şahzadə Maqsud Zilli-Sultan Qacarın saray kompleksində də meydana çıxdı. Geniş uzadılmış düzbucaq formalı (200x89) sahə perimetr boyunca qismən inşa edilmişdir. Sarayın əsas binasının mərkəzi oxundan hər iki tərəfdə parter yaşıllıqlar və bina yerləşir. Sarayın önündə ənənəvi olaraq hovuz yerləşir. Xidməti binalar əsasən bircərgəlidir. Geniş ərazi üçün səciyyəvi olan pavilyon tipli tikinti üsulundan istifadə edilib.

Sahənin həcm və məkan strukturunda əsas yer təbii ki, saray kompleksinin baş korpusuna ayrılıb.

Sarayın otaqları iki cərgə ilə və mərkəzi hissədə vestibül çıxıntı ilə tikilib, əsas pilləkən ikitərəflidir. İranda təmtəraqlı qəbul etmə geniş yayıldığından sarayların daxili quruluşunda Qacarların ilk saray tikililərindən fərqli olaraq pilləkən üstün mövqe əldə etdi.

Baş korpusa sütunları fasada yönələn digər baş hissə açıq qapı oyuqları ilə bitişir. Qacar üslublu məzmun və kompozisiya həllinə görə baş fasad maraq doğurur. Plastik vasitələrin ümumi strukturunda dəyişiklik baş verib. Fasa-

dın mərkəzi hissəsinin çıxıntılı həcmi və Qacar frontonu memarlıq cərəyanında yeni ifadə tərzidir və memara verilmiş materiala öz baxışını ifadə etməyə imkan yaratmışdır. Müxtəlif formalı tağlarla mürəkkəbləşən birinci mərtəbə qeyri-mütənasib əsaslı sütunların profilləşdirilmiş cüt kapitelləri ilə saxlanır. Aşağı mərtəbəni plastik elementlərlə doldurmaq cəhdi öz bünövrəsində yerliliyi qoruyaraq effektli nəticə vermədi.

Yuxarı mərtəbə şaquli dirəklərin mülayim şərhi ilə yarımdairəvi tağlarla fasadın klassik üsulu idi. Fronton karnizinin üfüqi xətti mülayim formalara keçir və tağlı kompozisiya ilə tamamlanır. Belə fronton keçmişin cansız formaları ilə müqayisədə Qacar üsulunun daha hərəkətli və mənalı yeni ifadəsidir.

Sarayın yan qanadları milli memarlığa hörmət olaraq, əla ölçülü iki mərtəbədə yarımdairəvi tağların mülayim ritmini alıblar. Belə üsul ümumi həcm və məkan kompozisiyasına zərər vurmayıb, əksinə xüsusi gözəllik əldə edilib.

Sarayın mərkəzi hissəsində olan üzbəüz fasadın memarlıq kompozisiyasında memarlıq həllinin əsas qaydalarını qoruyaraq Qacar frontonunun siluetini gücləndirib. Fasadın bütün məkan strukturu İran ali cəmiyyətinin adət etdiyi Avropa forma və üsulları ilə işlənib. Fasadın səthi dekorativ elementlərin incə plastikası ilə zəngindir: fronton, arxivolt və tağların timpanlarının səthi eyni şərhdə birinci mərtəbədə davam edir. Birinci mərtəbədə uzadılmış dekorativ çatma tağlar zəif göstərilib, lakin onların iştirakı fasadın ümumi görünüşünə təsir göstərməyib.

Saray kompleksinin bütün pavilyonlarında məkan elementi olan və həcmin sturkturunu dəyişən sütunlu portikin əlavə edilməsi kimi eyni Avropa memarlıq mövzusu işlənilib. Memarlıq və quruluş elementi olan sütunlar, xüsusilə təmtəraqlı modelli kapitellər fərdi təfsirdə inkişaf ediblər.

Memarlar, bəzən ənənəvi formalardan öz görünüşlərinə əsasən istifadə edirdilər və bununla yerli memarlığa olan aidiyyətlərini göstərirdilər. Lakin ölkə memarlığının inkişafı bütünlüklə Qacar "modern" üslub cərəyanının himayəsi altında formalaşmışdır.

# FƏSİL 3.

# TƏBRİZ İMARƏTLƏRİ. TİPOLOJİ TƏSNİFAT

Təbrizin yaşayış evlərinin memarlığı şəhərin tarixi hissəsinin planlaşdırma quruluşunda mühüm bir səhifəni təşkil edir. Güclü ənənəvi memarlıq-planlaşdırma üsulları və kompozisiya formaları ölkədə baş verən sosial-iqtisadi və siyasi dəyişikliklərə baxmayaraq irsən ötürülə bilmişdir. Bu münasibət memarların yeni yaradıcılıq təzahürlərinə obyektiv yanaşmağa qətiyyən mane olmurdu. Avropa missiyalarının, səfirliklərinin ölkəyə aktiv şəkildə nüfuz etdiyi və 1813, 1828 illərdə baş verən rus-İran müharibələri kimi tarixi hadisələr dövründə daima axtarışda olan memarlar Qərbi Avropa memarlığına böyük maraq göstərirdilər.

Bu isə yeni naməlum memarlıq sahəsinin çoxəsrlik, ənənəvi yerli memarlıq mühitinə, xüsusilə, 1828-ci ildən sonra yeni Rusiya torpaqları ilə həmsərhəd olan Təbriz şəhərinin memarlığına təsirinin başlanğıcı idi. Çoxdan unudulmuş yarımdairəvi tağ formaları ilə ifadə olunan kompozisiya üsulları hələ Sasanilərin dövründə belə, lakin başqa ornament mövzuları ilə mövcud idi. Fasadların istər həyət tərəfdən, istərsə küçə tərəfdən qurulmasına münasibətdə memarlar ehtiyatlı müşahidəçi mövqeyi tuturdular (119, s. 5).

Tədricən yeni memarlıq təzahürlərinə maraq artırdı və yad memarlıq platforması daha çox diqqət cəlb etməyə başladı.

XIX əsrin ortalarında ənənəvi kompozisiya üsulları, memarlıq mövzuları və Avropa üslubunun təzahürləri Təbrizin yaşayış evlərinin memarlıq-planlaşdırma quruluşunda özünü göstərirdi. Şəhərin yaşayış tikintisinin bərpası və inkişafı prosesləri daha mürəkkəb formada gedirdi, çünki bu proses memarlıqda kök salmış bir çox üsulların psixoloji olaraq dağılması ilə müşayiət olunurdu.

Bir-birinə əks iki memarlıq məktəbinin, müsəlman Şərqi və Avropa Qərbinin yaxınlaşması yerli memarların potensial imkanlarını heç də azaltmırdı. Onlar ölkənin memarlığındakı yeni istiqamətin ümumi səciyyəsini mənimsəmək istəsələr də, ancaq onun mahiyyətini dərindən öyrənmədən müəyyən memarlıq üsul və mövzularından istifadə etməyə başladılar (120, s. 17).

Yaşayış evlərinin həcmi-məkan həllinin və kompozisiya üsullarının özünəməxsus modifikasiyası yaranırdı. Şəxsi malikanələrin quruluşunda müsəlman məişətinin ənənəvi forma və şərtlərinin qorunub saxlanması ciddi şəkildə gözlənilirdi.

Eyni zamanda şəhərin imkanlı sakinlərinə memarlığın yeni istiqaməti təlqin olunurdu. Evlərin pəncərələrinin və oyuqlarının küçəyə açılması, fasadlarının yerli memarlığın ənənəvi plastikliyi və bəzək motivləri ilə işlənməsi bu istiqamətin əsas xüsusiyyətləri idi.

Təbrizdə dində olduğu kimi, mədəni-məişət sahəsində də ənənələrə güclü riayət olunurdu. Burada mülkün qapalı planlaşdırma prinsipləri qorunub saxlanılırdı, daxili həyət sahəsi yaşayış tikilisi ilə birlikdə

*Təbriz. Nemanzadə yaşayış evi.*



ancaq giriş portalına malik olurdu. Mülkün tikintisi Təbriz şəhərinin müsəlman əhalisinin həyat tərzini nəzərə alan ənənəvi xüsusiyyətləri özündə cəmləşdirirdi.

Qapalı həyət sahəsi ev sakinlərinin özünü həm fiziki, həm də mənəvi cəhətdən təhlükəsizlikdə hiss etdikləri mikrodünyanı xatırladırdı.

Çox zaman yaşayış malikanəsi iki hissəyə bölünürdü: birun və əndərun. Birun kişilər üçün, əndərun isə evin qadınları üçün nəzərdə tutulmuşdu. Zəngin evin hər iki hissəsi həyət sahəsindən hansı vəziyyətdə yerləşməsinə baxmayaraq, uyğun otaqlara malik olur, əndərun üçün isə açıq səma altındakı həyət-zaldan sakit intim sahə ayrılırdı. Bu kiçik ailə ocağı təəssüratı qadınlara böyük sevinc hissi bəxş edirdi. Çünki, bu qadınlar evdən kənarda ünsiyyət qurmaq imkanından məhrum idilər.

Birunda evin işgüzar və ictimai hissəsi toplanırdı. O, meyvə ağacları və gül kolları ilə bəzədilmiş bağ-həyətə açılırdı. Həyətin rəng çaları ev sahibinin sanki vizit kartı, cəmiyyətdəki mövqeyinin göstəricisi idi.

Zaman keçdikcə, ev sahibləri öz yaşayış evlərinin məşhur Təbriz bazarının təsiri sahəsində olan küçənin qırmızı xəttində yerləşməsinin, xüsusilə, sosial-iqtisadi cəhətdən üstünlüyünü dərk etdilər. Küçədə hissələrə ayrılmayan yaşayış evləri salınmağa başlandı, burada aşağı mərtəbələr mağazalar, yuxarılar isə geniş pəncərələri olan giriş və iş otaqları üçün ayrılmışdı. Həyət sahəsi yalnız ailənin istifadəsi üçün nəzərdə tutulan qapalı zona olaraq qalırdı (246, s. 186).

*Təbriz. Pərvin Ətsalami yaşayış evinin planları, kəsikləri və fasadı.*







*Təbriz. Yaşayış evlərinin hissələri.*

Beləliklə, şəhərin yaşayış evləri tikintisi iki bir-birinə əks planlaşdırma və həcmi-məkan mövqeyi tuturdu; birincisi-malikanənin qapalılığı, ancaq küçəyə baxan bütöv divarlar, dalan və çıxışsız döngə, ikincisi-ev sahibləri şəhər tikintisindəki yeni istiqamətin üstünlüyünü dərk edib qırmızı xətlər boyunca evlər tikməyə başladılar. Birinci mərtəbədə mağazaların tikilməsinin üstünlüyü və əhəmiyyəti göz qabağında idi.

Məsələn, Bakıda həmin dövrdə küçənin qırmızı xətləri boyunca tikililər salınırdı, çünki şəhər ərazisində iri mülklərin olmaması, torpaq sahələrinin bahalılığı şəxsi evlərdə özünəməxsus planlaşdırma xüsusiyyətlərinə malik birun və əndərun yaratmağa imkan vermirdi. Buna görə də, Bakı məhəllələrində hissələrə ayrılmayan, bütün Avropa ölkələrində olduğu kimi, bir-birinə demək olar ki, bitişik tikililər salınmışdı. Bu da Bakının həcmi-məkan həllinə öz təsirini göstərirdi.



Beləliklə, tikintinin küçəyə nəzərən planlaşdırma üsulları müxtəlif formalar alırdı: bina tikintisi bütün məhəlləni tutur; üç küçəyə yönəlir; məhəllə planında künc vəziyyət tutur; bir-birinə əks istiqamətdə yerləşən iki küçəyə baxır və nəhayət, bina ön hissədə tikilir. Belə tikinti üsulları şəhərin forştadt ərazisində onun planlaşdırma strukturunun müntəzəm inkişafı sayəsində yaranırdı. Bakıdan fərqli olaraq keçmişdə müxtəlif dövlətlərin paytaxtı olan Təbrizin şəhərsalma platforması başqa cür inkişaf edirdi, yaşayış məhəllələri faktiki olaraq iri saray və dini komplekslərə bitişik salınır, bununla da onlar qeyri-mütəşəkkil səciyyəyə malik olmaqla yanaşı, irsi mülkiyyətin iri torpaq sahələrinə də sahib olurdular.

Təbriz şəhərinin yaşayış sahələrinin daxili planlaşdırması Bakının analoji tikintisi ilə üst-üstə düşür, yalnız Təbrizin yaşayış evlərinin tikintisində prinsipial xüsusiyyətlər özünü göstərirdi. Təbrizin yaşayış məhəllələrinin kifayət qədər böyük sahəni əhatə etməsi bu və ya digər planlaşdırma sxemini qəbul etməyə imkan verirdi (115, s. 95).

Təbrizin yaşayış mülklərinin memarlıq-planlaşdırma materiallarının tədqiqi həyət sahəsinə nəzərən ərazilərin salınmasının bir sıra üsullarını meydana çıxardı ki, bu da aşağıdakı üslublardan ibarətdir: 1) imarət üslublu binanın planlaşdırması; 2) malikanənin həyət sahəsinin daxili ərazisinin əks tərəflərində tikintisi; 3) sahənin Г-şəkilli planlaşdırması; 4) yaşayış malikanəsinin ön hissəsinin tikintisi; 5) tikilinin həyət sahəsi ətrafında П şəklində yerləşdirilməsi.

Yaşayış mülklərinin üslublara görə təsnifatını yaratmaq cəhdi Azərbaycan və İranın zəngin tarixi memarlığında öz spesifik xüsusiyyətlərini qoruyub saxlayan Təbriz şəhəri haqqındakı geniş materiala əsaslanmışdı (110, s. 125). (Nemətzadənin fotoşəkli).

Şəhərin tarixi hissəsindəki yaşayış mülklərinin üslublarının müxtəlifliyi yaşayış binalarının daxili quruluşunda planlaşdırmanın çoxlu sayda həll və variantlarının yaranmasına gətirib çıxarırdı. Yaşayış binaları və ya tikililərin planlaşdırmasının ənənəvi üsulları öz stabilliyini və dayanıqlı mövqeyini qoruyub saxlayırdı. Lakin bu da memarlara yaşayış mülk və tikililərinin planlaşdırma həllində yeni istiqamətin bərpasında aktiv iştirak etməyə mane olmurdu.

Birinci tipoloji qrup digərləri kimi çox maraqlı materialla təqdim olunmuşdur. Burada mülk ərazisindəki yaşayış binalarının planlaşdırmasının əsas vəziyyətləri eninə toplanmışdır. Planda otaqların ikisıralı tikintisi uzun düzbucaqlı formada, divarlar isə eninə oxlarla qeyd olunmuşdur. Yaşayış binalarının bu cür konstruktiv-planlaşdırması ənənəvi səciyyə daşıyır və sifarişçinin tələbindən, qismən də memardan asılı olaraq yerinə yetirilirdi. Məsələn, saray planlaşdırması Nəsrəddin şahın baş vəziri Əmir Kəbir tərəfindən həll edilmişdir.

Yaşayış evlərinin planlaşdırmasında ənənəvi olaraq iki giriş hakim mövqe tutur, bunlar isə eyni zamanda bütün otaqlarla əlaqəni təmin edən dar və ya geniş dəhliz-vestibüllərə aparıb çıxarırdı. Planlaşdırmanın bu üsulu birun və əndərunla sıx bağlıdır. Yaşayış evinin planlaşdırmasının mərkəzində binanın əsas hissəsi olan giriş zalı, digərləri isə ona bitişik yerləşdirilirdi.

Binanın kompozisiya mərkəzi olan giriş zalı təkcə tikilinin digər hissələrinə nəzərən yerləşməsinə görə deyil, həm də binanın bütün həcmi boyunca böyük bir sahəni əhatə etdiyi üçün əhəmiyyətlidir. Bu halda yalnız iki eninə divar görünür, digər iki əks divar isə ən çox qırmızı, sarı,



*Təbriz. Səfərniyə yaşayış evinin ön görünüşü..*

yaşıl və göy rəngli şüşələrlə bəzədilmiş yüngül taxta konstruksiyalardan ibarət iri şəbəkə ekranlarla örtülmüşdür.

Şahnişin şəklində olan zal forması təkcə birinci tipoloji qrupda deyil, digərlərində də bu planlaşdırma sxeminə ənənəvi bağlılığı qoruyub saxlamaqla üstünlük təşkil edirdi.

Qeyd etmək lazımdır ki, geniş 10x10 m, 10x15 m sahəyə malik zallar indi də imkanlı insanların yaşadığı evlərin planlaşdırmasında xüsusi yer tutur.

Yaşayış evlərinin planlaşdırma mövqeyinin zəruriliyi ümumi kompozisiya həllində bir-biri ilə bağlı olan qonaq və yataq otaqlarının paylanmasının funksional xüsusiyyətləri ilə təyin olunur. Mərtəbələr arasında daxili pilləkən vasitəsi ilə əlaqə yaratmaq məsələsi tam həll olunmamışdır və XIX əsrin ortalarında hələ də sona qədər işlənməmiş mövzu olaraq qalırdı. Hətta, saray tikililərində belə giriş pilləkəninin olmaması onun ətraf mühitə göstərdiyi dəbdəbə təsirini azaldırdı.

Birinci tipoloji qrupun bütün nümunələrinin, giriş zalının binanın mərkəzi hissəsində yerləşməsi və yardımçı otaqların qruplaşdırılmasında ümumi səciy-

*Təbriz. Əmir-Kabir yaşayış evinin ön görüntüsünün bir hissəsi.*





*Təbriz. Səfərniyə yaşayış evinin fraqmentləri.*

yəvi cəhətlərinin olmasına baxmayaraq onların hər biri fərdi planlaşdırma həllinə malikdir.

XVIII-XIX əsrlərdə tikilmiş binalarda ənənələr öz mövqeyini möhkəm saxlayır, bu da təkcə planlaşdırmada deyil, həm də yaşayış evlərinin həcmi-məkan kompozisiyasının qurulmasında da özünü göstərmişdir. Mərkəzi hissədəki hündür giriş zalı onu kənarlardan qoruyan, balaxan üslublu ikimərtəbəli cinahlarla örtülmüş və bununla da dam örtüyünün həndəsi xətləri formasında siluet alaraq həcm kütlələrinin dinamik nisbətində pilləkənvari görkəm almışdır.

İnteryerdə şahnişinin divarı ikiyaruslu taxçalara bölünmüş və dekorativ motivlərlə işlənmişdir. O, iri şüşə şəbəkədən ibarət pəncərənin qarşısında, zalın bütün eni boyunca yerləşərək müəyyən məkan mühiti yaradırdı. Yaşayış evinin əsas elementləri təkcə plastik formalı taxçaları olan zalın interyerində deyil, həm də fasadın pəncərə oyuqlarının şaquli ahəngində də cəmlənmişdir. Binanın yüksələn hissələri planlaşdırmada şaquli oxlarla, pəncərə oyuqları isə üfüqi xətlərlə verilmişdir və bu da fasadın qurulmasında özünü göstərirdi. Ciddi kərpic divarlar və iri şüşə şəbəkədən ibarət pəncərələr ənənəvi olaraq bir-biri ilə bağlı olur və Təbriz memarlığının yeni üslubunun bütün potensial imkanlarını açırdı.

Əmir Kəbirin sarayı keçmişin memarlıq-planlaşdırma inkişafı xəttini davam etdirir, Avropa kompozisiya üsul və formalarının yerli memarlar üçün adi hal olduğu dövrün - XIX əsrin ikinci yarısının bədii platformasının əsas xüsusiyyətlərinin irsən ötürülməsini özünəməxsus tərzdə əks etdirirdi (37, s.88).

Saray Nəsrəddin şahın keçmiş baş vəziri, sonralar gözdən düşmüş saray əyanı olan Əmir Kəbirə onun şəxsi iqamətgahı kimi təqdim olunmuşdur. Sarayın böyük sahəsi ətrafdakı bütün tikintilər kimi şəhərin tarixi hissəsində qapalı bir ərazini tuturdu. İkimərtəbəli bina ərazini iki hissəyə ayırırdı: giriş həyəti və bağ sahəsi.

Sarayın giriş həyətinə açılan əsas fasadı çox maraqlı, İran üçün spesifik olmayan memarlıq-məkan kompozisiyası yaradırdı. Birinci mərtəbə kürsülük kimi yardımçı və xidməti otaqlar üçün nəzərdə tutulmuşdur. Sadə profilli düzbucaqlı pəncərə oyuqlarının ahəngi ənənəvi milli memarlıq məktəbinə xas olan yastı çərçivələrə uyğun idi. Sarayın kürsülüyü incə işlənmiş bəzək mövzuları ilə memarlıq cəhətdən daha da zənginləşdirilmişdir. Divarın oyuqlar arasındakı kərpiclə hörülmüş hissələri öz dekorativ elementləri ilə kürsünün bədii həllində fəal iştirak edirdi. Kürsü fasadın məzmunca passiv memarlıq arqumenti deyildi. Mövcud memarlıq mövqeyi kürsüyə sarayın həcmi-məkan sistemində mühüm yer tutmağa imkan vermişdir.

Sarayın kompozisiyasına daxil olan iki açıq üslublu və ikimarşlı giriş pilləkəni, sütunlar sırasının panoraması açılan əsas mərtəbəyə çıxarırdı. Qeyd etmək lazımdır ki, bu pilləkənlər bir qədər sonra tikilmiş və zəngin kürsülük mərtəbəsini müəyyən qədər örtmüşdür. Fasadın çoxlu sütunlara malik enli ön hissəsi portik rəsmini yaratmır, çünki bu sütunlar mürəkkəb memarlıq kompozisiyasına fərdi şəkildə deyil, birləşmiş halda təsir edir, bu da fasadın inkişaf quruluşunu təyin edirdi.

*Təbriz. Əmir-Kabir yaşayış evinin ön görüntüsünün bir hissəsi.*



Fasadın ənənəvi ciddi simmetrikliyi mərkəzi hissə yuxarıya doğru yönəldiyi və frontonla bitdiyi üçün bütün diqqət binanın əsas oxunda cəmlənməsini tələb edirdi. Burada fronton iki düz sütunla saxlanılır. Bunlar isə, əvvəlcə cüt, sonra isə tək sütunlarla sarayın yan cinahlarına başlanğıc verirdi.

Kompozisiyanın fasadın mərkəzindən yan hissələrinə doğru inkişafı klassik səciyyə daşıyırdı və adı hələlik aşkarlanmamış memar da bundan istifadə etmişdir. Fasadın üzərində portik formasında Avropa memarlığının klassikası böyük dəyişikliklərə uğramışdır. Sütunların əsas mütənasib bölgüsünün qurulmasında Yunanıstan və Romada özünü göstərən üç qanunauyğunluq burada mövcud deyildi. Kapitellərin, fronton və karnizlərin və ya interkolumniyaların işlənməsində, Avropa memarlığının yeni materialının mənimsənilməsində buradan alınan bütün nəticələri ilə birlikdə təbii proses baş verdi (35, s. 147).

Sütunlara malik olan fasad portik kimi qəbul olunsa da, ancaq Şərq memarlığı prizmasından baxıldıqda, memarlıq forma və elementlərinə yeni məna verilirdi. Frontonla tamamlanan sütunlar sırasının mərkəzi əsas məzmunu daşıyır, lakin onun işlənməsi, karnizinin səciyyəsi, fasaddan yan hissələrə keçid başqa yolla baş verir, burada qədim ənənə öz yerinə keçirdi. Memarlıq nöqteyi-nəzərindən keçid elementi ilk baxışda çox da nəzəri cəlb etmirdi. Halbuki, bu üsulun izləri



*Təbriz. Əmir-Kabir yaşayış evinin planları.*

əsrlərin dərinliyinə, məşhur Persepolla birlikdə Əhəmənillər dövrünə aparıb çıxarırdı (106, s. 100).

Yerli memarlar qədim köklərinə çox bağlı olduqları üçün yeni kompozisiya üsulları, memarlıq forma, element və detalları fərqli işlənmə tərzi və üslub istiqamətinə malik olurdu.

Sütunlar sırasına malik fasadın mərkəzi hissəsi öz maraqlı həllini tapmış, frontonu künclərdə saxlamaq üçün də cüt, interkolumniyaların növbəti addımında da cüt sütunlardan istifadə olunmuşdur. Geniş fasad mərkəzi öz əsas elementləri olan sütunları ilə sarayın memarlıq simasına dəbdəbəli görkəm vermiş və bununla da ətrafdakı tikililərə böyük təsir göstərmişdir. İri yarımdairəvi, şüşə şəbəkəli pəncərə isə sarayın qeyri-adi səciyyəsini daha da artırırdı.

Fasadın cüt sütunları girişin açıq üslublu, ikimarşlı pilləkənlərinin vacibliyini vurğulayırdı. Beləliklə, fasadın mürəkkəbləşmiş kompozisiyası yaranmış oldu, bu da onun həcmi-məkan quruluşunda böyük rol oynayaraq Təbriz memarlığında yeni üslub istiqamətinin bütün potensial imkanlarını açmış oldu.

Sarayın planlaşdırma quruluşu faktiki olaraq üç bərabər hissədən ibarətdir. Mərkəzi hissəni uzununa ox boyunca yönəlmiş iki sütunlu böyük zal təqdim edirdi. Əsas divarların yerləşməsinin dəqiqliyi, otaqların bir ox boyunca düzülmüş uzun sırası və işıqlandırılması əlverişli məkan şəraiti yaradırdı.

Birinci mərtəbədə də ikincidəki prinsip hökm sürür, ancaq burdakı otaqlar öz təyinatına uyğun olaraq yardımçı otaqlar qrupuna daxil olduğu üçün başqa məzmun daşıyırdılar. Daxili eninə dəhlizlər saray hissələrini öz aralarında birləşdirir və eyni zamanda onların təcridi üçün optimal şərait yaradırdılar.

Yuxarı mərtəbənin interyeri dəbdəbəyə daha çox meyllidir, divarlar rəngkarlıq və dekorativ-tətbiqi sənət rəsmləri ilə işlənmişdir. Buxarılar daxili məkan həllinin mərkəzini təşkil edirdilər. Buxarılar daxili məkanın təşkilinin mərkəzi idilər, bəzək elementi olan güzgülərdə interyerin təsviri dəfələrlə təkrarlanaraq maraqlı bədii kompozisiya yaradırdı (132, s. 190).

Saray dövrümüzə çox baxımsız vəziyyətdə gəlib çatmışdır. Miras Fərhəngi onun bərpasına başlamışdır. Burada elmi restavrasiyadan heç söhbət də gedə bilməzdi. Aparılan işlərdə çalışmalarında özfəaliyyət, ölçmə çertyojları özünü göstərir, bərpaetmə layihəsi isə ümumiy-

yətlə heç mövcud deyildi. Bununla belə, Qacarlar dövrünün saray memarlığının çox maraqlı bir abidəsini xilasetmə işləri davam etdirilir.

Birinci tipoloji qrupun başqa bir nümunəsi isə Gəncəyizadənin yaşayış evidir. Bu yaşayış binası şəhərin tarixi məhəllələr rayonunda yerləşmiş və geniş bir sahəni əhatə edirdi. Bu ərazidə evin arxa fasadının zonası sınıq xətli konfiqurasiyaya malikdir. Yaşayış evinin binası iki bərabər olmayan hissələrə ayırmaqla

*Təbriz. Yaşayış evinin bir hissəsi.*



yanaşı, küçəyə açılan geniş həyət sahəsi də hündür divarla bölünən və bir-biri ilə qapı vasitəsi ilə əlaqələndirilən iki şöbəyə bölünürdü. Təbrizin yaşayış evlərinin planlaşdırmasındakı bu prinsip ev sahibinin sosial vəziyyəti sayəsində hökm sürürdü.

Eninə divarlar üsulu inkişaf etmiş olsa da, yaşayış binasının bu planlaşdırması şəhər üçün səciyyəvi deyildi. Planın mərkəzi oxu boyunca üçmarşlı pilləkən yerləşir və ikinci mərtəbədə korinf ordeninin iki sütunu ilə tamamlanırdı.

XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşayış binasının planlaşdırma və həcmi-məkan həllinin kompozisiyasına interyerdə vacib yer tutan giriş pilləkəni daxil olmuşdur. İkinci mərtəbədə giriş pilləkəni qarşısında uzun mütənasibliyə malik zal və ya bir-birindən təcrid olunmuş otaqlar arasında əlaqə yaradan tənzimçi vestibül yerləşirdi. Yan tərəfdəki pilləkənlər də planlaşdırmada giriş məzmunu daşıyır və interyerdə üslub ümumiliyini saxlayırdı ki, bu da müsbət memarlıq mühiti yaradırdı. Əsas pilləkənlə üzbəüz yerləşən üç giriş zalı yan tərəfdəki pilləkənlərlə əlaqəli idi. Yaşayış binasının planlaşdırmasında pilləkənlərin bölünməsi və otaqlar arasında əlaqə çox rahatdır və öz həllini bu evdə tapmışdır.

Fasadın uzununa olan memarlığı hündür divarlara baxmayaraq onun səciyyəvi xüsusiyyətlərinə heç də təsir göstərmirdi. Fasad çox sadə formada həll olunmuşdur. İkimərtəbəli bina mərtəbələrarası dartmanın üfüqi paylanması sayəsində memarlıq kütlələrinin şaquli ox üzrə bölgü strukturunu müəyyən edirdi. Fasadın küncləri yastı kürəklərlə bərkidilmiş və kərpic evin irəlilədilmiş formada quraşdırılan karnizi isə memarlıq kompozisiyasını tamamlamış olur. Sadə haşiyəli pəncərə oyuqlarının ahəngi və bir kərpic hündürlüyündə işlənən nazik fronton uyğun plastik quruluşu verirdi. Bu, yuxarı və aşağı mərtəbələrin pəncərə haşiyələrinin xətləri ilə şaquli ox boyunca birləşdirilməsi vasitəsi ilə müəyyən olunmuşdur.

Beləliklə, ciddi memarlıq üslubunda olan kompozisiya yaradılmışdır, bu isə həmin yaşayış binasına Təbrizin tarixi irsində mühüm yer tutmağa imkan vermişdir.

Birinci tipoloji qrup hər bir fərdi obyektin təkamül inkişafını başa düşüb qiymətləndirmək imkanı verən xronoloji baxışlar kontekstində planlaşdırma həllərinin ümumiliyi və oxşarlığını açıb göstərirdi. Burada milli memarlığa münasibətdə ənənəvilik pozulmamışdır, lakin zaman vektorunun fasiləsizliyi həmişə mövcuddur.

İkinci tipoloji qrup nümunələrinin şəhərin tarixi hissəsində yayılması birinci qrupda olduğu kimi məhduddur və Təbrizin yaşayış məhəllələrinin sərbəst planlaşdırma quruluşunda əsas yerlərdən birini tutur (səh. 329, şəkil 1). Burada yaşayış mülkünün inşası elə qurulmuşdur ki, həyət sahəsi ortada, iki əks tərəfdə isə yaşayış və yardımçı otaqlar yerləşir. Bu mülklər uzun və dəqiq formaya malikdirlər. Yaşayış mülkünün təşkili öz funksiyalar yükünü tikinti sahəsindən birbaşa asılı olaraq daşıyır.

Planlaşdırma quruluşuna görə bu tipoloji qrupu iki altqrupa bölmək olar. Birinci altqrup otaqların tərkibinin məhdud imkanları, əsas divarların eninə oxlarının ahəngi ilə təqdim olunmuşdur. Giriş zalının binanın mərkəzində yerləşməsi təntənəli səciyyə daşımır. Ənənəvi sevimli şahnişin bu altqrupda mövcud deyildi. Hər şey adiləşmiş və daha demokratik olmuşdur, əgər belə demək mümkündürsə, hərçənd bu vəziyyət İranda hökm sürən şəraitdə cəmiyyət üçün səciyyəvi olmayan bir xüsusiyyət idi.

Buna baxmayaraq, yaşayış evinin planlaşdırmasına, onun daxili həcmi-



*Təbriz. Kampani imarəti.*

məkan quruluşuna və məzmununa olan münasibət tədricən dəyişir, şərq mənzilinə məxsus olan dünya müəyyən dərəcədə yox olur, memarlıq-planlaşdırma həllinin milli ənənələri haqqındakı əvvəlki təsəvvüründə dönüş yaranırdı. Daxili həyətlər sistemi saxlansa da, fasadların və interyerin qurulmasına münasibət açıq-aydın Avropa səciyyəsi daşıyırdı. Həcmli həllərin plastikliyində və naxışlar istiqamətində yerli memarlığın böyük təsiri qalmış olurdu. İkinci altqrupun, yaşayış evlərinin plan tərtibatında daha məqsədəuyğun olmasına baxmayaraq, Azərbaycan və İranın planlaşdırmasında klassik üsullar üstünlük təşkil edirdi. Dəhlizdə iki giriş mövcuddur, oradan da anfilada (bir-birinə düz yolu olan yanaşı otaqlar) sistemli otaqlara malik olan şahnişinli (Ənsari, Səmədi və s. məxsus yaşayış evləri) giriş zalına daxil olunurdu. Qapalı həyət sahəsinə malik olub pəncərə oyuqları küçəyə baxmayan birinci altqrupun prinsipial vəziyyəti qalan məsələlərdə qüvvədə qalırdı.

*Təbriz. Kampani imarəti. Planlar.*



Doktor Səhhətinin, bir-biri ilə əlaqəli iki sərbəst mülkdən ibarət yaşayış evi Təbrizin tarixi məhəllələri ərazisində yerləşirdi. Qapalı səciyyəli hər iki mülk, şəhər mərkəzi üçün qeyri-adi olan nisbətən geniş həyətə malikdir. Küçədən giriş, birinci mülkün kiçik tamburuna aparır, onun ardınca isə gül və ağac əkilmiş demək olar ki, kvadrat formalı həyət meydançası gəlir. Bu, şəhərdəki mülklərin yerləşməsindən asılı olmayaraq demək olar ki, hamısına xas olan xüsusiyyətdir. Planda fasadın simmetrik-oxlu sistemi ikimarşlı giriş pilləkəninə nisbətən qeyd olunmuşdur. Otaqların ikisıralı tikintisinə malik evin planlaşdırması o dövrdə İranda yaşayış evlərinin inşasında bir yenilik idi. Evin planlaşdırmasında daxili ikimarşlı pilləkən mərkəzi mövqe tuturdu. Mərtəbələrdəki otaqların sayı məhduddur. Buna baxmayaraq, əsas divarların yerləşdirilməsində tikintinin konstruktiv xüsusiyyətlərinin nəzərə alınması və planın dəqiqliyi, onu rahat və etibarlı planlaşdırma quruluşu ilə təmin etmişdir.

Fasadın ənənəvi memarlıq quruluşu faktiki olaraq itmişdir. Planlaşdırmanın dördeyvanlı sistemi istifadə olunmur, vitrajlı geniş çatma pəncərə də həmçinin keçmişdə qaldı. Fasadın memarlığı, üfüqi bölünmələr və geniş taclı pərvazlara malik pəncərələrin səciyyəvi ahəngi ilə Avropa evlərinin xüsusiyyətlərini qazanmış oldu (110, s. 393).

Bu xüsusiyyətlər fasadda da öz əksini tapdı, amma burada yerli memarlığa xas olan qabarıq təsvirə malik həndəsi

formalı medalyonları olan dayaz oyuqlardan istifadə olunurdu ki, bu da İranın kərpic memarlığına məxsus bir hal idi.

İkinci mülkün sahəsi, sonralar kiçik hissə əlavə olunmuş dəqiq düzbucaqlı formaya malikdir. Ərazinin mərkəzində rahat həyət sahəsi yerləşmişdir. Küçədən girişi olan yardımçı otaqlara malik əsas tikili isə həyətin dərinliyində yerləşirdi.

Birinci mülkdən fərqli olaraq ikinci mülkün planlaşdırması ənənəvi üslubdadır. Yan tərəflərdəki iki açıq üslublu sərbəst pilləkən, giriş zalı ilə əlaqəli olan kürsülüyün tamburlarına aparırdı. Zalın qarşısında ikisütunlu portikə malik lojiya yerləşir. Yarımzirzəmi mərtəbə kürsülüklə çox bənzərdir. Orada, əsas məkanda ellips formalı hovuz yerləşir. Bu da Təbrizin yaşayış binaları üçün səciyyəvidir. Bu evin planlaşdırmasında qeyri-adilik hiss olunmasa da, cəmiyyətin inkişaf etdiyi yeni bir şəraitdə yaşayış məkanının yerli xüsusiyyətlərinin qorunub saxlanması müsbət haldır.

Həcmli plastikanın izahı və memarlıq kompozisiyası nöqteyi-nəzərindən fasad daha çox maraq kəsb edirdi. Memarlıqda yeni üslubların yayılmasına baxmayaraq, İranın qədim qüdrətli irsi nəzərə alınmış və o öz daimi yerini tutmuşdur.

Fasadın həcmi və memarlıq kompozisiyasının həlli prinsipi iki sütunlu portiki ilə məşhur "Həşt-Behişt" sarayına aiddir. Fasadda bu üsuldan sərbəst şəkildə istifadə nəticəsində milli memarlığa münasibətdə dərin dəyişikliklərin baş verdiyini qeyd etməmək mümkün deyil. Cəmiyyət, sifarişçi memar hadisələrə xaricdən ənənə və yeni əlavələrin daxil olmasına başqa şəkildə yanaşırdılar. Bu kompozisiyanın yeni variantının meydana gəlməsi məhz bununla əlaqədardı, yeni kompozisiya strukturunu yaradaraq şərti korinf sütunları ilə portik rizalitlərlə tinlənir. Üfüqi hissələrə bölünmələr ilə gücləndirilmiş sütunların üzərində inkişaf etdirilmiş formada antablement yerləşir (102, səh. 112).

Antablement, arxitektur baxımından xüsusi ifadə formasını almışdır. Arxitrav, friz, karniz Avropa klassik təməlinə baxmayaraq yerli memarlıq zəminində yenidən işlənərək fasadın kompozisiyasının yeni elementinə çevrilmişdirlər. Bura, pəncərə oyuqlarının yuxarı hissəsində həndəsi ornament formada qabarıq kərpiç hörgüsünü əlavə etmək lazımdır.

Yaşayış evinin memarlıq-planlaşdırma və həcmi-fəza kompozisiyası qədimi Təbriz şəhərinin tarixi məhəllərinin əsasını təşkil edən yaşayış irsinin maraq doğuran obyektidir.

*Təbriz. Saray.*



Bu növə Omid Yezdaninin yaşayış evi aiddir, sahənin hər iki əks tərəflərində tikililər inşa edilmişdir, orta hissədə isə boş həyət fəzası yerləşirdi. Əsas yaşayış hissəsi bir cərgəli şəkildə inşa edilmişdir, birinci mərtəbə planlaşdırma baxımından yaxşı təşkil edilməmişdir. İkinci mərtəbə ənənəvi üsullarda həll edilmişdir, orta hissədə təmtəraqlı zal və ya lojiya ilə qonaq otağı, yan tərəflərdə yaşayış otaqları yerləşirdi.

Yaşayış evində, həlli Təbrizdəki müxtəlif üslub təzahürləri ilə əlaqədar həll edilən əsas fasad daha böyük maraq doğururdu. Yerli sakinlərin fikrinə görə bu yaşayış evi 150 il bundan əvvəl inşa edilmişdir. Tikinti tarixini inkar edən eklektik məzmuna malik fasadın memarlıq strukturunu nəzərə almasaq bu fikirlər ilə razılaşmaq olar.

Fasadda iki memarlıq mövzusu əks olunmuşdur, hərçənd ki, mənbə Avropa memarlıq məktəbindən irəli gəlir. Vaxtilə hər iki mövzu yenidən işlənilmişdir və əsasən bişmiş kərpic ilə yerli memarlıq şərtlərinə və tikinti materiallarına uyğunlaşdırılmışdır, bişmiş kərpicdən istifadə köhnə ənənədir.

Birinci mövzuya üfüqi və şaquli hissələrə bölünmələr ilə Avropa memarlığının elementləri və detalları, kompozisiya üsulları və motivləri aiddir. Memarlıq vasitələrin bütün bu arsenalı böyük ustalıqla yerli memarlığın əsasına qoyulmuşdur, şəxsi ifadədə özünəməxsus üslub şərhi və vətəndaşlıq hüququ almışdır. Bu, yerli memarlar tərəfindən cəsarətli yaradıcı addımdır, yeni memarlıq istiqamət ilə rastlaşdıqda onun əsas prinsiplərini mənimsəmək və müvafiq nətəcələr çıxarmaq lazım idi. Vaxt keçdikcə yenidən işlənmiş memarlıq materialından yaşayış və ictimai binaların istər eksteryer, istərsə də daxili tərtibatında geniş şəkildə istifadə edilməyə başlanılmışdır (102, səh. 113).

İkinci mövzu yarımçevrə şəkilli formada olan tağlar və klassik order sistemi ilə əlaqədar idi və yaşayış binalarının memarlıq kompozisiyasına fəal və davamlı şəkildə daxil olmuşdur. Uzun dəyirmi kəsik sütunlarında yarımdairəvi şəkilli arkada və korinf kapitellər ilə portik Təbriz şəhərinin imarətlərinin memarlıq kompozisiyasının ifadə edilməsinin sevimli formasına çevrilmişdir.

Şəhərin ənənəvi kompozisiya üsulları və mövzuları ilə yanaşı ətrafdakı tikililərə yad olan tamamilə yeni üsullar və mövzuların meydana gəlməsi yerli cəmiyyət tərəfindən çox təmkinlə qəbul olunmuşdur. Avropa məişəti və memarlığı ilə tanış olan daha zəngin sifarişçilər, onların tələbatına cavab verən memarlıq-planlaşdırma üsullarını memarlara sifariş edən ilk təşəbbüsçülər idilər. (Şək. 1, vərəq 334)

XIX-XX əsrlərdə ölkədə klassik orderin geniş təcrübəsi ilə bağlı şəhərin memarlıq mühitində yeni dalğa meydana gəlir. Təntənəli dekorativ portik ikimərtəbəli kamera üslublu portiklarla əvəz edilir və korinf sütun təbii ki, yerli çalarlar ilə mütənasib formalar alır (79, səh. 277).

Omid Yezdanin evinin fasadı həmin kateqoriyaya aiddir və özünəməxsus xüsusiyyətlərə malikdir. Lociyalı ikimərtəbəli portik bir qədər qabağa çıxaraq çıxıntı təşkil edir və fasada müəyyən plastiklik verir. Mərkəzdəki portik cüt, künclərdə isə bir sütunlara malik idi, bu da kompozisiyanın funksiyasının zəifləməsinə gətirib çıxarırdı. Müxtəlif interkolumniyalar sayəsində sütunların yerləşmə ritmi də pozulub. Lakin ikimərtəbəli portik fasadın memarlıq kompozisiyasının əsas elementidir, effektli həcm-fəza forması və mənzərəli detalları ilə dərk edilir.

Portikin yan, cinaha salınmış hissələri pəncərə oyuqlarının mütənasib

şəkildə hissələrə bölünmələri vasitəsilə sütunların şaquli ahəngliyini davam etdirirlər. Mərtəbələrin pəncərə oyuqları profillənmiş haşiyələr və sandriklərin həlli ilə kompozisiya üzrə vahid bütövlük təşkil edirlər. Frontonları fiqurlu kərpiç hörgüsü ilə işlənilmişdir. Portik və yan hissələrin vahid karnizi tamamlanmış görünüşə malikdir, fasadın ümumi kompozisiyasını tamamilə başa çatdıraraq künc pilyastrlar ilə bərkidilir.

Binanın üzərində şəhərdəki üslub halların memarlıq inkişafının mərhələlərini izləmək olar, öz qədimi mədəni layları ilə bu binanı Təbrizin maraqlı tarixi a memarlıq abidələrinə aid etmək lazımdır.

Uzun formada düzbucaqlı alçaq hovuz, çiçəkliklər və ağaclar ilə ənənəvi həyət fəzasına yönəlmiş Həməzad yaşayış evinin fasadı yerli memarlığa etinasız yanaşmanı aşkar şəkildə nümayiş etdirir. Üfüqi və şaquli bölünmələri, pəncərə oyuqlarının mütənasib şərhi, çıxıntıya malik olması, işıq və kölgə incəlikləri ilə tamamlanmış, lakin zəif inkişaf etmiş karniz divarların ənənəvi kərpic hörgü fonunda vətəndaşlıq hüququnu əldə etmişdirlər. Maraqlıdır ki, yerli sakinlər bu evlərin memarlıq üslubunu "Bakı üslubu" adlandırırlar. Yaşayış malikanəsinə girişin həlli birbaşa yerli memarlığa aiddir.

Təbriz şəhərinin orta təbəqəsinə məxsus yaşayış evlərinin fasadlarının memarlığında Bakı şəhərinə məxsus həllərin əlaməti aşkar şəkildə görünür. Lakin Bakı şəhərindəki yaşayış evlərinin böyük hissəsi Avropa memarlığının klassik üsullarından istifadə etməklə və bədii işləmənin daş hörgüsünün tikililərə həcmi-fəza mühitində tamamilə fərqli aura bəxş etdiyi Şirvan-Abşeron məktəbi əsasında inşa edilmişdir (96, səh. 208).

№ 291 saylı (albom) Xane Pərvin Ətsalami yaşayış evi ikinci tipoloji qrupun birinci alt qrupuna aiddir. Burada birinin qarşısında yerləşən iki binanın fasadları təqdim edilmişdir, geniş qapalı həyəti birləşdirirlər. Hər iki fasad yaşayış evlərinə məxsusdur. Köməkçi otaqlar binaların zirzəmi mərtəbəsində yerləşirdilər.

Yaşayış binalarının zirzəmi mərtəbələrinə böyük əhəmiyyət verilir. Zirzəmi mərtəbələri çox vaxt üzərində müəyyən rəsmlərlə bişmiş kərpicdən düzülmüş yastı profil tağtavanlar ilə örtülür.

Təbriz şəhərindəki yaşayış binaların bərpası zamanı ustaların taxta qəlibdən istifadə etmədən yastı profil tağtavanları necə ustalıqla döşədiklərini müəllif dəfələrlə müşahidə etmişdir. Bu baxımdan Təbriz usta-bənnalar böyük tikinti ənənəsinə malik olan mahir sənətkarlardır (34, səh. 68).

Zirzəmi otaqlarının interyerləri maraqlı memarlıq həllinə malikdirlər, malikanənin qadınlarının təsərrüfat həyatı burada keçir. Zirzəminin əsas otağında qeyri-adi formalarda hovuz inşa edilir, sonradan qadınlar və uşaqlar onun ətrafında toplaşırlar.

Hər iki bina ikimərtəbəlidir, lakin hər biri fərqli əhəmiyyətə malikdirlər, çünki mərtəbələrdən biri təntənəli görüşlər, ev sahibinin qarşılanması, digəri isə müstəsna olaraq ailə üçün nəzərdə tutulmuşdur.

Birinci binanın fasadı onun həcmi-fəza məzmununu əks etdirir. Binanın mərkəzi hissəsində qonaqların qəbul edilməsi üçün nəzərdə tutulmuş, mərtəbənin hündürlüyü qədər məsafəni əhatə edən təmtəraqlı zal yerləşir. Yan hissələri iki mərtəbəlidir, yuxarı mərtəbənin hər bir yarısında bir otaq yerləşir, onlar ümumi daxili dəhliz ilə birləşmişdir.

Fasad simmetrikdir, ənənəvi şəkildə açıq daş pilləkənlərdən ibarət iki girişə malikdir. Bina hündür kürsülük üzərində inşa edilmişdir, fasad yastı kürəkciklər ilə bölünmüşdür, memarlıq

şərhə əsasən mərkəzi hissə yalnız həlli ilə deyil, həmçinin bədii məzmunu ilə üstün mövqe tutur. Mərkəzin memarlıq kompozisiya üsulu maraq yaradır. Kifayət qədər profillənmiş və plastik baxımından zəngin, qutu formalı tağların üç pəncərə oyuğu binanın birinci mərtəbəsində yerləşir, Avropa memarlığının order sisteminin təsiri altında meydana gəlmişdir. Bura, oxşar kompozisiya üsullarına malik, mərkəzi seksiya üzrə cüt sütunlar ilə üç aralıqdan ibarət Təzəudud və Nemətzadə imarətlərinin portikləri aiddir. Tağların böyük aralıqları ilə cüt sütunları əlaqələndirən kiçik tağlar qutu formalı tağlar arasında görünür. Bu kompozisiya, plastik şəkildə qabağa çıxan kərpiclər ilə çərçivəyə salınmış, qapı oyuqları və qismən doldurulmuş vitrajlı ikinci mərtəbəyə məxsusdur. Aşağı mərtəbədə sütunlar müvafiq mütənasiblik ilə yerin sıfır göstəricisinə qədər davam etdirilmişdir.

Hovuzda öz əksini tapmış və abadlaşdırılmış ətraf mühit ilə fasadın ifadəli kompozisiyası memarlıq tendensiyalara malikdir, Təbriz şəhərinin yaşayış evlərinin tikintisində üstünlük təşkil edirdilər.

Qəbul etmək lazımdır ki, Nemətzadə imarətinin memarlıq kompozisiyası ilə bərabər fəza formaları və Avropa üslub istiqamətinin təmsil edilməsi ilə şəhərin bədii palitrasını yüksəldir və zənginləşdirir.

Təzəudud imarətinin fasadının portikində Nemətzadə imarətinin qurulması prinsipləri faktiki olaraq təkrar edilmişdir. Burada eyni mütənasib bölünmələr, motivlər, sütunlar sırasının yerləşməsi və fasad ekranının həlli müşahidə edilir. Hər iki imarətlərdə açıqcasına bir ustanın yaradıcılığı özünü büruzə verir, usta birinci binada yaradılan bütün müsbət nəticələri qoruyub saxlamağa cəhd göstərmişdir. Fasadın portiklərin kompozisiyasının ümumiliyi və yeni üslub istiqamətində həcmi-fəza sistemlərin ifadəliyi buradan irəli gəlir. Kamera üslublu hər iki fasad formalarının gözəlliyi və kompozisiyanın ahəngliyi ilə fərqlənirlər.

Təbriz şəhərinin tarixi zonasında imarətlər arasında Muzafərəddin şahın kürəkəninin Mehdi Fərraş-başi-Sorxai imarəti xüsusi olaraq seçilir. İmarətin binası yaşayış malikanəsinin əsas hissəsini əhatə edir, əsasında klassik simmetriya mövcuddur, planda kvadrat formalı, həyət fəzasının ətrafında yerləşən tikili ilə ənənəvi planlaşdırma strukturuna malikdir.

Saray üslublu ikimərtəbəli binanın birinci mərtəbəsi müəyyən məişət funksiyalar daşıyır, kamera səciyyəli düzbucaqlı qapalı rahat həyətə birbaşa çıxışa malikdir. Planın gözəl rəsmi ikinci mərtəbəyə yan pilləkənlər ilə beşaralıqlı portik vasitəsilə aşkar edilmişdir. Birinci mərtəbənin mərkəzi hissəsində alçaq taxçalar və oyuqlar ilə böyük zal vardır. Zalın interyeri yerli memarlığın forma əmələ gətirən elementləri, taxçalarda çatma və yastı monastrtipli tağtavanlar ilə həcmli plastikada təqdim edilmişdir, birlikdə tektonik effektdən məhrum edilməmiş özünəməxsus konstruktiv strukturu yaratmışdırlar.

Zal birinci mərtəbənin daha çox diqqətəlayiq hissəsindən biridir, çatma tağtavanlar ilə otaqların digər örtükləri ümumi sistemin əsas hissəsini təşkil edirdilər. Əsas divarların uzununa və köndələninə olan oxlarının dəqiqliyi, otaqların əsas və köməkçi qruplarının nisbəti birinci və ikinci mərtbələrin planının əsasını təşkil edirlər. Burada imarətin daxili planlaşdırma strukturunun həlli zamanı yastılaşma özünü büruzə verirdi, çəpinə künclərə malik həyət həcmli plastikanın təşkili və ətraf fəzanın kamera üslublu olmasına meylli idi.

Otaqların irəli çəkilmiş və əsas fasada yönəlmiş yan qanadları beş aralıq-

lı yarımçevrə şəkilli tağ kompozisiya ilə portikanın lojiyasını bağlayırlar. Təbriz şəhərinin imarətlərində portiklər memarlıq kütlələrin şəxsi fəza ifadələrini irəli sürərək sərbəst həcmi elementlər kimi çıxış etmirlər. Məsələn, bu I Şah Abbasın dövründə İsfahan şəhərinin saraylarının portiklərində müşahidə edilir. Tikilinin əsas həcmi qarşısında sütunlar sırası ilə portik tamamilə başqa funksional və bədii məsələləri həll edir, çünki memarlıq kompozisiyasında portikin rolu ona əhəmiyyət və təmtəraq verməkdən ibarətdir. Buna, düzgün düzülüşlü sütunların ahəngdarlığı və binanın üstün mövqeyə malik divarının fonu ilə kənara çıxan portik arasında müəyyən forma əmələ gətirən və həcmli plastika vasitəsilə nail olunur.

Mehdi Fərraş-başinin imarətində, portiklərin irəli çıxarılmış həcminin məzmununa görə ümumi kompozisiyanın inkişafına əhəmiyyətli təsir göstərməyinə baxmayaraq, vahid bütövlük təşkil edərək portik tikilinin planlaşdırma strukturuna məhdud şəkildə daxil olmuşdur. Memarın, tikilinin portik kimi vacib elementini vahid həcmdə qoruyub saxlamaq cəhdi tikilinin qapalı həllində digər üsullardan üstün idi.

İmarətin planlaşdırması daxili ənənəvi dövr üzrə inkişaf edir: portikin lojiyasından açıq üslublu iki cinaha salınmış pilləkənlər vasitəsilə geniş zala aparan ensiz kiçik dəhlizə daxil olmaq olar. Onların vasitəsilə digər otaqlar və bütün yaşayış və köməkçi təyinatlı qrupları birləşdirən həyəti (17x24,50 m) əlaqələndirir.

Planlaşdırmanın inkişafı iki istiqamət üzrə həyata keçirilir, başlanğıcını iki pilləkəndən götürür və bütün otaqlardan keçərək yenidən həyət fəzasında birləşir. Eyni zamanda bütün qruplar birbaşa qapı oyuqları vasitəsilə həyətə çıxışa malikdirlər. Planlaşdırmanın bu cür forması ətrafdakı tikilinin rahat təşkilinə malikdir. Bu forma imarətin strukturu vasitəsilə uzununa olan istiqamətdə paralel oxlar nəticəsində meydana gəlmişdir. Lojiya ilə portik tikilinin bütün frontonu əhatə edir, onun arxa hissəsində eyni istiqamətdə yerləşən zal, düzbucaqlı formada zal və otaqları birləşdirən şimali qrupu vardır.

İmarətin planlaşdırmasının bu üslubda inkişafının ardıcıllığı binanın memarlıq-fəza həllini müəyyən etmişdir ki, bu da maraqlı kompozisiya sisteminin meydana gəlməsinə səbəb olmuşdur.

İkinci mərtəbənin planlaşdırması birinci mərtəbənin xüsusiyyətlərini qoruyub saxlayır, lakin təmtəraqlı zal və həyət fəzası arasında zal ilə əlaqəyə malik kiçik ön planlar ilə dəhliz kimi yeni element meydana gəlir. Geniş zallara çıxış ilə təmtəraqlı qapılar vasitəsilə künc pilləkənlərlə daxili həyət ilə əlaqələnir. Kamera üslublu həyətin nişanı malikanənin geniş həyətinin yerdən 0,75 sm yuxarı məsafədə yerləşirdi.

Daxili həyət - açıq səma altında özünəməxsus xüsusiyyətləri olan zaldır, otaqların bütün qrupları ona doğru yönəlirlər. Yaşıllaşdırma və açan qızılgüllərinin çiçək ləkləri ilə demək olar ki, bütün il ərzində gözəl abadlaşdırma, torpağın bacarıqlı qrafikası və tikilinin ətrafdakı memarlıq mühiti rahatlıq və sakitliyin xüsusi atmosferini yaradır (97, səh. 192).

İmarətin 47 metr uzunluğunda əsas fasadı malikanənin bütün frontonunu əhatə edir. Binanın fasadında böyük yarımdairəvi tağlar mövzusu memarlıq kütlələrin bütün inkişafı boyunca müşahidə edilir. Burada, sütunlar sırasının şaquli istinadların ahəngliyi ilə binanın tektonik strukturunun müəyyənedici məqamı qismində çıxış etdiyi zaman formalaşma, portikin güclü aksentləri

vasitəsilə ifadə edilmişdir. Həqiqətdə, yarımdairəvi tağların çəkisi vasitəsilə daxildən inkişaf edən böyük yastıladılmış binanın həcmliliyinin aşkar edilməsi problemi həll edilir.

Binanın yerləşməsinin ön tərəfə yönəldilməsi hər iki tərəfdən yüksək hasar ilə məhdudlaşdırılmışdır, imarətin həcmi ifadədə, perspektivdə baxılmasına icazə vermir, buna görə də fasadın bütün plastik əsası daxili fəzanın üzə çıxarılmasına istiqamətlənmişdir.

Kiçik giriş ensiz dəhlizə aparır və əsas otaqlar, köməkçi qrup və həyətlə əlaqəli zal ilə tamamlanır. Otaqların bircərgəli inşası planlaşdırmanın ənənəvi üsuludur. Təsadüfi yerləşən pilləkən qəfəsləri kompozisiya funksiyasına malikdirlər.

Memarın bütün yaradıcı enerjisi fasadların memarlıq həllinə istiqamətlənmişdir ki, bu da yaşayış evinin sifarişçisinə xoş təsir bağışlamışdır. Burada sakit və təmkinli səciyyəli memarlıq mövcuddur, xüsusi həcmi-fəza partlayışlar olmadan müəyyən mühiti yaradır. Fasadlar zəif şəkildə kənara çıxan pilyastrlar vasitəsilə şaquli ritmlərdə inşa edilmişdirlər.

Tikinti materialı, isti tonlarda bişirilmiş kərpic, pəncərə oyuqlarının timpanlarının ornament mövzuları ilə doldurulmasında ondan istifadənin səciyyəsi, bizə İranın monumental memarlığının klassik nümunələrini xatırladır. Hər bir timpan, bütövlükdə divarların səthliliyinin tektonikasının ümumi ahəngliyini təşkil edən sərbəst memarlıq-dekorativ sənət əsəridir. İncə plastika, işıq, kölgə məqamları və inkişaf etdirilmiş gözəl karniz həyət fəzasının bütün perimetri üzrə müşahidə edilir.

Yaşayış evinin strukturuna dinamik fəza elementlərinin və ya çox vaxt memarlıq mühitə uyğunlaşmayan sütunlar sırası ilə kompozisiyaların daxil edilməsinə zərurət yox idi. Fasadların sakit çalarlarda həll edilməsində memarın çoxəsrlik müdrikliyi özünü büruzə vermişdir, memar milli memarlığı lazımi dərəcədə dəyərləndirmişdir və bununla da onun yaradıcılığının qiymətləndirilməsinə imkan vermişdir.

Tarixi bazar ərazisində və Acı-çay yaxınlığında yerləşən 142 saylı yaşayış evi künc planlaşdırma kompozisiyası və hər iki tərəfi inşa edilmiş kvadrat formalı daxili həyət fəzası yaradır və sahəsi müstəsna mütənasibliyə malikdir. Həyətdə, bir qayda olaraq, qazon, çəhrayı rəngli kollar və ağac əkinləri vardır. İki mərtəbə və zirzəmi otaqlarının planlaşdırılması ənənəvi yerləşdirmə sisteminin prinsiplərinə əsasən qurulmuşdur.

Planlaşdırmada mərkəzi yer şahnişin ilə təmtəraqlı zal üçün ayrılmışdır, bölüşdürücü vestibüllər kimi yan tərəflərdəki dəhlizlər öz aralarında pilləkən qəfəsləri, təmtəraqlı zal və digər otaqları birləşdirir. Künc tikili bir cərgəli, anfilad sistemli otaqlardan ibarətdir. Digər otaqlar kimi zalda taxçalar mövcuddur, burada bəzəyə xüsusi əhəmiyyət verilir. Taxçalara həcmi səciyyə, taxçaların konxalarına isə stalaktit tamamlama əlavə edildikdə zalın interyeri xüsusi olaraq inkişaf etdirilmişdir. Plafonu haşiyələyən karniz ikiyaruslu stalaktit sistemi təşkil edir.

Zalın ənənəvi formalar və dekor elementləri ilə zəngin olan dəyişdirilmiş daxili fəzası ənənəvi kompozisiya üsullarının qorunub saxlanmasının əsas xüsusiyyətidir.

Yaşayış evinin sahibi memardan ənənəvi planlaşdırma strukturunun və interyerlərin yerli stilistik şərhdə həllini qoruyub saxlamasını tələb etmişdir, lakin bu mövqeni davam etdirməmişdir. Fasadlar, pilyastrlara oxşar şaquli bölünmələrdə qurulmuş adi memarlıq quruluşa malikdirlər və mürəkkəb olmayan profildə kapitellər ilə tamamlanırlar. Pil-




*Təbriz. Bağ-Şəmalə yaşayış evinin ön görünüşü.*

yastrlar arasında profillənmiş başlıqlar ilə pəncərə oyuqlarının ahəngdarlığı fasadların memarlığının əsas hissəsini təşkil edirlər. Ornament mövzulu sadə rəsmin qabarıqlığı ilə ənənəvi kərpic hörgüsü fasadların divarlarını bir qədər canlandırırlar. Memarlar, ənənəvi üsullardan interyer və qismən eksteryerdə istifadə edərək qarşıdan gələn müasir memarlığın inkişafının yeni şəraitlərində özünü tapmağa və şəhərin tarixi görünüşünü qoruyub saxlamağa cəhd göstərirdilər.

Hacı Hüseyn Kəşvərin yaşayış evi Saaəti meydanı, Firdovsi küçəsi ərazisində yerləşir, məhdud tikili sahəsinə malikdir və əsas fasadı həyət fəzasına yönəlmişdir.

Yığcam plan, otaqların ikicərgəli inşası, yaşayış evinin daxili quruluşunun dəqiq təşkili nəzərə çarpır. Planlaşdırmanın konstruktiv əsasını təşkil edən uzununa və köndələn divarlara bölünmüşdür. Tikilinin məhdudlaşdırılmış sahəsi memardan öz imkanlarından maksimum istifadəni, rahat planlaşdırma sistemini yaratmağı tələb edirdi.

Tikilinin ensiz zolağına baxmayaraq, pilləkənə üçmarşlı təmtəraqlı forma verilmişdir. XIX-XX əsrlərdə imkanlı sahiblərin yaşayış evlərinin planlaşdırmasında təmtəraqlı pilləkən layiq olduğu yeri tutmuşdur. Onun tərtibatına vacib əhəmiyyət verilirdi. Bu, sahibin şəhər cəmiyyətində özünəməxsus göstəricisi idi. Birinci mərtəbə pilləkən qəfəsi və anfilada sistemi əsasında yerləşən yan otaqlara çıxışı olan zaldan ibarət idi. İkinci mərtəbənin planlaşdırması birinci mərtəbənin əsas mövqelərini qoruyub saxlayır, lakin otaqlar daha təmtəraqlı və geniş şəkildə təşkil olunmuşdurlar. Pilləkəndən başlayaraq qapılar birbaşa əsas zala, digər yaşayış və təmtəraqlı otaqlara aparır. Burada, anfilada sistemi həmçinin öz gücünü qoruyub saxlayır. Yaşayış evinin planlaşdırmasına eyvan-

lar və mərkəzi portik daxil edilmişdir, memarlıq r kompozisiyanın əsasını təşkil edirlər.

Kompozisiyanın simmetrik-ox sistemi ən təmtəraqlı həcmi-fəza çalarlarında yaşayış evinin fasadının həllini əvvəlcədən müəyyən etmişdirlər. Mərkəz, iki mərtəbənin hündürlüyünə qədər iki sütunlu portik və cüt sütunlarla cinaha salınmış eyvanlar ilə vurğulanmışdır. Yan sütunlar sıralarının və qəşəng düzülmüş sütunlarla portikin ahəngliyi maraqlı memarlıq kompozisiyanın yaranmasına səbəb olmuşdur. Təbrizin günəş şuaları altında işıq və kölgə məqamları sayəsində həcmli plastika şəhər tikililərində bərqərar olmuş yeni üslub istiqamətini nümayiş etdirirdi. Bu cür kompozisiya ilə yaşayış evləri tarixi dövr haqqında məlumatı daşıyır, Azərbaycan və İran memarlığının qiymətli abidələrinə aiddir.

Planlaşdırma yüksək dərəcədə həyata keçirilmişdir, çünki yaşayış evinin daxili təşkilinin şərhi müstəsna olaraq dəqiq formalarda ifadə edilir. Tikilinin düzbucaqlı sahəsində otaqlar iki cərgədə yerləşmiş və köndələn divarlarla sərbəst funksiyalar daşıyan bir sıra qruplara bölünmüşdür. Şahnişinli zala yan tərəflərdən açıq üslublu pilləkənin birləşməsi kimi ənənəvi plan sistemi qorunub saxlanmışdır. Memarlıq-planlaşdırma kompozisiyasının vacib elementi kimi şahnişin həyətdə şəbəkəli geniş pəncərə oyuqları ilə təqdim olunmuşdur. Günəşin şüası altında rəngli vitrajlı oyuqlar interyeri əhatə edir və özünəməxsus rəng ahəngliyini yaradırdılar.

Eyni zamanda, bütün divarlarda üzərində boyalarla süjet səhnələrinin çəkildiyi, iki yarusa bölünən dərin taxçalar rahatlıq və genişlik mühitini yaradırdılar. Yaruslu stalaktit karniz şahnişinin interyerinin daxili fəzasını tamamlayırdı. Digər otaq qrupları həmçinin müvafiq olaraq tərtibat edilmişdilər.

Fasadın memarlığı - ənənəvi kompozisiya üsullarının tam ahəngli, şahnişinli otaqların yan tərəflərində yerləşən ikimərtəbəli hissələrin silueti dam üzərindən qabağa çıxır və müəyyən dinamikanı daxil edir. Fasadda vitrajların böyük oyuqları yaşayış evinin memarlıq görünüşünün formalaşmasında fəal iştirak edirlər, XIX əsrin ortalarında Təbriz şəhərinin yaşayış inşaatı tarixində dərin iz qoymuşdur.

50 saylı yaşayış evi xiyaban sahəsində yerləşir. Yığcam sahədə otaqlar Г şəklində bir və iki cərgə ilə inşa edilmişdir. Köndələn divarlar yaşayış evinin planlaşdırma və konstruktiv strukturunun əsasını təşkil edirlər. Aşağı mərtəbə bir qədər dolaşıq və yaxşı təşkil olunmamış planlaşdırmaya malikdir ki, bu da ənənəvi üsullar üçün səciyyəvi deyildir. Yuxarı mərtəbə konstruktiv dəqiqliyi ilə fərqlənir, lakin yaşayış evinin künc hissəsi tamamilə işıqlandırılmır və planlaşdırmada həll edilməmiş məqam kimi qalmaqdadır. Eyni zamanda, otaqlar təcrid edilməmişdir və bu onların istismarını çətinləşdirir.

Rahat həyət tikilini və kiçik ənənəvi bağçanı birləşdirir, memarlıq mühitini yaradır. Binanın ikinci mərtəbəsinin planlaşdırmasına yaşayış evinin maraqlı hissəsi olan geniş üstüörtülülü eyvan daxildir, məhz bu hissə əsas fasadın kompozisiya mahiyyətini təşkil edir.

Tağlı və tağsız sütunlar sırası ilə fasadlar XIX-XX əsrlərdə Təbriz şəhərində geniş şəkildə yayılmışdır. Fasadların kompozisiya həllinin bu forması üslub istiqamətini əvvəlcədən müəyyən etmişdir. Bu cür şərhə malik fasadlar bir qədər səciyyəvi xarakter almışlar, çünki memarlıq formalar, üsullar və elementlərdən vahid əsasda istifadə edilmişdir.

Lakin bu zaman memarlar memarlığın bütün mövcud xüsusiyyətləri ilə fərdi kompozisiyalar yaratmışlar. Qeyd etmək lazımdır ki, yaşayış evlərinin fasadlarının memarlığı məlum həcmi-fəza birliyini özündə əks etdirmiş, şəhər mühitinin palitrasını genişləndirmiş, memarların yaradıcılıq potensialının daxili mahiyyətini canlandırmış və öz imkanlarından istifadə etməyə şərait yaratmışdır. Onların sayəsində şəhərin memarlıq-planlaşdırma strukturu bədii təsirə məruz qalmışdır. Belə növdə olan hər bir tikili şəhərin üslub inkişafına öz konkret memarlıq xüsusiyyətlərini daxil edirdi, bu zaman şəxsi malikanənin tikintisi zamanı problemə fərdi yanaşma tələb olunurdu. Bu yaşayış evlərinin tarixi məhəllələrə qatılması baş vermişdir, onların memarlıq mövqeləri genişlənmiş və onlar Təbriz memarlığında öz yerlərini tutmuşdurlar.

Nəzərdən keçirilən yaşayış evinin fasadı istər planlaşdırma, istərsə də həcmi və fəza nöqteyi-nəzərindən maraq doğuran memarlıq əsərlər kateqoriyasına aiddir. Pilləkənlər fasadın ümumi kompozisiyasına daxil edilmişdir, açıq səma altında deyil, məhz portikin içərisində yerləşirdilər ki, bu da planlaşdırmanın həll edilməsi zamanı böyük əhəmiyyət kəsb edirdi.

İkinci mərtəbədəki dördtağlı portik sütunların ahəngliyini qoruyub saxlayır və interkolumniyalar fasadın işlənməsinin klassik qanunauyğunluqlarını pozmadan tam gücü ilə özlərini büruzə verirlər. Yan tağ oyuqları künc pilyastrlarla bərkidilmişdir, portikin kompozisiya sistemini təsdiq edərək aralıqlar bir qədər genişləndirilmişdir. Fasadın daxili divarı yastı düzbucaqlı taxçalara bölünmüşdür, pəncərə oyuqları isə vitrajlarla ifadə edilmişdir. Girişlərin üzərindəki taxçalar kərpicdən olan qabarıq həndəsi formaları ilə düzbucaqlı çərçivələr vasitəsilə dekorativ tərtib edilmişdirlər.

Nəcib mütənasiblikdə korinf sütunları olan portikin daxil edilərək, fasadın memarlıq kompozisiyası son dərəcə incəliklə istifadə edilmişdir. Yaşayış evinin fasadı öz memarlıq-kompozisiya üsulu olan ən yaxşı evlərdən biridir, ötən dövrün abidəsi kimi əhəmiyyət kəsb edir.

Serai Eminin 55 saylı yaşayış evi planda düzbucaqlı formaya malikdir, iki kvadrat sahədə yerləşir ki, bu da daxili strukturunu aydın şəkildə təşkil etməyə imkan vermişdir. Bina, məhdud

*Təbriz. Yaşayış evinin daxili görünüşü.*



sahəyə malikdir, hər bir mərtəbədə şahnişinli təmtəraqlı zal, yan otaqlar və onların arasında korpusun eninə barəbər dəhliz yerləşir. Otaqların bir cərgədə inşa edilməsi ənənəvi yaşayış tikintisində səciyyəvi hadisədir, konstruktiv nöqteyinəzərindən çox rahat köndələn divarlarla bölünmüşdür. Binanın uzunluğu boyunca portikli eyvanlar əlavə edilmişdir.

Yaşayış evinin planlaşdırma həllinin ənənəviliyinə baxmayaraq, sahibin imkanlarının məhdud olması hiss olunur, bu malikanənin tikinti sahəsi ilə nəzərə çarpır. Vəsaitin azlığı ev sahibinə daha geniş otaqları yaratmağa, bununla da daxili fəzanın inkişaf etdirilmiş planlaşdırma strukturunun təşkil edilməsinə imkan verməmişdir. Sifarişçi, planlaşdırmasına görə kiçik yaşayış otaqlarının tərtib edilməsinə, əvəzində isə möhtəşəm portiki inşa etməyə üstünlük vermişdir ki, bu da ev sahibinin şöhrətpərəst olduğunu göstərirdi. Bu dövrdə tam rahat yaşayış evləri deyil, məhz portikli fasadlar dəb halını almışdırlar.

Bir qədər uzadılmış fasad hündür korinf kapitelli sütunlarla saxlanılan soğanaq tağları olan mürəkkəbləşdirilmiş portik vasitəsi ilə həll edilib. Sifarişçilər onun möhtəşəm dekorativ formasını bəyənirdilər və başqa klassik kapitelləri qəbul etmirdilər.

*Təbriz. Ağayi-Cavid yaşayış evinin planı.*



Fasadın mərkəzi hissəsində hər iki mərtəbələrin hündürlüyü məsafəsində dördsütunlu portik vardır, digər yan aralıqlar pilləkənlər və eyvanlar üçün ayrılmışdır. Mərkəzdən yan hissələrə doğru inkişaf prinsipinin olduğu üçün fasadın memarlığı maraq doğururdu. Mərtəbələrdə cüt sütunlardan ibarət olan portik və eyvanlar arasında bir neçə pilləli pilləkənlər daxil edilmişdir. Onlar portikin inkişafını pozmur və birləşdirici başlanğıc daxil edirlər. Portikin konstruktiv elementləri vasitəsilə fasad zənginləşir və memarlıq baxımından ifadə edilməsinin həcmi-fəza forması tam gücü ilə maraq yaradır. Fasadın səthindəki böyük pəncərə oyuqları sayəsində yaşayış evi yaxşı işıqlandırılırdı. Yeni formalar ənənəvi vitrajların yerini tutdular, lakin məzmun ox üzərində saxlanılmışdır, çünki yerli şərait yaşayış evinin memarlıq kompozisiyasının bütün incəliklərində öz izini buraxmışdır.

Təbrizin yaşayış binalarının məlum tipoloji qrupları ilə yanaşı marağa səbəb olan iki obyekti də göstərmək lazımdır. Birincisi, Bağı-Şəmala ərazisində Cənubi Azərbaycanın milli memarlığının ənənələri əsasında inşa edilmiş şah sarayıdır, ikincisi isə modern üslubu əlaməti ilə Avropa memarlığını özündə əks etdirən saraydır.

Şərqdə, xüsusilə də Azərbaycan və İranda ətrafında bağça olan hovuzlara həvəs uzaq keçmişə aiddir və bu ənənə hələ də qorunub saxlanılmaqdadır. Çünki isti cənub ölkələrində saray və ya yaşayış malikanələrində hovuzların inşa edilməsi və yaşıllaşdırma işlərinin aparılmasına olan tələbat su mənbələrinin məhdud olması ilə əlaqədardır. Şərq sakinlərinin su və yaşıllaşdırmaya fanatik münasibəti bundan irəli gəlir (239).

Enderunun kvadrat formalı rahat həyətinə sağ tərəfdən qadınlar üçün nəzərdə tutulmuş birun birbaşa birləşir.

Enderun və birun arasında aralıq keçidlər yoxdur.

Qeyd edək ki, nəzərdən keçirilən növə aid yaşayış binalarının əksəriyyəti mərkəzi hissədə binanın bütün hündürlüyü boyunca təmtəraqlı zal yerləşir, yan hissələri isə kiçik otaqlardan ibarət ikimərtəbəli qanadların tikilməsi kimi prinsip üzrə inşa edilmişdir.

Binanın fasadının memarlıq şərhi bir çox yaşayış evlərinin səciyyəvi variantıdır. Kompozisiya hazırlanmış plastikanın bütün dekorativ çalarları ilə üç pəncərə oyuqlarının ahəngliyi əsasında qurulur. Şaquli pəncərə oyuqlarının ahəngliyinə fasadın strukturundakı tabe səciyyəli ensiz pəncərələr daxil olur. Pəncərə oyuqları özünəməxsus kapitelləri olan pilyastrlarla, tağın üzərindəki böyük rəsmə daxil edilmiş və dekorativ mövzularla başa çatan kifayət qədər profillənmiş sandriklərlə əhəmiyyətli dərəcədə zənginləşdirilmişdir. Fasadın pəncərə oyuqlarının incə, zəif ifadə edilmiş plastikası gələcəkdə inkişaf etdirilmişdir. Təmtəraqlıq yaratmaq istəyi, möhtəşəm frizi gül mövzuları ilə doldurmaqla davam etdirilmişdir.

Fasadın planlaşdırması və tikintisinin əsas kompozisiya elementi olan şahnişinə münasibət maraq yaradır. Binanın daxili strukturunda ənənəliliyi qoruyub saxlamaqla fasaddan memarlıq və bədii kompozisiyanın daha çox əhəmiyyətli hissəsi birbaşa kürsülüyün üzərində ləğv edilir. Fasadın pəncərələrin üzərindəki yuxarı, bütöv hissəsi səthi dekorativ xarici görünüş almışdır.

Divar səthinin mərkəzi hissəsi zəif ifadə olunmuş karnizli pəncərəyə qədər inkişaf edir. Yan səthlər nazik çəkilmiş düzbucaqlı çərçivələrlə ekran növləri ilə təqdim edilmişdir. Çərçivələrin üzərində ornament mövzulu yastı üç qanadlı tağ-



*Təbriz. Doktor Sahetənin yaşayış evinin planı, kəsiyi.*

lar vardır. Memarlıq nöqteyi-nəzərindən bu maraqlıdır və öz bədii məzmununu aşkar edir.

Qeyd etmək lazımdır ki, yaşayış və ictimai binaların istər interyer, istərsə də eksteryerlərində gipsdən yerinə yetirilmiş ornament mövzuları, formaları və elementləri yüksək səviyyəyə çatdırılır. Fasadların simmetriyası həmçinin ənənəvi şəkildə işlənmişdir və klassik səciyyəyə malik idi. Binaların memarlıq kompozisiyasının sabitliyi buradan irəli gəlir.

Yaşayış evinin digər fasadı, nəticə etibarilə əhəmiyyətli dərəcədə daha sadə şəkildə həll edilmişdir və kompozisiyanın klassik simmetriyasını qoruyub saxlayır. Lakin burada da yanmış kərpic haşiyəli böyük pəncərə oyuqları olan fasadın memarlığının əhəmiyyətinə irad irəli sürülür.

Ümumilikdə, yaşayış malikanəsi, qapalı mühitin həyət fəzasının daxili hissəsinin həllinin fərdi memarlıq üsulu ilə məhəllə tikilisinin maraqlı nümunəsini təşkil edir.

İkinci qrupda (Sahəti, Səmədi, Ənsəri, Cavadi və s.) yaşayış evinin daxili planlaşdırma strukturuna, həmçinin fasadların həlli zamanı yeni kompozisiya üsulları və elementlərinə hörmətlə yanaşma açıq şəkildə nümayiş etdirilir.

Ağayi Səmədinin yaşayış malikanəsi Təbriz sakinlərinin imkanlı təbəqəsinə məxsusdur. Ənənəvi fiqurlu formada hovuz və bağın çiçəkliklərinin gül gərdisi ilə geniş daxili həyət fəzası rahatlıq mühiti yaradır və sahibin cəmiyyətdə ictimai mövqeyini açıqlayır. Həyətin abadlaşdırılmasından başqa hasarın memarlıq həllinə də xüsusi diqqət verilmişdir, yastı taxçaların ahəngliyi bağçanın fəza mühitinə daxil olur.

Yaşayış evinin daxili planlaşdırması İslam mühitinin ənənələri və məişətinə hörməti bildirir. Eyni zamanda, yaşayış evinin memarlıq-konstruktiv və planlaşdırma xüsusiyyəti yalnız fasadın kompozisiyasının deyil, həmçinin otaqların yerləşməsinin daxili strukturunun klassik simmetriyasıdır.

Yaşayış evinin mərkəzində şahnişin yerləşir, anfilada sistemi vasitəsilə yan ön və tinləmə otaqlar, həyətlə açıq üslublu iki pilləkən ilə əlaqə qurur. Yaşayış evlərində anfilada sistemi daxili planlaşdırmanın ifadə olunmasının ənənəvi formasına malik idi və tarixi irsdə bu xüsusiyyət qorunub saxlanmışdır.

İnteryerin memarlıq-planlaşdırma kompozisiyasının özəyi kimi şahnişinin mövqeyi otağın yüksək hissəsi və həcmi-fəza sistemi ilə müəyyənləşdirilir. Eyni zamanda, yan otaqlar daxili pilləkənlər vasitəsilə ikimərtəbəli qanada keçirlər.

Əgər 91 saylı yaşayış evində təmtəraqlı zal və ikimərtəbəli yan otaqlar fasadın vahid üfüqi bölünməsi ilə həll olunmuşdursa, bu halda Səmədinin yaşayış evi isə memarlıq kütlələrin müəyyən dərəcədə dinamikasını yaradaraq silu-et səthdə inkişaf edir. Şahnişin fasadın üzərində kürəkciklər ilə əks olunmuşdur, günbəzə qədər uzanmır, sadə profilli rəsm ilə başa çatır. Üfüqi rəflər kürəkcikləri birləşdirərək müəyyən sxolastik kompozisiyanı yaradırlar, çox qabarıq olmayan üç qanadlı tağlar daxil edilmişdir. Ox pəncərəsi üzərindəki mərkəzi ekranı 91 saylı yaşayış evinin fasadında olduğu kimi, daha böyük element qismində şaquli üzrə diaqonal şəkildə yerləşən iki bişirilmiş kərpicdən simvolik rəsm əhatə edir.

Yan qanadlar fasadın mərkəzi hissəsi üzərində əhəmiyyətli dərəcədə kənara çıxırlar, bütün həcm üzrə keçən tamamlayıcı karnizin siluetliyi və səciyyəsini vurğulayırlar. Dekorativ mövzularla arası kəsilməyən lent mövcuddur. Karnizlərin belə həll edilməsi qədimi mənşəyə malikdir və Əhəmənilər dövrünə aiddir, insan-

lar tərəfindən yaxşı qəbul edilmişdir və Qacarlar sülaləsi dövründə memarlıqda müvvəffəqiyyətlə istifadə olunmuşdur. Beləliklə, ənənələrin varislik prosesi öz əhəmiyyətini itirməmişdir və XIX-XX əsrlərdə davam etməkdə idi (129, səh. 229).

Qeyd etmək lazımdır ki, Avropa memarlığı yerli cəmiyyətə daxil olsa da, lakin müəyyən dərəcədə yox oldu və Qaçarlar dövrünün "modern" üslubu adlandırıldı.

Ənsərinin yaşayış evi Darabi xiyabanında yerləşir, Muçtaxidi palan küçəsində bir neçə həyətdən ibarət mürəkkəb səciyyəli geniş ərazini əhatə edirdi. Burada, ikinci tipoloji qrupun digər nümunələrində olduğu kimi malikanənin bütün planlaşdırma sxemi birun və Əndərunə bölünmüşdür. Küçədən olan çıxış malikanənin nisbətən geniş uzun formalı vestibülünə aparırdı. Yan çıxışdan oval formalı hovuzu olan möhtəşəm həyət mənzərəsi açılır. Mərkəzi oxu üzrə malikanə bağça ilə əhatə olunmuşdur və abadlaşdırılmış dörd seksiyaya bölünmüşdür. Sonra açıq üslublu bir neçə pilləli iki yan pilləkən vardır. Kiçik otaqların arxasında hovuz və bağça ilə olan enderunun rahat həyətinə eniş görünür.

Şəbəkə bütün binanın həcmi-fəza sistemini daim bəzəyirdi. Görünür ki, müasir şəraitlər, iqtisadi çətinliklər, eyni zamanda Avropa memarlıq istiqamətinin yayılması memarlıq kompozisiya arsenalından ənənəvi şəbəkələrin yox olmasına şərait yaratmışdırlar.

Yaşayış malikanələrinin ikinci tipoloji qrupu Avropa memarlığının bir sıra maraqlı memarlıq-planlaşdırma təzahürlərinin yaranmasına səbəb olmuşdur. Yerli memarlar üçün Avropa memarlığında məlum olmayan yenilikləri öyrənmək, eyni zamanda da iki yaradıcı məktəblərinin sintezində özlərini ifadə etmək imkanları yaranmışdır. Yerli memarlığın yeni üslub istiqamətinin yaranması və formalaşması prosesində itkilər zəruridir. Lakin XIX əsrin ikinci yarısında Avropa memarlıq məktəbinin təsiri altında yerli memarlar öz inkişaf yollarını tapdılar.

Üçüncü tipoloji qrup əvvəlki qruplarla müqayisədə daha çox yayılmışdır, yaşayış evlərinin ümumi kompozisiyasının həllində böyük planlaşdırma imkanları və üsullarına malikdir. Sifarişçilərin bu tipoloji qrupa münasibəti iqtisadi və maddi vəziyyətdən irəli gəlirdi və onlar yaşayış malikanələrinin tikintisini azaldırdılar. Bu tipoloji qrupda planlaşdırma həllərinin öz altqruplarının meydana gəlməsinə şərait yaratdılar.

Bu qrup, əvvəlki qruplar ilə müqayisədə məhdud ərazi imkanlarına malik idi. Eyni zamanda malikanələrin yığcam inşası rahat, demək olar ki, kvadrat formalı, abadlaşdırılmış, dəyişilməmiş alçaq haşiyəli hovuzlardan, gül və ağac bağlarından ibarət həyət fəzalarının meydana gəlməsinə şərait yaratmışdırlar.

Yaşayış evinin mövcud ənənəvi daxili planlaşdırma sistemi bir qədər dəyişikliklərə məruz qalır. Planlaşdırmanın ikicərgəli sxemi meydana gəlir, lakin bəzi hallarda şahnişin formasında təmtəraqlı zal, həmçinin bircərgəli tikili qorunub saxlanılır. Buna əlavə etmək lazımdır ki, binanın planlaşdırmasına möhtəşəm portik şəklində təmtəraqlı şərh əlavə edilir.

Beləliklə, tipoloji qrupu bir neçə altqrupa bölmək olar: otaqların iki cərgədə inşa edilməsi, şahnişin, daxili geniş dəhlizli düzbucaqlı zal, həmçinin otaqların bir cərgə şəklində tikinti nümunələri. Bu tipoloji qrupda digər altqruplar ilə birlikdə Təbriz şəhərinin tarixi mühitində yaşayış evlərinin yeni memarlıq-planlaşdırma istiqamətinin imkanları aşkara çıxarılırdı.

Otaqların iki cərgə ilə inşa edildiyi altqrup yaşayış binalarının daha inki-

şaf etdirilmiş formasını təşkil edir (albomdan: səh. 79, № 50; səh. 83, № 54; səh. 85, № 56; səh. 87, № 58). Düzbucaqlı sahələr üstünlük təşkil edir, tikili malikanənin ümumi sahəsinin demək olar ki, ¾ hissəsini tutur. Həyət fəzasının daxili ərazisi əvvəlki tipoloji qruplar ilə müqayisədə əhəmiyyətli dərəcədə azalmışdır. Ərazi ənənəvi üsulların şərhində abadlaşdırma və yaşıllaşdırmanın əsas elementlərini qoruyub saxlamışdır.

Bu altqrupda iki cərgə ilə inşa edilmiş otaqlar binanın yalnız mərkəzi hissəsini əhatə edirlər, yan qanad isə bir cərgədə təşkil edilmiş, böyük və ya kiçik aralıqları vardır. Əsas fasadlar tərəfindən portiklərin meydana gəlməsi və həyət fəzasının yaşayış malikanələrinin ayrılmaz hissəsinə çevrilmiş çevrəsinin dəqiqliyi binanın planlaşdırmasında maraqlı element kimi çıxış etmişdir. Yaşayış evinin ikinci mərtəbəsinə aparan açıq üslublu pilləkənlər vardır, daxili pilləkənlər az dərəcədə gözə çarpan yerlərdə qurulmuşdur. Planlaşdırma həllərinin birliyi zamanı hər bir nümunə sərbəst kompozisiya üsulu, daxili və xarici fəza mühitlərinə nisbəti, milli ənənələr və Azərbaycan memarlığındakı yeni hallara müvafiq olaraq memarlıq kütlələrinin şərhi ilə seçilir.

Şəhərin memarlığına Avropa üslub istiqamətlərinin təsirini inkar etməyərək, yerli memarların başqa ölkələrin üsullarına olan münasibətlərinə üstün gələrək onları milli memarlıq naminə obyektiv şəkildə istifadə etdiklərini qeyd etmişdir.

50 saylı yaşayış evi tipoloji altqrupun ən maraqlı nümunələrindən biridir. Yaşayış malikanəsinin düzbucaqlı formada olan sahəsi sıx şəkildə inşa edilmişdir, nəticədə həyət fəzasının payına kiçik sahə düşmüşdür. Küçə tərəfindən giriş dərin olmayan portalla qeyd edilir, ön məkana, sonra isə həyətə olan çıxış ilə səkkizguşəli zala aparırdı. Ön otaq paylaşdırıcı vestibüldür, əsas korpus və köməkçi otaqlarla birbaşa əlaqəni təmin edir. Planlaşdırma uzununa olan divarlar ilə yanaşı köndələn divarlarda qurulmuşdur. Ön otağın yanında yerləşən böyük olmayan pilləkən yuxarı mərtəbə ilə əlaqəni yaradır.

Malikanənin əsas tikilisinin birinci mərtəbəsi geniş korpusdan ibarətdir, bir sıra qruplara bölünmüşdür, ikinci mərtəbənin otaqlarının planlaşdırılmasının həllini konstruktiv baxımından təmin edir. Binanın birinci mərtəbəsi planlaşdırma məzmununa görə bir qədər sxematik şəkildə qurulmuşdur, ikinci mərtəbə əsas korpusun ikicərgəli tikilisi və bircərgəli yan qanad ilə köndələninə olan divarların dəqiq ahəngliyi ilə təqdim edilmişdir. Sütunlar sırası ilə möhkəmləndirilmiş, anfilada sisteminə malik və ön otaqlardan ibarət bütün ikinci mərtəbə həll baxımından üstünlük təşkil edir.

Yaşayış evinin əsas fasadı, aşağı kürsülük mərtəbəsində iki ənənəvi açıq üslublu yan pilləkənlərlə möhtəşəm və həcmi-fəza kompozisiya ilə təqdim edilmişdir, qutu formasında profillənmiş tağlarla sütun sırasından ibarət portik üstün mövqe tutur. Korinf kapitelləri ilə olduqca gözəl formada düzülmüş sütunlar qəbul edilmiş memarlıq kompozisiya izahında binaya yüngüllük və əminlik bəxş edir.

Binanın həcmi strukturuna sütunlar sırasının cəsarətlə daxil edilməsi bütün yaşayış malikanəsinin plastik sisteminin səciyyəsini tamamilə dəyişmiş və milli ənənələrin ötürülməsinin məcmusunda yeni üslub istiqaməti bəxş etmişdir. Fasadın ifadə formasına olan münasibət memarlıq kütlələrin dinamikasına səbəb olmuşdur və yaşayış evinə fərdi məzmun əlavə etmişdir. Memarlıq kompozisiyanın mənbəyi kimi çıxış etməklə yana-

şı sütun, ətrafdakı fəza mühitinə təsir sahəsini genişlədərək bədii məsələləri də həll edirdi və konstruktiv forma kimi binaya mövqe möhkəmliyini bəxş edirdi.

Portikin arxasında fasadın divarı yerləşir və ənənəvi üsullar əsasında işlənmişdir. Mərkəzi hissədə pəncərələr ilə yastı taxçalar daxil edilmişdir, yuxarı yarusdakı yan taxçalar mürəkkəb rəsmi olmayan daxili çərçivələrlə üç kvadratdan ibarət ekranlar şəklində dekorativ işlənmişdir. Fasad divarının səthinin bu cür şərhi ilə portik Təbriz şəhərinin memarlığında yeni üslub istiqamətin imkanlarını genişləndirmişdir. Memarlıq kompozisiyada yerli elementlərin Avropa üsulları ilə birgə iştirakı nəticədə yeni maraqlı formalaşma sistemini irəli sürmüşdür, binanın fasadlarının həlli zamanı geniş şəkildə yayılmışdır.

Otaqların iki cərgədə yerləşməsinin digər nümunəsi 54 saylı yaşayış binasıdır. Əvvəlki yaşayış binasından fərqli olaraq bu malikanə daha imkanlı şəxslərə məxsusdur. Bina zirzəmi mərtəbəsi və iki mərtəbədən ibarətdir və köndələn divarlarla ənənəvi üslublu planlaşdırma strukturunu əks etdirir. Şərh kimi prinsipial mövqeyə də otaqların məhdud aşırımlarını rahat şəkildə örtməyə imkan verən konstruktiv xüsusiyyətlər səbəb olmuşdur.

Köndələn istiqamətdə əsas divar oxlarının dəqiqliyi planlaşdırma kompozisiyasında ilk dəfə irəli sürülmüş təmtəraqlı pilləkəni uğurla yerləşdirməyə imkan vermişdir. İkimarşlı pilləkənə təmtəraq səciyyəli xüsusi rol ayrılmışdır. Təmtəraqlı marş korpusun içəri hissəsindən başlayırdı, mərtəbəarası sahəyə qədər uzanırdı və sonra ikinci mərtəbəyə doğru istiqamətlənirdi, geniş vestibülə açılırdı və bütün otaqlarla birbaşa əlaqəyə malik idi. Pilləkənin qarşısında möhtəşəm və zəngin təmtəraqlı zal yerləşirdi. Vaxt keçdikcə ənənəyə olan baxış və memarlığa olan münasibət dəyişir. Yuxarı mərtəbədə otaqlar iki cərgə ilə və cüt sütunlu, qutu formalı profilli beştağlı portik yerləşdirilir. Portik geniş və abadlaşdırılmış həyətə yönəlmişdir, ənənəvi elementlər ilə olan hovuz, çiçəkliklər və bağçaya malik idi.

Yan yarı mərtəbə həcmləri ilə yaşayış evi möhtəşəm memarlıq-fəza kompozisiya üçün müəyyən fon yaradır. Təbrizlilərin sevdiyi və həmçinin Qacarlar sülaləsinin dövründə şəhər memarlığında yayılmış korinf kapitelləri hündür cüt sütunları qutu formalı tağları saxlayır. Klassik kapitelli gözəl proporsiyalı portik başqa kompozisiya şərhini ifadə edir. Sütunların mütənasib bölünmələri klassik normalara tamamilə uyğun deyillər.

Yerli memarlar Səfəvilər dövrünə aid gözəl düzülüşlü ağac sütunlardan öz istədikləri şəkildə istifadə edirdilər. Sütunun özəyi ağacdandır və üzərinə lazımi qədər suvaq çəkilmişdir. Beləliklə, Təbriz memarları ənənəvi elementlərin prinsipial mövqelərini qoruyub saxlayaraq memarlıq formaların öz şərhini irəli sürmüşdürlər.

Nəzərdən keçirilən yaşayış binasında möhtəşəm fasadın həllinin yeni üsullarının meydana gəlməsi təəccüblü deyil. Təbrizdə saray binalarında taxta sütunlar sırası ilə portiklərdən keçmişdə geniş şəkildə istifadə edilirdi, sonra I Şah Abbas və Səfəvilər dövrünün İsfahan memarlığını tətbiq etməyə başlamışlar (169, səh. 42-49).

İlk əvvəl İran və Azərbaycan memarlığına yeni istiqamətin qurulmasına mühüm təsir göstərərək Avropa memarlığı şəxsi Qaçarlar dövrünə aid üslubun yaradılması üçün stimulyatoru kimi çıxış edir. Memarlar, ənənəvi memarlıq materialını tamamilə yeni formada dərk edərək, xarici ölkələrin təcrübəsinə öz baxışlarını irəli

sürmüşdürlər ki, bu da onlara yaradıcı fəaliyyətə obyektiv şəkildə yanaşmağa imkan vermişdir. Bu, milli memarlığın yaranmış ənənəvi prinsiplərinə münasibətdə cəsarətli addım idi (156, səh. 217).

Bu ev, ümumilikdə yeni müddəaların irəli sürüldüyü bir dövrdə memarlıq istiqamətin nəticəsi olmuşdur, memarlar hər bir şeyi öz imkanları daxilində həll etməyə çalışırlar.

Üçüncü tipoloji qrupun ikinci alt qrupu sahnişinli yaşayış binanı təşkil edir. Düzbucaqlı formada malikanə sərhədlərin dəqiq çevrəsinə malikdir. Tikili abadlaşmış kvadrat formalı həyətə yönəlmişdir. Kiçik aşırımlı əsas binanın geniş korpusu, yan hissədəki otaqların bircərgəli tikintisi əsas planlaşdırma strukturunu təşkil edirlər. Binanın planlaşdırması olduqca sadə həll edilmişdir. Mərkəzi ox üzrə anfilada sistemi ilə bir sıra düzbucaqlı otaqlara bölünmüşdür. Mərtəbələrin planlaşdırması eynidir.

Əsas binanın planlaşdırılmasında köndələn ənənəvi divarlara üstünlük verilmişdir, onlardan otaqların daxili strukturunun həllində rasional şəkildə istifadə edilmişdir. Yan tərəflərində iki girişi olan binanın klassik simmetriyası, mərkəzdə şahnişinin yerləşməsi planlaşdırmanın əsas xarakterini müəyyənləşdirdi. İkinci mərtəbəyə aparan açıq tipli pilləkənlər mövcud deyil. Dəhlizin axırında yerləşən daxili pilləkənlər nəzərə çarpmayan şəkildə tikildiyi üçün planlaşdırmada əhəmiyyətli rol oynamır. Eyni zamanda, hər iki mərtəbədə, xüsusilə birinci mərtəbədə şahnişinli zalın interyeri xüsusi təmtəraq və təntənə ilə işlənib.

Birinci mərtəbənin şahnişini yeni üslub cərəyanının yerli memarlığa keçidinə qarşı bir növ etiraz idi. Burada interyerə ənənəvi yanaşma müşahidə olunur, divarlar rəng palitrası ilə qeyd olunaraq stalaktit dekorativ elementlərlə dərin olmayan taxçalara bölünüb. Plafona keçid karnizin böyük stalaktit qurşağı ilə həyata keçirilib. Şahnişinin interyerini naxışlı və mərkəzində xonça olan fəal ifadə olunmuş plafon tamamlayır. Bu, eklektika və üslublaşdırma əlaməti olan ənənəvi interyerin sıravi formasıdır. İkinci mərtəbənin şahnişininin interyeri nəzakətli formada təqdim olunub. Bir qədər müasirləşdirilmiş stalaktit karniz bütün otağın perimetri boyunca sifarişçinin ölkədəki yeni memarlıq cərəyanına münasibətini əks etdirir. Bu o dövrdə cəmiyyətin bütün sahələrində baş verən memarlıq hallarına hörmət əlaməti idi.

Olduqca sadə ifadə olunmuş fasadlar şaquli və üfüqi hissələrdən tikilib. Sadə profilli sandrikli pəncərə oyuqları ikinci mərtəbədə frontonla tamamlanıb. Divarların kərpic hörməsinin fonunda dayaz detallarla, kompozisiyanın həcm və məkan ifadəsi olmayan Avropa memarlıq cərəyanının səciyyəvi şərhidir.

Təbii ki, yaşayış mülkünün memarlıq simasının həllində sahibin ictimai-iqtisadi vəziyyəti əhəmiyyətli rol oynayırdı, tələblər maddi imkanla məhdudlaşırdı. Malikanənin sahibi şahnişini ənənəvi üsullarla tərtib edərək milli mədəniyyətə, onun başlanğıcına olan bağlılığını göstərirdi. Belə münasibət İran cəmiyyətində baş verən yeni ictimai-siyasi proseslərə bir növ etiraz idi.

Proses müntəzəm və zəruri hal idi, çünki Avropa memarlıq konsepsiyası sabitləşmiş və gələcəyi olmayan ənənəvi memarlığa qərəzsiz təsir göstərirdi. Bunun ictimai, tarixi və siyasi səbəbləri var idi: XVIII əsrin əvvəlində əfqan qoşunlarının İrana soxulması və uzunmüddətli işğalı, sonra İranın siyasi və tarixi meydanında məşhur sərkərdə Nadir şahın peyda olması və ölkənin əfqan işğalından azad edilməsi, daha sonra onun istilaçı yürüşləri və faciəli ölümü. Sonra İran taxtı uğrunda yarım əsr

davam edən daxili müharibələr Qacarların qələbəsi ilə nəticələndi və ölkənin bərbad və ağır vəziyyəti fonunda onların sülaləsi yarandı.

Fətəli şahın (1797-1836) hakimiyyəti dövründə geridə qalmış İrana yüksək rütbəli ingilis və fransız nümayəndələri gəlir və İran hakimiyyətini öz tərəflərinə çəkməyə, xüsusilə, Rusiyaya qarşı və orada öz siyasi və iqtisadi maraqlarını həll etməyə çalışırlar. Bunun nəticəsində bir sıra rus-fars müharibələri (1813, 1826) baş verdi, İran öz Qafqaz torpaqlarını itirdi və 1828-ci ildə təhqiredici müqavilə imzalandı (61, s. 58).

Əfqan işğalından Qafqazın itirilməsinə qədər, sonuncu Səfəvi şahlarının dövründə siyasi və iqtisadi böhran uçurumunda olan İranın vəziyyəti bir əsr boyunca formalaşdı.

Memarlığın vəziyyəti və inkişafın olmaması, yaradıcılıq fəaliyyətinin məlum üsul, forma və qədim ənənəvi ornament mövzularına əsaslanması bundan irəli gəlirdi.

Planlaşdırma üsulları həm binanın daxili məkanı, həm də həcmli səciyyə baxımından maraqlı ifadə forması təşkil edirlər. Yeni üsullar meydana gəlir, cəmdə müəyyən sistem əldə edərək bundan sonra yaşayış binalarının planlaşdırma strukturunun ümumi qanununa çevrilirdi.

Bu nümunələrə yaşayış malikanəsi olan *üçüncü tipoloji qrupun üçüncü yarımqrupu* aiddir (albom, s. 64, № 38). Yaşayış evinin planlaşdırma xüsusiyyəti Təbriz yaşayış evləri üçün səciyyəvi olmayan ikicərgəli otaqları birləşdirən daxili geniş dəhlizdən ibarətdir.

Yığcam yaşayış malikanəsi yan qanadla həyət fəzasının ətrafında yerləşir. Ənənəvi abadlığın bütün xüsusiyyətləri qorunduğu üçün yaşayış evinin və həyətin sahəsi bərabərdir. Baş korpusun bir yarım binası bir qayda olaraq klassik simmetriyaya malikdir. Onun oxu fasadın yan hissələrində yerləşməməsi ənənəvi üsulu qıraraq açıq ön pilləkənlə təqdim olunub. Planlaşdırmanın məhz belə əsaslı mövqeyi nəticəsində fasada və həyətə baxan, otaqlarla əlaqələnən dar dəhliz yarandı. Dəhlizdən sonra zaldan daxili pilləkən, ön və yaşayış otaqları açılır. Yaşayış binasının planlaşdırma strukturunun həllinə səmərəli yanaşma və təcrid olunma üstünlük təşkil edir.

Mərtəbənin mərkəzi hissəsində ön zal və şahnişin yoxdur. Qonaq otağının böyük sahəsi digər otaqlarla bir sırada yerləşir və yaşayış binasının kompozisiyasında hakim mövqeyə iddia etmir. Yalnız binanın giriş meydançasına aparan ikitərəfli açılmış pilləkən pəncərə oyuqlarının ritmi olan dayaz kərpic divarın fonunda müəyyən vurğu ifadə edir. Fasadın memarlıq kompozisiyasını sadə karniz tamamlayır.

Yaşayış binasının oxunda vurğulanmış giriş və ya ön pilləkənli kompozisiya üsulu daha mötəbər və təntənəli olduğundan Təbriz binalarının memarlıq-planlaşdırma strukturunda əhəmiyyətli yer tutur. Eyni zamanda, şəhərin yaşayış tikililərinin şərhində yeni üslub cərəyanının tanınması deməkdir.

Üçüncü tipoloji qrupa Kazakonani (hal-hazırda Miras Fərhəngi) və doktor Gənceyi-zadənin yaşayış evləri aiddir. Miras Fərhəngi binası Təbrizin işlək magistrallarının birində, müasir İranın diqqətəlayiq ansamblllarından biri olan Rasta kuçe tarixi bazar məhəlləsində yerləşir. Bina XIX əsrin ortasında tikilib və şəhərin hörmətli sakini Kazakonaniyə məxsusdur.

İmarətin memarlıq-planlaşdırma strukturu Qacar üslubunun təşəkkülü və İran cəmiyyətinin yüksək təbəqələrinə Avropa memarlığının fəal daxil olması zamanına təsadüf etdi. Bununla bağlı

ənənəvi kompozisiya və memarlıq üsullarına münasibət dəyişirdi. Əslində, yaranmış ictimai-iqtisadi mühitdə qədim, adət olunmuş şərait yox edilirdi və binanın həlli memarlıq obyekti kimi, onun daxili sisteminə ənənəvidən fərqli olan yanaşma tələb olunurdu (83, s. 396).

İran memarlarına, ustadlara cəmiyyətin yeni inkişaf şəraitində yaradıcılıq fəaliyyətindən uzaqlaşdırılmamaq üçün baş verən proseslərə və peşəkar mühitə öz münasibətlərini bildirmək və konsepsiya irəli sürmək lazım idi. Memarlar onların Şərq memarlıq anlayışı ilə qətiyyən uyğunlaşmayan və bu zamana kimi ənənəvi üsullara yad olan üsullara diqqətlə yanaşmalı və mənimsəməli idilər. Lakin formalaşmış qədim ənənələr, yerli iqlim, təbiət şəraiti, memarlıq irsinin dərin kökləri memarlara yaradıcılıq prosesində şəxsi əqidəni qorumağa stimul yaratdı. Və bu onlara memarlığın ümumi inkişafına qoşulmağa kömək etdi (Əmir Pərviz, Camali binaları).

Kazakonaninin binasının yerləşməsi ənənəvi olaraq qapalı səciyyəlidir. Malikanənin nisbi məhdudluğu və prospekt tərəfdən hasar ikinci mərtəbəni gizlətmir və binanın kompozisiyasında fəal iştirak edir.

Sahə şimal və şərqdə düzbucaq cizgilidir, cənub və qərbdə qonşu malikanələri və dar küçənin istiqaməti səbəbindən çəpləşdirilib. Qapalı, gözəl tənasüblü həyət (19x15) Şərqin ənənələrinə uyğun olaraq dəqiqliyə və düzbucaq xətlərə malik olduğundan bütün sahənin daxili məkanının uğurlu təşkilinə imkan yaratdı.

Sahə iki mərhələ ilə tikilib: birinci mərhələdə əsas bina XIX əsrin ortasında, ikinci mərhələ isə XX əsrin 80 ilin sonunda və 90 ilin əvvəlində tikilib. Binanın memarlıq-planlaşdırma səciyyəsi ümumi plana zidd deyil və qanunauyğun həll edilib. Tikilinin dərinliyi portiksiz 19 metr olmağı yeni planlaşdırma ideyalarının daxil olmasını qeyd etməyə imkan verir. Binanın planlaşdırma üsullarının ənənəviliyi eninə olan divarların şərhində ifadə olunub, lakin bu maraqlı daxili fəzanın yaranmasına mane olmurdu. Əksinə, üçmarşlı ön pilləkənin meydana gəlməsi ənənəyə uyğun olaraq dəqiq simmetrik kompozisiyanın və planlaşdırmanın uğurlu təşkilinə imkan yaratdı.

Mərtəbələrin planlaşdırması üçsıralı tikili sistemi ilə təqdim olunub və binanın daxili strukturunda baş verən dəyişiklikləri göstərir. Birinci mərtəbədə uzadılmış formalı qoruyucu otaqlar olan vestibül yerləşir. Vestibülün arxasında İran yaşayış evlərinin planlaşdırılması üçün yeni olan açıq üslublu yan dəhlizlərlə üçmarşlı baş pilləkən yerləşir. Baş pilləkən planlaşdırmada və binanın daxili strukturunda hakim mövqe tutdu və binanın həcmli sisteminin gələcək inkişafı üçün münasib istiqamət verdi. İkinci mərtəbədə pilləkənin ətrafında perimetrik tikinti həm məzmunca, həm də memarlıq həlli ilə müstəqil əhəmiyyət əldə etdi. Mərkəzdə dörd hündür sütunlarla saxlanılan baş pilləkən, damın üzərində yerləşdirilmiş işıq fənəri ilə işıqlanırdı, pilləkənin oxu ilə mərtəbələrarası meydançada böyük vitraj pəncərəsi öz bədii mənasını səsləndirirdi. İkinci mərtəbəyə qalxdıqca baş zalın qırmızı, sarı, yaşıl rəngləri üstünlük təşkil edən vitrajları olan divar açılırdı. Pilləkən bilavasitə dirək divarları incə işlənmiş taxçalarla və yarımdairəvi tağları bəzənmiş baş zala aparırdı.

Yarımdairəvi tağ İran memarlığına Fətəli şah Qacarın dövründə bütün tipoloji bina və tikililərə memarlıq forması kimi daxil oldu. Nəsrəddin şah Qacar hakimiyyəti dövründə yarımdairəvi tağ yalnız Tehrandakı Gülüstan sarayının

aparıcı forması deyil, ənənəvi çatma tağla bərabər sıravi tikililərdə də istifadə edilirdi (214, s. 54).

Əsas zalın həyətə baxan divarı demək olar ki, yoxdur – onu vitrajlı üç iri yarımdairəvi pəncərələr əvəz edir. Pəncərələrin ornament mövzuları binanın bütün vitrajları ilə eynidir. Cənub fasad gün işığında əsas zalın interyerinə daxil olduqda otaq tamamilə fərqli çalar və fərqli məkan mühiti əldə edir. Şərq başqa formaların təsiri altında olsa da öz mahiyyətini və mənəviliyini qoruyur.

XIX əsrin ortalarında İran memarlığında binanın cənub fasadında çoxsütunlu portikin əlavə edilməsi təbii hal idi. Klassik Avropa sütunu bu ölkənin şəraitində tamamilə fərqli mütənasib xüsusiyyətləri və digər formalar əldə edir. Binanın sütunları uzadılmış mütənasibliklə və tamamlayıcı mürəkkəb kapitelləri ilə binaya təntənə və təmtəraqlıq verirlər. Fasadın yan hissələrində sütunlar eyvan meydançaları ilə kəsilir və müstəqil hərəkət etməyə başlayır, lakin ritmika və ümumi görkəm qüvvədə qalır. Tağlı portikin mərkəzi hissəsi yalnız fasadın deyil, bütün binanın memarlıq kompozisiya ifadəsinin üstünlük təşkil edən formasıdır.

XX əsrin tikililəri XIX ikinci əsrin yarısının tikililərinin emosional əhval-ruhiyyəsini azaltmadı. O, Təbrizin müasir tikililəri arasında İran milli irsinin abidəsi kimi Kazakonaninin binasının tarixi və memarlıq əhəmiyyətini daha da vurğuladı.

Həkim Gənceyi-zadənin Təbrizin tarixi məhəllələrində yerləşən yaşayış evləri nisbətən böyük ərazidə yerləşir, hündür hasarı var və bir-birinə nisbətən düz bucaq altında yerləşirlər və geniş həyət fəzasında rahat məkan yaradırlar. Zirzəmi mərtəbəsi və iki mərtəbədən ibarət olan binalar müxtəlif kompozisiya üsulları ilə tikiliblər və müxtəlif planlaşdırma strukturunu əks etdirirlər.

Birinci evin memarlığı XIX əsrin sonunda Təbriz şəhərində formalaşmış planlaşdırma üsulları ilə həll edilib. Burada yaşayış evinin əsas ənənəvi qaydalarına ən münasib olan eninə divarlar hərəkət edir. Əsas baş zalın ətrafında, müstəqil girişləri olan bütün otaqlar dar yan dəhlizlər vasitəsilə birləşir. Müstəqil girişlər yaşayış evində müstəqilliyi saxlamağa imkan verirdi.

Düz taxta sütunların üzərində duran beş tağlı portik, korinf üslublu kapitellərin vasitəsilə fasada təntənəli memarlıq forması verilib. Əgər bina alçaq podiumda yerləşirdirsə, kürsülü və ya zirzəmi olan mərtəbə sayəsində binanın nəcib və təntənəli memarlıq kompozisiyası tamamilə fərqli həcm və məkan sistemi əldə edirdi. Memarlıq kütlələrin belə şərhi fasadın strukturunu həcmli plastika ilə həll etməyə imkan verir, müəyyən dərinlik və həcm yaradır.

Korinf kapitelli düz sütunlar üzərindəki tağlı portik şəhərin memarlıq mühitinin dəyişməsinə müsbət təsir göstərdi. Memarlar kompozisiya baxımından maraqlı olan sütunlu portik əldə edərək, onu yerli xüsusiyyətlərə uyğunlaşdırdılar və yeni üsullara öz şərhlərini verdilər.

Sütunlu portik kompozisiya üsulu o dövrdə şəhərin ən sevimli memarlıq mövzusuna çevrildi və memarların yaradıcılıq potensialı nəticəsində yaşayış evlərinin görünüşündə yeni cizgilər əldə etdi (225, s. 167).

Gənceyi-zadənin yaşayış evində bu üsul müsbət nəticələnərək tam inkişaf edib. Portikin arxasında fasadın divarı sütunların hərəkətinə müvafiq olaraq kərpic hörməsi vasitəsilə şaquli və üfüqi hissələrlə sipərlərə bölünür. Birinci mərtəbədə pəncərə oyuqlarının haşiyələrinə kərpic hörməsi ilə müəyyən

şəkil verilib. Yaşayış evinin fasadının bədii simasının kərpic vasitəsilə açılması qədim ənənədir. Yaşayış bina divarlarının tərtibatı üçün istifadə olunan kərpic kimi ənənəvi tikinti materialı ustaların əlində dekorativ-tətbiqi sənətə çevrilir.

Ənənə memarın yaradıcı xəzinəsinə ayrılmaz hissə kimi daxil olduqda və geniş istifadə edildikdə fasadın memarlıq kompozisiyasının ifadə forması meydana gəlir.

Hal-hazırda yaşayış evi baxımsız vəziyyətdədir, tezliklə bərpaçılar "Miras Fərhəngi"nin bərpa işlərinə başlayacaqlar və Təbrizin maraqlı memarlıq abidəsi əvvəlki görünüşünü alacaq və şəhərin mədəni tələblərinə xidmət edəcək.

*Təbriz. Yaşayış evinin darvazası.*



Gənceyi-zadənin sonra tikdirdiyi ikinci evi yaxınlıqda yerləşir. Burada yaşayış tikintisinin fərqli prinsipləri göstərilib. Yaşayış binasının ümumi kompozisiyasının həllində Təbrizin bir çox mötəbər tikililərində uğurla istifadə edilən tağlı portik müəyyən dərəcədə arxa plana keçir. Görünür, bu kompozisiya üsulu zamanla köhnəlmişdir və memarların yaradıcılığı yaşayış evinin görünüşünün təşkilində yeni axtarışlara yönəlmişdir. Lakin, daha təntənəli korinf sütunu yerli şəraitə daha yaxın olduğundan binaların fasadlarında yeni forma alır və eyni zamanda yaşayış evinin həcm və fəza kompozisiyasına ikimərtəbəli portik şəklində daxil olur. İkinci mərtəbənin tavanına kimi çatan uzadılmış mütənasib sütun sanki keçmişə aparır. Yaşayış evinin kompozisiyasında istifadə olunan sərbəst dirək formalı sütun mərtəbələrdə kamera səciyyəli elementə çevrilir və ümumi memarlıq həyəcanında inkişaf edən əvvəlki tikililərdəki daxili mahiyyətdən məhrumdur.

Yaşayış evinin memarlıq kompozisiyası yeni həcmli, plastikalı, korinf orderinin mütənasibliyi qorunan Avropa klassik məktəbinə hörmətdi. Binanın əsas həcmindən açıq üslublu birmarşlı pilləkən meydançaların yanından irəli çəkilib və simmetrikliyinin oxu sayəsində cüt sütunlu ikimərtəbəli portik qeyd edilmişdir.

Binanın yüksəldilmiş kürsüsü irəli çəkilmiş portikin yan qanadlarında yerləşən ikimərtəbəli lojiyaların vasitəsilə fasadın strukturunu təmtəraqlı həll etməyə imkan vermişdir. Təbii ki, klassik order mərtəbələrdə eyni memarlıq üslubunda işləyir və yaşayış evinin yeni üslub cərəyanını inkişaf etdirir. Portikin

və lojiyanın incə dəmir məhəccəri korinf orderinin mütənasib sistemini qorumağa imkan verir və binanın memarlıq kompozisiyasının açılmasında fəal iştirak edir.

Divarların kərpic hörməsi isti çalarlıdı, iki kərpicdən ibarət mərtəbələrarası dartı qüvvəsi və profilləşdirilmiş karniz ağ korinf sütunlarını, aşağı və yuxarı mərtəbələrin üfüqi səthlərini effektlə ayırır. Yaşayış evinin memarlıq kompozisiyasının həcm və fəza sistemi rənglərin uyğunluğu ilə dəyişdirilərək, qədim şəhərin formalaşmış ənənələri ilə birgə yenilərini inkişaf etdirir.

Köhnə evin yanında yerləşən yaşayış binasının üzbəüz fasadı baş fasadla eyni məkan quruluşuna malikdir. Lakin digərindən fərqli olaraq, mərkəzi hissə və yan lojiyalar vahid konstruktiv sistem təşkil edir və daha fərdi həllə malikdirlər. İlk öncə baş fasad tərəfdən binanın planlaşdırmasını təntənəli portiklə, digər tərəfdən ənənəyə hörmət olaraq ənənəvi qoruyucu pilləkənlərlə bərkidiblər. Eyni zamanda, yaşayış evinin daxili planlaşdırmasına öz xüsusiyyətlərini itirən və mövcud olan ictimai-məişət şəraitə bağlanan şahnişin kimi təntənəli məzmunlu vacib element daxil edilib.

Lakin bu imarətlərin məkan strukturuna olan tələblərlə memarlıq-planlaşdırma ifadəsinin başqa formasıdır: burada həcmli plastika ön plana çəkilib və ev memarlığının xüsusi qrupunu təşkil edir.

Г-şəkilli tikili və ya yaşayış evi kimi müxtəlif tipoloji qruplarda yaşayış binası iki üzbəüz sahədə yerləşir, yaşayış binası sahənin bir hissəsində tikilib, malikanənin П-şəkilli tikilisi planlaşdırma və bədii-memarlıq həlli baxımından daha fəal formadadır.

Malikanənin kurdoner şəklində yerləşməsi memara həcmli kütlələrin əks nisbətləri ilə yaradıcılıq palitrasını genişləndirməyə imkan verir. Malikanənin qapalı fəzasında binanın üstünlük təşkil edən əsas mərkəzi hissəsi vizual olaraq daha da güclənir. Yan birmərtəbəli ya bir yarım mərtəbəli tikililər tabe səciyyəlidirlər. Bunun fonunda təntənəli və geniş interkolumniyalı çoxsütunlu portik yaşayış malikanəsinin üslub cərəyanına yeni məzmun verir.

Yaşayış malikanəsi və ya Həmazda imarəti tipoloji sistemə yuxarıda qeyd olunan mövqe ilə daxil oldu. Bir neçə pilləli gözə çarpmayan pilləkənli giriş gələni Ordubad şəhəri üçün səciyyəvi olan səkkizguşəli bölüşdürücü vestibülə aparır. Yuxarı mərtəbə ilə əlaqə vestibüldən baş, yaşayış və məişət qrupları, həmçinin həyət məkanı və daxili pilləkən vasitəsilə həyata keçirilir (96, s. 155).

Binanın belə planlaşdırma strukturu bircərgəli otaqlı tikililəri səmərəli istifadə etməyə imkan verir, rahat və yaşıllıqlı həyəyə açılan portikə təmtəraq verir.

*Təbriz. Səyimasi yaşayış evinin planı.*



Təbriz yaşayış binalarının həcm və fəza kompozisiyasında dördaralıqlı portik nadir hal deyil. Fasadın həmişəki mərkəzi ox sistemli portikli həlli pozulub, binanın oxunda dərin lojiya əvəzinə sütun yerləşməsi kimi uyğun olmayan memarlıq modeli təklif olunub. O, portikə və ondan daha uzaqda yerləşən əsas zala vizual hərəkətin qarşısını alır. Memarlıq kütlələrin bölüşdürməsində qanunauyğunluq olmadığından portik kompozisiyanın əsas elementi kimi mənimsənmir, yerli üsul yerini alır.

Salmasinin imarəti küçədən bir qədər uzaq olan tarixi məhəllələrinin dalanında yerləşir. Yalnız dərin taxçalı incə konstruktiv işlənmiş qübbəli gözəl portal yaşayış malikanəsinin girişini vurğulayır. Yaşayış binasının bütöv divarının fonunda portal şəklində giriş yerləşdirmək daha çox İspaniyadan Orta Asiya və Hindistanın şəhərlərinə kimi Şərqin və Qərbin müsəlman yaşayış məntəqələrinin, xüsusiyyətidir.

Salmasinin imarətinin girişinin portalı gözəl işlənmiş klassik mütənasibliklə, qübbənin çatma tağı ilə, dayaz çərçivələr və küknarşəkilli kərpic hörməli timpanla sanki İslam memarlığının son akkordudur.

Portalın qübbəsi yalnız girişin dərin taxçasının taxtapuşunun konstruktiv forması deyil, memarlıq elementlərindən olan xüsusi gözəl tektonika, cəmdə güclü səslənən bədii kompozisiyasıdır. Burada müxtəlif həndəsi fiqurlardan ibarət konstruktiv elementlərinin bütün xətləri qübbənin çoxüzlü xonçasına yönəlir. Müəyyən nöqtələrdə kəsişərək portalın fəza strukturunda tor yaradırlar. Memar bu şərh ilə milli irsə hörmətini bildirir, çünki vestibüllə girişin yanından ötərək o, demək olar ki, həll edəcəyi memarlıq cərəyanının ixtiyarındadır.

Salmasinin geniş malikanəsi bircərgəli otaqlarla tikilib, əsas və köməkçi qruplar mövcuddur. Lakin imarətin planlaşdırma kompozisiyasında iki qoruyucu girişli üsullar qeyd olunub. Simmetriyanın mərkəzi oxundan sağda baş fasada baxan şahnişinli əsas zal yerləşir. Salmasinin imarətində onu ətraf əyani-fəza mühitindən fərqləndirən fərdi memarlıq-kompozisiya xüsusiyyətləri mövcuddur. Fasadın quruluşu Şərbətoğlu imarətini xatırladır, portikin kompozisiyasında geniş aralığın qutu üslublu tağlarını saxlayan üslublaşdırılmış korinf kapitelli incə sütunlar kimi eyni üsullar istifadə olunub. Tağlar xüsusi şəkil yaradan kərpic hörməsi ilə seçilir. Bu mövzu Avropa memarlığı üçün səciyyəvidir, lakin o, cəsarətlə yerli palitranın memarlıq xəzinəsinə daxil oldu. Binanın baş fasadı demək olar ki, cüt sütunlu iki portikdən ibarətdir, fasadın divarı ilə bucaq altında birləşir. Bu üsul Qacarlar dövründə Təbrizin yaşayış evləri üçün qeyri-adi idi. Buna baxmayaraq, fasadın həcmli plastikasına təsir göstərən dinamik həll yaradılmışdır. Üfüqi hissələr friz hissənin geniş zolağı ilə bərkidilib, künclərdə kvadrat dayaz taxçalarla möhkəmlənib və bir-biri ilə bəzək üslublu iki tərəfi açıq dəmir məhəccərlə birləşib. Fasadın divarı eyni mövzulu haşiyələri olan şaquli pəncərələrin geniş oyuqları ilə təsvir olunub.

Fasadın memarlıq strukturu lap əvvəldən yeni forma və üsulların açılmasına yönəlib və memarların bu problemə münasibəti müvafiq əhəmiyyət kəsb edirdi. Qacar dövrünün son illərinin tikililəri bu tendensiyanı ifadə edirdi.

Təbii ki, başqa cür ola da bilməzdi, çünki fasadların əsas elementləri olan üslublaşdırılmış kapitelli uzadılmış sütunlar, onların addımları və ya interkolumniyaları bizi saray memarlığının məşhur portikləri və ilk öncə Çehel-Sütun olan Səfəvilər dövrünə aparır.

Salmasinin imarətinin bərpa işləri hal-hazırda bitmə mərhələsindədir. Əsasən layihə sənədləri olmadan. Bütövlükdə bərpanın ümumi istiqamətinin yerinə



Təbriz. Yaşayış evinin planı və kəsiyi.

yetirilməsinə baxmayaraq, çox vaxt özfəaliyyətlə məşğul olan ustalara iş təşkilinin göstərişlərindən ibarət "Miras Fərhəngi"nin rəhbərlik üslubu mövcuddur. Bununla belə, layihə sənədlərinin yoxluğu işlərin keyfiyyətinə təsir göstərir, çünki qabaqcadan memari arxeoloji ölçmələr və elmi tədqiqatlar aparılmayıb. Bu, problem Təbrizin demək olar ki, bütün memarlıq abidələrinə aiddir, çünki ölçülər belə ciddi işə hazırlıqlı olmayan tələbələr tərəfindən aparılır.

YUNESKO-nun beynəlxalq qanununa görə memar-bərpaçı, abidənin gələcək bərpa layihəsinin müəllifi, əgər bu öncə edilməyibsə, memarlıq və ya arxeoloji ölçülər aparmalıdır. Planda, kəsikdə və fasadda bir neçə yoxlama ölçmələri etmək lazımdır. Xüsusilə, binaların yuxarı hissələrinin ölçülməsinə daha diqqətli yanaşmaq lazımdır, çünki ən çox və mühüm səhvlər orda buraxılır.

Qaralama eskizlər (kroklar) böyük diqqətlə işlənməlidir, ölçmə zamanı bütün alınan ölçülər çəkilməlidir. Kroklar "təmiz işlənmiş çertyoj sənədlərindən" heç də az əhəmiyyət daşımır (Методика реставрации памятников архитектуры. Стройиздат, М., 1977. Под общей редакцией Е.В. Михайловского, стр. 72).



*Təbriz. Kavkabə Səlami yaşayış evinin planı, kəsiyi və fasadı.*

Beşinci tipoloji qrupa Təbrizin tarixi məhəllələri rayonunda və prospekt zonasında yerləşən və memarlıq-planlaşdırma əhəmiyyəti ilə şərtləndirilən Həririnin yaşayış evi də aiddir. Malikanənin böyük sahəsi uzadılmış formadadır, tikili kiçik bir hissədə yerləşir. Malikanənin qapalı sahəsi hər biri bağı və müstəqil həyəti olan iki hissədən ibarətdir. Bu, İranın şəxsi malikanələrinin səciyyəvi xüsusiyyətidir, ölkənin əsas şəhərlərindən biri olan Təbrizə də xasdır.

Malikanənin hər iki hissəsində tikilinin planlaşdırması mürəkkəb deyil. Birinci ev dar uzun dəhliz, şahnişinə və digər otaqlara olan girişlə səciyyəvidir. İkinci ev üçün otaqların bircərgəli yerləşməsi səciyyəvidir.

İki evin fasadı böyük maraq doğurur və interyerlərinə böyük diqqət yetirilib. Burada Qacarlar dövrünün üslub cərəyanının təşəkkül prosesi deyil, formalaşması zamanı şəhər tikililərində üstünlük təşkil edən memarlıq mövzuları, üsulları və formaları istifadə edilib. Bu, yeni materiallardan daha azad istifadə etməyə imkan verirdi. Avropa memarlığının bütün çalarlarına münasib zəmin yaranır, lakin memarlar memarlıq mövzularını, dekorativ üsul və elementlərini öz yaradıcılıq nöqteyi-nəzərindən istifadə edirdilər. Modern və Avropanın digər üslub cərəyanları yerli çalar aldıqları üçün yad deyil, doğma kimi mənimsənir.

Birinci evin fasadının memarlıq kompozisiyası yerli ənənələrin əsasında Avropa memarlığının çalarları ilə binanın ümumi strukturunu həll edir. Fasadın simmetrik oxlu kompozisiyası mərkəzdə vurğulanıb və bitki ornamentli Qacar üslubunun frontonu ilə tamamlanıb. Onların üzərində ritmik yerləşmiş incə şəkilli və zərif relyefli gül mövzuları karnizin üfüqi hissələrinə daxil olur. Bu mövzular fasadın kompozisiyasını müşayiət edir və onun memarlığına nikbin əhval-ruhiyyə verir.

Əyrixətt çevrəli frontonun doldurulması plastikanın bəzək məzmununun səciyyəsini və inkişafını bədii cəhətdən dərk etməyə kömək edir. Fasadın yan qanadları mərkəzi hissəyə nisbətən daha təvazölə həll edilib və yaşayış evinin memarlıq kompozisiyasının əsas və tabe elementlərini açır.

Üslub baxımından azad həll edilmiş fasada baxdıqda əsas zalın interyerinin daxili fəzasının tərtibatında yerli ənənənin həcmli səslənmə tapmağı çətin duyulur. Bütün divarlar və şahnişin mütənasibliyi saxlanmış stalaktit konxalı ekranlara ritmik surətdə bölünür. Ekran kompozisiyasının ümumi səciyyəsi plastik şərhdə dördyaruslu stalaktit sistem formasında qalaraq, aşağı hissədə divar naxışlarının müstəqil gözəl süjetləri real ifa tərzində açılırlar. Rəssam Avropa rəssamlıq məktəbi ilə tanışdır və bu ona zamanla hesablaşaraq kompozisiya yaratmağa imkan verir. Memarların onilliklərlə formalaşan planlaşdırma üsullarına münasibəti dəyişir, yenidən baxılır və bu istiqamətdə inkişafın yeni yolları yaranır. Baxılmış tipoloji qrupların böyük yaşayış malikanələri istismar üçün narahat olurlar. Yaşayış binalarının planlaşdırmasında rasionalizm Avropa təsiri altında yeni fazaya qədəm qoyur. Yaşayış binalarının yenilənmə prosesi gedir, onların sahələri azalır və tikilinin dərinliyi əsasən kiçik, yığcam və konstruktiv cəhətdən özünü doğrultmuş sahəni tutur. Bütün bircərgəli, ənənəvi köndələn divarları olan üsul, qədim iş təcrübəsi İranın şəraitində özünü doğrultdu.

Şəhər üçün səviyyəvi olmayan Təbrizin kiçik qabaritli yaşayış evləri tarixi hissənin planlaşdırma strukturuna daxil oldular və *dördüncü tipoloji qrupda* vətəndaşlıq hüququ aldılar. Onların şəhər tikintisində meydana gəlməsi təbii hal idi. Torpaq sahələrinin azalması, tikinti materiallarının bahalığı, ölkədəki ictimai-iqtisadi böhran şərti qəbul edilmiş dördüncü tipoloji qrupun meydana gəlməsinə səbəb oldu.

Bu qrup şəhərin tarixi tikililərində əhəmiyyətli yer tutur və əyani-fəza mühitinə və yaşayış evlərinin memarlıq həllinə daxil edilir, ənənəvi tikinti fonunda yeni üslub cərəyanını əks etdirir.

Dördüncü tipoloji qrupun planlaşdırma materiallarını aşağıdakı yarımqruplara bölmək olar: 1. Yaşayış evlərinin iki ənənəvi girişlə planlaşdırılması; 2. Mərkəzi girişli binalar; 3. Planlaşdırma həllində fəal iştirak edən portiklərli binalar; 4. Qarışıq üsullar.

*Birinci yarımqrupun* (Səfərniya, Hacı Məhdani, Etsami yaşayış evləri) nümunələri məhduddur və bu tarixi mühitdə yarımqrupun sifarişçisi olmamasını və ona mühafizəkar planlaşdırma kimi maraq olmamasını göstərir. Sifarişçi artıq öz binasını bütöv hasarlanmış və öz malikanəsində qapanmağını istəmir. O, binanın küçənin qırmızı xəttində tikilməsini və fasadın onun həcm və məkan strukturunda fəal iştirak etməsini, ətraf tikililərin bədii siması olmasını istəyir.

Birinci qrup öz memarlıq və planlaşdırma mövqelərini fasadın uzunluğu boyunca çoxsütunlu portikləri kimi yeni üslublu elementlərin daxil edilməsi ilə, interyerlərin daxili fəzasının bəzək palitrasını genişlədərək, kərpic hörməsinin ornament mövzularından istifadə edərək qorumağa çalışır.

Birinci yarımqrupun memarlıq-planlaşdırma kompozisiyası yaşayış binasının həcm və fəza strukturunun bütün üsulları ilə ənənəvi klassik simmetriyanı saxlayırdı. Lakin yaşayış tikilisinin daxili planlaşdırması otaqların bircərgəli tikilisinin kiçik aralığı sayəsində öz müsbət xüsusiyyətlərini itirir. Əgər bura binanın uzunluğunu və konstruktiv cəhətdən doğ-

rulmuş eninə olan divarların yoxluğunu əlavə etsək, otaqların təmtərağı yox olur, yaşayış və köməkçi qruplara çevrilərək kiçik otaqlarla əvəz olur (121, s. 115).

Planlaşdırma strukturunun dəyişməsi yaşayış evinin və onun daxili məzmununun ənənəvi üsullarının sınması ilə müşayiət olunurdu. Zaman və cəmiyyətdə baş verən ictimai-iqtisadi dəyişikliklər bu tipoloji yarımqrupun inkişafına mənfi təsir göstərib. İkinci mərtəbənin iri pəncərə oyuqlarının ritmi səthi pilyastrlarla və karnizin sakit üfüqi hissələri ilə vurğulanıb. Pəncərənin üstündə ornamentli düzbucaqlı çərçivəli pəncərələr pilyastrlarla birgə divarların açıq üslublu kərpic hörməsi ilə müşayiət olunurdu. Fasadın üzərində memarlıq kütlələrinin sakit ağırlığı mövcuddur, iddiasız yumşaq plastika yaşayış binasının kompozisiyasına çox mühüm element kimi daxil olub və şəhərin tarixi hissəsində fərdi cizgilərini qoruyub.

Lakin Səfərniyanın yaşayış malikanəsi planlaşdırma və tikintinin ənənəvi qanunlarına sadiq qalan qrupa aiddir. Yaşayış evinin daxili həllinin ümumi inkişaf etmiş sistemi ön otağa aparan, iki tərəfi vahid fəza strukturuna birləşdirən, köndələn divarların konstruktiv toru ilə qeyd olunan iki yan yeddi pilləli pilləkənlə təqdim olunub. Planlaşdırma və memarlıq kompozisiyasının mərkəzində üç pəncərəsi ilə fasada baxan sadə ön zal saxlanılıb. Yaşayış evinin sxemi dəqiqdir, pilləkənlərin yan rizalitləri əyani mühit yaradır. Beləliklə, planda bu elementlərin peyda olması fasadın üzərində güclü formalı həcmli plastikaya səbəb olur, xüsusilə binanın mərkəzi hissəsi öz miqyaslı fiziki ölçüləri ilə üstünlük təşkil edir.

Binanın məkan həllinin əsasını təşkil edən həcmli elementlərinin möhtəşəmliyi meydana gəlib. Səfərniyanın evinin fasadında kompozisiyanın ənənəvi strukturunun saxlanmasına baxmayaraq onun quruluşunda yeni dövrün digər notları səslənir. Həcm baxımından dinamik nöqteyi-nəzərindən şərh olunan kürəkciklərin şaquli hissələri və ön zalın pəncərə oyuqlarının hərəkəti ilə daha maraqlı həll meydana gəldi. Pəncərə oyuqlarının sərt haşiyəsi əyrixətli sandriklə həll edilib. Eyni üsul bütün fasad üzrə yarımzirzəmi mərtəbənin pəncərələrində də istifadə edilib. Ön zalın pəncərələri üzərində ənənəyə çevrilmiş düzbucaqlı səthi ekranlar quraşdırılıb. Ustanın, ya memarın planına əsasən elementlər bütün fasad boyu çərçivəyə alınmış mərkəzi hissəni bəzəməli idi. Eyni karniz altında yerləşən girişlər bu kəsikdə həll edilib. Fasadın ümumi kompozisiyasına tabe səciyyəli, lakin iri pəncərə oyuqlarının mərkəzindən öz şaquli oxları ilə yan qanadlar və uzadılmış dayaz taxçalar daxil edilib. Bütün fasad iri miqyaslı əyaniməkan mühitini mütənasib hissələrlə, müvafiq element və formalarla ifadə edir. Ənənəvi şablondan uzaqlaşmaq və yeni forma törəməsini yeni üslub cərəyanında istifadə etmək cəhdi müşahidə olunur. Zaman bədii tərtibin yeni qanunlarını aça biləcək həcmli həllə, memarlıq ideyasına fərqli yanaşma tələb edirdi.

Yaşayış binalarının planlaşdırma quruluşu cəmiyyətdə ictimai-iqtisadi vəziyyətin dəyişməsi ilə birgə dəyişir. Müvafiq mühit yaşayış tikintisində yeni ideya və təkliflərin meydana gəlməsini tələb edir. Ənənəvi üsulların sınması vurğulanmış mərkəzi girişin və ox kompozisiyasının meydana gəlməsinə səbəb olan qərəzsiz hala çevrilir. Sabitləşmiş qanunları pozmamaq üçün planlaşdırma üsullarına tədricən və ehtiyatla yanaşırdılar.

Bunun nəticəsində *dördüncü tipoloji qrupun ikinci yarımqrupunda iki seksiya* üzə çıxır: biri faktiki olaraq səciyyəvidir,

digəri bir qədər mürəkkəbləşdirilmişdir, lakin memarlıq baxımından hər iki seksiya eyni üslub sisteminin tərəfdarıdır.

Səciyyəvi seksiya daha səciyyəvi planlaşdırma üsullarının himayəsi altında inkişaf edirdi. Burada mərkəzi giriş hissəsi əsas köndələn divarlarla məhdudlaşdırılmış böyük zala çevrilir, solda böyük otaq, sağda uzadılmış düzbucaq formalı əsas zal yerləşir. Böyük zaldan pilləkən ikinci mərtəbəyə və köməkçi otaqlara aparır. Mərtəbələrin planı eynidir.

İmaninin yaşayış evi bu qrupa aiddir, şəhərin tarixi məhəllələri olan rayonda yerləşir, o dövrə xas olmayan nadir xüsusiyyətə malikdir – baş fasadı sahilə çıxan küçəyə yönəlib. Binanın planı düzbucaqlı formadadır. Giriş bilavasitə geniş dəhlizdən ikimarşlı pilləkənə aparır. Birinci mərtəbədə yaşayış, köməkçi otaqlar və mağazalar yerləşir. İkinci mərtəbədə dəhliz əsas və digər otaqları birləşdirən geniş zala çevrilib.

Baş fasadda mərkəzi yeri portal formasında olan vurğulanmış giriş, ikinci mərtəbədə isə balkon tutur. Memarın bütün diqqəti maraqlı memarlıq-dekorativ kompozisiyasını ifadə edən fasadın ox hissəsində cəmləşib. Portalın kərpic profilləşdirilmiş hörgüsü qutu formalı tağla birgə, timpanın ənənəvi formalarda doldurulması fasadın memarlığı üçün daha əlverişli mühit yaradır. Fasadın mərkəzinin kompozisiyası ikinci mərtəbədə inkişaf edir, ənənəvi üsulların qaydaları eyvanın qapı oyuğunun üzərindəki timpanın doldurulması ilə qorunur.

Fasadın kompozisiyasında eyvanın tərtibinə mühüm yer verilib, iki incə taxta sütunlar inkişaf etmiş karniz talvarının dekorativ tağını saxlayır. Fasadın memarlığında yeni üslublu həcm və fəza elementi əhəmiyyətli dərəcədə binanın kompozisiyasını zənginləşdirib və bədii səslənmə verib.

Şübhəsiz, memarlıq-planlaşdırma strukturunda bu müddət ərzində ölkədə baş verən ictimai-iqtisadi şəraitə görə əhəmiyyətli dəyişikliklər baş verdi. Lakin bina şəhərin memarlıq irsində öz mövqeyini qoruyur və Təbriz memarlığının milli xüsusiyyətlərinə diqqətli yanaşma tələb edir.

İki girişli yaşayış evlərinin planlaşdırmasının dəyişməsi nəticəsində, otaqların təbəqələşməsində bu bölmənin daxili strukturuna fərqli istiqamət verilirdi. Həmişə mərkəzdə yerləşən ön zalın yeri dəyişdirilir və yerləşdirmənin dinamikası öz əhəmiyyətini itirir. Belə həllin nəticəsində əvvəlcə şahnişinin daxili divarına kimi çatan işıqlanma iki pəncərəli ön zalın dərinliyinə görə yarıqaranlıq qalır.

Fasadlar dayaz səciyyəlidir, zəif profilli haşiyələrlə və ensiz kürəkciklərlə məhdudlaşıb, işıq və kölgənin sayəsində divarın kərpic hörməsinin monotonluğunu sındırır və xüsusi emosiya yaratmır. Açıq üslublu iki yan pilləkən marşının ox yerləşməsinə baxmayaraq bölmədə fasadın şərhində aydın pozulma baş verir. İran memarlarının sitayiş etdikləri klassik simmetriya kiçik ölçülü fasadın üzərində pozulub. İkimərtəbəli bina birinci mərtəbədə kürsü ilə vurğulanıb, sandriksiz pəncərə oyuqları yerləşib. Lakin ikinci mərtəbədə mərkəzi ox üzrə səthi taxçaya salınmış geniş düzbucaq pəncərə fasadın üzərində öz vəziyyəti ilə üstünlük təşkil edir. Yan pəncərələr mərkəz baxımından tabe səciyyəlidir, lakin müsbət memarlıq funksiyalarını həll edir. Torpaqlı və əkinli səliqəli həyət fəza mühitinin təşkilində fəal iştirak edir (121, s. 115).

Başqa bir nümunə olan Cavadinin bircərgəli otaqlardan ibarət yaşayış evi eyni istiqamətdə, lakin daha fəal formada inkişaf edir. Fasadların asimmetriyası simmetriyadan açıqca daha səmərəli olur, çünki binaların planlaşdırmasında



*Təbriz. Kavkabə Səlami yaşayış evinin ön görünüşü.*

kompozisiya üsullarının yer dəyişməsi baş verir və küçəyə nisbətən həcmli həllin qapalılığı yox olur.

Dar dalan yaşayış binasının girişi yerləşən alçaq platformaya aparır, həyət küçədən üç pilləkən aşağı yerləşir. Bu vəziyyət fasadın inkişafını belə istiqamətdə müəyyənləşdirdi. Fasadın memarlığı uzadılmış yarımdairəvi formalı giriş oyuğu və kürəkciklərin ritmi sayəsində hərəkətli hal alıb. Kürəkciklər kəsilməsi və mərtəbələrarası dartı qüvvəsinə çatmaması fasadın ümumi kompozisiyasının kəskinləşməsinə gətirib çıxardır. Kərpic elementlərindən olan karnizin geniş zolağı kürəkciklərlə bir kontekstdə fasadın memarlıq kütlələrinin əhəmiyyətini ifadə edir. Kompozisiya şaquli kürəkciklərin ritmini təkrarlayaraq, binanın həcminin incə plastikliyini açaraq güclü profilləşdirilmiş pəncərə oyuqlarının hesabına daha da zənginləşir.

Həcm baxımından böyük olmayan yaşayış binalarının planlaşdırmasında yeni vacib elementlər meydana gəlir, mərkəzi ox əsas divarlara daxil edilmiş üçmarşlı əsas pilləkənlə bərkidilir. İkicərgəli otaqlar olan tikilidə yaşayış otaqlarının sahəsini əhəmiyyətli dərəcədə azaldan pilləkən xüsusi yer tutur. Sifarişçi hətta yaşayış sahəsinin itirilməsi hesabına olsa belə, öz evində əsas pilləkənin olmasını təcrid edirdi. Pilləkən qəfəsinə binanın Təbriz evləri üçün səciyyəvi olan yapma və zərlə bəzədilmiş gözəl interyeri açılan əsas girişindən daxil olurdular.

Baxılan yaşayış evi planlaşdırma baxımından əvvəlki bölmənin daha təmtəraqlı variantlarından biridir. Ev köndələn konstruktiv divarlarla tikilib və üç şöbəyə bölünüb. Klassik simmetriya həm planlaşdırmada, həm fasadın şərhində mərkəzi hissə ilə vurğulanan yaşayış evində yenidən öz gücünü göstərir.

Əsas girişdən böyük zal və qoruyucu otaqlarla mərkəzi üçmarşlı pilləkən açılır. Zirzəmili ikimərtəbli yaşayış evi fasadın daha əlverişli memarlığı nöqteyi-nəzərindən qarşımıza çıxır. Planlaşdırmaya əsasən üç bölməyə bölünmüş yaşayış evi dəqiq və kompozisiya baxımından fasadın səthində cüt kürəkciklərin şaquli hissələri ilə, həmçinin kürsülüyün və yuxarı mərtəbənin üfüqi taxçaları ilə bərkidilib.

Fasadın funksional karkas toru əmələ gəlir, iki mərtəbədə şaquli üslublu pəncərə oyuqları daxil edilib: biri mərkəzdə və yan

qoşa pəncərələr. Pəncərə oyuqlarının və girişin üzərində inkişaf etmiş sandriklər və üçbucaq şəkilli kərpic zolağı yerləşir. Həcm və fəza sistemi kərpic hörməli inkişaf etmiş karnizlə bitir.

Burada yaşayış binası açıqcasına həm planlaşdırma, həm də memarlıq nöqteyinəzərindən Təbriz şəhər tikililəri sırasına uğurla daxil olan yeni təşkiletmənin üslub cərəyanında həll edilib. Memarın yeni kompozisiya üsul və elementlərini özünəməxsus tərzdə ifadə etməklə yanaşı kərpic hörməsi ilə ənənəviyə olan münasibəti qorumaq cəhdi tərifə layiqdir.

Bu yarımqrupun ikinci bölməsi planlaşdırma baxımından bir qədər mürəkkəbləşmiş nümunələrlə təqdim olub. Mərkəzi ox kompozisiyasını qoruyaraq yaşayış evlərinin planlaşdırması yeni məzmun əldə edir. İkicərgəli otaqlardan ibarət tikili dəqiq köndələn divarlarla daxili məkanın açılmasında binanın əsas girişinin baş pilləkəni vasitəsilə inkişaf edir. Tikilinin üz tərəfi genişlənir və mərkəzi hissə dərin rizalit şəklində qabağa çıxarılır. Planlaşdırma strukturuna fasadın kompozisiyasını həll edən tamamilə yeni fəza elementi gətirilir. Yuxarı mərtəbə bütövlüklə anfilad sistemli ön otaqlarla tutulmuşdur və fasadı ilə həyət məkanına yönəlib. Bitişik hissə yan kiçik otaqları olan geniş zalda yerləşən pilləkən qəfəsinə ayrılıb. Maraqlıdır ki, bu hissə pəncərə oyuqlarının vasitəsilə birbaşa işıqlandırılır, oxlar baş fasadın pəncərələrinin oxları ilə üst-üstə düşür.

Fasad simmetrik kompozisiyanı saxlayaraq sərt formalarla tikilib. Həndəsi formalı çox qabağa çəkilmiş rizalit bütün kompozisiyanın inkişafını təzadlı əsaslarla müəyyən edib. Xüsusilə, divar mövzusu aralı qoyulmuş pəncərələr sayəsində fasada möhtəşəmlik və mənalılıq verir. Divarlara dekorativ tamam-



*Təbriz. Yaşayış evinin planı, fasadı və kəsiyi.*

lamalı plastiklik verilib. Rizalit yan hissələrdən hündürdür, lakin həcmli kompozisiyasının fərqli görünüş almasına bu kifayətdir, nəinki fasadın karnizi bir xətdə inkişafından (45, s. 174).

*İkinci yarımqrupun nümunələri* yaşayış binalarının planlaşdırma və memarlığı milli irsə nisbətən tədricən mülayim rasionalizm tərəfinə yönəlməsini göstərir. Nə daxili planlaşdırma, nə memarlıq forma və elementlərinin yerli evlərin ənənəvi üsullarını əks etdirmir.

Pilyastrların şaquli hissələrinə üstünlük verilir, mütənasiblik Avropa memarlığının kompozisiya üsullarına qətiyyən uyğun gəlmir. Bu memarları çaşdırmır, onlar memarlığın bu növ xüsusiyyətlərini nəzərə almırlar və ənənəvi olaraq onlara yaxın və aydın olan pəncərə oyuqlarının üstündə dekorativ mövzular istifadə edirlər.

Ustaların məharətlə işlətdiyi kərpic hörməsi müxtəlif variantlarda yaşayış evlərinin fasadları üzərinə mülayim oturur. Küknar şəkilli hörmə fon təşkil edir və onun üzərinə fasadın plastikasını və bədii istiqamətini zənginləşdirərək əyrixətli qabarıq bəzək mövzuları qoyulur.

Yeni üslub cərəyanının maraqlı nümunələrindən biri planlaşdırma və memarlıq kompozisiyası baxımından çox orijinal şərh olunan yaşayış evidir. Portikli, vurğulanmış mərkəzi giriş ön otağa aparır, sonra üçmarşlı pilləkənli böyük zal erkerli zala açılır. Binanın hər tərəfi fasaddır və bu XIX-XX əsrlərdə Təbrizdə nadir hal idi (56, s. 238).

İmarət yeni üslubludur, plan üzrə yığcamdır və əyani həyət mühitində həcm və fəza kompozisiyası ilə ifadə edilib. Yaşayış evinin daxili planlaşdırmanın səciyyəsini şaquli kürəkciklərlə vurğulayaraq, bu istiqamətdə baş fasad ümumi mövzunu inkişaf etdirir. İki mərtəbəsində pəncərə oyuqları ilə bir sıra şöbələrə bölünən fasad sağda tilli erkerlə tamamlanır, birinci mərtəbədə həyət məkanına çıxışı var. Fasadın belə kompozisiyası ilk dəfə istifadə olunur və memarlıq mühitinin dəyişdirilməsində onun əhəmiyyəti genişlənir.

Arxa fasadın həlli son dərəcə ciddidir, lakin mərkəzi ox və giriş yarımdairəvi daş hörməlidir, ənənəvi kərpic divarın fonunda dayaz damın üstündə yüksəlir. Yan və baş fasadlar memarlıq nöqteyinəzərindən qutu haşiyəli pəncərə oyuqlarının ritmini və şəklini təkrarlayaraq həmahəng işləyirlər.

Belə fasadların mövcudluqu şəhərin memarlıq inkişafında yeni mərhələni göstərir, eyni zamanda Təbrizin tarixi məhəllələri mühitində mənfi hal olan yerli memarlığın xüsusiyyətlərinin itirilməsini xəbər verir.

*Dördüncü tipoloji qrupun üçüncü yarımqrupu* planlaşdırma baxımından deyil, həcm və məkan baxımından daha məzmunludur, çünki portikli geniş inkişaf etdirilmiş kompozisiya mövcuddur. Onlar fasadların qoruyucu hissələrinə ikisütunlu ikimərtəbəli mərkəzdə dördsütunlu portik formasında yaşayış məhəllələrinin tarixi strukturuna XIX əsrin ortalarında inamla daxil olmağa başladılar.

Yaşayış binalarının strukturuna portiklərin daxil edilməsi İran üçün yeni deyil, hələ Əhəmənilər, Səfəvilər və s. dövründən tətbiq olunurdu. Burada portiklər binaların həcmli həllinin tamamilə fərqli istiqamətində iştirak edirlər. Mahiyyətinə görə xəfifliklə seçilən portiklər bir qədər dekorativ-pavilyon səciyyəsi daşıyır, yaşayış binalarının həcmi-məkan və memarlıq məzmununa fəal təsir göstərirlər (119, s. 76).

Fasadların işlənməsində arxitrav üsullarla yanaşı, yaşayış binalarının kompozisiya strukturunu formalaşdıran üçtağlı və həmçinin qutu çevrəli portiklər istifadə edilirdi.

İkimərtəbəli yığcam yaşayış binası malikanənin kiçik bir hissəsində yerləşir və səliqəli həyət məkanından ibarətdir. Evin planlaşdırması uzununa və eninə olan əsas divarların əsasında tikilib və ikicərgəli otaq tikilisi təşkil edir. Köndələn yerləşən otaqlar qabağa çəkilib və onların arasındakı fəzanı ikisütunlu arxitrav portik tutur. Mərkəzi oxda yerləşən iki girişli üsuldan fərqli olaraq bu binada giriş balaca bölüşdürücü zala aparan yan sektorda yerləşir. Pilləkən marşları içəridə planlaşdırma baxımından rahat olan uzununa olan tikilinin künclərində yerləşir.

Fasadlarda irəli çəkilmiş yan rizalitlər portikin əmələ gəlməsinə təbii surətdə kömək edir, fasadın memarlıq kompozisiyasının əsas aksentidir. Təbrizin yaşayış evləri üçün səciyyəvi olan incə, yumru kəsilmiş sütunlar binanın memarlıq simasına üslublaşdırılmış kapitelləri və hündür daş təməli ilə tamhüquqlu elementlər kimi daxil olmuşdurlar. Sütunların üstündən arxitravın təmiz tiri keçir, onların üstündən frontonun kərpic hörməsi yaşayış evinin yan rizalitlərini konstruktiv şəkildə birləşdirir. Portikin içərisində ikinci mərtəbənin pəncərə oyuqları uzadılmış düzbucaq formalı əsas zalı işıqlandırır. Planlaşdırmanın ənənəvi elementi olan şahnişin tədricən interyerin milli elementləri tərkibindən çıxaraq sıravi, lakin böyük otaqlara yer verdi.

Yan ikirəngli rizalitlər yeni üslub cərəyanın formalaşması prosesində yaranan fərdi kompozisiya üsullarına malikdirlər. Pəncərə oyuqlarının şəkli, dayaz taxçalar, fasadın üzərində şaquli kürəkciklərlə çərçivələnmiş haşiyələr yaşayış evinin ümumi strukturuna güclü təsir göstərən memarlıq aksenti yaradır. Təbriz şəhər tikililərinin memarlıq simasının inkişafı üçün vacib olan rizalitli portik forma törəməsinin yeni şəklini təşkil etdi (201, s. 591-599).

Müxtəlif kompozisiya üsullu sütunlu portik şəhərin əyani-məkan strukturuna davamlı surətdə daxil oldu və yaşayış evlərinin bədii görkəmini zənginləşdirdi. Fasadların üzərində incə işlənmiş taxta detallı, rəngli şüşəli böyük vitrajların üstünlük təşkil etdiyi yaşayış binalarının

*Təbriz. Hacı Şeyx yaşayış evinin ön görünüşü.*



*Təbriz. Cameli yaşayış evinin planı, kəsiyi və fasadı*



*Təb riz. Sərayi-Əmin yaşayış evinin planı və fasadı.*



ənənəvi üsullarını tamamilə yeni forma və elementlər əvəz etdi. Onlar memarlıq mühitindən ənənəni çıxardaraq milli irsin vərəsəliyini və inkişafını dayandırdılar.

Yuxarıda baxdığımız yaşayış evinin nümunəsi digərində təkrarlanır, lakin ümumi planlaşdırma üsullarının saxlanmasına baxmayaraq fasadın kompozisiya həlli fərqlidir. Yaşayış evi plan üzrə rizalit təşkil edən vurğulanmış köndələn divarları olan ikicərgəli otaqlarla tikilib. Beləliklə, binanın içində üçmarşlı pilləkən qəfəsi olan mərkəzi ox sistemindən ibarət kompozisiyalı planlaşdırma bölməsi yarandı. Rizalitlərin arasında ikimərtəbəli cüt sütunlu portik quraşdırılıb. Aşağı mərtəbə ölçülərinə və hissələrinə görə tabe səciyyəsi daşıyır. Yuxarı mərtəbə təntənəli formadadır, korinf orderli sütunlar aşağı yoxuş oxu olan qutu üslublu tağı saxlayırlar. Bu dörd üsulla portikə və kompozisiyanı itiləşdirən və gözəlləşdirən memarlıq kütlələrinin hərəkətinə xüsusi profil verilib. İkinci mərtəbənin portikinin arxasında yerləşən pəncərə oyuqları tağların ümumi şəklini və profilini təkrarlayır və bununla yaşayış evinin xarici və daxili arasında müəyyən qarşılıqlı əlaqə yaradır. Burada karnizin ümumi xətti portiki rizalitlərlə birləşdirir və klassik simmetriya sistemini saxlayır.

Yaşayış binası planlaşdırma həllinin qeyri-adiliyi nöqteyi-nəzərindən əhəmiyyətli dərəcədə maraq doğurur. Açıq üslublu ikitərəfli pilləkən mərkəzi girişli portikin meydançasına aparır. Planlaşdırma beş köndələn bölmə üzərində qurulub, mərkəzdə geniş zal, qoruyucular isə yaşayış və köməkçi otaqlar qrupu ilə tutulub. Ev içəri tərəfə inkişaf edir və girişlə üzbəüz divarda yerləşən bütün otaqların pəncərə oyuqları var. Beləliklə, yaşayış evi bir tərəfdən küçəyə baxır, digər tərəfdən yaşayış tikilisinin sahəsinə bərabər həyət yerləşir.

*Təbriz. Şərbət oğulları yaşayış evinin planı, kəsiyi və fasadı.*



XIX-XX əsrlərdə şəhərin tarixi hissəsində yaşayış evlərinin sahələri azalır və parçalanma sahiblərin ümumi saxlanma xərclərinin azalması hesabına həyata keçir.

Bu yarımqrupda fasadın üzərində inkişaf etmiş portiki olan iki nümunə mövcuddur: birincisinin planlaşdırması ənənəvi üsulla həll edilib, yəni iki girişlidir, ikincisi isə mərkəzi ox sistemli girişlidir. Planlaşdırma baxımından birincinin otaqları bir cərgə ilə yerləşib, ikincisininki isə iki cərgə ilə. Ənənəvi olanda mərkəzi yerdə şahnişin yerləşir, lakin vitraj kompozisiyası pəncərələrin şaquli oyuqları ilə əvəz edilib.

İkincisində, planlaşdırma köndələn və eninə olan divarlara bölünüb və yaşayış üçün müəyyən daxili və geniş mühit yaradır. Burada girişin oxunda yerləşən üçmarşlı pilləkən qəfəsi mərkəzi mövqe tutur, ikinci mərtəbənin yeni üslublu baş zalına çıxışları var.

Ənənəvi memarlıq kompozisiyası Təbrizə portikin mürəkkəbləşmiş forması ilə qutu şəkilli tağları olan fasadın bütün eni boyunca order sisteminin qanunları əsasında qurulub. Portikin mərkəzi hissəsi korinf kapiteli ilə tamamlanan sütunlarlı beşaralıqlı tağ sistemi ilə təqdim olunub. Portikin sütunlarının hərəkəti formalaşmış üslub strukturu ilə yeni kompozisiya üsullarının imkanlarını nümayiş etdirir və evlərin fasadlarının həllində yerini möhkəmlədib. Poritikin beştağlı bölməsi fasadın bir girişdən digərinə kimi şahnişinli zalın iri şaquli üslublu pəncərə oyuqları olan hissəsini əhatə edir (10, s. 319)

Lakin fasadın yan qanadları cüt sütunlu və üfüqi hissəli ikimərtəbəli portikin xüsusiyyətlərini əldə edib. Memar belə kompozisiya forması ilə usandırıcı uzadılmış fasadı yumşaltdı və eyni zamanda forma törəmə qanununu yeni ifadə vasitələri ilə gücləndirdi.

Kavkab Alsaltanin yaşayış evi həmçinin order sistemi əsasında tikilib, lakin tamamilə fərqli memarlıq kompozisiyası ilə. Burada şaquli və üfüqi hissələr memarlıq kütlələrinin həcmli şərhi ilə birgə hərəkət edirlər.

Yaşayış evinin fasadı bundan əvvəlki ilə müqayisədə daha ciddidir və mərkəzi ox sistemli əsas girişlə üç şaquli hissəyə bölünüb. Fasadın mərkəzi hissəsi arxitrav profilləşdirilmiş karnizi saxlayan uzadılmış sütunlarla əsas həcmin üzərindən çıxaraq, sonra yan seksiyalara keçərək vurğulanıb.

Portikin üstünlük təşkil edən hissəsi fasadın yan seksiyaları ilə ikimərtəbəli hissələr və cüt sütunlar vasitəsilə bərabərləşdirilib. Mərkəzin və qoruyucu bölmələrin üfüqi hissələri üst-üstə düşür və belə üslub cərəyanında həll edilmiş fasadın memarlıq kompozisiyası abadlaşdırılmış həyət fəzasının önündə təntənəli formada çıxış edir. Əyani mühitin ümumi görünüşü sahibin və qonaqların gözünü oxşayırdı.

Dördüncü tipoloji qrup və bir neçə yarımqrup Təbrizin daha nüfuzlu tarixi hissəsində irəli sürülüb. Onlar da öz növbələrində ənənəvi və yeni üslub cərəyanının maraqlı memarlıq-planlaşdırma və həcmi-məkan nümunələri yaradıblar. Qrupda şəhər yaşayış tikintisində yer tutan və memarlıq irsinin ənənələrini əhəmiyyətli dərəcədə çıxardan kompozisiya üsul və elementlərinin xüsusiyyətləri açılır.

Yaşayış binalarının fasadlarında müxtəlif portiklərin əmələ gəlməsi yerli memarların bədii palitrasının inkişafına imkan yaradırdı. Onlar müəyyən dərəcədə memarlığın ənənəvi üsullarını yeni üslub cərəyanı ilə uyğunlaşdırmağa, keçmişin cizgilərini əks etdirməyə çalışırdılar.

Memarlıqda avropalaşdırma və üslublaşdırma axını gözlənildiyindən daha güclü oldu. Yaşayış evlərinin planlaşdır-

masında yeni, səciyyəvi olmayan üsullara tabe olaraq, memarlar fasadların, otaq interyerlərinin və pilləkən qəfəslərinin memarlıq həllində şəhər əhalisinin xoşladığı memarlıq üsulunun əsarətinə düşdülər.

Billürçianın yaşayış evini bu nümunələrə aid etmək olar, hündür kərpic hasarlıdır və dar küçədə yerləşir. Yalnız inkişaf etmiş portal hasarın arxasında imkanlı şəxsin imarətinin yerləşdiyini xatırladır.

Portalın memarlıq həlli İranda Qacarlar dövründə yerli və Avropa memarlıq məktəbi toqquşaraq bir-birinin prinsip mövqelərini mənimsədikləri zaman baş verən üslub halını əks etdirir. Bunun nəticəsində ənənəvi tərzdə bəzənmiş və toskan orderli cüt sütunlu portal meydana gəldi. Portalın kompozisiyası yerli tərzdə şərh edilib: kvadrat formalı divara girişlə eyni sxemdə bölünən soğanaq formalı taxça əlavə edilib. Bütün strukturu profilləşdirilmiş karnizli iki kərpic kürəkcikləri ilə haşiyələnir, yan hissələrdə arxitravın cıxıntılı elementləri ilə davam edir (5, s. 79).

Şaquli üzrə portalın kompozisiyasını qabarıq hörgülü dirəklər və formasına volyuta daxil edilmiş əyrixətli profilləşdirilmiş fronton tamamlayır. Bu mürəkkəb səciyyəli kompozisiya əslində memarlıq üsullarının əsas qanunlarını nəzərə alaraq çox dəqiq həll edilib.

Portalın bütün səthləri böyük məharətlə, kərpic ornament mövzularının yerli ənənəvi xüsusiyyətlərini bilərək doldurulub. Ənənəvi olan kərpic "xalça" öz icra sahəsinə daxil olur. Portalın həndəsi mövzularının müxtəlifliyi, ornamentlərinin parlaq şəkli, onların yüksək səviyyədə incə icrası onu Təbriz şəhərinin XIX əsrin ikinci yarısının maraqlı nümunələrinə aid etməyə imkan verir. Burada eklektika mövcuddur, kompozisiyanın səciyyə və forması portalın mənşəsini göstərir. Lakin bu ətraf tikililərin memarlıq mühitinin dəyişməsində onun bədii əhəmiyyətini qətiyyən azaltmır.

Şərqdə tikililərin memarlıq-planlaşdırma kompozisiyasının vacib xüsusiyyəti kimi qəbul edilən dəqiq ox simmetrik sistemli imarət sahənin içəri hissəsində yerləşir.

Taxta sütunların üzərindəki lotosşəkilli kapiteldən və yan rizalitdən ibarət üçtağlı portik ciddi təmtəraqlı formaya malikdir. Yerdən bir pilləkən hündür olan portik sanki həyət fəzasını inkişaf etdirir və ona müvafiq şərh verir. Divarın kərpic hörməsinin fonunda kapitelli ağ sütunlar şama bənzəyir, yarımdairəvi formalı incə çevrəli tağlar ucalır. Portikin qeyri-tektonikliyi və qeyri-konstruktivliyi bundan irəli gəlir, onun incə memarlıq kompozisiyası gözəl teatr dekorasiyası kimi xidmət göstərir.

Portikin arxasında yerləşən divar əzəmətli formada ifadə olunub. Şaquli və üfüqi xətlərlə səciyyəvi dayaz taxçalara bölünən divarlarda vitrajlı yarımdairəvi formalı böyük pəncərə oyuqları var. Divarın yuxarı və aşağı hissələri dekorativ səthli tağlarla tərtib edilib. Mövzu yetərincə tanınmışdır, lakin şəhər yaşayış tikintisində tez-tez müşahidə olunmur. Portikin və divarın maraqlı memarlıq kompozisiyasının ifadəliyi valehedici hiss doğurur. Memarlığın həqiqi bədii palitrası məhdud vəsaitlərlə əldə edilmişdir.

Kurdoner halında həll edilən П-şəkilli *beşinci planlaşdırma qrupu* maraqlı tipoloji qrupuna aiddir və təntənəli kompozisiyanı təqdim edir. Şərbətzadə, Salmasi, Gadeki, Həməzad, Hacı Cavad, Hacı Şeyx və digər yaşayış malikanələri müxtəlif variantlı daxili həll ilə bu qrupa daxildir.

Bu qrupu həcm baxımından birmərtəbəli və ikimərtəbəli yarımqruplara

bölmək olar. Yaşayış binasının sahəsində və fasadın uzunluğu ilə bir mərtəbədə yerləşərək yaşayış malikanəsinin strukturunda hakim mövqe tuturlar. Onlar bina planlaşdırmasının açıq üslublu qoruyucu pilləkən, daxili dəhliz və şahnişinli əsas otaqdan ibarət ənənəvi üsulu təqdim edirlər.

Yaşayış binalarının müxtəlifliyi sifarişçilərin öz malikanələrinə olan münasibətini vurğulamağa, fərdi yanaşma nöqteyi-nəzərindən baxmağa, eyni zamanda əxlaqi və etnik qanunlarının müəyyən tələbləri olan cəmiyyətdə formalaşan şəraitlə hesablaşmağa imkan verir.

Hacı Cavadın yaşayış binası genişdir, mənzil üslublu bölünüb, baxmayaraq ki, onlar bütün otaqlarla anfilad sistemi ilə bağlı olsalar da tədric olunmuş girişləri var. Köməkçi qrup binanın səkkizguşəli ənənəvi zaldan olan girişinin yaxınlığında yerləşir. O dövrdə Təbriz üçün səciyyəvi olmayan yaşayış binalarında müstəqil bölmələr yaradan planlaşdırmanın meydana gəlməsi maraq doğurur. Bina planlaşdırma strukturuna görə daha çox karvansaranı, ya mehmanxana üslublu qonaq evini xatırladır, təşəkkül və formalaşma mərhələsini keçir.

*Təbriz. Şərbət oğulları yaşayış evinin planı.*



Binanın memarlığında yerli ənənələrin əlamətləri yoxdur, yalnız tikinti materialı kimi istifadə olunan yanmış kərpic Təbriz şəhərində həcmsiz və konstruktiv formalarsız tikililəri xatırladır. Karniz kərpiclə işlənilib. Qapı və pəncərə oyuqlarının yarımdairəvi formaları yeni üslubda işlənib, şəhər memarlıq ideallarının itkisini əks etdirir. Qədim şəhərdə güclü olan mənfəətpərəstlik bütün sahələrdə, o cümlədən memarlığa da təsir göstərdi.

Yaşayış memarlığının bir çox abidələri kimi, Şərbətoğlunun yaşayış evi də şəhərin tarixi hissəsində yerləşir, məşhur Təbriz bazarına nisbətən yaxın yerləşir. Yaşayış evinin düzbucaq sahədə yerləşməsi daxili planlaşdırmanın rahat təşkilinə imkan yaratdı. Bina küçə tərəfdən bir mərtəbə aşağı salınıb. Planlaşdırma köndələn divarlar vasitəsilə həll edilib. Binanın mərkəzi hissəsində əsas pilləkənin yerləşməsi geniş zalın və otaqlararası əlaqənin yaranmasına imkan yaradır. İlk iki və zirzəmi mərtəbələr yaşayış evinin planlaşdırmasının əsaslı mövqesini və həyət məkanında təşkilini qoruyub saxlayır.

Küçəyə baxan fasad yerli kərpic memarlığı əsasında qurulub, oyuqlar qutu tağlıdır. Şaquli kürəkcikli dayaz taxçaların sxemi fasadın əsas strukturunu sadə hissələrlə və fronton üslublu kəsik tamamlanma ilə həll edir.

Əsas ikimərtəbəli fasad uzadılmış formalı hovuz və qoruyucu qazonları olan səliqəli həyətə baxır, qutu tağlarını saxlayan korinf kapitelli yüngül üslublu sütun-

lardan ibarətdir. İncə cüt sütunlar fasadın memarlığının əsasını təşkil edir. Təbrizdəki korinf sütunlar klassik variantın mütənasib mahiyyəti pozulan yerli şərh əldə edib.

Sütunun quruluş əsasını malalanan və müvafiq forma alan şəkli dəyişdirilmiş taxta, kəsikdə yumru dirək təşkil edir. Korinf sütunları müxtəlif formalı tağlarla əhəmiyyət əldə etdi və şəhərin bir çox yaşayış evlərinin kompozisiya strukturuna daxil oldu. Fasadın bu kompozisiya üsulu əsasən Təbriz şəhərində birincilik təşkil edir və İranda ümumi qayda kimi qəbul edilib.

Portikin sütunları arxasında fasadın divarı ikinci mərtəbədə profilləşdirilmiş haşiyələrlə incə çərçivələnmiş və həmçinin birinci mərtəbədə düzbucaq formalı oyuqlardan ibarət üçlaylı pəncərə oyuqlarının formaları ilə memarlıq strukturu əldə edib. Üfüqi hissələrin sadə profilləri və inkişaf etmiş tamamlayıcı karniz maraqlı memarlıq kompozisiyasını tamamlayır.

Zirzəmi mərtəbəsində ənənəvi memarlıq formaları, üsulları və elementləri geniş surətdə və azad istifadə olunub. Stalaktit şərhli çatma tağlar, qübbə və günbəzlər çoxyaruslu formada milli ruh atmosferi yaradır, memarlıq irsinin varlığı onun inkişafını möhkəmlədir və ənənədən var gücü ilə istifadə etməyə imkan yaradır.

Şərbətoğlu binası bərpa olunmuş halda və memarlıq əsəri kimi qarşımızda durur. Təbrizdəki "Miras Fərhəngi" evinin bərpasına başlayanda o xoşagəlməyən şəkildə idi: hər tərəfdə uçmuş tavanlar, tağtavanlar, tağlar və sütunlar. "Miras Fərhəngi"nin bərpasına başlamaq üçün onun rəhbərliyinə böyük cürət lazım idi. Yerli, qabiliyyətli ustalar qoyulmuş məsələnin öhdəsindən əla gəldiklərindən peşəkar iftixar hissi keçirdirlər. Binanın keçmiş vəziyyətini görən qonaqlar onun yeniləşdirilmiş halını seyr etdikdə əsl estetik həzz alırlar.

Digər nümunədə ənənəvi planlaşdırma qanunları qorunub, lakin fasadın üzərində pəncərə haşiyələrinin Avropa memarlığından götürülən tamamilə başqa oyuq formaları və işlənməsi görünür. Binanın ümumi simasında onun mənşəsini göstərən yerli əyani-məkan mühitini görmək olmur. Baxılan binalarda mili irs əlamətlərinin olmaması ənənənin varisliyini istifadə etməyə can atmamağı və cəmiyyətin həyatında gerçək şəraitin əksi deməkdir.

Birmərtəbəli fasadı uzanmış bina simmetriyanın ox sistemini qoruyub, lakin pəncərə və divarların üstünlük təşkil edən yarımdairəvi oyuqları və fasadın əsas xəttindən bir qədər çıxan dördtağlı portik yaşayış binalarının əvvəlki qanunları əsasında tikilib. Portik fasadı yan qanadlarından hündürdür, onun memarlıq kompozisiyasında üstün element kimi yeri dəqiq müəyyənləşib. Yalnız artıq Təbriz, uzanmış kapitellərinə çevrilmiş korinf kapitelli sütunlar yeni üslub cərəyanını qoruyaraq fasadın ümumi kompozisiyasında yerli memarlıq simasını təşkil edirlər.

Yaşayış binalarının göstərilən memarlıq-planlaşdırma nümunələri memarlığın başqa zəminə keçirilməsi mövcud olan mühitə müvafiq mənimsənmədiyində anaxronizmlə nəticələnmə qanununu təsdiqləyir. Buna baxmayaraq, Təbrizin tarixi məhəllələri forma və məzmunca maraqlı olmayan binalarla tikilirdi.

Zəngin milli irsə malik şəhərin tarixi məhəllələrində Avropa memarlığının üsul, forma, element və mövzuların istifadə edilməsinə baxmayaraq, beşinci tipoloji qrupun ifadəli tikililəri də az deyildir. Memarlar üslub strukturunun əsas qanunlarını dərk etdilər, yerli mühitə daxil oldular və öz tikililərində

ənənəvi xüsusiyyətlərin əsasında yeni memarlıq ifadəsini həyata keçirdilər. Oyuqların hərəkəti, fasadın şaquli və üfüqi hissələri tamamilə fərqli həll edilib. Memarlar bu binalara var gücü ilə açılan və məhz bu atmosferdə yaranan fərqli memarlıq məzmunu alan yerli harmoniyanın təkrarolunmaz mənasını gətiriblər. Şəhər tikililərinin milli irsə çevrilmək üçün möhtac olduqları həm fasadların həllinin plastikasında, həm memarlıq elementlərində məharətlə istifadə edilmiş yanmış kərpic əhəmiyyətli rol oynamışdır.

Beşinci tipoloji qrupun ikinci yarımqrupu memarlıq-planlaşdırma baxımından daha inkişaf etmiş formada təqdim olunub və yeni üsul və formalaşmış ənənəvi üsulların arasındakı qarşılıqlı əlaqəni daha azad nümayiş etdirir. Öyrəncəli mühiti saxlamaq və müasir planlaşdırma imkanlarından istifadə etmək cəhdi bu istiqamətdə maraqlı nümunələr yaradırdı. Yaşayış malikanələrinin yığcam planları, tikilinin həyət fəzasına nisbətən uyğunluğu, onların sərhədlərinin həndəsi dəqiqliyi daxili planlaşdırma strukturunu müəyyən etdi.

Həriri, Salmasi, Şərbətoğlu, Kavhab Salni imarətləri ümumi qanunlara əsasən yeni üsullar yaratdılar və yerli xüsusiyyətlərin mahiyyətini genişləndirdilər. Çatma tağların timpanlarında taxçaların arasındakı şaquli səthlər gül mövzuları ilə işlənibdir.

Xalça süjetli naxışlarla bəzənmiş plafona keçid üçyaruslu mürəkkəb üslublu stalaktit karnizdən keçir. İnteryerin rəng ahəngi isti çalarlıdır, koloritin yumşaqlığı rahat atmosferin yaranmasına imkan verir (7, s. 144).

Yaşayış evi yaşayış memarlığının maraqlı abidələrinə aiddir. Burada cəmiyyətin milli memarlığa olan münasibətini tam açan və bununla da müasir dövrdə onun həyat qabiliyyətini təsdiqləyən ənənəvi üsullar və yeni üslub mövzuları ifadə olunub.

*Şərbətzadə, Gədəki, Hacı Mehdi Fərraşbaşı Sorxayi imarətləri* beşinci tipoloji qrupun saray üslublu binalarını ifadə edir, memarlıq-planlaşdırma inkişafı ilə fərqlənirlər. Yeni üslub cərəyanının qanunlarına riayət edən memarlar binanın daxili planlaşdırmasında öz yaradıcılıq coşqunluğunu ənənəvi üsullarla uyğunlaşdırmağa çalışırdılar. Binanın daxili planlaşdırmasında yeni nöqteyinəzərdən tarixi irsin mahiyyətini açan bəzi əsas elementlər saxlanılıb. Bu zəif hal idi, çünki tamamilə fərqli memarlıq simasının digər forma və elementlərlə formalaşma prosesi bəlli olur.

Yeni memarlıq kompozisiyaları meydana gəlir, yarımdairəvi sütunları olan portiklər fəal iştirak edir, divar hörməsi, qapı və pəncərə oyuqlarının işlənməsi bəzək mövzularının fərqli sistemini ifadə edir. Bina fasadının memarlığının həllində dəyişməyən kompozisiya simmetriyası ilə onun əsasını təşkil edən divar azad tərzdədir. Adətən kürsülü mərtəbələrə səciyyəvi olan möhtəşəmlik Təbriz imarətlərində fərqli məzmun alırlar. Xırda üslublu yarımdairəvi səthi taxça və oyuqların hərəkəti portiklərin tağların iri formalarını bir qədər zəiflədir. Lakin, uzadılmış sütunlarla və onlara dirənən tağlarla formalaşmış memarlıq kompozisiyası quruluşca yüngül üslubludur, yerli əyani-məkan mühitinə müvafiq olan pavilyon səciyyəsi daşıyır. Buna görə, bu portiklərdə formaların xüsusi əzəməti müşahidə olunmur, memarlıq ifadəsinin yüngüllüyü ön plana çıxır.

Qacar dövrünün yerli memarlıq məktəbinin tərtibi zamanı Avropa təsirinə baxmayaraq ictimai və mədəni mühitin hərəkəti ənənə ilə qarşılıqlı əlaqəyə

girərək yaşayış binalarının və imarətlərin ümumi simasına təsir göstərir.

Vəsait olan yeni kompozisiya üsullarının əsasında yalnız Təbrizə xas olan memarlıq simaları yaranırdı və öz memarlıq əqidələrini təsdiqləyirdilər. Avropa memarlıq materiallarından istifadə edərək, memarlar öz yaradıcılıq nöqteyi-nəzərindən bu mənbələrə xüsusi yanaşma tapdılar. Onlar Avropa memarlığının qanunlarını pozaraq, İrana eklektika və üslublaşdırma şəklində çatdılar və özlərinə məxsus formada yabancı materiala yanaşdılar. Bu yerli memarlara ümumiyyətlə yeni kompozisiya üsulları yaratmağa imkan verdi. Bununla onlar yeni formaların, xüsusilə imarətlərin portiklərinin quruluş xüsusiyyətlərini pozurdular (110, s. 382).

Şərbətzadənin imarəti məhz bu qrup tikililərə aiddir. Bircərgəli otaqlardan ibarət tikili ənənəvi planlaşdırma quruluşuna malikdir. Simmetriyanın oxu üzrə iki qoruyucu pilləkən dəhlizdən baş zal və digər otaqlara aparır. Geniş fasad təntənəli portiklə təqdim olunub, mərkəz beş aralıqlı tağ sırası ilə vurğulanıb. Rizalit üslublu yan aralıqlar sütunlardan bir addım önə çəkilib. Sahədə mürəkkəb üslublaşdırılmış korinf kapitelli sütunlar mərkəzi hissə ilə birləşir. Həcm və məkan kompozisiyası yaradılıb, uzadılmış sütunların plastik işlənməsi nəticəsində portik yerli şərhdə təqdim edilib. Portikin arxasında yerləşən divar, xüsusilə əsas zal ənənə və bədii xüsusiyyəti əks etdirən şəbəkə kimi məşhur üsulun əvəzinə bitki dekorativ naxışlı iri pəncərə oyuqları ilə işlənmişdir. Belə şəkildə ənənəvi üsulları qiymətləndirmək cəhdi memarlığa fərqli istiqamət verir.

Həyət tikilisi həmçinin bu plan əsasında inkişaf edir. Kurdonerin yan fasadları kürəkciklərin şaquli hissələrinin hərəkəti ilə malanın ağ fonunda ikinci mərtəbənin uzadılmış pəncərə oyuqlarını kərpic hörməsi ilə vurğulayırlar. Kürəkciklər kürsülü mərtəbənin kərpic hörməsini və kronşteynli karnizi birləşdirir. İkinci mərtəbənin karnizi dişli və sadə profillidir. Rəng və memarlığın zidd nisbət sistemi yaranıb. Fasad divarlarının mütənasib hissələri səliqəli həyət ilə müqayisədə üstünlük təşkil edir. Fasadların üzərində kərpic kürəkcikli memarlıq üsulu malanın ağ fonunda uğurla ifadə olunub.

Fasadın üzərindəki kərpic kürəkcikli memarlıq mövzüsu malanın ağ fonunda gözəl ifadə olunub. Pəncərələrin tünd oyuqları memarın istifadə etdiyi bu üsulun əhəmiyyətini daha da gücləndirir.

Digər tikililər kimi Gədəkinin imarəti də şəhərin tarixi hissəsində yerləşir, şəhərsalma baxımından Təbrizin əsas magistrallarından birinə meyllidir. Bu imarətin yanında tanınmış ailələrə aid imarətlər yerləşir. Hal-hazırda onlar bərpa edilir və bərpa işlərini "Səhəng" Təbriz universitetinin memarlıq fakültəsinin tələbələri aparacaq. Memarlıq-planlaşdırma strukturunun nəzərdən keçirilən digər obyektlərlə ümumi cizgilərinin mövcudluğuna baxmayaraq, Gədəkinin imarəti fərqlidir. Qeyd etmək lazımdır ki, Gədəkinin imarətinin birinci mərtəbəsinin daxili fəzası yerli memarlığın klassik formalarında tikilib. Burada həcmli plastika interyerlərdə memarlıq formalarının bütün parlaqlığını əks etdirən kompozisiya üsulları ilə ifadə olunub. Aşağı mərtəbənin mərkəzi hissəsi çatma profilli köməkçi tağların vasitəsilə qoruyucu dərin taxçalarla zal şəklində tikilib. Tağların və qübbələrin çatma forması zalın bütün interyerində üstünlük təşkil edir və müxtəlif formada şərh edilib. Onlar sənətkarların əlində "musiqi alətinə" çevrilərək yanmış

kərpicin həm konstruktiv, həm də bədii xüsusiyyətlərini açır. Üç bölmədən ibarət zalın interyerində xüsusi şəkil alan həndəsi fiqurlu sistemi olan qübbə və günbəz çatıları xüsusi diqqətə layiqdir.

Burada milli memarlıq irsi ön plana çəkilərək parlaq şəkildə zəngin ənənəsi olan memarlığın vəsait ehtiyatının həcmli plastikasını nümayiş etdirir.

Plastik kütlələrin tektonikasını təşkil edən memarlığın məftunedici elementləri və konstriktiv formaları olan keçmişinə hörmət edilməsinə baxmayaraq, sifarişçi memara binanın eksteryerində imarətin baş fasadında fərqli mövzular yaratmağı sifariş etdi. Yerli memarlığa qarşı olan bu mövqe ziddiyyətlərin çarpışmasından irəli gəlir.

Məişət xüsusiyyətli həyat tərzinə öyrəşmiş memar doğma memarlıq mühitinə can atır. Eyni zamanda, şəhər cəmiyyətinin valeh olduğu yeni kompozisiya üsul və mövzu dalğası onu ətraf tikililərlə hesablaşmağa məcbur edirdi. Memarlığın bu ziddiyyəti ikili həllə gətirir. Birincisi, kənar gözlərdən gizli olan birinci və ya yarımzirzəmi mərtəbə yerli memarlıq əsasında qurulur. Ikincisi isə yeni üslubda həll edilmiş təntənəli fasadın səliqəli həyətə açılması sahibində fəxr hissi doğurur.

İranda, o cümlədən Təbrizdə iqlim şəraiti səbəbindən birinci və yarımzirzəmi mərtəbələrin interyerlərinin memarlıq həllinə əhəmiyyətli dərəcədə diqqət yetirilirdi. Onların dekorativ tərtibatı və plastik işlənməsi yuxarı mərtəbədən geri qalmırdı, tağtavan, köməkçi tağlar, qübbə və günbəz çatıları kimi struktur formaları otaqların formalaşmasında fəal iştirak edirlər (226, s. 231).

Gədəki imarətinin fasadının dördtağlı portik şəklində olan təntənəli və təmtəraqlı kompozisiyası digər imarətlərin, xüsusilə Həməzadın kompozisiya üsullarını təkrarlayır. Bu zaman simmetriyanın oxu incə sütunlarla deyil, tağ bölmələri ilə bərkidilib. Portikin dərin lojiyası künclərdə 45° bucaq altında divarlarla bərkidilib və iri həndəsi element raportu ilə doldurulub. Dayaqların şaquliliyi və karniz hissələrinin üfüqiliyi fasadın uğurlu ümumi mütənasibliyini, əsas zalın yarımdairəvi formalı üç böyük pəncərə oyuqlarını göstərir, bitki ornamentli vitrajla doldurulub. Bu, ustaların işindən heyranlıq hissi doğuran ənənəvi şəbəkə deyil, yad mövzulu sadə şəkildir. Buna baxmayaraq, yeni üslub ifadəsində memarlıq kütlələrin təmtəraqı və büsatı saxlanılıb.

# III BÖLMƏ.

## MÜLKİ VƏ DİNİ TİKİLİLƏR

# FƏSİL 1.

# MÜLKİ TİKİLİLƏRİN MORFOLOGİYASI

İranda bazarlar, müxtəlif formalı karvansaralar, hamamlar, ovdanlar və s. obyektlər şəhərlər və yaşayış məntəqələrinin əhalisinə xidmət edirdilər. Təbii ki, şəhərsalma strukturunun dəyişdirilməsində fəal iştirak etmələri, mərkəzi rayonlarda makro və mikrosistemlərinin yaradılması mülki tikililərin inkişafını müəyyən etdi. Bu obyektlər böyük sahədə yerləşir, onların inkişaf imkanları şəhərin bütün ərazisində açılaraq şəhər mühitinin formalaşmasına təsir göstərirdilər.

Obyektlərin müxtəlifliyi, memarlıq-planlaşdırma məzmunu, həcm və məkan strukturu şəhərin müxtəlif yerlərində əhəmiyyətli iz qoydular və şəhərin görünüşünün gözə çarpan istiqamətverici amilinə çevrildilər.

Şəhərin ayrı-ayrı sahələrində yerləşərək və ya şəhərin bu qapısından digər qapısına qədər uzanan bazarlar öz həcmləri ilə sahələri dəyişdirir, memarlıq sənətinin yayılması və təbliğində fəal surətdə iştirak edirdilər.

Müxtəlif dövrlərdə inşa edilən, şəhərin mərkəzi hissəsi ətrafında meydana gələrək bazarlar xüsusi cərgələrdən ibarət böyük ticarət məhəllələrinə çevrildilər. Müsəlman şəhərinə gələn çoxsaylı tacirlərin karvansara, məscid, hamam və bazarlara ehtiyacları olduğundan, mülki tikililərlə yanaşı şəhərin ticarət hissəsi sıx tikilərək onun infrastrukturuna memarlıq-planlaşdırma xüsusiyyətləri gətirdi.

Bazarın ərazisində həcmli elementlər, xüsusilə iki tərəfi açıq karvansaralar meydana gəldi, örtülü cərgələri birləşdirdi və onların açıq həyətləri daxili küçələrə çevrildi. Bu yalnız bazarın yerləşdiyi ərazinin təşkilinə xidmət etmirdi, sıx tikililər olan yerlərdə mikroiqlim elementi kimi təsir göstərirdi.

Təbriz, Qəzvin, Kaşan, Məşhəd, Tehran, Şiraz, İsfahan və İranın digər şəhərlərinin bazarları kompozisiyanın parlaq memarlıq həllinin nümunələridir. Burada memarların yaradıcılıq planları və ideyaları ilə bir kontekstdə konstruktiv texnika və memarlıq formalarının istifadə etmə ənənəsi özünü göstərdi. Milli memarlığın böyük ustaları olan memarlar mürəkkəb fəza strukturların yaradılma problemlərini məharətlə həll edirdilər. İran bazarları, passajlar çox vaxt bir kilometrdən çox uzanırdılar. Tikinti materiallarının xüsusiyyətlərini dərindən bilmələri və böyük fantaziya ilə tikilən memarlıq komplekslərinin əsl memarlıq əsərlərinə çevrilməsinə səbəb oldu. Memarın yaradıcılıq palitrasının yeganə bədii elementi çatma tağ idi. Memarlıq forması müxtəlif variantlarda yalnız bazarların deyil, karvansara, məscid və digər tikililərin daxili və zahiri fəzasını da həll edirdi. Onlar iri formaları ilə, möhtəşəm şərh ilə, həcmli kütlələrin təzahürünün miqyaslığı ilə, dekorativ mövzuların incəlikəri ilə o dövrün ən yaxşı binaları sırasına daxil oldu. Təbriz, Kaşan, Şiraz, İsfahan, Qəzvin şəhərlərinin bazarları saray adlanmağa layiq idilər, onlardan geri qalmırdılar,



*Təbriz. Yaşayış evinin daxili görünüşü.*




*Təbriz. Şəhərin planı. Mərkəzdə bazarın planı.*

hətta mütənasiblik təmizliyi, memarlıq formaları və konstruktiv üsulların nəcibliyi ilə onlardan üstün idilər.

Zəlzələ zamanı dağılan Təbriz bazarı Nəsrəddin şahın hakimiyyəti dövründə bərpa edilmişdir. Tikinti üçün ayrılmış sahənin yaxınlığında böyük məhəllədə yerləşir və bir tərəfdən magistral küçə, digər tərəfdən isə çay qırağı ilə əhatələnir. Onlar üstü bağlı sıralardan başqa bayırdan keçən düz dar küçələrlə əlaqələnirdilər. Bazarın ərazisi perpendikulyar ticarət cərgələri ilə nisbətən düzbucaq məhəllələr sırasına bölünürdü. Plan üzrə məhəllələrin ərazisinə müxtəlif şəkilli Səfərəli, Məsfərqe, Əmir, Rasta bazar Dənedid və s. karvansaraların həyətləri daxil edilib. Tipoloji cəhətdən eyni, həcm həllinə və daxili məkanına görə müxtəlif olan ticarət şöbələrinin çeşidliliyi məcmuda güclü irsi memarlıq kompozisiyası təşkil edir. Bu obyektlərin quruluş mahiyyəti, memarlıq formaların əzəmətli hünəri, qamətli tağlar, işıq fənərləri olan günbəzlərin mürəkkəb strukturları ilə tamamlanır. Bu memarların möhtəşəm nailiyyətidir, memarlığın binanın bütün elementlərinin tam tektonikalı quruluşu ilə birləşməsidir.

Karvansaralar şəhər bazarlarının fəal obyektləridir, onlar əsasən örtülü ticarət cərgələrini əhatə edirlər. İranda ilk karvansara olan Robatkərim şərti olaraq X əsrə aiddir, orta əsrlərdə ən məşhur



*Təbriz. Bazar.*

Robate Şərif karvansarası isə ehtimala görə Sultan Səncərin vəziri Şərəfəddin tərəfindən 1114-1115-ci ildə tikilib. O vaxtdan İranın ərazisində minlərlə karvansaralar tikilmişdir, xüsusilə I Şah Abbas və onun vərəsələri dövründə tikinti inkişaf edirdi. Baxmayaraq ki, memarlıq mədəniyyətində onların səviyyəsinə çatmamışdırlar, Qacarlar tikinti fəaliyyətində Səfəvilərdən geri qalmırdılar.

Keçmişdə olduğu kimi, şəhər və yol karvansaraları mövcud idi. Şəhər karvansaraları bazarın strukturuna daxil olur, böyük və ya kiçik miqyaslı vahid memarlıq-planlaşdırma orqanı kimi fəaliyyət göstərirdi. Qacarlar dövründə karvansara tikilərkən keçmişin zəngin təcrübəsinə yeni elementlər daxil edilərək, dövrün ictimai-iqtisadi şəraiti ilə hesablaşaraq istifadə edilirdi. Adətən kvadrat və ya düzbucaq həyət təşkiledici amil idi, onun ətrafında insanlar, mallar və heyvanlar üçün otaqlar qruplaşırdı. Bura Kaşanda Əli-xanın karvansarasını, Qəzvində Saraye-Vəzir və s. aid etmək olar.

Kaşandakı karvansara böyük ərazidə yerləşir, iki həyətdən ibarətdir. Təntənəli ox hissəsi çarpaz səciyyəlidir, tağ kompozisiyası ilə böyük memarlıq formaları vasitəsilə təqdim olunub. Birinci həyət ikimərtəbəli qalereya ilə əhatələnib, aşağı mərtəbə dayaq-tir sistemi ilə, yuxarı mərtəbə isə alçaq yoxuş oxu olan sütunlarla həll edilib. İkinci

*Təbriz. Bazar.*



mərtəbənin mərkəzi hissəsi enli çatma tağı, stalaktit konxa və pilləli Qacar frontonu ilə maraq doğurur. Burada tağlar arasında pilyastr formasında sütunların hərəkəti olan Avropa memarlıq kompozisiya üsulundan və həmçinin karvansaranın daxili məkanında yad element kimi görünən birinci mərtəbənin sütunlarının qeyri-mütənasibliyindən istifadə edilib. Qədimi memarlıq mühitində uyğunlaşma prosesi çox ağır keçirdi və yeni üsul, forma və elementlər qəbul edilmirdi. Karvansaranın Qacar memarlıq üslubunda işlənmiş mərkəzi hissəsi fasadın quruluşuna cansız element və formaları ilə daxil olmurdu.

Müsəlman Şərqin memarlığını bilməyən ilk görüşdə fasadların təmkinliyinə, çatma tağların ciddiliyinə, şaquli hissələrin asketliyinə, bəzək elementlərinin məhdudluğuna fikir verir. Bu hətta mülkün daxili həyatində dünyaya olan münasibətin məntiqini göstərir. İmarətlərin ön hissələrinin interyerləri işlənərkən zəngin və təmtəraqlı bəzəklər, divarların və plafonların çox incə işlənməsi, memarlıq elementlərinin həcmli plastikası olmadan keçinmək olmur.

Davudun imarətinin baş zalının interyeri təmtəraqla işlənmiş nümunələrə aid deyil. Lakin burada günbəzaltı fəzanın köməkçi tağlarının ciddi formaları ilə ifadə olunan zərif üslub sistemi üstünlük təşkil edir. İnteryerin daxili fəzasında tağ formalarının gözəlliyi və klassik mütənasibliyi bədii yükə davam gətirirlər. Çardaq üslublu dördtağlı kompozisiya mürəkkəb stalaktit günbəzlə malikanənin bütün fəza strukturunun memarlıq özəyidir. Günbəzin çoxyaruslu stalaktit oyuqları bəzək təzyiqindən azad olan divarların fonunda dairəvi hərəkət ritmində görünürlər və həmahəng memarlıq formalarının "sonsuzluğuna" aparırlar.

Zənd dövründə İsfahanda tikilən Həqiqinin imarəti Səfəvilər zamanı başlanmış bu tipoloji qrupun inkişaf xəttini davam etdirir. Memarlıq-planlaşdırma üsulları öz xüsusiyyətlərini qoruyurlar, qapalı həyət sahələri əvvəlki məişət vəzifələrini yerinə yetirməyə davam edirlər, interyerlərin daxili strukturu isə bəzək elementləri ilə daha da zənginləşir.

Həqiqinin imarəti cənub hissəsindən başqa üç eyvan ilə həll edilmiş tikililər qrupuna aiddir. Ön korpus inkişaf etmişdir, mərkəzi çarpazşəkilli plana malikdir, kvadrat köməkçi çatma tağlar üzərində olan çoxyaruslu stalaktit günbəzlə bağlanıb. Bu tağları yan köndələn zallarda da müşahidə etmək olur. Daxili fəza müxtəlif variantlarda çatma tağlar sistemi, stalaktit tektonik örtülərlə, isti çalar rəngi və həddindən artıq olan bəzəklərlə birləşib.

Zalların kompozisiyası standart memarlıq-konstruktiv elementlər əsasında qurulur, lakin istifadə imkanları palitrası o qədər genişdir ki, hər dəfə fərdi cizgi əldə edir. Bunu zərif işlənmiş formaları olan köməkçi tağlar vasitəsilə həcmli plastika ən yüksək nöqtəsinə çatdıqda və onların üzərindən sallanan günbəzin ulduzşəkilli elementlərdən ibarət stalaktit oyuqları sayəsində çarpazşəkilli zalda müşahidə etmək olar.

Dekorun üçölçülü fiquru olan stalaktitlər interyer və eksteryerin ayrılmaz hissəsidir. Onlar quruluş səciyyəsinə görə həndəsi tərtiblidirlər və ifadəli formaları ilə memarlıq-konstruktiv mühitə uğurla daxil olur və fəza zonalarını birləşdirərək bir çox bədii məsələləri həll edir.

Həqiqinin imarətinin interyer kompozisiyasında dekorativ-tətbiqi sənətin həqiqi əsərləri olan şəbəkə ekranları mühüm rol oynayırlar. Ön zalın çatma formalı oyuğu taxta karkas sayəsində həndəsi ornament mövzuları ilə doldu-

rulmuş yuxarı və aşağı seksiyalar sırasına bölünür və yeni kompozisiya üsulları yaradır. Zalın forması son dərəcə genişdir və Səfəvi memarlığının ənənəvi mövzularını mənimsəyərək İsfahanda tam gücü ilə əksini tapıb. Qeyd etmək lazımdır ki, dolğun mənalı irs öz rolunu oynadı və Şah Abbas dövrünün memarları bundan istifadə etdilər.

Şah keçmişin memarlığına müti münasibət bəsləmir və böyük memarların yaratdığı keçmişə donmuş əzəmət kimi baxmırdı. Hökmdar memarlardan onun əzəmətli dövrünü əks etdirən dekorativ və ornament mövzulu məkan formalarının həllini tələb edirdi ki,. Memarlıq üslubu, bədii istiqamət sarayların, imarətlərin formalarının plastikliyi, ornament naxışlarının incəliyi və rənglərin zəngin çalarları ilə şərh edilirdi. Ustaların çatma tağların mütənasibliyinin nəcibliyini daha da gücləndirmək üçün təsvir vasitəsilə ifadəli konstruktiv formaları qeyd etmək cəhdi müşahidə olunur. Köməkçi tağların arasındakı boşluq stalaktit oyuqlu qübbələrlə doldurulurdu (bu hətta zalın kiçik bir hissəsində həcmli plastika yaradırdı).

Həqiqinin imarətinin daxili fəzasında interyerlərin aşağı və yuxarı yaruslarının aydın bölgüsü ilə müəyyən qanun hərəkət edir. Sakit aşağı yaruslar gül və quşlardan ibarət gözəl panno ilə örtülən dayaz şaquli ekranlarla doldurulub. Yuxarı yarus iri formaların hərəkətli formaları ilə birləşərək işlənib, çatının və tabe elementlərinin karkasını təşkil edir. Səfəvilər dövründə interyerlərin belə həll prinsipi qayda oldu və Zəndlərin qısamüddətli hakimiyyətinə kimi davam etdi.

Həqiqinin imarəti interyerinin kompozisiya üsulları böyük bədii imkanlarla qeyd edilən maraqlı obyektlərdən biridir. İncə memarlıq palitrası yalnız əhəmiyyətli olan konstruktiv formaların diqqətli seçimini əks etmirdi, əsas kütlələrin mütənasib sistemini, dekorativ sənətin memarlıq detalları və elementlərindən ustalıqla istifadəsini əks etdirilirdi. Qacarlar dövründə tikilən Akafzadə Şərifin saray üslublu imarətində bədii-memarlıq mövqeləri öz əkslərini tapdılar. Məscidin mərkəzi zalının qübbəsi tez bir zamanda uçdu, Xosrovun sarayındakı Sasanilər taxt zalının böyük aralıqları isə hələ də öz cəsarətli konstruktiv həlli ilə valeh edir.

Məscidin tağtavanı uçduqdan sonra yalnız 10 metr qalınlığında divarlar qaldı. Bu XVIII əsrdə Qacarlara onu "Ərk" adlı qalaya çevirməyə imkan yaratdı. Bir zamanlar əzəməti və dekorativ bəzəyin zənginliyi ilə heyrətləndirən bu möhtəşəm tikilinin bəzi cizgiləri yalnız türk rəssam-memarı Mətrəkçi və J.Qrelonun təsvir və rəsmlərində qalmışdır.

Bu gün Təbriz klassik dövrün ibadət tikililəri ilə öyünə bilməz, çünki onlar qorunub saxlanılmayıb, qalanlar isə iddialı memarlığı olmayan sonrakı dövrə aiddirlər.

# FƏSİL 2.

# TƏBRİZ BAZARI – MEMARLIQ-PLANLAŞDIRMA KOMPLEKSİ VƏ ŞƏHƏRİN İBADƏT TİKİLİLƏRİ

XV-XVII əsrlərdə xüsusi bazarlardan ibarət bazar kompleksi demək olar ki, tam formalaşdı. "Keysariyyə"dən sonra Azərbaycan qubernatoru tərəfindən tikilən üstüörtülü "Mirzə Sadıq" bazarını qeyd etmək olar.

Saraylar əsasən Keçecilər, Dəbbaqlar, Badamçılar və sairə kimi üçmərtəbəli binalarla seçilsələr belə, karvansaralar kimi üstün mövqeyə malik deyildilər. Hər iki növ binalar bazar kompleksinin planlaşdırma şəbəkəsinə təbii daxil olaraq onun ayrılmaz hissəsinə çevrildilər. Bazarlar və mülki tikililər xüsusi həcm və fəza sistemi yaratdılar; bazar kompleksinin geniş ərazisində onların memarlıq formaları, incə plastikası, dekorativ elementləri açılırdı.

Şardenə görə, Təbrizdə 300 karvansara fəaliyyət göstərirdi, onların ən kiçiyində eyni zamanda 300 nəfər yerləşirdi. Karvansaraların əksəriyyəti ikimərtəbəli idi, XVII əsrin ortalarında ən məşhur Zübeyda, Cahan-şah, Şah-İsmayıl, Şah-Səfi, Pirbudaq, Mirzə Sadıq, Mirzə Tahir hesab olunurdu (174).

Şərq bazarı, xüsusilə Təbrizin bazar kompleksi ticarət cərgələri və karvansaralarla məhdudlaşmırdı. Bazar öz səciyyəsinə görə çoxfunksiyalı məzmuna malik idi, çünki onun ərazisində iri miqyaslı əyani və fəza mühiti mövcud idi. Burada ictimai-iqtisadi, dini və mədəni-məişət mühiti şəhərin iqtisadi problemlərini həll edən və çoxlu ticarət təbəqələri təşkil edən cəmiyyətlə birləşirdi.

Bu vəziyyətlə əlaqədar bazar kompleksinə 17-dən çox ibadət tikililəri, həmçinin bazar əhlinə xidmət edən mədrəsələr, hamamlar, yeməkxanalar, çayxanalar və digər tikililər daxil oldu. Təbrizin Cümə məscidi bazar kompleksində nadir və qeyri-adi memarlığa malik, hökmranlıq sürən binadır.

Meydan-çayın cənub hissəsində yerləşən bazar kompleksi tarixən böyük və kiçik hissəyə bölünərək iki sahildə yerləşib. İki körpü və əsas şəhər meydanı olan Səhihabad ilə birləşən bazar eyni zamanda şəhərin yaşayış məhəllələrini də əhatə edir.

Bazar kompleksi orta əsrlərdə olduğu kimi bu gün də şəhərin ticarət və ictimai nəbzini özündə cəmləşdirərək qaynayan canlı orqanizmdir. Hesab edirəm ki, Təbriz bazarının memarlıq-planlaşdırma quruluşu fəlsəfi nöqteyi-nəzərindən üst tikilidir, ona əsas həyat verən insanlar isə bünövrədir. Onun şimal-cənub, şərq-qərb istiqamətinə yönələn çoxsaylı ticarət cərgələri, iri həcmli sarayları, böyük və kiçik meydanları, qədim mehrablı çoxsütunlu məscidləri, maraqlı planlaşdırmalı hamamları, memarlıq və fəza baxımından xüsusi timçə və tağlarla, günbəzlərlə örtülmüş bütün ticarət mərkəzi həmahəng füsünkarlıqla qarşınızda durur.

Təbriz bazarı bir neçə yüzillik ərzində formalaşırdı və onun şəhər ərazisində planlaşdırma mövqesi yerli ənənələrin və vərəsəliyin əsasında qurulurdu. Bu qanun tarixi ərazidə inkişafın əsas istiqa-



*Təbriz. Mirzə-Şəfi Timçəsi.*

mətlərinin qorunmasına imkan yaratdı. Əvvəlcədən formalaşan üstüörtülü küçə şəbəkəsi kompleksin planlaşdırma strukturunun əlverişli təşkilinə kömək edən bazarın aparıcı məhəllələrinin parametrlərini müəyyən etdi.

XIX əsrin ikinci yarısında böyük ərazidə yerləşən Təbriz bazarı tamamilə formalaşdı. Bazarın müxtəlif səciyyəli ticarət və ictimai təyinatlı çoxplanlı sistemi onun vəziyyətinə müvafiq tələblər irəli sürürdü. Məscid, saray, karvansara, timçə və s. kimi əsas obyektlərin planlaşdırma həllinə və memarlıq simalarına əhəmiyyət verilirdi.

Bazarın cənubdan şimala iki əsas magistrala və hər bir magistralın davamı olan körpülərə çıxışı mövcud idi. Körpülər qarşı tərəfə aparırdı, nəhəng memarlıq-planlaşdırma kompleksini birləşdirirdi, üstün elementi isə Sahibul Əmr məscidi idi.

Bazarın nisbətən qısa enli küçələrə bölünən iki meridional magistralları kompleksin planlaşdırma sisteminin əsasını təşkil etdi. Geniş düzbucaq həyətli iri miqyaslı karvansaralar bazarın ümumi strukturunda böyük yer tuturlar. Üstüörtülü küçələrə yönəlmiş ticarət cərgələri bütün ərazini tor kimi tuturlar və qismən onun sərhədindən çıxırlar.

Ticarət binalarının perimetri boyunca yerləşən on yeddi ibadət tikililəri bazarın bütün ərazisinə ideoloji əhval-ruhiyyə verirlər. Bazardakı dindarlar məcburi surətdə dini ayinlərə riayət edərək, yanlarında müsəlman şəhərinin ayrılmaz hissəsi olan hamam yerləşən məscidlərə gəlirdilər.



*Təbriz. Sahib-ül-Əmr məscidinin öz görünüşü.*



*Təbriz. Sahib-ül-Əmr məscidinin planı.*

Digər cərgələrlə kəsişən yollarda yerləşən ticarət küçələri yükboşaltma üslublu üstüörtülü meydançalar təşkil edir və insan axınının hərəkətinə kömək edir. Ən böyük hərəkət ərzaq, məişət və manufaktur cərgələrində idi. Xalçalar əsasən sanballı tacirlərin oturduqları timçələrin geniş zallarında yerləşir. Təbriz bazarının atmosferi genişliyin, şəxsi xüsusiyyətlərin və ticarət abu-havasının sayəsində cəzbedici qüvvəyə malikdir.

İxtisaslaşdırılmış cərgələri olan bazarın planlaşdırma həllindəki müəyyən dəqiqlik əhalinin müxtəlif təbəqələrinin maraqları rastlaşdığı geniş ərazinin funksional mövqeyini genişləndirir. Bazar – yerli hakimiyyətin hesablaşdığı şəhər cəmiyyətinin ictimai və ticarət fəaliyyətinin barometridir.

Bazarın əsas planlaşdırma şəbəkəsi həndəsi təsvirin əsasında qurulub, məhəllələr içi mühit isə maraqlı həcm və fəza həlli ilə nəticələnir (13, s. 380). Açıq üslublu karvansaraların geniş həyət fəzaları timçələrin hündür tağtavanları və günbəzləri ilə örtülüb. Memarlıq həcmlərinin zidd əsaslarında daxildən iri həcmli tağtavan, günbəz və tağlar vasitəsilə açılan bazar kompleksinin plastik forması yaranır. Onlar birlikdə kompozisiya üsulları təşkil edir, fəza baxımından bu və ya digər memarlıq əlaməti əldə edir.

Bazarın ticarət cərgələri karvansara və iki üçmərtəbəli sarayın portalları ilə kəsilən çatma tağların ritmini təqdim edir, miqyas baxımından sıravi mühitdən seçilirlər. Tağ oyuqlu səthi taxçaların şaquli hissələrinin ritmi ilə dinamik həcmli plastika yaranır. Kompleksə daxil olan binaların memarlıq formaları portal və günbəzlərin şəkil müxtəlifliyinə baxmayaraq çatma tağlarla məhdudlaşır.

Lakin, memarlıq forma palitrasının məhdudluğu memarların yaradıcılığına təsir göstərmədi, məhz bu şəraitdə bədii təxəyyülləri daha fəal özünü büruzə verdi. Bu "Rastabazar"da aydın göstərilib: "Müzəffəriyyə" timçəsinin çox böyük olan ikimərtəbəli zalı iri aralıqla, köməkçi tağların ritmi ilə mürəkkəbləşdirilmiş tağlı doldurulma ilə konstruktiv karkas təşkil edir. İkitərəfli əyri tağların arasındakı qalxanşəkilli paruslar zalın yuxarısında həndəsi formalı işıq fənərləri təşkil edirlər. Tağlı çatıların qalxanşəkilli paruslarla növbələnməsi funksional məqsəddən başqa kompozisiya üsullarının üzə çıxmasında memarlıq xüsusiyyətlərinə də malikdirlər.

Zalın kərpic hörməsi möhtəşəm formalı köməkçi tağlarla, qübbələrlə və vurğulanmış plastik həcmlərlə Rasta bazarın fəzasına xüsusi təmtəraq verir. Zalın ikimərtəbəli hissəsinin formalarının sakit müvazinəti yuxarı hissənin dalğaşəkilli memarlıq kütlələrinin hərəkətinə keçir. Bu üsul zalın interyerini zənginləşdirərək formaların nəcibliyini və mütənasibliyin möhtəşəmliyini qoruyur.

Demək olar ki, xalça satışı timçəsində eyni memarlıq formaları və kərpic kimi tikinti materialından istifadə edilib. Lakin kompozisiya üsulu fərdidir, əsas elementlərin nisbəti iri həcmlidir. Planda

çarpazşəkilli, təraşlanmış küncləri olan timçə fərqli həcm və fəza rakursunda çıxır, iri çatma qübbələri olan binanın mərkəzi bünövrəsini tilli günbəzə keçən qalxanşəkilli paruslar saxlayır.

Timçənin daxilində tağtavanlar sistemi dayaz köməkçi tağlar vasitəsilə karkas quruluşunu sadə naxışlı kərpic hörməsi ilə dolduraraq vurğulayır. İki mərtəbəyə daxil edilən tağ oyuqları zalın daxili fəzasında möhtəşəm tağtavanların üstünlük təşkil etdiyi yerli mövqeni saxlayır. Timçənin kompozisiya quruluşu gözəl həcmli plastikanı açır, digər elementlər memarlıq kütlələrinin açılmasına xidmət edir. Timçənin məkan həlli memara cüzi memarlıq vasitələrindən istifadə edərək onun bədii imkanlarının tam açılmasına imkan verdi.

Əsas zal və onun səkkizguşəli həcm formalı davamından ibarət timçə əsas parametrləri və fiziki qabaritləri ayıraraq ümumi kompozisiya quruluşunu birləşdirirdi. Timçənin özünəməxsus fəza mahiyyəti kompozisiyanın şaquliliyini vurğulanmış vizual oxlarla qeyd etməyə



*Təbriz. Bazar.*



*Təbriz. "Müzəffəriyə" Timçəsi. Daxili görünüş.*

imkan yaratdı, işıq üçün oyuqları günbəz mərkəzinin yuxarısından keçirdi.

Bazarın əsas binalarını bir-birini tamamlayan və memarlıq kompleksinin bütün ərazisində planlaşdırma baxımından qarşılıqlı əlaqədə olan iki tipoloji qrupa bölmək olar.

Birinci qrupa bazarın memarlıq və planlaşdırma əsasını təşkil edən və onun fəaliyyətinin əsas funksional yükünü daşıyan çox böyük, orta və kiçik karvansaralar aiddir. Çünki məhsullar ilk öncə karvansaralara, sonra isə realizə prosesi baş verən piştaxtalara daxil olur.

İkinci qrup timçələrdən ibarətdir, karvansaralardan həm planlaşdırma, həm həcm və fəza quruluşu ilə fərqlənir. Timçə düzbucaq planlaşdırma həllindən və çoxbucaqlı plandan ibarətdir.

Bazarın düzbucaq toruna həndəsi xətlərin monotonluğunu sındıran timçə uğurla daxil edilib. Timçə bağlı üslubludur, əsas mahiyyəti zalların üstü qübbə və günbəzlərin xüsusi formaları ilə örtülərək kompozisiyanın memarlıq üsulları ilə üzə çıxır. Onlar zal interyerlərinin həcmli kütlələri parçalayan material kimi məşhur forma və elementlərlə doludur.

Həcmli kütlə strukturuna mürəkkəbləşdirilmiş həndəsi elementlərin daxil edilməsi ilə müvafiq yük əldə edir. Tim-

*Təbriz. "Müzəffəriyə" Timçəsi.*



çənin simasının həllində tektonikadan başqa memarlıq formaların dinamikası toplanıb, effektli fəza mühiti və interyerin daxili fəzasının mənimsənməsində memarlıq formalarının dinamikası əldə edilib. Timçə geniş zaldır, şaquli ifadə olunmuş konstruktiv dayaqların memarlığı bölmə şəklində köməkçi çatma tağların güclü formalarına keçir. Tağlar, hətta qübbəsiz belə bölmələr arasında sakit fəza zonası yaratmaq üçün yetərli olan hündür yoxuşlu ifadəli karkas sistemindən ibarətdir.

Lakin tağların qübbə örtükləri mürəkkəb memarlıq forma və elementləri şəklində işlənib və dekorativ baxımdan dolğun plafon təşkil edirlər. Qacarlar dövrünün üslub sistemli, vurğulanmış ənənəvi kompozisiya üsullu klassik cərəyanının memarlıq siması formalaşdı. Memarlığın mənəvi mövqeyi irsə hörmət mənasında ənənəvi formaya sadiq qalmışdır.

"Müzəffəriyyə" və "Hacı Şeyx" timçələri düzbucaqlıdırlar. Bazarın ərazisində bu növ timçələr əsas üstü örtülü magistrallarla ticarət kompleksinin formalaşmış şəhərsalma sisteminin planlaşdırma xüsusiyyətlərinə cavab verirlər.

Uzununa çəkilmiş və ox üzrə iki tərəfi açıq girişlərlə vurğulanan timçələr bir qayda olaraq, həm karvansaralara, həm də bazarın üstüörtülü küçələrinə tərəf meyllidirlər. Girişlərdən başqa timçə adətən perimetr boyunca timçənin sahibinə məxsus ticarət dükanları ilə əhatələnib. Timçələrdə xalça satışı ilə bağlı iri həcmli ticarət əməliyyatları aparılır, orta hesabla ölçüləri 10x15 metr və daha çox olurdu.

"Müzəffəriyyə" timçəsi bu növ tikililər arasında ən böyük tikilidir, uzunluğu 65 metrdir, memarlıq formaları, həcm və fəza quruluşu təsiredicidir. Mərkəzi zalın xüsusi ikimərtəbəli passajının yuxarıdan işıq fənərləri ilə işıqlandırılması timçəyə ifadəli sima verərək bazarın ərazisində bərqərar oldu.

Bazarın karvansara, saray, məscid, hamam üslublu düzbucaq həcmli planlaşdırma strukturuna həcmi kiçik çoxbucaqlı




*Təbriz. "Hacı Səfər-əli" Timçəsi. Plan.*

kamera üslublu timçələr əlavə edilib. Onlar bazarın planında kiçik sahələrdə yerləşirlər, möhtəşəm və iri həcmli tikililərin arasından seçilmirlər. Kompleksin əsas nəqliyyat yoluna üstüörtülü dəhlizlərdən keçidləri olmasına baxmayaraq onların yerləşməsi nisbətən təsadüfidir.

Bu tipoloji qrup həm planlaşdırma həllinə görə, həm kompozisiya üsulunun memarlıq şərhi baxımından belə iri həcmli şəhərsalma orqanizmin formalaşması və inkişafında mühüm hissə təşkil edir. Kiçik obyektlərdə milli memarlığın əsas memarlıq və bədii qanunları toplanıb. Mürəkkəbləşdirilmiş interyerlər konstruktiv üsullarla dəqiq təşkil edilib və memarlıq formalarının plastikası ilə cəlb edir. Günbəzlərin tağtavanlarına





*Təbriz. "Hacı Səfər-əli" Timçəsi. Kəsiylər.*

keçidi olan divarların təmkinli həlli ornament mövzularının zəngin palitrasına çevrilirdi.

Memarlıq forma və mövzularının oxşarlığına baxmayaraq timçələrin fərdiliyi hər yerdə özünü büruzə verir və bu vəziyyət bazar kompleksinin həcm və fəza strukturunda üstünlük təşkil edir. Hacı Səfərəlinin, Əmirin və s. timçələrin planları, daxili fəzası, əyani mühitin həcmli plastikasının şərhi ilə onların əhəmiyyətini müəyyən edir. Burada ənənəvi üfüqi hissələr yoxdur, hər şey qübbə tağlarının və günbəzlərin əyrixətli çevrəsi əsasında qurulub. Konstruksiyalar çarpazlaşaraq plafonlarda müxtəlif naxış yaradırlar, tikinti materialı olan kərpic isə onların şəklinə təsir göstərir.

Karvansaralardan və hətta bazarın ibadət tikililərindən fərqli olaraq, timçələr kompozisiya üsulları, memarlıq formalarının şərhi və dekorativ mövzularla daha fəal bədii mövqe tuturlar. Timçədə ənənəvi memarlığa olan diqqətlə yanaşı bu dövrün üslub xüsusiyyətləri müfəssəl açılır, yeni forma və həcmli həllərə xüsusi maraq doğur.

Bazarın ibadət tikililəri kompleksin memarlıq-planlaşdırma strukturunda böyük sahə tutur və mühüm rol oynayırlar. Onların yerləşməsi bazar küçələrinin əsas istiqamətləri, ticarət cərgələrinə yaxınlığı, şəhərin çoxfunksiyalı ticarət mərkəzinin geniş ərazisinin ictimai həyatında fəal iştirakı ilə uyğunlaşdırılıb. Eyni zamanda, onlar tikinti üçün ayrılan sahəyə təsir göstərirlər, ticarət baxımından sıx və qarşılıqlı əlaqəlidirlər. Belə mövqe ibadət tikililərinin fəaliyyət sahəsini genişləndirir və şəhər mühitinin yerləşməsində onların əhəmiyyətini artırır.

İbadət tikililərinin əksəriyyəti ticarət mərkəzinin cənub hissəsində yığcam formada yerləşir. Onlar uzununa yerləşirlər və bazarın əsas üstüörtülü magistrallarından birinə yönəliblər. Tarixən burada ticarət kompleksinin formalaşması zamanı ibadət tikililəri öz planlaşdırma mövqelərini tutaraq, iri həcmli tikinti fəaliyyəti olan Ulu Səlcuqlar dövrünə aid xüsusi ibadət mərkəzi təşkil ediblər.

Bazarın ibadət tikililəri böyük və kiçik məscidlərdən ibarətdir. Demək olar ki, hamısı ərəb üslubludur, çoxsütunludur, çatma tağlarla, qübbə ya günbəzlə örtülüblər. Planlaşdırma baxımından məscidlərin tipoloji əsasına baxmayaraq daxili fəzada memarlıq formalarının fərdi şərhi parlaq ifadə olunub. Klassik memarlığın ümumi mövzu və elementlərinin mövcudluğuna baxmayaraq, məscidlərin yanaşı yerləşməsi interyerlərin təkrar səciyyəli həll edilməsinə qətiyyən təsir göstərmədi. Əksinə, əyani-fəza mühitində kompozisiya üsullarının klassikliyi yeni tikinti şəraitində ibadət tikilisinin fərdiliyini artırır.

Təbriz bazarının qısa səciyyəvi xüsusiyyətindən sonra, tarixi inkişafını və mənasını dərindən anlamağa imkan verən bütün tipoloji qrupların tam məzmununu konkret adlarla açmağa cəhd etmək olar.

Bazarların, karvansaraların, timçələrin, məscidlərin, hamam və dalanların adları və yerləşməsi onların hərəkət istiqamətini kompleksin böyük ərazisində müəyyən edir. Bazarın cənubdan şimala, sahilə və körpünün üzərindən qırağa çıxması maraqlıdır. Giriş və çıxışlar bazarın planlaşdırma strukturunun ümumi istiqamətini müəyyən edib.

Bazar "Cumhuri islami" prospektində başlayır, şimali-qərb istiqamətində "Bazare Əmiri"nin (Zərgər bazarı) üstüörtülü tağlı cərgələrinə daxil olur. Paralel olaraq digər üstüörtülü bazar "Poşte bazare Əmiri" yerləşir. Bu bazara "Saraye Əmiri", "Əmire Şimali" timçəsi və "Qazi"

məcidi yaxındır. Sahibi Əmiri haqqında tarixi məlumatlardan başqa bazarın bu hissəsi şəhərsalma ansamblından ibarətdir, üstüörtülü cərgələr sayəsində bazarı birinci köndələn cərgəyə çıxardır. Burada "Başmaqçı Bazar" və "Bazare şəhər bafan"dan ibarət Darabi xiyabanından kiçik sahədən sonra "Bazare Səfi"yə, daha sonra Rasta küçə prospektinə çıxır. Bu cərgələrin cənubi hissəsinə Kazımın, Ayətullah-hal-hali məscidi, 62 sütun, Şəhidi, İmam Cümə məscidi birləşir.

Enli cərgələrdən "Başmaqçı bazar"ın üstüörtülü cərgələrinə kimi meridional istiqamətdə "Rasta bazare taze" və onun davamı sahildə yerləşən "Bazare yamanduz"da çıxır. "Bazare şəhər bafan" və "Pambıqçı bazar"ı birləşdirən hissə "Bazare Hacı Ələkbər" adlanır. O, "Bazare Səfi", "Rasta bazare Kohne" və "Bazare Sədiqiyye" kimi bir neçə hissələrdən ibarət olan digər meridional cərgələrdən bir qədər solda yerləşir. Meridional cərgələri "Boxça bazar" və "Bazare Yamanduz" birləşdirir.

Meridional və enli üstüörtülü cərgələr Əmiridən başqa möhtəşəm və geniş karvansaraları birləşdirir: Mirzə Mehdi, Umid Mirzə Məhəmməd, Hacı Hüseyn Orta, Duğanı, Keçililər, Dərabbaşı, Böyük Şəzda, Hacı Seyid Hüseyn (təzə), Mir Əbulhəsən, Mir İsmayıl, Sahib Divan, Almaniha (burada almanlar məskunlaşmışdı), Hacı Mehdi Qulu, Mir Haşim, Mirzə Şəfi, Kiçik Şəzdə, Hacı Ələkbər.

Bazarın tərkibinə yığcam fəza mühiti ilə daxil olan mürəkkəb memarlıq-planlaşdırmaya timçə kimi digər tipoloji qrup daxil edilmişdir: Əbdul Qasemi əvvəl, Əbdul Qasemi ikinci, "Müzəffəriyyə", Hacı Şeyx I, Hacı Şeyx II, Hacı Şeyx III, Səddiye Əmiri Cubbi, Şeyx Kazım, Hacı Səfərəli, Hacı Tağı, Hacı Mehdi Qulu, Əmire şimali, Mirzə Rəhim, Xərəzi, Hoseyniyye, Badamçılər, Mir Əbdul Həsən, Mirzə Şəfi, Malik Hacı.

Bazarların adını sıra ilə sadalamağı məqsədəuyğun görürəm: bazare sreçi Hacı Hüseyn orta, bazare sreçi Hacı Hüseyn kohne, Rasta bazare kohne, bazare şəhər bafan, bazare Xereş-xana, bazare Şişe karxane, bazare Səfi, bazare Səqiqiyye, bazare Yamanduz, kiçik delle bazar, Başmaqçı bazar, bazare miskar, bazare dəvəçi, bazare Əmir (zərgər bazar), poşte bazare Əmiri, bazare Hacı Ələkbər, Baxçi bazar, bazare Bəsdi, Pambıqçı bazar, bazarçeye Şerefulema, Rasta bazare taze.

Bura bazarın ibadət tikililərinin tam siyahısını əlavə etmək lazımdır: Hacı Səfərəli məscidi, Sədiqiyye məscidi, 62 sütun məscidi, İmam Cümə məscidi, Ayətullah-hal-hali məscidi, Şəhidi məscidi, Kazimi məscidi, Sahabiul Əmr məscidi, Əli məscidi, Qazı məscidi, Cameyi məscidi və altı məscid daha.

Bazarın ərazisində sahələri əsas planlaşdırma özəkləri ilə birləşdirən dalanlar da mövcuddur.

Sarayların arasında Əmiri, Mirzə Mehdi, Umud, Hacı Hüseyn orta, Bazare sreçi Hacı Hüseyn kohne, Duqanı, Keçiçilər, Dərabbaşi, Hacı Seyid Hüseyn (taze), Mir Əbulhəsən diqqətə layiqdir. Onlar iri həcmlidirlər, bazar ərazisində hakim mövqe tuturlar və eyni zamanda memarlıq kütlələri şəxsi şərhə malikdir.

Saray və Əmiri timçəsi (1840) birnəfəsə inşa edilmiş memarlıq orqanizmidir. Əyri bucaqlı (67,5x46,0 m) sarayın geniş və dəqiq düzbucaqlı həyəti Təbriz bazarında ən böyük sahəyə malikdir. Əsas giriş şimali-qərb tərəfindən böyük sarayın özünəməxsus vestibül hissəsini təşkil edir. Səliqəli və yaşıllıqlı, uzadılmış formalı otaqlarla əhatələnən həyət fəzasına 45° bucaqda kəsişərək daxil olursan.

Sarayların daxili seksiyalara bölünməsi kimi planlaşdırma quruluşu bazarın bir çox sarayları kimi dəqiq yerləşmə

sistemində həll edilməməsi səciyyəvidir. Sarayın otaqları eyni sahəyə, forma və mütənasibliyi malik deyil, ənənəvi ölçülərə riayət edilməyib. Əmirinin sarayında bu qanundan uzaqlaşıblar, həyət məkanında bölmələrin yalnız ümumi ritmi saxlanılıb.

Sarayın kompozisiya, həcm və fəza quruluşuna daha çox diqqət yetirilib, qarşılıqlı perpendikulyar oxlar sarayın ikimərtəbəli binasının üzərindən çıxan iri həcmli portallarla bərkidilib. Onlar sadə hissəli tağ oyuqlarının yerli ritmini birləşdirən həyətin memarlıq kompozisiyasının əsas aksentləridir. Hakum mövqe tutan portal kimi element kvadrat mütənasiblidir, daxili plastikası olan tağ oyuqlar aydın çəkilib və sarayın böyük həyətində aparıcı mövqe tuturlar.

Əmirinin sarayının həyət fəzasında ənənəvi dördeyvanlı üsulun istifadə edilməsi tikintinin yeni şəraitində varəsəliyi qeyd etməyə imkan verir, lakin bölmələrin otaqları haqqında bunu demək olmur. Görünür, bunun səbəbi ya əldə edilmiş sahəni maksimal olaraq tikmək tələbatı idi və ya şəxsi maraqların mane olması idi.

Lakin sarayın şimal-cənub oxunda kompozisiya və məzmun baxımından Əmiri timçəsinin yerləşməsi bütün orqanizmin memarlıq-planlaşdırma sisteminin birləşdirici elementi idi.

Qeyd etmək lazımdır ki, bütün saraylarda olan timçələr müxtəlif memarlıq və həcm həllinə malik olmalarına baxmayaraq, əsasən eyni tipoloji səciyyəlidir. Mürəkkəb kompozisiya üstünlük təşkil edir, fəza baxımından çoxsaylı qalxanşəkilli paruslarla quruluş formasına çevrilir və qəribə bədii sistem yaradır.

Əmirinin timçəsi bu istiqamətdə həll edilib, Təbriz bazarının üstüörtülü küçələrinin birindən yan dükanlarla olan dəhliz təraşlanmış dərin taxçalı oktoqonal zala aparır. Plan çox mürəkkəb çevrəlidir: burada həm kvadrat səkkizguşəli balaca otaqlarla, həm yuxarı mərtəbəyə aparan pilləkənlər var. Timçə bütövlükdə həndəsi elementlər mozaikasını cəmləşdirən çarpazşəkilli formadadır.

Timçənin dəhlizinin fəzası köməkçi tağlarla, otaqların ikimərtəbəli oyuqları ilə vurğulanıb. Eninə olan tağlı çatı çoxpilləli quruluşu ilə geniş zala keçir. Zalın daxili həlli planlaşdırma mövqeyindən irəli gəlir və daxili strukturun effektiv forma törəməsinin konstruktiv üsullarının vasitəsilə yaranmasına səbəb olur. Zalın fəzası bilavasitə şaquli dirəklərin ritmini təşkil edən çatma tağların möhtəşəm formaları ilə inkişaf edir. Dərin taxçalara mülayim keçid yuxarıda dayaz günbəzin möhkəm formasına çevrilən konxaların qabarıq toru ilə zalın ikinci planını təşkil edir.

Timçənin zalının memarlıq-fəza kompozisiyası dinamik planda açılır, konstruktiv-bədii elementlərdən vahid forma törəmə sisteminə kimi fərdidir. Taxçaların çatma tağların iri oyuqları yan ikimərtəbəli tağlarla günbəz fəzasının həlli üçün qalxanşəkilli funksiyalarla yanaşı estetik funksiyaları yerinə yetirən müəyyən üsuldur, Əmiri timçəsinin zalının geniş fəzasının ümumi memarlıq istiqamətini müəyyən edir (228, s. 32-46).

Əmiri timçəsi və sarayı ilə müqayisədə Əbulhəsənin saray və timçəsi planlaşdırma baxımından daha yığcamdır, ibadət zonasına yaxındır və yaşayış məhəllələri ilə həmsərhəddir. Saray xariclə bilavasitə üstüörtülü cərgələr və timçə ilə əlaqələnir, portalın dərin taxça formasının qarşılıqlı perpendikulyar oxları ilə vahid memarlıq-planlaşdırma kompozisiyasıdır. Həyət fəzasının belə ənənəvi şərhi yaşayış və mülki binalarında geniş yayılmışdır, lakin memarlar memarlıq üsul və həcm kompozisiyasını fərdi üsulla ifadə edirdilər.




*Təbriz. "Əmir" Timçəsi. Kəsiylər.*



*Təbriz. "Əmir" Timçəsi. Plan.*

Sarayın həyət fəzasının planlaşdırma strukturu bucaqları kəsik və ox üzrə dərin taxçalı gözəl proporsiyalı düzbucaqdır. Sarayın eninə və uzununa tərəflərində mal saxlanılması üçün otaqlar yerləşir, pilləkənli kiçik dəhlizlər isə ikinci mərtəbəyə aparır. Sarayın perimetri boyunca bir-birilə bağlı olmayan müstəqil zirzəmi otaqları yerləşir.

Künclərin və taxçaların barokko xətlərinin sayəsində sarayın planı çox gözəldir, təşkil etdiyi simmetrik və plastik kompozisiyaya timçə də daxildir. Dəqiq xətlər, daxili fəzanın səmərəli təşkili, cəmləşmə nöqtəsində qarşılıqlı perpendikulyar ox sisteminin yaranması yeni həll formasına səbəb oldu. Planın özəyi qərb-şərq diaqonal oxlar üzrə dərin taxçalı səkkizguşəli formadadır. Planlaşdırma strukturu bu hissənin mürəkkəbləşdirilmiş forması deyil, tikilinin səciyyəsinə müəyyən tələbləri olan ticarət mağazasının daxili sistemindən irəli gəlir.

Sarayın kompozisiyası və ikimərtəbəli qalereyalı timçəsi şaquli kürəkciklərin səthi düzbucaq taxçalara keçir. Çatma və güzgü üslublu tağların elementləri sarayın bütün perimetrini doldurur, qismən timçənin qalereyasına keçərək ümumi modul sistem təşkil edir.

Əmiri timçəsində kompozisiyanın üstünlük təşkil edən forma və zalın həcmli plastikasını açan element qalxanşəkilli paruslu dayaz günbəzdir. Burada eninə və uzununa oxların kəsişməsində yerli səciyyəli günbəz fəzası mövcuddur. Bu halda timçə üfüqi istiqamətdə iki tərəfi açıq tağ seksiyaların ritmi ilə, bir darvazadan digərinə kimi inkişaf edir və bazarın üstüörtülü cərgələrinin ümumi sisteminə daxil olur. Belə planlaşdırma forması memarlıq elementlər miqyasında vahidlik atmosferi yaradır və yalnız ticarət əməliyyatlarının fəaliyyət zonasını deyil, Təbriz bazarının böyük sahəsində insan faktorunu da genişləndirir.

Hacı Mehdiqulu timçəsinin sarayı bazarın strukturunda hakim mövqelərdən birini tutur: saray bilavasitə bir tərəfdən yeganə en üstüörtülü magistral olan "Pambıqçı bazar"a çıxır. O, bazarın bu üzündən o biri üzünə kimi keçir, şərqdən qərbə Darabi xiyabanından başlayır, "Bazar Qız-bəsdi"dən keçərək ibadət tikililəri olan meydanda qurtarır. Onun məsuliyyətli mövqeyi bazarın bu sahəsində vahid planlaşdırma törəməsini təşkil etdiyi üçün timçənin yerləşməsinə də təsir göstərir.

İkimərtəbəli saray yaşayış və ticarət otaqları yönəlmiş dəqiq düzbucaq həyətdə yerləşir. Otaqlara aparan ensiz dəhliz iki otaq üçün ayrılıb. Açıq üslublu birinci mərtəbənin üstündə otaqlara girişi olan ikinci mərtəbənin qalereyası yerləşir. Qalereyalar həyətin cənubi dirəyində yerləşən pilləkənlə əlaqələnir.

Magistral tərəfdən iki mağazanın girişi timçənin geniş dəhlizinə, sonra bucaqları kəsilmiş kvadrat zala aparır. Mərkəzi oxa nisbətən zalın diaqonal yerləşməsi qeyri-adi planlaşdırma sxemi ilə nəticələnib. Kvadratın oxları üzrə ikinci mərtəbəyə aparan pilləkən qəfəsləri yerləşir. Beləliklə, verilmiş planlaşdırma sxemi qalxanşəkilli paruslar və işıq fənəri vasitəsilə yaranan günbəz fəzasının konstruktiv həllini müəyyənləşdirdi. Meydana gəlmiş konstruktiv elementlərin toru günbəzin dayaz səthinə bütün memarlıq palitrasını çıxardaraq zalın daxili fəzasının qeyri-adi plastik kütləsini yaratmışdır.

Eksteryerdə sarayın üfüqi hissələrinin fonunda timçənin möhtəşəm, həcmli quruluşu tağtavanların vurğulanmış çatma formalarının möhtəşəm kütləsi ilə qabağa çıxır.

Mirzə Şəfi timçəsi və sarayı bazarın şimali hissəsində yerləşir; şərqdən "Ba-

zarçeye şarifulema" ilə, cənubdan isə "Kiçik delle bazar" ilə həmsərhəddir və vahid memarlıq-planlaşdırma strukturu təşkil edir. Saray və timçə fəza cərəyanının hərəkəti ilə seçilmirlər. Hər şey ənənəvi tikinti sənətinin qanunlarına müvafiq mülayim həndəsi üsul və forma əsasında qurulub.

Sarayın girişi timçənin cənubi fasadındadır, sarayın bir bölməsinin dəhlizinin yanından ötərək gözəl mütənasib düzbucaq həyətə daxil olurlar. Modul kimi götürülən sarayın bölməsi timçə üçün də müəyyən həcmli formadır. Ticarət otaqlarının və əsas divarların oxları üst-üstə düşür. Bu aydın planlaşdırma sistemi Təbriz bazarının heç bir obyektində müşahidə olunmur və həm ümumi quruluşu ilə, həm də kompozisiya elementləri ilə heyran edir. Planlaşdırmanın iki köndələn oxu mövcuddur: biri - saray üçün, digəri isə - cənubi hissədə timçənin dəhlizi üçün. Hər iki ox şərqə yönəlib və cəmləşmə nöqtəsində günbəzaltı fəza yaranan timçənin geniş dəhlizinin köndələn oxu ilə birləşir. Burada timçənin bir hissəsi xüsusi kompozisiya mərkəzinə çevrilib, köndələn tağtavanlar günbəzlərin iki bərabər fəza elementləri ilə birləşir.

Planlaşdırma strukturunda saray və timçə ilə ayrılmaz surətdə bağlanan sahə Г-şəkillidir. İki tərəfində mağazalar tikilən cənubi dəhliz şərqi dəhlizə, yeni fəza kompozisiyasının öz üsulları olan daha da inkişaf etmiş sistemə keçir. Burada memarlıq ifadəsinin fərdi qeyri-adi səciyyəli forması mövcuddur, timçənin geniş aralığında hakimlik edən səthi günbəzli timçə haqqında təsəvvürü alt-üst edir.

Müəyyən fəza və memarlıq üsulu ilə Təbriz sənətkarlarının qabiliyyətini nümayiş etdirən konstruktiv elementlərlə vurğulanan ifadəli bədii kompozisiya əldə edilib. Adi yanmış kərpic onların əlində timçənin bütün daxili fəzasına



*Təbriz. "Mehdi-qulu" Timçəsi. Plan.*



*Təbriz. "Mehdi-qulu" Timçəsi. Kəsiylər.*

parlaq ifa verən musiqi alətinə çevrilirdi. Təbriz bazar tikililəri arasında timçə məhz memarlıq kompozisiyasının müxtəlifliyi ilə fərqlənir.

Hacı Səfərəlinin timçəsi "Rasta bazare taze"nin ərazisində yerləşir və çatısı günbəz sistemi ilə həll edilən ən böyük timçədir. Bazarın üstüörtülü meridional əsas magistrallardan biri ilə birbaşa əlaqəsi timçənin yerləşməsinə xüsusi şərait yaradır.

Timçənin girişi portal ilə vurğulanıb. Bu qayda üstüörtülü küçələrlə yanaşı gedir və onun uzunluğu boyunca magistrala baxan mağazalar cərgəsində memarlıq aksentləri yaradır. Bu səbəbdən, üstüörtülü küçələrdə fəal plastik elementlərin meydana gəlməsi memarlıq ifadəsinin xüsusi formasını yaradır.

Hacı Səfərəlinin timçəsi memarlıq kompozisiyasının həll sisteminə köməkçi tağ və qübbələri olan geniş dəhlizlə, yan mağaza və pilləkən qəfəsləri ilə daxil olur və səkkizguşəli geniş zala keçir. Zalın oxu üzrə köməkçi tağlarla vurğulanan dərin yonulmuş taxçalar təqdim olunub. Konstruktiv elementlərlə yaranan formaların daxili quruluşundan irəli gələn mürəkkəbləşdirilmiş planlaşdırma sxemi meydana gəlib. Zalın diaqonal oxlarında yerləşən kiçik otaqlar pilləkən qəfəsinə aparır. Beləliklə, çoxsaylı elementlərdən yaranan zal və onun şəkli məzmunlu və gözəl kompozisiyaya çevrilən çox maraqlı forma əldə etmişdir.

Timçədə yalnız yeni memarlıq üsul və elementlərin meydana gəlməsini de-



*Təbriz. "Mirzə-Şəfi" Timçəsi. Plan.*

yil, iri həcmli quruluş və bədii xüsusiyyətlərin birləşmə imkanını müşahidə edirik.

Timçənin günbəzaltı fəzasına köməkçi tağ və qübbələrin daxil edilməsi memarlıq baxımından əhəmiyyət kəsb edir. Qübbələrin, tağların, daxil edilmiş vitrajlı pəncərə oyuqlarının üçqanadlı formalı çatma dayaz taxçaların mülayim formaları ümumi aralığı 20 metr olan çoxüzlü zalı açır.

Planlaşdırma sxemindən irəli gələn tamamilə fərqli memarlıq əyani-fəza mühiti açılır. Onun həndəsi forma və elementləri həcmli ifadədə təntənə və həmahənglik atmosferi yaradır. Çatma tağların iri formaları günbəzaltı fəzada kəsişərək vurğulanmış qalxanşəkilli paruslu vahid konstruktiv sistemi yaradır, timçə haqqında qərəzsiz təsəvvürü müəyyən edilib və Təbriz memarlığının ənənəvi üsulları birləşib.

Hacı Şeyx Kazım timçəsi "Rasta bazare taze"yə nisbətən künc mövqedə yerləşir, bu planlaşdırma qrupuna daxil olur, lakin bazarın quruluşunda müstəqil yer tutur. Hacı Şeyx Kazım timçəsi ilk baxışda Hacı Səfərəli timçəsini xatırladır. Planın mərkəzi hissəsinin həllində eyni kompozisiya sxemi, əyani-fəza mühitini yaradan eyni üsullar mövcuddur. Burada timçənin daxili sisteminin inkişafının tamamilə başqa şərhi, kompozisiya həllinin digər parametrləri istifadə edilib.

Timçənin girişi "Başmaqçı bazar"ındandır. Geniş dəhlizin iki tərəfində kiçik otaqlar yerləşir, onlardan yan keçdikdə kvadratşəkilli ön otağa keçirsən. Yalnız bundan sonra timçə mərkəzinin planlaşdırma strukturunun formalaşma-

sında iştirak edən dərin taxça və dar dəhliz vasitəsilə vestibülün mürəkkəbləşdirilmiş, dolğun forması açılır. Uzadılmış səkkizbucaq formalı vestibül timçənin girişindən geniş zala kimi aralıq hissə təşkil edir.

Plan simmetriyasının əsas hakim oxu kvadrat formasına 45° bucaq altındakı künclərə diaqonal oxları ilə öz münasibətini ifadə edir. Eninə və uzununa olan əsas oxlar fəza cibləri təşkil edən dərin taxçalarla tamamlanır, diaqonal oxlar isə ikinci mərtəbənin daxili pilləkənləri ilə birləşən uzadılmış düzbucaq otaqlardan ibarətdir.

Bu üsul Təbriz timçələri üçün səciyyəvidir, lakin onlar mühitin formalaşmasında iştirak etmirlər. Timçənin mərkəzi hissəsi və içəridə yerləşən təraşlanmış qolları yunan xaçı formasındandır, müəyyən əməli və özünəməxsus bədii yükü daşıyırlar. Timçə planı birləşmiş bazar hissələri ilə geniş istiqamətdədir və böyük ərazinin fəza quruluşunda hakim mövqe tutaraq formalaşır.

Timçə diaqonal tərəflərin birləşməsi nəticəsində günbəzaltı kvadrat tərəfindən əmələ gələn bərabəryanlı üçbucağın əsası kimi götürülmüş modul sistemi ilə tikilmiş klassik mütənasibliyə malikdir. Planın gözəlliyi qərəzsiz olaraq timçənin fəza strukturunun həllinə səbəb olmuşdur. Timçənin ifadəli konstruktiv və memarlıq formaları günbəzin yuxarısında açıq işıq fənəri ilə rəvan surətdə birləşir.

Timçənin mərkəzi hissəsi dərin taxçaların qollarının yarıgünbəzləri sayəsində həcm nöqteyi-nəzərindən hakim mövqe saxlayaraq fəza baxımından inkişaf edir. Günbəzaltı dirəklər köməkçi çatma tağlarla birlikdə konsrtuktiv sistem əldə edir, interyerin zonasını həcmli plastika və memarlıq formaları ilə zənginləşdirərək genişləndirir. Həm daxili inkişafda, həm də plastik kütlələrin həcmli ifadəsində ənənəvi üsulların funksional təzələnmə prosesi baş verir. Timçənin yaranmış rəvan və mülayim siluet forması tam memarlıq harmoniyasının və bədii elementlərinin əhəmiyyətli mərkəzi kompozisiyanın yaranmasına imkan yaratdı.

Cənubda "Başmaqçı bazar"da yerləşən Mirzə Mehdinin sarayı, Əbdul Qasemi-əvvəl, Əbdul Qasemi-ikinci timçəsi, şərqdə yerləşən "Rasta bazare taze" və şimalda yerləşən "Pambıqçı bazar" maraqlı memarlıq-planlaşdırma quruluşuna malikdir. Qərbdən timçəyə "Xiyabane Darabi"yə baxan tikili birləşir.

Mirzə Mehdi sarayı böyük ərazidə yerləşir, perimetr boyunca ticarət cərgələri ilə tikilən böyük həyət fəzasına malikdir. Bazarın cənubi hissəsində hakim mövqe tutur, Əmirinin sarayından sonra öz memarlıq səciyyəvi xüsusiyyətlərinə görə çox maraqlı tikilidir. Sarayın daxili planlaşdırması səciyyəvi deyil, otaqların bölünməsi təşkil olunmamışdır, ritmikası qorunmayıb, hər tərəfi fərdidir. Lakin, sarayın xarici hissəsi mağazalarla əhatələnib, "Qaranlıq cərgələr" adlanan bazarın üstüörtülü magistrallarına çıxışı olan dəqiq həll edilmiş tikili nümunəsidir. Saray qübbələrin yuxarı hissəsində yerləşən kiçik fənərlərlə işıqlandırılır. Mağazaların çatma tağlarının ritmi bazarın daxili magistralların hündür qübbələrinə perpendikulyar yerləşir, birlikdə açılmış memarlıq formalı dinamik konstruktiv sistem təşkil edir.

Mirzə Mehdi sarayın bitişik olan "Əbdul Qasemi-əvvəl" və "Əbdul Qasemi-ikinci" timçələri şimal-cənub istiqamətində yerləşirlər və vahid memarlıq-planlaşdırma kompozisiyasına malikdirlər. Hər iki timçənin uzadılmış planlaşdırması iki tərəfi açıq, dəhliz üslublu ensiz, yanlardan ticarət cərgələri ilə tikilmiş, uzunluğu 50 metr olan otaq-

dan ibarətdir. Onlar bilavasitə "Başmaqçı bazar"la və "Pambıqçı bazar"la əlaqələnirlər. Planlaşdırma baxımından rahat çıxışlar bazarın ətraf mühiti ilə sıx əlaqəlidir. Timçənin memarlığı mütənasib və bədii baxımdan layiqincə ifadə olunmuş ənənəvi üsul, forma və elementlərdən ibarətdir.

Burada yetkinləşmiş formalara müvafiq neçə yüzilliklər boyu memarlığın təkmilləşmiş kompozisiya və konstruktiv üsulları nəzərdə tutulur. Memarların milli irsə olan meyli, mövqeyi və həcmli plastikanın özünü büruzə verdiyi tikilidə fərdi baxışlar irəli gəlir.

Bu baxımdan 1842-ci ildə Təbriz bazarını ziyarət edən rus professoru N.İ.Beryozinin gördüyü Hacı Seyid Hüseynin (təzə) sarayı diqqətə layiqdir. Həqiqətən Əmirinin sarayından sonra geniş həyətli, memarlıq baxımından portalla vurğulanmış girişləri ilə və perimetr boyunca yerləşən anbar otaqları ilə ən böyük saraydır. Cənubda "Müzəffəriyyə" timçəsi ilə, şərqdə "Bazare sraçi Haci Huseyne kohne" ilə, qərbdə "Mir Əbdulhəsən" sarayı ilə və şimaldan həmçinin timçə ilə həmsərhəddir.

Bazarın mərkəzi hissəsində, bir ox üzərində Hacı Seyid Hüseyn (taze), Hacı Seyid Hüseyn orta və Hacı Hüseyn kohne sreçi bazarı yerləşir, böyük bazar kompleksinin ən əhəmiyyətli üslub xüsusiyyətlərini cəmləşdirərək vahid memarlıq-planlaşdırma törəməsi təşkil edir. Mir Əbdulhəsənin sarayı və



*Təbriz. Bazarın bir hissəsi.*

Müzəffəriyyədən başqa bu üç saraya Mirzə Muhammedin sarayı, Hacı Şeyxin üçüncü timçəsi, Hacı Şeyxin ikinci timçəsi, Səfərəlinin timçəsi, "Rasta bazare taze" bazarı, Duqanı sarayı, Mirzə Rəhim timçəsi, şimalda Boxça bazara və cənubda "Qız bəsdi" bazarına və onun davamı olan "Pambıqçı bazar"ına çıxan Hərəzi timçəsi meyllidirlər.

Belə planlaşdırma məcmusunda fərdi mövqe tutan obyektlər inkişaf edirdilər, yanmış kərpic kimi tikinti materialının sayəsində həcm və fəza həllinin bütövlüyünə malik idilər.

Eyni zamanda, planlaşdırma zonasında məzmunun yerli formasını Hacı Şeyx adlı üç binadan ibarət timçə qrupu qoruyur. Onlar Məhəmmədin sarayına bilavasitə Hacı Şeyxin üstüörtülü bazarı vasitəsilə birləşir. Hər üç timçənin iki tərəfi açıqdır və müasir dildə desək standart varianta malikdirlər, şərqdə düzbucaq üslublu timçə yerləşir, şimali-qərb küncündə Boxça bazara çıxışı olan, günbəzlə örtülən (Mirzə Rəhimi) ikinci qrup timçə yerləşir.

Keçicilər və Darabbaşi sarayları "Rasta bazare taze" ilə əlaqələnir, öz memarlıq üsullarını və formalarını ifadə edərək, ümumi ənənəvi qanunları irəli sürərək müstəqil planlaşdırma mövqeyini qoruyur.

Cənubda Boxça bazar və şimalda Kiçik dəllə bazar arasındakı məhəllədə tam təşkil edilməmiş tikili cəmləşib. Burada "Rasta bazare kohne"yə baxan Malikə və Hacı timçəsi kimi günbəz səciyyəli iki timçə tikilib. Hacı timçəsi muxtar və çox uzun olmayan üstüörtülü cərgələrlə Rasta bazare taze ilə əlaqələnir. Bu məhəllədə uzadılmış formalı saraya çıxan üstüörtülü dalan mövcuddur.

Məhəllənin mövcud planlaşdırma quruluşu bazarın mərkəzi hissəsindən uzaq yerləşmə əyani-fəza mühitinin səciyyəsinin dəyişməsini, obyektlərin dəqiqliyi və mütəşəkkilliyi ilə fərqlənən tikililərin əsas qanunlarına riayət edilməməsini qeyd etməyə imkan verir.

Bazarın şimal hissəsində, Acı-çayın sərhəddində yerləşən sonuncu məhəllə əvvəlkinə nisbətən planlaşdırma baxımından daha mütəşəkkil olan böyük ərazidə yerləşir və üstüörtülü bazarlarla əhatələnir: cənubda "Kiçik dəllə bazar", şərqdə "Bazarçeye Şərifuləma"də "Mirzə Şəfi" və "Kiçik Şezda" sarayları, həmçinin "Mirzə Şəfi" timçəsi olan məhəlləiçi tikililər çoxdur.

Məhəllənin formalaşmış planlaşdırma quruluşu Təbriz bazarının plan həllinin dəqiqliyini, həcmli kütlələrin və texnoloji sistemin ifadəsində aydınlıq tələb edən əsas memarlıq və bədii mövqeyi olan ənənələrinə əsaslanırdı. Buna baxmayaraq, şərq funksionalizminin kifayət qədər qərəzsiz qanunları şəhər cəmiyyətinin tələbləri nəzərə alınaraq istifadə edilib (227, s. 241).

"Bazarçeye Şərifuləmə"nin üstüörtülü cərgələrinə şərqdən Hacı Səfərəli və Cameyi məscidləri birləşir. Səfərəli məscidinin daxili həyəti Cami məscidi ilə həmsərhəddir. Qərbdən "Bazare Sadiqiyyə"nin ticarət cərgələri ərəb üslublu sütunlu zalı və geniş həyəti olan "Sadiqiyye" məscidi birləşir.

Saray və timçələr olan məhəllə vahid planlaşdırma özəyi təşkil edərək ibadət tikililəri ilə qorunur, Acı-çaya yaxınlaşdıqda bazarın planlaşdırmasının tamamlayıcı elementi olan uzadılmış sahələr əmələ gəlir.

Acı-çayın üzbəüz tərəfində bazarın ikinci hissəsi yerləşir, "Bazarçeye Şərifuləmə" və "Bazare Sədiqiyyə" bazarlarının oxları üzrə atılmış iki körpü ilə əlaqələnir. Bazar ərazisinin bir hissəsi cənub-şərq və şimal-qərb istiqamətində yerləşib. Bazarın üstüörtülü hissəsi mədrəsədən başlayır,

üstüörtülü ticarət cərgələrinin üzərindən keçir, günbəzaltı fəzaya çatdıqda şimala yönəlir. Burada 30° bucaq altında üstüörtülü cərgə şimal-qərb istiqamətində inkişaf edir, kiçik bir hissəsi yaşayış evləri olan məhəlləyə çıxır.

Planda çoxpilləli olan üstüörtülü küçə "Bazare Miskarha" və "Bazare Dəvəçi" adlanır. Körpülərin arxasında bazarın planlaşdırma strukturunun iki tərəfində ticarət mağazaları tikilən xətt səciyyəli tikinti formalaşıb. Meydana gələn uzadılmış sahənin ortasında bircərgəli mağazalar tikilib, şərqdə mədrəsənin arxa fasadına yaxınlaşırlar. Bazarın ərazisində üstüörtülü cərgələrdən bir qədər ayrılmış Mir Həşimin iri həcmli sarayı yerləşir. Bazarın əlavə sahəsində bütöv planlaşdırma sistemi yaranmayıb, şəhərsalma fikrinin yoxluğu maraqlı memarlıq məzmunlu həcm və fəza həllinin yaranması ilə nəticələnmədi. Şəhər magistralının və üstüörtülü mağazaların yanında təsadüfi yerləşmiş Əli məscidi bazar tikintisi üçün kompozisiya əhəmiyyəti kəsb etmirdi və onun quruluşuna funksional element kimi daxil olmurdu. Şəhər ərazisinin əhəmiyyətli hissəsində yerləşən bazar çayla ayrılaraq tarixi hissə ilə körpülər vasitəsilə əlaqələnir və Təbriz bazarının yerli zonası olaraq qalır. Bir zaman şimali-şərq hissədə geniş həyətlə birləşən mədrəsə və Sahibiul Əmr məscidindən ibarət ibadət kompleksi ilə qurtarırdı. XX əsrin əvvəlində bərpa işləri aparılarkən Darabi prospekti şimal istiqamətində davam etdirildi və ibadət kompleksini kəsərək həyəti ləğv edib nəqliyyat magistralına çevrilmişdir.

Bazarın tarixi hissəsinin arxasında "Cumhuriyye Eslami" və "Darabi" prospektlərinin üzbəüz tərəflərində muxtar ticarət sahələri meydana gəldi: cənubda "Şişa karxana" bazarı, şərqdə isə "Xərəş qapı" bazarı. Birincisi ticarət bölmələrinin altında kiçik günbəzli uzun passajdan ibarətdir. İkinci olan "Xərəş qapı" bazarın planlaşdırma quruluşuna "Saheb Divan" və "Almaniha" (burada almanlar və "Sədiyyə" balaca timçə məskunlaşmışdır) sarayları daxildir.

Bazarın ibadət tikililərinin (17) bütün ərazidə qeyri-müntəzəm yerləşdirilib. On ikidən çox olan əsas kütlə bazarın cənub-qərb hissəsində yerləşir, qalanları isə yığcam mühit təşkil etmirlər və şimal hissədə əsas mövqelərdə yerləşirlər.

Məscidlərin planlaşdırma quruluşu ibadət tikililərinin ərəb üslubunu əks etdirir və eyni zamanda, yerli memarlıq sistemini geniş aralıqlarda və alçaq dirəklərdə olan çatma tağlarla, qübbələrlə və günbəzlərlə təsvir edir. Çatma formalı tromp şəklində olan paruslar və stalaktit oyuqlar ibadətgahın daxili fəzasında memarlıq elementləri və formaları təşkil edir (34, s. 68).

Məscidlərin daxili fəzasının sütunlarının ritmi oyuq yaradaraq, memarlıq forma törəməsinin şəxsi mikrodünyasını yaradır və eyni zamanda, ümumi funksional sistemlə qarşılıqlı əlaqələnir. İbadətgah planlaşdırma modelinin sayəsində bütün istiqamətlərdə inkişaf edirdi, geniş profilli memarlıq kompozisiyasına çevrilmə imkanı var idi. İnteryerlər xüsusi həcmli plastiklik əldə etdilər: sütun sıraları olan aşağı səviyyə sıravi hissələrin monotonluğundan uzaqlaşaraq qapalı fəzanın şaquliliyini nümayiş etdirir. Çarpazşəkilli qübbə və çatma tağ kimi daha hərəkətli elementlər müxtəlif profilli və şəkilli formalar yaradaraq qüvvəyə minir, stalaktit oyuqlardan və tromplardan ibarət kompozisiya üsulları iştirak edir.

Bunun nəticəsində ibadətgahın geniş təməlində plastikanın zənginliyi memarlıq fenomeni yaradan təraşlanmış

sütun gövdələrindən düzəldilmiş xüsusi kvadrat oyuqların modulyasiyasına çevrilir. Məscid fəzasının içəri mehraba tərəf olan hərəkəti yeni memarlıq mənası əldə etdi. İbadətgahın plastik artikulyasiyası yalnız ənənəvi forma və elementləri ilə işlənməyib, əvvəldən məscidin daxili fəzasının yeni ifadəsi mövcuddur.

Cümə məscidi Təbriz bazarının ibadət tikililərinin əsas qədimi özəyini təşkil edir və ilk dəfə Səlcuq dövründə təqdim olunub. Mehrabın memarlıq və bədii xüsusiyyətləri gözəl saxlanılıb. Zaman, zəlzələlər və insanlardan əhəmiyyətli dərəcədə zərər çəkmiş Cümə məscidinin bu hissəsi dəfələrlə bərpa edilmiş və genişlənmişdir.

Məscidin mehrabın qarşısındakı yeni hissəsi geniş aralıqlı, qübbəli və çatma formalı köməkçi tağı olan uzadılmış ibadətgah zalı şəklində formalaşmışdır. Açıq konstruktiv elementi memarlıq formalarının hərəkəti və növbələnməsi möhtəşəmlik ilə vurğulanaraq ibadətgaha xüsusi ifadəlik verir. Zalın hündürlüyü sallaq köməkçi tağlarla kompozisiya üsulunun mahiyyətini genişlədərək memarlığa ibadət məzmunu verir.

Çoxsütunlu məscidlər bazar ərazisində hakim mövqe tuturlar, lakin üçnefli Alxaz-məscid və Xala-oğlu məscidi, pavilyon üslublu yan otaqları olan Əli məscidi (Cami məscidi) istisna deyil. Bazarın şimali-şərq küncündə, ticarət ərazisindən uzaqlaşdırılaraq Sahibul-Əmr məscidi yerləşir. Əvvəl mədrəsə ilə birlikdə böyük kompleks təşkil edirdi, hal-hazırda bir tərəfindən digər tərəfinə kimi geniş Darabi prospekti ilə bölünür. İndi məscid prospektin Şərq hissəsində, mədrəsə isə qarşı tərəfdə yerləşir. Əhatə edən tikililərin ümumi fəza strukturunda onların memarlıq əhəmiyyəti azalmır.

Sahibul-Əmr (1779) məscidi Acı-çayın qırağında yerləşir, fasadları cənuba və qərbə yönəlir. Müxtəlif vaxtlarda tikildiyi üçün iki müxtəlif planlaşdırma sistemindən ibarətdir: pavilyon və çoxsütunlu (248, s. 298).

Məscidin ilkin hissəsi səkkizguşəli vestibülin vurğulanmış portal girişi olan ənənəvi planlaşdırma sxemindən ibarətdir. Oxla perpendikulyar kvadrat formalı pavilyon üslublu enli mehrabı olan ibadətgah yerləşir. Çatma günbəzlə örtülən ibadətgah kvadratı dolğun həcmli plastika yaradan bütöv taxçalarla əhəmiyyətli dərəcədə genişlənib. Zalın qarşılıqlı perpendikulyar oxları üzrə taxçaların bütöv tağları üstün element kimi çıxır, künc taxçaları interyerə şaquli hissələrə əlavə olaraq effektli forma törəməsi verən ikiyaruslu şəkildə həll edilib. Xüsusilə, zalın interyerinin hissələri eksteryerdə alçaq təbillə, oxlarında kiçik pəncərələrlə qeyd edilən konusşəkilli trompların günbəzaltı fəzasına keçidi vasitəsilə güclənir.

İbadətgahın həllində vestibülün eyni plastik şəkildə, tağtavanlı çatının eyni forma və elementləri ilə həll edilməsi əhəmiyyət kəsb edirdi. Məscidin həcmli plastikasında memarlıq ənənəsinin əsası öz qüvvəsini saxlayır və nisbətən gec tikilmiş çoxsütunlu hissəyə fəal surətdə təsir göstərir.

İbadətgahın daxili dəqiq düzbucaq formalıdır, beş meridional və altı en istiqamətli nefə bölünüb. Şərqdən kvadrat formalı xidməti otaqlar qismən bitişir. Şimal və şərqdə zalın xarici çevrəsi bir neçə əyilmiş istiqamətə malik olması ibadətgahın daxili quruluşuna təsir göstərməyib, mütənasib xüsusiyyətləri qorunub. Məscidin əsas binasının vestibülündən kiçik qapı oyuğu hündür təraşlanmış sütun sırası olan ibadətgaha açılır. Eninə və uzununa istiqamətdə sütunlar fəza bölmələri, köməkçi çatma tağların geniş aralığında kiçik günbəzlər yaradır. Bölmələrin qarşılıqlı əlaqəsi

mehrab taxçası istiqamətində müvafiq dekorativ-epiqraf tərtibatla vurğulanmış plastik dərinlik yaradır.

Plan baxımından məscidlərin yeni və köhnə hissələri bir-birini ümumi həllin hərəkəti ilə tamamlayır. Bunu Təbrizin ibadət tikintisinin klassik üsulu adlandırmaq olmaz, çünki müxtəlif səciyyəli planlaşdırma ümumi həcmdə birləşərək müstəqil fəaliyyət göstərir. Onları ayrılıqda da nəzərdən keçirmək olar, hakim memarlıq forma və elementlərin ümumiliyinə baxmayaraq müxtəlif tarixi və üslub dövrlərinə aiddirlər. Köhnə həcmin möhtəşəmliyi və sanki yığma elementlərdən toplanmış seksiyalı pavilyon səciyyəli yeninin kiçik həcmi əks memarlıq mövqeləri tuturlar.

Məscidin əsas qərb fasadı işlənərkən minarəli köhnə məscidin həcmli plastikası və şaquli hissələri bərpa zamanı yeni hissəyə keçirdilər. Monumental üslublu simmetriya və oxlu memarlıq kompozisiyası yarandı. Ənənəvi simmetriyaya riayət etmə yeni məscidin kiçik həcminə nisbətən tamamilə yalnış həll idi. Yalnız köhnə məscidin üzərində yüksələn aşağı təbilli günbəzin həcmi onun məzmunu qərəzsiz səciyyəsini vurğulayırdı.

Məscid portalının oxunda keçmiş ibadət kompleksinin qarşı tərəfində planlaşdırması ənənəvi üsulları əks etdirən mədrəsənin ikimərtəbəli binası yerləşir. Uzadılmış zalın mərkəzində kvadrat mütənasib portal, onun arxasında geniş zal yerləşir. Hər iki tərəfdə vurğulanmış köndələn divarlı, çoxlu səthi taxçalı ikicərgəli otaqlar yerləşir. Mərtəbələr eynidir, yalnız cənubi hissədə bir bölmə əlavə edilib. Əlavə bölməyə baxmayaraq, simmetriya qanunu saxlanılıb. Bütöv arxa divar bazar ərazisinə yönəlib və onunla heç əlaqələnmir, yalnız mərkəzi həcmin davamı kimi binanın bir qədər qabağa çıxan hissəsi portal şəklində ifadə olunub.

Mədrəsənin fasadında qanuna uyğun olaraq mərtəbələri üfüqi zolaqla vurğulayan çatma taxçalı, zəngin dekorativ mövzulu portal üstünlük təşkil edir. Fasadın yan qoruyucu hissələri əvvəl şəbəkə ilə bəzənmiş ikimərtəbəli otaqları şaquli hissələrin ritmi ilə birləşdirir. Ənənəvi səthi taxçaların, otaqların əlavə edilmiş tağ oyuqları fonunda olan portal yalnız fasadda deyil, ətraf əyani və fəza mühitində üstünlük təşkil edir.

Nə məscidlər, nə də mədrəsə Təbriz memarlığının klassik dövrünə aid deyil, onlar memarlığın mənəvi məzmunu yox olduğu başqa dövrdə inkişaf edirdilər. Yeniliklərin axtarışında fəal iştirak etməyərək, ənənəvi üsul və formalarının istifadəsi ilə əvəz etdilər. Memarlıq ənənələrinə daimi hörmətcil münasibət əks təsir göstərərək dövrünün "daşlaşmış musiqi"sinə çevrilməyərək memarlığın konservativ forması ilə nəticələndi.

Təbriz şəhəri bazarının böyük ərazisi iri ticarət əməliyyatlarının və sistemsiz müəssisələrin yeri deyildir. Onlara şərqdə məşhur olan bazar kompleksinin atmosferini yaradan çoxsaylı ibadət tikililərlə, hamamlarla, mədrəsələrlə və köməkçi elementlərlə birlikdə baxmaq lazımdır.

İslam şəhərsalması və onun ideologiyası elm, təhsil, gigiyena və sairə problemlərin həllinə fəlsəfi yanaşma vasitəsilə sıx əlaqəlidir. Təbriz bazar kompleksinə məscid, məktəb-məscidlər, hamamların təbii surətdə daxil olması təsadüfi deyil. Demək olar ki, bazar ərazisi yalnız ticarət əməliyyatları üçün daha mühüm rol oynayırdı. Bazarın yığcam sahəsində ibadət, sanitar və məişət tikililərinin vacib elementlərinin toplanması mədəni və təhsil mərkəzlərinin yaranmasına səbəb oldu (160).

İslam dünyasında məscid şəhərsalmanın güclü elementidir, onun ətrafında

ictimai binalar, yaşayış evləri, təhsil müəssisələri formalaşır. Məscidin yanında müxtəlif səciyyəli binaların toplanması tarixi mühitin çoxfunksiyalı məzmununu gücləndirir. Azançının möminləri ibadətə çağırması Allah ilə ünsiyyətə səbəb olur. Bu xüsusi şəhərsalma təməli Allah və cəmiyyət qarşısında fərdi məsuliyyət atmosferi yaradır. Beləliklə, şəhərin, burada bazarın sturkturunda yalnız həcmli element deyil, kütlələrin idrakına daxil olan ideoloji əsas kimi daha əhəmiyyətli mətləbdir (203).

Bazarın planlaşdırma quruluşunda ibadət və ictimai tikililərin çox olması mühüm rol oynamışdır. Burada məşhur ilahiyyatçılar, alimlər, müəllimlər çalışaraq öz bilik və təcrübələrini cavan nəsilə verirdilər. Eyni zamanda, bu binalar insanları memarlığa və tikinti sənətinə hörmət etməyə öyrətdi. İnsanlar sütunların, günbəz tağtavanlarının xüsusi dünya təşkil edən məscidin daxilində dua edərək özlərini kainatın bir hissəsi kimi hiss edirdilər.

Təbriz bazarının ibadət tikililəri müəyyən şəhərsalma planı təşkil edir. Burada məscidlərin bir-birinə bitişməsi və bütövlüyü, hər biri fərdiliyini qoruyaraq yerli mövqe tutduğundan memarlığın eksteryeri yoxdur. Bir məsciddən digərinə keçid mülayim şəkildə baş verir, məşhur memarlıq formaları fərqli həcm və fəza sınması ilə müşayiət edilir.

Demək olar ki, müharibə və zəlzələlərdən sonra Təbriz öz memarlıq simasını, memarlıq və konstruktiv baxımından maraqlı olan timcə, saray və qismən Səlcuqlar dövrünün əlamətlərini qoruyub saxlamış Cümə-məscid kimi ibadət tikililərinin toplandığı böyük bazar kompleksində qorumuşdur (162).

Seyid-Həmzə ibadət tikilisi (1411) Təbrizin tarixi mərkəzinin şəhərsalma sistemində əhəmiyyətli yer tutur. Uzun-Həsən, onun oğlu və digər hökmdarların



*Təbriz. Seyid Həmzə məscidi və məqbərəsi.*

dövrünün komplekslərinin qalmamasından Seyid-Həmzə mavzoleyinin əsasında yaranmış kompleks şəhər tikintisinin ən fəal həcm və fəza elementinə çevrilmişdir. Onların bir qismi sonrakı hökmdarlar tərəfindən öz adları altında tikilməsi üçün, digərləri isə mübarizə zamanı dağıdılmışdır. Demək olar ki, Seyid-Həmzə kompleksinin bəxti gətirmişdir, dövrün kataklizmləri ona toxunmamışdır və dövrümüzə qənaətbəxş vəziyyətdə çatmışdır.

İranın, o cümlədən Təbrizin ibadət tikililəri planlaşdırma baxımından qapalı üslublu idilər və böyük həyət ətrafında inkişaf edirdilər. Bu vəziyyət Seyid-Həmzə kompleksinin əsasını təşkil etdi. O, qərbdən şərqə çəkilib. Kompleksin bir hissəsini ibadət tikilisi, digər tərəfdən köməkçi tikililər olan memorial tikilisi tutur.

Kompleks tədricən inkişaf edirdi, müxtəlif dövrlərdə ayrı-ayrı hissələri tikilirdi, yeniləri ilə əvəz olurdu, lakin ənənəvi olan ibadət tikililərin memorial tikililərlə birlikdə formalaşması qanunu dəyişilməz qalırdı.

Ticarət cərgəsində yerləşən məscid Şeyxülislam prospektinə baxır. Üç bölmədən ibarət, köməkçi tağlarla vurğulanmış giriş oxuna perpendikulyar olan geniş vestibülə aparan giriş portalı mağazalar arasında itib. Vestibülün şimali bölməsi bilavasitə mərkəzində səkkiz diametrlik günbəzi saxlayan çarpazşəkilli, möhkəm köməkçi tağlı ibadətgaha aparır. Küçə çevrəsinin əyri olması və köməkçi otaqların daxili planlaşdırması sayəsində ibadətgahın şimali hissəsi aydın olmayan forma alıb.

Qeyd etmək lazımdır ki, İranda, o cümlədən Azərbaycanda, xüsusilə Təbrizdə simmetriya və düzbucaq sistemi qanunu demək olar ki, bütün ibadət, yaşayış və mülki binalarda hakim mövqe tutur. Bu həm otaqların daxili fəzasının, həm qapalı həyətin rahat təşkil edilməsinə imkan yaradırdı (254, s. 25).

Məscidin dərin taxçalı, mürəkkəb dekorativ bəzənmiş plafonlu interyeri diqqətə layiqdir. Qərb və şərq oxunda yerləşən və həyətə yönəlmiş taxçalardan biri portal şəklindədir. İbadətgahın künclərində bir qayda olaraq kiçik otaqlar yerləşir. Məscidin otuzmetrlik fasadının kare üslublu yan qanadlarında tələbələr üçün eyni kvadrat otaqlar, cənub tərəfdə isə yaşayış otaqları tikilib. Minarə həyət fəzasının bu hissəsinə daxil edilib və küçəyə baxır.

Yeni otaqlar qrupuna düz bucaq altında memorial səciyyəli, düzbucaqlı çevrəli və oktoqonal daxili planlı tikili birləşir. Hər tərəfi tağtavanla örtülmüş dərin taxça ilə tutularaq gözəl memarlıq və planlaşdırma kompozisiyası təşkil edir.

Kompleksin şərq hissəsində əsas qrupu cənubda olan memorial hissə yerləşir. Planlaşdırmaya əsasən Seyid Həmzə mavzoleyinin otaqları küçəyə paralel olaraq en istiqamətində uzadılıb. Portalın dəyişilməz dərin çatma formalı oyuğu ensiz qoruyucu birmarşlı pilləkən qəfəsləri ilə bilavasitə mərkəzi bölməyə yönəlib, möhkəm köməkçi tağlar memorial qrupun əsas günbəzini saxlayırlar. Yan qanadlar həmçinin kiçik miqyaslı günbəzlərlə örtülüb. Tikilinin müxtəlif vaxtlarda tikilməsi planlaşdırmanı bir qədər mürəkkəbləşdirmişdir, çoxlu kameralar yaranmışdır, daxili sistem konstruktiv həll zamanı əmələ gəlmiş taxçalarla, təsadüfi künclərlə doldurulub. Memorialın şərq və şimali qanadlarında xidməti və yaşayış otaqları yerləşir.

Müstəqil tikili olmayan şimal qanad şərq hissəsi ilə sıx əlaqələnir. Lakin buna baxmayaraq, o planlaşdırmada seçilir. Mavzoley portalının oxu və qanadı eyni xətdə yerləşdiyi üçün üst-üstə düşür. Şimali qanadda bucağı kəsilmiş uzadılmış

düzbucaq zal səkkizbucaqlıdır. Mərkəzi hissədə yerləşən zal köməkçi tağlar vasitəsilə günbəzlə örtülüb.

Bütövlükdə, bütün kompleksin daxili planlaşdırması müxtəlif mövzularla doludur və maraqlı kompozisiya strukturu təşkil edir. Məscid həm tikinti, həm memarlıq səciyyəsi ilə, həm də konstuktiv baxımından ümumi orta ölçülərə baxmayaraq bədii həllin yetkinliyi ilə, ənənəvi memarlıq yükü altında daxili fəzanın dərk edilməsi ilə təsir bağışlayır. İbadətgahın mərkəzi hissəsi üzərində günbəzin qüvvətli xətti geniş köməkçi tağlarla xüsusi plastika yaradır. Daxili fəzanın yan hissələrinə keçid məscidin tikintisinin bütün sisteminin memarlıq inkişafının istiqaməti ilə müəyyən edilir.

Zalın yan hissələrinin, xüsusilə Təbriz məktəbinin bol dekorativli incə plafonları şəklində çatıların həlli, memarlığın klassik dövrün keçilmiş mərhələsinə baxmayaraq, yerli memarların yetişkənliyini əks etdirir. İfadəli memarlıq və konstruktiv formalardan ibadətgahın kompozisiya strukturunun plastik və bədii elementlərinin ümumi kontekstində meydana gəlməsi emosional, dolğun palitrasının həyata gəlməsinə səbəb olmuşdur.

Köməkçi tağlardan günbəzə keçid bitki səciyyəli ornamentlə örtülmüş stalaktit oyuqlara bölünmüş paruslar vasitəsilə həyata keçirilir. Günbəz və parusların arasından pəncərənin altından Quran yazıları mülayim və gözəl nazik zolaq şəklində keçir. Yazıdan başlayaraq seksiyalara bölünən və iri xonça ilə birləşən günbəz ucuna kimi bitki ornamenti ilə örtülüb. Ornament bölmələrinin naxışı ilə bağlanmış xonçanın ləçəkləri dini məzmunlu epiqraf yazıları ilə doldurulub.

Parus və günbəzlərin dekorativ zənginliyi Təbriz memarlığı üçün səciyyəvidir və axırıncı yüzilliyə kimi ibadət tikilisində ən çox sevilən üsul idi. Təbii ki, ibadətgahın əyani və fəza mühiti isti çalarlı zəngin günbəzli örtüklə və yan dərin taxçaların incə işlənmiş plafonları ilə gözəllik və sonsuzluq atmosferinin, kainatın ibadət tikilisinin yaranmasına imkan yaratdı.

Məscidin küçəyə fasadı yoxdur, görünməyən giriş portalından başqa ticarət mağazaları ilə bağlanıb. Məscidin baş fasadı yaşıl səliqəli həyətə baxır. Portalın çatma tağının enli oyuğu vurğulanmış şaquli tilləri olan kvadrata daxil olur, ifadəli günbəzlə tamamlanır və fasadın ikimərtəbəli qoruyucu hissələri ilə tarazlaşdırılır. Fasadın memarlıq kompozisiyasının formaları ciddidir, hissələri sadədir və həcmli plastikası ifadəlidir. Təbrizdə saxlanılmış ibadət tikililərinin arasında Seyid-Həmzə məscidi mühüm yer tutur.

İbadət kompleksinə daxil edilmiş oktoqonal planlı memorial bina məscidlə eyni kompozisiya elementlərinə aiddir. İranın memorial bina memarlığının bu növ plan həlli hamıya məlumdur, lakin bir kompleks yeni məzmunla inkişaf etdiyindən həmçinin simvolik əhəmiyyət əldə edir. Yanında küncləri kəsilmiş düzbucaq zallı digər tikilinin meydana gəlməsi ilə ibadət tikilisinin çoxbucaqlı formalarına maraq oyanır. Yalnız Seyid-Həmzə mavzoleyi xətti planlaşdırma kompozisiyasına sadiq qalır.

Kompleksin binalarının daxili planlaşdırmasında müxtəlif kompozisiya üsullarının istifadəsinə, memarların müqəddəs yerə ekspressiya və gözəllik əlavə etmələrinə düşünülmüş bədii yaradıcılıq mövqeyi kimi baxmaq lazımdır.

Meydana baxan minarəli fasad geniş memarlıq işlənməsinə iddia etmir. Kompleksin uzunluğu boyunca bütöv divar şaquli hissələrin hərəkəti ilə, səthi düzbucaq taxçalarla, təsadüfən əlavə

edilmiş çatma tağlarla fasadın memarlığına xüsusi maraq oyatmır. Yalnız həyət girişinin portalı və yanında yerləşən minarə diqqətə layiqdir. Lakin, həcmli kompozisiyada günbəzlər ibadət tikilisinin memarlıq simasının açılmasında fəal iştirak edir və minarə ilə birlikdə müəyyən dinamika yaradırlar.

İslam dünyasının, o cümlədən Təbrizin məşhur ibadət tikililərindən biri 1465-ci ildə inşaatın və memarlığın çiçəkləndiyi Qaraqoyunlu sülaləsinin hökmranlığı dövründə tikilən "Göy məscid"dir. Məscid çox geniş sahəyə malik idi. Belə miqyasda ibadət tikilisinin inşası başlandığı dövrdə bu istiqamətdə böyük təcrübə əldə etmişdilər. Ənənəyə, varəsəliyə əsaslanan və müasir sapmada öz fərdiliyini qoruyan memarlar Təbrizdə tikilən Əli şah Tacəddinin məscidindən, Sultaniyyədən və s. tikililərdən ibrət dərsi götürdülər (4, s. 141).

Məscidin planlaşdırma quruluşunun əsasını əzəmətli mehrabın yerləşdiyi cənub hissəsindən başqa hər tərəfi üç oyuqla açılmış iri həcmli pavilyon üslublu təşkil edir. Məscidin kompozisiyası sərt klassik simmetriyalıdır, günbəzaltı fəzanın kvadratı 16x16 m təşkil edir.

Naxçıvandakı Cümə-məscidi memorial kompleksinin quruluşuna nəzər saldıqda, Təbrizdə tikilən Göy məscidlərlə oxşarlıq diqqəti cəlb edir. Eyni mərkəzi pavilyonun üç tərəfi kiçik günbəzlərlə örtülən bölmələrdən ibarət qalereya ilə əhatələnir.

Kostanın planı və D. Uilberin müasir planının ümumi ölçüləri və planlaşdırma mövqeləri eynidir, lakin mərkəzi pavilyonun divarlarının, qalereyaların şərhində və mehrab otağının planında fərq mövcuddur. Mərkəzi portal və beş bölməli qalereya yenidənqurma müəlliflərinin işlərinin eyniliyini təsdiqləyir, lakin yan qalereyalar fərqli struktur əldə edirlər. Uilber günbəzli aralıq səciyyəli əlavə seksiya daxil edir. Kostadan fərqli olaraq, mehrablı otağın xarici çevrəsinə mehrabın planı təkrarlanaraq təraşlanmış apsida forması verilib. Lakin bunların hamısı arxeoloqların təsdiqi olmadığı üçün fərziyyədir (182).

Son zamanlara qədər Göy məscid xaraba vəziyyətində idi. Onun keramik kaşılı, gözəl ornament mövzulu möhtəşəm formalarının rəng çalarları, kufi və nəsh xətti ilə işlənmiş dekorativ yazılarla genişlənmişdir. Məscidin daxili səthi dekorativ mövzularla zəngin olmasına baxmayaraq, öz möhtəşəmliyini itirməyib.

Memarlıq kütlələrin mütənasib hissələri, klassik işlənmiş formaları, konstruktiv üsullarının düzgün bölünməsi hətta viranə olmuş halda belə gözəl kompozisiyasını gizlətmir. Burada XX əsrin fransız memarı Ogüst Pirrenin "memarlıq viranə olmuş halda belə gözəl olmalıdır" sözlərini bilavasitə Göy məscidə aid etmək yerinə düşər.

Son zamanlar məsciddə aparılan bərpa işləri mənfi təsir göstərib. Məscid yalnız möhtəşəmliyini deyil, öz həcmini də itirib. Onun ilk görünüşünü saxlamaq cəhdlərinə baxmayaraq, sanki kiçilib və məzmunu özgələşib.

Təbrizin ibadət tikililəri arasında 1310-1324-cü ildə tikilmiş və çoxlu araşdırmalar həsr olunmuş Əli-şahın məscidi xüsusi yer tutur. Məscid şəhərin tarixi hissəsində, Miyar-Miyan məhəlləsində memarlıq-planlaşdırma strukturuna mədrəsə, zaviyyə, türbə, hamam, bazarlar daxil olan böyük kompleksin ərazisində tikilib (1, s. 31).

Əli şahın məscidi ənənəvi sxem əsasında tikilmişdir: mərkəzdə üç tərəfdən iki cərgə sütunlardan ibarət qalereya ilə əhatələnən geniş həyət yerləşir. Giriş mərkəzində portal, yanlarında qoruyucu minarələr yerləşən mürəkkəbləşdirilmiş

memarlıq kompozisiyası ilə vurğulanıb. Ekspressiya və dinamizmlə dolu olan həcm və fəza kompozisiyasının formaları təntənə və möhtəşəmliyi ilə seçilirdi, əsas portal tağı Ktesifondakı Xosrov sarayını geridə qoyurdu. Məscid qübbəsinin tağının aralığı Əli şah Təbrizinin vəzirinin tələbi əsasında 30,15 metr hündürlüyündə tikilmişdir.

Məscid həməsrləri çox qısa müddət ərzində vəcdə gətirdi. Möhtəşəm portallı tikintinin tələsikliyi özünü doğrultmadı.

Təbriz şəhəri tarixən Səlcuqilər, Hülakilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi bir çox dövlət təşkil etmələrin paytaxtı olmuşdur. Coğrafi vəziyyəti, xoş iqlimi və geosiyasi şəraitinə görə, xüsusilə monqollar tərəfindən Təbrizin rəqibi olan Bağdad alındıqdan sonra Təbriz beynəlxalq ticarətin yayılma mərkəzinə çevrildi (3, s. 63, (80, s. 156).

Bu məzmunlu və mürəkkəb bazar kompleksinin əmələ gəlməsinə və formalaşmasına imkan yaratdı. Şam-Qazan və Rəbi-Rəşidi böyük imkanlara malik olsalar da, tarixi mərkəzin planlaşdırma strukturuna daxil olmadıqları üçün əhəmiyyətli və gələcəyi olan ticarət kompleksləri sırasına daxil olmadılar. Şəhər həyatında xüsusi yer tutan ticarət bazarın ictimai-iqtisadi istiqamətini müəyyənləşdirdi. İxtisaslaşdırılmış bazar cərgələrinin təşkili və üstüörtülü bazar üslublu planlaşdırma mərkəzinin təməlində cəmlənməsi gələcək bazar kompleksinin yaranması üçün ilk mərhələ idi.

Şəhər inkişafının hər bir mərhələsi bazar cərgələrinin memarlıq-planlaşdırma, həcm və məkan strukturuna müntəzəm surətdə təsir göstərirdi. Cərgələr bazarın ticari infrastrukturunda baş verən bu və ya digər dəyişikliklərə xüsusi reaksiya göstərirdilər. Bazar tikililəri arasında irimiqyaslı saray və karvansaraların meydana gəlməsi bazar kompleksinin gələcəkdə formalaşmasına təsir göstərdi.



*Təbriz. Məscidin planı bazarın tərkibində.*

Zəlzələ zamanı dağılan Təbriz bazarı Nəsrəddin şahın hakimiyyəti dövründə bərpa edilmişdir. Tikinti üçün ayrılmış sahənin yaxınlığında böyük məhəllədə yerləşir və bir tərəfdən magistral küçəyə, digər tərəfdən isə çay qırağına baxırdı. Onlar üstü bağlı sıralardan başqa bayırdan keçən düz dar küçələrlə əlaqələnirdilər. Bazarın ərazisi perpendikulyar ticarət cərgələri ilə nisbətən düzbucaq məhəllələr sırasına bölünürdü. Plan üzrə məhəllələrin ərazisinə müxtəlif şəkilli Səfərəli, Məsfərqe, Əmir, Rasta bazar Dənedid və s. karvansaraların həyətləri daxil edilib. Tipoloji cəhətdən eyni, həcm həllinə və daxili məkanına görə müx-

təlif olan ticarət şöbələrinin çeşidliliyi məcmuda güclü irsin memarlıq kompozisiyasını təşkil edir. Bu obyektlərin quruluş mahiyyəti, memarlıq formalarının əzəmətli hünəri, qamətli tağlar işıq fənərli günbəzlərin mürəkkəb strukturları ilə tamamlanır. Bu memarların möhtəşəm nailiyyətidir, memarlığın binanın bütün elementlərinin tam tektonikalı konstruksiyası ilə birləşməsidir.

Karvansaralar şəhər bazarlarının fəal obyektləridir, onlar əsasən örtülü ticarət cərgələrini əhatə edirlər. İranda ilk karvansara olan Robatkərim şərti ola-



*Kaşan. Bəhşi timçəsi. Aksonometrik görünüş.*



*Təbriz. Əbül Həsən timçəsi. Plan.*

raq X əsrə aiddir, orta əsrlərdə ən məşhur Robate Şərif karvansarası isə ehtimala görə Sultan Səncərin vəziri Şərəf-əd-Din tərəfindən 1114-1115-ci illərdə tikilib. O vaxtdan İranın ərazisində minlərlə karvansaralar tikilmişdir, xüsusilə I Şah Abbas və onun vərəsələri dövründə tikinti inkişaf etmişdir. Səfəvilərin memarlıq mədəniyyətinin səviyyəsinə qədər inkişaf etməmələrinə baxmayaraq, Qacarlar tikinti fəaliyyətində Səfəvilərdən geri qalmırdılar.

Keçmişdə olduğu kimi, şəhər və yol karvansaraları mövcud idi. Şəhər karvansaraları bazarın strukturuna daxil olurdu, böyük və ya kiçik miqyaslı vahid memarlıq-planlaşdırma orqanı kimi fəaliyyət göstərirdi. Qacarlar dövründə karvansara tikilərkən keçmişin zəngin təcrübəsinə yeni elementlər daxil edilir, dövrün ictimai-iqtisadi şəraiti nəzərə alınırdı. Adətən kvadrat və ya düzbucaq həyət təşkiledici amil idi, onun ətrafında insanlar, mallar və heyvanlar üçün otaqlar qruplaşırdı. Bura Kaşanda Əli-xanın karvansarasını, Qəzvində Saraye-Vəzir və s. aid etmək olar.

Kaşandakı karvansara böyük ərazidə yerləşir, iki həyətdən ibarətdir. Təmtəraqlı ox hissəsi çarpaz xarakterlidir, tağ kompozisiyası ilə böyük memarlıq formaları vasitəsilə təqdim olunub. Birinci həyət ikimərtəbəli qalereya ilə əhatələnib, aşağı mərtəbə dayaq-tir sistemində, yuxarı mərtəbə aşağı qaldırılma sütunları ilə həll edilib. Ikinci mərtəbənin mərkəzi hissəsi enli çatma tağı, stalaktit konxa və pilləli Qacar frontonu ilə maraq doğurur. Burada tağlar arasında pilyastr formasında sütunların hərəkəti olan Avropa memarlıq kompozisiya üsulundan və həmçinin karvansaranın daxili məkanında yad element kimi görünən birinci mərtəbənin sütunlarını qeyri-proporsional tiraltısından istifadə edilib. Qədimi memarlıq mühitində uyğunlaşma prosesi çox ağır keçirdi və yeni üsul, forma və elementlər mənimsənilmirdi. Qacar memarlıq üslubunda olan karvansaranın mərkəzi hissəsi fasadın quruluşuna solğun forma və elementlərlə daxil olmurdu.

Karvansaranın növbəti həyəti eyvan formatında, sanki milli memarlıq ənənələrinin pozulmasından sonra, məlum üsul olan böyük tağla tikilib. Mərkəzin portal kompozisiyası yoxdur, Qacar üslubuna oxşar, aydın memarlıq ifadəsi olmayan orijinal frontona çevrilib. Birinci həyətin pilləli frontonu və digərinin tağlı forması o dövrün üslub istiqamətinin həll edilməmiş üsulunun müvaziliyidir.

Qəzvindəki Saraye-Vəzir Qacarlar dövründə tikilən böyük karvansaralardan biridir, bir çox mədrəsə və məscidlərdə olduğu kimi dörd eyvan üslubludur. Karvansaranın üfüqi yastıladılmış, ox üzrə portallarla qeyd olunmuş günbəz hissəsi xüsusi diqqət çəkir. Səkkizguşəli otaqda ənənəvi mövzular bütün qüvvəsi ilə göstərilib. Xüsusilə günbəzə stalaktit şəkilli oyuqlarla keçid plafonun daxili məkanını fantastik həndəsi bəzəyə çevirir. Kompozisiya forması yüngül və xəfifdir, fəzanın maddiliyi itir və yüngül örtük kimi çıxış edir. Otağın aşağı hissəsinin çatma tağları sakit və ənənəvi formadadır, onların müxtəlifliyi memarlıq və bədii ifadənin ən yüksək nöqtəsinə çatmasını bildirmir.

O dövrün hər hansı yaşayış, mülki və ibadət tikililərində binanın memarlıq-planlaşdırma, həcm və məkan strukturunda kompozisiya baxımından maraqlı üsul, forma və mövzuların aşkar edilməsi müşahidə olunur. Bu memarların bir növ bankıdır və ölkənin memarlıq irsini artıraraq ona tənqidlə yanaşmağa imkan verir (33, s. 228).



*Kaşan. "Bəhşi" Timçəsi. Aksonometrik görünüş.*

O dövrün memarlıq irsində ənənəvi üsulların istifadəsində müxtəlif yanaşmalarla qarşılaşırıq. İdrak səviyyəsindən asılı olaraq keçmişin qədimi laylarına baxmayaraq memarlar novator kimi çıxış edirdilər. Ətraf əyani-məkan mühiti yeni üslub istiqamətində olan imkanları məhdudlaşdırdığı üçün hər dəfə şablondan uzaqlaşmaq olmurdu.

Qacarlar dövründə mülki binaların planının dəyişməsi, daxili məkanın genişlənməsi, orijinal günbəz və tağlı örtülü zal üslublu otaqların meydana gəlməsi üçün şərait yarandı. Keyfiyyət baxımından Səfəvilərdən geri qalmağına baxmayaraq, bu memarlıq üsullarının və dekorativ mövzuların dəyişilməsinə, rəng palitrasının genişlənməsinə səbəb oldu. Belə hal saray, ibadət və mülki tikintidə müşahidə olunur.

XIX əsrin ikinci yarısında dövrün məsələlərinin həllinə tələblər qoyaraq Qacar üslubunun yaranma prosesi tamamilə formalaşdı (129, s. 229). Memarlar yeni üsul və formalarla qarşılaşdıqda keçmişin memarlıq ənənələrindən uzaqlaşmayaraq onların daxili mahiyyətini yaxınlaşdırmağı və yaranmış üslubun fərdi anlayışını açmağı çalışırdılar. Dünya memarlığının görkəmli əsərlərini yaradan, əsrlərlə xidmət edən ənənələri qırmağa çalışmırdılar. Ənənənin yalnız tarix deyil, eyni zamanda yeni üslub cərəyanının mənimsənmə prosesi zamanı problemin mövcud olduğunu gözəl anlayırdılar (231).

Sədr-Soltane karvansarası binanın daxili məkanında baş verən dəyişikliklər qapalı həyətləri əhatə edən hücrə sistemində deyil, mərkəzi hissənin çarpazşəkilli planında olduğunu təsdiqləyir. Günbəz və yan tağlar keçmişdəkindən tamamilə fərqli olaraq həll edilib, ənənəvi üsul və elementləri yeni bədii sima alaraq gözəl memarlıq konstruksiya forması əldə edir. Məhz burada, qədim ənənələrin qırılması deyil, təşkil etmə elementlərinə yeni münasibət formalaşdığı zaman Qacar üslubunun yaranması hiss olunur.

Kaşandakı Timçe-Bəxşi bu mövzunun davamıdır. Binanın həm həcm və məkan, həm planlaşdırma baxımından bazarın strukturunda Г-şəkilli formada yerləşdirilməsi və yarus sistemli otaqların iştirakı böyük maraq doğurur. Bura iki hissədən ibarətdir: əsas qapalı məkan və perimetr boyunca ikiyaruslu həyət hissəsi. Zirzəmi otaqları yerləşən həyət hissəsi əsas binadan alçaq səviyyədə yerləşir. Həyətin aşağı meydançası, yuxarı yarusun lojiyaları və əsas binanın çoxgünbəzli sisteminin fəal daxil olması ilə maraqlı həcm və plastiki kompozisiya yarandı.

Səkkizguşəli formalı vestibül geniş ikiyaruslu zala keçidlə əsas binanın üstün elementidir. Çatılar mürəkkəb formalı tağ və günbəz kompozisiyası yaradır. Forması və gözəlliyi ilə binanın daxili məkanının mahiyyətini açan müxtəlif həcmli elementlərdən düzəldilmiş me-



*Kaşan. "Bəhşi" Timçəsi. Kəsiyi.*

marlıq konstruksiyaların xüsusi dünyası yaranıb. İnteryer səciyyəvidir və saray məzmunludur, onun üstünlüyü dekorativ mövzuların təmtəraqlı və yapma bəzəklərinin zənginliyi ilə deyil, tektonik formaların məkanı ifadəsindədir. Həcmli elementlərin interpretasiyası memarlıq inkişafının yeni şəraiti ilə şərtlənir, məlum ənənəvi formaların əsasında olan yeni konstruktiv üsulların dərk edilmə tələbi ön plana çəkilir.

Qacar dövrünün bina tikintisinin təcrübəsindən, Qərb təsirinin zahiri tərəflərini nəzərə almayaraq, XIX əsr İran memarlığının əsasən ənənəvi istiqamətdə inkişaf etməsi görünür. Ənənəvi memarlığın təntənə və təmtərağı və otaqların daxili məkanının planlaşdırma həlli hətta fransız və ingilis səfirliklərinin binalarından yan keçməyib. Dərin lojiyalar hovuzlu, zəngin bəzəkli və səliqəli həyətlərə yönəlib. Memarlıq üsul, forma və həcmlərin yerli mikrodünyası bədii atmosfer yaradır və ənənəvi mühiti qoruyur.

Bu ənənələrin əsasında yeni axtarışlar meydana gəlməyə başladı, xüsusilə Avropa memarlığının üsul, dekorativ elementləri və mövzuları başlanğıcda zəif yayılmağa başladılar. Avropa memarlığı ilə tanışlıq izsiz keçə bilməzdi, çünki bunun üçün artıq şərait yaranmışdır.

Ənənələrin təsirindən azad olmaq üçün memarlar tədricən fasad və interyerlərin həllində yeni forma və motiv-

*Kaşan. Timçə. Planı.*



lərdən istifadə edirdilər. Orijinal günbəz və tağ çatıları ictimai binaların xüsusi planlaşdırma formalarını və onların məkan strukturunu tapmağa kömək edirdi.

İctimai binalar, karvansaralar və bəzi digər saray üslublu tikililərə ölkədə baş verən memarlıq dəyişikliklərinin təsir göstərsələr də, hamamlar hələ də ənənələrin güclü təsiri altında qalırdı.

Qədim tikili olan hamamlar Azərbaycan və İranın şəhər və yaşayış məntəqələrinin strukturuna daxil olurdular. Onlar bazarların ayrılmaz hissəsi kimi, onların tərkibinə daxil olaraq məhəllənin ortasında, məscidin yanında yerləşirdi. İndi də kiçik şəhərlərdə mövcud olan hamamlar şəhərsalma nöqteyi-nəzərindən mühüm rol oynayırdı.

Mədəniyyət və ictimai tikili olan hamamlar sanitar-gigiyena və ictimai vəzifələri yerinə yetirirdilər. Əhalinin həyatında hamamlar istirahət, görüş, fəlsəfi söhbət və müzakirə yerlərinin funksiyasını yerinə yetirirdilər. Onların geniş və rahat otaqları ticarət sazişləri və şairlərin çıxışları üçün əla şəraitə malik idi. Bir sözlə, hamam – Şərqə məxsus klub idi, Şərq və Avropa səyahətçiləri ona valeh idilər.

Səfəvilər dövrü, xüsusilə I Şah Abbasın hakimiyyəti dövrü böyük tikinti fəaliyyəti ilə seçilirdi, çoxsaylı şəhərsalma tədbirləri, məşhur İsfahan meydanının tikintisi, saray komplekslərinin, məscidlərin, karvansaraların, körpülərin, hamamların tikintisi onun adı ilə bağlı idi (10, s. 136).

Səfəvilər dövrünün hamamları gözəl planlaşdırma strukturuna malikdir: səkkizguşəli zallar müxtəlif şəkillərdə çarpazşəkilli günbəzlərə sarmaşırlar, şəxsi istifadə üçün olan kiçik kameralar soyunma yerləri ilə birləşirlər. Hamamların mürəkkəb planlaşdırması plastik səciyyəli həcm və məkan həllinə səbəb olurdu. Sütunları köməkçi tağlar saxlayır, dəlik-dəlik parusların vasitəsilə günbəzlərə keçirlər. Balaca köməkçi tağlar divarlarla birləşir. Sütunlardan ibarət həcmli konstruktiv üsulun təkrarlanması bədii forma kimi təsir göstərir. İnteryerlər memarlıq formaları ilə zəngindirlər, çatma tağlar dekorativ mövzu ilə birləşərək günbəz karkasın məkan mühitini yaradır. Parabolik hiperbolik formaların iştirakı hamamların günbəz çatılarında geniş istifadə olunur, memarlıq yükünü daşıyırlar və eyni zamanda, zal interyerlərinin daxili sisteminə təsir göstərirlər. Bir çox hamamların zalları saray genişliyi ilə tikiliblər və təmtəraqlı otaqları xatırladırlar. Hovuz sistemləri, fəvvarələrin incə şırıltısı hamam zallarına və memarlıq formalarına müvafiq səslənmə verir.

Qacarlar dövründə inşa edilən ictimai binaların, o cümlədən hamamların vüsəti Səfəvi dövründən geri qalmır. Memarlar bu binaların formalaşmış memarlıq-planlaşdırma ənənələrini demək olar ki, pozmadan eyni aspektdə tikməyə davam edirdilər. Onlardan öncə tətbiq edilən texnoloji üsullardan və hamamların daxili fəzasının həll etmə qaydalarından istifadə edirdilər. Yalnız ön otaqların təntənəliyinə, onların sahəsinin genişlənməsinə və həcmli kütlələrin tektonikasına çox diqqət yetirilirdi. Hamamların quruluşunda otaq interyerlərini yaxşılaşdıran səciyyəvi memarlıq elementləri və formaları iştirak edirdi, daxili simasına məlumatlıq gətirirdilər və eyni zamanda kompozisiya üsullarını diktə edirdilər (Lahican, Kaşan, Qəzvin, Yəzd, Kirman, Tehran və s. şəhərlərdə hamamlar).

# XÜLASƏ

Azərbaycan və İranın paytaxtı olmuş Təbriz, Qəzvin, İsfahan, Şiraz və Tehran tarixi hadisələr boyunca Yaxın və Orta Şərqin tarixində memarlıq və şəhərsalmanın inkişafında xüsusi yer tuturlar.

Onlar, qədim zamanlardan ardıcıl olaraq dövlət səviyyəsinin göstəricisi olan memarlıq və şəhərsalmanın maraqlı həcm və məkan həllinin meydana gəlməsinə səbəb olmuşdular.

Tarixi hadisələrin nəticəsində paytaxt şəhərlərinin ərazisində dini mərkəzlər meydana gəlmişdir, yeni şəhərlərin inkişafına imkan yaradan əyalət mərkəzləri ətraf mühitin inkişafında şəhərsalma tələblərini fəal formada yerinə yetirirdilər.

Şəhərlərdə yaşayış və saray memarlığının yeni növləri yaranmışdır, şəhərsalma pozisiyası yaxşılaşmışdır, sıravi tikililərdə siluetin yüksək fəallığı meydana gəlmişdir.

Yaşayış memarlığının zənginliyi onların inkişafının yeni dialektika formasını irəli sürdü: şəhər məhəllələrində açıq üslublu təmtəraqlı saray binaları tikilərək tipoloji qruplara bölündü.

Saray tikintisi Səfəvilər dövründə, xüsusilə İsfahanı yenidən tikərək İran paytaxtının şəhərsalma strukturuna mütərəqqi töhfə vermiş I Şah Abbasın hakimiyyəti zamanı (1581-1629) geniş inkişaf etmişdir. İsfahanın qədimi məhəllələrindən kənara çıxaraq, yeni böyük meydan (510x165 m) yaradaraq, ətraf sahəni memarlıq saray kompleksləri ilə möhkəmlədərək dünya şəhərsalma elmini zənginləşdirmişdir.

1722-ci ildə əfqan ordusu tərəfindən İranın işğalı və Səfəvi sülaləsinin süqutu ölkənin iflasına gətirib çıxartdı. Yeddi il sonra Nadir şah əfqanları həmin ərazidən uzaqlaşdırdı. Çox keçmədən, 1747-ci ildə Nadir şahın siyasəti onun ölümü ilə nəticələndi.

1750-ci ildə Kərim xan Zənd İranda hakimiyyəti ələ keçirib paytaxtı Şiraza köçürdükdən sonra, onun fəaliyyəti nəticəsində şəhəri saray, məscid, bazar, divanxana və digər ictimai tikililər bəzədi. Kərim xanın ölümündən sonra İranda nisbi sakitlik 1779-cu ildə pozuldu, Zən və Qacarlar arasında müharibə başlandı. Qacarlar qalib gələrək yeni sülalə yaratdılar (1794-1925-ci illər), yeni saray, ibadət, memorial, mülki tikililər inşa etdilər, şəhərsalmanı və mədəniyyəti inkişaf etdirdilər.

Qacar memarlığı əsrdən çox bu istiqamətdə fəaliyyət göstərdi və nəticədə şəxsi üslub sistemi – Qacar üslubu yarandı. Bu üslubda olan tikililər İranın bir çox şəhərlərinin yaraşığıdır və milli memarlığın əsl abidələridirlər.

Qacarlar hakimiyyətə gəldikdə dərhal Tehranda və ətrafında saray tikililərinin inşasına başladılar: Qəsre Qacar, Polistan, Niyaveran, Nigarestan, Şirazabad, Kaxe Abad, Aləm el Salami, Pirnil, Kavam al-Soltani, Kaxe Abgind, Soltanabad Dovşan-təpə kompleksi, Zilli Sultan, Firdovsi sarayları.

Qacarların hər bir saray binası özünə məxsus orijinallığa malikdir. Onlar müxtəlif iqlim şəraitində, maraqlı landşaft yerlərində yerləşir. Məsələn, Qəsre Qacar üfüqi səthin üzərində çoxmərtəbəli həcmi ilə dağ mənzərəsində yerləşir. Əslində hər bir mərtəbə pilləkən marşında olduğu

kimi yerləşib və maraqlı memarlıq kompozisiyaya malikdir. Qeyd etmək lazımdır ki, bütün saraylar gözəl təbiət, mənzərə və zəngin saray interyeri xoşlayan Nəsrəddin şahın təşəbbüsü ilə tikilmişdir.

Dovşan-təpə saray kompleksi ətraf sakit mənzərəyə hökmranlıq edən dağlıq səhra ərazisində yerləşir. Tezliklə səhranın bu guşəsi saray binaları olan gözəl yaşıl vahəyə çevrildi.

Təbrizin imarətləri tipoloji cəhətdən beş növə bölünür, hər biri daxili strukturu fərqli şəkildə təqdim edir. Onlar məhəllə tikililəri sırasına milli xüsusiyyətlərini itirmədən, yeni üsulların təsiri altında qapalı mühiti nəzərə alaraq daxil oldular.

Zəngin mülki və ibadət memarlığı Azərbaycanın və İranın hər yerində geniş yayılmışdır. Bu baxımdan xüsusilə, yalnız yuyunmaq üçün deyil, poeziya çıxışları, fəlsəfi müzakirələr, xəbərlərlə bölüşmək üçün nəzərdə tutulan hamamlar seçilirdi. Onların zəngin memarlıq həlli, çoxsütunlu günbəzli örtülərindən ibarət kompozisiya üsulları gözəl interyerləri açırlar. İbadət obyektləri günbəzlərin iri həcmləri, tağ üsulları, Quran oxunuşu ilə tamamilə fərqli mühitdir.

Şərqdə və İranda bazara xüsusi diqqət yetirilir. Bizim "Təbriz bazarı, memarlıq-planlaşdırma kompleksi və ibadət tikililəri" adlı araşdırmamız xüsusi əhəmiyyət kəsb edir. Bazar şəhərin mərkəzində yerləşir, bir tərəfindən iri magistral, digərindən çay keçir. Yaşayış məntəqələri uzunluğu 2 km artıq olan bu monolit struktura qismən daxil oldu. Bazarın ərazisi çoxsaylı gözəl planlaşdırılmış böyük karvansaralardan, timçə, qapalı üslublu bazarlardan, ticarət küçələrindən ibarətdir.

Sağ tərəfdən bazarın strukturuna əsas divarlarla məhdudlaşmayan, azad keçidi olan yanaşı yerləşən böyük və kiçik ibadət tikililərindən ibarət kompleks daxil edilib.

Köhnə şəhəri perimetri boyunca döyüş qülləsi olan yarımdağılmış qala divarı əhatələyir. Qala divarlarının arxasında çoxlu saray binaları yerləşir. Cənubda ox üzrə "Ərk"ə çevrilən məscid yerləşir.

Səfəvilər kimi Qacarlar da gözəl ətraf mənzərə xoşlayırdılar, saray tikililəri və bağ yaşıllıqları ilə onlara daha da təntənəli görünüş verirdilər. Park zonalarına Fətəli şahın və Nəsrəddin şahın xoşuna gələcək gur adlar verirdilər. Saray tikililərinin təmtəraq və zənginliyi hədsiz idi, Nəsrəddin şah çox böyük park zonaları və Qacar üslublu memarlıq binaları ilə babasını geridə qoymuşdur.

Qacarlar dövrünün saray tikililəri planlaşdırma həllinin, həcm və məkan şərhinin müxtəlifliyi ilə seçilir. Fətəli şahın hakimiyyəti zamanı tikilən saraylar keçmişin memarlığına hörmət olaraq, ənənəvi üsullarla tikilib (Qəsre Qacar, Nigarestan), memarlıq kompozisiyasında ən maraqlı plastik forma və elementlər istifadə edilib. Gənc dinastiya yalnız Zəndlər üzərində qələbə nəticəsində əldə etdikləri dövlət hakimiyyəti ilə möhkəmlənmək istəmirdi, özlərini dövlətin və cəmiyyətin vizit kartı olan memarlıqda və tikintidə göstərmək istəyirdi.

Bu baxımdan xüsusilə Nəsrəddin şahın dövrü seçilirdi. Saray binalarının planlaşdırma strukturuna, interyerlərin daxili fəzasının müxtəlifliyi ilə fərqlənən kompozisiya həllinin tamamilə yeni üsulları daxil olur. Binanın planında yumru ellipsşəkilli, yarımdairəvi formalar geniş tətbiq edilməyə başlayır. Böyük rəngli vitrajlı şahnişini olan mərkəzi zal, iki yan girişli şəbəkə binanın planından çıxardılır. Binanın həcm və məkan kompozisiyası ikiyaruslu sütunlarla bərkidilən, binanın təmtəraqlığını daha da vurğulayan təntənəli ön girişlə mərkəzi-ox sistemi əldə edir.

Binanın oxu üzrə daxili planlaşdırmaya yumru formalı hamar xəttə salın-

mış təntənəli açıq üslublu ön pilləkən qəfəsinin daxil edilməsi saray interyerinin bütün mahiyyətini dəyişir. Bu baxımdan binanın planlaşdırması yeni məzmun əldə edir, memarlıq kompozisiyasının həllinə sərbəstlik gətirən daxili tematika genişlənir.

Nəsrəddin şahın Avropa ölkələrinə səyahət etməsi, sözsüz ki, onun memarlığa olan münasibətinə təsir göstərdi. Bina interyerlərinin həcmli plastikası və pilləkən qəfəsinin ümumi kompozisiyaya hakim və təntənəli element kimi daxil edilməsi şahı heyran etdi. Qacar saray tikililərin planlaşdırma və həcmli palitrasının həllində xüsusi memarlıq təhsili alan peşəkar memar Mehtixan Şahaği görkəmli yer tutur. Onun layihələri əsasında Kaxe Dərabad, Abgind muzeyi (Kavam as-Soltane), dövlət parlamenti və s. tikilib.

Bütün obyektlərdə memarların pilləkən qəfəsinin təntənəli formasından, İranın yeni şəraitində, tikintidə və memarlıqda yer almış yeni planlaşdırma və həcmli elementlərə zəmin yaradaraq onların memarlıq imkanlarından istifadə etmək cəhdi müşahidə olunur.

1818-ci ildə Nigarestan sarayına baş çəkmiş ser R.K.Porter interyerlərdə, xüsusilə iki ön zalın interyerində olan divar naxışı sayəsində alınan bu möhtəşəmliyi seyr etmişdir. 1834-cü ildə burada olmuş baron F.Korf sarayı belə təsvir edir: "Nigarestan şahın yay iqamətgahlarından biridir və iki zalı diqqətə layiqdir: birində Fətəli şahın oğullarının portreti çəkilib, ikincisində - üç divarda aşağıdakı rəsmlər çəkilib: orta divarda taxtda oturan taclı və şah geyimli Fətəli şah, əhatəsində bir neçə oğlu və dövlətin ən hörmətli əyanları; digər iki divarda müxtəlif Asiya geyimli çoxlu fiqurlar və mərhum şahın yanında müxtəlif ölkələrin diplomatik elçilərindən ibarət 4-5 avropalı... Avropalıların sırasında Malkolmun, ser Qor-Uzleyin və Moryerin portretləri var". Bu tarixi səhnə və divar naxışları məntəqənin quru iqlimində yaxşı saxlanılıb və o dövrün məşhur rəssamlarından biri olan və Qacarlar dövründə İranın rəssamlıq tarixində görkəmli yer tutan Məhəmməd-Həsən xan tərəfindən istifadə edilib.

Şəhər kənarında olan saray kompleksləri park yaşıllıqları arasındakı çoxsaylı hovuzlarla, fəvvarələrlə və göllərlə paytaxtın təbii mühitinin dəyişdirilməsində fəal yer tuturdular.

Rüstəmabad, Səltənətabad, İşrətabad, Qəsre Qacar, Qəsre Firuze, Dovşan-təpə və s. saray kompleksləri Elbrus dağının ətəyinə səpələnib. Onlar geniş ərazilərdə öz memarlıq-planlaşdırma şərhi ilə, səhralığın mədəniyyətinin qalxması üçün süni suvarmanın imkanlarından istifadə edərək bağ-park memarlıq sənətinin son dərəcəli əhəmiyyətli elementləri oldular.

Hər bir saray kompleksi yaşıl əkinlər və hovuzlarla, göllərlə və kanallarla planlaşdırılmış ərazidə geniş sahəyə malik idi və vahid sistemə fərdi memarlıq şəkli ilə daxil olurdu. Bu şəkillər həqiqətən böyük yaradıcılıq təxəyyülü ilə yaradılmışdır.

Binalar həcmli həllərin gözəlliyi ilə, fasadların plastikliyi ilə, həm eksteryerdə, həm interyerdə dekorativ-tətbiqi incəsənətin sintezindən istifadəsi ilə fərqlənirdilər və keçmişin memarlığını yeni sapmada davam etdirirdilər. Bu növ maraqlı binalara Şiratabadda "Əyləncə sarayı" aiddir. Pavilyon üslublu dördmərtəbəli binanın hər tərəfi fasaddır, parkın hər bir nöqtəsindən görsənir, həcm və məkan memarlıq həlli ilə diqqəti cəlb edir.

Bina həcminin mərtəbələrdəki üfüqi hissələri və fasadların şaquli kürəkciklər vasitəsilə ritmik yerləşən oyuq və taxçalar sırasına bölünməsi qəbul edilmiş sxemin dəqiqliyini və konstruktivliyini doğruldur. Qəbul edilən sxem dördüncü

mərtəbədə dairəvi sütunlar üzərindəki mürəkkəbləşdirilmiş açıq lociya ilə ifadə olunur və bütün binanın kompozisiyasının yuxarı ox hissəsi zənginləşir.

Baş fasadın memarlıq kompozisiyası yuxarı hissədə stalaktit kapitelli iki incə sütunlarla saxlanaraq fronton şəkilli səciyyəvi yarımdairəvi tağ formasındadır.

İrana avropalı işçilərin, məşhur hərbi qulluqçuların gəlməsi və mədəni cərəyanın tətbiqi yalnız texniki profilin deyil, memarlıq-inşaat səviyyəsinin inkişafına kömək edirdi. Qafqaz Rusiya tərəfindən işğal edildikdən sonra, 1813 və 1828-ci illərdə müharibələr zəngin və açılmamış ölkənin öyrənilməsinə təkan verdi. Rusiyanın səfiri Qriboyedovun erməni əməkdaşlarının fitnələri nəticəsində xoşagəlməz şəraitə düşməsi ölümlə nəticələndi. İran və Rusiya arasında danışıqlar dostlaşma ilə nəticələndi. 1826-cı ildə rus hərbiçiləri şəraitdən istifadə edərək paytaxt olan Tehranın Baş planını çəkdilər.

İranla sülh yarandıqdan sonra bu ölkə ilə tanışlığa və onun öyrənilməsinə əlverişli mühit yarandı. Avropalılarla bərabər ruslar da ölkənin tarixini və mədəniyyətini öyrənirdilər. 1850-ci ildən başlayaraq rus hərbi mühəndisləri İranın demək olar ki, bütün şəhərlərinin əsaslı Baş planlarını izahlı qeydlərlə tərtib etdilər. Burada paytaxt, rayon, vilayət və digər mərkəzlər təsvir olunub.

Qacar şəhərsalma və memarlıq sisteminin İranın strukturuna yeni milli nəzərlə daxil olması təbii ki, inkişafa yeni istiqamət verdi.

Dövlət mükafatı laureatı, Azərbaycanın əməkdar memarı, AMEA-nın müxbir üzvü, Beynəlxalq Memarlıq Akademiyasının (Moskva) müxbir üzvü, Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının Prezidenti, türk incəsənəti Beynəlxalq Konqresinin həqiqi üzvü, memarlıq doktoru, professor Şamil Seyfəddin oğlu Fətullayev-Fiqarov yalnız bizim ölkədə deyil, xaricdə də görkəmli alim, memarlıq elmində tarixi problemləri və İslam memarlığı nəzəriyyəsi kimi tanınmış əsaslı əsərlərin müəllifidir.

Ş.S.Fətullayev-Fiqarov 24 dekabr 1928-ci ildə Bakıda anadan olmuşdur. O, qədim Dərbənd nəslinin nümayəndəsidir, onun ata-babası XV əsrdən məşhurdurlar. Babası Əli Mirzə Fiqarov, Hacı Zülfüqarov bəyin nəvəsi Dərbənd şəhərində böyük mülkədar, ev sahibi və balıq sənayesinin sahibi olduğundan 1937-ci ildə həbs olunaraq güllələnmişdir.

Ş.S.Fətullayev-Fiqarov 1953-cü ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq-inşaat fakültəsini bitirmişdir. 1956-cı ildə AMEA-nın memarlıq və incəsənət İnstitutunun aspirantı, 1963-cü ildə memarlıq namizədi olmuşdur, 1979-cu ildə "Şöhrət" ordeni ilə, Polşa Respublikasının qızıl medalı ilə təltif edilib, prezident təqaüdçüsüdür.

Ş.S.Fətullayev-Fiqarovun rəhbərliyi altında 20 namizəd və 4 memarlıq doktoru hazırlanmışdır. Ş.S.Fətullayev-Fiqarov ölkəmizdə və xaricdə dərc olunan bir neçə monoqrafiya müəllifidir, o cümlədən, "XVI-XX əsrlərdə Azərbaycanda şəhərsalma" (Azərbaycan EA nəşriyyatı, Bakı, 1963), "XIX-XX əsrin əvvəlində Bakı şəhərsalması" (Leninqrad, 1978), "XIX-XX əsrin əvvəlində Bakı şəhərsalma və memarlığı" (Leninqrad, 1986), "Azərbaycan məscidləri" (Tehran, 1996, fars dilində), "Bakının memarlıq ensiklopediyası" (Bakı-Ankara, 1988), "Qacarlar dövründə İran şəhərlərinin dayaq planları" (Tehran, 2000, fars dilində), "Abşeron memarlığı" (Bakı, 2003), "Memarlıq şəkilləri" (Bakı, 2008).

Hazırda Azərbaycan Memarlar İttifaqının nəşriyyatında "İnqilaba qədərki Bakı memarları, Qacarlar - Şərq memarlığında yeni cərəyan" kitabı çapa verilib.

# BİBLİOQRAFİYA


**Azərbaycan dilində**

1. Səfər Qiyasi.Təbriz Ərk Qalası – İslam. İslam dünyasının ən böyük mehrabı. Top Memarinq və şəhər salma Bakı, 2002.
2. S.M. Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı. 1982.
3. Şamil Fətullayev.Snetamiyyənin şəhərsalma Məgami, "Körpü", Təbriz, N36, 2002.

**Rus dilində**

4. Агаев С.И. Иран в прошлом и настоящем. Изд-во «Наука». Главная редакция восточной литературы Москва, 1981, с. 12, 27, 29
5. Азимов И. Росписи Узбекистана. Изд-во литературы и искусства имени Гафура Гуляма. Ташкент, 1887,с.34.
6. Алиханов-Аварский М. В гостях у шаха. Очерки Персии. Тифлис, 1898, с.48.
7. Анри де Моран. История декоративно-прикладного искусства от древнейших времен до настоящих дней. Пер.с француз. Москва, «Искусство», 1982, с.135.
8. Бартенев И.А., Батажкова В.Н. Русский интерьер ХУШ-XIX веков. Ленинград. Стройиздат. Ленинградское отделение, 1977 ,с.20.
9. Баумгартен. Поездка по восточной Персии в 1894.1896,с.6.
10. Баргольд В.В. Историко-географический обзор Ирана, т.УП. Изд-во «Наука». Главная редакция восточной литературы. Москва, 1971, с.169.
11. Белозерсквй Е, Письма из Персии. СПб 1886, с.24-27
12. Берар В. Персия и персидская смута. Пер.с англи. СПб.,1887, с.57, 58, 86
13. Березин И.Н. Путешествие по Северной Персии. Казань,1852.
14. Богданов Л.Ф.Персия.1909, с.11.
15. Бретаницкий Л.С.,Веймарн Б.В. Искусство Азербайджана 1У-1УШ вв. Изд-во «Искусство» Москва, 1976, с.
16. Брунов Н.И. История архитектуры, очерки, т.1. Москва, 1937, с.300.
17. Брунов н.и. Памятники Афинского акрополя. Парфенон и Эрехгейон. Москва «Искусство», 1973, с.6.
18. Воронина В.Л. Архитектура Ирана/Ш до н.э.- УП н.э./. Всеобщая история архитектуры, т.1. Государственное изд. литературы по строительству, архитектуре и строительным материалам. Москва, 1958, с.282, 546.

19. Верман Карл. История искусства всех времен и народов, Т.З.Пер. с немецкого под редакцией Д.В. Айналова. СПб,1910.
20. Геродот. История в девяти книгах. Изд-во «Наука». Ленинградское отделение. Ленинград,1978, с.52.
21. Глазычев В.Л. Эволюция творчества в архитектуре. Москва. Стройиздат,1986, с.171.
22. Гус В. Ванбик. Арки и своды в древней архитектуре Ближнего Востока. В мире науки. Журнал _№ _ 9, сентябрь, 1987, с.68.
23. Грюнебаум фон Г.Э. Классический ислам. Очерки истории. 600-1258. Изд-во «Наука». Главная редакция восточной литературы Москва, 1986, с.94.
24. Гутнов В., Глазычев В. Мир архитектуры. Москва «Молодая гвардия», 1990
25. Денике Б.П., проф. Искусство Востока. Казань, 1923, с.238
26. Денике Б.П., проф. Искусство Средней Азии. Центральное изд-во народов СССР. Москва, 1927, с.27.
27. Денике Б.П., проф. Живопись Ирана. Государственное изд-во. «Исскуство» Москва. 1938, с.135,153.
28. Джамиле Гасанзаде. Зарождение и развитие тебризской миниатюрной живописи в конце XIII – начале XV веков. Баку,1999,с.6.
29. Дмитриева Н.А. Краткая история искусств Москва»Искусство».1988, с.215.
30. Жаклин Боже-Гарнье, Жорж Шабо. Очерки географии городов. Перев. с францз. Изд-во «Прогреес" Москва, 1967. с.89.
31. Иконников А.В. Функция, форма, образ в архитектуре. Москва «Стройиздат», 1986, с.106.
32. Иконников А.В. Искусство, среда, время. Эстетическая организация городской среды. Москва. «Советский художник-». 1985 с.25
34. Каджар Чингиз. Каджары. Изд-во XXl YNE Баку, 2001, с.79.
35. Каплун А.И. Стиль и архитектура. Стройиздат, Москва,1985, с.26.
36. Каптерова Т.П. Тебризская школа миниатюры. - В книге Всеобщая история искусства, т.П, книга Xl. Москва, 1961, с.117.
37. Каптерова Т.П. О некоторых проблемах средневекового искусства арабо-мусульманских народов. Советское искусствознание 1980. Вышуск 1. Москва, 1981, с.176-177.
38. Каптерова Т.П. Искусство стран Магриба. Средние века. Новое время. Москва, 1988, с.l 00,108. «Искусство»
39. Каптерова Т.П., Виноградова Н.А. Искусство средневекового Востока. «Детская литература» Москва, 1989, с.83.
40. Корф Ф,барон. Воспоминание о Персии.1834-1835.СПб.,1839,с.290.
41. Кузнецова Н.А. Иран в первой половине XIX века. Изд-во «Наука». Главная редакция восточной литературы. Москва, 1983, с.9,83,125
42. Луконин В.Г. Искусство древнего Ирана. «Искусство» Москва,1977, с.12,183.
43. Луконин В.Г. Древний и Средневековый Иран. Очерки истории культуры. Главная редакция восточной литературы. Москва, 1987, с.90.
44. Ломницкий /Раджэп/ С. Персия и персы. Эскизы и очерки С.Ломницкого. 1898-1899-1900 гг. СПб., 1902, с.66.
45. Мак-Грегор. Путешествие по северо-восточным провинциям Персии. 1882.

46. Мамедзаде К.М. Микаэль Усейнов - народный архитектор СССР. Элм. Баку, 1989 ,с. 76.
47. Мец А. Мусульманский ренессанс. Изд-во «Наука». Главная редакция восточной литературы. Москва, 1966, с.324.
48. Миллер А. Караванные пути Мешхеда в Сеистан.
49. Огранович И.А. Материалы для географии Персии. 1876.
50. Пигулевская н.в. Города Ирана в раннем Средневековье. Москва-Ленинград, 1956.
51. Питулевская Н.В., Якубовский А.Ю., Петрутевский И.П., Строева Л.В., Беленицкий А.Л. История Ирана с древнейших времен до конца XVIII века. Изд-ие Ленинградского университета, 1959, с.323,327,329,
52. Путаченкова Г.А. Из художественной сокровищницы Среднего Востока. Изд-во литературы и искусства имени Гафура Гуляма. Ташкент, 1987, с.172.
53. Раллев А.Б. История архитектуры развивающихся стран. Киев. «Вище школа», 1986, с.45.
54. Рауш фон Траубенберг П.А. Персия, география и статистика. 1898.
55. Саламзаде А.В. История архитектуры Азербайджана XVI-XIX вв. Изд-во АН Азербайджанской ССР. Баку, 1964, с 80.
56. Смирнов К. Персы. Этнографмческий очерк. 1917.
57. Султанзаде А. Современная Персия. 1922.
58. Уильбер д. Персеполь. Археологические раскопки персидских царей. Перев. с англий, Москва, 1977, с.22, 27
59. Фатуллаев Ш.С. Жилые дома в застройке городов Азербайджана на рубеже XIX-XX вв. Изд-во АН Азербайджанской ССР. Баку,1963, с.21.
60. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX-начала хх века. Ленинград. Стройиздат. Ленинградское отделение, 1986, с.139.
61. Фатуллаев Ш.С. Градостроительство столичных центров Ирана. Архитектура и искусство Ближнего и Среднего Востока. Материалы Всесоюзной конференции. Баку, «Элм», 1989, с.10.
62. Фатуллаев Шамиль. «Касри Каджар». Архитектура и искусство Ближнего и Среднего Востока. Краткое содержание докладов Международной конференции, т.П, Баку, 1992, с.334.
63. Фатуллаев-Фигаров Ш.С. Религиозные центры Ирана. Ардебиль. Сборник «Архитектура и градостроительство». Издание МААСВ. Баку, 2000, №2, с.66.
64. Фатуллаева Нигяр. Исфахан-памятник градостроительногоис-кусства Ирана. Сборник «Архитектура и градостроительство». Издание МААСВ. Баку, 1988, №1, с.84
65. Фатуллаев Ш.С. "Градостроительство ислама на примере Баку». Известия по архитектуре и искусству. Баку, 1998, №3, с.95.
66. Фатуллаева Нигяр. «Генезис дворца Чехелъ-Сутун в Исфахане» Материалы конференции посвященная 75-тию крупного тюрколога, востоковеда, доктора филологических наук, профессора Вагифа Имамали оглы Асланова. Национальная АН Азербайджана, Институт языкознания имени Насими. Баку, 2003, с. 325.

67. Фатуллаева Нигяр. «Дворец Али-Капу в Исфахане - символ государственной власти Сефевидской державы.» Материалы конференции посвященная 75-тию крупного тюрколога. востоковеда, доктора филологических наук, профессора Вагифа Имамали оглы Асланова. Национальная АН Азербайджана, Институт языкознания имени Насими. Баку, 2003, с.331.
68. Фатуллаев-Фигаров Ш.С., Фатуллаева Нигяр. «От Ахеменидов до Каджаров». Архитектура и градостроительство. Сборник Национальной АН Азербайжана, Институт архитектуры и искусства, Международной Академии. Архитектуры стран Востока, отдела Истории архитектуры, градостроительства реставрации. Баку, 2003, с.5.
69. Фатуллаева Нигяр. «Исторические основы развития городов Ирана". Сборник Национальной АН Азербайджана, Института архитектуры и искусства, Международной Академии архитектуры стран Востока, отдела истории, градостроительства и реставрации. Баку, 2003, с.17, №1
70. Ханыков Н.В. Экспедиция в Хорасан. Изд-во «Наука». Главная редакция восточной литературы. Москва, 1973, с. 77,97.
71. Чернозубов Ф. Страна льва и солнца. Военный сборник. 1910, №10.
72. Шитов Г.В. Персия под властью последних Каджаров. Изд-ие АН СССР. Ленинград, 1933, с.229.
73. Шуази О. История архитектуры. Изд-во всесоюзной академии архитектуры . Москва 1937, с.150.
74. Эфендиев Октай. Азербайджанское государство Сефевидов в XVl веке. Изд-во Элм, 1981, с.229.
75. Эфендиев Р.С. Декоративно-прикладное искусство Азербайджана. Изд-во «Ишыг», Баку, 1976.
76. Британский музей. Лондон. Москва «Изобразительное искусство. 1980, с.147.
77. Всеобщая история архитектуры /ВИА/, т.8. Москва, 1969, с.143, 144, 146, 169, 170, 176. Изд-во литературы по строительству.
78. Искусство Ансамбля. Художественный предмет, интерьер, архитектура, среда. Москва, Изобразительное искусство, 1988, с. 182.
79. История иранского государства и культуры, к 2500-летию Иранского государства. Москва, 1971. Изд-во «Наука». Главная редакция восточной литературы, с.83
80. Книга деяний Ардашира, сына Папака. Москва,1987, с.32. Изд-во «Наука» Главная редакция восточной литературы.
81. Культура и искусство народов Средней Азии в древности и средневековье. Москва, 1979. Изд-во «Наука». Главная редакция восточной литературы.
82. Подробный план г.Исфагана снятый посредством сетки и основания вымеренного повторными шагами Корпуса Топографов штабс-капитаном Проскуряковым и прапорщиком того же Корпуса Ограновичем под ведением Генерального Штаба полковника Чириков а в 1851 году /центральный Государственный военно-исторический архив СССР, ф.446, д.136/.

### Xarici dillərdə


85. Aubin E.A. "Ispahan". Reve du monde Musulman. 3 (1970).
86. Arbery A.Y. Shiraz. Persian City of saints and Poets. Norman: Univ. Okla Press, 1960, p.30
87. Bakhtiar R.N. Isfahan the living Museum. 1993.
88. Bakhtiar A. "The Royal Bazar of Isfahan" Iranian studies 7 (1974)
89. Beckeh Rn "The city of Kerman Iran". Erdkunde 20 (1996).
90. Bemont F. Les villed Iran Pris, 1969
91. Benet F. "The ideology of Islam is Urbanization"
92. Bonine M.E. Yazd and its Hinterland. Texas, 1975
93. Burger F. Nasser-Eddin Shah and Modern Persien, 1889
94. Galdiere E. "Zes Palais of Isfahan" Iranian Studies 7 (1974)
95. Chirshman R.Z'art del Iran (Partheset Sassanides). New-York Univ. Press. 1979
96. Gink Karoly – Rubovszky Eva Perrsa muv`esret everreder Gorvina Kiado. Budapest, 1982.
97. Kiani M.Y. Iranian Architecture of the Islams periods. Vol. 2 Tehran, 1989, p. 265
98. Kiani M.У. Iranian Cites. Vol. 3. Тепгап, 1989, p. 426
99. Kiani M.У. Iranian Captials. Teheran, 1995, p. 610
100. Clarke J.I. The Iranian City of Shiraz Series 7. Durham: 1963
101. Clarke J.I. and Clarke B.D. Kermanshah: on Iranian Provincia1 City, Durham, 1969
102. Connele J.Hg. Semnan. Persi an City and Region. London, 1969
103. Costelo V.Z. Kashan. A City and Region of Iran. London; New- York, Bowker, 1979
104 Curzoп G.N. Persia and the persian question, 1982
105. Coste P. Monuments moderne de la Perse. Paris, 1867
106. English P.W. City and villa de lran. University of Wisconsin Press, 1966
107. Ernst 1. Grube. Umeni Sveta Islamske Umenu. Praha. 1973, c. 169
108. Fatullayev Sh.S., Mehryar M., Tehrani F.F., Qadiri B. Pictorial Documents of Iranian Cities in the Gajar period. Tehran, 2000, p. 25.
109. Fatullayev Sh.S. Mosques in Azerbaijan Republic. Cultural Research Bureau Tehran, 1975/1996
110. Flandin Engene. Voyage en Perse. 1840-41.
111. Framton K., Correa C., Robson D. Modrnity and Community: Architecture in the Islamic world. Thames & Hundson the Aga Khan Award for Architecture, p. 56, 58, 60
112. Franz H.G. «Wesensznge Iranische architektur». Akteп des VII. Internationallan kongresses fur Iranische Kunst and Archalogic. Munchen. 10 september 1976, Berlin, 1979
113. Yahya Zoka and Mohammad Semsar. Tehran in illustration, Tehran, 1369, p.115
114. Yaqub Daneshdust. Once there was A Town Called Tabas Cultural Heritage organization. Soronsh Prece. Tehran, 1990, p. 179, 224
115. Lonckhart L. Famous Cities of Iran. Brentford: W. Pearce, 1939
116. Lonckhart L. "Isfahan Royal Central". Asian Journal, 37 (1950)

117. Lonckhart L. Persian Cities. London: Zuzac and Company, 1960
118. Minorsky V. Tehran, Capital pf Persia. Encyclopedia of Islam, Volum 11, 1934.
119. Morgan Dc. Mission scienti fiqueen Perse, Paris, 1894-1895
120. Morgan C. Nasser-Eddin Shah und Modern Persion, 1889
121. Rosen F. Persian in Wort und Bild, 1926
122. Schultz W. Zustande in Heutigen Persien Wiese das Reis buck, 1903
123. Schuster M. The Strangling of Persia, 1912.
124. Serbina C. homes et Choses en Perse, 1882.
125. Soltikoff, Prince Alexis. Vayage en Perse, 1851.
126. Sykes E. Through Persia an a Side Saddle, 1898.
127. Staden D. Qucer things about Persia, 1907.
128. Schafagi S. Die Stadt Tabriz und ihr Hinterland Koln: 1965 tabriz (Markets) Iranian Cities (Special Studies).
129. Schwirer G. Tabriz (Nort West Iran) und der Tabrizer Bazar. Erdkunde, 29 (1972).
130. Stratie Saner, G. Meschhed. Eine stadt Bout am Vaterland Iran. Zeipzigi E. Staneck Verlag, 1937.
131. Sarri F. Ardebil. Grabmoschee des Schech Safi, Berlin, 1925.
132. Sultanzade H. Facades of Tehran buildings. From the transitional architecture periods, Tehran 1373 (1994).
133. Sultanzade H. Tebriz A Solid Corners fone of Iranian Architecture. Published by Cultural Research Bureau, Tehran, 1376 (1997), p. 184.
134. Pope Arthur Upham. Persiam Architecture. Isfahan, 1995
135. Wilber Donald N. The architecture of Islamic Iran.
136. Wilber Donald N. Persian Gardens and Garden Pavilions, 1962.
137. Ganjnameh Cyclopedia of Iranian Islamic Architecture Volume 1 Mansions of Kashan. Tehran, 1996.
138. Ganjnameh. Volume 4. Mansions of Esfahan. Tehran, 1998, c.12, 20, 90, 69, 71
139. Iranian house. Tehran, 1998, p. 28, 36, 38, 50, 58, 82, 83, 92, 93
140. New Life-Old Structure A Selection of Valuable Structures. Tehran, c.1,2,3 (1992).
141. Isfahan the City of Light. British museum 6 may-11 july 1976.
142. Pierre Esquie. D'architecture eingordres. Paris. Ch. Massin Cie Editeurs.
143. Vivian C. Wood Iran&Iranian, Tehran, 1996, p. 112, 113
144. Kiani M.Y. Iranian Architecture & Town planning A Pictorial record. Teheran, 1993, p. 148.

**İxtisarlar siyahısı**

**ŞÖBMA** - Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyası.
**ÜMT** - Ümumi Memarlıq Tarixi.

# MÜNDƏRİCAT


**Müəllifin ön sözü** ........ **4**

**I BÖLMƏ. İRAN ŞƏHƏRLƏRİNDƏ ŞƏHƏRSALMA** ........ **11**
Fəsil 1. İran şəhərlərinin tarixi inkişafının əsasları ........ 12
Fəsil 2. Paytaxt şəhərlərin salınması ........ 23
Fəsil 3. İranın dini mərkəzləri ........ 103
Fəsil 4. Əyalətlərin mərkəzləri ........ 130
Fəsil 5. Orta üslublu şəhərlər ........ 142
Fəsil 6. İranın kiçik şəhərləri ........ 157
Fəsil 7. Dənizin sahilindəki şəhərlər ........ 173

**II BÖLMƏ. İRANIN YAŞAYIŞ VƏ SARAY MEMARLIĞI** ........ **185**
Fəsil 1. Cənubi Azərbaycan memarlığının dialektikası. İmarətlərin inkişafının ümumi müddəaları ........ 186
Fəsil 2. Qacarlar dövrünün Tehran sarayları ........ 220
Fəsil 3. Təbriz imarətləri. Tipoloji təsnifat ........ 253

**III BÖLMƏ. MÜLKİ VƏ DİNİ TİKİLİLƏR** ........ **305**
Fəsil 1. Mülki tikililərin morfologiyası ........ 306
Fəsil 2. Təbriz bazarı - memarlıq-planlaşdırma kompleksi və şəhərin ibadət tikililəri ........ 313

**Xülasə** ........ **345**

**Biblioqrafiya** ........ **349**

www.eastwest.az
www.fb.com/eastwest.az

Təqdim olunmuş materiallara uyğun surətdə
"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Çapa imzalanmışdır __.__.2013. Formatı 70x90 1/16
Ofset çap üsulu. Fiziki çap vərəqi 22,25
Sifariş № 13300. Tiraj 1000